LÜĞƏT VƏ ENSİKLOPEDİYALAR

Farsca
Azərbaycanca

فرهنگ
فارسی-آذربایجانی

(آ - ی)

Lüğətə
təxminən 35000 söz
və söz birləşməsi daxil edilmişdir

411152
F22

FARSCA-AZƏRBAYCANCA

LÜĞƏT

فرهنگ
فارسی-آذربایجانی

(ا - ی)

252304

LÜĞƏTƏ TƏXMİNƏN 35000 SÖZ VƏ SÖZ BİRLƏŞMƏSİ DAXİL EDİLMİŞDİR

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ŞƏRQ-QƏRB

BAKI 2007

Tərtib edənlər:

Möhsün Nağısoylu
filologiya elmləri doktoru

Əkrəm Bağırov
filologiya elmləri namizədi

Arif Ramazanov

Şəhla Abdullayeva

Redaktoru və
ön sözün müəllifi:

Möhsün Nağısoylu
filologiya elmləri doktoru

ISBN 978-9952-34-110-2

494.36139155-dc22
Azərbaycan dili – Lüğətlər – Fars dili

Farsca-azərbaycanca lüğət.
Bakı, "Şərq-Qərb", 2007, 640 səh.

© "Şərq-Qərb", 2007

ÖN SÖZ

Fars dili qədim zamanlardan bəri Yaxın və Orta Şərqdə geniş yayılaraq böyük bir coğrafi məkanda yaşayan müxtəlif xalqlar arasında ünsiyyət vasitəsi olmuşdur. Müsəlman Şərqinin dahi söz ustadlarından sayılan Əbülqasim Firdovsi və Ömər Xəyyam, Nizami Gəncəvi və Mövlana Cəlaləddin Rumi, Sədi Şirazi və Hafiz Şirazi ölməz sənət əsərlərini bu dildə yazıb-yaratmışlar. Fars dili ilkin orta yüzilliklərdən başlayaraq, demək olar ki, bütün müsəlman Şərqində daha çox şeir, poeziya dili kimi tanınmış və bu məsələ ilə bağlı hətta belə bir deyim də yaranmışdır: "*...farsi şəkər əst, torki honər əst*" (fars dili şirin-şəkərdir, türk dilində yazmaq isə çətindir – hünərdir). Müsəlman Şərqi ölkələrində yaşayan və milliyyətcə fars olmayan bir sıra digər xalqların nümayəndələrinin (məsələn, *Nizami Gəncəvi, Mövlana Cəlaləddin Rumi, Əmir Xosrov Dəhləvi* və b.) poetik əsərlərini fars dilində yazmaları məhz bu amillə bağlıdır.

Fars dilinin tarixən ən çox yayıldığı Şərq ölkələrindən biri də Azərbaycan olmuşdur. Azərbaycanla İranın istər coğrafi baxımdan yaxınlığı, istərsə də ölkələrimiz arasında olan dini, ictimai-siyasi və elmi-ədəbi-mədəni bağlılıq bu məsələdə mühüm rol oynamışdır. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, orta yüzilliklərdən başlayaraq XX əsrin əvvəllərinədək Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən mollaxana və mədrəsələrdə başlıca dərs vəsaitlərindən biri Şərqin böyük söz ustadlarından sayılan dahi İran şairi Sədi Şirazinin məşhur "Gülüstan" kitabı olmuşdur. Keçən yüzillikdə Azərbaycan keçmiş Sovetlər Birliyinin tərkibində olduğu dönəmdə də ölkəmizdə fars dilinə böyük önəm verilmiş və istər ali təhsil ocaqlarında, istərsə də ayrı-ayrı orta məktəblərdə fars dili müstəqil fənn kimi geniş tədris olunmuş, ölkəmizdə bir sıra görkəmli iranşünas mütəxəssislər yetişmişlər.

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra İran İslam Respublikası ilə mövcud olan ictimai-siyasi və elmi-ədəbi-mədəni əlaqələr daha da genişlənmiş və yeni müstəvidə, birbaşa şəkildə – müstəqil dövlətlər səviyyəsində inkişaf etməyə başlamışdır ki, bunun da nəticəsində ölkəmizdə fars dilinin öyrənilməsinə olan ehtiyac və zərurət daha böyük aktuallıq qazanmışdır. Hazırkı "Farsca-azərbaycanca lüğət" də məhz belə bir zərurətdən yaranmış və onun məntiqi nəticəsi olaraq ərsəyə gətirilmişdir. Qeyd edək ki, Azərbaycanda vaxtilə bu sahədə müəyyən bir təc-

rübə olmuşdur. Belə ki, hələ 1945-ci ildə Y.Mirbabayevin tərtib etdiyi kiçikhəcmli "Müxtəsər farsca-azərbaycanca lüğət" nəşr olunmuşdur. Ölkəmizdə fars dilinin tədrisi sahəsində mühüm xidmətləri olan professor Nəyyerzaman Səqəfinin (Hatəminin) tərtib etdiyi və 1999-cu ildə Tehranda "Naşer" nəşriyyatı tərəfindən çap edilmiş ikicildlik "Farsca-azərbaycanca lüğət" də bu sahədə görülən dəyərli işlərdən biri kimi qeyd olunmalıdır. 60 minə yaxın söz, ifadə və frazeoloji birləşməni əhatə edən və hər cildi 1000 səhifədən artıq olan bu lüğətdə idiomatik ifadələrə xüsusilə geniş yer verilmişdir.

Hazırkı lüğət isə ilk növbədə özümlülüyü ilə, daha doğrusu, yığcamlığı və praktik keyfiyyətləri ilə seçilir. Lüğətin tərtibi zamanı əsas götürülən bu amilləri nəzərə alaraq, çağdaş fars ədəbi dilinin rəngarəng və zəngin lüğət tərkibindəki mövcud sözlər üzərində bir növ seçmə əməliyyatı aparılmışdır. Bu işdə başlıca diqqət seçilən sözlərin müasir fars ədəbi dilində ümumişləkliyinə, işlənmə dərəcəsinə yönəldilmişdir. Əsasən klassik fars ədəbi dili üçün səciyyəvi olan bir sıra sözləri və danışıq dilində çox işlənən ayrı-ayrı söz və ifadələri də lüğətə daxil etmək məqsədəuyğun sayılmışdır. Bundan əlavə çağdaş fars ədəbi dilində işlənən bir sıra yeni sözlər də, əsasən, internet səhifələrindən bəhrələnməklə ilk dəfə lüğətə daxil edilmişdir. Məsələn:

بالابر [balabər] 1) lift; 2) qaldırıcı kran
چاپگر [çapgər] printer
رایانه [rayane] kompyuter
نمابر [nəmabər] faks
نماهنگ [nəmahəng] klip və s.

Lüğətdəki ظ، ط، ض، ص، ش، س، ث ، ت ، پ، ب، ا، آ hərfləri ilə başlayan sözlərin lüğətini filologiya elmləri doktoru Möhsün Nağısoylu;
ع، غ، ف، ق، ک، گ، ل hərfləri ilə başlayan sözlərin lüğətini filologiya elmləri namizədi Əkrəm Bağırov; ج، چ، ح، خ، د، ذ، ر، ز، ژ hərfləri ilə başlayan sözlərin lüğətini iranşünas Arif Ramazanov; م، ن، و، ه، ی hərfləri ilə balayan sözlərin lüğətini isə iranşünas Şəhla Abdullayeva tərtib etmişdir.

LÜĞƏTİN TƏRTİBİ PRİNSİPLƏRİ

1. Lüğət fars əlifbası prinsipi ilə tərtib edilmişdir. Fars dilinin izahlı lüğətlərinə uyğun olaraq آ (mədli əlef) və ا (mədsiz əlef) ayrıca hərf kimi qəbul edilmişdir. Məsələn:

آب [ab]
ابر [əbr]

2. Lüğətin tərtibində rus şərqşünası Y.A.Rubinçikin redaktorluğu ilə hazırlanmış "Farsca-rusca lüğət"də (Moskva, 1970) tətbiq edilmiş qayda və prinsiplər əsas götürülmüşdür.

3. Bütün baş sözlərin yanında böyük mötərizədə onların tələffüz şəkilləri də verilmişdir. Məsələn:

دوستی [dusti]

4. Ərəbmənşəli isimlərin cəm şəkli baş sözlərdən sonra tələffüz şəkli ilə verilmişdir. Məsələn:

حرف [hərf] *c.* حروف [horuf]

5. Belə isimlərin cəm şəkli də, əsasən, baş söz kimi verilmiş və onların tək şəkli də göstərilmişdir. Məsələn:

اخبار [əxbar] *t.* خبر

Bu cür hallarda cəm şəklində olan sözlər yalnız fərqli mənalar daşıdıqda onların mənaları göstərilir.

6. Bütün qaydasız fellərin yanında onların kökləri də tələffüz şəkli ilə verilmişdir. Məsələn:

باختن [baxtən] *k.* باز [baz]

7. İki və daha çox şəkildə tələffüz edilən sözlərdə onların hər bir tələffüz forması göstərilir. Məsələn:

کتم [ketm // kətm]

8. Omonim səciyyəli sözlərin hər biri lüğətə baş söz kimi daxil edilmiş və onlardan sonra Roma rəqəmi qoyulmuşdur. Məsələn:

شیر [şir] I aslan, şir
شیر [şir] II süd

9. Baş sözlər birləşmə daxilində işləndikdə onların əvəzinə tilda (~) işarəsi qoyulmuşdur. Məsələn:

گرم [gərm]; ~ آب•

10. İzafət birləşməsi hər bir sözün əvvəlində, eləcə də tilda (~) işarəsinin qabağında ulduz (•) işarəsi ilə verilir. Məsələn:

•کشور آزاد

11. Bütün frazeoloji birləşmələr lüğət maddəsinin son hissəsində verilir və onların qarşısında romb (◊) işarəsi qoyulur. Məsələn:

◊چشم پوشیدن göz yummaq, güzəştə getmək

Belə birləşmələrin, bir qayda olaraq, dilimizdəki qarşılıqları verilir.

12. Əgər baş söz müstəqil şəkildə deyil, yalnız birləşmə tərkibində işlənirsə, onun qarşısında [:] (qoşa nöqtə) qoyulur, sonra isə söz birləşməsi verilir. Məsələn:

گونه ای [qunei]: ~ استخوان•

13. Söz ortasında və sonda gələn ع [əyn] hərfi ['] (apostrof) işarəsi ilə verilmişdir. Məsələn:

بعضی [bə'zi], منع [mən']

Söz ortasında işlənən "ء" [həmzə] işarəsi üçün də apostrofdan istifadə edilmişdir. Məsələn:

تأخیر [tə'xir]

14. Söz sonunda "ء" [həmzə] işarəsi qoyulan sözlərin əksəriyyətində yeni fars orfoqrafiyası qaydalarına uyğun olaraq, bu işarə buraxılmışdır. Məsələn:

املا [emla], بقا [bəğa]

15. Fars dilində ن [nun] hərfi söz ortasında ب [be] hərfindən əvvəl gəldikdə onun ifadə etdiyi [n] səsi [m] səsi kimi tələffüz olunur. Lüğətdə bu qəbildən olan həmin fonetik hadisə nəzərə alınmışdır. Məsələn:

تنبل [təmbəl]

16. گ [ge] hərfi incə saitlərdən əvvəl gəldikdə **g** hərfi ilə, qalın səslərdən əvvəl gəldikdə isə **q** hərfi ilə verilmişdir. Məsələn:

گل [gel]
گل [qol]

17. ق [ğaf] və غ [ğəyn] hərflərinin hər ikisi **ğ** hərfi ilə verilmişdir. Məsələn:

قند [ğənd], غنچه [ğonçe]

18. Yeni fars orfoqrafiyası qaydalarına uyğun olaraq به önqoşması, bir qayda olaraq, sözlərdən ayrı yazılır. Lüğətdə bu qaydaya da əməl edilmişdir. Məsələn:

به من، به خانه

19. Yeni fars orfoqrafiyası qaydalarına uyğun olaraq, əvvəllər ط [ta] hərfi ilə yazılan farsmənşəli sözlər, bir qayda olaraq, ت [te] hərfi ilə yazılmışdır. Onların ط [ta] hərfi ilə yazılış variantı da verilmişdir. Məsələn:

اتاق [otağ]; اطاق [otağ] *bax* اتاق

LÜĞƏTDƏ İSTİFADƏ OLUNMUŞ İXTİSARLAR

anat.	-	anatomiya	*k.t.*	-	kənd təsərrüfatı
as.	-	astronomiya	*kim.*	-	kimya
ata.söz.	-	atalar sözü	*k.z.f.sif.*	-	keçmiş zaman feli sifəti
av.	-	aviasiya	*qram.*	-	qrammatika
bağ.	-	bağlayıcı	*mad.*	-	maddə
biol.	-	biologiya	*mal.*	-	maliyyə
bot.	-	botanika	*məc.*	-	məcazi mənada
c.	-	cəm şəkli	*mif.*	-	mifologiya
coğr.	-	coğrafiya	*miner.*	-	mineralogiya
dilç.	-	dilçilik	*mus.*	-	musiqi
din.	-	dini	*n.*	-	nida
dip.	-	diplomatiya	*riy.*	-	riyaziyyat
el.	-	elektronika	*siy.*	-	siyasət
ədəb.	-	ədəbiyyatşünaslıq	*şahm.*	-	şahmat
əv.	-	əvəzlik	*şair.*	-	şairanə söz
f.	-	fel	*t.*	-	tək şəkli
fəl.	-	fəlsəfə	*tex.*	-	texnika
fiz.	-	fizika	*tib.*	-	tibb
fot.	-	fotoqrafiya	*tar.*	-	tarix
geol.	-	geologiya	*poliqr.*	-	poliqrafiya
hənd.	-	həndəsə	*uş.d.*	-	uşaq dilində
hərb.	-	hərbi	*vulq.*	-	vulqar söz
hüq.	-	hüquqşünaslıq	*zool.*	-	zoologiya
idm.	-	idman			

LÜĞƏTİN TƏRTİBİNDƏ İSTİFADƏ EDİLMİŞ QAYNAQLAR

1. A.Axundov. Azərbaycan dilinin izahlı lüğəti (bircildlik). Bakı, "Elm", 2005.
2. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. Azərbaycan EA-nın nəşriyyatı. Bakı, 1964-1987.
3. Azərbaycan dilinin izahlı lüğəti. 3 cilddə. Bakı, 1997-2000.
4. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, "Şərq-Qərb", 2004.
5. Azərbaycanca-ingiliscə lüğət. Bakı, "Şərq-Qərb", 2006.
6. Azərbaycanca-rusca lüğət. 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.
7. Ə.Ə.Orucov Azərbaycanca-rusca frazeologiya lüğəti. Bakı, "Elm", 1976.
8. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. 2 cilddə. Bakı, "Şərq-Qərb", 2005.
9. İ.Məmmədov, H.Həsənov. Azərbaycan dilinin sinonimlər lüğəti. Bakı, "Yazıçı", 1990.
10. Farsca-azərbaycanca lüğət. 2 cilddə (Tərtib edən Səqəfi (Hatəmi). Tehran, "Naşer", 1999.
11. Rusca-azərbaycanca lüğət, 3 cilddə. Bakı, "Şərq-Qərb", 2005.
12. Персидско-русский словарь, под редакцией Ю.А.Рубинчика, в 2-х томах. Москва, "Советская энсиклопедия", 1970.
13. Б.Мюллер. Персидско-русский словарь, II изд. Государственное издательство иностранных национальных словарей. Москва, 1954.
14. Türkcə-farsca Daşkın sözlüyü. Yazar: Dr. Ali Daşkın. Təbriz, 2006.
15. فرهنگ آذربایجانی – فارسی (ترکی)، بهزاد بهزادی، فرهنگ معاصر، چاپ دوم، تهران، ۱۳۸۲.
16. فرهنگ برگزیده عمید، حسین عمید، چاپ هشتم، تهران، ۱۳۵۴.
17. فرهنگ بزرگ سخن انوری حسن – به سرپرستی حسن انوری، تهران، سخن، ۱۳۸۱، ۸ ج.
18. فرهنگ فارسی، محمد معین– جلدهای ۱-۶، تهران، ۱۳۵۲ .

19. فرهنگ معاصر فارسی، ویراست جدید. غلامحسین صدری افشار، نسرین حکمی، نستران حکمی، فرهنگ معاصر، تهران، ۱۳۸۳.

20. فرهنگ منتخب ترکی، به کوشش دکتر علی مشکینی، گزیدهٔ واژه ها و اصطلاحات ترکی متون ادب فارسی (بیش از ۳۵۰۰۰ واژه)، پور حسین، تهران، ۱۳۸۴.

21. لغت نامه ، علی اکبر دهخدا، تهران ۱۳۴۷.

FARS ƏLİFBASI

Hərflərin səslənməsi	Hərflər	Hərflərin səslənməsi	Hərflər	Hərflərin səslənməsi	Hərflər	Hərflərin səslənməsi	Hərflər
kaf	ک	sad	ص	xe	خ	əlef	آ ، ا
qaf	گ	zad	ض	dal	د	be	ب
lam	ل	ta	ط	zal	ذ	pe	پ
mim	م	za	ظ	re	ر	te	ت
nun	ن	əyn/eyn	ع	ze	ز	se	ث
vav	و	ğəyn	غ	je	ژ	cim	ج
ha	ه	fe	ف	sin	س	çe	چ
ya/ye	ی	ğaf	ق	şin	ش	he	ح

آ

آ [əlef // əlefəməmdude // əlefəmə-dar] fars əlifbasının birinci hərfi; əb-cəd hesabında 1 rəqəmini ifadə edir

آب [ab] 1) su; ~ آشامیدنی (خوردن، خوردنی) içməli su; ~ چشمه bulaq suyu; ~ حیات (بقا، حیوان، زندگی) dirilik suyu; ~ دهان ağız suyu, tü-pürcək; ~ دیده göz yaşı; ~ زیرزمینی torpaq suları, yeraltı sular; 2) şirə, meyvə suyu; ~ انار nar şirəsi; 3) hə-lim; ~ چلو düyü həlimi; 4) cilalılıq, parlaqlıq; şəffaflıq; ~ دندان dişin parlaqlığı; 5) abır, həya; *bax* آبرو; ~ آوردن su çəkmək, sulanmaq; qabar-maq, şişmək; ~ دادن a) su vermək; b) sulamaq; suvarmaq; c) cilalamaq, parıldatmaq (*metalı*); ~ رفتن daral-maq, gödəlmək, kiçilmək (*yuyul-muş paltar*); ~ زدن su çiləmək, su səpmək, su vurmaq; ~ شدن a) ərimək, su olmaq (*qar, yağ*); b) həll olmaq (*maddə*); c) *dan.* utanmaq, qızarmaq; ~ کردن a) əritmək; b) həll etdirmək (*maddəni*); ~ کشیدن a) suya çəkmək, yaxalamaq (*paltarı*); yu-maq (*qabı*); b) su çəkmək (*quyu-dan*); ◊~ از آتش بیرون آوردن od par-çası olmaq; daşdan çörək çıxarmaq; ~ از آتش بیرون *bax* ~ از آهن جدا کردن ~ با (به) غربال پیمودن;آوردن xəlbirlə su daşımaq; ~ به دهن گرفتن ağzına su alıb oturmaq; ~ در آسیاب کسی ریختن birinin dəyirmanına su tök-mək; kimisə qızışdırmaq; ~ در چشم (دیده) نداشتن üzünün suyu tökülmək, abır-həyası qalmamaq; ~ زیرکاه *bax* آب زیرکاه

آبا [aba] atalar, ata-baba

آباد [abad] abad; ~ شدن abad ol-maq; ~ کردن abad etmək

آبادان [abadan] abadlıq, abad yer

آبادانی [abadani] 1) abadlıq işləri; 2) abadlıq, abad yer

آبادسازی [abadsazi] *bax* آبادانی **1)**

آبادگری [abadgəri] *bax* آبادانی **1)**

آبادی [abadi] 1) kənd; 2) *bax* آبادانی **2)**

آبان [aban] aban (*İran şəmsi ilinin səkkizinci ayı: 23 oktyabr - 21 no-yabra uyğun gəlir*)

آب انبار[abənbar] su anbarı

آبا و اجداد [abavoəcdad] əcdad, atalar və babalar

آب باز [abbaz] 1) üzən, üzgüçü; 2) dalğıc

آب بازی [abbazi] çimmə; üzmə; üzgüçülük

آب پاش [abpaş] susəpən, suçiləyən

آب پاشی [abpaşi] suvarma, su səp-mə, ~ کردن suvarmaq

آب پز [abpəz] soyutma, suda bişi-rilmiş; ~ سیب زمینی suda bişirilmiş kartof

آب تنی [abtəni] çimmə; ~ کردن çimmək

آب جو [ab(e)cou] pivə

آب جوش [ab(e)cuş] qaynar su

آبخور [abxor] 1) su içilən yer; na-xır bulağı, suvat; bulaq başı, çay kənarı; 2) tale, qismət, alın yazısı

آبخورد [abxord] *bax* آبخور

آبخوری [abxori] su qabı, su içmək üçün qab

آبخیز [abxiz] su yolu; çay sularının töküldüyü yer

آبداده [abdade] 1) suvarılmış; 2) bərkimiş; ~ فولاد bərkimiş polad

آبدار [abdar] 1) sulu, şirəli; ~ میوه şirəli meyvə; 2) kəsərli, tutarlı, tə-

sirli (*söz*); 3) cilalı, parlaq, parıldayan (*metal*); 4) bərkimiş (*metal*); ~ تیغ bərkimiş polad qılınc; *məc.* iti qılınc

آبدان [abdan] 1) çən (*maye və qaz üçün*); 2) *anat.* sidik kisəsi

آبدزدک [abdozdək] 1) *zool.* danadişi; 2) *tib.* şpris; 3) damcıtökən

آبدست [abdəst] 1) əl-üz yumaq üçün su; 2) dəstəmaz

آب دوغ [abduğ] ovduq, doğramac

آب دهان [abdəhan] ağız suyu, tüpürcək, selik; انداختن ~ tüpürmək

آب دهن [abdəhən] *bax* آب دهان

آبدیده [abdide] 1) yaş, islanmış; 2) bərkimiş, sınaqdan çıxmış

آبراه [abrah] 1) [illegible]; kanal

آبراهه [abrahe] *bax* آبراه

آبرو [abrou] *bax* آبراه

آبرو [ab(e)ru] abır, həya; şərəf, ləyaqət, hörmət

آبرودار [ab(e)rudar] *bax* آبرومند 1)

آبرومند [ab(e)rumənd] 1) abırlı, həyalı; 2) namuslu, şərəfli, ləyaqətli

آبرومندی [ab(e)ruməndi] abırlılıq; şərəf, ləyaqət; düzlük, təmizlik

آبریز [abriz] 1) *bax* آبخیز; 2) çirkli sular tökülən yer

آبزی [abzi] suda yaşayan canlılar

آب زیرکاه [abzir(e)kah] saman altından su yeridən, çoxbilmiş, bic; hiyləgər

آبستن [abestən] hamilə; شدن ~ hamilə olmaq

آبستنی [abestəni] hamiləlik

آبشار [abşar] şəlalə

آبشخور [abeşxor] 1) *bax* آبخور; 2) ruzi; qismət, tale

آب شدنی [abşodəni] əridilə bilən, həll olunan (*maddə*)

آبغوره [ab(e)ğure] abqora, yetişməmiş üzümün şirəsi; گرفتن (چلاندن) ~ a) abqora düzəltmək; b) *dan.* ağlamaq, göz yaşı tökmək

آبکش [abkeş] 1) aşsüzən, süzgəc; 2) suçu, sudaşıyan; suçıxaran, suçəkən (*quyudan*)

آبکشی [abkeşi] 1) su çəkmə; su götürmə; 2) suya çəkmə (*paltarı*); yaxalama (*qabı*); کردن ~ a) su çəkmək; su götürmək; b) suya çəkmək (*paltarı*); yaxalamaq (*qabı*)

آبکی [abəki] 1) sulu, duru; 2) yağsız; کردن ~ sulu etmək

آبگاه [abqah] 1) yan, böyür (*insanda*); 2) gölməçə; su anbarı

آبگردان [abgərdan] çömçə; tayqulp, parç

آب گرم [abgərm] isti mineral su

آب گرم کن [abgərmkon] suqızdıran, suqızdırıcı

آبگوشت [abquşt] piti, bozbaş

آبگون [abqun] 1) şəffaf; 2) abı, mavi, göy

آبگونه [abqune] maye, duru

آبگینه [abgine] 1) şüşə, büllur; 2) güzgü

آبله [ab(e)le] 1) *tib.* çiçək; خونی ~ qara çiçək; 2) qabar, suluq; در ~ آوردن çiçək çıxarmaq; کوبیدن ~ çiçək peyvəndi vurmaq

آبله دار [ab(e)ledar] çopur; çiçək çıxarmış

آبله کوبی [ab(e)lekubi] *tib.* çiçək döymə, çiçək peyvəndi vurma; کردن ~ çiçək peyvəndi vurmaq

آب لیمو [ablimu] limon şirəsi

آبمالی [abmali] suya çəkmə, yaxalama; کردن ~ suya çəkmək, yaxalamaq

آب مروارید [ab(e)morvarid] *tib.* mirvari suyu, katarakt (*göz xəstəliyi*)

آب معدنی [abemə'dəni] mineral su

آب مقطر [abemoğəttər] distilə edilmiş su

آب میوه [ab(e)mive] meyvə şirəsi, meyvə suyu

آب میوه گیر [abmivegir] *bax* آب میوه گیری

آب میوه گیری [abmivegiri] şirəçıxardan, şirəsıxan (*cihaz*)

آب نبات [abnəbat] nabat; konfet, şirni

آبنوس [abnus] abnus, qaraağac

آب و خاک [aboxak] 1) torpaq, ərazi, ölkə; 2) vətən

آب و رنگ [abورəng] 1) [illegible], təravət (*üzün, sifətin*); 2) sulu boya; 3) parıltı, parıldama; دادن ~ a) parıldamaq; b) canlandırmaq (*işi*); ~ داشتن gözəl olmaq, təravətli olmaq

آب و گل [abogel] 1) xasiyyət, insan təbiəti; 2) su və quru; 3) mülk, torpaq sahəsi; ◊ ~ خانه bu dünya; از ~ درآمدن böyümək, həddi-büluğa çatmaq

آبونه [abune] abunə, abunə olma; شدن ~ abunə olmaq (*qəzetə, jurnala və s.*)

آب و هوا [abohəva] 1) iqlim, abhava; 2) hava

آبی [abi] 1) göy, mavi; آسمانی ~ səma rəngi; 2) *dan.* sudaşıyan (*adam*)

آبیار [abyar] suçu, əkin suvaran; suvarma mütəxəssisi

آبیاری [abyari] suvarma; کردن ~ suvarmaq

آپارات [aparat] dəzgah, aparat, alət

آپارتمان [apart(e)man] bina, mənzil; دربست ~ ayrıca mənzil

آپارتمان سازی [apart(e)mansazi] mənzil tikintisi

آتش [ateş // ateş] od, alov; yanğın; جنگ ~ müharibə alovu; افروختن ~ a) od vurmaq, yandırmaq; b) fitnə törətmək; ara qızışdırmaq; زدن ~ (کردن) *bax* افروختن ~ a); گرفتن ~ od tutmaq, yanmaq; نشاندن ~ yanğın söndürmək; ◊ از چشم کسی پریدن ~ gözündən od tökülmək, bərk qəzəblənmək; به دل (جان) کسی زدن ~ a) kiminsə qanını qaraltmaq; b) kimdəsə mərhəmət hissi oyatmaq; پشت دست خود گذاشتن ~ tövbə etmək; ibrət dərsi almaq; را دامن ~ زدن odun üstünə yağ tökmək

آتش افروز [ateşəfruz] qızışdıran, qızlşdırıcı; alovlandıran; yandıran

آتش افروزی [ateşəfruzi] yandırma, alovlandırma; qızışdırma, təhrik etmə

آتشبار [ateşbar] 1) od yağdıran; 2) *hərb.* batareya

آتشباری [ateşbari] od yağdırma, odlu silahlardan aramsız atəş açma

آتشبازی [ateşbazi] atəşfəşanlıq, fişəng atma

آتش بس [ateşbəs] atəşkəs

آتش پاره [ateşpare] 1) od parçası, qığılcım; 2) *məc.* zirək, cəld, diribaş

آتش پرست [ateşpərəst] atəşpərəst, oda sitayiş edən

آتش پرستی [ateşpərəsti] atəşpərəstlik, oda sitayiş etmə

آتش چرخان [ateşçərxan] *bax* آتش گردان

آتش خانه [ateşxane] 1) kürə; soba; 2) ocaqxana

آتشدان [ateşdan] od qabı; kürə; manqal

آتشزا [ateşza] odyağdıran, odsaçan; odpüskürən; بمب ~ odyağdıran bomba

آتش زبان [atəşzəban] itidilli, odlu-alovlu danısan, dilikəsərli
آتشفشان [atəşfeşan] vulkan
آتشکده [atəşkədə] atəşgah, atəşpərəstlərin ibadət yeri
آتشگاه [atəşqah] *bax* آتشکده
آتش گردان [atəşgərdan] simli deşikli qab (*kömürü yandırmaq üçün*)
آتش گیر [atəşgir] oddan təhlükəli, tezalışan; yanacaq
آتشگیره [atəşgire] maşa, od götürən alət
آتش نشان [atəşneşan] yanğınsöndürən
آتش نشانی [atəşneşani] yanğınsöndürən idarə; ~ ماشین yanğınsöndürən maşın
آتشین [atəşin] 1) yanan, yanar; odlu, alovlu, atəşin; ~ نطق alovlu nitq; ~ نگاه odlu baxış; 2) ehtiraslı,

آچار پیچ گوشتی [açarpiçquşti] vintaçan, vintburan
آخ [ax] *n.* ax, ox, of
آخر [axer // axər] *c.* اواخر [əvaxer] 1) son, axır; 2) *dan.* axı
آخر [axor] *bax* آخور
آخرالامر [axeroləmr] nəhayət; axırda, nəticədə, sonda; son olaraq
آخربین [axerbin] *bax* دوراندیش
آخرت [axerət] axirət, o dünya
آخردست [axerdəst] *dan.* sonda, axırda, nəticədə
آخرسر [axersər] *dan. bax* آخردست
آخرک [axorək] *anat.* körpücük sümüyü
آخری [axeri] *bax* آخرین
آخرین [axerin // axərin] sonuncu, axırıncı; ən son; بار ~ sonuncu dəfə; خبر ~ ən son xəbər; مد ~ ən son moda
آخور [axor] axur; ◊ چرب ~ bolluq,

آدمیرال [admiral] admiral
آدمیزاد [adəmizad] adam, insan; insan oğlu, bəşər övladı
آدینه [adine] cümə günü
آذر [azər] 1) od; 2) azər (*İran şəmsi ilinin doqquzuncu ayı: 22 noyabr – 21 dekabra uyğun gəlir*)
آذرخش [azərəxş] ildırım, şimşək, göy gurultusu
آذرگون [azərqun] 1) od rəngli, od kimi; 2) odlu, alovlu; 3) od rəngli; 4) gül; lalə; həmişəbahar
آذوقه [azuğe] azuqə, ərzaq
آذین [azin] bəzəmə, bəzək vermə (*vurma*), zinətləndirmə; بستن ~ (زدن، کردن) bəzəmək, bəzək vermək (*vurmaq*)
آراستگی [arastegi] bəzək, zinət
آراستن [arastən] *k.* (ی) آرا [ara(y)] 1) bəzəmək, bəzək vermək (*vurmaq*);

آرامی [arami] sakitlik, rahatlıq, dinclik
آرامیدن [aramidən] 1) dincəlmək, istirahət etmək; 2) uzanmaq, rahatlanmaq
آرایش [arayeş] 1) bəzək, bəzəmə, zinət; صحنه ~ səhnəni bəzəmə (*dekorasiya*); 2) *hərb.* sıraya düzülmə, nizam, intizam; جنگی ~ hərbi intizam, hərbi qayda; دادن ~ bəzəmək, zinət vermək
آرایشگاه [arayeşqah] bərbərxana, dəlləkxana
آرایشگر [arayeşgər] dəllək; bəzəkçi qadın
آرایه گر [arayegər] dekorator, dekorasiya rəssamı
آرتزین [artez(i)yən] artezian; ~ چاههای artezian quyuları
آرتیکل [artikl] 1) *qram.* artikl; 2) fə-

آرزومندی [ar(e)zuməndi] arzulama, istəmə

آرشیو [arşiv] arxiv

آرم [arm] 1) gerb; 2) nişan, əlamət

آرمان [arman] ümid, arzu, istək; 2) həsrət; peşmançılıq

آرمیدن [arəmidən] *bax* آرامیدن

آرنج [arenc // arənc] dirsək

آروغ [aruğ] gəyirmə, gəyirti

آروق [aruğ] *bax* آروغ

آریایی [aryayi] arilər, ari irqindən olanlar

آز [az] acgözlük, hərislik, tamah

آزاد [azad] 1) azad, sərbəst; 2) müstəqil; 3) açıq; ~ دریای açıq dəniz, azad dəniz; ساختن (کردن) ~ azad etmək; شدن ~ azad olmaq

آزادانه [azadane] azadcasına, azad şəkildə, sərbəst şəkildə

آزادگان [azadeqan] *t.* آزاده

آزادگی [azadegi] 1) azadlıq, azad olma; 2) alicənablıq, mərdlik, xeyirxahlıq; 3) açıqürəklilik

آزادمنش [azadmənəş] azadlıqsevən, azadlıqsevər

آزاده [azade] *c.* آزاد گان [azadeqan] 1) alicənab, mərd, xeyirxah; 2) əsilnəcabətli, kübar, nəcib; 3) azad insan

آزادی [azadi] azadlıq, müstəqillik, istiqlaliyyət

آزادی بخش [azadibəxş] azadlıq, xilaskarlıq; azadlıq bağışlayan; ~ (جنبش) نهضت azadlıq hərəkatı

آزادی خواه [azadixah] azadlıq tələb edən, azadlıqsevən, azadlıqsevər

آزادی خواهی [azadixahi] azadlıq tələb etmə, azadlıqsevərlik

آزادی طلب [azaditələb] *bax* آزادی خواه

آزادی طلبی [azaditələbi] *bax* آزادی خواهی

آزار [azar] 1) əzab, əziyyət; 2) azar, xəstəlik, naxoşluq; 3) inciklik; ~ دادن (رساندن) a) əzab-əziyyət vermək; b) incitmək

آزارگر [azargər] əzablı, əzabverici

آزردگی [azordegi] inciklik; pərtlik, dilxorluq; ağrı, acı; qəm, qüssə, kədər

آزردن [azordən] *k.* آزار [azar]; 1) incitmək, əziyyət vermək; 2) incimək, əziyyət çəkmək

آزرده [azorde] آزردن *f.-nin k.z. f.sif.;* 1) incimiş; pərt, dilxor, kefsiz; 2) qəmli, kədərli

آزرده خاطر [azordexatər] 1) incimiş, incik; 2) qəmli, kədərli

آزرده دل [azordedel] *bax* آزرده خاطر

آزرم [azərm] 1) abır, həya; 2) şərəf, ləyaqət; 3) hörmət, ehtiram; 4) mərhəmət, şəfqət, mehribanlıq; 5) ədalət, insaf; داشتن ~ utanmaq, abırlı olmaq

آزرمجو [azərmcu] 1) utancaq; səmimi; 2) abırlı, həyalı; 3) ədalətli, insaflı, rəhmli

آزرمگین [azərmgin] *bax* آزرمجو **1), 2)**

آزمایش [azmayeş] sınaq, təcrübə, yoxlama; شدن ~ yoxlanılmaq; ~ کردن yoxlamaq, sınamaq

آزمایشگاه [azmayeşqah] laboratoriya

آزمایشگر [azmayeşgər] sınaqçı, sınayan, yoxlayıcı, yoxlayan; خلبان ~ sınaqçı pilot

آزمایشی [azmayeşi] sınaq; sınama, yoxlama; sınayıcı, yoxlayıcı; پرواز ~ sınaq uçuşu

آزماییدن [azmayidən] *bax* آزمودن

آزمند [azmənd] acgöz, tamahkar, həris

آزمندانه [azməndane] acgözlüklə, tamahkarlıqla, hərisliklə

آزمندی [azməndi] acgözlük, tamahkarlıq, hərislik

آزمودگی [azmudegi] təcrübə, səriştə, bacarıq

آزمودن [azmudən] *k.* آزما(ی) [azma(y)] təcrübə etmək, sınamaq, yoxlamaq

آزموده [azmude] آزمودن *f.-nin k.z. f.sif.;* 1) təcrübəli, bacarıqlı, səriştəli; 2) sınanmış, sınaqdan çıxmış

آزمون [azmun] sınaq, sınama, imtahan, yoxlama

آزمونگر [azmungər] *bax* آزمایشگر

آزمونه [azmuně] test

آزوقه [azuğe] *bax* آذوقه

آژانس [ajans] agentlik, nümayəndəlik

آژیدن [ajidən] *bax* آجیدن

آژیر [ajir] 1) siqnal, həyəcan siqnalı; خطر ~ təhlükə siqnalı; 2) ehtiyatlı, sayıq; zirək; دادن ~ həyəcan siqnalı vermək

آس [as] *bax* آسیا [asya]

آسان [asan] asan, sadə; شدن ~ asanlaşmaq; (ساختن) کردن ~ asanlaşdırmaq; گرفتن ~ səthi yanaşmaq

آسانسور [asansor] lift

آسان گوار [asangəvar] tez həzm olunan yemək

آسانگیر [asangir] 1) səhlənkar, başısoyuq; 2) lovğa, təkəbbürlü

آسانی [asani] asanlıq, sadəlik

آسایش [asayeş] dinclik, əminamanlıq, sakitlik, rahatlıq; istirahət; دادن ~ rahat buraxmaq, toxunmamaq; کردن ~ istirahət etmək

آسایشگاه [asayeşqah] sanatoriya

آسایدن [asayidən] *bax* آسودن

آستان [astan] 1) astana, giriş, kandar; 2) ərəfə

آستانه [astane] 1) *bax* آستان; ~ در عید bayram ərəfəsində; 2) ziyarətgah, ziyarət yeri; ~ رضوی (قدیس) İmam Rza (*ə.*) türbəsi (*Məşhəddə*)

آستر [astər] astar; جامه ~ paltarın astarı; لحاف ~ yorğanın astarı; ~ زدن (کردن) astar çəkmək

آستری [astəri] astarlıq; ~ پارچه astarlıq parça

آستین [astin] paltarın qolu; ◊ بالا ~ زدن qollarını çırmalamaq, işə girişmək; بر افشاندن (فشاندن) ~ a) rədd etmək, bəsdəzan[illegible] etmək; بر چیزی کشیدن ~ bir şeydən əl çəkmək; بر گناه کسی کشیدن ~ birinin günahından keçmək

آسفالت [asfalt] asfalt; شدن ~ asfaltlanmaq; کردن ~ asfaltlamaq

آسفالت ریزی [asfaltrizi] asfalt tökmə, asfaltlama

آسفالت کاری [asfaltkari] *bax* آسفالت ریزی

آسفالته [asfalte] asfaltlanmış

آسفالتی [asfalti] *bax* آسفالته

آسم [asm] *tib.* astma; قلبی ~ ürək astması

آسمان [as(e)man] göy, səma; صاف ~ aydın səma

آسمان خراش [as(e)manxəraş] göydələn (*hündür bina*)

آسمان غره [as(e)manğorre] göy gurultusu

آسمانی [as(e)mani] 1) səmavi; اجرام ~ səmavi cisimlər; 2) mavi, açıq-göy; 3) təbii; بلای ~ təbii fəlakət; 4) İlahi; قضای ~ İlahi yazısı, tale, qismət; ◊ سنگ ~ meteorit

آسودگی [asudegi] asudəlik, rahatlıq; یافتن ~ asudə olmaq, rahatlaşmaq, arxayınlaşmaq

آسودن [asudən] *k.* آسا [asa] 1) dincəlmək, istirahət etmək; 2) rahatlaşmaq, arxayınlaşmaq

آسوده [asude] آسودن *f.-nin k.z. f.sif.;* asudə, rahat, sakit; dinc: ساختن ~ (کردن) sakitləşdirmək, rahatlaşdırmaq; شدن ~ sakit olmaq, sakitləşmək, rahatlaşmaq

آسوده حال [asudehal] 1) imkanlı, varlı; 2) sakit, arxayın, rahat

آسوده خاطر [asudexater] *bax* آسوده حال 2)

آسوده دل [asudedel] *bax* آسوده خاطر

آسیا [Asiya] I Asiya qitəsi; ~• جنوب شرقی Cənub-Şərqi Asiya; ~• صغیر Kiçik Asiya; مرکزی ~• Mərkəzi Asiya

آسیا [asiya] dəyirman; آبی ~• su dəyirmanı; دستی ~• əl dəyirmanı; کردن ~ üyütmək

آسیاب [as(i)yab] su dəyirmanı

آسیابان [as(i)yaban] dəyirmançı

آسیایی [asiyayi] asiyalı, Asiya qitəsinin əhalisi

آسیب [asib] zədə, xəsarət; ziyan, zərər; خوردن (دیدن) ~ zərər çəkmək; زدن (رساندن) ~ zərər vurmaq, zərər vermək

آسیب پذیر [asibpəzir] tezsınan, tezkorlanan; kövrək, zəif

آسیب دیده [asibdide] zədələnmiş, ziyan görmüş, zərər çəkmiş

آسیب شناس [asibşenas] *tib.* travmatoloq

آسیب شناسی [asibşenasi] *tib.* travmatologiya

آسیستان [asistan] assistent, köməkçi

آش [aş] sup, sulu xörək; ◊ برای ~ کسی پختن ayağının altını qazımaq

آشامیدن [aşamidən] içmək

آشامیدنی [aşamidəni] 1) içməli; آب• ~ içməli su; 2) *bax* نوشابه

آشپز [aşpəz] aşpaz

آشپزخانه [aşpəzxane] mətbəx

آشپزی [aşpəzi] 1) aşpazlıq etmə, yemək hazırlama, xörək bişirmə; 2) aşpazlıq peşəsi; کردن ~ aşpazlıq etmək

آشتی [aşti] barışıq, sülh; دادن ~ barışdırmaq; کردن ~ barışmaq

آشتی پذیر [aştipəzir] barışan, barışa bilən

آشتی کنان [aştikonan] barışma; barışma mərasimi

آشتی ناپذیر [aştinapəzir] 1) barışmaz; 2) uyğun gəlməyən

آشخال [aşxal] *bax* آشغال

آشغال [aşğal] zibil, tullantı

آشغالدان [aşğaldan] zibil qabı

آشغالدانی [aşğaldani] *bax* آشغالدان

آشفتگی [aşoftegi] 1) həyəcan, iztirab, narahatlıq, təşviş, pərişanlıq; 2) coşma, dalğalanma, təlatüm (*dənizin*); دریا ~• dənizin coşması (*dalğalanması*); 3) qəzəb, acıq, hirs; ◊ هوا ~• havanın kəskin pisləşməsi

آشفتن [aşoftən] *k.* آشوب [aşub] həyəcanlanmaq, narahat olmaq, iztirab keçirmək, pərişan olmaq, nigaran olmaq, nigaran qalmaq

آشفته [aşofte] آشفتن *f.-nin k.z. sif.;* 1) həyəcanlanmış, narahat, pərişan; dağınıq; ~ موی• dağınıq saç; 2) vurulmuş, vurğun; شدن ~ *bax* آشفتن; ~ کردن həyəcanlandırmaq, iztirab vermək, narahat etmək; qanını qaraltmaq, kefini pozmaq

آشفته حال [aşoftehal] 1) *bax* آشفته 1); 2) bədbəxt, yazıq

آشفته خاطر [aşoftexater] 1) *bax* آشفته 1); 2) diqqətsiz, fikridağınıq, dağınıqfikirli

آشفته دل [aşoftedel] *bax* آشفته خاطر

آشفته مو [aşoftemu] dağınıqsaçlı

آشکار [aşkar] aşkar, aydın, məlum, bəlli; شدن ~ aşkar olmaq, məlum olmaq; کردن ~ aşkar etmək, məlum etmək, üzə çıxarmaq

آشکاری [aşkari] aşkarlıq, aydınlıq

آشنا [aş(e)na] tanış; شدن ~ tanış olmaq; کردن ~ tanış etmək

آشنایی [aş(e)nayi] tanışlıq; یافتن ~ (پیدا کردن) tanış olmaq

آشوب [aşub] آشفتن *f.-nin k.*; 1) təşviş, həyəcan; 2) çaxnaşma, qarışıqlıq; برپا کردن ~ (افکندن) qiyam qaldırmaq

آشوب انگیز [aşubəngiz] 1) həyəcan doğuran, həyəcana gətirən; 2) qiyamçı, üsyançı

آشوب طلب [aşubtələb] *bax* آشوب انگیز 2)

آشوبگر [aşubgər] 1) təhrikçi, araqarışdıran, fitnəkar; 2) *bax* آشوب انگیز 2)

آشوبگری [aşubgəri] təhrikçilik, fitnəkarlıq

آشوبناک [aşubnak] 1) həyəcanlı, narahat; coşan; 2) acıqlı, hirsli, qəzəbli

آشوبیدن [aşubidən] *bax* آشفتن

آشوفتن [aşuftən] *bax* آشفتن

آش ولاش [aşolaş] *dan.* cırıq-cırıq, cırılmış, parça-parça; شدن ~ cırıq-cırıq olmaq, cırılmaq, parça-parça olmaq

آشیان [aşiyan] *bax* آشیانه

آشیانه [aşiyane] 1) yuva; عقاب ~• qartal yuvası; 2) yer, yurd, məskən; tikili, bina; هواپیما ~• anqar (*təyyarələrin saxlanılması üçün xüsusi bina*); ساختن (بستن) ~ qurmaq; کردن ~ (نهادن) yuva salmaq; yaşamaq

آغاز [ağaz] başlanğıc, əvvəl; در ~ əvvəlcə; əvvəldə; سال ~• در ilin əvvəlində; کتاب ~• در kitabın başlanğıcında; شدن ~ başlanmaq; کردن ~ başlamaq

آغازگر [ağazgər] 1) başlayan; 2) *idm.* startçı; 3) *tex.* starter

آغازیدن [ağazidən] *bax* آغاز کردن (آغاز *sözündə*)

آغز [ağoz] *bax* آغوز

آغشتگی [ağeştegi] 1) islanma; 2) hopma, canına çəkilmə; 3) bulanma; 4) qarışma, qatılma

آغشتن [ağeştən //ağəştən] *k.* آغار [ağar] 1) islatmaq, nəm etmək; 2) hopdurmaq, canına çəkdirmək; 3) çirkləndirmək, bulandırmaq; 4) qarışdırmaq, qatmaq

آغشته [ağeşte] آغشتن *f.-nin k.z.f.sif.;* 1) yaş, islanmış, nəm; 2) hopmuş, canına çəkmiş; 3) çirklənmiş, bulaşmış; کردن (ساختن) ~ *bax* آغشتن

آغل [ağol] ağıl, qoyun ağılı; pəyə

آغوز [ağuz // ağoz] bulama, ağız (*süd*), ağuz

آغوش [ağuş] ağuş; qucaq; به ~ گرفتن// کشیدن در~ qucaqlamaq

آفات [afat] *t.* آفت; نباتی ~• bitki ziyanvericiləri

آفاق [afağ] 1) *t.* افق; 2) ölkələr; dünya, aləm

آفت [afət] *c.* آفات [afat] 1) bədbəxtlik, bəla; 2) ziyan, zərər; 3) *k.t.* parazit, ziyanverici; 4) *məc.* gözəl

آفتاب [aftab] Günəş; ~ حمام• günəş vannası; خوردن ~ a) gündə qaralmaq;

b) gün vurmaq; دادن ~ günə vermək; günün altına qoymaq; زد ~ gün vurdu, günəş zərbəsi aldı; گرفت ~ günəş tutuldu; ◊ را به گل اندودن ~ günəşi palçıqla suvamaq, həqiqəti gizlətməyə çalışmaq; لب بام ~ˆ ölüm ayağında olma, ölüm halı, ömrün son anı

آفتاب پرست [aftabpərəst] 1) günəşə sitayiş edən; 2) *bax* آفتاب گردک **1)**

آفتاب پرستی [aftabpərəsti] günəşə sitayiş etmə

آفتاب خورده [aftabxorde] 1) günəş altında qaralmış, gündə qaralmış; 2) gündə qurudulmuş

آفتاب رو [aftabru] 1) günəşlı yer, gün düşən yer; 2) *məc.* günəşüzlü

آفتاب زدگی [aftabzədegi] günvurma

آفتاب زده [aftabzəde] gün vurmuş, günəş zərbəsi almış

آفتاب زرد [aftabzərd] *bax* آفتاب زردی

آفتاب زردی [aftabzərdi] 1) axşamüstü, axşamçağı; günbatan çağı, günbatan vaxt; 2) ömrün son (*qürub*) çağı

آفتاب غروب [aftabğorub] *bax* آفتاب زردی

آفتاب گردان [aftabgərdan] 1) günəbaxan; ~ تخم ˆ günəbaxan tumu; گل ˆ ~ günəbaxan; 2) günlük (*şapkada*); 3) talvar

آفتاب گردک [aftabgərdək] 1) *zool.* buqələmun; 2) *bax* آفتاب گردان **1)**

آفتاب گرفتگی [aftabgereftegi] *bax* کسوف

آفتاب گیر [aftabgir] 1) *bax* آفتاب رو **1)**; 2) *bax* آفتاب گردان **2), 3)**

آفتاب مهتاب [aftabməhtab] 1) *bax* آتش بازی; 2) güləş növü; 3) uşaq oyunu (*ikinəfərlik*)

آفتاب نشین [aftabneşin] *bax* خوش نشین

آفتابه [aftabe] aftafa

آفتابه لگن [aftabeləgən] aftafa-ləyən

آفتابی [aftabi] 1) günəşli; gün düşən; günəş üçün; ~ طرف ˆ gün düşən tərəf; ~ عینک ˆ gün eynəyi; 2) *məc.* açıq, aşkar, məlum; شدن ~ aşkar olmaq; کردن ~ aşkar etmək

آفت دیده [afətdide] *bax* آفت زده

آفت زده [afətzəde] bəla çəkmiş, bəlaya uğramış; bədbəxtlik üz vermiş

آفریدگار [afərideqar] Xaliq, Yaradan, Allah

آفریدن [afəridən] *k.* آفرین [afərin] yaratmaq, qurmaq, icad etmək

آفریده [afəride] آفریدن *f.-nin k.z. f.sif.;* yaradılmış, yaranmış, məxluq

آفرین [afərin] *n.* afərin, əhsən; ~ خواندن (کردن، گفتن) alqışlamaq, əhsən demək

آفرینش [afərineş] yaranma, yaranış, xilqət

آفریننده [afərinənde] *bax* آفریدگار

آفسایِد [afsayd] *idm.* ofsayt

آقا [ağa] 1) ağa, cənab; 2) ailə başçısı

آقاجان [ağacan] ata, atacan, əziz ata

آقامنش [ağamənеş] ağayana, ağa kimi

آقایی [ağayi] ağalıq, sahiblik; böyüklük, başçılıq; کردن ~ ağalıq etmək; böyüklük etmək

آکادمی [akademi] akademiya

آکادمیسین [akademis(i)yon] akademik

آکاردئون [akardeon] akkordeon

آکتور [aktor] aktyor, artist (*kişi*)

آکروبات [akrobat] *idm.* akrobat

آکروباسی [akrobasi] *idm.* akrobatika

آکله [akele] *dan.* 1) cüzam; 2) sifilis

آکندن [akəndən] doldurmaq; tıxamaq; yığmaq, toplamaq

آکواریوم [akvaryom] akvarium

آکورد [akord] *mus.* akkord

آگاه [aqah] 1) agah, bilən, xəbəri olan, xəbərdar; 2) düşüncəli, bilikli; شدن ~ agah olmaq, bilmək, xəbər tutmaq; کردن ~ agah etmək, bildirmək, xəbər vermək, xəbərdar etmək

آگاهاندن [aqahandən] *bax* آگاهانیدن

آگاهانه [aqahane] bilərəkdən, bilə-bilə, şüurlu olaraq

آگاهانیدن [aqahanidən] *bax* آگاه کردن (آگاه *sözündə*)

آگاهی [aqahi] 1) xəbər, xəbərdarlıq; elan, bildiriş; 2) agahlıq, xəbərdar olma, məlumatlılıq; استخدام ~ˆ iş (*işəgötürmə*) elanı; 3) ayıqlıq, gözüaçıqlıq; دادن ~ bildirmək, xəbərdar etmək; داشتن ~ bilmək, xəbərdar edilmək; یافتن ~ xəbərdar olmaq

آگندن [agəndən] *bax* آکندن

آگه [agəh] *bax* آگاه

آگهی [agəhi] 1) *bax* آگاهی **1)**; 2) təlimat, göstəriş

آل [al] 1) nəsil, soy, kök; نبی ~ˆ Peyğəmbərin nəsli; 2) sülalə

آلات [alat] *t.* آلت

آلاچیق [alaçiğ] 1) alaçıq; koma (*taxtadan*); 2) köşk, çardaq

آلایش [alayeş] 1) çirklənmə, ləkələnmə, bulaşma; 2) murdarlanma

آلاییدن [alayidən] *bax* آلودن

آلبالو [albalu] albalı; ◊ چشم ~ گیلاس چیدن *bax* چشم

آلبوم [albom] albom

آلبومین [albumin] albumin

آلت [alət] *c.* آلات [alat] alət; cihaz; vasitə; (تناسلی) تناسل ~ˆ cinsiyyət orqanı; فعل ~ˆ iş (*əmək*) aləti; ◊ دست کسی بودن ~ˆ birinin əlində alət (*vasitə*) olmaq

آلرژی [alerji] *tib.* allergiya

آلگوریتم [alqoritm] *riyaz.* alqoritm

آلو [alu] gavalı

آلوبالو [alubalu] *bax* آلبالو

آلوبخارا [aluboxara] albuxara

آلوچه [aluçe] alça

آلودگی [aludegi] 1) çirklənmə, bulaşma; هوا ~ˆ havanın çirklənməsi; 2) çirkləndirmə, bulaşdırma

آلودن [aludən] *k.* آلا [ala] 1) çirklənmək, bulaşmaq; 2) çirkləndirmək, bulaşdırmaq, bulamaq

آلوده [aludə] آلودن *f.-nin k.z. f.sif.;* 1) çirklənmiş, bulaşmış; 2) ləkələnmiş (*namus*), rüsvay edilmiş; شدن ~ a) çirklənmək, çirkləndirilmək; b) ləkələnmək (*namus*), rüsvay edilmək; کردن ~ a) çirkləndirmək; b) ləkələmək (*namusu*), rüsvay etmək

آلوده دامان [aludedaman] natəmiz, əxlaqsız, pozğun

آلوده دامن [aludedamən] *bax* آلوده دامان

آلوزرد [aluzərd] *bax* آلوبخارا

آلومینیوم [alumin(i)yom] alüminium

آماتور [amator] həvəskar; نوازنده ~ həvəskar musiqiçi

آماتوری [amatori] 1) *bax* آماتور 2) özfəaliyyət; کنسرت ~ˆ özfəaliyyət (*dərnəyinin*) konserti

آماج [amac] hədəf, nişan

آمادگی [amadegi] hazırlıq; hazırlama; جنگی (رزمی) ~ˆ döyüş hazırlığı, hərbi hazırlıq

آمادن [amadən] *k.* آمای [amay] hazırlanmaq; hazırlamaq

آماده [amade] hazır; شدن ~ hazırlaşmaq; کردن ~ hazırlamaq

آماده باش [amadebaş] *hərb.* hazır olma vəziyyəti, hərbi hazırlıq vəziyyəti

آمار [amar] statistika; ~ ادره statistika idarəsi

آماردن [amardən] *bax* آماریدن

آمارگر [amargər] statistik məlumatları toplayan; statistika idarəsinin əməkdaşı; hesabdar

آمارگیری [amargiri] statistika məlumatları hazırlama

آماریدن [amaridən] saymaq, hesablamaq

آماس [amas] şiş, şişmə, kökəlmə; مخ ~ ensefalit; کردن ~ şişmək, kökəlmək

آماسیدن [amasidən] *bax* آماس کردن (آماس *sözündə*)

آمبولانس [ambulans] 1) səyyar xəstəxana; 2) təcili yardım maşını

آمپر [amper] *fiz.* amper

آمپرسنج [ampersənc] *fiz.* ampermetr

آمپول [ampul] ampul; زدن ~ iynə vurmaq

آمد [amməd] 1) uğur; bəxti gətirmə; düşərli olma; 2) *bax* درآمد; داشتن ~ bəxti gətirmək; düşərli olmaq

آمدن [amədən] *k.* (ی)آ [a(y)] 1) gəlmək; مهمانان آمدند qonaqlar gəldilər; 2) yağmaq; برف می آید qar yağır; 3) yaraşmaq; این لباس به او می آید bu paltar ona yaraşır

آمد نیامد [amədnəyamməd] düşər-düşməz; داشتن ~ düşər-düşməzi olmaq; سمنی پختن ~ دارد səməni bişirməyin düşər-düşməzi olur

آمدورفت [amədorəft] gəliş-gediş, gəl-get

آمدونیامد [amədonəyamməd] *bax* آمد نیامد

آمر [amer] 1) əmr edən, göstəriş verən; 2) hakim, hökmdar; مطلق ~ diktator

آمرانه [amerane] amiranə, amiranə şəkildə; با لحن ~ amiranə səslə, amiranə tərzdə

آمرزش [amorzeş] *din.* bağışlama, əfv etmə, günahından keçmə; خواستن ~ Allahdan bağışlanmasını istəmək

آمرزگار [amorzqar] 1) Allah; 2) günahları bağışlayan, mərhəmətli; mehriban

آمرزنده [amorzənde] *bax* آمرزگار

آمرزیدن [amorzidən] *din.* bağışlamaq, əfv etmək, günahından keçmək; خدا بیامرزدش Allah onu bağışlasın!

آموختگی [amuxtegi] öyrənmə; öyrənişmə, adət etmə; öyrətmə

آموختن [amuxtən] *k.* آموز [amuz] 1) öyrənmək; 2) öyrətmək; dərs demək; الفبا ~ əlifbanı öyrətmək

آموخته [amuxte] آموختن *f.-nin k.z. f.sif.;* 1) öyrənmiş; 2) öyrətmiş; 3) öyrəşmiş; adət etmiş; 4) təcrübəli

آموزاندن [amuzandən] öyrətmək; oxutmaq; dərs demək

آموزش [amuzeş] öyrənmə; öyrətmə; təlim; təhsil; ابتدایی ~ ibtidai təhsil; عالی ~ ali təhsil; فنی و حرفه ای ~ peşə-ixtisas təhsili; متوسطه ~ orta təhsil; دادن ~ öyrətmək; təhsil vermək; یافتن ~ öyrənmək; təhsil almaq

آموزشگاه [amuzeşqah] məktəb; təhsil müəssisəsi; peşə məktəbi; رانندگی ~ sürücülük məktəbi; عالی ~ ali təhsil müəssisəsi

آموزش و پرورش [amuzeşopərvəreş] 1) təlim və tərbiyə; 2) pedaqogika

آموزگار [amuz(e)qar] ibtidai məktəb müəllimi; müəllim; ustad

آموزگاری [amuz(e)qari] müəllimlik; müəllimlik peşəsi, dərs demə; کردن ~ müəllimlik etmək, dərs demək

آموزنده [amuzənde] 1) öyrədici, tərbiyəedici; 2) *c.* آموزندگان [amuzəndeqan] a) şagird; b) müəllim, pedaqoq

آمیختگی [amixtegi] 1) qarışıq, qarışıq olma; 2) birləşdirmə; birləşdirilmə, qarışdırılma

آمیختن [amixtən] *k.* آمیز [amiz] 1) qarışmaq, qatışmaq; qarışdırılmaq, birləşdirilmək; 2) ünsiyyət saxlamaq, ünsiyyətdə olmaq, qaynayıb-qarışmaq

آمیخته [amixte] آمیختن *f.-nin k.z. f.sif.;* qarışmış, qatışmış; qarışıq; شدن ~ qarışdırılmaq, qatışdırılmaq; کردن ~ qarışdırmaq, qatışdırmaq

آمیزش [amizeş] 1) qarışma, qatışma, birləşmə; 2) əlaqə, ünsiyyət; qaynayıb-qarışma; جنسی ~ cinsi əlaqə; (کردن) داشتن ~ əlaqədə olmaq, ünsiyyətdə olmaq; یافتن ~ qarışmaq, birləşmək

آمیزشی [amizeşi] *tib.* zöhrəvi; بیماریهای ~ zöhrəvi xəstəliklər

آمیزه [amize] qarışıq; qarışmış

آمین [amin] amin

آن [an] I o (*işarə əvəzliyi*); onun (*izafət birləşməsində*); ~ اسم onun adı; از ~ کسی بودن kimməsə məxsus olmaq; این قلم از ~ من است bu qələm mənə məxsusdur (*mənimdir*)

آن [an] II *c.* اوان [əvan] an; vaxt, zaman; ~ به ~ anbaan; در یک ~ bir anda, bir göz qırpımında

آنان [anan] onlar (*insan haqqında*); onların (*izafət birləşməsində*); خانه ~ onların evi

آناناس [ananas] ananas

آنتراکت [ant(e)rakt] fasilə, antrakt

آنتن [anten] antena

آنتی بیوتیک [antibi(y)otik] antibiotik

آنتی پاتی [antipati] antipatiya, xoşa gəlməmə

آنتی تز [antitez] 1) antiteza (*əkslik, ziddiyyət, təzad*); 2) *fəl.* antitezis

آنتیک [antik] 1) antik; 2) qədim; əntiqə

آنجا [anca] ora, oraya; از ~ oradan; در ~ orada

آنچ [ançۍ] *bax* آنچه

آنچنان [ançenan] elə, o cür

آنچه [ançe] nə, hər nə

آند [anod] *fiz.* anod

آنژین [anjin] *tib.* angina

آنکه [anke] o kəs ki, birisi ki

آنگاه [anqah] 1) o zaman, o vaxt; 2) sonra, ondan sonra

آنونیم [anonim] anonim, müəllifi bəlli olmayan; imzasız

آنها [anha] onlar (*daha çox cansızlar və insandan başqa, digər canlılar haqqında*); onların (*izafət birləşməsində*); کتاب ~ onların kitabı

آنهمه [anhəme] 1) bir o qədər; çoxlu; 2) bütün bunlar

آنی [ani] ani, dərhal, çox tez

آوا [ava] 1) *bax* آواز **1**); 2) *dilç.* danışıq səsi; heca

آوار [avar] 1) xarabalıq; tör-töküntü; dağıntı; 2) ağırlıq, yük; 3) *bax* آواره; زیر ~ ماندن dağıntılar altında qalmaq

آوارگی [avaregi] avaralıq, sərgərdanlıq, sərsərilik, səfillik, evsiz-eşiksizlik

آواره [avare] avara, sərgərdan, səfil, sərsəri; yurdsuz-ocaqsız; ساختن ~ (کردن) a) avara etmək; qovmaq;

b) yoldan çıxarmaq; (گشتن) شدن ~ avara dolaşmaq, sərsərilik etmək

اواریه [avariyə] xarab olmuş; ziyan dəymiş, zərər görmüş

آواز [avaz] 1) avaz, səs, səda; 2) oxuma (*mahnı*); دسته جمعی ~ xorla oxuma, xor; 3) mahnı, nəğmə; برآوردن ~ səsi ucaltmaq; خواندن ~ oxumaq (*mahnı*); دادن ~ a) çağırmaq, qışqırmaq; b) səslənmək, hay vermək, cavab vermək; ◊ گرفتن ~ sorğulanmamaq

آوازپذیر [avazpəzir] *dil.* samit səs

آوازخوان [avazxan] *bax* آوازه خوان

آوازخوانی [avazxani] *bax* آوازه خوانی

آوازه [avazə] 1) ad-san, şöhrət; 2) şayiə, xəbər; 3) mahnı, nəğmə

آوازه خوان [avazəxan] xanəndə, müğənni

آوازه خوانی [avazəxani] xanəndəlik, müğənnilik; xanəndəlik etmə, oxuma (*mahnı*)

آوایی [avayi] *dilç.* fonetik; orfoqrafik

آوخ [avəx] *n.* ax, ox, əfsus, təəssüf, heyif

آوردن [avərdən // avordən] *k.* آور [avər // avor] gətirmək; çatdırmaq; ~ دلیل dəlil gətirmək; ~ مثال misal gətirmək; آورده اند که danışırlar ki, söyləyirlər ki

آورده [avərdə // avorde] آوردن *f.-nin k.z. f.sif.*; gətirilmiş; çatdırılmış

آورنده [avərəndə // avorəndə] gətirən; təqdim edən

آوریل [avril] aprel ayı

آوشن [avşən] *bax* آویشن

آوند [avənd] *biol.*, *anat.* damar; kapilyar (*ən kiçik qan damarı*)

آونگ [avəng] 1) üzüm salxımını asmaq üçün ip (*kəndir*); 2) kəfgir, rəqqas (*saatda hissə*); ساعت ~ saat kəfgiri; 3) asılmış, asılı vəziyyətdə olan

آویختن [avixtən] *k.* آویز [aviz] asmaq, sərmək (*paltarı*)

آویز [aviz] آویختن *f.-nin k.*; asma (*sırğanı, çilçırağı*)

آویزان [avizan] asılmış, sərilmiş (*paltar*); شدن ~ sərilmək; کردن ~ asmaq, sərmək (*paltarı*)

آویزش [avizeş] asma; asılma, sərmə (*paltarı*)

آویزه [avizə] 1) asılmış; asma, asılan şey; brelok; 2) sırğa; ◊ گوش ~ کردن qulağında sırğa etmək; möhkəm yadda saxlamaq

آویشن [avişən] kəklikotu

آه [ah] 1) *n.* ah; 2) ah çəkmə; nəfəs alma; ◊کشیدن ~ ah çəkmək; در ~ در جگر نداشتن // بساط نداشتن ~ yoxsul olmaq, kasıb olmaq

آها [aha] *n.* aha, oho

آهار [ahar] kraxmal, nişasta; دادن ~ (زدن) kraxmallamaq; yapışdırmaq; ◊ کاغذ ~ و مهره دار aharlanmış kağız, hamar kağız

آهاردار [ahardar] kraxmallı, nişastalı

آهارزن [aharzən] *bax* آهاردار

آهاری [ahari] *bax* آهاردار

آهای [ahay] *n.* ey; ey, özünü gözlə!

آهستگی [ahestegi] astalıq; ağırlıq, lənglik; tələsməmə; با ~ astalıqla, yavaş-yavaş

آهسته [aheste] 1) asta, aram; با ~ صدای aramla, sakit səslə; 2) sakit, yavaş, tələsmədən; 3) zəif, yavaş; ~ ضربه zəif zərbə

آهسته آهسته [ahesteaheste] astaasta, yavaş-yavaş; tələsmədən

آهک [ahək] əhəng; آب دیده ~ söndürülmüş əhəng; آب ندیده ~ söndürülməmiş əhəng; سنگ ~ əhəngdaşı

آهک پزی [ahəkpəzi] əhəngbişirmə; کوره ~ əhəngbişirmə kürəsi

آهکی [ahəki] əhəngli; آب ~ əhəngli su

آهن [ahən] dəmir; شیروانی ~ taxtapuş dəmiri; سنگ ~ dəmir filizi; کارخانه استخراج ~ dəmir istehsalı zavodu; ◊ سرد (افسرده) کوبیدن ~ faydasız iş görmək; boş-boşuna əlləşmək

آهن آلات [ahənalat] dəmir məmulatları, dəmir məhsulları

آهن بر [ahənbor] dəmirkəsən; ~ مقراض dəmirkəsən mişar; ~ تنه کن qayçı

آهن پاره [ahənpare] dəmir qırıntısı

آهن پوش [ahənpuş] dəmir örtüklü; zirehli

آهن ربا [ahənroba] maqnit; برقی ~ elektromaqnit

آهن ساز [ahənsaz] tənəkçi

آهنگ [ahəng] 1) səs, ton; 2) mahnı, nəğmə; ساختن ~ mahnı bəstələmək

آهنگدار [ahəngdar] 1) ahəngdar, həmahəng, uyğun; 2) xoşavaz, mələhətli (*səs*)

آهن گداز [ahənqodaz] 1) metallurq; dəmirəridən; 2) ağır, çətin; کار ~ ağır iş, çətin iş

آهن گدازی [ahənqodazi] dəmirəritmə; کارگاه ~ metallurgiya zavodu, dəmirəritmə sexi

آهنگر [ahəngər] dəmirçi

آهنگر خانه [ahəngərxanə] *bax* آهنگری 2)

آهنگری [ahəngəri] 1) dəmirçilik; 2) dəmirçi dükanı; کردن ~ dəmirçilik etmək

آهنگ ساز [ahəngsaz] bəstəkar

آهنگ سازی [ahəngsazi] bəstəkarlıq

آهنی [ahəni] *bax* آهنین 1)

آهنین [ahənin] 1) dəmirdən düzəldilmiş; 2) möhkəm, sarsılmaz, əyilməz; اراده ~ möhkəm iradə

آهنین بازو [ahəninbazu] 1) dəmirqollu, dəmirbiləkli; 2) *bax* آهنین پنجه

آهنین پنجه [ahəninpənçə] güclü, qüvvətli

آهنین دل [ahənindel] 1) daşürəkli, rəhmsiz, amansız, qəddar; 2) qorxmaz, cəsur, igid

آهو [ahu] ahu, ceyran; مشک ~ (ختن) Çin (*Xütən*) ceyranı (*keyiki*); ◊ناگرفته بخشیدن ~ dənizdə balıq sövdəsi etmək

آهوبچه [ahubə(ç)çə] ahu balası, ceyran balası, bala ceyran

آهو بره [ahubə(r)re] *bax* آهوبچه

آهو پا [ahupa] itiqaçan, itiyerişli (*at*); 2) nazikayaqlı

آهو چشم [ahuçeşm] ceyrangözlü, irigözlü

آهودل [ahudel] qorxaq

آه و ناله [ahonale] ah-nalə

آهیانه [ahiyanə] *anat.* kəllə sümüyü; qafa tası

آی [ay] *n.* ey, ay

آیا [aya] sual ədatı: -mı, -mi, -mu, -mü; می دانی ~ bilirsənmi

آیات [ayat] *t.* آیت

آیت [ayət] *c.* آیات [ayat] 1) əlamət, nişan; rəmz, simvol; 2) kəşf; möcüzə; 3) Quran surələrindəki hər bir cümlə; قرآن ~ Quran ayəsi; نماز ~ zəlzələ və ya ildırım çaxması zamanı qılınan namaz

آیت الله [ayatollah] 1) Allahın nişanəsi; 2) ayətulla (*ən böyük müctəhidlərin titulu*)

آیزنه [ayəzne // ayezne] yeznə, bacının əri

آیش [ayeş] *k.t.* herik (*payızda şumlanıb əkilməyən torpaq*)

آیش بندی [ayeşbəndi] növbəli əkin

آینده [ayənde] 1) gələcək; gələn; ~ سال gələn il; ~در gələcəkdə; 2) *qram.* ~ زمان gələcək zaman

آیه [ayə] *bax* آیت; ◊ ~ یأس خواندن məyus etmək, ümidini qırmaq

آیین [ayin] I 1) adət, ənənə; از روی~ adətə görə; ənənəyə görə; 2) nəzəriyyə; 3) ayin, mərasim; 4) tərz, üsul, qayda; 5) din, iman; məzhəb

آیین [ayin] II bəzək, zinət; ~ بستن bəzəmək, zinət vermək

آیین بندی [ayinbəndi] bəzəmə, bəzək vermə (*vurma*), zinət vurma

آیین پرست [ayinpərəst] doqmatik, nəzəriyyəbaz

آیین نامه [ayinname] 1) nizamnamə, təlimat, göstəriş; 2) məcəllə, qanunlar məcəlləsı

آیینه [ayine] ayna, güzgü; ~ (قدی) تمام نما bədənnüma güzgü; ◊ آیینه اش صاف نیست آسمان günəş; aynası saf deyil, pak insan deyil

آیینه بندی [ayinebəndi] güzgülü, aynalı, güzgü ilə bəzədilmiş

آیینه دار [ayinedar] 1) güzgülü, aynalı; 2) dəllək; bəzəkçi qadın

آیینه دان [ayinedan] güzgü çərçivəsi; güzgü qabı

آیینه ساز [ayinesaz] güzgüçü, güzgüqayıran usta

آیینه سازی [ayinesazi] güzgü istehsalı, güzgüçülük

آیینه کاری [ayinekari] *bax* آیینه بندی

آیینه گر [ayinegər] *bax* آیینه ساز

آیینه گری [ayinegəri] *bax* آیینه سازی

ا

الف [əlef] fars əlifbasının birinci hərfi; əbcəd hesabında 1 rəqəmini ifadə edir

ابا [eba] imtina, imtina etmə, razılaşmama; داشتن ~ imtina etmək; qəbul etməmək, rədd etmək

ابابیل [əbabil] 1) qaranquş, dağ qaranquşu; 2) uzunqanad

اباتیل [əbatil] *t.* باطل boş və mənasız sözlər

ابتدا [ebtəda] başlanğıc, əvvəl; başlama; ~ نقطه çıxış nöqtəsi; ~در əvvəlcə, əvvəllər; کردن ~ başlamaq

ابتداع [ebtəda'] yenilik, yenilikçilik, novatorluq; کردن ~ yenilik yaratmaq, novatorluq etmək

ابتدایی [ebtedayi] 1) ibtidai, ilkin; ~ مدرسه ibtidai məktəb; 2) primitiv, ən sadə, ən adi, ən bəsit; ابتدایی ترین وسایل معیشت ən sadə həyat şəraiti

ابتذال [ebtezal] dəyərsiz olma, əhəmiyyətsiz olma, qiymətdən düşmə

ابتر [əbtər] 1) yarımçıq, nöqsanlı; 2) xarab, yararsız

ابتکار [ebtekar] təşəbbüs, təşəbbüs göstərmə; yenilik, yenilik yaratma; نشان (بخرج) دادن ~ təşəbbüs göstərmək

ابتلا [ebtela] mübtəla olma, düçar olma, tutulma; çətinlik görmə

ابتهاج [ebtehac] şadlıq, sevinc, fərəh

ابتیاع [ebtiya'] satın alma; شدن ~ satın alınmaq; کردن~ satın almaq

ابجد [əbcəd] 1) qədim ərəb əlifbasında ilk dörd hərf; 2) müəyyən bir tarixi və ya rəqəmi ərəb hərfləri ilə ifadə etmək üsulu

ابد [əbəd] əbədilik, həmişəlik, daimilik; ~ (تا) برای həmişəlik olaraq

ابداً [əbədən] əsla, heç vaxt

ابداع [ebda'] yenilik gətirmə; yenilik yaratma; kəşf, ixtira

ابدال [əbdal] 1) xeyirxah adamlar, nəcib insanlar; 2) müqəddəs şəxsiyyətlər; 3) Peyğəmbərin yaxın adamları

ابدال [ebdal] 1) əvəz etmə, dəyişmə; 2) *dilç.* metateza (*sözlərdə səslərin yer dəyişməsi*)

ابدی [əbədi] əbədi, daimi, həmişəlik; شدن ~ əbədiləşmək; کردن ~ əbədiləşdirmək

ابدیت [əbədiyyət] əbədiyyət, sonsuzluq, həmişəlik

ابر [əbər] "ən yüksək", "ən yaxşı" mənalarını bildirən ön şəkilçi: ~قدرت; *bax* ابرقدرت

ابر [əbr] bulud; سیاه (تیره) ~ qara bulud; غلیظ ~ qatı bulud; نیسان ~ yağmurlu bulud; مصنوعی ~ tüstü pərdəsi; شدن ~ buludlu olmaq

ابرار [əbrar] 1) xeyirxah adamlar; xeyriyyəçi insanlar; 2) müqəddəs adamlar

ابراز [ebraz] 1) büruzə vermə, göstərmə, aşkara çıxarma; 2) ifadə etmə; داشتن (کردن) ~ a) büruzə vermək, aşkara çıxarmaq; b) ifadə etmək; bildirmək; شدن ~ a) aşkara çıxarılmaq; b) ifadə edilmək; همدردی ~ کردن dərdə şərikliyi ifadə etmək

ابرآلود [əbralud] buludlu, tutqun; ~ هوای buludlu hava

ابرآلودگی [əbraludegi] buludluq, buludluluq, tutqunluq

ابرآلوده [əbralude] *bax* ابرآلود

ابرام [ebram] inad, israr, təkid; təkid etmə; کردن ~ inadla xahiş etmək, israr etmək; sözünün üstündə durmaq

ابر شهر [əbərşəhr] ən böyük şəhər, ən çox əhalisi olan şəhər

ابرقدرت [əbərğodrət] fövqəldövlət, superdövlət, ən böyük dövlət

ابرمرد [əbərmərd] ən böyük şəxsiyyət; ideal insan

ابرو [əbru] qaş; پاچه بزی ~ sıx və tüklü qaş; پیوسته ~ çatma qaş; کشیده ~ nazik qaş, qələm qaş; کمانی ~ kaman qaş; ◊ انداختن ~ qaş-göz atmaq; خم کردن ~ qaşqabaqlı olmaq; qaşlarını çatmaq; درهم کردن ~ qaşqabaq sallamaq; ~ فراخی//گشادگی ~ gülərüzlülük, üzügülərlik

ابره [əbrə] paltarın üzü

ابری [əbri] *bax* ابرآلود

ابریشم [əbrişəm] ipək; طبیعی ~ təbii ipək; مصنوعی ~ süni ipək; کرم ~ baramaqurdu

ابریشم تابی [əbrişəmtabi] ipəkəyirmə; کارخانه ~ ipəkəyirmə fabriki

ابریشمی [əbrişəmi] ipəkli, ipəkdən toxunmuş; پارچهٔ ~ ipək parça

ابریشمین [əbrişəmin] *bax* ابریشمی

ابریشمینه [əbrişəmine] ipək parçalar, ipək mallar

ابریق [ebriğ] *c.* اباریق [əbariğ] 1) kuzə; 2) aftafa

ابزار [əbzar] 1) alət, cihaz, vasitə; تولید ~ istehsal alətləri (*vasitələri*); دقیق ~ dəqiq cihazlar; 2) avadanlıq, ləvazimat; خانه ~ ev avadanlığı

ابزارآلات [əbzaralat] 1) alətlər; 2) *bax* ابزار

ابطال [ebtal] ləğv etmə, aradan qaldırma, pozma

ابعاد [eb'ad] uzaqlaşdırma, kənarlaşdırma, qovma

ابقا [ebğa] 1) qoruma, saxlama; حکومت ~ hökuməti (*dövləti*) qoruma; 2) dəf etmə; 3) əbədiləşdirmə; شدن ~ a) qorunmaq; b) dəf edilmək; c) əbədiləşdirilmək; کردن ~ a) qorumaq; b) dəf etmək; c) əbədiləşdirmək

باب [bab] I *c.* **ابواب** [əbvab] 1) qapı; 2) fəsil, hissə (*kitabda*); 3) *coğ.* boğaz; 4) barəsində, haqqında; 5) numerativ söz (*dükan, ev üçün*); یک ~ خانه bir ev

باب [bab] II 1) münasib, uyğun, layiq; طبع ~• zövqə uyğun; 2) dəb, moda; امروز (روز) ~• müasir dəbli

بابا [baba] ata

بابا بزرگ [bababozorg] baba

بابا نوئل [babanoel] şaxta baba

بابت [babət] 1) hesabına, görə; از قرض ~• borc hesabına; borca görə; 2) haqqında, barəsində; üçün, görə: در ~• شما sizin barənizdə (*haqqınızda*)

بابرکت [babərəkət] bərəkətli, bol; سرزمین ~• bərəkətli diyar

بابونه [babune] *bot.* çobanyastığı

باپشتکار [baboştekar] çalışqan, işgüzar; işə can yandıran, zəhmətkeş, əməksevər

باپشتکاری [baboştekari] çalışqanlıqla, səylə

باتجربه [batəcrobe] təcrübəli, səriştəli

باتدبیر [batədbir] tədbirli, bacarıqlı

باترتیب [batərtib] 1) səliqəli; yaxşı təşkil olunmuş; 2) müntəzəm; sistemli

باتری [batri] batareya; akkumulyator

باتلاق [batlağ] bataqlıq

باتلاقی [batlaği] bataqlıqlı, bataqlıq olan; ~ زمینهای bataqlıq olan torpaqlar (*yerlər*)

باتون [batun] polis dəyənəyi; ~• لاستیکی rezin dəyənək

باج [bac] bac, xərac; دادن ~ xərac ödəmək; گرفتن ~ bac almaq; ◊ ~ سبیل rüşvət

باجناغ [bacenağ] *bax* باجناق

باجناق [bacenağ] bacanaq

با جمال [bacəmal] gözəl, qəşəng, yaraşıqlı

باجه [bace] 1) kiçik pəncərə, nəfəslik, baca; 2) kassa

باحرارت [bahərarət] hərarətli, alovlu, isti; ~ نطق• alovlu çıxış

باحوصله [bahousəle // bahousele] hövsələli, səbirli, dözümlü

باحیا [bahəya] həyalı, abırlı, utancaq; ~ دختر• abırlı qız

باخبر [baxəbər] bilikli, məlumatlı; təcrübəli, səriştəli; بودن ~ bilikli olmaq; təcrübəli olmaq

باخت [baxt] uduzma; məğlubiyyət

باختر [baxtər] qərb

باختن [baxtən] *k.* باز [baz] 1) uduzmaq; 2) itirmək; ~ خودرا özünü itirmək

باخته [baxte] 1) باختن *f.-nin k.z.f.sif*; uduzmuş; 2) *bax* باخت

باخدا [baxoda] dindar, mömin, Allah adamı

باخرد [baxerəd] *bax* بخرد

باد [bad] I 1) külək, yel; 2) *məc.* boş, mənasız: این حرفها همه ~• هوا است bu sözlərin hamısı mənasızdır; 3) hava (*topda, şarda*); qaz (*mədədə*); شکم ~• qarın qurultusu; 4) şiş (*bədəndə*); فتق ~• *tib.* qasıq yırtığı; ◊ ~ آوردن şişmək; ~ به; باد و بروت ~• *bax* بروت; بر (به) ~ دست داشتن əli boş qalmaq; ~ دادن bada vermək, viran qoymaq, dağıtmaq; ~ رفتن بر (به) bada getmək, zay olmaq, tələf olmaq; ~ به بینی (دماغ) انداختن burnunu yuxarı tutmaq, özünü dartmaq (*çəkmək*), lovğalanmaq; ~ در چنبر بستن *bax* در ~; ~ در سر داشتن *bax* قفس کردن; ~ در قفس کردن; ~ به بینی (دماغ) انداختن faydasız iş görmək; xəlbirlə su daşımaq; ~ در کف داشتن əliboş qalmaq; ~ به بینی (دماغ) انداختن *bax* ~ در کلاه افکندن yoxsul olmaq; سنجیدن ~ boş danışmaq

باد [bad] II بودن *f.-nin arzu ş.*: şüarlarda işlənərək "olsun" mənasını bildirir: زنده باد! yaşasın!

بادا [bada] *bax* باد II

بادام [badam] badam; زمینی ~• yer fındığı; ~ مغز• badam içi

بادام بوره [badambure] badambura

بادام سوخته [badam(e)suxte] qovurulmuş şəkərli badam

بادام شکن [badamşekən] badamsındıran

بادامک [badamək] *anat.* badamcıq vəzi

بادامی [badami] 1) badamı, badamşəkilli; ~ چشمان• badamı gözlər; 2) badamla hazırlanmış; içində badam olan; ~ نان• badam peçenyesi

بادآور [badavər] 1) külək gətirən; 2) zəhmətsiz, havayı ələ gələn; təsadüfi qazanc; ~ گنج• təsadüfən ələ gələn xəzinə; 3) *bax* بادآورد

بادآورد [badavərd] *bot.* ayıpəncəsi

بادآورده [badavərde] *bax* بادآور; ~ را باد میبرد *ata.söz.* hayla gələn, vayla (*huyla*) gedər

بادبادک [badbadək] çərpələng

بادبان [badban] yelkən; کشیدن ~ yelkəni qaldırmaq

بادبانی [badbani] yelkənli; ~ قایق• yelkənli qayıq

بادبزن [badbezən] yelpik; yelpinc; ~• برقی ventilyator

بادپا [badpa] 1) külək sürətli, sürətlə gedən, iti gedən; 2) qaçağan, iti yerişli, löhrəm (*at*)

بادپیما [badpeyma] 1) *bax* بادسنج; 2) avara, veyl; 3) *bax* بادپا **1)**

بادخورده [badxorde] qoxumuş, iylənmiş (*meyvə, ərzaq*)

بادخورک [badxorək] *zool.* uzunqanad

بادخیز [badxiz] küləkli; ~شهر• küləkli şəhər

باددار [baddar] 1) şişmiş, köpmüş; 2) doldurulmuş (*hava ilə*); 3) qaz əmələ gətirən (*yeməklər*)

باددست [baddəst] bədxərc, israfçı

باددستی [baddəsti] bədxərclik, israfçılıq

بادرنجبویه [badrəncbuye] *bot.* badrənc, limonotu

بادرنگبویه [badrəngbuye] *bax* بادرنجبویه

بادزن [badzən] *bax* باد بزن

بادزده [badzəde] 1) *bax* بادخورده; 2) ağacdan düşən kal meyvə

بادسر [badsər] dikbaş, lovğa, təkəbbürlü, eqoist

بادسری [badsəri] dikbaşlıq, lovğalıq, təkəbbürlülük, eqoizm

بادسرخ [bad(e)sorx] *tib.* qızılyel

بادسنج [badsənc] anemometr (*küləyin sürət və qüvvəsini təyin edən cihaz*)

بادکش [badkeş] 1) *tib.* banka, bərni; 2) sorma, sorucu cihaz; havaçəkən boru; کردن ~ *tib.* banka qoymaq

بادکنک [badkonək] şar, top, hava balonu

بادگرد [badgerd // badgərd] qasırğa, fırtına, şiddətli külək

بادگلو [bad(e)gəlu] *bax* آروغ

بادگیر [badgir] I baca, nəfəslik, havaçəkən boru, ventilyasiya deşiyi

بادگیر [badgir] II küləktutan tərəf

بادمجان [bademcan] *bax* بادنجان

بادنجان [badencan] badımcan; ~• بم آفت ندارد *ata. söz.* pis adamın ömrü uzun olar; ◊~• دور قاب چیدن boşqab dibi yalamaq, yaltaqlanmaq

بادوام [badəvam] davamlı, möhkəm

باد و بروت [badoborut] hay-küy salma; lovğalıq, təkəbbürlülük, özünü göstərmə; کردن ~ özünü göstərmək

باده [bade] şərab; انگوری ~• üzüm şərabı; خوردن ~ (پیمودن، زدن، گساردن، نوشیدن) şərab içmək

باده پرست [badepərəst] içki düşkünü, içkiyə qurşanmış adam

باده پیما [badepeyma] *bax* باده پرست

باده خوار [badexar] *bax* باده پرست

باده گسار [badeqosar] *bax* باده پرست

باده فروش [badeforuş] içkisatan, şərabsatan

بادی [badi] I 1) küləkli; ~• هوای küləkli hava; 2) küləklə işləyən; ~• آسیای yel dəyirmanı; ~• کشتی yelkənli gəmi

بادی [badi] II əvvəl, başlanğıc; در ~• امر əvvəlcə, birinci; ~• نظر در ilk baxışda

با دیانت [badiyanət] 1) *bax* باخدا; 2) sədaqətli

بادی گارد [badiqard] *bax* جان پاس

بادیه [badiye] I çöllük, səhra, biyaban

بادیه [badiye] II 1) badya (*mis və ya saxsıdan düzəldilmiş altıgen qab*); 2) şərab saxlanılan qab (*küp*)

بادیه نشین [badiyeneşin] köçəri, səhrada yaşayan

باذکاوت [bazəkavət] zəkalı, fərasətli, ağıllı

باذل [bazel] səxavətli, əliaçıq

باذوق [bazouğ] 1) istedadlı, bacarıqlı, zəkalı; qabiliyyətli; ~ نقاش istedadlı rəssam; 2) səliqəli; zövqlü

بار [bar] I yük, tay; ~ الکتریکی elektrik yükü; ~ سفر səfər yükü (*baqaj*); ~ سنگین ağır yük; ~ کردن yükləmək; ~ کشیدن yük daşımaq

بار [bar] II bar, bəhər, meyvə; ~ درخت ağacın meyvəsi (*barı*)

بار [bar] III ana bətnindəki uşaq

بار [bar] IV dəfə; ~ یک bir dəfə; ~ اول birinci dəfə

بار [bar] V bar (*restoran*)

باران [baran] yağış; ~ آمدن (باریدن) yağış yağmaq; ~ خوردن yağışa düşmək, islanmaq

بارانی [barani] 1) yağışlı; 2) plaş, yağmurluq

بارآور [baravər] 1) bəhrəli, meyvəli; 2) məhsuldar; 3) gəlirli

باربر [barbər] yükdaşıyan; malyükləyən

باربری [barbəri] 1) yükvurma; yükdaşıma; ~ بنگاه yükdaşıma şirkəti; 3) yükvurma pulu; yükdaşıma pulu

باربند [barbənd] 1) qablaşdırıcı, malqablaşdıran; 2) malqablaşdırma kəndiri

باربندی [barbəndi] qablaşdırma, yığıb-bağlama

بارخانه [barxane] anbar

بارخدا [barxoda] ulu Tanrı, böyük Yaradan

بارخدایا [barxodaya] Allah, İlahi! ay Allah!

بارز [barez] bariz, aşkar, açıq-aşkar

باردار [bardar] 1) meyvəli, bəhrəli (*ağac*); 2) hamilə; ~ زن hamilə qadın; ~ شدن a) meyvə gətirmək; b) hamilə olmaq

بارداری [bardari] hamiləlik

بارده [bardeh] məhsuldar, bəhrəli (*ağac*)

باردهی [bardehi] məhsuldarlıq (*meyvədə*); bol bəhrə vermə

بارش [bareş] yağıntı, yağış

بارفروش [barforuş] meyvə-tərəvəz satan (*topdansatış üsulla*)

بارفیکس [barfiks] *idm.* turnik; بازی ~ turnik məşqləri

بارقه [bareğe] ildırım, şimşək; qığılcım; ◊امید ~ ümid qığılcımı

بارک الله [barekəllah] *n.* əhsən, afərin

بارکش [barkeş] yükdaşıyan; hambal; ~ حیوانات yük heyvanları; ~ کامیون yükdaşıyan maşın

بارگاه [barqah] 1) şah sarayı; şah çadırı; 2) qəbul otağı (*dövlət başçılarının, nazirlərin və s.*)

بارگه [bargəh] *bax* بارگاه

بارگیری [bargiri] yükləmə, yükvurma; ~ کردن yükləmək, yük vurmaq (*gəmiyə, vaqona*)

بارنامه [barname] qaimə, faktura

بارندگی [barondegi] yağıntı

بارو [baru] qala divarı, qala hasarı

باروبنه [barobone] yol əşyaları, yol azuqəsi; ~ بستن yola hazırlaşmaq; yol əşyalarını yığmaq

باروت [barut] barıt; ~ بی دود tüstüsüz barıt

بارور [barvər] meyvəli, barlı-bəhrəli; məhsuldar; səmərəli; ~ شدن meyvə vermək, bar gətirmək

باره [bare] I: ~در haqqında; در این ~ bu barədə

باره [bare] II *bax* بارو

بارها [barha] dəfələrlə

بارهنگ [barhəng] *bot.* bağayarpağı

باری [bari] I yük; yük üçün nəzərdə tutulan; ~ قطار yük qatarı; ~کشتی yük gəmisi

باری [bari] II Allah, Tanrı, Yaradan

باری [bari] III 1) bir dəfə; 2) nəhayət, xülasə

باری تعالی [baritəala] ulu Tanrı, uca Tanrı

باریدن [baridən] *k.* بار [bar] yağmaq; برف می بارد qap yağır

باریک [barik] 1) dar, ensiz; 2) incə, zərif, nazik

باریک اندام [barikəndam] incə, incə bədənli, nazik əndamlı; boylu-buxunlu, qədd-qamətli

باریک بین [barikbin] gözüaçıq, incə şeyləri görən, uzaqgörən; diqqətcil, diqqətli, hər şeyə fikir verən

باریک بینی [barikbini] uzaqgörənlik, diqqətcillik, hər şeyə fikir vermə

باریک میان [barikmiyan] nazikbel, incəbel

باریکه [barike] xətt, zolaq, sahə, hissə (*yer haqqında*); dilim; باریکه ای از زمین dar torpaq zolağı

باریکی [bariki] 1) darlıq; 2) naziklik, incəlik

باز [baz] I açıq, açılmış; ~ جاده açıq yol; ~ در açıq qapı; ~ ذهن açıq zehin; ~ شدن açılmaq, təsis olunmaq; ~ کردن açmaq

باز [baz] II 1) yenidən, təzədən; 2) baxmayaraq, bununla belə; ~ آمدن yenidən gəlmək, bir daha gəlmək; qayıtmaq; ~ آوردن yenidən gətirmək; qaytarmaq, geri vermək; ~ ایستادن a) ayrılmaq (*işdən, məşğuliyyətdən*); b) dayanmaq (*hərəkətdən, işdən*); ~ خریدن geri almaq (*satın*); ~ خواستن (خواندن) geri çağırmaq; ~ دادن qaytarmaq, geri vermək; ~ داشتن a) tutmaq, saxlamaq, buraxmamaq; b) həbs etmək; ~ گذاشتن a) buraxmaq, açıq saxlamaq; b) tapşırmaq, öhdəsinə qoymaq; ~ گرداندن a) qaytarmaq, geri vermək; b) ödəmək, əvəzini vermək; ~ گردیدن *bax* ~ گشتن; ~ گرفتن geri almaq; ~ گشتن a) qayıtmaq, geri dönmək; b) imtina etmək; ~ گفتن a) yenidən demək, təkrar etmək (*deyilmiş sözü*); b) nağıl etmək, danışmaq; c) açıqlamaq, izah etmək; hər şeyi açıq demək; ~ ماندن a) geri qalmaq; b) ayrılmaq (*işdən, məşğələdən*); c) yorulmaq, əldən düşmək; ~ نشستن a) təqaüdə çıxmaq, pensiyaya getmək; işdən ayrılmaq; b) tək yaşamaq, adamlardan aralı getmək; ~ نمودن a) açmaq; b) şərh etmək; c) nişan vermək, göstərmək; ~ یافتن a) yenidən əldə etmək; b) zəhmətsiz qazanmaq; c) tapmaq

باز [baz] III qızılquş, qırğı

بازار [bazar] bazar; خارجی ~• xarici bazar; داخلی ~• daxili bazar; مکاره ~• yarmarka

بازارگان [bazarqan] *bax* بازرگان

بازبین [bazbin] yoxlayıcı, nəzarətçi; müfəttiş

بازبینی [bazbini] yoxlama, nəzarət etmə

بازپرس [bazpors] müstəntiq; ~• دادگاه məhkəmə müstəntiqi

بازپرسی [bazporsi] dindirmə, sorğu-sual, istintaq; کردن ~ istintaq etmək (*eləmək*)

بازپس [bazpəs] geri, geriyə, arxaya; دادن ~ geri qaytarmaq; رفتن ~ geriyə getmək; گرفتن ~ geri almaq

بازپسین [bazpəsin] son, sonuncu, axırıncı; ~ دم• son nəfəs

باز تولید [baztoulid] təkrar istehsal

بازجو [bazcu] 1) müstəntiq; 2) yoxlayan, təftiş edən

بازجویی [bazcuyi] istintaq; dindirmə; کردن ~ istintaq aparmaq

بازخواست [bazxast] 1) *bax* بازپرسی; 2) məsuliyyətə cəlb etmə; شدن ~ a) dindirilmək, sorğu-sual edilmək; b) məsuliyyətə cəlb edilmək; کردن ~ a) dindirmək, sorğu-sual etmək; b) məsuliyyətə cəlb etmək; c) cərimələmək

بازداشت [bazdaşt] 1) saxlama, tutma; 2) həbs, həbs etmə; شدن ~ tutulmaq; کردن ~ həbs etmək

بازداشت شده [bazdaştşode] tutulmuş, həbs olunmuş, məhbus

بازداشتگاه [bazdaştqah] müvəqqəti saxlama yeri (*həbs olunanlar üçün*)

بازداشتی [bazdaşti] həbs edilmiş, tutulmuş; məhbus

بازدانگان [bazdaneqan] *bot.* çılpaqtoxumlular

بازدهی [bazdehi] səmərəlilik, məhsuldarlıq; rentabellik

بازدید [bazdid] 1) görüş, cavab görüşü; 2) yoxlama, gözdən keçirmə; 3) yoxlama, təftiş; کردن ~ a) yoxlamaq, təftiş etmək; baxmaq, gözdən keçirmək; b) cavab görüşünə getmək

بازرس [bazrəs] müfəttiş

بازرسی [bazrəsi] 1) yoxlama, təftiş; 2) axtarış; کردن ~ yoxlamaq, təftiş etmək

بازرگان [bazərqan] tacir, alverçi

بازرگانی [bazərqani] ticarət, alver; ~ اتاق• ticarət palatası

بازسازی [bazsazi] yenidənqurma; کردن ~ yenidən qurmaq, bərpa etmək

بازگرد [bazgərd] *bax* بازگشت

بازگشت [bazgəşt] geri dönmə, qayıtma; کردن ~ geri dönmək, qayıtmaq

بازگو [bazqu] 1) təkrar etmə (*deyilmiş sözü*); 2) nağıl etmə, danışma; 3) açıqlama, izah etmə, şərh etmə; کردن ~ a) təkrar etmək (*deyilmiş sözü*); b) nağıl etmək, danışmaq; c) açıqlamaq, izah etmək, şərh etmək

بازگویی [bazquyi] *bax* بازگو

بازماندگی [bazmandegi] 1) geri qalma, gerilik; 2) dayanma, fasilə (*işdə*); 3) yorğunluq

بازمانده [bazmande] 1) geri qalmış (*yolda*); 2) qalıq; 3) sağ qalmış; 4) *c.* بازماندگان [bazmandeqan] varis, vərəsə sahibi

بازنده [bazənde] uduzan (*müxtəlif mənalarda*); məğlub olan

بازنشستگی [bazneşəstegi] təqaüdə çıxma, pensiyaya çıxma; ~ حقوق• pensiya, pensiya pulu; ~ سن• pensiya yaşı

بازنشسته [bazneşəste] təqaüdçü

بازنگری [baznegəri] yenidən baxma; fikrini dəyişmə

بازنمایی [baznəmayi] yenidən göstərmə; ikinci dəfə nümayiş etdirmə

بازو [bazu] qol, bilək; دادن ~ kömək etmək; گشادن ~ a) qol açmaq; b) əliaçıq olmaq, səxavətli olmaq

بازوبند [bazubənd] 1) bazubənd, qolbaq (*dirsəkdən yuxarı bağlanılan*); 2) içərisində dua olan parça (*qola bağlanılan*)

بازور [bazur] qüvvətli, güclü

بازی [bazi] oyun; کردن ~ oynamaq (*oyun və ya rol*); ◊ خوردن ~ aldanılmaq, əldə oyuncaq olmaq; دادن ~ a) əyləndirmək; b) aldatmaq; در ~ آ وردن oyun çıxarmaq

بازیابی [bazyabi] yenidən ələ gətirmə, yenidən əldə etmə; ~• سرمایه yenidən sərmayə (*yatırım*) əldə etmə

بازیافت [bazyaft] 1) *bax* بازیابی; 2) tapıntı; uğur; 3) təsadüfi uğur, yüngül nailiyyət

بازیافته [bazyafte] 1) yenidən əldə edilmiş, yenidən tapılmış; 2) asanlıqla əldə edilmiş

بازیافتی [bazyafti] *bax* بازیافته

بازیچه [baziçe] oyuncaq

بازیکن [bazikon] 1) oyunçu; 2) qumarbaz

بازیگر [bazigər] aktyor, artist, sənətçi

بازیگری [bazigəri] aktyorluq, artistlik

بازیگوش [baziquş] 1) dəcəl, şıltaq; şux, şən; 2) qayğısız; yelbeyin, yüngülxasiyyət, arsız

باژ [baj] *bax* باج

باسابقه [basabeğe] təcrübəli, səriştəli, stajlı

باستان [bastan] qədim; əski; çox köhnə

باستان شناس [bastanşenas] arxeoloq; antik əşya toplayan

باستان شناسی [bastanşenasi] arxeologiya

باستانی [bastani] qədimi, tarixi, köhnə, antik; ~آثار• tarixi abidələr

باسکول [baskul] qapan (*böyük tərəzi*)

باسلیقه [basəliğe] səliqəli, zövqlü

باشد [başəd] 1) olsun, qoy olsun, yaxşı (*modal söz*); 2) bəlkə

باشرف [başərəf] şərəfli, vicdanlı, nəcib, alicənab

باشکوه [başokuh] əzəmətli, cahcalallı, dəbdəbəli, təntənəli; ~ جلسه• təntənəli iclas

باشگاه [başqah] klub, əyləncə yeri

باشهامت [başəhamət] 1) igid, cəsarətli; qorxmaz; 2) igidliklə, cəsarətlə

باصره [basere] 1) görmə, görmə qabiliyyəti; 2) göz; ~• حس görmə hissi

باصطلاح [beestelah] 1) necə deyərlər; bəlli olduğu kimi; 2) elə-belə, əldəqayırma, yalançı, dırnaqarası; ~ کارشناس əldəqayırma mütəxəssis

باصفا [basəfa] səfalı, təravətli; təmiz, aydın, gözəl, mənzərəli; ~ باغ• səfalı (*mənzərəli*) bağ

باطراوت [batəravət] təravətli, təmiz, təzə

باطری [batri] *bax* باتری

باطل [batel] 1) boş, bihudə, puç, əbəs, mənasız, faydasız, səmərəsiz; ~ امیدهای• puç ümidlər; 2) batil, ləğv edilmiş, qüvvədən düşmüş; 3) yalan,

saxta; شدن ~ a) puç olmaq, əbəs olmaq; b) ləğv edilmək; qüvvədən düşmək; کردن ~ ləğv etmək

باتلاق [batlağ] *bax* باتلاق

باطن [baten] 1) daxili, gizli; 2) daxili aləm; ürək

باطناً [batenən] batinən, daxilən

باعث [baes] bais, səbəb; چیزی ~ شدن bir şeyə səbəb olmaq; ◊ لیل و ~ نهار a) Allah, Tanrı; b) Günəş

باعدالت [baədalət] ədalətli, insaflı

باعزم [baəzm] əzmli, iradəli, qətiyyətli

باعظمت [baəzəmət] əzəmətli, möhtəşəm

باعفت [baeffət] ismətli, pak, namuslu

باعقل [baəğl] ağıllı, dərrakəli, fərasətli

باغ [bağ] bağ; park; انگور ~ üzümlük; گل ~ gül bağı; ملی ~ milli park; نباتات ~ botanika bağı; وحش ~ zoopark

باغبان [bağban] bağban

باغبانی [bağbani] bağbanlıq, bağa qulluq etmə; کردن ~ bağbanlıq etmək

باغچه [bağçe] bağça, kiçik bağ

باغچه بان [bağçeban] bağban, gülçü

باغدار [bağdar] bağ sahibi, bağ yiyəsi

باغداری [bağdari] bağçılıq

باغستان [bağestan] bağlıq, bağ çox olan yer

بافت [baft] 1) toxuma, toxunuş; جوارب ~ corab toxunuşu; 2) *anat.* toxuma; استخوانی ~ sümük toxuması

بافتن [baftən] *k.* باف [baf]; 1) toxumaq; 2) hörmək

بافتنی [baftəni] 1) toxunulmalı, toxunula bilən; 2) toxunma; toxunmuş; trikotaj

بافته [bafte] بافتن *f.-nin k.z.f.sif.*; 1) toxunmuş; toxunma mallar; 2) بافت 2)

بافراست [bafərasət] fərasətli, dərrakəli, açıqgözlü

بافرهنگ [bafərhəng] mədəni, tərbiyəli

بافندگی [bafəndegi] toxuculuq; کارگاه ~ toxuculuq fabriki

بافنده [bafənde] toxucu (*insan və ya dəzgah*)

بافهم [bafəhm] düşüncəli, fərasətli, ağıllı

باقریحه [bağərihe] istedadlı, zəkalı, bacarıqlı

باقلا [bağla] paxla

باقلوا [bağləva] paxlava

باقی [baği] *c.* باقیات [bağiyat] qalıq, qalan (*hissə*); ard, davam; حکایت ~ hekayənin ardı; مبلغ ~ məbləğin qalığı (*qalan hissəsi*); دارد ~ davamı var

باقیمانده [bağimande] qalıq, qalan (*hissə*), qalmış; پول ~ pulun qalığı

باک [bak] qorxu; vahimə, dəhşət; təlaş, nigaranlıq; داشتن ~ qorxmaq, nigaran olmaq

باکتری [bakteri] bakteriya, mikrob

باکره [bakere] bakirə, pak

باکرم [bakərəm] kəramətli, səxavətli, əliaçıq

باکله [bakəlle] *dan.* kəllə, kəlləli, ağıllı

باکمال [bakəmal] 1) kamallı, mərifətli, tərbiyəli; 2) savadlı, yüksəkixtisaslı

باکیاست [bakiyasət] 1) ağıllı, fərasətli, bacarıqlı; 2) üzaqgörən, gözüaçıq

بال [bal] I qanad; درآوردن ~ qanad açmaq; زدن ~ a) qanad çalmaq; b) uçmaq, qanadlanmaq; ◊ به ~ کسی دادن kimisə dəstəkləmək, kiməsə kömək etmək; کسی را گرفتن ~ زیر ~ کسی دادن *bax* به ~

بال [bal] II balina, kit

بالا [bala] 1) yuxarı, üst; 2) zirvə, baş; طبقه ~ yuxarı mərtəbə; درخت ~ ağacın başı (*yuxarı hissəsi*); آمدن ~ yüksəlmək, yuxarı qalxmaq; آوردن ~ yuxarı çıxarmaq

بالابر [balabər] 1) lift; 2) qaldırıcı kran

بالابلند [balaboländ] *bax* بلند بالا

بالاپوش [balapuş] 1) plaş, palto; 2) yorğan, adyal

بالاتفاق [belettefağ] 1) birgə, birlikdə, bir yerdə, əlbir; hamılıqla

بالاخانه [balaxane] balaxana, yuxarı mərtəbədəki otaq

بالاخره [beləxəre] nəhayət, axır ki, sonda, nəticədə

بالاخوانی [balaxani] özünü öymə, özünü tərifləmə

بالادست [baladəst] 1) yuxarı, yüksək, böyük (*vəzifəcə*); 2) yuxarı baş, yuxarı tərəf; نشستن ~ yuxarı başda oturmaq

بالاشتراک [beleşterak] *bax* بالاتفاق

بالانس [balans] balans, tarazlıq, müvazinət

بالایی [balayi] yuxarıdakı, yuxarıda yerləşən; خانهٔ ~ yuxarıdakı ev

بالدار [baldar] qanadlı

بالش [baleş] balış; yastıq; ◊ نرم ~ زیر سر کسی گذاشتن başının altına yastıq qoymaq, arxayın salmaq

بال شکسته [balşekəste] 1) qanadısınıq; qanadısınmış (*quş*); 2) dərdli, qəmli, bədbəxt

بالعکس [beləks] əksinə

بالغ [baleğ] 1) həddi-büluğa çatmış, yetkin, kamil; 2) çox, artıq

بالکل [belkol(l)] büsbütün, tamam, tamamilə

بالکلیه [belkolliye] *bax* بالکل

بالکن [balkon] balkon, eyvan

بالمره [belmərre] 1) bilmərrə, birdəfəlik; 2) *bax* بالکل

بال و پر [balopər] qol-qanad

بالیدن [balidən] 1) fəxr etmək, iftixar etmək, qürur duymaq; 2) böyümək, inkişaf etmək

بالین [balin] 1) baş tərəf; 2) *bax* بالش; بر ~ بیمار نشستن xəstənin yastığı yanında oturmaq; به ~ کسی رفتن xəstənin yanına getmək

بام [bam] dam, evin üstü, evin örtüyü

بامداد [bamdad] səhər, sübh

بامدادان [bamdadan] səhər vaxtı, sübh çağı; sübh tezdən

بامزگی [baməzegi] ləzzət, dadlılıq (*yemək*)

بامزه [baməze] 1) xoşməzə, dadlı, ləzzətli (*yemək*); خوراک ~ dadlı yemək; 2) *dan.* baməzə, zarafatcıl, xoşsöhbət; شخص ~ baməzə adam

بامگاه [bamqah] *bax* بامدادان

بان [ban] *bax* بام

باند [band] I 1) lent; 2) *tib.* bint, sarğı; 3) zolaq, dar yol

باند [band] II 1) banda, quldur dəstəsi, cinayətkar qrup; 2) qrup, qruplaşma

بانداژ [bandaj] 1) bandaj, sarğı, sarıq; 2) sarıma, bağlama; کردن ~ sarımaq, bağlamaq

باندپیچی [bandpiçi] bintləmə, bintlə sarıma, bağlama

باندرول [banderol] *bax* سرچسب؛ بر چسب

بانزاکت [banezakət] nəzakətli, tərbiyəli, mərifətli

بانشاط [baneşat] şad, şən, fərəhli

بانک [banke] banka, bərni, şüşə qab

بانگ [bang] 1) səs; ban; ~ جرس zınqırov səsi; ~ خروس xoruz banı, xoruz səsi; 2) fəryad, nalə, şivən; ~ زدن a) fəryad etmək, nalə etmək; b) qışqırmaq; səsləmək; yanına çağırmaq

بانمک [banəmək] şirin, duzlu, xoşagəlim; ~ دختر şirin qız uşağı

بانو [banu] qadın, xanım, xatın, xanım-xatın

بانی [bani] *bax* بنیان گذار

باور [bavər] inanma, inam; etiqad; باورم نیست ~ داشتن (کردن) inanmaq; inanmıram

باوفا [bavəfa] vəfalı, sədaqətli

باوقار [bavoğar] vüqarlı, mətin; təmkinli

باه [bah] cinsi instinkt; cinsi me-
...yil; ~ قوه cinsi qabiliyyət ...

باهنر [bahonər] bacarıqlı, istedadlı, qabiliyyətli, fərasətli

باهوش [bahuş] ağıllı, fərasətli, düşüncəli

باید [bayəd] gərək, lazım; چه ~ کرد nə etmək lazımdır

بایر [bayer] xam, əkilməmiş, işlənməmiş; ~ زمین xam torpaq

بایست [bayest] *bax* باید

بایسته [bayeste] lazım, vacib, zəruri

بایع [baye'] satıcı, satan

بایکوب [baykot] *bax* تحریم

بایگان [bayqan] arxiv işçisi; arxiv müdiri

بایگانی [bayqani] 1) arxiv, xəzinə (*kitab, sənəd saxlanılan yer*); 2) sənədlər; qeydiyyata alma; 3) arxiv işi

ببر [bəbr] bəbir

بپا [bepa] *dan.* gözətçi, qarovul

بت [bot] 1) büt; 2) gözəl, sevgili

بتانه [bətane] zamaska, zamaskalama

بت پرست [botpərəst] bütpərəst

بتدریج [betədric] tədriclə, tədricən, yavaş-yavaş

بتر [bətər] بدتر sözünün qısaldılmış şəkli: daha pis, betər

بتن [beton] *bax* بتون

بتول [bətul] 1) ağıllı; 2) məsum, günahsız; bakirə; 3) dindar, mömin (*qadın*)

بتون [beton] beton

بتون آرمه [betonarme] armatur, dəmir-be...

باهر [baher] 1) görünən, nəzərə çarpan; 2) aşkar, aydın; 3) görkəmli, parlaq, gözəl

باهم [bahəm] birgə, birlikdə, bərabər; شدن ~ birgə olmaq; müttəfiq olmaq

بتون ریزی [betonrizi] betontökmə

بتون سازی [betonsazi] beton istehsalı; ~ دستگاه betonqarışdıran maşın (*qurğu*)

بجا [beca] yerində, yerli-yerində; vaxtında

keçən, əfv

) rəhm et-
mərhəmət

nd hakimi;

بجز [becoz] başqa, qeyri, savayı; همه آمدند ~ علی Əlidən başqa, hamı gəldi

بچشم [beçəşm] baş üstə, göz üstə

بچگانه [bəç(ç)eqane] uşaq üçün, uşaqlara məxsus; ~ لباس uşaq paltarı

بچگی [bəç(ç)egi] uşaqlıq; uşaqlıq çağı

بچه [bəç(ç)e] uşaq; اول ~ ilk övlad; ته تغاری ~ sonbeşik; ~ سرراهی atılmış uşaq; آوردن ~ *dan.* doğmaq; övlad sahibi olmaq; انداختن ~ uşaq salmaq; کردن ~ nəsil artırmaq

بچه دار [bəç(ç)edar] uşaqlı, uşağı olan

بچه دان [bəç(ç)edan] *anat.* uşaqlıq

بچه گربه [bəç(ç)eqorbe] pişik balası

بچه ننه [bəç(ç)enənə] ana uşağı, ərköyün, şıltaq

بحبوحه [bohbuhe] qızğın çağ (*vaxt*); cırhacır; بیماری ~ xəstəliyin şiddətli vaxtı; گرما ~ istinin cırhacırı

بحث [bəhs] mübahisə, müzakirə, disput, diskussiya; شدن ~ müzakirə olunmaq; کردن ~ müzakirə etmək; mübahisə etmək

بحر [bəhr] I *c.* بحار [bəhar] dəniz; خزر ~ Xəzər dənizi

بحر [bəhr] II *c.* بحور [bohur] *ədəb.* bəhr (*əruz vəzninin ölçüləri*); رمل ~ rəmel bəhri

بحران [bohran] böhran; اقتصادی ~ iqtisadi böhran, انرژی ~ enerji böhranı; بیماری ~ xəstəliyin böhranı

بحرانی [bohrani] böhranlı; وضع ~ böhranlı vəziyyət

بحق [behəğ(ğ)] 1) doğrusu, düzü; 2) doğru, düz

بحمدالله [behəmdollah] Allaha şükür

به به [bəx] *bax*

بخار [boxar] *c.* ابخره [əbxere] buxar, buğ; آب ~ su buxarı; سیرشده ~ doymuş buxar; شدن ~ buxarlanmaq, buğlanmaq

بخار خانه [boxarxane] qazanxana

بخارسنج [bo...çən (*cihaz*)

بخاری [boxari] soba, peç; برقی ~ elektrik peçi; نفتی ~ keroqaz, kerosin sobası

بخ بخ [bəxbəx] *bax* به به

بخت [bəxt] bəxt, qismət, tale

بخت آزمایی [bəxtazmayi] 1) lotereya; 2) bəxti sınama, risk

بختانه [bəxtane] bəxtəbəxt; təsadüfən

بخت برگشته [bəxtbərgəşte] bəxtidönük, bəxtiqara, bədbəxt

بختک [bəxtək] qarabasma, vahimə, kabus, qorxulu yuxu

بختور [bəxtəvər] bəxtəvər, xoşbəxt

بخته [bəxte] 1) üç-dörd yaşlı qoç; 2) yağlı (*heyvan*); 3) böyük quyruq

بختیار [bəxt(i)yar] *bax* بختور

بخرد [bex(e)rəd] ağıllı, bilikli, müdrik

بخش [bəxş] 1) hissə, pay; 2) şöbə; 3) inzibati bölgü vahidi, rayon

بخشایش [bəxşayeş] 1) günahları bağışlama, əfv etmə, günahlardan keçmə; 2) amnistiya

بخشاینده [bəxşayəndə] günahları... bağışlayan, günahlardan edən

بخشاییدن [bəxşayidən] ...mək, şəfqət göstərmək, göstərmək; 2) *bax* بخشیدن

بخش دار [bəxşdar] kə... mahal hakimi

بخشش [bəxşeş] hədiyyə, bəxşiş, töhfə; **کردن ~** bağışlamaq

بخش نامه [bəxşname] göstəriş, əmr, sərəncam

بخشنده [bəxşənde] bağışlayan; rəhmli (*daha çox Allah haqqında işlənir*)

بخصوص [bəxosus] *bax* **بویژه**

بخل [boxl] 1) paxıllıq; qısqanclıq; 2) xəsislik, simiclik

بخشیدن [bəxşidən] 1) bağışlamaq, hədiyyə etmək; 2) əfv etmək, günahından keçmək

بخور [boxur // bəxur] 1) ətirli maddə; yandırılarkən ətir saçan qatran; 2) *tib.* inhalyasiya

بخیل [bəxil] 1) paxıl; qısqanc; 2) xəsis, simic

بخیلی [bəxili] *bax* **بخل**

بخیه [bəxye] 1) baxya, tikiş, sıx tikiş; 2) *tib.* tikiş qoyma; **~ زدن (کردن)** a) baxyalamaq, tikmək; b) *tib.* tikiş qoymaq

بد [bəd] pis, xoşagəlməz, yaman

بداختر [bədəxtər] bədbəxt, bəxti gətirməyən, talesiz

بداندیش [bədəndiş] bədxah, pisfikirli, pisniyyət

بداهت [bədahət] 1) bədahətən demə, düşünmədən sinədən demə; fikirləşmədən şeir söyləmə; 2) aydınlıq, aşkarlıq

بداهتا [bədahətən] bədahətən, fikirləşmədən, birdən-birə

بدایت [bedayət] başlanğıc, əvvəl

بدایع [bədaye'] *t.* **بدیعه**; yeniliklər; yeni şeylər; qəribəliklər

بدبخت [bədbəxt] bədbəxt, uğursuz, talesiz, bəxti gətirməyən

بدبختانه [bədbəxtane] bədbəxtlikdən

بدبختی [bədbəxti] bədbəxtlik

بدبده [bədbəde] *bax* **بلدرچین**

بدبو [bədbu] pisqoxulu, pisiyli; iylənmiş

بدبین [bədbin] bədbin, pessimist

بدبینی [bədbini] bədbinlik, pessimistlik, pessimizm

بدجنس [bədcens] 1) bədcins, pis, yaman; yaramaz; 2) kinli; hiyləgər; 3) qəddar, zalım

بدجنسی [bədcensi] 1) bədcinslik, pislik, yaramazlıq; 2) kinlilik, hiyləgərlik

بدچشم [bədçeşm] 1) şorgöz; 2) paxıl; 3) bədnəzər

بدخواه [bədxah] bədxah, pisfikirli, kinli, pisniyyətli

بدخواهی [bədxahi] bədxahlıq, qərəzkarlıq; kinlilik

بدذات [bədzat] 1) bədəsil, zatıqırıq; 2) *bax* **بدجنس**

بدر [bədr] bədr, bütöv ay, ondördgecəlik ay

بدرستی [bedorosti] həqiqətən, doğrusu, doğrudan, düzü

بدرفتار [bədrəftar] ədəbsiz, tərbiyəsiz, kobud

بدرفتاری [bədrəftari] ədəbsizlik, tərbiyəsizlik, kobudluq

بدرقه [bədrəğe] müşayiət etmə; **~ شدن** müşayiət olunmaq; **~ کردن** müşayiət etmək

بدرود [bedrud] xudahafizləşmə, vidalaşma, sağollaşma; **~ گفتن** vidalaşmaq, xudahafizləşmək, sağollaşmaq; ayrılmaq

بدسرشت [bədsereşt] *bax* **بدجنس**

بدسگال [bədseqal] *bax* **بداندیش**

بدسلیقه [bədsəliğe] səliqəsiz, zövqsüz

بدطینت [bədtinət] *bax* **بد جنس**

بدعاقبت [bədağebət] aqibəti pis, sonu pis, pis nəticələnən

بدقلق [bədğeleğ] tərs, inadcıl, xasiyyəti pis

بدقواره [bədğəvare] yöndəmsiz; yaraşıqsız, biçimsiz, səliqəsiz

بدقیافه [bədğiyafe] çirkin, kifir

بدگمان [bədqoman] bədgüman; inanmayan; şübhələnən

بدگمانی [bədqomani] bədgümanlıq, inanmama, şübhələnmə

بدگو [bədqu] böhtançı, iftiraçı, şərçi

بدل [bədəl] 1) əvəz, əvəz edən; 2) qarşılıq, ekvivalent; 3) saxta, qəlp; **~ شدن** əvəz olunmaq; **~ کردن** əvəz etmək

بدمزه [bədməze] dadsız, ləzzətsiz, tamsız; şit

بدن [bədən] *c.* **ابدان** [əbdan] bədən, gövdə

بدنام [bədnam] bədnam, adı pisliyə çıxmış, rüsvay edilmiş, biabır olmuş; **~ شدن** bədnam olmaq, rüsvay olmaq, biabır olmaq; **~ کردن** bədnam etmək, rüsvay etmək

بدنامی [bədnami] bədnamlıq, rüsvayçılıq, biabırçılıq

بدنظر [bədnəzər] *bax* **بد چشم**

بدن نما [bədənnəma // bədənnema] şəffaf, çox nazik (*paltar*), bədəngöstərən (*paltar*)

بدنه [bədəne] gövdə, korpus

بدنهاد [bədnehad] *bax* **بدجنس**

بدنهادی [bədnehadi] *bax* **بدجنسی**

بدو [bədv] başlanğıc, giriş; əvvəl

بدو [bedou] qaça-qaça; **~ رفتن** qaça-qaça getmək

بدواً [bədvən] əvvəl, əvvəlcə; əvvəldən, başdan

بدون [bedun] –sız, –siz, –suz, –süz mənasını bildirən ön qoşma: **~ تردید (شک)** şəksiz, şübhəsiz; **~ تنفس** fasiləsiz; **~ گفتگو** sözsüz; **~ من** mənsiz; **~ وقفه** dayanmadan, durmadan

بدوی [bədvi] əvvəlki, ilkin, birinci

بدهکار [bedehkar] borclu; **~ بودن** borclu olmaq

بدهکاری [bedehkari] borc, verəcək

بدهی [bedehi] borc; **~ پرداخت** borcun ödənilməsi

بدی [bədi] pislik, yamanlıq, yaramazlıq; **~ کردن** pislik etmək, yamanlıq etmək

بدیع [bədi'] 1) yeni, yeni tətbiq olunan (*qayda-qanun və s.*); 2) nadir, müstəsna

بدیهه [bədihe] *bax* **بداهت 1)**

بدیهه گویی [bədihequyi] *bax bax* **بداهت 1)**

بدیهی [bədihi] 1) məlum, bəlli, aydın, açıq; aşkar, açıq-aşkar; 2) şübhəsiz, şəksiz, sözsüz

بذر [bəzr] *c.* **بذور** [bozur] tum, toxum, dən; **~ افشاندن** toxum səpmək, toxum əkmək

بذرافشان [bəzrəfşan] 1) toxumsəpən (*adam*); 2) toxumsəpən maşın

بذرافشانی [bəzrəfşani] toxum səpmə

بذل [bəzl] 1) səxavət, əliaçıqlıq 2) bəxşiş, hədiyyə; **~ کردن** hədiyyə etmək, bağışlamaq; **~ مرحمت کردن** mərhəmət göstərmək; **~ مساعی کردن** çalışmaq, səy göstərmək

بذله [bəzle] zarafat; məzəli söz

بذله گو [bəzlequ] zarafatçı, zarafatcıl, komik

بذله گویی [bəzlequyi] zarafatçılıq, zarafatcıllıq, komiklik

بر [bər] I 1) bar, bəhrə, meyvə; 2) fayda, xeyir

بر [bər] II 1) yönlük halın mənasını bildirən ön qoşma: -a, -ə: **او ~ نگریستم** ona baxdım; 2) "üstündə", "üzərində" mənasını bildirən ön qoşma: **بام ~** damda, evin üstündə

بر [bər(r)] torpaq, quru yer; çöl, səhra

برا [borra] kəsərli, iti

برابر [bərabər] 1) bərabər, eyni; 2) dəfə; **بیشتر ~ دو** iki dəfə artıq; **شدن ~** bərabərləşmək; **کردن ~** bərabər etmək, bərabərləşdirmək

برابری [bərabəri] 1) tənlik, bərabərlik, eynilik; 2) ekvivalentlik; uyğunluq

برات [bərat] *c.* **بروات** [bərəvat] çek, pul köçürmə, veksel

برادر [bəradər] qardaş; **~ تنی** doğma qardaş; **~ ناتنی** ögey qardaş

برادرانه [bəradərane] qardaşcasına

برادر خوانده [bəradərxande] qardaşlıq, qardaşlığa götürülmüş

برادرزاده [bəradərzade] qardaşoğlu

برادرزن [bəradərzən] qayın (*arvadın qardaşı*)

برادر شوهر [bəradərşouhər] qayın (*ərin qardaşı*)

برادری [bəradəri] qardaşlıq, qardaşcasına yanaşma; **~ دادن ~ دست** qardaşlıq əli uzatmaq, qardaşlıq yardımı etmək

براده [borade] metal qırıntısı

برازندگی [bərazəndegi] 1) yaraşma, yaraşıqlıq; 2) məlahət, cazibədarlıq, gözəllik; 3) uyğunluq, münasiblik

برازنده [bərazənde] 1) yaraşıqlı, cazibəli; 2) layiq, uyğun, münasib

برازیدن [bərazidən] 1) yaraşmaq; 2) uyğun gəlmək, münasib olmaq

براستی [berasti] düzü, doğrusu, həqiqətən

برآسودن [bərasudən] 1) istirahət etmək, dincəlmək

برآشفتن [bəraşoftən] *k.* **برآشوب** [bəraşub] acıqlanmaq, hirslənmək, qəzəblənmək; əsəbiləşmək, özündən çıxmaq

برافتادن [bəroftadən] 1) sıradan çıxmaq, məhv olmaq; 2) dəbdən düşmək, moddan düşmək

برافراختن [bərəfraxtən] *bax* **برافراشتن**

برافراشتن [bərəfraştən] qaldırmaq, ucaltmaq (*bayrağı*); sancmaq (*bayrağı*)

براق [bərrağ] parlaq, işıqlı, nurlu

برانداختن [bərəndaxtən] *k.* **برانداز** [bərəndaz] yıxmaq, devirmək, məhv etmək, sıradan çıxarmaq, yox etmək

برآورد [bəravərd // bəravord] 1) təxmini qiymət; 2) hesablama; 3) yekun, nəticə; **کردن ~** təxmini qiymət qoymaq

برآوردن [bəravərdən // bəravordən] *k.* **برآور** [bəravər // bəravor] 1) icra etmək, yerinə yetirmək; 2) ifa etmək; 3) yüksəltmək, qaldırmaq, ucaltmaq

برآویختن [bəravixtən] *k.* **برآویز** [bəraviz] güləşmək; tutaşmaq; yaxalamaq (*savaşda*)

برای [bəraye] 1) səbəb-məqsəd məzmununu bildirən ön qoşma: üçün; **تو ~** sənin üçün; 2) vaxt məzmununu bildirən ön qoşma; **این کار ~ یک ماه است** bu iş bir aylıqdır

برائت [bəraət] bəraət, təmizə çıxarma, haqlı çıxarma, reabilitasiya; **یافتن ~** bəraət qazanmaq

برباد [bərbad] bərbad, xarab, dağılmış

برباد رفته [bərbadrəfte] bada getmiş, zay olmuş, tələf olmuş, dağılmış, məhv olmuş

بربستن [bərbəstən] *k.* **بربند** [bərbənd] 1) *bax* **بستن 1**); 2) əlaqələndirmək, aid etmək

بربط [bərbət] bərbət (*simli musiqi aləti*)

برپا [bərpa] ayaqüstə, ayaqüstə durma; **داشتن ~** ayaqüstə saxlamaq; **کردن ~** təşkil etmək, düzəltmək, bərpa etmək

برتافتگی [bərtaftegi] əymə, əyilmə, əyrilik

برتافتن [bərtaftən] *k.* **برتاب** [bərtab] 1) burmaq, eşmək (*sapı*); 2) fırlatmaq, hərlətmək, döndərmək; 3) deşmək, deşik açmaq; 4) dözmək, səbir etmək

برتر [bərtər] daha üstün, daha yaxşı

برتری [bərtəri] üstünlük, imtiyaz; məziyyət, üstün keyfiyyət; **جستن ~** üstünlük qazanmaq; **دادن ~** üstünlük vermək; **داشتن ~** üstün olmaq

برج [borc] I 1) qala; 2) bürc, qüllə; **زهر مار◊ ~** üz-gözündən zəhrimar yağan

برج [borc] II *c.* **بروج** [boruc] bürc (*ulduzlar topası*)

برجا [bərca] 1) sabit, möhkəm, davamlı; 2) *bax* **بجا**

برجستگی [bərcəstegi] qabarıqlıq, qabarıq yer, çıxıntı; **برجستگیهای زمین** yer səthinin quruluşu (*relyef*)

برجستن [bərcəstən] *k.* **برجه** [bərcəh] atılmaq, hoppanmaq, sıçramaq, tullanmaq

برجسته [bərcəste] 1) qabarıq; 2) görkəmli, seçilmiş, məşhur; **~ دانشمند** görkəmli alim; 3) relyef; 4) nümunə, vəzə; məsul

برچسب [bərçəsb] yarlıq, etiket

برچیدگی [bərçidegi] bağlanma, ləğv edilmə (*müəssisənin*)

برچیدن [bərçidən] *k.* **برچین** [bərçin] 1) yığmaq, yığışdırmaq; 2) qaldırmaq; 3) seçmək; 4) ləğv etmək (*müəssisəni*)

برخاستن [bərxastən] *k.* **برخیز** [bərxiz] qalxmaq, ayağa qalxmaq, durmaq

برخورد [bərxord] 1) görüş, rastlaşma; 2) çarpazlaşma; 3) təmas, toxunma; **کردن ~** a) görüşmək, rastlaşmaq; b) çarpazlaşmaq; c) birbirinə toxunmaq; ç) yanaşmaq

برخوردار [bərxordar] 1) istifadə edən, faydalanan; 2) xoşbəxt, xoşbəxt yaşayan; **شدن ~** a) faydalanmaq, qazanmaq; b) xoşbəxt (*firavan*) yaşamaq

برخورداری [bərxordari] 1) istifadə etmə, faydalanma; 2) xoşbəxtlik, firavanlıq, rifah

برخوردگی [bərxordegi] inciklik, incimə, küsmə

برخوردن [bərxordən] 1) üz-üzə gəlmək; toqquşmaq; 2) görüşmək, təsadüfən görüşmək; 3) təsadüf etmək, rast gəlmək; rastlaşmaq; 4) incitmək, xətrinə dəymək; incimək

برخی [bərxi] bəzi; **از شاگردان ~** bəzi şagirdlər, şagirdlərdən bəzisi

برد [bərd] soyuq

برد [bord] 1) fayda, xeyir; mənfəət, qazanc; 2) uduş, udma

بردار [bordar] *riyaz.* vektor

برداشت [bərdaşt] 1) pul götürmə (*bankdan*); 2) qazanma, əldə etmə; 3) məhsul yığımı

برداشتن [bərdaştən] *k.* بردار [bərdar] 1) götürmək; almaq; qaldırmaq, yuxarı qaldırmaq; 2) sahib olmaq, malik olmaq

بردبار [bordbar] səbirli, dözümlü; təmkinli

بردباری [bordbari] səbir, dözüm; təmkin, təmkinlilik; ~ کردن səbir etmək, dözmək; təmkinli olmaq

بردگی [bərdegi] qulluq, kölelik, bəndəlik

بردن [bordən] *k.* بر [bər] 1) aparmaq; daşımaq; 2) udmaq, qalib gəlmək (*oyunda, yarışda*); 3) oğurlamaq

برده [bərdə] qul, kölə, bəndə

بررسی [bərresi // bərresi] öyrənmə; araşdırma; tədqiq etmə; ~ شدن öyrənilmək, araşdırılmaq; ~ کردن öyrənmək, araşdırmaq

برز [bərz] 1) əkin; 2) toxum, dən

برزگر [bərzgər] əkinçi

برزن [bərzən] rayon (*şəhərin*); məhəllə; küçə

برس [bərs] dəvə yüyəni

برس [b(o)ros] şotka

برش [boreş] I 1) kəsmə, kəsilmə; 2) yarıq, tikə, dilim; 3) biçim, biçmə; ~ لباس paltarın biçimi

برش [boreş] II 1) qətiyyət, əzm, əzmkarlıq; 2) işgüzarlıq; qabiliyyət; ~ داشتن a) qətiyyətli olmaq; b) işgüzar olmaq

برشتن [bereştən] qızartmaq, qovurmaq

برشته [bereşte] برشتن *f.-nin k.z.f.sif.;* qızardılmış, qovurulmuş

برشمردن [bərşemordən] *k.* برشمر [bərşemor] saymaq, hesablamaq

برص [bərəs] *tib.* ekzema (*dəri xəstəliyi*)

برعکس [bərəks] əksinə, əksinə olaraq

برف [bərf] qar; ~ دانه qar dənəciyi; می بارد (می آید) ~ qar yağır

برفاب [bərfab] 1) qar suyu; 2) buzlu su

برف بازی [bərfbazi] qartopu oyunu; ~ کردن qartopu oynamaq

برف پاک کن [bərfpakkon] 1) qarkürüyən (*adam*); 2) qartəmizləyən mexanizm (*avtomobildə*)

برف روبی [bərfrubi] qartəmizləmə; ~ کردن qar təmizləmək

برف ریزه [bərfrize] 1) sulu qar, qarlı yağış; 2) qırov

برق [bərğ] 1) ildırım, şimşək; 2) elektrik; ~ چراغ elektrik lampası; 3) parıltı, parlama, sayrışma; ~ زدن a) parıldamaq; sayrışmaq; b) göydə ildırım çaxmaq; ~ گرفتن elektrik cərəyanı vurmaq

برق آسا [bərğasa] ildırım kimi, şimşək kimi, sürətlə

برقرار [bərğərar] möhkəm, sabit, dəyişməz; ~ صلح möhkəm sülh; ~ شدن bərqərar olmaq, möhkəmlənmək; ~ کردن bərqərar etmək, möhkəmlətmək

برقراری [bərğərari] bərqərar olma, möhkəmlənmə, sabitləşmə

برق زدگی [bərğzədegi] elektrik cərəyanı vurma; ildırım vurma

برق سنج [bərğsənc] *fiz.* elektrometr, elektrikölçən (*cihaz*)

برقع [borğə'] üz örtüyü, örtük, duvaq

برقی [bərği] elektrik; ~ اتوی elektrik ütüsü; ~ بخاری elektrik sobası

برکت [bərəkət // bərekət] bərəkət; bolluq, firavanlıq

برکت دار [bərekətdar] bərəkətli, bol, məhsuldar

بر کشیدن [bərkeşidən] 1) irəli sürmək; qabağa çəkmək; 2) qaldırmaq, ucaltmaq, yüksəltmək; 3) çıxartmaq

برکناری [bərkənari // bərkenari] azadetmə, işdən çıxarma

بر کندن [bərkəndən] qoparmaq, kökündən çıxarmaq

برکه [berke] gölməçə, su anbarı (*kiçik*)

برگ [bərg] 1) yarpaq, ~ گل gül yarpağı; 2) vərəq; 3) vərəqə; kart (*oyun*)

برگذار [bərqozar] *bax* برگزار

برگزاری [bərqozari] *bax* برگزاری

برگردان [bərgərdan] 1) surətçıxaran kağız, nazik qara kağız; 2) tərcümə; 3) köçürmə (*pul əmanətini*)

برگرداندن [bərgərdandən] 1) qaytarmaq; geri qaytarmaq, geri göndərmək; 2) çevirmək, tərcümə etmək

برگردیدن [bərgərdidən] *bax* برگشتن

برگرفتن [bərgereftən] *k.* برگیر [bərgir] 1) götürmək, ələ gətirmək, ələ keçirmək; 2) yığmaq, dərmək

برگ ریزان [bərgrizan] yarpaq tökümü; xəzan, xəzan vaxtı; ~ موسم yarpaq tökümü

برگزار [bərqozar] həyata keçirmə, yerinə yetirmə; ~ شدن a) həyata keçirilmək, yerinə yetirilmək; b) qurtarmaq, başa çatdırmaq; c) qeyd edilmək, keçirilmək (*bayram, yubiley*); ç) təşkil edilmək; ~ کردن a) həyata keçirmək, yerinə yetirmək; b) başa çatmaq; c) qeyd etmək, keçirmək (*bayramı, yubileyi*); ç) təşkil etmək

برگزاری [bərqozari] qeyd etmə; keçirmə, keçirilmə (*tədbir*); ~ انتخابات seçkilərin keçirilməsi

برگزیدن [bərqozidən] *k.* برگزین [bərqozin] 1) seçmək; 2) üstünlük vermək, üstün tutmaq

برگزیده [bərqozidə] برگزیدن *f.-nin k.z. f.sif.;* 1) seçmə, seçilmiş; ~ اشعار seçilmiş şeirlər; 2) bəyənilmiş; üstünlük verilmiş

برگشت [bərgəşt] 1) qayıtma, geri dönmə; 2) qaytarma, qaytarılma; 3) ləğv etmə

برگشتن [bərgəştən] *k.* برگرد [bərgərd] 1) qayıtmaq, geri dönmək; 2) çevrilmək, yıxılmaq; arxası üstə düşmək

برگماشتن [bərgomaştən] *k.* برگمار [bərqomar] 1) təyin etmək; 2) səlahiyyət vermək; həvalə etmək

برگه [bərge] I 1) kartoçka; 2) qapaq (*cibdə*); 3) meyvə dilimi; 4) ətək (*paltarda*)

برگه [bərge] II sübut, dəlil

برله [bərləh] lehinə, xeyrinə

برلیان [berelyan] brilyant

برملا [bərmələ] 1) məlum, bəlli, aydın, aşkar, açıq-aşkar; 2) ifşa edilmiş; üstü açılmış; ~ شدن a) məlum

olmaq; b) :fşa olunmaq; کردن ~ a) aşkara çıxarmaq; b) ifşa etmək

برنا [borna] gənc, cavan

برنامه [bərname] 1) plan; proqram; 2) cədvəl; 3) reqlament

برنامه ریزی [bərnamerizi] planlaşdırma; کردن ~ planlaşdırmaq

برنج [berenc] I düyü; سفید نکرده ~ təmizlənməmiş düyü

برنج [berenc] II bürünc; latun; sarı mis

برنده [bərənde] udan (*yarışda*), qalib, qalib gələn; مسابقه ~ yarışın qalibi

برنده [borənde] iti kəsən, kəsici (*alət*); تیغ ~ iti qılınc

برنز [bronz] bürünc, tunc

برنش [bronş] bronxlar

بر نشستن [bərneşəstən] *k.* برنشین [bərneşin] minmək (*ata*); برتخت ~ taxta çıxmaq

برنشیت [bronşit] bronxit

بر نهادن [bərnəhadən] *bax* نهادن

برودت [borudət] 1) soyuq, soyuqluq; sərinlik; 2) laqeydlik, soyuqluq (*münasibətdə*)

بروز [boruz] aşkar olma, aşkara çıxma, bilinmə, məlum olma; دادن ~ aşkar etmək, büruzə vermək, məlum etmək; کردن ~ aşkar olmaq, bilinmək

برومند [borumənd // bərumənd] 1) bar verən, meyvə verən, bəhrəli, məhsuldar; 2) uğurlu, xoşbəxt; 3) güclü, qüvvətli

برون [borun] bayır, xaric, çöl tərəf, görünən hissə

بره [bərre] quzu

برهان [borhan] *c.* براهین [bərahin] dəlil, sübut; آوردن ~ dəlil gətirmək, dəlil-sübut gətirmək

برهم [bərhəm] 1) dolaşıq, dolaşdırılmış; pırtlaşıq; qarışdırılmış; 2) dilxor, pərt; خوردن (شدن) ~ a) dolaşmaq, dolaşıq salınmaq, qarışdırılmaq; b) dilxor olmaq, pərt olmaq; زدن ~ a) dolaşdırmaq, qarışdırmaq; b) pozmaq, korlamaq (*əlaqəni, münasibəti*)

برهم خوردگی [bərhəmxordegi] 1) dolaşıqlıq; qarışıqlıq; 2) həyəcan; pozğunluq (*ruhi*)

برهنه [berehne // bərəhne] çılpaq, lüt, soyunmuş, yalın; پا ~ ayaqyalın, سر ~ başıaçıq; شمشیر ~ sıyrılmış qılınc; شدن ~ çılpaqlaşmaq; soyunmaq; کردن ~ soyundurmaq

بری [bəri] təmiz, pak; günahsız, məsum

بری [bərri] 1) quru, quru yer; 2) vəhşi; حیوانات ~ quruda yaşayan vəhşi heyvanlar

بریان [beryan] qızardılmış, qovrulmuş; گندم ~ qovurğa; گوشت ~ qızardılmış ət

بریدگی [boridegi] 1) kəsik, yarıq; 2) kəsmə; pozma (*əlaqələri*)

بریدن [boridən] *k.* بر [bor] 1) kəsmək, qırmaq; 2) doğramaq; yarmaq; çapmaq; 3) kəsmək, biçmək (*parçanı, paltarı*); درخت را ~ ağacı kəsmək (*doğramaq*); 4) amputasiya etmək; 5) əlaqəni kəsmək

بریده [boride] بریدن *f.-nin k.z.f.sif.*; 1) kəsilmiş, qırılmış; 2) doğranmış, yarılmış, çapılmış; 3) kəsilmiş, biçilmiş (*parça, paltar*); 4) amputasiya edilmiş

بریده بریده [borideboride] 1) qırıqqırıq, kəsik-kəsik; 2) rabitəsiz, əlaqəsiz

بز [boz] keçi; کوهی ~ dağkeçisi; ◊ آوردن ~ bəxti gətirməmək; خریدن ~ ucuz qiymətə (*keçi qiymətinə*) almaq; گرفتن ~ xamlamaq, ucuz qiymətə satın almaq

بزاز [bəzzaz] parçasatan

بزباش [bozbaş] bozbaş

بزاق [bozağ] ağız suyu, tüpürcək

بزدل [bozdel] qorxaq, cəsarətsiz, üreksiz

بزرگ [bozorg] 1) böyük, iri, yekə; ulu; سنگ ~ yekə daş; 2) böyük, məşhur; adlı-sanlı; دانشمند ~ böyük alim, məşhur alim; شدن ~ böyümək, yaşa dolmaq; کردن ~ böyütmək

بزرگان [bozorqan] 1) böyüklər, görkəmli şəxsiyyətlər, məşhur adamlar; 2) müdriklər, alimlər

بزرگداشت [bozorgdaşt] 1) hörmət, ehtiram; 2) xatirə gecəsi, anma mərasimi; yubiley

بزرگراه [bozorgrah] *bax* اتوبان

بزرگسال [bozorgsal] yaşlı, qoca

بزرگ منش [bozorgmənəş] 1) nəcib, alicənab; 2) məğrur, qürurlu

بزرگوار [bozorgvar] hörmətli; şərif, nəcib, alicənab; genişürəkli

بزرگواری [bozorgvari] böyüklük, əzəmət, alicənablıq, genişürəklilik

بزرگی [bozorgi] 1) böyüklük, əzəmət; 2) alicənablıq; داشتن ~ alicənab olmaq; کردن ~ a) böyüklük etmək; idarə etmək; b) alicənablıq etmək

بزغاله [bozğale] çəpiş, keçi balası

بزک [bəzək] bəzək, zinət; اسباب ~ bəzək əşyaları; کردن ~ bəzəmək, zinət vurmaq

بزم [bəzm] qonaqlıq; şənlik məclisi; مجلس ~ کردن ~ məclis qurmaq; کسی را چیدن ~ ◊ birisinin haqqında əfsanə danışmaq

بزمگاه [bəzmqah] şadlıq sarayı

بزن [bezən] *dan.* dalaşqan, savaşqan, davakar

بزن بزن [bezənbezən] *dan.* dava, dava-dalaş, savaşma

بزن بهادر [bezənbəhador] qoçu; cəsur, igid

بزنگاه [bezənqah] *dan.* münasib vaxt, uyğun vaxt, fürsət

بزن و بکوب [bezənobekub] *dan.* çalçağır, çalıb-oynama, şənlik məclisi

بزودی [bezudi] tezliklə; bu yaxınlarda, bu günlərdə

بزور [bezur] zorla, güclə; çətinliklə

بزه [bezeh] günah, təqsir, suç

بزه کار [bezehkar] günahkar, təqsirkar, suçlu

بس [bəs] 1) bəs, kifayət; است ~ bəsdir, kifayətdir; 2) çox; həddindən çox; دشواراست ~ çox çətindir; کردن ~ qurtarmaq, sakit olmaq, danışmamaq; کن ~! qurtar! bəsdir!

بسا [bəsa] çox, xeyli, lap çox; چه ~ nə çox

بساط [bəsat // besat] 1) döşəmə, döşənmə; fərş; 2) ləvazimat, ev əşyaları, ev avadanlığı; mebel; انداختن (آراستن) ~ a) fərş döşəmək; süfrə açmaq; b) malları satış üçün qoymaq; برچیدن ~ a) süfrəni yığışdırmaq; b) bankrot olmaq, iflasa uğramaq, müflis olmaq

بستان [bostan] *c.* بساتین [bəsatin] bostan; gülüstan; bağ

بستانکار [bestankar] kreditor, kreditverən, borcverən

بستر [bəstər] 1) yataq; خواب ~ yorğan; 2) yataq (*çayda*); رودخانه ~ çayın yatağı

بستری [bəstəri] yorğan-döşəkdə yatan xəstə; yorğan-döşəyə düşən xəstə; **شدن ~** yorğan-döşəkdə yatmaq (*xəstə*); xəstəxanaya düşmək; **کردن ~** yorğan-döşəkdə yatırmaq (*xəstəni*), xəstəxanada yatırmaq

بستگی [bəstegi] 1) bağlılıq, asılılıq; aidlik; əlaqə; 2) yaxınlıq, qohumluq

بستن [bəstən] *k.* **بند** [bənd] 1) bağlamaq; **~ در را** qapını bağlamaq; **~ طناب را به درخت** kəndiri ağaca bağlamaq; 2) ləğv etmək; 3) qadağan etmək; 4) örtmək; **~ روی خود را** üzünü örtmək

بستنی [bəstəni] dondurma

بستو [bəstu] kiçik saxsı kuzə

بسته [bəstə] [illegible] *p. f. of* بستن 1) bağlı, bağlanmış; **~ در** bağlı qapı; 2) örtülü, örtülmüş; **~ سر** başı örtülü, başı örtülmüş; 3) yumulmuş; qapanmış; **~ چشم** yumulu göz; **~ به چیزی بودن** bir şeyə bağlı olmaq, nədənsə asılı olmaq; ◊ **~ به آخور** müftəxor

بسته بندی [bəstəbəndi] bağlama, yığıb-bağlama, qablaşdırma; **~ کردن** bağlamaq

بسزا [bəsəza // beseza] 1) layıq, ləyaqətli; 2) layıqınca, ləyaqətlə

بسکتبال [bəsketbal] basketbol

بسنده [bəsənde] kifayət, kifayət qədər

بسی [bəsi] lap çox; **مشکل ~** çox çətin

بسیار [bəsyar] çox, çoxlu, bol; **خوب ~** çox yaxşı

بسیج [bəsic] səfərbərlik; **~ عمومی** (همگانی) ümumi səfərbərlik; **~ کردن** səfərbər etmək

بسیط [bəsit] 1) geniş, əhatəli, müfəssəl; 2) *gram.* sadə; **~ کلمهٔ** sadə söz

بشارت [beşarət] gözaydınlığı, müjdə, şad xəbər; **~ دادن** şad xəbər vermək, müjdə vermək

بشاش [bəşşaş] şad, şən, fərəhli

بشاشت [bəşaşət] şadlıq, sevinc

بشر [bəşər] bəşər, insan, adam; **~ نوع** bəşəriyyət

بشردوست [bəşərdust] insanpərvər, humanist

بشر دوستانه [bəşərdustane] insanpərvərliklə, humanistcəsinə

بشردوستی [bəşərdusti] insanpərvərlik, humanistlik, humanizm

بشری [bəşəri] bəşəri, insani

بشریت [bəşəriyyət] bəşəriyyət, insanlıq

بشقاب [boşğab] boşqab; **~ تخت** (لب) (**تخت** dayaz boşqab; **~ گود** dərin boşqab

بشقاب پرنده [boşğabpərənde] uçan boşqab

بشکن [beşkən] çırtıq; **~ زدن** çırtıq çalmaq

بشکه [boşke] 1) boçka, çəllək; 2) barel; **~ نفت هزار** min barel neft

بشیر [boşir] şad xəbər gətirən, müjdəçi, muştuluqçu

بصارت [bəsarət] *bax* **بصیرت**

بصر [bəsər] 1) görmə, görmə hissi; 2) *c.* **ابصار** [əbsar] göz

بصل النخاع [bəsələnnoxa'] *anat.* haram iliyi

بصیر [bəsir] gözüaçıq, fərasətli, ağıllı

بصیرت [bəsirət] uzaqgörənlik; gözüaçıqlıq, fərasətlilik; ağıllılıq, müdrüklük

بضاعت [bəzaət] 1) mal, var-dövlət, sərvət; **~ مالی** maddi sərvət; 2) maya, sərmayə; investisiya

بط [bətt] 1) ördək; 2) ördəkşəkilli bardaq

بطالت [betalət] 1) tənbəllik; 2) avaralıq, bekarçılıq

بطالت [bətalət] igidlik, cəsurluq, şücaət, qorxmazlıq

بطانه [bətane] 1) paltarın astarı; 2) *bax* **بتانه**

بطری [botri] butulka, şüşə

بطلان [botlan] 1) yalan, uydurma; 2) mənasızlıq, faydasızlıq; 3) təkzib, yalana çıxarma

بطن [bətn] *c.* **بطون** [botun] 1) bətn, qarın, gödən; 2) mədəcik (*ürəkdə*); 3) iç, daxil; 4) kiçik qəbilə

بطئ [bəti'] asta, yavaş, ləng

بعثت [be'sət] *din.* peyğəmbərlik, peyğəmbərlik missiyası

بعد [bə'd] sonra, sonrakı; **~ روز** sonrakı gün

بعد [bo'd] *c.* **ابعاد** [əb'ad] 1) uzaqlıq; 2) ölçü

بعدا [bə'dən] sonra, sonradan; axırda, nəticədə

بعضی [bə'zi] bəzi; **~ (از) دانشمندان** bəzi alimlər, alimlərdən bəzisi

بعید [bəid] 1) uzaq; **~ ماضی** *gram.* uzaq keçmiş, 2) qərib, əcaib; **~ نیست** mümkündür; istisna deyil; **~ شدن** uzaqlaşmaq, uzaq olmaq; **~ کردن** uzaqlaşdırmaq, kənarlaşdırmaq

بغایت [beğayət] çox, olduqca, son dərəcə

بغچه [boğçe] boğça, bağlama

بغرنج [boğrənc] mürəkkəb, dolaşıq; **~ مسایل** mürəkkəb (*dolaşıq*) məsələlər

بغض [boğz] qəzəb, hırs; nifrət; kin, ədavət, düşmənçilik; **~ کردن** a) qəzəblənmək, hırslanmaq; b) qəhərlənmək; **~ کسی ترکیدن** qəzəbdən (*kədərdən*) ağlamağa başlamaq; hönkürmək, ucadan ağlamaq; **~ گلوی کسی را گرفتن** qəhərlənmək; göz yaşları boğmaq

بغل [bəğəl] 1) qucaq; 2) qoltuq; **~ زیر** qoltuqaltı; 3) yan; kənar; **~ زدن** a) qucaqlamaq; b) qucağa almaq; c) başqasının bədbəxtliyinə sevinmək; **~ کردن** qucaqlamaq, qucağa almaq

بغلی [bəğəli] 1) yastı formalı qab (*mətərə*); 2) cibə qoyulan kitab və ya dəftər; ◊ **~ بچه** balaca uşaq; **~ ساعت** cib saatı

بقا [bəğa] 1) həmişəlik, daimilik, əbədilik; 2) davam, davam etmə

بقال [bəğğal] bəqqal, baqqalçılıqla məşğul olan; 2) bəqqal dükanı

بقالی [bəğğali] 1) bəqqal dükanı; 2) bəqqallıq peşəsi

بقعه [boğ'e] *c.* **بقاع** [boğa'] 1) yer torpaq sahəsi; 2) məqbərə, mavzole

بقیه [bəğiyye] *c.* **بقایا** [bəğaya] 1) qalıq, qalan hissə; qalanlar; d gör: **دانش اموزان ~** digər şagirdlər; 2) ard, davam, qalan hissə (*məqalənin, əsərin*); **دارد ~** ardı var; **مقاله ~** məqalənin ardı

بکارت [bekarət] bakirəlik, qızlıq; **گرفتن ~** bakirəliyi pozmaq

بکر [bekr] 1) qız, bakirə qız; 2) o jmal, özümlü; 3) xam, əkilməmiş; **زمین ~** əkilməmiş torpaq

بکلی [bekolli] tam, tamamilə, ta şəkildə, büsbütün; **او ~ شفا یافت** tam sağaldı

بگاه [beqah] vaxtında, öz vaxtın

بگو مگو [bequmoqu] *dial.* mub hirsə, dalaşma, dava-dalaş; **کردن** mübahisə etmək

بلا [bəla] bəla, bədbəxtlik, müsibət; qəm, kədər, sıxıntı; ~ به سر کسی آوردن kimənə bədbəxtlik gətirmək; kimisə dərdə salmaq

بلا [bela] inkarlıq məzmunu bildirən ön qoşma; ~ درنگ dərhal

بلا انگیز [bəlaəngiz] bəla gətirən, fəlakətli, dəhşətli

بلا تأخیر [belata'xir] təxirə salınmadan, dərhal, təcili

بلادیده [bəladide] bədbəxt, bəla görmüş, başı bəlalar çəkmiş

بلاعوض [belaəvəz] əvəzsiz, əvəzsiz olaraq

بلاغت [bəlağət] bəlağət, gözəl danışma qabiliyyəti, natiqlik istedadı; ~ علم bəlağət elmi, natiqlik sənəti, ritorika

بلافاصله [belafasele] fasiləsiz, dərhal, o saat

بلا کش [bəlakeş] bədbəxt, yazıq, zavallı, başıbəlalı

بلا کشی [bəlakeşi] bədbəxtlik, yazıqlıq

بلا گردان [bəlagərdan] 1) bəlanı götürən, bəladan xilas edən; 2) nəzir, sədəqə

بلال [bəlal] qarğıdalı

بلامدت [belamoddət] müddətsiz, möhlətsiz; həmişəlik

بلاواسطه [belavasete] bilavasitə, vasitəsiz, birbaşa

بلبل [bəlbəl] bülbül

بلد [bələd] I *c.* **بلاد** [belad] // **بلدان** [boldan] ölkə; şəhər; vilayət

بلد [bələd] II bələd, bələd olan; tanıyan, bilən; bələdçi; ~ بودن a) bilmək; bələd olmaq; b) tanış olmaq

بلدرچین [belderçin] bildirçin

بلدیت [bələdiyyət] bələdlik, bələd olma, tanışlıq

بلع [bəl'] udma (*yeməyi*); ~ کردن (*yeməyi*)

بلعجب [bəlecəb] çox təəccüblü, çox qəribə

بلعیدن [bəl'idən] udmaq (*yeməyi*)

بلغم [bəlğəm] bəlğəm

بلغم آور [bəlğəmavər] bəlğəmgətirən, bəlğəmgətirici; ~ دوای bəlğəmgətirən dərman

بلغمی [bəlğəmi] bəlğəmli

بلکه [bəlke] 1) bəlkə; 2) hətta; 3) əksinə

بلند [bələnd] 1) hündür, yüksək, uca; ~جای hündür yer; ~صدای yüksək səs; ~ کوه uca dağ; 2) uzun; ~ ریسمان uzun ip; 3) vacib, mühüm, əhəmiyyətli; ~ وظیفه mühüm vəzifə; شدن ~ ucaldılmaq; ucalmaq; کردن ~ a) uzatmaq; b) qaldırmaq, oyatmaq (*yuxudan*); c) ucaltmaq, dikəltmək

بلنداختر [bələndəxtər] xoşbəxt, uğurlu, xoştaleli

بلنداختری [bələndəxtəri] xoşbəxtlik, səadət

بلنداقبال [bələndeğbal] *bax* **بلنداختر**

بلنداقبالی [bələndeğbali] *bax* **بلند اختری**

بلند بالا [bələndbala] 1) hündürboylu, ucaboylu; ~جوان ucaboylu cavan; 2) *dan.* uzun; ətraflı; ~ قصه uzun bir nağıl

بلندپایه [bələndpaye] mühüm; məsul; yüksəkvəzifəli; ~ شخص yüksəkvəzifəli şəxs

بلندقامت [bələndğamət] hündürboylu, ucaboylu

بلندقد [bələndğəd(d)] *bax* **بلندقامت**

بلندگو [bələndqu] reproduktor; ~ برقی (الکتریکی) elektrik reproduktoru

بلندمرتبه [bələndmərtəbe] yüksəkvəzifəli, yüksəkrütbəli

بلوا [bəlva] qiyam, iğtişaş; ~ کردن qiyam etmək, iğtişaş törətmək

بلور [bolur // bəllur] 1) büllur; 2) kristal

پرپر [pərpər] quşların səsi, quşların qanad çalması; زدن ~ səs salmaq (*quşlar*); qanad çalmaq

پرپر [porpər] 1) çoxtüklü, tüklə örtülmüş (*quş*); 2) çoxyarpaqlı; گل• ~ çoxyarpaqlı çiçək

پرپشت [porpoşt] qalın, sıx; ~ موی• qalın saç

پرپهن [porpəhn] *bot.* pərpərəng

پرپیچ وتاب [porpiçotab] 1) əyri-üyrü, girintili-çıxıntılı; ~ راه• əyri-üyrü yol; 2) qıvrım; ~ موهای• qıvrım saçlar; 3) dolaşıq, mürəkkəb; ~ مسئله• dolaşıq məsələ

پرپیچ و خم وتاب [porpiçoxəm] *bax* پرپیچ

پرت [pərt] I *dan.* boş söz, mənasız söz; گفتن ~ mənasız danışmaq

پرت [pərt] II uzaq, əlçatmaz; kənar; شدن ~ uzağa atılmaq, tullanmaq; yıxılmaq; کردن ~ uzağa atmaq, tullamaq

پرتاب [pərtab] atma, tullama; ~• سنگ daş atma; پیک ~• peykin buraxılması; شدن ~ atılmaq, tullanılmaq; کردن ~ atmaq, tullamaq

پرتاب [portab] I 1) dolaşıq, qarışıq, qarmaqarışıq; 2) buruq, qıvrım; ~ موی• qıvrım saç

پرتاب [portab] II dözümlü, səbirli

پرتافتن [pərtaftən] *k.* پرتاب [pərtab] atmaq, tullamaq

پرتقال [portəğal] portağal

پرتو [pərtou] şüa, işıq; آفتاب ~• günəşin şüası; افکندن (انداختن) ~ işıq salmaq, işıq saçmaq, şüa saçmaq

پرتوافشان [pərtouəfşan] *bax* پرتوافکن

پرتوافکن [pərtouəfkən] işıqsaçan

پرتوافکنی [pərtouəfkəni] işıq saçma, şüa saçma; کردن ~ işıqlandırmaq, işıq saçdırmaq

پرتوان [portəvan] çox qüvvətli, çox güclü

پرت وپلا [pərtopəla] *dan.* dağınıq, hədərən-pədərən, boş-mənasız, cəfəngiyat; شدن ~ dağılmaq, səpilmək, səpələnmək; کردن ~ dağıtmaq, səpmək, səpələmək; گفتن ~ hədərən-pədərən danışmaq

پرتوشناس [pərtouşenas] rentgenoloq

پرتوشناسی [pərtouşenasi] rentgenologiya

پرتونگاری [pərtouneqari] rentgenoqrafiya

پرثمر [porsəmər] 1) çox səmərəli; bol meyvəli; ~ درخت• bol meyvəli ağac; 2) məhsuldar; faydalı; زحمت• ~ məhsuldar əmək

پرجثه [porcosse] cüssəli, bədənli, boy-buxunlu, yekəpər

پرجرأت [porcor'ət] çox cürətli, igid, qorxmaz

پرجگر [porcegər] *bax* پرجرأت

پرجمعیت [porcəm'iyyət] izdihamlı, əhalisi çox olan; ~ شهر əhalisi çox olan şəhər

پرجنب وجوش [porcombocuş] səs-küylü, gediş-gəlişli; ~ خیابانهای səs-küylü küçələr

پرجنجال [porcəncal] hay-küylü, cəncəlli, qalmaqallı

پرجوش [porcuş] 1) coşqun, dalğalanan, təlatümlü; ~ دریای təlatümlü dəniz; 2) isti, qaynar, qızğın; ~ سر isti (*hirsli*) baş; 3) səpki ilə dolu, səpmiş; ~ صورت səpki ilə dolu üz

پرجوش و خروش [porcuşoxoruş] coşqun, qaynar; ~ امواج coşqun dalğalar

پرچ [pərç] 1) pərçim, qadaq; 2) pərçimləmə, bağlama; ~ کردن pərçimləmək

پرچانگی [porçanegi] *dan.* uzunçuluq, boşboğazlıq, ~ کردن çərənçilik etmək; uzunçuluq etmək, boşboğazlıq etmək

پرچانه [porçane] *dan.* çərənçilik, çoxdanışan, boşboğaz, zəvzək, çərənçi

پرچ کاری [pərçkari] pərçimləmə; ~ هوایی pnevmatik pərçimləmə; ~آچار pərçimləmə kəlbətini

پرچم [pərçəm] bayraq; ~ سفید ağ bayraq (*təslimolma əlaməti*); ◊~زیر خدمت əsgəri xidmət

پرچمدار [pərçəmdar] bayraqdar

پرچیدن [pərçidən] pərçimləmək

پرچین [pərçin] 1) pərçin, pərçimləmə, qadaq; 2) çəpər, hasar; ~ شدن pərçimlənmək; ~ کردن a) pərçimləmək; b) hasarlamaq

پرچین [porçin] 1) qıvrım, qıvrılmış; ~ موی qıvrım saç; 2) qırışlı, qırışla dolu; ~ روی qırışlı sifət; 3) çinli, büzməli; ~ دامن büzməli (*çinli*) tuman (*yubka*)

پرحاصل [porhasel] 1) məhsuldar, bol məhsullu; ~ خاک məhsuldar torpaq; ~ فعالیت علمی məhsuldar elmi fəaliyyət; 2) meyvəli, barlıbəhərli (*ağac*)

پرحرارت [porhərarət] isti, qaynar, qızmar; alovlu; ~ تابستان qızmar yay; ~ سخنرانی alovlu çıxış

پرحرف [porhərf] *dan. bax* پرچانه

پرحرفی [porhərfi] *dan.* پرچانگی

پرحکمت [porhekmət] çox hikmətli, çox mənalı; ~سخن çox hikmətli söz

پرحوصله [porhousəle // porhousele] səbirli, dözümlü, çox hövsələli

پرخاش [pərxaş] 1) söyüş; 2) kobudluq; ~ کردن a) söyüş söymək, b) kobudluq etmək; به هم ~ کردن söyüşmək; dalaşmaq

پرخاشجو [pərxaşcu] davakar, dalaşqan

پرخاشجویی [pərxaşcuyi] davakarlıq, dalaşqanlıq

پرخاشگر [pərxaşgər] *bax* پرخاشجو

پرخاشگری [pərxaşgəri] *bax* پرخاشجویی

پرخرج [porxərc] çox xərcli, çox xərc tələb edən, çox məsrəfli, çox bahalı

پرخرد [porxerəd] *bax* پرعقل

پرخشم [porxəşm] çox qəzəbli, çox hirsli, çox acıqlı

پرخطر [porxətər] çox qorxulu, çox təhlükəli, riskli

پرخو [pərxou] I doğrama, budama (*ağacı*); ~ کردن doğramaq, budamaq (*ağacı*)

پرخو [pərxou] II anbar (*buğda, un üçün*)

پرخواب [porxab] 1) yuxulu; yatağan, yatmağı çox sevən; 2) çox xovlu, çox tüklü; ~ قالیچه çox xovlu xalça

پرخوار [porxar] çoxyeyən, qarınqulu

پرخواه [porxah] tamahkar, acgöz, dargöz

پرخور [porxor] *bax* پرخوار

پرخون [porxun] 1) qanlı, qanla dolu; ~ چشمان qanla dolu göz; ~ دل yaralı ürək, qanla dolu ürək; 2) al, qırmızı; ~ گونه alyanaq

پرداخت [pərdaxt] I ödəmə, ödənc, ödəniş; ~ شدن ödənilmək; ~ کردن ödəmək, vermək (*pulu*)

پرداخت [pərdaxt] II cilalama, hamarlama, parıldatma; retuş; ~ شدن cilalanmaq; retuşlanmaq; ~ کردن cilalamaq; retuşlamaq

پرداخت کننده [pərdaxt konənde] ödəyən, verən (*borcu, vergini*)

پرداختگر [pərdaxtgər] cilalayıcı, pardaqçı

پرداختن [pərdaxtən] *k.* پرداز [pərdaz] 1) ödəmək, vermək; ~ قرض را borcu ödəmək; 2) başlamaq, girişmək; məşğul olmaq; ~ به مطالعه mütaliə ilə məşğul olmaq

پرداختنی [pərdaxtəni] ödənilməli, ödəniləsi, ödənilməli olan

پرداختی [pərdaxti] ödənilmiş; ~ پول ödənilmiş pul

پردامنه [pordamənə] çox geniş, genişmiqyaslı, çox böyük; ~ اقدامات genişmiqyaslı tədbirlər

پردرد [pordərd] çox dərdli, çox qəmli, çox kədərli; çox ağrılı, çox ağrıdıcı; ~ زخم çox ağrılı yara

پردرد سر [pordərdesər] çox başağrıdan, çox çətin, çox ağır, çox yorucu, çox əziyyətli, çox əzablı; ~ کار çox əziyyətli iş

پردگی [pərdegi] 1) pərdəli; çadralı, üzü örtülü (*qadın*); 2) xeyirxah, səmimi (*qadın*)

پردل [pordel] ürəkli, çox cəsarətli, çox igid

پردماغ [pordəmağ] çox təkəbbürlü, çox dikbaş

پردوام [pordəvam] çox davamlı, çox möhkəm; ~ کفش çox davamlı ayayqqabı

پرده [pərde] 1) pərdə; ~ توری tül pərdə; ~ پنجره pəncərə pərdəsi; ~ در qapı pəncərəsi; 2) üz örtüyü, duvaq; 3) tablo; 4) qat, lay, təbəqə; 5) *anat.* pərdə, təbəqə; zar; qişa; qabıq; ~ بکارت qızlıq pərdəsi; ~ بینی burun pərdəsi; ~ قلب (دل) perikard, ürək kisəsi; ~ گوش (صماخ) qulaq pərdəsi; ~ انداختن pərdə asmaq; ~ برداشتن (برانداختن، برگرفتن) a) pərdəni qaldırmaq; b) *məc.* ifşa etmək, rüsvay etmək; c) sirri açmaq; ~ زدن (کشیدن) a) pərdə asmaq; b) örtmək, gizlətmək

پرده پوش [pərdepuş] 1) sirr saxlayan, sirr gizlədən; 2) ört-basdır edən (*eyibləri*)

پرده پوشی [pərdepuşi] 1) sirr saxlama, sirr gizlətmə; 2) ört-basdır etmə (*eyibləri*)

پرده دار [pərdedar] 1) *bax* پرده پوش; 2) pərdəli, pərdəsi olan

پرده در [pərdedər] 1) sirr açan; 2) başqasını rüsvay etməyə çalışan; 3) həyasız, vicdansız

پرده نشین [pərdeneşin] 1) çadralı (*qadın, qız*); 2) tərki-dünya, zahid

پررنگ [porrəng] tünd rəng, ~ چای• pürrəng çay; tünd çay

پررو [porru] üzlü, həyasız, sırtıq

پررویی [porruyi] üzlülük, həyasızlıq, sırtıqlıq

پرژه [p(o)roje] *bax* پروژه

پرز [porz] 1) xov, narın tük (*parçada, xalçada*); zərif tük (*meyvələrdə*)

پرزحمت [porzəhmət] çox ağır, çox əziyyətli; çox çətin, çox zəhmətli

پرزور [porzur] çox zorlu, çox güclü, çox qüvvətli, çox möhkəm; بازوی• ~ çox güclü qol; شدن ~ güclənmək, qüvvətlənmək; کردن ~ gücləndirmək, qüvvətləndirmək

پرس [pors] porsiya, pay

پرس [peres] 1) sıxma, təzyiq; 2) qısqac; press (*dəzgah*); 3) *idm.* ağırlıq qaldırma

پرسابقه [porsabeğe] çox təcrübəli; çox səriştəli; çox stajlı

پرسال [porsal] yaşlı, ahıl, qoca

پرسان [porsan] soruşan

پرسان پرسان [porsanporsan] soruşa-soruşa, xəbərləşə-xəbərləşə; soraqlaşa-soraqlaşa

پرسایه [porsaye] çox kölgəli, kölgəsi çox olan

پرستار [pərəstar] 1) şəfqət bacısı; 2) xəstəyə baxan; 3) dayə, uşağa baxan qadın

پرستارخانه [pərəstarxane] uşaq evi, yetimxana

پرستاری [pərəstari] xəstəyə baxma; کردن ~ xəstəyə baxmaq

پرستش [pərəsteş] pərəstiş, səcdə; کردن ~ pərəstiş etmək, səcdə etmək

پرستشگر [pərəsteşgər] pərəstiş edən, səcdə edən

پرستو [pərəstu] qaranquş

پرستیدن [pərəstidən] pərəstiş etmək, səcdə etmək

پرستیدنی [pərəstidəni] pərəstiş ediləsi, pərəstişə layiq

پرسرو صدا [porsəroseda] səsküylü (*küçə*); qalmaqallı (*hadisə*)

پرسش [porseş] sual, sorğu; کردن ~ sual vermək, soruşmaq

پرسش آمیز [porseşamiz] sualedici, sualdoğuran; نگاه• ~ sualedici baxış

پرسش نامه [porseşname] anket, sorğu vərəqəsi

پرسناژ [personaj] şəxs; personaj, surət (*dram əsərində*)

پرسنل [personel] personal, işçi heyəti; اداره• ~ kadrlar şöbəsi

پرسود [porsud] sərfəli, faydalı, xeyirli, qazanclı

پرسوز [porsuz] 1) çox işıqlı, parlaq, parlayan; شمع• ~ çox işıqlı şam; 2) qəmli, dərdli, yandırıcı, əzablı

پرسوزوگداز [porsuzoqodaz] *bax* پرسوز 2)

پرسوناژ [personaj] *bax* پرسناژ

پرسه [pərse] *dan.* veyllənmə, avaralanma, avara-avara gəzmə; زدن ~ veyllənmək, avaralanmaq, avara-avara gəzmək

پرسه [porse] *bax* پرسش

پرسیدن [porsidən] 1) soruşmaq; 2) sorğu-sual etmək; 3) baş çəkmək (*xəstəyə*), yoluxmaq, xəbər tutmaq

پرش [pəreş] 1) uçuş, uçma; مرغ• ~ quşun uçuşu; 2) tullanma; ارتفاع• ~ hündürlüyə tullanma; طول• ~ uzununa tullanma

پرشاخ و برگ [porsaxobərg] çox sıx budaqlı, çoxyarpaqlı

پرشتاب [porşetab] çox tələsik, təcili

پرشکم [porşekəm] *dan.* 1) yekəqarın; 2) qarınqulu, çoxyeyən

پرشکن [porşekən] çox qıvrım, çox qıvrılan (*saç*)

پرشکنج [porşekənc] *bax* پرشکن

پرشکوه [porşokuh] təntənəli, cahcalallı, dəbdəbəli; جلسه• ~ təntənəli iclas

پرشور [porşur] coşqun, həyəcanlı; سخنرانی• ~ həyəcanlı çıxış

پرشهامت [porşəhamət] cəsarətli, igid, qorxmaz

پرشهرت [porşohrət] çox şöhrətli, çox məşhur, adlı-sanlı, tanınmış

پرشهوت [porşəhvət] çox şəhvətli, çox ehtiraslı

پرشیب [porşib] çox enişli, çox sərt (*yer*)

پرصبر [porsəbr] çox səbirli, çox dözümlü

پرصبری [porsəbri] çox səbirlilik, çox dözümlülük

پرصدا [porsəda // porseda] uca səsli, gur səsli

پرصلابت [porsəlabət] 1) çox möhkəm, çox bərk; 2) çox ciddi

پرطاقت [portağət] *bax* پرصبر

پرطراوت [portəravət] çox təravətli, çox təzə; şirəli

پرطمع [portəmə'] çox tamahkar, çox acgöz, çox həris

پرطنین [portənin] *bax* پرصدا

پرعذاب [porəzab] çox əzablı, çox əziyyətli, çox ağır

پرعرض وطول [porərzotul] çox geniş, tutumlu, çox böyük

پرعظمت [porəzəmət] çox əzəmətli, çox dəbdəbəli, çox təntənəli

پرعقل [porəğl] çox ağıllı, çox müdrik; çoxbilmiş

پرغرور [porğorur] çox qürurlu, çox məğrur

پرغصه [porğosse] çox qüssəli, çox qəmli, çox kədərli

پرغم [porğəm] *bax* پرغصه

پرفروش [porforuş] tezsatılan, çoxalınan (*mal*)

پرفسور [p(o)rofesor] *bax* پروفسور

پرفشار [porfeşar] yüksəktəzyiqli

پرقیمت [porğeymət] *bax* پرارزش

پرک [pərək] 1) kiçik qanad (*quşlarda*); 2) ləçək; 3) ara; arakəsmə; بینی• ~ burun pərdəsi

پرکار [porkar] çox işləyən, fəal, işgüzar

پرکاری [porkari] işgüzarlıq, çalışqanlıq

پرگار [pərqar] pərgar

پرگناه [porqonah] çox günahkar, günahı çox olan

پرگس [pərgəs] Allah eləməsin, Allah göstərməsin

پرگست [pərgəst] *bax* پرکس

پرگنه [porqonəh] *bax* پرگناه

پرگو [porqu] *bax* پرحرف

پرگوشت [porquşt] ətli-canlı, kök, şişman, tosqun; شدن ~ kökəlmək

پرگوشتی [porquşti] köklük, şişmanlıq, tosqunluq

پرگویی [porquyi] *bax* پرحرفی

پرگیرودار [porgirodar] 1) qalmaqallı, cəncəlli, hadisələrlə dolu; 2) hayküylü; gurultulu, səs-küylü

پرلجن [porləcən] lilli, lil basmış; çirkli

پرما [pərma] *bax* پرماه

پرماجرا [pormacəra] macəralı, macəra ilə dolu

پرماه [pərmah] burğu, iskənə
پرماه [pormah] ondördgecəlik ay
پرمایه [pormaye] 1) yağlı, qidalı; ~ خوارک qidalı xörək; 2) tünd; چای ~ tünd çay; 3) bərk, qatı; ~ خمیر bərk xəmir; 4) bilikli, erudisiyalı, zəkalı
پرمحبت [pormohəbbət] çox məhəbbətli, çox mehriban, çox qayğıkeş
پرمحصول [pormohsul] *bax* پرحاصل
پرمدعا [pormoddəa] *bax* پرادعا
پرمسئولیت [porməs'uliyyət] çox məsuliyyətli, çox mühüm
پرمشقت [porməşəğğət] çox məşəqqətli, məşəqqətlə dolu, əzablı, ağır, çətin; ~ زندگی əzablı həyat
پرمصرف [porməsrəf] çoxişlənən, tələbatı çox olan (*mal*)
پرمصیبت [pormosibət] çox müsibətli, çox dəhşətli, fəlakətli
پرمعنی [pormə'na // pormə'ni] çox mənalı, dərin mənalı, dərin məzmunlu
پرمغز [porməğz] 1) çox bilikli, çox zəkalı, çox erudisiyalı; 2) *bax* پرمعنی
پرملال [porməlal] *bax* پرغصه
پرمنش [porməneş] 1) təşəxxüslü, təkəbbürlü; 2) çox vüqarlı, çox məğrur; 3) alicənab
پرمنفعت [pormənfəət] çox faydalı, çox qazanclı, çox gəlirli, çox mənfəətli
پرمو [pormu] tüklü, çox tüklü
پرمهر [pormehr] *bax* پرمحبت
پرناز [pornaz] çox nazlı, nazlıqəmzəli, işvəli
پرنده [pərənde] 1) quş; 2) uçan; ~ مایع uçan maye; 3) tez buxarlanan
پرنشاط [porneşat] çox şad, çox şən
پرنعمت [porne'mət] nemətlə dolu, bol, firavan

پرنمک [pornəmək] 1) çox duzlu, şor; 2) *məc.* məlahətli, cazibəli, şirin
پرو [p(e)rov // p(o)rov] geyib-baxma, əyinə ölçmə; لباس ~ paltarı geyib-baxma
پروا [pərva] 1) qorxu, çəkinmə, ehtiyatlanma; 2) səbir, dözüm; hövsələ, taqət; 3) maraq, həvəs; داشتن ~ qorxmaq; çəkinmək, ehtiyatlanmaq; کردن ~ a) narahat olmaq; b) diqqət yetirmək, əhəmiyyət vermək
پروار [pərvar] 1) kök; şişman; 2) bəslənilmiş; ~ گوسفند bəslənilmiş qoyun; کردن ~ kökəltmək
پرواری [pərvari] *bax* پروار 2); ~ شدن kökəlmək
پرواز [pərvaz] uçuş, uçma; دادن ~ uçurtmaq; کردن ~ uçmaq; به~ آمدن uçmağa başlamaq
پروانه [pərvane] I kəpənək
پروانه [pərvane] II 1) vint; 2) gəmini, təyyarəni hərəkətə gətirən qurğu, pər
پروانه [pərvane] III icazə, icazə sənədi; عبور ~ keçmə və ya köçmə vərəqi; 2) patent (*vəsiqə*); 3) diplom
پروانه وار [pərvanevar] pərvanə kimi, kəpənək kimi
پروبال [pərobal] qol-qanad; ◊ ~ دادن a) qol-qanad vermək, ruhlandırmaq, həvəsləndirmək; b) ixtiyar vermək, səlahiyyət vermək; داشتن ~ öz işinin sahibi olmaq; (گرفتن) درآوردن ~ a) qanadlanmaq; b) möhkəmlənmək; زدن ~ qanad çalmaq (*qəfəsdə*)
پروبلم [p(e)roblem] problem; çətinlik, çətin iş
پروپا [pəropa] 1) ayaq, qol-qanad; 2) möhkəmlik, bərklik, davamlılıq;

3) əsas, özül, bünövrə, təməl; داشتن ~ möhkəm olmaq, əsaslı olmaq; ◊ از ~ افتادن əldən-ayaqdan düşmək, yorulmaq
پروپا گاند [p(o)ropaqand] *bax* تبلیغ
پروتز [p(o)rotez] protez; دندان ~ diş protezi
پروتکل [p(o)rotokol] protokol
پرور [pərvər] 1) پروردن // پروریدن *f.-nin k.*; 2) mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "bəsləyən", "sevən", "qayğı göstərən" mənasını bildirir: وطن پرور vətəni sevən, vətənpərvər
پروراندن [pərvərandən] 1) bəsləmək, yetişdirmək; 2) dayəlik etmək; 3) ifadə etmək, söyləmək
پروردگار [pərvərdeqar] Tanrı, Xaliq, Yaradan
پروردن [pərvərdən] *bax* پروراندن
پرورده [pərvərde] پروردن *f.-nin k.z.f.sif.*; mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "bəslənilmiş", "tərbiyələndirilmiş" mənalarını ifadə edir: دست پرورده a) yetirmə; şagird; b) əllə hazırlanmış (*məhsul*)
پرورش [pərvəreş] 1) bəsləmə, yetişdirmə; tərbiyə etmə, tərbiyələndirmə; 2) dayəlik etmə; دادن ~ bəsləmək; yetişdirmək; (دیدن) یافتن ~ a) böyümək; yetişmək; tərbiyə almaq; b) ayrılmaq
پرورشگاه [pərvəreşqah] 1) uşaq evi; 2) yetişdirmə və ya bəsləmə məntəqəsi; ماهی ~ balıqyetişdirmə məntəqəsi
پروریدن [pərvəridən] *bax* پروراندن
پروزن [pərvəzn] 1) çox yüngül; 2) *idm.* ən yüngülçəkili; کشتی گیر ~ ən yüngülçəkili güləşçi

پروژه [p(o)roje] layihə, proyekt; فنی ~ texniki layihə
پروسعت [porvos'ət] çox geniş, vüsətli
پروفسور [p(o)rofesor] professor
پروفیل [p(o)rofil] 1) profil (*üzün, əşyanın yandan görünüşü*), 2) *tex.* profil (*müxtəlifşəkilli uzun metal parçaları*)
پروگرام [p(e)roqram // p(o)roqam] proqram
پرونده [pərvənde] şəxsi iş, qovluq
پرویزن [pərvizən] ələk; xəlbir
پروین [pərvin] *astr.* Pleyadalar; Yeddiqardaş, Ülkər
پره [pərre] 1) ləçək, gül yarpağı; 2) dilim, fal; یک ~ پرتقال bir dilim portağal; 3) pər, qanad; آسیاب ~ yel dəyirmanının qanadı (*pəri*); هواپیما ~ təyyarənin qanadı; 4) mil, ox; iy; 5) diş (*çarxda*)
پرهنر [porhonər] çox bacarıqlı, çox istedadlı
پرهوس [porhəvəs] çox həvəsli, çox şövqlü
پرهول [porhoul] çox qorxulu, çox dəhşətli
پرهیاهو [porhəyahu] 1) səs-küylü, narahat (*şəhər, küçə*); 2) çığır-bağır salan, hay-küyçü
پرهیبت [porheybət] *bax* پرهول
پرهیجان [porhəyəcan] çox həyəcanlı, bərk həyəcan keçirən, iztirablı, çox nigaran
پرهیختن [pərhixtən] *k.* پرهیز [pərhiz] çəkinmək, saqınmaq; pəhriz saxlamaq
پرهیز [pərhiz] پرهیختن *f.-nin k.*; pəhriz, çox yeməkdən çəkinmə, dieta; داشتن (کردن) ~ pəhriz saxlamaq, çox yeməkdən çəkinmək; nəfsini qorumaq

پرهیزکار [pərhizkar] 1) pəhrizkar; nəfsini saxlayan; 2) əməlisaleh, pak, təmiz (*adam*)

پرهیزکاری [pərhizkari] 1) pəhriz saxlama, dieta; 2) tərki-dünyalıq; 3) ehtiyatlılıq; vasvasılıq; 4) əməlisalehlik, düzlük, paklıq

پرهیزگار [pərhizqar] *bax* **پرهیزکار**

پرهیزگاری [pərhizqari] *bax* **پرهیزکاری**

پرهیزیدن [pərhizidən] *bax* **پرهیزکردن** (**پرهیز** *sözündə*)

پری [pəri] pəri, huri, mələk

پری پیکر [pəripeykər] pəri kimi qəşəng; mələk kimi gözəl; heyranedici, cazibəli

پری چهر [pəriçehr] üzü pəri kimi gözəl, qəşəng

پری چهره [pəriçehre] *bax* **پری چهر**

پریدگی [pəridegi] 1) buxarlanma; 2) uçma; qaçma (*boya, rəng*); **~ رنگ** boyanın (*rəngin*) açıqlığı; 3) qopuq, qırağı sınıq (*boşqabın*); **~ لب بشقاب** boşqabın qırağının sınması

پریدن [pəridən] 1) uçmaq; pərvazlanmaq; 2) tullanmaq, hoppanmaq; sıçramaq; 3) buxarlanmaq

پری رخ [pərirox] *bax* **پری چهر**

پریروز [pəriruz] srağagün

پری زاد [pərizad] gözəl, qəşəng

پری زاده [pərizade] *bax* **پری زاد**

پریش [pəriş] *bax* **پریشان**

پریشان [pərişan] 1) pərişan; **~ زلف** pərişan (*dağınıq*) saç; 2) qarışıq, səpələnmiş, dağınıq; **~ اوراق** səpələnmiş vərəqlər; 3) iztirablı, təşvişli; 4) yoxsul, kasıb; **شدن ~** a) pərişan olmaq; b) səpələnmək, dağılmaq; dolaşmaq; c) təşvişə düşmək; d) yoxsullaşmaq; **کردن ~** a) pərişan etmək; b) səpələmək, dağıtmaq; c) təşvişə salmaq; ç) bədbəxt etmək

پریشان حال [pərişanhal] pərişan, qəmli, kədərli; dilxor, pərt

پریشان حالی [pərişanhali] 1) pərişanlıq; sıxıntı, üzüntü; iztirab, təşviş; 2) ehtiyac, yoxsulluq

پریشان خاطر [pərişanxater] *bax* **پریشان حال**

پریشان دل [pərişandel] *bax* **پریشان حال**

پریشانی [pərişani] *bax* **پریشان حالی**

پری شاهرخ [pərişahrox] *zool.* sarıköynək, sarısandal

پریشب [pərişəb] srağagün gecə

پری وش [pəriyəsʟ[illegible]ələkkimi(*qəşəng*)

پز [poz] 1) poza, duruş; 2) boybuxun; **دادن ~** özünü göstərmək

پزشک [pezeşk] həkim

پزشکی [pezeşki] 1) həkimlik; 2) tibbi

پزشکیار [pezeşkyar] həkim köməkçisi, feldşer

پژمان [pəjman // pejman] dilxor, pərt; kədərli, qəmli

پژمردگی [pəjmordegi] 1) solma, saralıb-solma; solğunluq; təravətini itirmə; 2) məyusluq, ruh düşkünlüyü

پژمردن [pəjmordən] 1) saralıb-solmaq; təravətini itirmək; 2) məyus olmaq, bədbin olmaq

پژمرده [pəjmorde] **پژمردن** *f.-nin k.z.f.sif.;* 1) pəjmürdə; solğun; təravətini itirmiş; 2) məyus, ruhdan düşmüş, bədbin

پژوهش [pəjuheş // pejuheş] 1) tədqiq, araşdırma; öyrənmə; tədqiqat; 2) təhqiqat; axtarış (*kimisə*); 3) *hüq.* apelyasiya

پژوهشگاه [pejuheşqah] elmi-tədqiqat institutu

پژوهشگر [pejuheşgər] tədqiqatçı, araşdırıcı

پژوهنده [pejuhənde] 1) *bax* **پژوهشگر**; 2) axtaran; istintaq aparan

پژوهیدن [pəjuhidən // pejuhidən] 1) axtarış aparmaq; təhqiqat aparmaq; 2) tədqiq etmək, araşdırmaq, öyrənmək

پس [pəs] 1) arxa tərəf, dal, geri; **~ دیوار** divarın arxası; 2) sonra; **از ~ تو** səndən sonra; 3) bəs, onda, yaxşı; **شما که هستید؟ ~** bəs siz kimsiniz? **آوردن ~** geri aparmaq; **افتادن ~** geri düşmək, dala qalmaq; gecikmək; **انداختن ~** a) geriyə atmaq; təxirə salmaq; b) ehtiyat üçün pul yığmaq, ehtiyat toplamaq; **دادن ~** a) qaytarmaq; geri qaytarmaq; b) cavab vermək, danışmaq (*dərsi*); **رفتن ~** geri getmək; **زدن ~** a) itələmək; b) geri çəkmək; dartmaq; **گرفتن ~** geri almaq; **ماندن ~** geri qalmaq; **نشاندن ~** geri oturtmaq; **نشستن ~** geri oturmaq; geriyə çəkilmək

پساب [pəsab] 1) qalıq su, artıq qalan su (*paltar yuyulandan sonra*); çirkli su, sabunlu su; 2) ikinci dəfə tökülən su (*çaya, sirkəyə*)

پساپیش [pəsapiş] *bax* **پس و پش**

پسادست [pəsadəst] 1) kredit; 2) kreditlə alış-veriş

پس افتاده [pəsoftade] 1) geriləmiş, geri qalmış; 2) gecikmiş, vaxtında ödənilməmiş

پس انداز [pəsəndaz] əmanət (*bankda*); **~ صندوق** əmanət kassası

پس اندازی [pəsəndazi] 1) əmanət qoyma (*bankda*); 2) ehtiyat üçün pul yığma

پساوند [pəsavənd] *qram.* son şəkilçi

پست [pəst] 1) alçaq (*yer*); **~ زمین** alçaq yer; 2) alçaq, əclaf, rəzil; 3) asta, yavaş, alçaq (*səs*); **~ صدای** asta səs; **شدن ~** alçalmaq, təhqir olunmaq; **کردن ~** alçaltmaq, təhqir etmək

پست [post] I poçt; **~ زمینی** adi poçt; **~ هوایی** aviapoçt, təyyarə poçtu; **~ صندوق** *bax* **صندوق**; **کردن ~** poçtla göndərmək

پست [post] II 1) post, məntəqə; 2) vəzifə

پستان [pestan] döş, əmcək, məmə; **دادن ~** uşağa döş vermək; **گرفتن از ~** süddən kəsmək; ◊ **مادرش را گاز ~ درگفت** anasının əmcəyini kəsmək

پستان بند [pestanbənd] döşlük, lifçik

پستاندار [pestandar] məməli (*heyvan*)

پستانک [pestanək] I əmzik; əmzik şüşəsi

پستانک [pestanək] II *bot.* cır zeytun ağacı

پست چی [postçi] poçtalyon

پستخانه [postxane] poçt (*bina, məkan, yer*)

پست فطرت [pəstfetrət] alçaq, əclaf, rəzil

پست قامت [pəstğamət] alçaqboylu

پست قد [pəstğəd(d)] *bax* **پست قامت**

پست نهاد [pəstnehad] *bax* **پست فطرت**

پستو [pəstu] kiçik anbar, arxa otaq (*mağazanın, dükanın arxasında*)

پست و بلند [pəstobələnd] alçaq-hündür (*yer*), hamar olmayan, qazılmış

پسته [peste] 1) püstə; 2) *məc.* sevgilinin ağzı

پسته ای [pestei] püstə rəngi, açıqyaşıl

پسته دهان [pestedəhan] püstə ağızlı, kiçik ağızlı

پسته شکن [pesteşekən] findıqsındıran
پست همت [pəsthemmət] namərd, alçaq, yaramaz
پستی [pəsti] 1) alçaqlıq, əclaflıq; 2) alçaq yer
پسر [pesər] 1) oğlan; 2) oğul; ~• *bax* **پسر برادر**; **پسربرادر** ~• **خواهر**; **پسر خواهر**; **ناتنی** ~• *bax* **پسراندر**
پسراندر [pesərəndər] ögey oğul, oğulluq
پسربچه [pesərbəç(ç)e] oğlan uşağı
پسر برادر [pesərbəradər] qardaşoğlu
پسر خاله [pesərxale] xalaoğlu
پسر خوانده [pesərxande] oğulluğa götürülmüş
پسرخواهر [pesərxahər] bacıoğlu
پسردایی [pesərdai] dayıoğlu
پسرزاده [pesərzade] nəvə (*oğlun uşağı*)
پسرعم [pesərəm(m)] *bax* **پسرعمو**
پسرعمو [pesərəmu] əmioğlu
پسرعمه [pesərəmme] bibioğlu
پس رو [pəsrou] 1) geridə qalan; arxada gedən; 2) *bax* **پیرو** [peyrou]
پس روی [pəsrəvi] 1) geridə qalma, arxada getmə; 2) *bax* **پیروی**
پسری [pesəri] oğulluq etmə, oğulluq vəzifəsini yerinə yetirmə; ~ **به گرفتن** oğulluğa götürmək
پس فردا [pəsfərda] birisi gün
پس کوچه [pəskuçe] ensiz küçə, dalan, döngə
پس گردن [pəs(e)gərdən] 1) *bax* **پشت گردن**; 2) yal (*atda*)
پس گردنی [pəsgərdəni] boyun ardına (*peysərə*) vurulan əl zərbəsi (*şapalaq*); **زدن** ~ boyun ardından vurmaq (*şapalaq*)
پس گفتار [pəsqoftar] son söz, nəticə
پس مانده [pəsmande] 1) geri qalmış, qalıq, artıq qalmış; 2) sağ qalmış; salamat qalmış
پسند [pəsənd] **پسندیدن** *f.-nin k.*; 1) bəyənmə; **به شما** ~• sizin zövqünüzə görə; 2) mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "bəyənən", "sevən" mənasını bildirir: **خود پسند** özünü sevən, xudpəsənd, eqoist
پسندر [pəsəndər] *bax* **پسراندر**
پسنده [pəsənde] *bax* **پسندیده**
پسندیدن [pəsəndidən] 1) bəyənmək; 2) rəva bilmək
پسندیده [pəsəndide] **پسندیدن** *f.-nin k.z. f.sif.*; 1) bəyənilmiş, bəyənilən; 2) layiq, xoşagəlim, ləyaqətli; əla; ~ **رفتار** ləyaqətli davranış; **آمدن** ~ bəyənilmək, xoşa gəlmək
پسندیده خصال [pəsəndidexesal] yüksəkəxlaqlı
پسندیده خو [pəsəndidexu] xoş xasiyyətli
پسندیده رای [pəsəndiderə'y] ağıllı məsləhət verən; ağıllı, müdrik
پس نشینی [pəsneşini] geri çəkilmə; **کردن** ~ geri çəkilmək
پسنگک [pəsəngək] 1) xırda dolu; 2) quşbaşı qar
پس نهاد [pəsnehad] *bax* **پس انداز**
پس وپیش [pəsopiş] 1) dal-qabaq; irəli-geri; 2) ilkin şərtlər və nəticələr (*nəzərdə tutulan işin*); hər iki cəhət (*işin*); **کردن** ~ o tərəfə, bu tərəfə çəkmək, ora-bura çəkmək, yerini dəyişmək
پسوند [pəsvənd] *bax* **پساوند**
پسین [pəsin] 1) sonrakı; sonuncu, axırıncı; 2) günortadan sonra; axşamçağı

پسین فردا [pəsinfərda] iki gündən sonra
پشت [pəşt] 1) arxa, dal, geri; **باغ** ~• bağın arxası, bağın arxasında; 2) arxa hissə, arxa üz; **بام** ~• dam, damın üstü; **دست** ~• əlin üstü; **کتاب** ~• kitabın arxa üzü; 3) dayaq, arxa; ~• **او منست** o mənim dayağımdır; 4) iç tərəf, astar; **جامه** ~• paltarın astarı; **خم کردن** ~ a) əyilmək, belini bükmək; alçalmaq; b) yaltaqlanmaq; **دادن** ~ söykənmək; **کردن** ~ a) üz döndərmək; arxa çevirmək; b) atmaq, tərk etmək (*kimisə*); arxalanmaq; ~ **راست کردن** dikəlmək, belini dik tutmaq; ~• **سرهم ایستادن** bir-birinin arxasınca dayanmaq; **کردن** ~ döndərmək; ~ **هم انداختن** a) üst-üstə yığmaq, qalaqlamaq; b) hiylə işlətmək; ◊ ~ **به کوه داشتن** dalını dağa söykəmək; arxalı olmaq; ~• **کسی را به خاک (به زمین) آوردن** arxasını yerə vurmaq; qalib gəlmək; ~• **کسی را داشتن** *dan.* arxa durmaq; müdafiə etmək, dəstəkləmək; ~• **به کوه داشتن** *bax* **گرمی داشتن**; ~• **گوش انداختن** qulaqardına vurmaq; ~• **گوش خودرا دیدن** qulağının ardını (*dibini*) görmək
پشتاپشت [pəştapəşt] ardıcıl, davamlı, arasıkəsilmədən
پشتبان [pəşt(e)ban] *bax* **پشتیبان**
پشت بست [pəştbəst] bağlama, boğça, düyünçə; şələ
پشت بند [pəştbənd] 1) dirək, dayaq; 2) arxa, dayaq; 3) *bax* **پشت بست**; ~ **زدن** dirək vurmaq
پشت پا [pəşt(e)pa] 1) ayaq pəncələrinin üst tərəfi; 2) təpik; badalaq; **زدن** ~ a) təpik vurmaq, təpik atmaq; badalaq vurmaq; b) əl çəkmək, üz döndərmək; imtina etmək
پشت رو [pəştru] paltarın tərs üzü; astar; **کردن** ~ paltarın tərs üzünü çevirmək
پشت قوز [pəştğuz] *bax* **کوژ پشت**
پشتک [pəştək] mayallaq, dombalaq; **زدن** ~ mayallaq aşmaq, dombalaq aşmaq
پشت کار [pəştekar] 1) ciddiyyət, çalışma, işgüzarlıq, səy göstərmə; 2) inadcıllıq, inadkarlıq (*işdə*); 3) dayaq, arxa
پشت گردن [pəşt(e)gərdən] peysər, boyun ardı
پشت گردنی [pəşt(e)gərdəni] *bax* **پس گردنی**
پشت گرم [pəştgərm] inamlı; arxayın, əmin; **بودن** ~ arxayın olmaq, əmin olmaq
پشت گرمی [pəştgərmi] arxayınlıq, əminlik; güvənc, güvənmə; **داشتن** ~ arxayın olmaq, əmin olmaq; güvənmək
پشت گلی [pəşteqəli] çəhrayı, açıqqırmızı
پشت گوش انداز [pəştequşəndaz] *dan.* qulaqardına vuran, diqqətsiz, səhlənkar
پشت گوش اندازی [pəştequşəndazi] *dan.* qulaqardına vurma, diqqətsizlik, səhlənkarlıq
پشت مازو [pəştmazu] can əti, sümüksüz ət, file
پشت مازه [pəştmaze] *bax* **پشت مازو**
پشت مهره [pəştmohre] fəqərə sütunu
پشتواره [pəştvare] 1) yük (*dala götürülən*); şələ; 2) *bax* **پشته** 1); 3) arxa çantası

پشتوان [poştvan] *bax* پشتیبان

پشتوانه [poştvane] *mal.* 1) pulla, qızılla təmin etmə; təminat, zəmanət; 2) girov (*kreditə zəmanət üçün*)

پشت و پناه [poştopənah] arxa, pənah, himayəçi, müdafiəçi

پشته [poşte] 1) dəstə; qucaq; ~ یک علف bir qucaq ot; 2) yığın, topa, qalaq; 3) təpə; 4) *bax* پشتواره **1)**

پشتی [poşti] 1) yumşaq söykənəcək (*stulda, divanda*); yastıq; 2) *bax* پشتیبانی

پشتیبان [poştiban] hami, himayə edən, dəstək verən, dəstəkləyən

پشتیبانی [poştibani] himayə, himayə etmə, dəstəkləmə; کردن ~ himayə etmək, dəstəkləmək

پشک [peşk] I püşk; انداختن ~ püşk atmaq

پشک [peşk] II peyin

پشکل [peşkel] *bax* پشک II

پشگل [peşgel] *bax* پشک II

پشم [pəşm] yun; بهاره ~˙ yaz yunu; پاییزه ~˙ payız yunu, güzəm; ◊ ~ درکلاه داشتن nüfuz sahibi olmaq; ~˙ کسی ریختن nüfuzdan düşmək, nüfuzunu itirmək

پشم آلو [pəşmalu] *bax* پشم آلود

پشم آلود [pəşmalud] tüklü, xovlu (*parça*)

پشم اندرپشم [pəşməndərpəşm] xalis yun (*parça*)

پشم باف [pəşmbaf] toxucu, yun parça toxuyan

پشم بافی [pəşmbafi] yun parça toxuma

پشم چین [pəşmçin] 1) yunqırxan (*adam*); 2) yunqırxan (*maşın*)

پشم ریسی [pəşmrisi] yunəyirmə; کارخانه ~˙ yunəyirmə fabriki

پشمک [pəşmək] pəşmək (*halva növü*)

پشم و پیله [pəşmopile] *dan. məc.* tük, saç

پشمی [pəşmi] yun; yundan hazırlanmış; پارچه ~˙ yun parça

پشمین [pəşmin] *bax* پشمی

پشمینه [pəşmine] *bax* پشمی

پشه [pəş(ş)e] ağcaqanad; ◊ لگد ~ زدن özünü xəstəliyə vurmaq

پشه بند [pəşebənd] miçətkən

پشه خوار [pəşexar] *zool.* çobanaldadan

پشه کش [pəşekoş] ağcaqanad dərmanı, ağcaqanad öldürən dərman

پشه کورک [pəşekurək] mığmığa

پشیمان [pəşiman] peşman; شدن ~ peşman olmaq; کردن ~ peşman etmək

پشیمانی [pəşimani] peşmançılıq; خوردن ~ *bax* پشیمان شدن (پشیمان *sözündə*)

پطاس [potas] *bax* پتاس

پف [pof] 1) üfürmə; 2) şişmə; 3) piləmə, püfləmə; کردن ~ a) üfürmək; b) şişmək; c) piləmək, püfləmək

پف آلو [pofalu] *bax* پف آلود

پف آلود [pofalud] şişmiş, şişkin; چشمهای ~˙ şişmiş gözlər

پفک [pofək] peçenye növü

پف کردگی [pofkərdegi] şişmə, şişkinlik; چشم ~˙ gözün şişməsi

پف نم [pofnəm] su çiləmə, su səpmə (*paltara, ütüləmədən qabaq*); زدن ~ su çiləmək, su səpmək (*paltara, ütüləmədən qabaq*)

پفی [pofi] *dan.* boş, mənasız, faydasız

پفیوز [pofyuz] 1) *dan.* lovğa, gopçu; 2) tənbəl; əfəl; bacarıqsız

پک [pok] I qullab (*papiros və ya qəlyan çəkərkən*); زدن ~ qullab vurmaq

پک [pok] II *bax* پوک

پک پوز [pəkpuz] *bax* پک وپوز

پکر [pəkər] *dan.* 1) kədərli, fikirli; pərt, dilxor; 2) donuq; donub qalmış; heyran; mat qalmış; شدن ~ a) kədərlənmək; pərt olmaq; b) donub qalmaq, mat qalmaq

پک و پوز [pəkopuz] *dan.* 1) zahiri görkəm; 2) üz, sifət (*heyvanda; insan üçün mənfi mənada işlənir*)

پکیدن [pokidən] *dan.* çatlamaq, partlamaq; dağılıb-tökülmək

پگاه [pəqah // peqah] sübh tezdən, səhər tezdən, gün çıxan vaxt

پل [pəl] lək, kərdi; cərgə (*əkində*)

پل [pol] 1) körpü; راه آهن ~˙ dəmiryol körpüsü; بالارو ~˙ açılan körpü; qalxan körpü; شناور ~ üzən körpü; متحرک ~˙ *bax* بالارو ~˙ ; ~˙ معلق asma körpü, asılqan körpü; 2) göyərtə (*dənizdə*); (بستن) ساختن ~ körpü tikmək

پلاتین [platin] platin (*ağ qızıl*)

پلاژ [p(e)laj] plyaj, çimərlik

پلاس [pəlas] 1) palaz, xovsuz yun xalça; 2) kobud yun paltar (*dərvişlərin*); ◊(شدن) بودن ~ boş-boşuna bir yerdə vaxt keçirmək; zəhlə tökmək

پلاستیک [p(e)lastik] plastik (*əşya*)

پلاستیک سازی [p(e)lastiksazi] plastik əşya istehsalı, plastik əşya qayırma

پلاستیکی [p(e)lastiki] plastikdən düzəldilən; ظروف ~˙ plastik qablar

پلاسیدگی [pəlasidegi] solma, saralma, solğunluq, təravətini itirmə (*gül, meyvə*)

پلاسیدن [pəlasidən] solmaq, təravətini itirmək (*gül, meyvə*)

پلاسیده [pəlaside] پلاسیدن *f.-nin k.z.f.sif.*; solmuş, solğun

پلاک [p(e)lak] lövhəcik (*evin, dükanın nömrəsini göstərən lövhə*); خانه ~˙ پنج beş nömrəli ev

پلان [p(e)lan] plan

پلاو [pelav] *bax* پلو

پل بندی [polbəndi] *bax* پل سازی

پل بندی [pəlbəndi] lək düzəltmə, torpaq sahəsini əkinə hazırlama

پلپل [pelpel] *bax* فلفل

پلتیک [poletik] *bax*پلیتیک

پلسازی [polsazi] körpü salma, körpü düzəltmə

پلشت [pələşt // peleşt] çirkli, murdar, natəmiz; üfunətli

پلشت بر [pələştbər] *tib.* 1) antiseptik; 2) dezinfeksiya; dezinfeksiyaedici

پلشت بری [pələştbəri] 1) antiseptika; 2) dezinfeksiya

پلشتی [pələşti] çirkab, çirklik, murdarlıq, natəmizlik

پلک [pelk] göz qapağı; بالا ~˙ gözün yuxarı qapağı; پایین ~˙ gözün aşağı qapağı; به هم نزدن ~ a) göz yummamaq, yatmamaq; b) diqqətlə baxmaq, gözlərini zilləmək

پلکان [pellekan] *t.* پله pillə, pilləkən, nərdivan; از ~ بالا رفتن pilləkənlə yuxarı qalxmaq; از ~ پایین آمدن pilləkənlə aşağı düşmək

پلکیدن [pelekidən] 1) avaranlanmaq, boş-boşuna gəzib-dolanmaq; 2) güclə yerimək; ayaqlarını sürümək

پلگان [pelleqan] *bax* پلکان

پلمب [p(o)lomb] 1) plomb (*malın üstündəki qurğuşun damğa*); 2) möhürləmə; **کردن ~** a) plomblamaq; b) möhürləmək

پلنگ [pələng] pələng

پلنگ افکن [pələngəfkən] qeyri-adi güclü, çox igid

پلو [polou // pelou] plov

پله [pelle] 1) *c.* **پلکان** [pellekan] *bax* **پلکان**; 2) dərəcə, mərhələ, pillə; **~ برقی** *bax* **پله برقی**

پله برقی [pellebərği] eskalator

پله پله [pellepelle] 1) pillə-pillə, tədricən; 2) dərəcəli, dərəcələri olan

پلی تکنیک [politeknik] politexnik

پلیته [pelite] fitil

پلیتیک [politik] siyasət

پلیتیک دان [politikdan] 1) siyasətçi; 2) *dan.* diplomat

پلید [pəlid] 1) çirkin, natəmiz, murdar; 2) alçaq, yaramaz

پلیدکار [pəlidkar] 1) pis, yaramaz (*adam*); 2) alçaq, pozğun

پلیدکاری [pəlidkari] 1) ləyaqətsizlik, şərəfsizlik; 2) alçaq işlər görmə; yaramazlıq

پلیدی [pəlidi] 1) çirkinlik, natəmizlik; murdarlıq; 2) alçaqlıq; pozğunluq, yaramazlıq, pislik

پلیس [polis] polis; **~ خفیه (مخفی)** gizli polis

پلیسه [plise] 1) plisse, büzmə, çin (*parçada, paltarda*); 2) büzməli, çinli; **~ دامن** büzməli yubka

پلیور [poliver] pulover, sviter (*toxunma yun köynək*)

پماد [pomad] 1) məlhəm: məz, sürtmə dərmanı; pasta; 2) *bax* **روژ**

پمپ [pomp] nasos; **~ آب** su nasosu; **~ بنزین** yanacaq doldurma məntəqəsi

پناه [pənah] pənah, pənah gətirmə, sığınma; **~ آوردن (بردن)** pənah gətirmək, **~ دادن** sığınacaq vermək; **به ~ خدا** Allaha pənah

پناهگاه [pənahqah] sığınacaq, sığınacaq yeri, təhlükəsiz yer

پناهندگی [pənahəndegi] sığınacaq; **~ سیاسی** siyasi sığınacaq

پناهنده [pənahənde] 1) pənah gətirən, sığınacaq istəyən; 2) qaçqın; mühacir

پناهیدن [pənahidən] *bax* **پناه آوردن** (**پناه** *sözündə*)

پنبه [pəmbe] pambıq; **~ خام** çiyidli pambıq; **~ تخم** pambıq çiyidi; ◊ **~ را از گوش درآوردن** bir fikri beynindən çıxarmaq, bir işdən vaz keçmək; **~ در گوش نهادن (کردن)** qulağına pambıq tıxamaq, özünü eşitməməzliyə vurmaq

پنبه پاک کنی [pəmbepakkoni] pambıqtəmizləmə; **~ کارخانه** pambıqtəmizləmə zavodu

پنبه جمع کنی [pəmbecəm'koni] *bax* **پنبه چینی**

پنبه چین [pəmbeçin] pambıqyığan, pambıqçı

پنبه چینی [pəmbeçini] pambıq yığımı, pambıq yığılması

پنبه دار [pəmbedar] pambıqdan hazırlanmış (*tikilmiş*)

پنبه دانه [pəmbedane] pambıq toxumu, çiyid

پنبه ریسی [pəmberisi] pambıqəyirmə; **~ کارخانه** pambıqəyirmə zavodu

پنبه زار [pəmbezar] pambıq tarlası

پنبه کار [pəmbekar] pambıq becərən, pambıqçı

پنبه کاری [pəmbekari] pambıqçılıq

پنبه یی [pəmbeyi] 1) pambıq; pambıq məhsul; **~ محصولات** pambıq məhsulları; 2) *bax* **پنبه دار**

پنج [pənc] beş

پنجاه [pəncah] əlli

پنجاهم [pəncahom] əllinci

پنا همین [pəncahomin] *bax* **پنجاهم**

پنجپا [pəncpa] *bax* **خرچنگ**

پنجپایک [pəncpayək] *bax* **خرچنگ**

پنج تیر [pənctir] beşaçılan (*tüfəng*)

پنجره [pəncərə // pəncere] pəncərə

پنجشنبه [pəncşəmbe] cümə axşamı

پنجگانه [pəncqane] beşlik, beş hissədən ibarət

پنجم [pəncom] beşinci

پنجمین [pəncomin] *bax* **پنجم**

پنجه [pənce] pəncə; beş barmaq; **پا ~** ayağın pəncəsi; **دست ~** əlin pəncəsi; ◊ **افکندن ~** dalaşmaq; **زدن ~** cırmaqlamaq; **تیز کردن ~** dalaşmağa hazırlaşmaq; **نرم کردن ~** gücü sınamaq

پنجه ای [pəncei] *bot.* pəncəvari, əlvari; **~ برگ** əlvari yarpaq

پنجه بوکس [pənceboks] beşbarmaq, kastet

پنجه دار [pəncedar] caynaqlı

پنچر [pənçər] deşilmə (*avtomobil kameri*); **~ شدن** deşilmək (*avtomobil kameri*)

پنچری [pənçəri]: **~ گرفتن** vulkanizasiya etmək, təkəri təmir etmək (*yamamaq*)

پند [pənd] nəsihət, öyüd; **~ دادن** nəsihət vermək, öyüd vermək; **~ گرفتن** nəsihət almaq, öyüd almaq

پندار [pəndar] fikir, təsəvvür, fikir, əqidə; güman

پنداری [pəndari] sanki, elə bil, guya, guya ki

پنداریدن [pəndaridən] *bax* **پنداشتن**

پنداشت [pəndaşt] güman, zənn, təsəvvür

پنداشتن [pəndaştən] *k.* **پندار** [pəndar] güman etmək, zənn etmək, hesab etmək, təsəvvür etmək, sanmaq

پنداشتی [pəndaşti] *bax* **پنداری**

پنس [pəns] 1) *tib.* maşa; 2) qısqac, sıxac, sancaq

پنکه [pənke] elektrik ventilyatoru; **~ رومیزی** masaüstü ventilyator; **~ سقفی** tavan ventilyatoru

پنگوئن [pənquen // pənqoən] pinqvin

پنهان [penhan] 1) gizli, məxfi; 2) gizlicə, gizlincə; **~ داشتن (ساختن، کردن)** gizlətmək; **~ شدن** gizlənmək

پنهان کاری [penhankari] gizli iş, gizli fəaliyyət, konspirasiya

پنهانی [penhani] 1) gizli, gizlin, gizlədilmiş; 2) gizlilik, məxfilik; 3) *bax* **پنهان (2)**

پنیر [pənir] pendir

پنیرمایه [pənirmaye] pendir mayası, qursaq

پوار [puar] *tib.* 1) imalə; 2) şırınqa

پوپک [pupək] hop-hop, şanapipik

پوپو [pupu] *bax* **پوپک**

پوتین [putin] botinka, çəkmə

پوچ [puç] 1) puç, boş; mənasız, məzmunsuz; 2) faydasız, nəticəsiz

پوچ گو [puçqu] boşboğaz, boşdanışan, lağlağı, çərənçi

پوچ مغز [puçməğz] içiboş, çürük; **~ گردوی** çürük qoz

پوچی [puçi] 1) boşluq (*fındıqda, qozda*); 2) puçluq, mənasızlıq; 3) əhəmiyyətsizlik, faydasızlıq, nəticəsizlik

پود [pud] arğac

پودر [pudr] 1) toz; دندان ~ diş tozu; لباسشویی ~ paltaryuyan toz, yuyucu toz; 2) pudra; زدن ~ pudralanmaq; pudra vurmaq (*sürtmək*)

پوده [pude] qoxumuş, iylənmiş

پودینگ [puding] pudinq (*süd, şəkər, yumurta, un, vanil və s.-dən hazırlanan şirniyyat növü*)

پور [pur] I oğul

پور [pur] II *zool.* küllüt (*quş*)

پورسانتاژ [pursantaj] görülən iş üçün alınan faiz

پورمک [purəmək] 1) kif; 2) qaysaq

پوره [pure] I *zool.* sürfə

پوره [pure] II püre; سیب زمینی ~ kartof püresi

پوز [puz] poza, duruş, görünüş, görüntü

پوزبند [puzbənd] buruntaq, burun qayışı (*itlərin və vəhşi heyvanların ağzına bağlanır*); (زدن) بستن ~ buruntaq vurmaq

پوزخند [puzxənd] istehzalı təbəssüm, istehzalı gülüş; زدن ~ istehza ilə təbəssüm etmək, istehza ilə gülmək

پوزش [puzeş] üzr; üzr istəmə; (طلبیدن، (آوردن خواستن ~ üzr istəmək

پوزش پذیر [puzeşpəzir] 1) bağışlanılası, bağışlanıla bilən; 2) günahları bağışlayan; günahkarı bağışlayan

پوزش خواهی [puzeşxahi] üzr istəmə, günahın bağışlanmasını xahiş etmə; کردن ~ پوزش خواستن *bax* (پوزش *sözündə*)

پوزش ناپذیر [puzeşnapəzir] bağışlanılmaz, bağışlanılmayan; گناه ~ bağışlanılmaz günah

پوزه [puze] *bax* پوز

پوزه بند [puzebənd] *bax* پوز بند

پوساندن [pusandən] çürütmək; korlamaq, xarab etmək

پوسانه [pusane] yaltaqlanma, dil tökmə

پوست [pust] 1) dəri; gön; دست ~ əlin dərisi; بره ~ quzu dərisi; خام ~ aşılanmamış dəri; دباغی شده ~ aşılanmış dəri; 2) qabıq; سیب ~ almanın qabığı; انداختن ~ qabığı soyulmaq, qabıq vermək; کندن (گرفتن) ~ a) dərini soymaq; b) qabığı soymaq; ◊ از سرکسی کندن ~ birisinə çox əzab vermək, birisinin dərisini soymaq; سگ به روی خود کشیدن ~ həyasızlıq etmək; واستخوان شدن ~ bir dəri, bir sümüyü qalmaq; çox arıqlamaq

پوست پیرا [pustpira] dabbağ, dəri (*gön*) ustası, dəri (*gön*) aşılayan

پوست پیرایی [pustpirayi] 1) dəri (*gön*) aşılama; 2) dabbağlıq, dəriçilik, gönçülük

پوست تخت [pusttəxt] dəri döşəkcə

پوستر [postər] 1) yarlıq, etiket; 2) afişa, plakat

پوست رفتگی [pustrəftegi] sıyrıntı, cırmaq yeri, cırmaq yarası; sürtünmə, sürtülmüş yer

پوست رفته [pustrəfte] 1) sıyrılmış, cırmaqlanmış (*dəri*); 2) *bax* پوست رفتگی

پوست فروش [pustforuş] dərisatan

پوست فروشی [pustforuşi] dəri satışı

پوستک [pustək] 1) nazik dəri; 2) qabıq, nazik qabıq; 3) kəpək (*başda*)

پوست کلفت [pustkoloft] 1) dərisiqalın, qalın dərili; 2) güclü; dözümlü; 3) gönüqalın; laqeyd, etinasız

پوست کن [pustkən] 1) malkəsən, sallaq; qəssab; 2) *dan.* hədə-qorxu ilə başqasını soyan

پوست کنده [pustkənde] 1) soyulmuş, qabığı təmizlənmiş; سیب ~ qabığı soyulmuş alma; 2) açıq-aydın, açıq-aşkar; صحبت ~ açıq söhbət

پوسته [puste] 1) lay, təbəqə, qat; 2) kəpək (*başda*); 3) nazik pərdə; 4) *bax* پوست

پوسته پوسته [pustepuste] qat-qat (*soyulmuş*); lay-lay (*ayrılmış*); ~ شدن qat-qat soyulmaq

پوستی [pusti] 1) dəri, gön; کلاه ~ dəri papaq; 2) dəridən (*göndən*) hazırlanmış

پوستین [pustin] 1) kürk, şuba; 2) *bax* پوستی

پوستین دوز [pustinduz] kürktikən

پوسیدگی [pusidegi] çürümə, iylənmə, qoxuma

پوسیدن [pusidən] çürümək, iylənmək, qoxumaq, qoxu vermək

پوسیده [puside] پوسیدن *f.-nin k.z.f.sif.*; çürümüş, iylənmiş, qoxumuş

پوش [puş] 1) پوشیدن *f.-nin k.*; 2) mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "geyinmiş", "örtülmüş" mənalarını ifadə edir: آهن پوش dəmir örtüklü, dəmirlə örtülmüş; زنده پوش cırım-cındır geyinmiş

پوشاک [puşak] geyim, paltar; فروشگاه ~ paltar mağazası

پوشال [puşal] 1) taxta kəpəyi, yonqar; 2) quru bitki

پوشالی [puşali] 1) taxta kəpəyi ilə doldurulmuş; 2) zəif, gücsüz; davamsız; ◊ دولت ~ bufer dövlət

پوشاندن [puşandən] 1) geyindirmək; 2) örtmək, üstünü örtmək; 3) gizlətmək

پوشانیدن [puşanidən] *bax* پوشاندن

پوشش [puşeş] 1) geyim; 2) örtmə, bağlama; 3) örtük, duvaq; 4) tavan

پوشنه [puşəne] örtü, örtük; qapaq

پوشنی [puşəni] *bax* پوشنه

پوشه [puşe] 1) qovluq; 2) çexol, üzlük

پوشیدگی [puşidegi] 1) örtmə, üstünü örtmə; gizlətmə; 2) qeyri-müəyyənlik, anlaşılmazlıq; məxfilik, gizlilik

پوشیدن [puşidən] 1) geymək; 2) örtmək; 3) gizlətmək

پوشیدنی [puşidəni] 1) geyim; 2) örtük; 3) gizlədilməli, gizlin

پوشیده [puşide] پوشیدن *f.-nin k.z.f.sif.*; 1) örtülü, gizli, pərdəli; 2) geyilmiş; geyinmiş; داشتن ~ gizli saxlamaq

پوک [puk] 1) boş, mənasız; 2) içiboş; çürümüş, çürük; دندان ~ çürük diş; گردوی ~ çürük qoz; 3) yumşaq; boş; خاک ~ yumşaq torpaq; کردن ~ yumşaltmaq (*torpağı*)

پوکه [puke] giliz (*patronun*); ◊ دغال سنگ ~ koks

پول [pul] pul; خرد ~ xırda pul; رایج ~ dövriyyədə olan pul, işlək pul; طلا ~ qızıl pul, qızıl sikkə; کاغذی ~ kağız pul; در آوردن ~ pul qazanmaq; گذاردن ~ maya qoymaq; pul qoymaq; به ~ رساندن satmaq; ◊ (سرخ) مثل ~ شدن pul kimi qızarmaq (*xəcalətdən*)

پولاد [pulad] *bax* فولاد

پولاد بازو [puladbazu] polad bilək-li, güclü; məğlubedilməz

پولادریزی [puladrizi] *bax* فولاد ریزی

پولادسازی [puladsazi] *bax* فولاد سازی

پولادگدازی [puladqodazi] *bax* فولاد گدازی

پولادگری [puladgəri] *bax* فولاد گری
پولادی [puladi] *bax* فولادی
پول پرست [pulpərəst] pulpərəst, pulsevən; tamahkar, acgöz
پول پرستی [pulpərəsti] pulpərəstlik; tamahkarlıq, acgözlük
پولدار [puldar] pullu, varlı-dövlətli, imkanlı
پول دوست [puldust] *bax* پول پرست
پولک [pulək] 1) muncuq, parıldayan bəzək şeyi (*paltarda*); 2) axça, pul (*balıqda*)
پولک دار [puləkdar] 1) muncuqlu, parıldayan bəzək şeyli (*parça, paltar*); 2) pullu (*balıq*)
پولک دوزی [puləkduzi] muncuqla bəzəmə, parıldayan şeylə bəzəmə (*paltarı, parçanı*)
پولکی [puləki] *bax* پولدار
پول و پله [pulopəle] *dan.* pul, pulpara; sərvət, var-dövlət
پولیور [poliver] *bax* پلیور
پونز [punez] knopka; basmadüymə
پونه [pune] yarpız
پویا [puya] 1) axtaran; ~ حقیقت هوایا [puyan] *bax* پویا
پویش [puyeş] 1) yüyürmə, qaçma; vurnuxma; 2) tədqiq etmə, araşdırma
پوینده [puyənde] 1) *bax* پویا; ~ یا بنده است *ata. söz.* axtaran tapar; 2) tədqiq edən, tədqiqatçı, araşdırıcı
پویه [puye] *bax* پویش
پوییدن [puyidən] 1) qaçmaq, yüyürmək; 2) axtarmaq; 3) tələsmək
په [pəh] *n.* 1) oh, bəh; 2) əhsən, afərin

پهلو [pəhlu] yan, böyür, tərəf; ~ چپ sol tərəf; ~ راست sağ tərəf; به ~ ~ yanbayan; ~ دادن a) kömək etmək; ruhlandırmaq; b) mənfəət vermək; c) *bax* ~ کردن a); ~ داشتن faydası olmaq, kömək etmək; ~ زدن bərabər olmaq, bərabərləşmək; yarışmaq; ~ کردن a) uzaqlaşmaq, kənar olmaq, qaçmaq; b) tikə-tikə doğramaq (*qarpızı və s.*); ~ گرفتن yan almaq (*sahilə*)
پهلوان [pəhləvan] pəhləvan, igid; cəsur; qəhrəman; qalib (*yarışda*)
پهلوانانه [pəhləvanane] pəhləvancasına; qəhrəmancasına
پهلوان پنبه [pəhləvanpəmbe] 1) yalançı pəhləvan; 2) lovğa, gopçu; 3) təlxək
پهلوانی [pəhləvani] pəhləvanlıq; qəhrəmanlıq, igidlik
پهلوچرب [pəhluçərb] 1) imkanlı, varlı, təmin olunmuş; 2) yağlı, piyli
پهلودار [pəhludar] 1) ikibaşlı, kinayəli; ~ سخن ikibaşlı söz; 2) dəstəkləyən, müdafiə edən; 3) *bax* پهلوچرب
پهلوداری [pəhludari] dəstəkləmə, müdafiə etmə
پهلودستی [pəhludəsti] *bax* پهلویی
پهلوزن [pəhluzən] 1) lovğa, gopçu; 2) rəqib
پهلویی [pəhluyi] yaxınlıqdakı; yanakı; yandakı; ~ خانه yanakı (*yaxınlıqdakı*) ev
پهن [pəhn] enli, geniş; ~ شدن a) genəlmək; b) sərilmək; ~ فرش شده است xalça sərilmişdir; ~ کردن a) enlətmək, genəltmək; b) sərmək; açmaq; ~ سفره را کن süfrəni aç
پهن [pehen] peyin; ◊ ~ پا زدن avaralanmaq, yol ölçmək

پهنا [pəhna] en; ~ اتاق otağın eni
پهناور [pəhnavər] geniş, ucsuz-bucaqsız
پهناوری [pəhnavəri] genişlik, bolluq
پهنایی [pəhnayi] *bax* پهناوری
پهن برگ [pəhnbərg] enliyarpaqlı
پهنه [pəhne] fəza, sahə; meydan; ~ جنگ müharibə meydanı
پی [pey] I 1) ayaq; 2) iz, əsərəlamət; 3) bünövrə, özül, təməl, əsas; 4) arxasınca, dalınca; او ~ onun arxasınca; 5) üçün; ~ کار iş üçün, iş dalınca; ~ افکندن (ریختن) bünövrə qurmaq; ~ بردن anlamaq, başa düşmək; ~ جستن iş axtarmaq; ~ کردن (گرفتن) izləmək, təqib etmək; ~ گم کردن iz itirmək
پی [pey] II 1) damar; ~ گردن boyun damarı; 2) əsəb
پی [pi] *bax* پیه
پیاپی [peyapey] *bax* پی در پی
پیاده [piyade] 1) piyada; ~ مسافرین piyada səyyahlar (*yola çıxanlar*); 2) təcrübəsiz, xam, məlumatsız, piyada; 3) *hərb.* piyada; 4) *şahm.* piyada; ~ راه رفتن piyada yol getmək; ~ شدن düşmək (*minikdən*); ~ کردن düşürtmək; boşaltmaq; ◊ ~ شو باهم برویم lovğalıq etmə; başından yekə danışma; ~ در یک کاری بودن bir işdə təcrübəsiz (*piyada*) olmaq
پیاده رو [piyaderou] səki, küçə səkisi; ~ راه piyadalar üçün yol
پیاده روی [piyaderəvi] piyada getmə, ayaqla getmə
پیاده نظام [piyadenezam] piyada qoşun; ~ سرباز piyada qoşun əsgəri; ~ هنگ piyada qoşun alayı

پیاز [piyaz] soğan; ◊ ~ آدم هرجا کونه نمیکند adamın işi hər yerdə tutmaz; adamın bəxti həmişə gətirməz; پیازش کونه کرده است onun bəxti gətirib, bəxti açılıb
پیازترشی [piyaztorşi] sirkəyə qoyulmuş soğan
پیازچه [piyazçe] göy soğan
پیازداغ [piyazdağ] yağ-soğan, yağda qovrulmuş soğan
پیازدانه [piyazdane] soğan tumu (*toxumu*)
پیازروغن [piyazrouğən] *bax* پیازداغ
پیازکی [piyazəki] *bax* پیازی
پیازمغز [piyazməğz] *bax* بصل النخاع
پیازمو [piyaz(e)mu] tükün dibi, tükün kökü
پیازی [piyazi] 1) soğanla qarışmış (*qarışdırılmış*); soğan iyi verən; 2) soğanabənzər, soğanaoxşar; 3) soğan qabığı rəngi (*qırmızımtıl-qəhvəyi*)
پی افزود [peyəfzud] *qram.* son qoşma
پی افزوده [peyəfzude] *bax* پی افزود
پی افکن [peyəfkən] 1) bani, bünövrəsini qoyan; 2) bünövrəsini dağıdan, kökündən dağıdan; ~ سیل dağıdıcı sel
پیاله [piyale] 1) piyalə; 2) badə; 3) stəkan; یک ~ چای bir stəkan çay; ◊ ~ زدن (گرفتن) şərab içmək
پیاله پیما [piyalepeyma] 1) məst, sərxoş, kefcil; 2) saqi
پیاله دار [piyaledar] *bax* پیاله پیما
پیاله داران [piyaledaran] fıstıq
پیاله کش [piyalekeş] *bax* پیاله پیما
پیاله گردان [piyalegərdan] *bax* پیاله پیما
پیاله نوش [piyalenuş] *bax* پیاله پیما

پیام [pəyam // pɛyam] 1) xəbər, bildiriş; sifariş; 2) müraciət, çağırış, xitab; **~ آوردن** xəbər gətirmək; **~ دادن** xəbər vermək, müraciət etmək; **~ رساندن** xəbər çatdırmaq

پی آمد [peyaməd // pəyaməd] nəticə, yekun

پیام آور [pəyamavər] qasid, elçi, xəbər gətirən

پیا مبر [pəyambər] 1) *bax* **پیغمبر**; 2) *bax* **پیام آور**

پیا مبرانه [pəyambərane] *bax* **پیغمبرانه**

پی قدر پی [peyəndərpey] *bax* **پی درپی**

پیانو [piyano] pianino; fortepiano; **~ زدن (نواختن)** pianino çalmaq

پیانوزن [piyanozən] pianoçu

پیانیست [piyanist] *bax* **پیانوزن**

پی بند [peybənd] 1) bünövrə tikən fəhlə; 2) buxov, cıdar (*heyvanın ayağında*)

پی بندی [peybəndi] bünövrə tikmə; **~ کردن** bünövrə tikmək

پیپ [pip] qəlyan, çubuq; **~ کشیدن** qəlyan çəkmək; çubuq çəkmək

پیپت [pipet] pipetka, damcıtökən; şüşə boru (*laboratoriyada*)

پیت [pit] bidon; çəllək; **~ آهنی** dəmir çəllək

پیجامه [picame // peycame] *bax* **پاجامه**

پی جوی [peycuyi] 1) izləmə, axtarış, axtarma; 2) təhqiqat aparma; araşdırma; **~ کردن** a) axtarmaq; b) təhqiqat aparmaq

پیچ [piç] 1) döngə; 2) əyrilik (*yolun*); 3) qıvrım, qıvrılmış; buruq, burulmuş (*saç*); dolaşıq, dolaşmış; sarıq, sarınmış; 4) vint; 5) spazma, sancı; **~ دل** qarın sancısı; **~ خوردن** dönmək, burulmaq; sarılmaq, sarmaşmaq; burxulmaq; **~ گلها به دیوار خورده است** güllər divara sarmaşıbdır; **~ خورده است پایم** ayağım burxulub; **~ دادن** burmaq; **~ داد زلفش را** saçını burdu; **~ زدن** dönmək; **از کوچه ~ زد** küçədən döndü; ◊ **~ دهانش هرز است** çənəsi (*ağzı*) boşdur

پیچاپیچ [piçapiç] 1) əyilmiş, bükülmüş, qatlanmış, əyri, bükük; 2) çox dolaşıq, qarmaqarışıq, mürəkkəb

پیچاپیچی [piçapiçi] dolaşıqlıq, qarmaqarışıqlıq, mürəkkəblik

پیچان [piçan] **پیچاندن** *f.-nin in.z.f.sif.*: 1) burulan; sarmaşan, sarılan; 2) əyilən; 3) dolaşıq, çətin (*şeir*)

پیچاندن [piçandən] 1) burmaq; sarımaq; 2) əymək; 3) çevirmək, döndərmək; 4) mürəkkəbləşdirmək, dolaşdırmaq (*sözü*)

پیچ بازکن [piçbazkon] vintaçan, vintburan, yivaçan

پیچ بر [piçbor] *bax* **پیچ بازکن**

پیچ بر پیچ [piçbərpiç] *bax* **پیچ در پیچ**

پیچ پیچ [piçpiç] 1) burulmuş; 2) qıvrım

پیچ خور [piçxor] 1) tez əyilən, əyilə bilən; 2) elastik, asanlıqla şəklini dəyişən

پیچ خوردگی [piçxordegi] 1) əyrilik, əyilmə (*metalda*); 2) əyri yer, əyilmiş yer

پیچدار [piçdar] 1) *bax* **پیچاپیچ**; 2) buruq; vintli

پیچ در پیچ [piçdərpiç] 1) dolanbac; dolaşıq, qarışıq; **~ کوچه** dolanbac küçə; 2) mürəkkəb, çətin; **~ مسئله** çətin məsələ; 3) buruq (*saç*)

پیچش [piçeş] 1) əyilmə, qatlanma, bükülmə; 2) əyrilik, əyri-üyrülük; 3) *el.* sarıma, sarınma; 4) kəskin ağrı, qarın sancısı; 5) buruq, burulma (*saçda*)

پیچک [piçək] 1) sarmaşan bitki; 2) sarmaşıq

پیچ گوشتی [piçquşti] vintaçan

پیچ گیره [piçgire] vintsıxan

پیچ ماده [piçmade] qayka

پیچ مهره [piçmohre] vint və qayka

پیچ وتاب [piçotab] 1) əyri, əyri-üyrü; dolanbac, girintili-çıxıntılı (*yol*); döngə; 2) dolaşıq, qarışıq; qıvrım; 3) əzab-əziyyət, iztirab; **~ خوردن** burulmaq, qıvrılmaq

پیچ و خم [piçoxəm] 1) döngə; 2) qarışıq, dolaşıq (*iş*)

پیچیدگی [piçidegi] 1) büküklük; əyrilik; 2) dolaşıqlıq, mürəkkəblik; **~ کلام** sözün dolaşıqlığı; **~ کردن** incitmək; əziyyət vermək

پیچیدن [piçidən] 1) bükmək, əymək; 2) sarımaq, bağlamaq; 3) burmaq; burulmuq; qıvrılmaq; **~ مار** ilanın qıvrılması; 4) bağlamaq, bükmək; **~ کاغذها را** kağızları bükmək; 5) bürümək, yayılmaq; **~ صدا درکوه** səsin dağı bürüməsi

پیچیده [piçide] **پیچیدن** *f.-nin k.z.f.sif.*: 1) bükülmüş, əvjlmis; 2) dolaşmış; bükülmüş; 3) bağlanmış, sarınmış; 4) bürümüş; yayılmış; 5) dolaşıq, mürəkkəb, çətin (*iş*)

پیدا [peyda] məlum, aşkar, aydın; **~ شدن** məlum olmaq, aşkar olmaq, tapılmaq; **~ کردن** məlum etmək, aşkar etmək, tapmaq

پیدایش [peydayeş] 1) aşkar olma, üzə çıxma, tapılma; 2) yaranma, meydana çıxma

پی در پی [peydərpey] ardıcıl, dalbadal, bir-birinin ardınca

پیر [pir] qoca, yaşlı, ahıl; **~ طریقت** sufilərin başçısı, pir, mürşid; **~ مغان** muğların başçısı; **~ شدن** qocalmaq; yorulmaq, əldən düşmək; **~ کردن** qocaltmaq; incitmək, azar vermək

پیرا پزشک [pirapezeşk] kosmetoloq

پیرار [pirar] *bax* **پیرار سال**

پیرار سال [pirarsal] inişil, iki il əvvəl

پیراستن [pirastən] *k.* (ی) **پیرا** [pira(y)] 1) bəzəmək, zinət vurmaq; 2) parıldatmaq, cilalamaq

پیرامن [piramon // piramən] *bax* **پیرامون**

پیرامون [piramun] 1) ətraf, kənar, civar; **~ باغ** bağın ətrafı; 2): **~ در** haqqında, barəsində; **~ چه صحبت کردید؟** nə barədə danışdınız?

پیرانه [pirane] 1) qocayana; 2) müdrik, kamil, yetkin; **~ پند** müdrik öyüd

پیرانه سر [piranesər] qocalıq, ahıllıq

پیرانه سری [piranesəri] *bax* **پیرانه سر**

پیراهن [pirahən] köynək; **~ خواب** gecə köynəyi; **~ زیر** alt köynək; **~ رکابی** qolsuz köynək (*mayka*); **~ رو** üst köynək; ◊ **~ از آیه قرآن پوشیدن** özünü təmiz qələmə vermək; **~ عثمان کردن** ilişdirmək üçün bəhanə axtarmaq

پیراهن دوز [pirahənduz] dərzi, köynəktikən

پیرایش [pirayeş] 1) bəzək, zinət; 2) geyim, pal-paltar, üst-baş; 3) ornament, naxış

پیرایشگری [pirayeşgəri] bəzəmə, zinət vurma

پیرایه [piraye] 1) *bax* **پیرایش**; 2) gözəllik, təmtəraqlı (*nitqin*); **~ کردن** bəzəmək, zinət vurmaq

پیرزن [pirzən] qarı

پیرسال [pirsal] qoca, yaşlı, ahıl

پیرمرد [pirmərd] qoca kişi

پیرو [peyrou] 1) ardıcıl, davamçı, tərəfdar, məsləkdaş; 2) ardınca; ... نامه شماره ~ ... nömrəli məktubun ardınca; آگهی ~ elana əlavə olaraq

پیرو [piru] *bot.* ardıc, ardıc kolu

پیروز [piruz] qalib, qalib gələn, qələbə çalan; (آمدن) شدن ~ qalib gəlmək, qələbə çalmaq

پیروزمند [piruzmənd] *bax* پیروز

پیروزمندانه [piruzməndane] 1) qələbə ilə; uğurla; 2) qalibiyyətli; uğurlu

پیروزی [piruzi] 1) qələbə, qalibiyyət; سیاسی ~ siyasi qələbə; قطعی ~ و نهایی qəti və son qələbə; 2) müvəffəqiyyət, uğur; به ~ رسیدن a) qələbə çalmaq; b) uğur qazanmaq

پیروی [peyrəvi] 1) ardınca getmə; davam etdirmə (*əqidəni, fikri*); 2) təqlid etmə; itaət etmə, əməl etmə (*əqidəyə, fikrə*); کردن ~ a) ardınca getmək; b) təqlid etmək

پیره [pire] *bax* پیر

پیره زن [pirezən] *bax* پیرزن

پیره مرد [piremərd] *bax* پیرمرد

پیرهن [pirəhən // pirəhən] *bax* پیراهن

پیری [piri] qocalıq, ahıllıq, yaşlılıq

پیریز [peyriz] bani, əsasını qoyan, bünövrəsini qoyan

پیریزی [peyrizi] əsasını qoyma, bünövrəsini qoyma; بنای جدید ~ yeni binanın bünövrəsini qoyma, شدن ~ əsası qoyulmaq, bünövrəsi qoyulmaq; کردن ~ əsasını qoymaq, bünövrəsini qoymaq

پیزر [pizir] [illegible]an, çör-çöp; ◊ لای کسی گذاشتن ~ qoltuğuna qarpız vermək

پیزری [pizori] *dan.* süst, zəif, əldən düşmüş

پیژاما [pijama] *bax* پیژامه

پیژامه [pijame] pijama

پیس [pis] 1) dərinin üstündəki ağ ləkə; 2) yara, ekzema; 3) çirk

پیس [pies // piyes] pyes

پیست [pist] 1) sahə, meydan (*idman və ya rəqs üçün*); 2) rinq, boks meydançası

پیستون [piston] piston

پیسر [peysər] peysər, boyun ardı

پیسه [pise] 1) ağ-qara; ala-bula; 2) iki rəngli; xallı

پیسی [pisi] *bax* پیس **2), 3)**

پیش [piş] 1) irəli; 2) qabaq, əvvəl; 3) əvvəlki; 4) keçmiş, keçən; سال ~ keçən il; 5) yan; من گفت ~ mənim yanımda dedi; من ~ او شرمنده ام mən onun yanında xəcalətliyəm; افتادن ~ irəli düşmək; آمدن ~ irəli gəlmək; انداختن ~ qabağa salmaq; آوردن ~ qabağa gətirmək; بردن ~ udmaq, qalib gəlmək; irəli çıxmaq; رفتن ~ irəli getmək; کردن ~ bağlamaq, örtmək (*qapını*); کشیدن ~ a) irəli çəkmək, qabağa çəkmək; b) özünə tərəf çəkmək; qabağına çəkmək; c) başlamaq (*söhbətə*); irəli sürmək (*məsələni*); nəzərə çatdırmaq; گرفتن ~ a) seçmək; b) başlamaq, girişmək; ◊ پا افتاده ~ əhəmiyyətsiz, dəyərsiz; دستی کردن ~ (*kimisə*) qabaqlamaq

پیشاب [pişab] sidik; مجرای ~ sidik yolu (*kanalı*)

پیشاپیش [pişapış] əvvəl, qabaq; əvvəldə, qabaqda; همه ~ hamıdan qabaq

پیش آگهی [pişagəhi] 1) xəbərdarlıq məktubu, bildiriş; 2) *mal.* avizo, bildiriş vərəqəsi

پیش آمد [pişamməd] 1) hadisə, əhvalat; 2) təsadüf; کردن ~ a) baş vermək, üz vermək; b) təsadüf etmək

پیش آمدگی [pişamədegi] 1) çıxıntı; 2) qabarıqlıq, qabarıq yer

پیش انداز [pişəndaz] *bax* پیش بند

پیش اندیش [pişəndiş] ehtiyatlı, tədbirli, uzaqgörən

پیش اندیشی [pişəndişi] ehtiyatlılıq, tədbirlilik; uzaqgörənlik

پیشانی [pişani] 1) alın; 2) tale, qismət, bəxt, alın yazısı; داشتن ~ bəxti olmaq, bəxti gətirmək; ◊ برخاک ~ نهادن səcdə qılmaq; گره کردن ~ qaşqabaq sallamaq; درهم کشیدن ~ *bax* بلند بودن ~ ; گره کردن ~ xoşbəxt olmaq

پیشانی دار [pişanidar] xoşbəxt, xoşbəxt taleli

پیشاوند [pişavənd] *bax* پیشوند

پیش آهنگ [pişahəng] 1) pioner, ilk kəşf edən; 2) öncül; qabaqcıl, başçı; 3) irəlidə gedən (*sürüdə*)

پیشواز [pişbaz] *bax* پیش باز

پیش بخاری [pişboxari] 1) buxarı divarı; buxarı hörgüsü, buxarı məhəccəri; 2) buxarı divarının üstünə salınan parça

پیش برد [pişbord] həyata keçirmə, yerinə yetirmə; həyata keçirilmə; yerinə yetirilmə

پیش بند [pişbənd] önlük, döşlük

پیش بها [pişbəha] avans, beh

پیش بین [pişbin] 1) gələcəyi görən, gözüaçıq, uzaqgörən; 2) ağıllı, kamallı, ehtiyatlı, tədbirli

پیش بینی [pişbini] 1) öncəgörmə; gələcəyi görmə, gözüaçıqlıq; uzaqgörənlik, proqnoz; هوا ~ hava proqnozu, hava haqqında məlumat; 2) ağıl, kamal, ehtiyatlılıq, tədbirlilik; شدن ~ a) nəzərdə tutulmaq; b) gözlənilmək; کردن ~ a) gələcəyi görmək; b) nəzərdə tutmaq; c) güman etmək, fərz etmək

پیش پا [piş(e)pa] qapının astanasına salınan həsir; kiçik fərş

پیش پا افتاده [piş(e)paoftade] adi, hamıya məlum olan, bəlli, aşkar

پیش پرداخت [pişpərdaxt] *bax* پیش بها کردن ~ avans vermək, beh vermək

پیشتاز [pištaz] irəlidə gedən, öncül, avanqard; birinci

پیش تخته [pištəxte] pištaxta

پیشتر [pištər] bundan qabaq, bundan əvvəl

پیشخان [pişxan] *bax* پیش تخته

پیشخدمت [pişxedmət] qulluqçu, xidmətçi

پیشخرید [pişxərid] qabaqcadan ödəmə, mal alınandan qabaq ödəmə; məhsul hazır olmadan pulunu ödəmə

پیش خوان [pişxan] *bax* پیش تخته

پیش دامن [pişdamən] 1) *bax* پیش بند 2) yubkanın qabaq hissəsi

پیش درآمد [pişdəraməd] 1) *mus.* dəraməd, müqqəddimə, uvertüra; 2) giriş, giriş hissə; 3) hazırlıq görmə, zəmin hazırlama; کردن ~ a) giriş sözü ilə çıxış etmək; b) zəmin hazırlamaq

پیش دست [pişdəst] 1) öndə gedən, ötüb-keçən; 2) cəld, əliiti; 3) avans, beh

پیش دستی [pişdəsti] I 1) qabaqlama, ötmə, keçmə, ötüb-keçmə; 2) üstünlük, birincilik; **کردن ~** a) ötüb-keçmək; b) üstün olmaq; birinci olmaq

پیش دستی [pişdəsti] II *dan.* kiçik boşqab (*salat və ya meyvə üçün*)

پیش رس [pişrəs] 1) tezböyüyən (*uşaq*); 2) tezyetişən, faraş (*meyvə*)

پیشرفت [pişrəft] 1) irəliləyiş, inkişaf; tərəqqi; 2) müvəffəqiyyət, nailiyyət, uğur; **کردن ~** a) irəliləmək, inkişaf etmək; b) uğur qazanmaq

پیش رفتگی [pişrəftegi] çıxıntı; qabarıqlıq

پیشرفته [pişrəfte] inkişaf etmiş, irəliləmiş; **~ کشورهای** inkişaf etmiş ölkələr

پیشرو [pişrou] 1) irəlidə gedən, öndə gedən, qabaqcıl; 2) başçı, rəhbər, öndər, lider

پیشروی [pişrəvi] 1) inkişaf, irəliləyiş, tərəqqi; 2) hücum (*qoşunun*); **کردن ~** a) irəliləmək; inkişaf etmək; b) hücuma keçmək (*qoşunun*)

پیش سینه [pişsine] 1) döşlük, önlük; 2) döş əti

پیش فروش [pişforuş] qabaqcadan malı satan (*mal hazır olmadan və ya məhsul yetişmədən öncə*)

پیش فروشی [pişforuşi] qabaqcadan malı satma (*mal hazır olmadan və ya məhsul yetişmədən öncə*)

پیشقدم [pişğədəm] 1) qabaqcıl, öncül; irəlidə addımlayan; öndə gedən, avanqard; 2) təşəbbüskar, təşəbbüsçü

پیشقدمی [pişğədəmi] 1) təşəbbüs, təşəbbüskarlıq; 2) öncüllük, qabaqcıllıq; **کردن ~** a) təşəbbüsü ələ almaq; b) öncül olmaq, qabaqcıl olmaq

پیشقراول [pişğəravol] ön mühafizə dəstəsi; kəşfiyyatçı dəstə

پیش قسط [pişğest] ilk ödəmə, birinci ödəniş

پیشکار [pişkar] 1) təsərrüfat müdiri; 2) maliyyə işlərinə baxan; 3) çörəkbişirən (*çörəyi təndirdən çıxaran*)

پیش کرایه [pişkeraye] qabaqcadan ödənilən kirayə haqqı

پیش کسوت [pişkesvət] 1) zorxanada (*bax* **زورخانه**) ən hörmətli idmançı; 2) ən qabaqcıl şəxs (*hər hansı bir işdə*); 3) veteran

پیشکش [pişkeş] peşkəş, bəxşiş, hədiyyə, ərməğan, sovqat; **کردن ~ (ساختن)** hədiyyə etmək, bağışlamaq

پیشکی [pişəki] 1) vaxtından əvvəl, vaxtından qabaq; 2): **~ پول** avans, beh

پیشگام [pişqam] *bax* **پیشقدم**

پیشگاه [pişqah] 1) şahın taxtının qarşısındakı yer; 2) saray; saraydakı çadırlar; 3) şahın məclisi; şahın dəftərxanası; dərgah; astana; balkon; 4): **~ در** hüzurunda, qarşısında; **~ در وزیر مسئول است** nazirin qarşısında məsuliyyət daşıyır

پیش گزینی [pişqozini] öncədən seçmə, qabaqcadan seçmə

پیشگفتار [pişqoftar] müqəddimə, giriş, ön söz

پیش گفته [pişqofte] haqqında danışılmış, yuxarıda deyilmiş, yuxarıda qeyd olunmuş

پیشگو [pişqu] öncədən xəbər verən, gələcəkdən xəbər verən

پیشگویی [pişquyi] öncəgörmə; öncədən xəbər vermə, gələcəkdən xəbər vermə; **کردن ~** qabaqcadan xəbər vermək; peyğəmbərlik etmək

پیشگیری [pişgiri] qabağını alma, qarşısını alma; **کردن ~** qabaqlamaq, qabağını almaq, qarşısını almaq

پیشنماز [pişnəmaz] pişnamaz, camaat namazının başçısı (*imamı*)

پیش نویس [pişnevis] qaralama, qaralama qeydlər; eskiz

پیشنهاد [pişnəhad] təklif; müzakirəyə çıxarma; **کردن ~** təklif etmək; müzakirəyə çıxarmaq

پیشوا [pişva] rəhbər, başçı, öndər; **~ دینی** dini rəhbər; **~ سیاسی** siyasi rəhbər

پیشواز [pişvaz] qarşılama; **رفتن ~** qarşılamağa getmək; **کردن ~** qarşılamaq

پیشوایی [pişvayi] rəhbərlik, başçılıq, öndərlik

پیشوند [pişvənd] *qram.* ön şəkilçi, prefiks

پیشه [pişe] 1) peşə, ixtisas; 2) mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək peşə və insan anlayışını bildirir: **هنر پیشه** artist; **ستم پیشه** zülmkar

پیشه کار [pişekar] *bax* **پیشه ور**

پیشه گر [pişegər] *bax* **پیشه ور**

پیشه ور [pişevər] 1) peşəkar, sənətkar; xırda sahibkar; 2) usta; dükan sahibi

پیشی [pişi] 1) birincilik; üstünlük, imtiyaz; 2) avans; **گرفتن ~** a) irəliləmək, üstünlük qazanmaq; b) ötmək, ötüb-keçmək

پیشین [pişin] 1) əvvəlki, qabaqkı; birinci; **~ صف** birinci sıra; 2) keçmiş, keçən, əvvəlki; sabiq; **~ شب** keçən gecə; **~ وزیر** keçmiş (*sabiq*) nazir

پیشینیان [pişineqan] *bax* **پیشینیان**

پیشینه [pişine] 1) əmək fəaliyyəti, staj; 2) keçmiş, keçmiş həyat; 3) *bax* **پیشین 1)**

پیشینه دار [pişinedar] 1) əvvəllər olmuş (*iş, hadisə*); 2) stajlı, stajı olan; təcrübəli; 3) xidməti olan; əməkdar

پیشینیان [pişiniyan] sələflər; əvvəlki nəsillər

پیغام [peyğam] *bax* **پیام**

پیغامبر [peyğambər] *bax* **پیغمبر**

پیغله [peyğole] *bax* **پیغوله**

پیغمبر [peyğəmbər] peyğəmbər, Allahın elçisi (*rəsulu*)

پیغمبرانه [peyğəmbərane] peyğəmbərcəsinə, peyğəmbər kimi

پیغمبری [peyğəmbəri] peyğəmbərlik, peyğəmbərlik missiyası; **کردن ~** peyğəmbərlik etmək, peyğəmbərlik missiyasını yerinə yetirmək

پیغوله [peyğule] 1) bucaq, künc, guşə; 2) daxma, uçuq yer; xarabalıq

پیف [pif] *n.* puf, tfu

پیک [peyk] 1) xəbər gətirən, elçi, qasid, nümayəndə; 2) kuryer, xidmətçi

پیکار [peykar] 1) müharibə; vuruşma, döyüş; 2) dalaşma, dava-dalaş; 3) mübarizə; **کردن ~** a) müharibə etmək; vuruşmaq, döyüşmək; b) dalaşmaq, dava-dalaş etmək

پیکارجو [peykarcu] 1) döyüşçü; 2) davakar, dalaşqan

پیکارجویی [peykarcuyi] 1) döyüşkənlik; 2) davakarlıq, dalaşqanlıq

پیکان [peykan] oxun və ya nizənin dəmir ucu

پیکر [peykər] 1) bədən; 2) heykəl; 3) şəkil, portret; 4) zahiri görkəm; 5) gözəl; 6) ulduz, planet

پیکر تراش [peykərtəraş] heykəltəraş

پیکر تراشی [peykərtəraşi] heykəltəraşlıq

پیکرد [peykərd] izləmə, təqib etmə, güdmə

پیکره [peykəre] 1) rəsm, şəkil, portret; 2) heykəl; 3) əsas, fon

پیک نیک [piknik] gəzməyə çıxma, gəzinti (*kollektiv şəkildə*)

پی گذار [peyqozar] *bax* بنیان گذار

پی گذاری [peyqozari] əsasını qoyma, yaratma, təşkil etmə; کردن ~ əsasını qoymaq, yaratmaq, təşkil etmək

پی گرد [peygərd] 1) təhqiq etmə, təhqiqat; istintaq, araşdırma; axtarış; 2) *bax* پی کرد; زیر ~ بودن axtarışda olmaq, axtarılmaq

پی گردی [peygərdi] 1) axtarış; 2) tədqiqat, araşdırma

پی گزار [peyqozar] *bax* پی گذار

پیگیر [peygir] 1) ardıcıl, sistemli; davamlı, daimi; 2) izləyən, təqib edən; 3) əzmkar, qətiyyətli

پی گیرانه [peygirane] 1) *bax* پیگیری; 2) ardıcıl şəkildə, sistemli şəkildə; 3) əzmkarlıqla, qətiyyətlə

پیگیری [peygiri] 1) ardıcıllıq, müntəzəmlik, sistemlilik, davamlılıq; 2) qətiyyət, əzmkarlıq; کردن ~ a) davam etdirmək; b) qətiyyət göstərmək

پیل [pil] *bax* فیل

پیل استخوان [pilostoxan] fil sümüyü

پیل افکن [piləfkən] güclü, qüvvətli, pəhləvan

پیل پیکر [pilpeykər] filə oxşar, böyük, yekə

پیل سان [pilsan] *bax* پیل پیکر

پیله [pile] barama; ~ کرم baramaqurdu; بستن ~ barama sarımaq

پیله ور [pilevər] xırdavatçı, xırda alverçi

پیله وری [pilevəri] xırdavatçılıq, xırda alverçilik

پیمان [peyman] müqavilə, pakt, saziş; دوستی ~ dostluq müqaviləsi; نظامی ~ hərbi saziş; بستن ~ müqavilə bağlamaq; شکستن ~ müqaviləni pozmaq

پیمان شکن [peymanşekən] 1) əhdi pozan; müqavilə şərtlərini pozan, müqaviləyə əməl etməyən; 2) xain, xəyanətkar

پیمان شکنی [peymanşekəni] 1) əhdi pozma, müqavilə şərtlərini pozma, müqaviləyə əməl etməmə; 2) xainlik, xəyanət

پیمان کار [peymankar] podratçı, podratla iş görən

پیمان کاری [peymankari] 1) podratla iş görmə; 2) günəmuzd iş

پیمان نامه [peymanname] yazılı öhdəlik; müqavilə, saziş

پیمانه [peymane] 1) ölçü; maye ölçmək üçün qab; 2) piyalə (*şərab üçün*); خوردن (کشیدن) ~ şərab içmək; ◊ پرشدن ~ səbri tükənmək, səbir kasası dolmaq

پیمبر [pəyəmbər // peyəmbər // peyombər] *bax* پیغمبر

پیمودن [peymudən] *k.* پیما [peyma] 1) ölçmək; 2) getmək, yol getmək, keçib getmək

پینگ پونگ [pingpong] pinq-ponq, stolüstü tennis

پی نوشت [peynevəşt] 1) qətnamə; 2) dərkənar, rəy; 3) əlavə, qoşma (*məktuba*)

پینه [pine] pinə, yamaq; کردن ~ yamamaq

پینه دوز [pineduz] pinəçi

پینه دوزی [pineduzi] pinəçilik; ayaqqabı təmiri

پیوست [peyvəst] 1) birləşmə, birləşdirmə; birləşdirilmə; 2) əlavə, qoşma, qoşulma (*məktuba*); بودن ~ bağlı olmaq, əlaqəli olmaq; qoşulmaq; پیوستن ~ کردن *bax* 1)

پیوستن [peyvəstən] *k.* پیوند [peyvənd] 1) birləşdirmək, əlaqələndirmək, bitişdirmək; 2) qoşulmaq; həmrəy olmaq

پیوستگی [peyvəstegi] 1) vəhdət, həmrəylik; birlik; ittifaq; 2) bağlılıq, əlaqəlilik; 3) ardıcıllıq, davamlılıq, sabitlik

پیوسته [peyvəste] پیوستن *f-nin k.z.f.sif.*; 1) əbədi, həmişə, daim; 2) birləşmiş; birləşdirilmiş; birgə

پیوند [peyvənd] پیوستن *f.-nin k.*; 1) birləşdirmə, əlaqələndirmə, 2) evlənmə; 3) qan qohumluğu; 4) calaq; 5) köçürülmə, transplantasiya; قلب ~ ürəyin köçürülməsi; کلیه ~ böyrəyin köçürülməsi; بریدن (گسستن) ~ qohumluq əlaqəsini kəsmək; دادن ~ birləşdirmək, bağlamaq; زدن ~ calaq vurmaq

پیوند زنی [peyvəndzəni] calaq etmə, calaq vurma

پیوندکاری [peyvəndkari] *bax* پیوندزنی

پیوندگاه [peyvəndqah] 1) calaq yeri; 2) *anat.* oynaq, bənd

پیه [pih] piy

پیه دار [pihdar] piyli; piylənmiş; kök

پیه سوز [pihsuz] piylə yanan çıraq

ت

ت [te] fars əlifbasının dördüncü hərfi; əbcəd hesabında 400 rəqəmini ifadə edir.

تا [ta] I kimi, qədər, -dək (*məsafə bildirən qoşma*); از خانه ~ دانشگاه evdən universitetə qədər; 2) kimi, qədər, -dək (*zaman mənalı qoşma*); از صبح ~ شام səhərdən axşamadək; 3) nə qədər ki; که هستم ~ nə qədər ki varam; 4) məqsəd bildirir; ~ رفتم gedəm ki, onu görüm

تا [ta] II qat, büküm, bükük; 2) tay (*cüt şeydən biri*); یک ~ جوراب corabın bir tayı; 3) ədəd, dənə (*numerativ söz*); سه ~ سیب üç dənə alma; ~ شدن qatlanmaq, bükülmək; ~ کردن a) qatlamaq, bükmək; b) rəftar etmək; با ما بهتر ~ کن bizimlə yaxşı rəftar et

تاب [tab] I müqavimət; duruş gətirmə; taqət, güc, dözüm, səbir; ~ آوردن tab gətirmək, dözmək

تاب [tab] II تابیدن I *f.-nin k.*; 1) isti; 2) parıltı, işıq, ~ افکندن işıq saçmaq, parıldamaq; ~ دادن qızartmaq

تاب [tab] III تابیدن II *f.-nin k.*; 1) burma, bükmə; 2) əyilmə; 3) yelləncək; ~ خوردن a) burulmaq, əyilmək b) yellənmək (*yelləncəkdə*); ~ دادن a) burmaq; b) əymək; c) yellətmək

تابان [taban] parlaq, parıldayan, işıqlı, işıqsaçan; ~ کردن işıqlandırmaq

تاباندن [tabandən] işıqlandırmaq; parıldatmaq; işıldamaq, işıq saçmaq

تابانیدن [tabanidən] *bax* تاباندن

تابتا [tabeta] taykeş, tərs (*ayaqqabı cütü*); ~ شدن taykeş olmaq; کفشهایم ~ شده است ayaqqabım taykeş düşübdür

تابدار [tabdar] I 1) dözümlü, səbirli; 2) möhkəm, bərk, davamlı; ~ پارچه möhkəm parça

تابدار [tabdar] II *bax* تابان

تابدار [tabdar] III qıvrım; زلف ~ (گیسوی) qıvrım saç

تابستان [tabestan] yay (*fəsil*); ~ در yayda

تابستانی [tabestani] yay üçün, yaya məxsus; ~ کفش yay ayaqqabısı

تابش [tabeş] 1) parlama, parıltı, parıldama, işıldama; 2) şüa, şüalanma; 3) isti, istilik; ~ دادن qızdırmaq; ~ داشتن (کردن) a) parlamaq, parıldamaq; b) şüalanmaq, şüa saçmaq

تابع [tabe] 1) tabe, tabe olan, itaət edən; 2) asılı, asılı olan; ~ شدن tabe olmaq, itaət etmək; ~ کردن tabe etmək

تابعیت [tabeiyyət] 1) təbəəlik, vətəndaşlıq; 2) asılılıq, asılı olma; ~ اختیار کردن (قبول کردن) vətəndaşlıq qəbul etmək

تابلو [tablo] 1) tablo, rəsm əsəri, şəkil; 2) lövhə; ~ اعلانات elanlar lövhəsi

تابلوساز [tablosaz] rəssam

تابناک [tabnak] *bax* تابان

تابندگی [tabəndegi] I parıltı, parıldama, işartı, işıltı

تابندگی [tabəndegi] II əyirmə; əyirici; ~ دستگاه əyirici dəzgah

تابو [tabu] tabu

تابوت [tabut] tabut

تابه [tabe] tava

تابیدن [tabidən] I 1) parlamaq, parıldamaq, işıldamaq, işıq saçmaq; 2) qızmaq, isinmək

تابیدن [tabidən] II 1) dönmək, çevrilmək; 2) fırlanmaq, hərlənmək; 3) eşilmək, burulmaq

تاپال [tapal] təzək; peyin

تاپاله [tapale] *bax* تاپال

تاتر [teatr] teatr

تاثر [təəssor] qəm, qüssə, kədər

تاثر آور [təəssoravər] qəmli, qüssəli, kədərli

تاثر انگیز [təəssorəngiz] *bax* تاثر آور

تاثیر [tə'sir] təsir, effekt; təəssürat; ~ کردن (بخشیدن) təsir etmək; تحت ~ کسی بودن birinin təsiri altında olmaq

تاثیرگذار [təsirqozar] təsiredici, təsirli, effektli

تاج [tac] 1) tac; *məc.* ~ فیروزه səma; *məc.* ~ گردون günəş; 2) kəkil (*quşlarda*); pipik; ◊ ~ گل əklil; çələng

تاجدار [tacdar] taclı, tac sahibi; şah

تاجر [tacer] *c.* تجار [toccar] tacir

تاجریزی [tacrizi] *bot.* quşüzümü

تاخت [taxt] 1) basqın, qəfil hücum; 2) at çapma; ~ و تاراج yağmalama, çapıb-talama, qarət etmə; ~ آوردن basqın etmək, hücum etmək; ~ کردن a) *bax* ~ آوردن ; b) at səyirtmək, at çapmaq

تاختن [taxtən] *k.* تاز [taz] 1) basqın etmək, qəfildən hücum etmək; 2) at çapmaq

تاخت و تاز [taxtotaz] basqın, hücum; ~ کردن basqın etmək, hücum etmək

تاخیر [tə'xir] təxir, geriyə salma, gecikdirmə, gecikdirilmə; yubatma; yubadılma, ~ کردن gecikmək, yubanmaq; به ~ افتادن gecikdirilmək, yubadılmaq; به ~ انداختن gecikdirmək, yubatmaq

تاخیرناپذیر [tə'xirnapəzir] təcili, təxirəsalınmaz; ~ تصمیمات təcili qərarlar

تادیب [tə'dib] 1) tərbiyələndirmə, tərbiyə vermə; 2) cəza, tənbeh; ~ شدن ədəblənmək, tərbiyələnmək; ~ کردن tərbiyələndirmək, tərbiyə vermək

تادیه [tə'diye] ödəmə (*borcu, verəgəli*); ~ شدن ödənilmək; ~ کردن ödəmək

تار [tar] I qaranlıq; tutqun

تار [tar] II tar; ~ زدن tar çalmaq

تار [tar] III 1) sap, ip; 2) tel; ~ های صوتی səs telləri; ~ مو tük (*tel*); ~ وپود a) əriş-arğac; b) əsas, təməl; 3) tor; ~ عنکبوت hörümçək toru

تاراج [tarac] tarac, qarət, talan, soyğunçuluq; ~ شدن qarət olunmaq; ~ کردن qarət etmək; به ~ بردن *bax* ~ کردن

تاراجگر [taracgər] soyğunçu, qarətçi; talançı

تارزن [tarzən] tarzən, tar çalan

تارک [tarək] 1) əmgək; kəllə; 2) təpə, zirvə; qüllə

تارک [tarek] tərk edən, əl çəkən; ~ دنیا tərki-dünya, dünyadan əl çəkən

تارک ادب [tarek(e)ədəb] ədəbsiz, qanacaqsız, mərifətsiz, tərbiyəsiz

تارم [tarəm // tarom] *bax* تارمی

تارمی [tarəmi // taromi] 1) çəpər, hasar (*taxtadan*); məhəccər; 2) səma, göy qübbəsi

تارومار [taromar] tar-mar, tar-mar etmə, dağıtma, məhv etmə; شدن ~ dağılmaq, məhv olmaq; کردن ~ dağıtmaq, məhv etmək

تاریخ [tarix] tarix; میلادی ~• miladi tarix (*təqvim*); هجری ~• hicri tarix (*təqvim*)

تاریخچه [tarixçe] tarixçə, qısa tarix; زندگی ~• bioqrafiya

تاریخ دان [tarixdan] tarixçi, tarixşünas, tarix araşdırıcısı

تاریخ شناس [tarixsaz] 1) tarixi, tarixə düşən; 2) çox mühüm, çox böyük (*tarixi hadisə*); 3) tarixi yaradan

تاریخ نویس [tarixnevis] tarixçi; salnaməçi, salnamə yazan

تاریخ نویسی [tarixnevisi] tarixçilik; salnaməçilik, salnamə yazma

تاریخی [tarixi] tarixi; məşhur, əhəmiyyətli; حوادث ~• tarixi hadisələr

تاریک [tarik] 1) qaranlıq, tutqun; 2) anlaşılmaz; شدن ~ a) qaranlıqlaşmaq; b) anlaşılmaz olmaq; a) کردن ~ qaranlıqlaşdırmaq; b) anlaşılmaz etmək

تاریکی [tariki] qaranlıq, zülmət, tutqunluq

تازگی [tazegi] 1) təzəlik, təravət; 2) yenilik, orijinallıq

تازه [taze] 1) təzə; tər; تخم ~• təzə yumurta 2) yeni; اخبار ~• yeni xəbərlər; شدن ~ yeniləşmək; کردن ~ təzələmək, yeniləşdirmək

تازه آوری [tazeavəri] yenilikçilik, novatorluq

تازه بنیاد [tazebonyad] yeni tikilmiş, yeni salınmış (*ev, bina*)

تازه به دوران رسیده [tazebedouranreside] təsadüfən yüksək vəzifə tutan və qürrələnən; layiq olmadığı yeri tutan; görməmiş adam

تازه جویی [tazecuyi] *bax* تازه آوری

تازه خط [tazexət(t)] yeniyetmə, bığ yeri yenicə tərləmiş

تازه داماد [tazedamad] təzə evlənmiş (*kişi*)

تازه دم [tazedəm] I təzə dəmlənmiş (*çay*)

تازه دم [tazedəm] II *bax* تازه نفس

تازه رس [tazerəs] *bax* نورس

تازه رو [tazeru] təravətli, alyanaqlı

تازه زا [tazeza] təzə doğmuş, zahı, zahı arvad

تازه زاد [tazezad] *bax* تازه زا

تازه ساز [tazesaz] *bax* تازه بنیاد

تازه ظهور [tazezohur] yeni tapılmış; yeni yaranmış

تازه عروس [tazeərus] təzə ərə getmiş

تازه کار [tazekar] yeni işə başlamış; təcrübəsiz, səriştəsiz

تازه کاری [tazekari] təcrübəsizlik, səriştəsizlik

تازه نفس [tazenəfəs] gümrah, enerjili; təzə işə başlamış; yeni qüvvə, yeni güc

تازه وارد [tazevared] təzə gəlmiş, yeni gəlmiş

تازی [tazi] I ərəb; اسب ~• ərəb atı; زبان ~• ərəb dili

تازی [tazi] II: سگ ~• tazı (*ov iti*)

تازیانه [taziyane] qamçı, şallaq; خوردن ~ qamçılanmaq; şallaq yemək; زدن ~ qamçılamaq, qamçı vurmaq, şallaqlamaq

تازیدن [tazidən] *bax* تاختن

تاس [tas] I zər (*qumarda, nərd oyununda istifadə olunan bir cüt*

zər); انداختن ~ zər almaq; گرفتن ~ zər tutmaq

تاس [tas] II daz, keçəl

تاس [tas] III tas, ləyən , teşt

تاس بازی [tasbazi] 1) nərd oyunu; 2) zər atma (*qumar oyununda*)

تأسف [təəssof] təəssüf; خوردن ~ təəssüflənmək, heyifsilənmək

تأسف آور [təəssofavər] təəssüf doğuran, təəssüfedici, qəmli, kədərli

تأسف انگیز [tə[illegible]ssofəngiz] *bax* تأسف آور

تأسف بار [təəssofbar] *bax* تأسف آور

تاس کباب [taskəbab] taskabab (*xörək*)

تاس ماهی [tasmahi] nərə balığı

تاسوعا [tasua] məhərrəm ayının doqquzuncu günü

تأسی [təəssi] yamsılama, təqlid etmə; ardınca getmə (*əqidənin, ənənənin*), davam etdirmə (*ənənəni və s.*)

تأسیس [tə'sis] təsis etmə, yaratma; özülü qoyulma; شدن ~ yaradılmaq, təsis edilmək; کردن ~ təsis etmək, yaratmaq

تأسیسات [tə'sisat] *t.* تأسیس müəssisələr; دولتی ~• dövlət müəssisələri

تاشو [taşou] bükülən, qatlanan, qatlama; میز~• qatlama masa

تافتن [taftən] *k.* تاب [tab] *bax* تابیدن I, II

تافته [tafte] tafta (*parça*)

تاق [tağ] I tağ, alaqapı; ابرو ~• خم دادن qaşqabağını sallamaq; ابرو گشادن gülmək; qaşqabağı açılmaq

تاق [tağ] II tək, cüt olmayan; عدد ~• tək ədəd; یا جفت ~ tək, ya cüt; طاقت کسی ~ شدن• taqəti kəsilmək, əldən düşmək

تاقچه [tağçe] taxta, divar oyuğu; بالا گذاشتن ~ ◊ özünü çəkmək, lovğalanmaq

تاک [tak]: انگور ~• tənək, meynə

تاکتیک [taktik] taktika

تاکتیکی [taktiki] taktiki

تاکس [taks] nırx, məzənnə

تاکستان [takestan] üzüm bağı, üzümlük, meynəlik

تاکسی [taksi] taksi

تأکید [tə'kid] təkid, israr, qətiyyət; کردن ~ təkid etmək, israr etmək, sözünün üstündə durmaq

تأکید آمیز [tə'kidamiz] təkidli, israrlı, qətiyyətli; سخنان ~• təkidli sözlər

تالار [talar] salon, zal

تالاسمی [talasemi] *tib.* talassemiya (*irsi qanazlığı*)

تالان [talan] *bax* تاراج

تألم [təəllom] qəm, qüssə, kədər, dərd

تألم انگیز [təəlloməngiz] qəmli, qüssəli, kədərli, dərdli

تالی [tali] 1) davamçı; ardıcıl; 2) sonrakı, sonra gələn

تألیف [tə'lif] *c.* تألیفات [tə'lifat] kitab yazma, əsər yazma; شدن ~ (یافتن) yazılmaq (*kitab, əsər*); کردن ~ yazmaq (*kitabı, əsəri*)

تام [tam] 1) tam, bütöv, kamil, mükəmməl; عدد ~• tam ədəd; 2) bitkin, tamamlanmış; 3) mütləq; حاکمیت ~• mütləq hakimiyyət

تامپن [tampon] tampon, tıxac (*yara üçün*)

تامپون [tampon] *bax* تامپن

تأمل [təəmmol] 1) düşünmə, fikirləşmə, götür-qoy etmə; 2) gecikdirmə, yubatma, yubandırma; بدون•

~ (بی) fikirləşmədən, düşünmədən; کردن ~ a) fikirləşmək; düşünmək; ölçüb-biçmək; b) gecikdirmək, yubatmaq, ləngitmək

تام و تمام [tam(m)otəmam] tamamkamal, tamamilə, büsbütün, mükəmməl

تأمین [tə'min] *c.* تأمینات [tə'minat] 1) təmin etmə; 2) razılaşma; 3) qarantiya, zəmanət; دادن ~ zəmanət vermək; شدن ~ a) təmin olunmaq; b) razılaşmaq; کردن ~ a) təmin etmək; b) razılaşdırmaq

تانک [tank] I tank, zirehli hərbi texnika

تانک [tank] II çən, sistern

تانکچی [tankçi] tankçı

تانکر [tanker] tanker (*neft və s.-ni daşıyan gəmi*)

تانکیست [tankist] *bax* تانکچی

تأنی [təənni] yavaşıma, yavaşıtma, sürəti azaltma; lənglik, yavaşlıq; با ~ (به) yavaşca, aramla, tələsmədən; کردن ~ yavaşıtmaq, sürəti azaltmaq; tələsməmək

تأنیس [tə'nis] *qram.* qadın cinsinə çevrilmə

تاوان [tavan] 1) ödənilmə, əvəzi ödənilmə, kompensasiya; 2) cərimə; کشیدن ~ zərər çəkmək; گرفتن ~ cərimə almaq

تاوان خواه [tavanxah] iddiaçı, tələb edən

تاول [tavəl] qabar, suluq, uçuqlama; زدن ~ qabar bağlamaq, qabar olmaq

تاووس [tavus] tovuz (*quş*)

تاووس وار [tavusvar] tovuz kimi

تاوه [tavc] *bax* تابه

تأویل [tə'vil] şərh etmə; izah etmə; aydınlaşdırma; yozma, yozum; کردن ~ şərh etmək, izah etmək; aydınlaşdırmaq; yozmaq

تأهل [təəhhol] evlənmə, arvad alma; اختیار کردن ~ evlənmək

تایب [tayeb] tövbə edən, tövbəkar

تایپ [tayp] yazı makinasında (*kompyuterdə*) yazma; کردن ~ yazı makinasında (*kompyuterdə*) yazmaq

تایپیست [taypist] makinaçı, makinada yazan; kompyuterçi, kompyuterdə yazan

تایر [tayer] şin

تایر سازی [tayersazi] şinqayırma; کارخانه ~ şin zavodu

تأیید [tə'yid] təsdiq etmə, təsdiqləmə; کردن ~ təsdiq etmək, təsdiqləmək

تب [təb] qızdırma, isitmə; ~ دزده *dan.* gizli qızdırma; ~ نوبه malyariya; داشتن (کردن) ~ qızdırmalı olmaq, qızdırmaq

تبادل [təbadol] dəyişmə, dəyişdirmə, əvəz etmə, mübadilə آتش ~ atışma; افکار ~ fikir mübadiləsi; ~ کردن dəyişmək, mübadilə etmək

تبار [təbar] əsil, kök, mənşə, nəsil, soy

تبارک [təbarək] mübarək; bərəkətli; pak

تبارک الله [təbarəkəllah] *bax* بارک الله

تباشیر [təbaşir] 1) tabaşir; 2) bambuk; ◊ صبح ~ sübh (*səhər*) şəfəqi

تبانی [təbani] razılıq, gizli razılaşma; saziş; کردن ~ razılaşmaq

تباه [təbah] korlanmış, xarab olmuş; məhv olmuş; شدن ~ korlanmaq; məhv olmaq; (ساختن) کردن ~ korlamaq; məhv etmək

تباه خو [təbahxu] pozğun, əxlaqsız; tərbiyəsiz

تباهکار [təbahkar] 1) cani, cinayətkar; 2) yaramaz, pozğun

تباهکارانه [təbahkaranc] 1) cinayətkarcasına; 2) yaramazcasına

تباه کاری [təbahkari] cinayətkarlıq; ziyankarlıq

تباهی [təbahi] korlama; korlanma, fəsad, çürüklük

تباین [təbayon] əkslik, zidlik, ziddiyyət; fərq

تب بر [təbbər] *tib.* qızdırmanı aşağı salan

تبحر [təbəhhor] dərin bilik, dərin düşüncə, erudisiya

تبخال [təbxal] dodağın uçuqlaması; زدن (برآوردن) ~ uçuqlamaq

تبخیر [təbxir] buxarlanma; شدن ~ buxarlanmaq; کردن ~ buxarlatmaq

تبدار [təbdar] qızdırmalı, qızdırması olan

تبدل [təbəddol] *c.* تبدلات [təbəddolat] dəyişmə, başqa şəklə düşmə, dəyişiklik; یافتن ~ dəyişilmək

تبدیل [təbdil] dəyişmə, əvəz olunma, çevrilmə; آب به بخار ~ suyun buxara çevrilməsi; عناصر ~ *kim.* maddələr mübadiləsi; مکان ~ yaşayış yerini dəyişmə; شدن ~ dəyişilmək; (ساختن) کردن ~ dəyişdirmək

تبذیر [təbzir] israfçılıq, bədxərclik; کردن ~ israfçılıq etmək

تبر [təbər] balta

تبرا [təbərra] 1) dönmə, üz döndərmə, uzaqlaşma; əl çəkmə; 2) rədd etmə; 3) çəkinmə, pəhriz; جستن ~ (کردن) a) üz döndərmək, əl çəkmək; b) çəkinmək, pəhriz saxlamaq

تبرزد [təbərzəd] 1) nabat, ağappaq qənd; 2) şirin və sulu meyvə (*üzüm, şaftalı*)

تبرزین [təbərzin] təbərzin (*baltaya oxşar alət, silah növü*)

تبرع [təbərro'] hədiyyə, bəxşiş (*Allah yolunda savab xətrinə*); ianə, ehsan

تبرک [təbərrək] 1) xeyir-dua vermə, 2) xeyir, bərəkət; 3) dua, gözmuncuğu, tilsim

تبره [təbre] *bax* توبره

تبری [təbərri] *bax* تبرا

تبرید [təbrid] soyutma; sərinləşdirmə

تبریک [təbrik] təbrik; گفتن ~ təbrik etmək

تبسم [təbəssəm] təbəssüm, gülüş, gülümsəmə; بر لب آوردن // ~ کردن ~ gülümsəmək

تبصره [təbsere // təbsərə] qeyd, izah, şərh, açıqlama

تبع [təbə'] *c.* اتباع [ətba'] ardıcıl, davamçı, tərəfdar

تبعه [təbəə] təbəə, vətəndaş; جمهوری اسلامی ایران ~ İran İslam Respublikasının vətəndaşı

تبعیت [təbəiyyət] 1) təbəəlik, vətəndaşlıq; 2) tabelilik, asılılıq; اختیار ~ کردن vətəndaşlıq qəbul etmək; به ~ در آمدن vətəndaşlığa qəbul olunmaq

تبعید [təb'id] sürgün; شدن ~ sürgün olunmaq; کردن ~ sürgün etmək

تبعیدگاه [təb'idqah] sürgün yeri

تبعیض [təb'iz] ayrı-seçkilik; کردن ~ ayrı-seçkilik etmək; نژادی ~ irqçilik, irqi ayrı-seçkilik

تب لرز [təblərz] malyariya

تب لرزه [təblərze] *bax* **تب لرز**

تبلور [təbəlvor] kristallaşma, bülluriaşma

تبلیغ [təbliğ] *c.* **تبلیغات** [təbliğat] təbliğ, təbliğat; **کردن** ~ təbliğ etmək

تبلیغات [təbliğat] təbliğat, təşviqat; **انتخاباتی** ~˙ seçkiqabağı təbliğat

تبلیغاتچی [təbliğatçı] təbliğatçı, təşviqatçı

تبه [təbəh] *bax* **تباه**

تبه خو [təbəhxu] *bax* **تباه خو**

تبهکار [təbəhkar] *bax* **تباه کار**

تبهکارانه [təbəhkarane] *bax* **تباهکارانه**

تبهکاری [təbəhkari] *bax* **تباهکاری**

تبیین [təbyin] bəyan etmə; izah etmə, açıqlama; **کردن** ~ bəyan etmək; izah etmək, açıqlamaq

تپانچه [təpançe] tapança; **در کردن** ~ tapançadan atəş açmaq

تپان [təpan] **تپیدن** *f.-nin in.z.f.sif.;* döyünən, çırpınan (*ürək*)

تپاندن [təpandən] təpmək, təpişdirmək, soxmaq, soxuşdurmaq, dürtmək

تپش [təpeş] döyüntü, döyünmə; **قلب** ~˙ ürəyin döyünməsi; ~ **(در) به آمدن** döyünməyə başlamaq

تپق [topoğ] pəltəklik, dili topuq vurma

تپه [təppe] təpə, yüksəklik

تپیدن [təpidən] 1) vurmaq (*nəbz*); döyünmək (*ürək*); 2) titrəmək, əsmək 3) soxulmaq, təpilmək, girmək

تتابع [tətabo'] ardıcıllıq; sistemlilik; bir-birinin ardınca getmə

تتبع [tətəbbo'] tədqiqat, araşdırma; diqqətlə öyrənmə; **علمی** ~˙ elmi araşdırma; **کردن** ~ tədqiqatla məşğul olmaq, araşdırmaq

تتمه [tətəmme // tətemme] 1) qalıq; **حساب** ~˙ hesabın qalığı; 2) ardı; davamı (*hekayənin, əsərin*); **داشتن** ~ davam etmək, ardı olmaq; **فیلم دارد** ~ filmin ardı var

تثبیت [təsbit] 1) təsdiq, təsdiq etmə; 2) möhkəmləndirmə, sabitləşdirmə; **شدن** ~ möhkəmləndirilmək, sabitləşdirilmək; **کردن** ~ möhkəmləndirmək, sabitləşdirmək

تثلیث [təslis] 1) üçləmə, üçləşdirmə; üç yerə bölmə; 2) *riyaz.* üçbucaq qurma; 3) *din.* üçlük, üçlüyə inanma (*xristian dinində*)

تثنیه [təsniye] 1) ikilik; 2) *qram.* ikilik kateqoriyası

تجادل [təcadol] mübahisə, höcətləşmə, sözləşmə; **کردن** ~ mübahisə etmək, sözləşmək

تجار [toccar] *t.* **تاجر**

تجارب [təcareb] *t.* **تجربه**

تجارت [tecarət] ticarət, alver; **آزاد** ~˙ azad ticarət; **خرده فروشی** ~˙ pərakəndə satış; **عمده فروشی** ~˙ topdansatış

تجارت خانه [tecarətxane] ticarət evi, ticarət nümayəndəliyi

تجانس [təcanos] həmcinslik, eyni cinsdən olma; **لفظی** ~˙ omonimlik; **معنوی** ~˙ sinonimlik

تجاوز [təcavoz] 1) təcavüz, təcavüzkarlıq; **جنسی** ~˙ cinsi təcavüz; **نظامی** ~˙ hərbi təcavüz; 2) qəsb, qəsbkarlıq; 3) sərhədi keçmə 4) həddi aşma; **کردن** ~ təcavüz etmək; sərhədi keçmək

تجاوزکار [təcavozkar] təcavüzkar, işğalçı

تجاوزکارانه [təcavozkarane] təcavüzkarcasına, təcavüzkarlıqla

تجاروزکاری [təcavozkari] təcavüzkarlıq, işğalçılıq

تجاوزگر [təcavozgər] *bax* **تجاوزکار**

تجاهل [təcahol] özünü qanmazlığa vurma; özünü cahil kimi aparma, özünü ağılsız kimi göstərmə; **کردن** ~ özünü qanmazlığa vurmaq; özünü ağılsız kimi göstərmək

تجدد [təcəddod] 1) yeniləşdirmə, təzələmə; yeniləşmə, təzələnmə; 2) yenilik, dəyişmə; 3) islah etmə, islahat; **بخشیدن** ~ yeniləşdirmək; bərpa etmək; **یافتن** ~ yeniləşmək; bərpa olunmaq

تجدد پرور [təcəddodpərvər] yenilikçi, yenilik tərəfdarı, novator

تجدد خواه [təcəddodxah] *bax* **تجدد پرور**

تجدد خواهی [təcəddodxahi] *bax* **تجدد طلبی**

تجدد طلبی [təcəddodtələbi] yenilik tələb etmə, yenilikçilik

تجدید [təcdid] yeniləşdirmə, təzələmə; **امتحان**~˙ təkrar imtahan; **چاپ** ~˙ yeni nəşr; **نظر** ~˙ yenidən baxma; ~ **شدن** yeniləşmək; **کردن** ~ yeniləşdirmək

تجربه [təcrobe] *c.* **تجارب** [təcareb] təcrübə, sınaq; **کردن** ~ təcrübə etmək, sınamaq, sınaqdan keçirmək

تجربه دار [təcrobedar] təcrübəli, səriştəli, bacarıqlı

تجربی [təcrebi // təcrobi] təcrübi, təcrübəvi, əməli; **علوم** ~˙ təcrübi elmlər

تجربیات [təcrobiyyat] *t.* **تجربه**

تجرد [təcərrod] 1) təklik, tənhalıq, yalqızlıq; 2) subaylıq

تجرد گزین [təcərrodqozin] 1) təkliyi sevən, tək yaşamağı xoşlayan; 2) tərki-dünya

تجرید [təcrid] 1) təcrid, ayırma, təkləmə; 2) mücərrədləşdirmə, abstraktlaşdırma; **شدن** ~ təcrid olunmaq, ayrılmaq; **کردن** ~ təcrid etmək, ayırmaq

تجزیه [təcziye] analiz, təhlil; **خون** ~˙ qan analizi; **دستوری** ~˙ qrammatik təhlil; **شیمیایی** ~˙ kimyəvi təhlil; **و** ~ **تحلیل** təhlil və araşdırma; **شدن** ~ təhlil olunmaq; **کردن** ~ analiz etmək, təhlil etmək

تجزیه طلب [təcziyetələb] separatçı, separatizm tərəfdarı

تجزیه طلبی [təcziyetələbi] separatçılıq, separatizm

تجسس [təcəssos] 1) axtarış; araşdırma, öyrənmə, tədqiq etmə; 2) istintaq; 3) kəşfiyyat (*casusluq*); **کردن** ~ a) axtarmaq; b) istintaq etmək; c) araşdırmaq ç) kəşfiyyat (*casusluq*) etmək

تجسم [təcəssom] təcəssüm etmə; ifadə etmə; təmsil edilmə; **دادن** ~ **(بخشیدن)** təcəssüm etmək; ifadə etmək; **یافتن (کردن)** ~ təmsil edilmək, ifadə edilmək

تجلی [təcəlli] 1) parıltı, işıq; parlaqlıq; 2) zahir olma, görsənmə, üzə çıxma, aşkar olma; **کردن** ~ a) parıldamaq b) aşkar olmaq, görsənmək

تجلید [təclid] cildləmə; **شدن** ~ cildlənmək; **کردن** ~ cildləmək

تجلیل [təclil] hörmət etmə, ehtiram bəsləmə, sayğı göstərmə; tərifləmə; **کردن** ~ hörmət etmək, ehtiram bəsləmək; tərifləmək

تجمع [təcəmmo'] yığışma, toplaşma; ~ آزادی azad toplaşma, sərbəst toplaşma; کردن ~ yığışmaq, toplaşmaq

تجمل [təcəmmol] cah-calal, təmtəraq, dəbdəbə, təntənə

تجمل پرست [təcəmmolpərəst] dəbdəbə sevən; zinət əşyaları sevən

تجمل پرستی [təcəmmolpərəsti] dəbdəbə sevmə; zinət əşyaları sevmə

تجملی [təcəmmoli] cah-calallı, dəbdəbəli; ~ زندگی dəbdəbəli həyat (*yaşayış*)

تجنیس [təcnis] 1) cinas; 2) bənzətmə

تجوید [təcvid] Quranı düzgün oxuma qaydaları

تجویز [təcviz] 1) icazə, izin 2) təyin etmə (*dərmanı*), göstəriş (*hakimin*); کردن ~ a) icazə vermək; b) təyin etmək; yazmaq (*dərman*)

تجهیز [təchiz] *c.* تجهیزات [təchizat] 1) təchiz, tədarük; tələbatı ödəmə; 2) səfərbərlik etmə; شدن ~ a) təchiz olunmaq; b) səfərbər olunmaq; کردن ~ a) təchiz etmək; b) səfərbər etmək

تجهیزات [təchizat] *t.* تجهیز 1) təchizat, ləvazimat; avadanlıq; sursat; نظامی ~ [illegible] (*sursat*); 2) səfərbərlik; عمومی ~ ümumi səfərbərlik

تحاشی [təhaşi] 1) imtina, imtina etmə; boyun qaçırma; 2) çəkinmə, saqınma; کردن ~ a) imtina etmək, boyun qaçırmaq; b) çəkinmək, saqınmaq

تحبیب [təhbib] mehribanlıq göstərmə; dostluq etmə; dostluq [illegible]

سرپرستی başçılığı ilə; نظر ~ nəzarət altında

تحت الارضی [təhtolərzi] yeraltı

تحت البحری [təhtolbəhri] sualtı (*gəmi*)

تحت الحفظ [təhtolhefz] nəzarət altında saxlanılma, tutulma, həbs olunma

تحت الحمایگی [təhtolhemayegi] protektorat, himayədə saxlama üsulu

تحت الحمایه [təhtolhemaye] himayədə olan, protektoratda olan

تحت اللفظی [təhtolləfzi] hərfi, hərfihərfinə; söz-söz; sətiraltı; ~ ترجمه hərfi tərcümə

تحتانی [təhtani] alt; altdakı, aşağıdakı; ~ طبقه aşağı mərtəbə

تحدید [təhdid] məhdudlaşdırma, limitləşdirmə, hədd qoyma; ~ حدود sərhədlərin müəyyən edilməsi (*təyin edilməsi*); کردن ~ a) məhdudlaşdırmaq; b) müəyyənləşdirmək (*sərhədi*)

تحجر [təhəccor] daşlaşma, daşa dönmə, daş kimi bərkimə

تحدب [təhəddəb] qabarıqlıq, qabarıq yer; çıxıntı

تحرک [təhərrok] hərəkət; gedişgəliş; irəliləmə

تحریر [təhrir] 1) yazma; qələmə alma; ~ [illegible] yazı masası; 2) redaktə etmə, düzəltmə; شدن ~ yazılmaq; کردن ~ yazmaq

تحریرا [təhrirən] yazılı surətdə, yazılı şəkildə

تحریری [təhriri] 1) yazılı, yazılmış; 2) redaktə edilmiş

تحریریه [təhririyye] *bax* تحریری; ~ هیئت redaksiya heyəti

etmək; b) tamahlandırmaq, şirniklənmək

تحریض [təhriz] qızışdırma, vadar etmə; həvəsə gətirmə

تحریف [təhrif] təhrif etmə; mənasını dəyişdirmə; شدن ~ təhrif olunmaq; کردن ~ təhrif etmək

تحریک [təhrik] 1) təhrik etmə; hərəkətə gətirmə; qızışdırma; 2) qıcıqlanma; qıcıqlandırma; həvəsləndirmə; شدن ~ təhrik olunmaq; qıcıqlanmaq; کردن ~ təhrik etmək; qızışdırmaq, qıcıqlandırmaq

تحریک آمیز [təhrikamiz] təhrikçi, araqarışdıran, qızışdırıcı, fitnəkar; ~ نطق təhrikçi çıxış, qızışdırıcı çıxış

تحریکی [təhriki] *bax* تحریک آمیز

تحریم [təhrim] 1) qadağa, yasaq; qeyri-qanuni elan etmə; 2) embarqo, boykot; اقتصادی ~ iqtisadi embarqo; شدن ~ a) qadağan olunmaq; b) embarqo qoyulmaq; کردن ~ a) qadağan etmək; b) embarqo qoymaq

تحسر [təhəssor] 1) təəssüf, təəssüflənmə, heyifsilənmə; 2) qəm, qüssə, kədər

تحسین [təhsin] 1) tərifləmə, alqışlama; 2) yaxşılaşma; کردن ~ tərifləmək

تحصیل [təhsil] 1) əldə etmə, qazanma; 2) təhsil, öyrənmə; علم ~ elm öyrənmə; کردن ~ a) əldə etmək, qazanmaq; b) oxumaq, təhsil almaq

تحصیلات [təhsilat] *t.* تحصیل təhsil; تخصصی ~ peşə-ixtisas təhsili; ~ عالی ali təhsil

تحصیل کرده [təhsilkərde] 1) oxumuş, [illegible]

تحقق [təhəğğoğ] 1) həqiqət, düzgünlük, gerçəklik; 2) həyata keçmə, yerinə yetirilmə (*arzu, istək*); ~ بخشیدن həyata keçirmək, yerinə yetirmək; (پذیرفتن) یافتن ~ həyata keçirilmək, yerinə yetirilmək

تحقیر [təhğir] təhqir, alçaltma; شدن ~ təhqir olunmaq; کردن ~ təhqir etmək

تحقیر آمیز [təhğiramiz] təhqiramiz, təhqiredici, təhqirli, alçaldıcı

تحقیرانه [təhğirane] *bax* تحقیر آمیز

تحقیق [təhğiğ] *c.* تحقیقات [təhğiğat]; 1) tədqiq etmə, araşdırma; öyrənmə; 2) yoxlama, ekspertiza; ~ شدن tədqiq olunmaq; öyrənilmək; ~ کردن tədqiq etmək, öyrənmək

تحکم [təhəkkom] 1) idarə etmə; hökmranlıq etmə, ağalıq etmə; 2) sıxışdırma; zülm etmə; کردن ~ a) idarə etmək; hökmranlıq etmək, ağalıq etmək; b) sıxışdırmaq, zülm etmək

تحکیم [təhkim] 1) möhkəmlənmə, bərkimə; 2) güclənmə, qüvvətlənmə; شدن ~ möhkəmlənmək, güclənmək; کردن ~ möhkəmlətmək, gücləndirmək

تحلیل [təhlil] 1) həll olunma, həll [illegible] edilmə; 2) həzm olunma; 3) təhlil, analiz; جمله ~ cümlə təhlili; 4) zəifləmə, üzülmə; قوا ~ qüvvələrin zəifləməsi; شدن ~ a) həll olmaq; b) təhlil olunmaq; رفتن ~ a) azalmaq; b) həzm olunmaq; کردن ~ təhlil etmək; yoxlamaq

تحلیلگر [təhlilgər] təhlil edən; araşdıran

تحمل [təhəmməl] 1) səbir, dözüm, hövsələ; 2) dözmə, tab gətirmə, qatlaşma; ~ دشواری çətinliyə tab gətirmə; ~ مصایب müsibətlərə qatlaşma; ~ داشتن dözümlü olmaq; səbirli olmaq; ~ کردن dözmək, səbir etmək

تحمیل [təhmil] 1) məcbur etmə, zorla boyuna qoyma; 2) vadar edilmə, məcbur edilmə; ~ شدن zorla boyuna qoyulmaq; ~ کردن vadar etmək; zorla boyuna qoymaq

تحمیلی [təhmili] zorla qəbul etdirilmiş, məcbur edilmiş, vadar etdirilmiş; ~ جنگ zorla vadar etdirilmiş müharibə; ~ قرار داد zorla bağladılmış müqavilə

تحول [təhəvvol] dəyişiklik, dəyişmə; islahat; ~ بنیادی əsaslı dəyişiklik; ~ یافتن (پذیرفتن) dəyişilmək

تحویل [təhvil] 1) təhvil vermə; təhvil verilmə; 2) köçürülmə (*pul*); 3) qaytarma; qaytarılma; 4) dəyişmə; dəyişilmə; ~ سال ilin təhvili, ilin dəyişməsi; ~ دادن təhvil vermək; ~ شدن təhvil olmaq (*il*); təhvil alınmaq; ~ گرفتن təhvil almaq

تحویلدار [təhvildar] 1) xəzinədar, kassir; 2) anbardar

تحیت [təhiyyət] *c.* تحیات [təhiyyat] salamlama; təbrik etmə; ~ گفتن salamlamaq, təbrik etmək

تحیر [təhəyyor] təəccüblənmə, heyrət etmə, heyrətə gəlmə; ~ داشتن təəccüblənmək, heyrət etmək

تخاصم [təxasom] düşmənçilik, ədavət, ~ داشتن düşmənçilik etmək, ədavət bəsləmək

تخالف [təxalof] 1) ixtilaf, fikir ayrılığı; ziddiyyət; 2) fərq, fərqlənmə

تخت [təxt] 1) taxt; ~ شاهی şahlıq taxtı; 2) hamar; ~ راه hamar yol

تخت خواب [təxt(e)xab] çarpayı; ~ تاشو qatlanan çarpayı; ~ چوبی taxta çarpayı; ~ فلزی dəmir çarpayı

تخته [təxte] 1) taxta; ağac parçası; ~ شطرنج şahmat taxtası; 2) bağlama; ədəd (*numerativ söz*); ~ قماش bir bağlama parça; ~ کردن a) taxta ilə bağlamaq; b) *dan.* bağlamaq (*dükanı, mağazanı*)

تخته ابزار [təxteəbzar] taxta-şalban məhsulları (*məmulatları*)

تخته ای [təxtei] taxtadan düzəldilmiş; ~ خانه taxta ev

تخته بری [təxtebori] taxta-şalban mişarlama

تخته پل [təxtepol] taxta körpü

تخته سنگ [təxtesəng] daş parçası; qaya

تخته سه لایی [təxteselayi] faner

تخته سیاه [təxtesiyah] yazı taxtası, yazı lövhəsi (*tabaşirlə yazmaq üçün*)

تخته فرش [təxteförş] parket

تخته نرد [təxtenərd] nərd, nərdtaxta

تخدیر [təxdir] keyləşdirmə, ağrısızlaşdırma, anesteziya

تخریب [təxrib] 1) dağıtma, uçurtma, yıxma; xarab etmə; 2) məhv etmə, yox etmə; 3) diversiya, təxribat; ~ کردن a) dağıtmaq, uçurtmaq; b) məhv etmək, yox etmək

تخریب کار [təxribkar] diversant, təxribaçı

تخریب کاری [təxribkari] təxribatçılıq, diversiya

تخریبی [təxribi] dağıdıcı, məhvedici, təxribatçılıq; ~ فعالیت təxribatçılıq işi

تخصص [təxəssos] ixtisas, ixtisaslaşma

تخصصی [təxəssosi] xüsusi, məxsusi; ixtisaslaşdırlımış; ~ لباس xüsusi paltar

تخصیص [təxsis] 1) xüsusi olaraq təyin etmə, ayırma; 2) pul ayırma; 3) ixtisaslaşma; ~ شدن (یافتن) a) xüsusi olaraq təyin olunmaq; b) pul ayrılmaq; ~ کردن a) xüsusi olaraq təyin etmək; b) pul ayırmaq

تخفیف [təxfif] 1) azaltma, aşağı salma, endirmə; endirim; ~ قیمت qiyməti aşağı salma, qiyməti endirmə, endirim; 2) yüngülləşdirmə; ~ مجازات cəzanı yüngülləşdirmə; ~ دادن azaltmaq, aşağı salmaq

تخلخل [təxəlxol] məsaməlilik

تخلص [təxəllos] təxəllüs

تخلف [təxəllof] pozma, pozulma; əməl etməmə; yerinə yetirməmə, boyun qaçırma, icra etməmə (*qanunu*); ~ راه و رانندگی yol və sürücülük qaydalarını pozma; ~ کردن (ورزیدن) pozmaq (*qanunu*); əməl etməmək; icra etməmək

تخلیص [təxlis] xilas etmə, azad etmə, qurtarma

تخلیط [təxlit] 1) qarışdırma; qarışdırılma; 2) qarışıqlıq, dolaşıqlıq; 3) yalan uydurma; 4) ara vurma, ara qarışdırma; ~ کردن a) qarışdırmaq; b) dolaşdırmaq; c) yalan uydurmaq

تخلیه [təxliye] boşaldılma, boşaltma; ~ شدن boşaldılmaq; ~ کردن boşaltmaq

تخم [toxm] 1) toxum; tum; ~ آفتابگردان günəbaxan tumu; ~ گل gül toxumu; 2) yumurta; ~ مرغ toyuq yumurtası; ~ پاشیدن (افشاندن) toxum səpmək; ~ کردن (گذاشتن) yumurtlamaq; ~ چشم göz alması; ~ حرام haramzada (*qeyri-qanuni uşaq*); ◊ ~ دو زرده گذاشتن çox faydalı olmaq; ~ چشم کسی جا داشتن روی çox əziz olmaq; ~ لق در دهان کسی شکستن boş vədlərlə şirnikdirmək

تخماق [toxmağ] toxmaq

تخم پاشی [toxmpaşi] toxum (*tum*) səpmə, səpin; ~ کردن toxum (*tum*) səpmək

تخم دان [toxmdan] 1) *anat.* yumurtalıq; 2) *bot.* toxumluq

تخمر [təxəmmor] qıcqırma, turşuma, acıma

تخم مرغ [toxmemorğ] *bax* تخم 2)

تخمه [toxme] 1) tum; ~ هندوانه qarpız tumu; 2) nəsil, kök; ~ نامدار məşhur nəsil

تخمی [toxmi] 1) damazlıq erkək; ~ اسب damazlıq erkək at; 2) tumlu; toxumluq; ~ خیار toxumluq xiyar; 3) *dan.* boş, cəfəng; geydirmə

تخمیر [təxmir] mayalama; acıtma (*xəmiri*), qıcqırtma; ~ شدن mayalanmaq; qıcqırmaq, acımaq; ~ کردن maya vurmaq; qıcqırtmaq

تخمین [təxmin] təxmin etmə, fərz etmə, zənn etmə; ~ نظری gözəyarı ölçmə; ~ زدن təxmin etmək, təxmini olaraq müəyyən etmək

تخمیناً [təxminən] təxminən, təqribən

تخمینی [təxmini] təxmini, təxmini olaraq, gözəyarı; ~ قیمت təxmini qiymət

تخویف [təxvif] qorxutma, hədələmə, hədə-qorxu gəlmə; ~ کردن

qorxutmaq, hədələmək, hədə-qorxu gəlmək

تخیل [təxəyyol] təxəyyül, xəyal, xülya, təsəvvür

تخیلی [təxəyyoli] xəyali, utopik, təsəvvür edilən, gerçək olmayan

تداخل [tədaxol] 1) işə qarışma; müdaxilə etmə; ~ امور شخصی şəxsi işlərə qarışma; 2) çox yemə, tıxma, tıxışdırma; 3) *fiz.* diffuziya

تدارک [tədarok] hazırlama, tədarük, tədarük etmə, hazırlıq görmə; ~ دیدن (کردن) hazırlamaq

تدارکات [tədarokat] 1) *t.* تدارک; 2) təchizat, ləvazimat; təminat; ~ مهمات döyüş sursatı ilə təmin olunma; ~ اداره təchizat şöbəsi

تدافع [tədafo'] 1) bir-birini itələmə; 2) qarşılıqlı müdafiə olunma

تدافعی [tədafoi] müdafiə; ~ تاکتیک müdafiə taktikası

تداول [tədavol] 1) yayılma; 2) dövr etmə, dolaşma; ~ در بودن a) yayılmaq, işlək olmaq (*söz, ifadə*); b) dövriyyədə olmaq; dövr etmək, dolaşmaq

تداوی [tədavi] müalicə, terapiya, dava-dərman vermə

تدبیر [tədbir] *c.* تدابیر [tədabir] 1) tədbir; 2) vasitə, yol; ~ اندیشیدن (بکار بردن) tədbir görmək

تدریج [tədric] ardıcıllıq, tədricilik; ~ به *bax* تدریجاً

تدریجاً [tədricən] tədricən, tədriclə, yavaş-yavaş

تدریجی [tədrici] *bax* تدریجاً; ~ تکامل tədricən tərəqqi, tədrici inkişaf

تدریس [tədris] tədris, tədris etmə; təlim vermə, öyrətmə; ~ شدن tədris olunmaq; ~ کردن tədris etmək

تدفین [tədfin] dəfn, dəfn etmə, torpağa basdırma, torpağa tapşırma; ~ مراسم dəfn etmə mərasimi; ~ کردن dəfn etmək, torpağa basdırmaq

تدقیق [tədğiğ] 1) ətraflı araşdırma, dəqiq tədqiq etmə; 2) yoxlama, dəqiqləşdirmə; ~ شدن hərtərəfli öyrənilmək; ~ کردن dəqiq öyrənmək, ətraflı öyrənmək

تدقیقاً [tədğiğən] dəqiqliklə; mükəmməl şəkildə, təfərrüatı ilə, incəliyinə qədər

تدقیقات [tədğiğat] *t.* تدقیق tədqiqat, araşdırma; təhqiqat; ~ علمی elmi araşdırma

تدلیس [tədlis] 1) aldatma, kələk gəlmə (*alverdə*); 2) saxtakarlıq; riyakarlıq, ikiüzlülük; ~ کردن a) aldatmaq, kələk gəlmək (*alverdə*); b) saxtakarlıq etmək, ikiüzlülük etmək

تدوین [tədvin] 1) tərtib, tərtib etmə; ~ فرهنگ lüğət tərtib etmə; 2) film hazırlama (*montaj etmə*); 3) redaksiya; ~ شدن tərtib olunmaq; ~ کردن tərtib etmək

تذرو [təzərv] *zool.* qırqovul

تذکار [tezkar // təzkar] yada salma, xatırlatma; ~ شدن yada salınmaq, xatırlanmaq; ~ کردن yada salmaq, xatırlatmaq

تذکر [təzəkkor] 1) *bax* تذکار; 2) xəbərdarlıq etmə; qeyd etmə; vurğulama; ~ دادن yada salmaq, xatırlatmaq

تذکره [təzkerə] *c.* تذاکر [təzaker] 1) təzkirə (*klassik elmi-ədəbi janr*); ~ اشعار şeirlər toplusu; ~ شعرا şairlər təzkirəsi; 2) şəxsiyyət vəsiqəsi; 3) tərcümeyi-hal

تذهیب [təzhib] qızıl suyu ilə bəzədilmə; zərləmə; ~ کردن qızıl suyuna salmaq, zərləmək

تر [tər] 1) yaş, nəm; 2) şirəli, təzə (*meyvə*); ~ و تازه təptəzə, şirəli; ~ وتمیز tərtəmiz, çox təmiz; ~ شدن islanmaq, yaş olmaq; ~ کردن islatmaq; ◊ ~ وخشک کردن baxmaq, qulluq etmək (*kiməsə*)

ترابری [tərabəri] aparma, daşıma; nəqliyyat

تراخم [təraxom] *tib.* traxoma

تراز [təraz] 1) balans; 2) səviyyə, səth; 3) bərabər; 4) taraz (*bənna aləti*)

ترازو [tərazu] tərəzi; ~ آبی hidrostatik tərəzi; ~ فنری yaylı tərəzi

تراژدی [t(e)rajedi] 1) *ədəb.* faciə; 2) faciə, müsibət, fəlakət

تراش [təraş] تراشیدن *f-nin k.*; 1) yonma; yonulma; 2) rəndələmə; 3) kəsmə; 4) qırxma

تراشکار [təraşkar] xarrat

تراشکاری [təraşkari] 1) xarratlıq; ~ دستگاه xarrat dəzgahı; 2) xarrat emalatxanası

تراشه [təraşə] 1) talaşa, yonqar; 2) kəsik, dilim, tikə (*meyvədən, tərəvəzdən*)

تراشیدگی [təraşidegi] 1) pozma, sürtmə (*kağızdakı yazını*); 2) sürtünmə; sürtülmə

تراشیدن [təraşidən] 1) yonmaq; 2) kəsmək; 3) qırxmaq; ◊ ~ اشکال çətinlik yaratmaq; ~ بهانه bəhanə axtarmaq; ~ حرف söz uydurmaq

ترافیک [t(e)rafik] 1) küçə hərəkəti; 2) tıxac (*nəqliyyatda*)

تراکتور [t(e)raktor] traktor

تراکتورچی [t(e)raktorçu] traktorçu

تراکتورسازی [t(e)raktorsazi] traktorqayırma; ~ کارخانه traktorqayırma zavodu

تراکم [tərakom] 1) yığılma, toplanma; yığışma, toplaşma; 2) yığın, yığıntı; ~ دادن yığmaq, toplamaq, üst-üstə qalamaq

ترانزیت [t(e)ranzit] tranzit

ترانه [tərane] tərənə, mahnı, nəğmə, melodiya

تراوش [təraveş // təravoş] sızma, sızıb axma, damcılama; ~ آب su sızması, su damcılaması; ~ کردن a) sızmaq, sızıb axmaq; b) çiləmək, səpmək, sıçratmaq (*su*)

تراوشات [təravoşat] açıb demə, bildirmə; ifadə etmə; ~ محبت sevgini açıb demə, sevgini bildirmə

تراویدن [təravidən] *bax* تراوش کردن (تراوش *sözündə*)

ترب [torob] turp

تربت [torbət] 1) müqəddəs torpaq; 2) türbə; müqəddəs məzar, məqbərə

تربچه [torobçe] xırda qırmızı turp

تربیت [tərbiyət] 1) tərbiyə, öyrətmə, təlim vermə; ~ بدنی bədən tərbiyəsi; 2) öyrənmə, təhsil alma; ~ شدن tərbiyə almaq; öyrənmək; ~ کردن tərbiyə vermək, tərbiyələndirmək; öyrətmək

ترتیب [tərtib] 1) qaydaya salma, tərtib etmə; 2) nizam-intizam, tənzimləmə; ~ شدن tərtib olunmaq; ~ دادن tərtib etmək; ~ اثر دادن reaksiya göstərmək, münasibət bildirmək

ترتیبی [tərtibi] sıra; ~ اعداد sıra sayları

ترجمان [tərcoman] 1) ifadə edən (*fikri, hissi, arzunu*); 2) mütərcim

ترجمه [tərcome] tərcümə, çevirmə (*bir dildən başqa dilə*); **شدن** ~ tərcümə olunmaq; **کردن** ~ tərcümə etmək, çevirmək

ترجیح [tərcih] 1) üstünlük; üstünlük vermə, üstün tutma; 2) imtiyaz; **دادن** ~ üstün tutmaq, üstünlük vermək; **داشتن** ~ üstün olmaq

ترجیع [tərci'] qaytarma; döndərmə; geriyə qaytarmağı tələb etmə

ترحم [tərəhhom] rəhm etmə, acıma, yazığı gəlmə, ürəyi yanma; **کردن** ~ rəhm etmək, yazığı gəlmək; acımaq (*kiminsə halına*)

ترحیم [tərhim] dərdə şəriklik; rəhmət oxuma; ~ **مجلس** matəm məclisi, yas mərasimi

ترخون [tərxun] tərxun

ترخیص [tərxis] 1) icazə; icazə vermə; 2) buraxma, azad etmə; **بار** ~ yükün gömrükdən çıxarılmasına icazə vermə

ترد [tord] 1) kövrək, tezsınan; tezovulan; ~ **بیسکویت** tezovulan peçenye; 2) çox zərif; çox nazik; çox incə; **شدن** ~ kövrək olmaq, tez sınmaq; tez ovulmaq

تردامن [tərdamən] 1) ləkələnmiş, natəmiz; pis ad çıxarmış; 2) əxlaqsız, pozğun

تردد [tərəddod] 1) tərəddüd, qətiyyətsizlik; 2) hərəkət, gediş-gəliş; **کردن** ~ a) qətiyyətsizlik göstərmək; tərəddüd etmək, şübhələnmək; b) hərəkət etmək

تردید [tərdid] şəkk, şübhə, güman; **بدون**~ şübhəsiz; **(کردن) داشتن** ~ şübhələnmək, şübhə etmək

ترس [tərs] qorxu, vahimə; çəkinmə, ehtiyat etmə

ترسا [tərsa] xristian

ترساندن [tərsandən] qorxutmaq

ترسانیدن [tərsanidən] *bax* **ترساندن**

ترسایی [tərsayi] xristianlıq

ترسناک [tərsnak] qorxulu, dəhşətli, vahiməli; **بودن** ~ qorxmaq

ترسو [tərsu] qorxaq, cəsarətsiz

ترسیدن [tərsidən] 1) qorxmaq, dəhşətə gəlmək; 2) ehtiyat etmək, ehtiyatlanmaq

ترسیم [tərsim] rəsm çəkmə; şəkil çəkmə; **شدن** ~ rəsm (*şəkil*) çəkilmək; **کردن** ~ rəsm (*şəkil*) çəkmək

ترش [torş] turş; **و شیرین** ~ turşaşirin; **شدن** ~ turşumaq; **کردن** ~ turşutmaq

ترشح [tərəşşoh] 1) sızma; 2) sıçrama; 3) ifrazat; **کردن** ~ a) sızılmaq; b) sıçramaq; c) ifraz olunmaq

ترش رو [torşru] qaraqabaq; qaşqabaqlı, əsəbi; hirsli, acıqlı

ترش مزه [torşməze] turşməzə, turş

ترشی [torşi] 1) şoraba (*duza, sirkəyə qoyulan tərəvəz*); 2) turşuluq; 3) *kim.* turşu

ترشیجات [torşicat] *t.* **ترشی**

ترشیده [torşide] **ترشیدن** *f.-nin k.z.f.sif.;* turşumuş; ~ **شیر** turşumuş süd; ◊ ~ **دختر** *dan.* ərə getməmiş yaşlı qız, qarımış qız

ترصیع [tərsi'] 1) daş-qaşla bəzəmə; 2) *ədəb.* tərsi (*beytin misralarındakı sözlərin say, vəzn və qafiyə baxımından uyğunluğu*)

ترعه [tor'e] kanal, su kanalı

ترغیب [tərğib] həvəsləndirmə, həvəsə gətirmə, təşviq etmə; **کردن** ~ həvəsləndirmək; təşviq etmək

ترفیع [tərfi'] yüksəliş, yüksəlmə; artma; irəli çəkilmə (*vəzifəyə*); ~ **درجه**

dərəcənin (*kateqoriyanın*) artması; **یافتن** ~ yüksəlmək; **دادن** ~ yüksəltmək, irəli çəkmək

ترقی [tərəğği] tərəqqi, inkişaf, yüksəliş; **دادن** ~ inkişaf etdirmək; **کردن** ~ inkişaf etmək

ترقیخواه [tərəğğixah] tərəqqipərvər, mütərəqqi, qabaqcıl, proqressiv

ترک [tərək] çat, çatlaq; ~ **بر داشتن (خوردن)** çatlamaq

ترک [tərk] I tərk etmə; əl çəkmə, buraxma; tərgitmə; **سیگار** ~ siqareti tərgitmə; **عادت** ~ adətdən əl çəkmə, adəti tərgitmə; **مخاصمه** ~ (**دشمنی**) düşmənçilikdən əl çəkmə; ~ **کردن (گفتن)** tərk etmək; çıxıb getmək; əl çəkmək

ترک [tərk] II tərk, sağrı (*atda*); 2) arxa yer (*velosipeddə, motosikletdə*)

ترک [tork] *c.* **اتراک** [ətrak] 1) türk; 2) türkə məxsus; 3) *məc.* gözəl; ~ **شیرازی** Şiraz gözəli

ترکاندن [tərəkandən] partlatmaq, çatlatmaq; çat (*yarıq*) əmələ gətirmək; **زلزله دیوارهای اطاق را ترکاند** zəlzələ otağın divarlarını çatlatdı

ترکتازی [torktazi] hücum, qəfil basqın; **کردن** ~ hücum etmək, basqın etmək

ترک دار [tərəkdar] çatlamış, partlamış

ترکه [tərke] 1) şiv, ağacın nazik budağı, çubuq; 2) *dan.* arıq adam

ترکه [tərəke // tərəke] miras (*ölən adamdan qalan mülk, əşya və s.*)

ترکی [torki] türk, türkcə; ~ **زبان** türk dili

ترکیب [tərkib] 1) tərkib, **هوا**~ havanın tərkibi; 2) quruluş; **جمله**~ cümlə quruluşu; 3) yaranma, əmələ gəlmə; 4) *dil.* söz birləşməsi; **کلمات** ~ sözlərin yaranması; **(یافتن) شدن** ~ birləşmək, qarışmaq; **کردن** ~ birləşdirmək, qarışdırmaq

ترکیب بندی [tərkibbəndi] quruluş; yaratma, düzəltmə; **شدن** ~ qurulmaq; yaradılmaq, düzəldilmək

ترکیدن [tərəkidən] partlamaq; çatlamaq, çat vermək

ترگل ورگل [tərqolvərqol] *dan.* təzə, təravətli; təmizkar, səliqəli

ترم [term] semestr

ترمز [tormoz] tormoz, əyləc; **پایی** ~ ayaq tormozu; **دستی** ~ əl tormozu; **هوایی** ~ hava (*pnevmatik*) tormozu; **بریدن** ~ tormozun qırılması; **گرفتن** ~ tormozlamaq, əyləmək, maşını saxlamaq; tormozlanmaq

ترموس [termus] termos

ترمومتر [termometr] termometr, istilikölçən

ترمیم [tərmim] 1) düzəltmə, təmir etmə; 2) yaxşılaşma, düzəlmə; **شدن** ~ a) düzəldilmək, təmir olunmaq; b) yaxşılaşmaq; **کردن** ~ a) düzəltmək, təmir etmək, bərpa etmək; b) yaxşılaşdırmaq, islah etmək

ترمینال [terminal] 1) terminal; 2) avtobus vağzalı

ترن [terən] qatar; **باری** ~ yük qatarı; **مسافری** ~ sərnişin qatarı; ~ **سریع السیر** sürət qatarı

ترنج [torənc] 1) *bot.* turunc; 2) naxış növü (*xalçada və s.*)

ترنجبین [tərəncəbin] dəvətikanı şirəsi

ترنجیدن [toroncidən] sıxılmaq, qıvrılmaq, qıvrılıb-açılmaq; alını qırışdırmaq, üz-gözü turşutmaq

ترنم [tərənnom] 1) tərənnüm; tərifləmə; 2) oxuma, zümzümə etmə; **بلبلان ~ کردن** bülbüllərin oxuması; a) oxumaq (*mahnı, nəğmə*); b) çalmaq (*musiqi alətində*)

ترور [teror] terror, qətl, adam öldürmə; **شدن ~** qətlə yetirilmək; **کردن ~** qətlə yetirmək, öldürmək

تروریست [terorist] terrorist, terrorçu; **~ گروه** terrorçu dəstə

تروریسم [terorism] terrorizm, terrorçuluq; **بین المللی ~** beynəlxalq terrorizm

ترویج [tərvic] yayma, geniş yayma, genişləndirmə, rəvac vermə; tətbiq etmə; **تجارت ~** ticarəti genişləndirmə; **شدن ~** yayılmaq; **کردن ~** yaymaq

تره [tərə] 1) göyərti; 2) kəvər (*göyərti*)

ترهات [torrəhat] boş söz, mənasız söz, cəfəngiyat

تره بار [tərebar] göyərti, tərəvəz

تریاق [teryağ] padzəhər, zəhər əleyhinə dərman

تریاک [təryak // teryak] tiryək, opium, narkotik maddə; **کشیدن ~** tiryək çəkmək

تریاک کش [təryakkeş] *bax* **تریاکی**

تریاکی [təryaki] 1) tiryək çəkən; 2) narkoman

تز [tez] 1) tezis; 2) dissertasiya; diplom işi

تزاید [təzayod] artma, artım; artırma; çoxalma, çoxaldılma; **یافتن ~** artmaq, çoxalmaq

تزریق [təzriğ] *tib.* inyeksiya, iynə vurma; **شدن ~** iynə vurulmaq; **کردن ~** iynə vurmaq

تزلزل [təzəlzol] 1) titrəmə, titrəyiş, əsmə, laxlama; 2) tərəddüd, şübhə; 3) dəyişmə, enib-qalxma, qeyrisabitlik (*qiymətlərdə*); **داشتن ~** a) titrəmək, laxlamaq; b) tərəddüd etmək

تزلزل ناپذیر [təzəlzolnapəzir] möhkəm, dəyişməz, sabit, dönməz; **~ اراده** dönməz iradə

تزویج [təzvic] evlənmə; ərə getmə

تزویر [təzvir] 1) hiylə, kələk, riya, məkr; 2) hiyləgərlik, riyakarlıq; **کردن ~** hiylə işlətmək, hiyləgərlik etmək

تزیید [təzyid] çoxalma, artma, artım; **شدن ~** çoxaldılmaq, artırılmaq; **کردن ~** çoxaltmaq, artırmaq

تزیین [təzyin] zinət vermə, bəzəmə; **(یافتن) شدن ~** zinətləndirilmək, bəzədilmək; **(دادن) کردن ~** bəzəmək, zinət vermək

تزیینی [təzyini] dekorativ (*sənət*); **~ نباتات** dekorativ bitkilər

تسامح [təsamoh] səhlənkarlıq, başısoyuqluq, laqeydlik, etinasızlıq; **(ورزیدن) کردن ~** səhlənkarlıq etmək, laqeydlik göstərmək

تساوی [təsavi] 1) bərabərlik; **~ حقوق** hüquq bərabərliyi; 2) oxşarlıq, bənzərlik

تسبیح [təsbih] 1) təsbeh; 2) dua, dua oxumaq; **خواندن ~** dua etmək; **گرداندن ~** təsbeh çevirmək

تست [test] test, sınaq

تسجیع [təsci'] qafiyəli nəsrlə yazma

تسخیر [təsxir] tutma, ələ keçirmə; zəbt etmə; işğal etmə; istila etmə; **~ ارواح** ruhları çağırma, ruhları ələ gətirmə, spiritizm; **شدن ~** ələ keçirilmək; zəbt olunmaq; **کردن ~** ələ keçirmək, zəbt etmək

تسریع [təsri'] sürətləndirmə, sürəti artırma; gücləndirmə; tələsdirmə; **کردن ~** sürətləndirmək, gücləndirmək, tələsdirmək

تسطیح [təstih] hamarlama, hamarlaşdırma, yastılama, düzəltmə; **شدن ~** hamarlanmaq, yastılanmaq, düzəlmək; **کردن ~** hamarlatmaq, yastılamaq, düzəltmək

تسکین [təskin] təskinlik vermə, sakitləşdirmə; rahatlandırma; **درد ~** ağrını sakitləşdirmə; **دادن ~** sakitləşdirmək, rahatlandırmaq; **(پیدا کردن، شدن) یافتن ~** sakitləşmək, rahatlanmaq

تسکین بخش [təskinbəxş] sakitləşdirici, ağrıkəsici

تسلسل [təsəlsol] 1) arasıkəsilməzlik, fasiləsizlik; 2) əlaqə, bağlılıq; ardıcıllıq

تسلط [təsəllot] 1) ağalıq, hökmranlıq, hakimlik; hegemonluq; 2) mənimsəmə, yiyələnmə; **داشتن ~** hakim olmaq; bilmək, mənimsəmək; **(یافتن) کردن ~** hökmranlıq etmək; **به ~ خود در آوردن** özünə tabe etmək, zəbt etmək, ələ keçirmək

تسلی [təsəlli] sakitləşdirmə, təskinlik vermə, təsəlli vermə; **(کردن،) دادن ~** təsəlli vermək; **(شدن) یافتن ~** təskinlik tapmaq

تسلیت [təsliyət] başsağlığı; təsəlli vermə, ürək-dirək vermə; **دادن ~** başsağlığı vermək; **گفتن ~** təsəlliverici sözlər demək

تسلیت آمیز [təsliyətamiz] təsəlliverici; təsəlli verən, dərdə şərik olan, başsağlığı verən

تسلیت نامه [təsliyətname] başsağlığı məktubu

تسلیح [təslih] *c.* **تسلیحات** [təslihat] silahlandırma, silahla təchiz etmə

تسلیحات [təslihat] *t.* **تسلیح** silahlanma; silahla təchizat, döyüş sursatı

تسلیم [təslim] 1) təslim, təslim etmə, təhvil vermə; 2) təslim olma; **شدن ~** a) verilmək; b) təslim olmaq; **کردن ~** a) vermək; b) təslim etmək; **~ سر** itaət etmək; tabe olmaq; **فرود آوردن**

تسمه [təsme] qayış; ◊ **از ~ گرده کسی کشیدن** kimisə bərk qorxutmaq

تسمیه [təsmiye] ad; adlandırma, ad vermə, ad qoyma; **کردن ~** ad vermək, adlandırmaq

تسنن [təsənnon] sünnilik; **~ اهل** sünni, sünnilər

تسویه [təsviye] 1) nizama salma, qaydaya salma; **حساب ~** hesablaşma, haqq-hesab kəsmə; 2) bərabərləşdirmə; **شدن ~** a) nizama salınmaq; b) bərabər olmaq; **کردن ~** a) nizama salmaq; b) bərabərləşdirmək

تسهیل [təshil] *c.* **تسهیلات** [təshilat] asanlaşdırma, sadələşdirmə, yüngülləşdirmə; **کار ~** işi asanlaşdırma; **کردن ~** asanlaşdırmaq, sadələşdirmək, yüngülləşdirmək

تسهیلات [təshilat] 1) *t.* **تسهیل**; 2) kömək, yardım

تسهیم [təshim] hissələrə bölmə, paylara bölmə, payı ayırma

تشابه [təşaboh] oxşama, oxşarlıq, bənzərlik; **داشتن ~** oxşar olmaq, oxşamaq, bənzəmək

تشبث [təşəbbos] 1) əlləşmə, can atma, səy göstərmə; əldə etməyə

çalışma; 2) köməyə çağırma; کردن ~ a) əlləşmək, can atmaq; b) köməyə çağırmaq

تشبه [təşəbboh] 1) *bax* تشابه; 2) oxşatma, özünü oxşatma, bənzətmə

تشبیه [təşbih] *c.* تشبیهات [təşbihat] 1) oxşatma, bənzətmə; 2) *ədəb.* alleqoriya; (کردن) دادن ~ oxşatmaq, bənzətmək

تشت [təşt] teşt, tas, ləyən; ◊ ~ٔ کسی از بام افتادن a) sirrinin üstü açılmaq; b) bərk rüsvay olmaq

تشتت [təşəttot] 1) dağınıqlıq, pərakəndəlik; pərişanlıq; فکر ~ٔ fikir (*düşüncə*) dağınıqlığı; 2) ixtilaf; ayrılıq, aralanma, ziddiyyət; افکار ~ٔ əqidələrin ixtilafı

تشخص [təşəxxos] 1) təşəxxüs; təkəbbür, xudbinlik, eqoizm; 2) şəxsiyyət; böyüklük; imtiyaz, üstünlük; به خرج دادن ~ özünü göstərmək, təkəbbürlü olmaq

تشخیص [təşxis] 1) tanıma; bilmə; 2) seçmə, müəyyən etmə, təyin etmə; fərqləndirmə; 3) *tib.* diaqnoz; دادن ~ a) tanımaq; b) seçmək, fərqləndirmək; c) diaqnoz qoymaq

تشدد [təşəddod] şiddətlənmə, bərkimə; sərtlik

تشدید [təşdid] 1) şiddətlənmə, şiddətləndirmə, gücləndirmə; بیماری ~ٔ xəstəliyin güclənməsi; 2) təşdid (*sözdə yanaşı gələn qoşa samit səsi bildirən əlamət*); کردن ~ şiddətləndirmək, gücləndirmək

تشرف [təşərrof] şərəflənmə, şərəf və hörmət qazanma; یافتن (حاصل) ~ (کردن) şərəflənmək, şərəf və hörmət qazanmaq

تشریح [təşrih] 1) şərh etmə, izah etmə, aydınlaşdırma; 2) *tib.* yarma, yarılma (*meyit*); شدن ~ şərh olunmaq, izah olunmaq; کردن ~ a) şərh etmək; izah etmək; b) yarmaq (*meyiti*)

تشریف [təşrif] şərəfləndirmə, hörmət etmə, ehtiram göstərmə; آوردن ~ təşrif gətirmək, gəlmək; بردن ~ təşrif aparmaq, getmək; داشتن ~ olmaq; آنجا رئیس جمهور هم تشریف داشت orada prezident də var idi

تشریفات [təşrifat] 1) mərasim, tənənəli tədbir; رسمی ~ٔ rəsmi mərasim; 2) *dip.* protokol

تشک [toşək] döşək

تشکچه [toşəkçe] döşəkçə

تشکر [təşəkkor] təşəkkür, minnətdarlıq; کردن ~ təşəkkür etmək; اظهار ~ٔ کردن minnətdarlıq bildirmək

تشکل [təşəkkol] təşəkkül, təşkil olunma; yaranma, formalaşma; دادن ~ təşkil etmək; yaratmaq; یافتن ~ təşkil olunmaq, yaradılmaq

تشکیل [təşkil] *c.* تشکیلات [təşkilat] 1) təşkil etmə; təşkil edilmə; 2) yaratma, yaradılma; 3) qurma; formalaşdırma; خانواده ~ٔ ailə qurma; جلسه ~ٔ iclas çağırma; دادن ~ təşkil etmək; شدن (یافتن) ~ təşkil olunmaq, yaradılmaq

تشکیلات [təşkilat] *t.* تشکیل təşkilat, müəssisə, qurum; دولتی ~ٔ dövlət təşkilatları

تشنج [təşənnoc] 1) gərginlik; 2) *tib.* konvulsiya (*qıc olma*)

تشنگی [teşnegi] susuzluq; رفع ~ٔ susuzluğu yatırma; آوردن ~ susuzluq gətirmək; کردن ~ رفع ~ٔ susuzluğu yatırtmaq

تشنه [teşne] 1) susuz; 2) *məc.* arzulayan, istəyən; بودن ~ susuz olmaq; ◊ چیزی بودن ~ٔ bir şeyi bərk arzulamaq

تشنه جگر [teşnecegər] ciyəri yanan, bərk arzulayan, çox istəyən

تشنه دل [teşnedel] *bax* تشنه جگر

تشویش [təşviş] təşviş, iztirab, təlaş, nigarançılıq; داشتن ~ narahat olmaq, həyəcan keçirmək; به افتادن ~ به həyəcanlanmaq, iztirab keçirmək; به انداختن ~ həyəcanlandırmaq

تشویق [təşviğ] təşviq etmə, həvəsləndirmə, ruhlandırma, ürəkləndirmə; کردن ~ təşviq etmək, həvəsləndirmək, ruhlandırmaq

تشیع [təşəyyo'] şiəlik; اهل ~ٔ şiə, şiələr

تشییع [təşyi'] müşayiət etmə, yola salma (*cənazəni*); جنازه ~ٔ dəfn mərasimi; cənazəni yola salma

تصاحب [təsahob] sahib çıxma, ələ keçirmə; mənimsəmə, yiyələnmə; کردن ~ sahib çıxmaq, ələ keçirmək; mənimsəmək, yiyələnmək

تصادف [təsadof] 1) təsadüf, hadisə; 2) toqquşma, qəza, avariya; 3) rast gəlmə; təsadüfən görüşmə; کردن ~ a) gözlənilmədən rast gəlmək; b) toqquşmaq; c) təsadüf etmək

تصادفاً [təsadofən] təsadüfən, təsadüfi, gözlənilmədən

تصادفی [təsadofi] təsadüfi, gözlənilməz

تصادم [təsadom] *bax* تصادف 2); اتومبیل ~ٔ avtomobil qəzası

تصحیح [təshih] təshih, düzəltmə, düzəliş; شدن ~ düzəldilmək, təshih olunmaq; کردن ~ düzəltmək, təshih etmək

تصحیف [təshif] təhrif, səhv, yanlışlıq (*mətndə, oxunuşda*); شدن ~ təhrif olunmaq; کردن ~ təhrif etmək

تصحیف خوانی [təshifxani] düzgün oxumama, səhv oxuma

تصدق [təsəddoğ] sədəqə vermə; ehsan vermə; qurban kəsmə; دادن ~ (کردن) sədəqə vermək; ehsan vermək; qurban kəsmək

تصدی [təsəddi] idarə etmə, rəhbərlik, sədrlik

تصدیع [təsdi'] zəhmət vermə, narahat etmə; başağrısı vermə

تصدیق [təsdiğ] 1) təsdiq; 2) sübut, dəlil, fakt, əsas; 3) *bax* گواهینامه; ~ شدن təsdiq olunmaq; کردن ~ təsdiq etmək

تصرف [təsərrof] 1) ələ keçirmə, yiyələnmə, sahib olma; 2) tutma, zəbt etmə, işğal etmə; 3) dəyişiklik etmə, düzəliş etmə; کردن ~ a) ələ keçirmək, tutmaq; yiyələnmək; b) işğal etmək; c) dəyişiklik etmək, düzəliş etmək; تحت ~ٔ در آمدن işğal olunmaq; تحت ~ٔ در آوردن işğal etmək

تصریح [təsrih] 1) aydınlaşdırma; izah etmə; 2) aydın demə, açıq demə; کردن ~ a) aydınlaşdırmaq; b) aydın demək

تصغیر [təsğir] kiçiltmə; پساوند ~ٔ kiçiltmə şəkilçisi; کردن ~ kiçiltmək; یافتن ~ kiçildilmək

تصفیه [təsfiye] 1) təmizləmə, saflaşdırma; 2) süzmə, süzülmə, süzgəcdən keçirilmə; 3) hesablama, haqqhesab etmə; حساب کردن ~ٔ haqqhesabı çürütmək; شدن ~ təmizlənmək, saflaşmaq; کردن ~ təmizləmək, saflaşdırmaq

تصفیه خانه [təsfiyexane] təmizləmə (*saflaşdırma*) müəssisəsi; **شکر** ~ şəkər zavodu; **نفت** ~ neftayırma zavodu

تصمیم [təsmim] 1) qərar; 2) qəsd, niyyət; **داشتن** ~ qərara almaq; ~ **گرفتن** qərara gəlmək

تصنع [təsənno'] sünilik, özünü süni göstərmə, qeyri-təbiilik

تصنعی [təsənnoi] süni, qeyri-təbii; ~ **لبخند** süni gülüş

تصنیف [təsnif] 1) yaratma, yazma (*bədii əsəri, musiqi əsərini*); tərtib etmə; 2) əsər (*bədii*); 3) *mus.* təsnif; **شدن** ~ a) yazılmaq; b) tərtib olunmaq; **کردن** ~ a) yazmaq; b) tərtib etmək

تصور [təsəvvor] *c.* **تصورات** [təsəvvorat] təsəvvür, xəyal, fikir, güman; **کردن** ~ təsəvvür etmək

تصوف [təsəvvof] təsəvvüf, sufilik

تصدیق [təsdiq] təsdiq, təsdiq etmə; **شدن** (از~ گذشتن) ~ təsdiq olunmaq; **کردن** (از~ گذراندن) ~ təsdiq etmək

تصویب نامه [təsvibname] qərar (*nazirlərin, icraedici orqanların*)

تصویر [təsvir] *c.* **تصاویر** [təsavir] təsvir, rəsm, şəkil; **کشیدن** ~ şəkil çəkmək; **کردن** ~ təsvir etmək

تضاد [təzad(d)] təzad, əkslik, zidiyyət; zidd, əks

تضرع [təzərro'] yalvarış, yalvarma, yalvarıb-yaxarma; itaətkarlıq

تضمین [təzmin] 1) zəmanət vermə; zamin olma; təminat vermə, himayə etmə; 2) *ədəb.* təzmin (*klasssik şeirdə ədəbi priyom*); **دادن** ~ zəmanət vermək; **کردن** ~ a) zamin olmaq; b) *ədəb.* təzmin etmək

تضمین نامه [təzminname] zəmanət məktubu

تطابق [tətaboğ] 1) uyğunluq, uyğun gəlmə, müvafiqlik; 2) bərabərlik; eynilik

تطبیق [tətbiğ] tətbiq, müqayisə, tutuşdurma, qarşılaşdırma; uyğunluq; **شدن** ~ tətbiq olunmaq; **کردن** ~ müqayisə etmək, tutuşdurmaq

تطبیقی [tətbiği] 1) müqayisəli; ~ **زبانشناسی** müqayisəli dilçilik; 2) tətbiqi, əməli, təcrübi; ~ **علوم** tətbiqi elmlər

تظاهر [təzahor] *c.* **تظاهرات** [təzahorat] 1) təzahür, özünü göstərmə; 2) hiyləgərlik, ikiüzlülük; 3) nümayiş təşkil etmə (*nəyinsə əleyhinə*); **کردن** ~ a) ikiüzlülük etmək; b) nümayiş etmək (*nəyinsə əleyhinə*)

تظاهرات [təzahorat] *t.* **تظاهر** etiraz nümayişləri; **خیابانی** ~ küçə nümayişləri

تظاهری [təzahori] zahiri, süni, yalançı; ~**اشکهای** yalançı göz yaşları

تظلم [təzəllom] şikayət (*zülmdən, haqsızlıqdan, ədalətsizlikdən*); imdad istəmə; **کردن** ~ şikayət etmək (*zülmdən, haqsızlıqdan, ədalətsizlikdən*); imdad istəmək

تعادل [təadol] bərabərlik, ekvivalentlik; tarazlıq; **داشتن** ~ bərabər olmaq; **کردن** ~ bərabərlik yaratmaq

تعادلی [təadoli] bərabərləşdirici, tarazlaşdırıcı; ~ **حالت** tarazlaşdırıcı vəziyyət

تعارف [təarof] 1) bir-birinə xoş sözlər (*kompliment*) demə; 2) mərasim (*təşrifat*) qaydalarına əməl etmə; 3) hədiyyə, hədiyyə etmə; **کردن** ~ a) bir-birinə xoş sözlər demək; b) mərasim (*təşrifat*) qaydalarına əməl etmək

تعارفات [təarofat] 1) *t.* **تعارف**; 2) mərasim; **رسمی** ~ rəsmi mərasim

تعارف آمیز [təarofamiz] ədəbli, nəzakətli, tərbiyəli

تعاقب [təağob] 1) təqib, təqib etmə, izləmə; 2) ardıcıllıq, bir-birinin ardınca getmə; **کردن** ~ təqib etmək, izləmək, ardınca getmək

تعالی [təala] hər şeydən uca, hər şeydən yüksək (*Allahın epiteti*)

تعاون [təavon] kömək, yardım, qarşılıqlı kömək

تعاونی [təavoni] kooperativ; ~ **تولید** istehsal kooperativi; ~ **کشاورزی** kənd təsərrüfatı kooperativi

تعب [tə'b] 1) yorğunluq, əldən düşmə; 2) əzab-əziyyət

تعبیر [tə'bir] 1) izah, təfsir, şərh, açıqlama; 2) yozum, yozma: ~ **خواب** yuxuyozma; **شدن** ~ a) izah olunmaq; b) yozulmaq; **کردن** ~ a) izah etmək; b) yozmaq

تعبیرنامه [tə'birname] yuxuyozma kitabı

تعبیه [tə'biye] hazırlama, hazır etmə; **شدن** ~ hazırlanmaq; **کردن** ~ hazırlamaq

تعجب [təəccob] təəccüb, heyrət; ~ **کردن** təəccüblənmək; **به** ~ **انداختن** təəccübləndirmək

تعجب آور [təəccobavər] təəccüblü, təəcüb doğuran, qəribə

تعجب انگیز [təəccobəngiz] *bax* **تعجب آور**

تعجیل [tə'cil] tələsmə, tələsiklik; **کردن** ~ tələsmək

تعداد [te'dad] ədəd, miqdar, kəmiyyət, say

تعدد [təəddod] çoxluq; ~ **زوجات** çoxarvadlılıq

تعدی [təəddi] zülm, zorakılıq, sıxışdırma; **ملی** ~ milli zülm; **کردن** ~ zülm etmək, sıxışdırmaq

تعدیل [tə'dil] nizamlama, nizama salma, qaydaya salma; ~ **سیستم مالیات** vergi sistemini qaydaya salma (*vergiləri azaltmaqla*); **شدن** ~ nizama salınmaq; **کردن** ~ nizama salmaq

تعذر [təəzzor] 1) çətinlik, maneə; 2) üzr istəmə

تعذیب [tə'zib] əzab, əziyyət, işgəncə; **کردن** ~ əzab vermək

تعذیر [tə'zir] bəhanə axtarma; uydurma ilə üzr istəmə

تعرب [təərrob] ərəbləşdirmə

تعرض [təərroz] 1) hücum, həmlə; basqın; 2) sataşma; əl atma; **کردن** ~ a) hücum etmək; b) sataşmaq; əl atmaq

تعرضکار [təərrozkar] hücum edən, basqınçı

تعرفه [tə'refe] 1) tarif, nırx, məzənnə, 2) siyahı, sənəd

تعرق [təərroğ] 1) tərləmə; 2) buğlanma, buxarlanma

تعریب [tə'rib] *bax* **تعرب**

تعریض [tə'riz] I eyham, işarə; kinayə

تعریض [tə'riz] II genişlətmə, genişləndirmə

تعریف [tə'rif] *c.* **تعاریف** [təarif] 1) tərif, mədh; 2) izah, şərh; 3) tanıtma, təqdim etmə; **شدن** ~ a) tərifləmək; b) izah olunmaq; **کردن** ~ a) tərifləmək; b) izah etmək

تعزیت [tə'ziyət] *bax* **تعزیه**

تعزیه [tə'ziye] 1) təziyə, ağlama, göz yaşı tökmə, matəm saxlama, matəm; 2) təziyə (*Kərbəla faciəsini qeyd etmə mərasimi*); **گرفتن** ~ təziyə saxlamaq, matəm saxlamaq

تعزیه داری [tə'ziyedari] təziyə saxlama, matəm saxlama

تعزیه دار [tə'ziyedar] təziyə saxlayan, matəm saxlayan

تعزیه خوان [tə'ziyexan] təziyə vaxtı mərsiyə və növhə oxuyan

تعشق [təəşşoğ] aşiqlik, vurğunluq

تعصب [təəssob] 1) təəssüb; təəssübkeşlik, tərəfgirlik; dəstəkləmə; 2) fanatizm; 3) qeyrət

تعصب آمیز [təəssobamiz] təəssübkeşliklə, fanatikcəsinə

تعطیر [tə'tir] ətirlənmə, ətir vurma

تعطیل [tə'til] 1) dayandırma, saxlama; **کار ~˙** işi dayandırma; 2) bağlama, bağlanma; **بازار ~˙** bazarın bağlanması; 3) fasilə, tənəffüs; **روز ~˙** istirahət günü; 4) tətil; **شدن ~** a) dayandırılmaq; b) bağlanmaq; **~ کردن** a) dayandırmaq; b) bağlamaq

تعطیلات [tə'tilat] *t.* **تعطیل** tətil, tətil dövrü; **تابستانی ~˙** yay tətili

تعظیم [tə'zim] 1) təzim, baş əymə; 2) hörmət, ehtiram; **کردن ~** a) təzim etmək; b) hörmət bəsləmək

تعقل [təəğğol] 1) anlama, qavrama, dərk etmə; 2) düşünmə, fikirləşmə; **کردن ~** a) anlamaq, dərk etmək; b) düşünmək; fikirləşmək

تعقیب [tə'ğib] 1) təqib etmə, izləmə, ardınca düşmə, güdmə; **دشمن ~˙** düşməni təqib etmə; 2) davam etmə, davam etdirmə; **شدن ~** izlənmək; **کردن ~** a) təqib etmək, izləmək, ardınca düşmək; b) davam etdirmək

تعلق [təəlloğ] 1) aid olma, mənsub olma; 2) rəğbət, meyil; əlaqə, bağlılıq; **داشتن ~** a) aid olmaq; b) meyil göstərmək, rəğbət bəsləmək

تعلل [təəllol] 1) bəhanə etmə, bəhanə gətirmə; boyun qaçırma; 2) yubanma, ləngimə; **کردن ~** bəhanə gətirmək, boyun qaçırmaq; b) yubanmaq, ləngimək

تعلم [təəllom] öyrənmə, bilik əldə etmə

تعلیق [tə'liğ] 1) asma, sallatma; 2) əlavə etmə (*kitaba və s.*); 3) müvəqqəti dayandırma; 4) təliq (*ərəb əlifbasında xətt növü*); **کردن ~** a) asmaq, sallamaq; b) əlavə etmək (*kitaba və s.*)

تعلیقه [tə'liğe] *c.* **تعالیق** [təaliğ] qeyd, izah, şərh (*kitabın haşiyələrində*)

تعلیل [tə'lil] səbəb göstərmə; **~ حرف˙** *qram.* səbəb bağlayıcısı

تعلیم [tə'lim] *c.* **تعالیم** [təalim] 1) təlim, tədris, öyrənmə; 2) təlim vermə (*heyvanlara*); **دادن ~** a) öyrətmək; b) təlim vermək (*heyvanlara*)

تعلیمات [tə'limat] *t.* **تعلیم**; 1) hazırlaşma; hazırlıq; **نظامی ~˙** hərbi hazırlıq; 2) təhsil; **عالی ~˙** ali təhsil; 3) təlimat, göstəriş

تعمد [təəmmod] qəsd, niyyət

تعمداً [təəmmodən] qəsdən, bilərəkdən, bilə-bilə

تعمدی [təəmmodi] *bax* **تعمداً**

تعمق [təəmmoğ] dərindən öyrənmə; dərindən düşünmə; diqqət yetirmə; **کردن ~** dərindən öyrənmək; dərindən düşünmək; diqqət yetirmək

تعمیر [tə'mir] təmir, təmir etmə, düzəltmə; bərpa etmə; **شدن ~** təmir olunmaq; bərpa olunmaq; **کردن ~** təmir etmək; bərpa etmək

تعمیر کار [tə'mirkar] təmirçi; bərpaçı

تعمیر گاه [tə'mirqah] təmirxana, təmir emalatxanası, təmir atelyesi

تعمیم [tə'mim] 1) yayma; tətbiq etmə; 2) ümumiləşdirmə; **دادن ~** (**کردن**) a) yaymaq; tətbiq etmək; b) ümumiləşdirmək; **یافتن ~** a) yayılmaq; tətbiq edilmək; b) ümumiləşdirilmək

تعویذ [tə'viz] *c.* **تعاویذ** [təaviz] dua (*pis gözdən qorunmaq üçün*)

تعویض [tə'viz] dəyişdirmə; əvəz etmə, mübadilə; **کردن ~** dəyişdirmək, mübadilə etmək

تعویق [tə'viğ] təxirə salma; möhlət vermə; **افتادن ~ به** təxirə salınmaq; gec olmaq; **انداختن ~ به** təxirə salmaq, yubatmaq

تعهد [təəhhod] 1) öhdəlik, öhdəyə götürmə; 2) *bax* **تعهد نامه**; **کردن ~** öhdəyə götürmək

تعهدنامه [təəhhodname] 1) yazılı öhdəlik; 2) müqavilə, saziş

تعین [təəyyon] 1) aydınlıq, aşkarlıq, aşkar olma, gözlə görünmə; 2) lovğalıq, təkəbbürlülük; 3) böyüklük və mötəbərlik qazanma

تعیین [tə'yin] 1) təyin etmə, müəyyənləşdirmə; 2) *qram.* təyin; **شدن ~** təyin olunmaq; **کردن ~** təyin etmək

تغار [təğar] böyük saxsı qab, saxsı ləyən

تغافل [təğafol] 1) səhlənkarlıq, başısoyuqluq; 2) özünü bilməməzliyə vurma; **کردن (ورزیدن) ~** a) səhlənkarlıq etmək; b) özünü bilməməzliyə vurmaq

تغذیه [təğziye] 1) qidalandırma, yedirtmə; qidalanma, yemə; 2) qida; yemək; **کردن ~** yedirtmək, qidalandırmaq

تغزل [təğəzzol] 1) qəzəl yazma (*söyləmə*); aşiqanə şeirlər yazma (*söyləmə*); 2) *ədəb.* qəsidənin lirik məzmunlu giriş hissəsi

تغیر [təğəyyor] 1) qəzəb, hirs; 2) dəyişmə, başqalaşma, başqa şəklə düşmə; **کردن ~** qəzəblənmək, hirslənmək

تغییر [təğyir] dəyişmə; başqalaşma; dəyişiklik; **لباس ~˙** paltarı dəyişmə; **دادن ~** dəyişdirmək; **کردن ~** (**یافتن**) dəyişilmək

تغییرپذیر [təğyirpəzir] dəyişilə bilən, dəyişkən

تغییرناپذیر [təğyirnapəzir] dəyişməz, dəyişməyən, sabit

تف [təf] 1) isti, bürkü, hərarət; 2) [illegible] **~ کردن** [illegible] kö-zərtmək

تف [tof] tüpürcək; **(کردن) انداختن ~** tüpürmək

تفاخر [təfaxor] 1) fəxr etmə, öyünmə, qürur duyma; 2) lovğalanma, qürrələnmə; **کردن ~** a) fəxr etmək; b) lovğalanmaq

تفاضل [təfazol] 1) üstünlük; məziyyət; 2) *riyaz.* qalıq

تفأل [təfə'ol] 1) fala baxma, fal açma; 2) öncədən xəbər vermə, qabaqcadan xəbər vermə; **کردن ~** a) fala baxmaq; b) öncədən xəbər vermək

تفاله [tofale] 1) xılt, çöküntü, torta; qalıq, artıq; **آهن ~˙** şlak; **قهوه ~** qəhvə xıltı; 2) *bax* **تف** [tof]

تفاوت [təfavot] təfavüt, fərq; fərqlənmə; **سن ~˙** yaş fərqi; **معنی دار ~˙** ciddi fərq; **داشتن ~** fərqlənmək; **کردن ~** dəyişilmək; **گذاشتن ~** fərq qoymaq

تفاهم [təfahom] başa düşmə, anlama; anlaşma; ~ حسن qarşılıqlı anlaşma; ~ سوء anlaşılmazlıq; داشتن ~ anlamaq, başa düşmək

تفت [təft] *bax* تف [təf]

تفتن [təftən] k. تاب [tab] qızdırmaq, isitmək; qızdırılmaq, isidilmək

تفته [təfte] تفتن *f.-nin k.z.f.s.*; qızmış, bərk qızmış, közərmiş

تفتیش [təftiş] 1) təftiş; yoxlama; 2) axtarış; شدن ~ a) yoxlanılmaq; b) axtarılmaq; کردن ~ a) təftiş etmək; yoxlamaq; b) axtarmaq

تفتین [təftin] fitnə, fitnə salma, ara qarışdırma, intriqa; کردن ~ fitnə salmaq, ara qarışdırmaq

تفحص [təfəhhos] 1) axtarış, axtarma; 2) tədqiq, öyrənmə; کردن ~ a) axtarmaq, axtarıb tapmaq; axtarış aparmaq; b) tədqiq etmək, öyrənmək

تفرج [təfərroc] 1) gəzinti, gəzmə; 2) əyləncə; کردن ~ a) gəzmək; b) əylənmək

تفرجگاه [təfərrocqah] gəzinti yeri; bulvar

تفرع [təfərro'] *c.* تفرعات [təfərroat] şaxələnmə, şaxələrə ayrılma, qollara ayrılma

تفرعات [təfərroat] 1) *t.* تفرع; 2) tərkib hissələr; ən xırda cəhətlər (*məsələnin*)

تفرق [təfərroğ] ayrılma, ayrı salınma; parçalanma

تفرقه [təfreğe] 1) təfriqə, parçalanma, bölünmə; çəkişmə, ixtilaf, nifaq; 2) pərakəndəlik, dağınıqlıq; حواس ~ fikrin dağınıqlığı; افکندن ~ (انداختن) təfriqə salmaq, parçalamaq; nifaq salmaq

تفرقه انداز [təfreğeəndaz] *bax* تفرقه انگیز

تفرقه انگیز [təfreğeəngiz] təfriqəçi, parçalayan, ikitirəlik yaradan, nifaq salan

تفریح [təfrih] 1) əyləncə, şənlik, əylənmə; əyləndirmə; 2) tənəffüs, fasilə (*dərs arasında*); 3) gəzinti; کردن ~ a) əylənmək; b) tənəffüs etmək (*dərs arasında*) ; c) gəzmək

تفریق [təfriğ] 1) ayırma, ayrılma; fərqləndirmə; 2) *riyaz.* çıxma, azaltma; کردن ~ a) ayırmaq; fərqləndirmək; b) *riyaz.* çıxmaq

تفسیر [təfsir] *c.* تفاسیر [təfasir] təfsir, izah, şərh

تفصیل [təfsil] *c.* تفصیلات [təfsilat] // تفاصیل [təfasil] geniş açıqlama, geniş şərh, ətraflı izah etmə; ~ به ətraflı şəkildə, təfərrüatı ilə; دادن ~ ətraflı izah etmək

تفصیلی [təfsili] ətraflı, müfəssəl, dolğun

تفقد [təfəğğod] 1) xəbər tutma, soruşub öyrənmə; 2) mehribanlıq; lütf göstərmə; qayğı göstərmə; کردن ~ ابراز a) xəbər tutmaq; b) lütf göstərmək

تفکر [təfəkkor] təfəkkür, düşünmə, fikirləşmə; fikir; düşüncə; ~ به فرو رفتن fikrə dalmaq, fikrə getmək

تفکیک [təfkik] ayırma, seçmə; ~ شدن ayrılmaq, seçilmək; کردن ~ ayırmaq, seçmək

تفنگ [tofəng] tüfəng; ~ خودکار avtomat tüfəng; ~ دولول qoşalülə tüfəng; ~ شکاری ov tüfəngi; انداختن ~ (در کردن) tüfəngdən atəş açmaq

تفنگ چی [tofəngçi] *bax* تفنگ دار

تفنگ دار [tofəngdar] atıcı, nişançı, muşketyor

تفنن [təfənnon] əylənmə, əyləncə; xobbi; کردن ~ əylənmək; gün keçirmək, vaxt keçirmək

تفوق [təfəvvoğ] üstünlük, imtiyaz; داشتن ~ üstün olmaq; (یافتن) جستن ~ üstünlük əldə etmək, üstünlük qazanmaq

تفویض [təfviz] vermə, verilmə, təqdim etmə; شدن ~ verilmək, təqdim edilmək; کردن ~ vermək, təqdim etmək

تفهم [təfəhhom] dərindən anlama, dərk etmə, qavrama

تفهیم [təfhim] aydınlaşdırma, izah etmə; ~ و تفاهم qarşılıqlı anlaşma; ~ شدن aydınlaşdırılmaq; کردن ~ aydınlaşdırmaq

تقابل [təğabol] 1) üz-üzə gəlmə, qarşı-qarşıya gəlmə; 2) müqayisə, qarşılaşdırma; کردن ~ a) üz-üzə gəlmək; b) müqayisə etmək

تقارب [təğarob] 1) yaxınlıq, yaxınlaşma; bir-birinə yaxın olma; 2) *ədəb.* əruz vəznində bəhr adı

تقارن [təğaron] simmetriya, uyğunluq, mütənasiblik; به طور ~ simmetrik şəkildə

تقاص [təğas(s)] *dan.* intiqam, qisas

تقاضا [təğaza] 1) xahiş; 2) tələb; داشتن ~ (کردن) a) xahiş etmək; b) tələb etmək

تقاضانامه [təğazaname] xahiş ərizəsi

تقاطع [təğato'] kəsişmə; çarpazlaşma; دو راه ~ iki yolun kəsişməsi; کردن ~ kəsişmək; çarpazlaşmaq

تقاعد [təğaod] pensiyaya (*təqaüdə*) çıxma

تقبل [təğəbbol] qəbul etmə; öhdəliyə götürmə; öhdəlik

تقبیح [təğbih] pisləmə; qınama; bəyənməmə; کردن ~ pisləmək

تقدس [təğəddos] müqəddəslik; paklık; möminlik, dindarlıq; ◊ به خرج ~ (فروختن) دادن özünü dindar kimi qələmə vermək

تقدم [təğəddom] 1) üstünlük; imtiyaz; 2) ötmə, qabağa keçmə; داشتن ~ a) üstün olmaq; b) öndə olmaq, qabaqda olmaq

تقدیر [təğdir] *c.* تقادیر [təğadir] 1) alın yazısı, bəxt, qismət, tale; 2) təşəkkür, minnətdarlıq, tərif; شدن ~ tərifləmək; bəyənilmək; کردن ~ tərifləmək; bəyənmək

تقدیرنامه [təğdirname] tərifnamə

تقدیس [təğdis] 1) müqəddəs saymа; sitayiş etmə; 2) əziz tutma; mədh etmə; کردن ~ a) müqəddəs saymaq; b) mədh etmək

تقدیم [təğdim] 1) təqdim etmə, vermə; 2) hədiyyə etmə, bəxşiş etmə; شدن ~ a) təqdim edilmək, verilmək; b) hədiyyə edilmək; کردن ~ a) təqdim etmək, vermək; b) hədiyyə etmək

تقرب [təğərrob] 1) yaxınlıq, yaxınlaşma; 2) tanış olma; dostlaşma; جستن ~ a) yaxınlığa can atmaq; b) dostlaşmağa çalışmaq

تقریباً [təğribən] təqribən, təxminən

تقریبی [təğribi] təqribi, təxmini, gözəyarı

تقریر [təğrir] *c.* تقاریر [təğarir] izah etmə, şərh etmə (*şifahi*); کردن ~ izah etmək, şərh etmək (*şifahi*)

تقریظ [təğriz] 1) müsbət rəy; 2) tərifləmə

تقسیم [təğsim] *c.* **تقسیمات** [təğsimatj 1) bölmə, ayırma; 2) *riyaz.* bölmə; ~ **قابل** bölünə bilən; **شدن** ~ bölünmək; **کردن** ~ bölmək

تقسیم بندی [təğsimbəndi] bölgü, təsnifat; **شدن** ~ bölünmək; **کردن** ~ bölüşdürmək, qrupa bölmək

تقصیر [təğsir] 1) təqsir, günah, suç; 2) səhv, yanlışlıq; **در حج** ~ Həcc ziyarətində saçın vurulması və dırnaqların tutulması; **کردن** ~ a) günah etmək; b) səhv etmək

تقصیرکار [təğsirkarj təqsirkar, təsirli, günahkar

تقطیر [təğtir] 1) damcılatma, damcı-damcı axıtma; 2) distilə etmə, saflaşdırma; 3) qazı və ya buxarı mayeyə çevirmə; **شدن** ~ distilə edilmək; saflaşdırılmaq; **کردن** ~ distilə etmək, saflaşdırmaq

تقطیع [təğti'] 1) *ədəb.* təqti, bölgü (*şeirdə*); 2) bölmə, hissələrə ayırma; **شدن** ~ a) bölgüyə ayrılmaq (*şeirdə*); b) bölünmək; **کردن** ~ a) bölgüyə ayırmaq (*şeri*); b) bölmək

تقلا [təğəlla] çalışma, səy göstərmə; çətinlikdən qurtarmağa can atma

تقلب [təğəllob] saxtakarlıq; aldatma, kələk, fırıldaq; **کردن** ~ saxtakarlıq etmək; aldatmaq

تقلبی [təğəllobi] saxta, saxtalaşdırılmış, qəlp

تقلی [toğli] toğlu, altıaylıq quzu

تقلید [təğlid] 1) təqlid, yamsılama; 2) bənzətmə; 3) ardınca getmə (*din xadiminin*); **کردن** ~ a) təqlid etmək; b) bənzətmək; c) ardınca getmək (*din xadiminin*)

تقلیدی [təğlidi] təqlidi; bənzədilmiş, oxşadılmış; köçürülmüş

تقلیل [təğlil] azalma, azaltma; ixtisar; ~ **مخارج** xərclərin azaldılması; **دادن** ~ azaltmaq, ixtisar etmək; **شدن** ~ (**یافتن**) azaldılmaq, ixtisar edilmək

تقوا [təğva] dindarlıq, möminlik, zahidlik, paklıq, təmizlik

تقوی [təğva] *bax* **تقوا**

تقویت [təğviyət] gücləndirmə, qüvvətləndirmə, möhkəmləndirmə; bərkitmə; ~ **ارتش** ordunun gücləndirilmasi; **دادن** ~ gücləndirmək, möhkəmləndirmək; **شدن** ~ qüvvətlənmək, möhkəmlənmək

تقویتی [təğviyəti] gücləndirici, möhkəmləndirici, qüvvətverici; ~ **شربت** gücləndirici şirə

تقویم [təğvim] I qiymətləndirmə, qiymət qoyma, qiymət verilmə; **شدن** ~ qiymətləndirilmək; **کردن** ~ qiymətləndirmək

تقویم [təğvim] II *c.* **تقاویم** [təğavim] təqvim; ~ **بقلی** cib təqvimi; ~ **دیواری** divardan asılan təqvim; ~ **شمسی** günəş təqvimi; ~ **قمری** ay təqvimi; ~ **میلادی** miladi təqvimi

تک [tək] *dan.* 1) tək, tənha, bir; 2) yeganə, misilsiz, bənzərsiz

تکاب [təkab] 1) yeraltı su, yeraltı çay; 2) yarğan

تکاپو [təkapu] çalışma, əlləşmə, vurnuxma; **کردن** // **در** ~ **بودن** ~ əlləşmək; vurnuxmaq

تکاثر [təkasor] çoxalma, artma; bolluq, çoxluq, artım

تکامل [təkamol] təkamül, təkmilləşmə, mükəmməlləşmə; inkişaf; irəliləmə; **بخشیدن** ~ təkmilləşdirmək;

inkişaf etdirmək; (**یافتن** (**کردن**) ~ təkmilləşmək, mükəmməlləşmək

تکاملی [təkamoli] artan, güclənən, yüksələn; ~ **سیر** irəliyə hərəkət, irəliləyiş

تکان [təkan] 1) təkan; zərbə; 2) silkələmə; 3) hərəkət; **خوردن** ~ titrəmək, əsmək, tərpənmək; hərəkət etmək; **دادن** ~ tərpətmək, çırpmaq, itələmək

تکاندن [təkandən] 1) tərpətmək, yırğalamaq; 2) silkələmək, çırpmaq

تکاور [təkavər] 1) bərk qaçan at; 2) bərk qaçan dəvə; 3) yüyürən, qaçan; 4) *hərb.* komandos; zərbə qrupu, diversiya qrupu

تکاهل [təkahol] tənbəllik, süstlük

تکبر [təkəbbor] təkəbbür, lovğalıq, özündənrazılıq; **داشتن** ~ təkəbbürlü olmaq; **کردن** ~ lovğalanmaq

تکبیر [təkbir] 1) tərifləmə; göylərə qaldırma, böyütmə; 2) "Allahu əkbər" demə

تک تک [təktək] tək-tək, bir-bir; **بیایید** ~ tək-tək gəlin

تکثیر [təksir] artırma, çoxaltma

تکدر [təkəddor] 1) kədər, qəm, qüssə; 2) inciklik, incimə; **داشتن** ~ a) qəmli olmaq; b) incimək

تکذیب [təkzib] təkzib, yalana çıxartma; **کردن** ~ təkzib etmək

تکذیب ناپذیر [təkzibnapəzir] təkzibedilməz, təkzibolunmaz

تکرار [təkrar // tekrar] təkrar, təkrarlama; **کردن** ~ təkrar etmək, təkrarlamaq

تکراری [təkrari] təkrar, təkrar olunan; ~ **درس** təkrar dərs

تکررو [təkrou] fərdi xüsusiyyəti ilə seçilən, heç kəslə hesablaşmayan

تکریم [təkrim] hörmət etmə, ehtiram göstərmə; **کردن** ~ hörmət etmək, ehtiram göstərmək

تکفین [təkfin] kəfənləmə, kəfənə bükmə; **شدن** ~ kəfənlənmək, kəfənə bükülmək; **کردن** ~ kəfənləmək, kəfənə bükmək

تکلتو [təkəltu] tərlik, yəhəraltı

تکلف [təkəllof] 1) əlləşmə, çalışma, zəhmət çəkmə, zəhmətə qatlaşma, əziyyətə qatlaşma; 2) özünü göstərmə; naz etmə; **به خرج دادن** ~ zəhmətə qatlaşmaq, əziyyətə qatlaşmaq

تکلم [təkəllom] danışıq, danışma, söhbət; **کردن** ~ danışmaq, söyləmək

تکلیف [təklif] *c.* **تکالیف** [təkalif] 1) tapşırma, göstəriş vermə, öhdəsinə qoyma; 2) həddi-büluğa çatma; **شدن** ~ (**به حد** ~ **رسیدن**) həddi-büluğa çatmaq; **کردن** ~ tapşırmaq, öhdəsinə qoymaq

تکمه [tokme] *bax* **دگمه**

تکمیل [təkmil] 1) təkmilləşdirmə, mükəmməlləşdirmə, yeniləşdirmə; 2) əlavə; 3) bütöv, tam, kamil; **شدن** ~ təkmilləşmək, yeniləşmək; **کردن** ~ təkmilləşdirmək, yeniləşdirmək

تکمیلی [təkmili] təkmilləşdirici, təkmilləşdirən; ~ **دوره** təkmilləşdirmə kursu

تکنوازی [təknəvazi] tək çalma; tək oxuma, solo

تکنولوژی [teknoloji] texnologiya

تکنیسین [teknis (i)yən] texnik; sənətkar; texniki işçi; magistr təhsilli işçi

تکنیک [teknik] texnika

تکپو [təkopu] *bax* **تکاپو**

تکتاز [təkotaz] *bax* **تکاپو**

تک و تنها [təkotənha] *dan.* təktənha, təkcə

تک ودو [təkodou] *bax* **تکاپو**

تکوین [təkvin] yaratma, yaradılma, yaranma; **دنیا ~•** dünyanın (*kainatın*) yaranması

تکه [təke] təkə, erkək keçi

تکه [tekke] tikə, parça; loğma, dilim; **یک ~ نان** bir tikə çörək

تکه پاره [tekkepare] tikə-parça, cırıq-cırıq

تکه تکه [tekketekke] tikə-tikə, cırıq-cırıq, parça-parça; **شدن ~** tikə-tikə olmaq; **کردن ~** tikə-tikə etmək

تکیه [təkye I // tekye] 1) dayaq, dirək; 2) söykənəcək; *qram.*: **صدا ~•** (**صوت**) vurğu; **وزن ~•** ritm; **~ دادن** (**زدن**) söykənmək; **کردن ~** a) söykənmək; b) vurğulamaq

تکیه [təkye] II 1) dərvişlərin mərasim keçirdikləri yer; 2) şiələrin məhərrəmlik mərasimi keçirdikləri yer

تکیه کلام [təkyekəlam] nitqdə təkrar olunan söz

تکیه گاه [təkyeqah] 1) dayaq; dayaq nöqtəsi; **صلح ~•** sülhün dayağı; 2) söykənəcək (*yer*)

تگرگ [təgərg] 1) dolu; **~ دانه•** dolu dənəsi; 2) dolu yağmuru

تل [təl(l)] *c.* **اتلال** [ətlal] 1) təpə, yüksəklik; 2) yığın, topa, qalaq; **~• سنگ** daş qalağı; **کردن ~** yığmaq, toplamaq

تلاش [tələş] 1) çalışma, əlləşmə, vurnuxma; 2) narahatlıq, nigarançılıq; **کردن (ورزیدن) ~** a) çalışmaq, əlləşmək; b) narahat olmaq

تلاشگر [tələşgər] çalışqan; işgüzar

تلاشی [tələşi] dağılma, parçalanma, pozulma; **خانواده ها ~•** ailələrin dağılması

تلاطم [tələtom] 1) dalğalanma,ləpələnmə; **دریا ~•** dənizin dalğalanması; 2) həyəcan, təşviş; **در ~ بودن / داشتن ~** // a) dalğalanmaq; b) həyəcanlanmaq

تلافی [tələfi] 1) əvəz; əvəzini ödəmə, kompensasiya; 2) qisas, öc, intiqam; **کردن ~** a) əvəzini ödəmək; b) qisas almaq, intiqam almaq

تلافی جو [tələficu] qisasçı, intiqamçı

تلافی جویانه [tələficuyane] qisasçılıq; **~ سیاست•** qisasçılıq siyasəti

تلاقی [tələği] 1) görüş; üz-üzə gəlmə, rast gəlmə; 2) kəsişmə, çarpazlaşma; **کردن ~** a) rastlaşmaq; b) kəsişmək

تلاوت [tələvət // telavət] Quranı avazla oxuma; **کردن ~** Quranı avazla oxumaq

تلبیس [təlbis] kələk, fırıldaq; kələkbazlıq; fırıldaqçılıq; **کردن ~** kələk gəlmək, fırıldaqçılıq etmək

تلخ [təlx] 1) acı; **~ حرف•** acı söz; **~ دوای•** acı dərman; 2) ağır; qəmli; 3) tutqun, qaşqabaqlı; **~ روی•** qaşqabaqlı sifət

تلخ رو [təlxru] acısifət, qaşqabaqlı, qaraqabaq

تلخ زبان [təlxzəban] acıdil, acıdilli

تلخ کام [təlxkam] dərdli, kədərli; pərt, dilxor

تلخ کامی [təlxkami] 1) dərd, kədər; dilxorluq; 2) ümidsizlik

تلخی [təlxi] 1) acılıq; 2) qəm, kədər; 3) hirslilik, tündxasiyyətlilik

تلخیص [təlxis] 1) xülasə etmə, qısa ifadə etmə; yekun vurma, yekunlaşdırma; 2) ixtisar, ixtisar etmə; **کردن ~** a) xülasə etmək; qısa ifadə etmək; b) ixtisar etmək

تلطف [tələttof] lütf, mehribanlıq, şəfqət; nəvaziş; xeyirxahlıq; **کردن ~** lütf göstərmək, mehribanlıq etmək; nəvaziş etmək

تلف [tələf] 1) tələf, tələf olma, məhv olma, həlak olma; zay olma, puç olma; 2) itki, tələfat; **شدن ~** tələf olmaq, məhv olmaq; zay olmaq; **کردن ~** tələf etmək, məhv etmək; zay etmək

تلفات [tələfat] *t.* **تلف** tələfat, itkilər; **جانی ~•** insan tələfatı; **جنگی ~•** hərbi itkilər; **مالی ~•** maddi tələfat; **~ دادن** itki vermək

تلفظ [tələffoz] tələffüz, deyiliş; **شدن ~** tələffüz olunmaq; **کردن ~** tələffüz etmək

تلفن [telefon] telefon; **بی سیم ~•** radio-telefon; **مرکز ~• خودکار** avtomat telefon stansiyası; **عمومی ~•** ümumi istifadə olunan avtomat telefon; **همراه (موبایل) ~•** mobil telefon; **کردن (زدن) ~** zəng etmək, telefonla danışmaq

تلفنچی [telefonçi] telefonçu

تلفن خانه [telefonxane] telefon qovşağı; danışıq məntəqəsi

تلقی [tələğği] 1) görüşmə; rastlaşma; 2) qavrama, dərk etmə; 3) münasibət bildirmə; izah etmə; **شدن ~** a) başa düşülmək, qavranılmaq; b) izah (*şərh*) edilmək; **کردن ~** a) başa düşmək, qavramaq; b) izah (*şərh*) etmək

تلقیح [tələğih] 1) *tib.* peyvənd etmə, peyvənd edilmə; **واکسین ~•** vaksinlə peyvənd etmə; 2) *bot.* calama, calaq etmə; **شدن ~** a) peyvənd edilmək; b) calaq edilmək; **کردن ~** a) peyvənd etmək; b) calaq etmək

تلقین [tələğin] 1) başa salma, anlatma, beyinə yeritmə; 2) təlqin etmə, aşılama (*fikri, əqidəni*); təsir etmə; **شدن ~** a) təlqin edilmək, anladılmaq; b) nəsihət edilmək; **کردن ~** təlqin etmək, aşılamaq; təsir etmək

تلکس [teleks] teleks

تلگراف [teleqraf // telqeraf] teleqraf; teleqram; **زدن ~** teleqram vurmaq

تلگرافچی [teleqrafçi] teleqrafçı

تلگرام [teleqram] teleqram

تلمبه [tolombe] nasos; **زدن ~** nasosla vurmaq, nasoslamaq

تلمبه خانه [tolombexane] nasos stansiyası, nasosxana

تلمیح [təlmih] 1) istinad etmə (*kitaba, mənbəyə*); sitat gətirmə; 2) işarə etmə

تلنگر [tələnqor] çırtma; **زدن ~** çırtma vurmaq

تلون [tələvvon] 1) əlvanlıq, rəngarənglik; 2) dəyişmə (*rəng*); dəyişkənlik, səbatsızlıq

تلویح [təlvih] 1) şərh, izah; 2) işarə, kinayə

تلویحا [təlvihən] dolayısı ilə, işarə ilə, eyhamla (*izah etmək*)

تلویزیون [televiz(i)yon] televizor

تله [tələ] 1) tələ; **گذاشتن ~** tələ qurmaq

تله پاتی [telepati] telepatiya

تله تایپ [teletayp] teletayp

تماثل [təmasol] bənzərlik, bənzəyiş, oxşarlıq; eynilik, eyniyyət; **داشتن ~** bənzəmək, oxşamaq; eyni olmaq

تمارض [təmaroz] özünü xəstəliyə vurma; **کردن ~** özünü xəstəliyə vurmaq

تماس [təmas(s)] 1) təmas, toxunma; 2) əlaqə, münasibət; **داشتن ~** a) təmasda olmaq; b) əlaqə saxlamaq; **گرفتن ~** əlaqə yaratmaq

تماشا [təmaşa] 1) tamaşa, seyr etmə; gözdən keçirmə; baxış; 2) gəzinti; **کردن ~** a) tamaşa etmək; baxmaq; b) gəzmək, gəzintiyə çıxmaq

تماشاچی [təmaşaçi] *bax* **تماشاگر**

تماشاخانه [təmaşaxane] teatr

تماشاگر [təmaşagər] tamaşaçı

تمام [təmam] tamam, tam, bütün; **مردم ~** bütün camaat; **~ هفتهٔ یک** tam bir həftə; **شدن ~** tamamlanmaq, qurtarmaq; **کردن ~** a) tamamlamaq, qurtarmaq; b) *dan.* ölmək

تماماً [təmamən] tamamilə, tam, bütöv, tamam-kamal

تمام رخ [təmamrox] üzdən görünüş, qabaqdan görünüş, anfas; **~ عکس** üz tərəfdən şəkil

تمامیت [təmamiyyət] bütövlük, tamlıq; **~ ارضی کشور** ölkənin ərazi bütövlüyü

تمایل [təmayol] 1) əymə, əyilmə; **~ خط** xəttin əyilməsi; 2) təmayül; meyil, istək; **داشتن ~** meyilli olmaq, istəmək; **کردن ~ اظهار** meyil göstərmək

تمبر [təmbr] marka; **~ پستی** poçt markası; **زدن ~** marka yapışdırmaq

تمبر دار [təmbrdar] markalı, markası olan; **~ پاکت** markalı zərf

تمتع [təmətto'] 1) qazanma, faydalanma, xeyir götürmə; 2) ləzzət, ləzzət alma, həzz alma; **بردن ~ (یافتن)** a) faydalanmaq, xeyir götürmək; b) ləzzət almaq, həzz almaq;

تمثال [temsal] *c.* **تماثیل** [təmasil] 1) şəkil, portret; 2) heykəl

تمثل [təməssol] 1) bənzəmə, bənzərlik, oxşarlıq; 2) bənzətmə, oxşatma; təqlid etmə; 3) misal gətirmə, nümunə gətirmə

تمثیل [təmsil] 1) təmsil, alleqoriya; məcaz; 2) bənzətmə, oxşatma; 3) *bax* **تمثل** (3); **زدن ~** misal çəkmək, atalar sözü demək

تمجید [təmcid] 1) tərifləmə, tərif etmə; mədh etmə; 2) böyük sayma; ehtiram göstərmə, hörmət etmə; **~ شدن** tərifənmək; **کردن ~** tərifləmək

تمدد [təməddod] çəkilmə, dartılma, uzanma, gərilmə; **~ ماهیچه** əzələnin dartılması

تمدن [təməddon] mədəniyyət, sivilizasiya; **گفتگوی تمدن ها** mədəniyyətlərin dialoqu

تمدید [təmdid] uzatma; dartıb uzatma; **~ مدت** vaxtın (*müddətin, möhlətin*) uzadılması; **(کردن) دادن ~** uzatmaq (*vaxtı*); **شدن ~** uzadılmaq (*vaxt*)

تمر [təmr] *bot.* xurma; əzgil

تمرد [təmərrod] tabe olmama, boyun əyməmə, itaətsizlik; müqavimət göstərmə; **کردن ~** tabe olmamaq, itaət etməmək; müqavimət göstərmək

تمرکز [təmərkoz] bir yerə toplama, bir yerə yığma, mərkəzləşdirmə;

دادن ~ bir yerə yığmaq, mərkəzləşdirmək; **یافتن ~** bir yerə yığılmaq, mərkəzləşdirilmək

تمرین [təmrin] 1) məşq, təlim; idman; 2) tapşırıq; **~ رانندگی** sürücülük təlimi; **کردن ~** məşq etmək

تمساح [temsah] *c.* **تماسیح** [təmasih] timsah

تمسخر [təməsxor] istehza, rişxənd, lağa qoyma; **کردن ~** ələ salmaq, lağa qoymaq

تمسخر آمیز [təməsxoramiz] istehzalı; **~ لحن با** istehzalı şəkildə

تمشک [təmeşk // temeşk] *bot.* moruq; böyürtkən

تمشیت [təmşiyyət] 1) qaydaya salma, nizamlama, nizama salma, düzəltmə; 2) işə salma; **دادن ~** a) qaydaya salmaq, nizamlamaq, nizama salmaq; b) işə salmaq

تمکن [təməkkon] 1) güc, qüvvə; qüdrət; 2) var-dövlət; hakimiyyət; 3) yerləşmə; yerləşdirmə; məskunlaşdırma; **یافتن ~** a) güclənmək, qüvvətlənmək; b) varlanmaq; c) yerləşmək, məskunlaşmaq

تمکین [təmkin] 1) itaət, itaət etmə, tabe olma; 2) təmkinlik, ağırlıq; soyuqqanlılıq; sakitlik; 3) möhkəmlənmə, güclənmə; güc, qüdrət; **داشتن ~ (کردن)** a) itaət etmək, tabe olmaq; b) möhkəmlətmək, gücləndirmək

تملق [təmelloğ] yaltaqlanma, yaltaqlıq; **گفتن ~** yaltaqlıq etmək

تملق گو [təmelloğqu] yaltaq

تملق گویی [təmelloğquyi] yaltaqlıq

تملک [təmellok] 1) yiyələnmə, sahib olma, malik olma; 2) ağalıq, sahiblik; 3) mülk, əmlak, mülkiyyət

تملیک [təmlik] mülk sahibi etmə, mülkü başqasına vermə (*bağışlama*)

تمنا [təmənna] təmənna, xahiş, yalvarış; **(کردن) داشتن ~** xahiş etmək; yalvarmaq

تمنی [təmənna] *bax* **تمنا**

تموج [təməvvoc] dalğalanma, ləpələnmə

تمول [təməvvol] 1) var-dövlət, sərvət; 2) varlanma; **داشتن ~** varlı olmaq

تمهید [təmhid] hazırlıq, hazırlıq görmə; zəmin hazırlama

تمیز [təmiz] 1) təmiz, pak, saf; **آب ~** təmiz su; 2) səliqəli; **~ لباس** səliqəli (*təmiz*) paltar; **شدن ~** təmizlənmək; **کردن ~** təmizləmək

تمیز [təməyyoz] ayrılma, seçilmə, fərqlənmə

تمیز کار [təmizkar] təmizkar, səliqəli

تمیزی [təmizi] təmizlik, paklıq

تمییز [təmyiz] 1) tanıma; müəyyən etmə; 2) ayırma, seçmə, ayırdetmə; fərq qoyma; **(کردن) دادن ~** a) tanımaq; müəyyən etmək; b) ayırmaq, seçmək; fərq qoymaq

تن [tən] 1) bədən, cisim; gövdə; 2) nəfər; **سه ~ سرباز** üç nəfər əsgər; ◊ **زدن ~** etiraz etmək; razılaşmamaq; **خود را چرب کردن ~** *dan.* çətin işə hazırlaşmaq

تن [ton] I ton (*min kiloqram*)

تن [ton] II avaz, səs, intonasiya

تنازع [tənazo'] mübarizə; vuruşma; savaşma; **بقا ~** yaşamaq uğrunda mübarizə

تن آسا [tənasa] *bax* **تن آسان**

تن آسان [tənasan] 1) qayğısız, laqeyd; 2) tənbəl

تن آسانی [tənasani] 1) qayğısızlıq, laqeydlik; 2) tənbəllik

تن آسایی [tənasayi] *bax* **تن آسانی**

تناسب [tənasob] mütənasiblik; uyğunluq, simmetriya; **~ داشتن** uyğun olmaq, mütənasib olmaq

تناسخ [tənasox] 1) dəyişilmə, əvəzolunma, əvəzedilmə; 2) metempsixoz, ruhun bir bədəndən başqasına keçməsi

تناسل [tənasol] nəsil artırma, doğub-törəmə; **~ آلت** cinsiyyət orqanı

تناسلی [tənasoli] cinsiyyət; **~ بیماریهای** zöhrəvi xəstəliklər

تنافر [tənafor] 1) qarşılıqlı nifrət; 2) uyğunsuzluq, uyğun gəlməmə

تناقض [tənağoz] təzad, əkslik, ziddiyyət; uyğunsuzluq; **~ داشتن** zidd olmaq; uyğun gəlməmək

تناوب [tənavob] növbələşmə; əvəz olunma, dəyişmə; **~ به** növbə ilə, bir-birinin ardınca

تناوبی [tənavobi] sistemli, ardıcıl, müntəzəm

تناور [tənavər] 1) kök, tosqun, şişman; cüssəli; 2) güclü, qüvvətli

تناول [tənavol] yemə; yeyib-içmə, qidalanma, qida qəbul etmə; **~ کردن** yemək, qidalanmaq

تنباکو [tənbaku] tütün, tənbəki

تنبان [tomban] şalvar, tuman (*genbalaq*)

تنبل [təmbəl] tənbəl

تنبلی [təmbəli] tənbəllik; **~ کردن** tənbəllik etmək

تنبیه [təmbih] tənbeh, qınama; cəza; **~ شدن** tənbeh olunmaq; cəzalanmaq; **~ کردن** tənbeh etmək, cəzalandırmaq

تن پرور [tənpərvər] 1) naz-nemət içində yaşayan, canını bəsləyən; 2) *bax* **تن آسان** (2)

تن پروری [tənpərvəri] 1) naz-nemət içində yaşama, can bəsləmə; 2) tənbəllik

تن پوش [tənpuş] paltar, geyim

تن خواه [tənxah] pul, kapital

تند [tond] 1) tez, iti, cəld, sürətli; bərk; **~ باد** bərk külək; 2) acı; tünd; kəskin; **~ چای** tünd çay, acı çay; **~ فلفل** acı bibər; **~ آبی** tünd-göy; **~ رفتن** sürətlə getmək

تند باد [tondbad] qasırğa, tufan

تندخو [tondxu] əsəbi, hirsli, tez hirslənən, çılğın, tündxasiyyətli; qaba, sərt

تندر [tondər] göy gurultusu, ildırım

تندرست [təndorost] sağlam; qüvvətli, möhkəm

تندرستی [təndorosti] sağlamlıq; möhkəmlik; güc, qüvvət

تندرفتار [tondrəftar] 1) *bax* **تندرو**; 2) kobud, qaba

تندرو [tondrou] 1) sürətlə gedən, iti gedən, iti yeriyən; 2) hirsli, çılğın, tündxasiyyətli; 3) ekstremist, ifratçı

تندروی [tondrəvi] 1) sürətlə getmə, iti getmə; 2) hirslilik, çılğınlıq, tündxasiyyətlilik; 3) ekstremizm, ifratçılıq

تندمزاج [tondməzac] *bax* **تندخو**

تندنویس [tondnevis] stenoqrafçı; tezyazan

تندنویسی [tondnevisi] stenoqrafiya

تندی [tondi] 1) sürət, tezlik, tələsiklik; 2) acılıq (*yeməkdə*); 3) tündlük (*rəngdə*); kəskinlik (*qoxuda, iydə*); 4) kobudluq

تنزل [tənəzzol] 1) aşağı enmə, aşağı düşmə; **~ قیمت ها** qiymətlərin aşağı düşməsi; 2) tənəzzül; geriləmə; azalma; **~ صنایع** sənayenin tənəzzülü; **~ دادن** azaltmaq; **~ کردن** a) aşağı düşmək; b) azalmaq; **~ یافتن** tənəzzülə uğramaq

تنزیل [tənzil] 1) aşağı salma, endirmə, endirim, azaltma; **~ نرخ** qiymətin aşağı salınması; endirim; 2) faiz; əqlir (*kreditdən*); **~ دادن** faiz almaq; borc vermək; **~ گرفتن** borcdan faiz almaq

تنش [tənəş] toqquşma, gərginlik; **~ بین المللی** beynəlxalq gərginlik

تنشویی [tənşuyi] 1) yuma; yuyunma; 2) ölünü yuma

تنظیف [tənzif] 1) təmizləmə, yuma; qaydaya salma; yığışdırma; **~ اتاق** otağı yığışdırma; 2) tənzif, cuna; **~ کردن** təmizləmək; qaydaya salmaq

تنظیم [tənzim] 1) tənzimləmə, nizamlama, nizama salma, qaydaya salma; **~ امور** işlərin qaydaya salınması; 2) tərtib etmə; **~ قرارداد** müqavilənin tərtib edilməsi; **~ شدن** qaydaya salınmaq; tərtib olunmaq; **~ کردن** qaydaya salmaq; tərtib etmək; hazırlamaq (*sənədi*)

تنعم [tənəom] 1) var-dövlət, sərvət; nemət; 2) rifah, rahatlıq; naz-nemət içində yaşama

تنفر [tənəffor] nifrət, nifrət etmə, ikrah; iyrənmə, çimçəşmə; antipatiya; **~ داشتن** nifrət etmək; iyrənmək; **~ اظهار کردن** nifrət bildirmək

تنفرآمیز [tənəfforamiz] iyrənc, çirkin, mənfur; **~ رفتار** çirkin hərəkət

تنفرآور [tənəfforavər] *bax* **تنفرآمیز**

تنفس [tənəffos] 1) nəfəs, nəfəs alma; **~ مصنوعی** süni nəfəs alma; 2) tənəffüs, fasilə; **~ کردن** a) nəfəs almaq; b) tənəffüs etmək, fasiləyə çıxmaq

تنقیح [tənğiyh] 1) təmizləmə, boşaltma (*zımı, çıxışı*); qaydaya salma; 2) redaktə etmə, düzəlişlər etmə

تنقید [tənğid] tənqid; pisləmə; **~ کردن** tənqid etmək; pisləmək

تنقیدی [tənğidi] tənqidi; **~ سخنرانی** tənqidi çıxış

تنقیه [tənğiyə] 1) imalə; 2) təmizləmə; **~ چاه** quyunu təmizləmə; **~ کردن** a) imalə etmək; b) təmizləmək

تنک [təng] 1) nazik, incə, zərif; 2) seyrək; **~ موی** seyrək saç

تنکه [tonoke] alt qısa tuman; şort

تنگ [tənk] I 1) dar, ensiz; **~ راه** dar (*ensiz*) yol; **~ کفش** dar ayaqqabı; 2) *bax* **تنگه**; 3) bərk, möhkəm; **~ در آغوش گرفتن** bərk qucaqlamaq; 4) az, məhdud; **~ وقت است** vaxt azdır; ◊ **به ~ آمدن** təngə gəlmək, bezmək; **~ به آوردن** təngə gətirmək, bezdirmək; **~ گرفتن** sıxmaq, təzyiq göstərmək

تنگ [təng] II tapqır, qarınaltı

تنگ [tong] qrafin, su qabı

تنگاب [təngab] 1) dayaz; **~ رودخانه** dayaz çay; 2) suyu az olan; bərk; yağlı; **~ آبگوشت** yağlı bozbaş

تنگاتنگ [təngatəng] bir-birinə çox yaxın, sıx; **~ رابطه** yaxın əlaqə

تنگ چشم [təngçeşm] acgöz, tamahkar; xəsis; paxıl

تنگ چشمی [təngçeşmi] acgözlük, tamahkarlıq; xəsislik; paxıllıq

تنگ حوصله [tənghousəle // təng-housele] hövsələsiz, səbirsiz, dözümsüz

تنگ دست [təngdəst] yoxsul, kasıb; yazıq, möhtac

تنگ دستی [təngdəsti] yoxsulluq, kasıblıq; ehtiyac

تنگ دل [təngdel] qəmli, qəmgin, kədərli; pərt, dilxor, incik

تنگ دلی [təngdeli] qəm, kədər, qüssə; dilxorluq, inciklik

تنگ سالی [təngsali] quraqlıq; qıtlıq

تنگستن [təng(e)stən] *kim.* volfram

تنگنا [təngna] 1) darlıq, darısqallıq; 2) dar yer; dərə; 3) həddindən artıq çətinlik

تنگ نفس [təngnəfəs] təngnəfəs; boğulma; astma; **گرفتن ~** çətin nəfəs almaq, boğulmaq

تنگه [tənge] 1) dar keçid; çətin keçilən dağ yolu, sərt dərə; 2) *coğr.* boğaz; ◊ **کسی را خورد کردن ~•** öhdəsindən gəlmək; təmin etmək, razı salmaq

تنگی [təngi] 1) darlıq, darısqallıq, sıxlıq; 2) ehtiyac, yoxsulluq, kasıblıq; 3) çətinlik, sıxıntı, üzüntü, çıxılmaz vəziyyət; **کشیدن ~** ehtiyac içində yaşamaq, çətinlik çəkmək, çıxılmaz vəziyyətə düşmək

تنور [tənur] təndir

تنوره [tənure] dudkeş, tüstüçəkən; **سماور ~•** samovar dudkeşi; **کشیدن ~** yuxarı qalxmaq, göyə qalxmaq (*burula-burula*)

تنومند [tənuməndi] 1) qüvvətli, güclü; 2) böyük, iri, yekə, cüssəli, boy-buxunlu; **درخت ~•** böyük ağac; **مرد ~•** boy-buxunlu kişi

تنومندی [tənuməndi] 1) qüvvətlilik, güclülük; qüvvət, güc; 2) böyüklük, irilik, yekəlik; ağırlıq, köklük

تنوین [tənvin] *qram.* tənvin (*ərəb sözlərində* ا *və* ة *hərfləri üzərində qoyularaq* ـً - *"ən" kimi oxunan işarə*): **حقیقتاً ، حتماً**

تنه [tənə] *bax* **تن 1)**

تنها [tənha] tək, tənha, yeganə

تنهایی [tənhayi] təklik, tənhalıq, yeganəlik; yalqızlıq

تنی [təni] doğma; **برادر ~•** doğma qardaş

تنیس [tenis] tennis; **بازی کردن ~** tennis oynamaq

تو [to] sən (*şəxs əvəzliyi*); sənin (*izafət birləşməsində*): **برادر ~•** sənin qardaşın

تو [tu] iç, içində, daxil, içəri; -da, -də şəkilçisi; **کتاب ~•** kitabda; **بیا ~** içəri gəl; **آمد ~** içəri gəldi, daxil oldu; ◊**ذوق کسی زدن ~•** kefini pozmaq, qanını qaraltmaq; **کوک کسی رفتن ~•** diqqətlə nəzərdən keçirmək

توازن [təvazon] 1) müvazinət, tarazlıq, bərabər çəkidə olma; 2) sabitlik, davamlılıq; **قوا ~•** qüvvələrin bərabərliyi

توازی [təvazi] paralellik; bərabərlik

تواضع [təvazo'] təvazö, təvazökarlıq, sadəlik; səmimilik; **کردن ~** təvazökarlıq etmək, təvazökarlıq göstərmək

توافق [təvafoğ] qarşılıqlı razılaşma, həmfikirlik, yekdillik; **به ~ رسیدن** ümumi nəticəyə gəlmək; **~ کردن** qarşılıqlı razılaşmaq; **~ نظر حاصل کردن** razılaşmaq, yekdil olmaq

توافقنامه [təvafoğname] *bax* **موافقتنامه**

توالت [tualet] 1) üst-başı qaydaya salma; üz-gözü bəzəmə; 2) tualet, ayaqyolu

توالد [təvalod] 1) doğub-törəmə, törəyib-artma; artma, çoxalma; 2) doğma, doğulma; **کردن ~** a) doğub-törəmək, törəyib-artmaq; b) doğulmaq

توالی [təvali] ardıcıllıq, davamlılıq, fasiləsizlik; **به ~• یک دیگر** bir-birinin ardınca

توأم [tou'əm] 1) birləşən, qarışan; 2) əkiz

توان [təvan] **توانستن** *f.-nin k.*; güc, qüvvə; bacarıq

توانا [təvana] güclü, qüvvətli; bacarıqlı

توانایی [təvanayi] güc, qüvvə, qüdrət, iqtidar; bacarıq; **عدم ~•** gücsüzlük; bacarıqsızlıq

توانستن [təvanestən] *k.* **توان** [təvan] bacarmaq, bilmək

توانفرسا [təvanfərsa] çox ağır, üzücü, əldən salan; yorucu

توانگر [təvangər] 1) varlı, dövlətli, imkanlı; 2) *bax* **توانا**; **شدن ~** varlanmaq; varlı olmaq

توبره [tubre] torba, kisə

توبه [toube] 1) tövbə; 2) and; **~ (کردن) دادن** tövbə etmək; **~ شکستن** tövbəyə əməl etməmək, tövbəni sındırmaq

توبه شکن [toubeşəkən] tövbəsinə əməl etməyən, tövbə sındıran

توبه کار [toubekar] tövbə edən

توبه کاری [toubekari] tövbə etmə

توبیخ [toubix] danlaq, qınaq, töhmət, məzəmmət; **کردن ~** danlamaq

توبیخنامه [toubixname] yazılı töhmət

توپ [tup] I top, kos; **فوتبال ~•** futbol topu

توپ [tup] II top (*hərbi silah*); **~ انداختن** topdan atəş açmaq, top atmaq

توپ [tup] III numerativ söz: top; **یک ~ چیت** bir top çit

توپچی [tupçi] topçu

توپخانه [tupxane] artilleriya, topxana; **سنگین ~•** ağır artilleriya

توپر [tupor] içidolu, dolmuş, doldurulmuş; **~ لاستیک•** içidolu şin

توپک [tupək] tıxac, probka

توپی [tupi] 1) *bax* **توپک**; 2) *tex.* vtulka, oymaq

توت [tut] tut (*meyvə və ağac*); **~• خشک** quru tut; **سفید ~•** ağ tut; **سیاه ~•** qara tut

توتالیتر [totaliter] totalitar; **~ رژیم•** totalitar rejim

توت پزان [tutpəzan] tut yetişən fəsil, tut fəsli

توتستان [tutestan] tut bağı

توت فرنگی [tutferəngi] çiyələk

توتک [tutək] 1) tütək, ney; 2) şirin çörək

توتم [totem] totem

توتمیسم [totemism] totemizm

توتون [tutun] tütün

توتونکار [tutunkar] tütünçü, tütünəkən

توتونکاری [tutunkari] tütünçülük, tütün əkmə

توتیا [tutiya] tutiya (*gözə çəkilən məlhəm*)

توجه [təvəccoh] 1) yönəlmə, üz çevirmə; 2) diqqət; qayğı; iltifat, lütf; **(کردن) داشتن ~** diqqət etmək (*yetirmək*); qayğı göstərmək; **مورد ~ داشتن** ~ *bax* **قرار دادن**

توجیه [toucih] 1) izah, şərh, təfsir; 2) istiqamətləndirmə, yönəltmə; 3) istiqamət, meyil, oriyentasiya

توحش [təvəhhoş] vəhşilik; **دوره ~•** cəhalət dövrü

توحید [touhid] 1) Allahın birliyi, monoteizm, təkallahlılıq; 2) birləşdirmə; birlik, ittifaq

توخالی [tuxali] 1) içiboş, boş; **ساقه** ~ içiboş budaq; 2) puç, boş, mənasız

تودرتو [tudərtu] 1) iç-içə; **اتاقهای** ~ iç-içə otaqlar; 2) dolaşıq, qarışıq, mürəkkəb; ~ **اوضاع** mürəkkəb (*dolaşıq*) vəziyyət

توده [tude] 1) yığın, topa, qalaq; **خاک** ~ torpaq qalağı; 2) camaat, xalq, kütlə; **زحمتکش** ~ zəhmətkeş xalq; 3) *fiz.* kütlə

توده ای [tudei] 1) kütləvi; ~**جنبش** kütləvi hərəkat; 2) xalq; ~ **جمهوری** xalq respublikası

توده شناس [tudeşenas] 1) etnoqraf; 2) folklorçu

توده شناسی [tudeşenasi] 1) etnoqrafiya; 2) folklorşünaslıq

تودهنی [tudəhəni] 1) şapalaq, yumruq (*ağıza vurulan*); 2) ağır cavab, kəskin cavab

تودیع [toudi'] 1) xudahafizləşmə; vidalaşma; ~ **مراسم** vidalaşma mərasimi; 2) saxlamaq üçün qoyma (*malı, əşyanı*); depozitə qoyma, əmanətə qoyma; **کردن** ~ a) xudahafizləşmək; vidalaşmaq; b) saxlamaq üçün qoymaq (*malı, əşyanı*); depozitə qoymaq, əmanətə qoymaq

تور [tur] I 1) tül (*nazik tor parça*); tor (*həşərata qarşı*); **عروس** ~ gəlin baş örtüyü; 2) tor (*ovçu-balıqçı toru*), tələ; **ماهیگیری** ~ balıqçı toru; 3) şəbəkə (*casus-kəşfiyyat işlərində*)

تور [tur] II *bax* **توریسم**

توربین [turbin] turbin; **آبی** ~ su turbini, hidroturbin; **گاز** ~ qaz turbini

تورفتگی [turəftegi] çökək, çuxur, batıq, oyuq; **قایقه** ~ qazanın batıq yeri

تورم [təvərrom] iltihab, şişmə; hovçəkmə; ◊**پول** ~ inflyasiya

توری [turi] 1) torlu; şəbəkəli; 2) məhəccərli; ~ **پنجره** məhəccərli pəncərə

توریست [turist] turist

توریسم [turism] turizm

توزیع [touzi'] bölmə, bölüşdürmə; paylama; **شدن** ~ bölünmək; paylanmaq; **کردن** ~ bölmək, paylamaq

توزین [touzin] çəkmə, tərəzidə çəkmə, çəkini müəyyənləşdirmə; **شدن** ~ tərəzidə çəkilmək; **کردن** ~ tərəzidə çəkmək

توسرخ [tusorx] qreypfrut növü

توسری [tusəri] *dan.* qapaz; **خوردن** ~ qapaz yemək; **زدن** ~ qapaz vurmaq

توسری خور [tusərixor] *dan.* başıqapazlı, yazıq, fağır, aciz, məzlum

توسط [təvəssot] vasitəçilik, kömək; ~ **به** vasitəsilə, köməyilə

توسعه [tousee] inkişaf, yayılma, genişlənmə; **دادن** ~ genişləndirmək, inkişaf etdirmək; **پیدا کردن (یافتن)** ~ genişlənmək, inkişaf etmək

توسعه پذیر [touseepəzir] genişləniləsi, genişlənə bilən

توسعه طلب [touseetələb] ekspansionist, ekspansionizm tərəfdarı

توسعه طلبی [touseetələbi] ekspansiya

توسکا [tuska] *bot.* qızılağac

توسل [təvəssol] kömək istəmə, əl atma, ətəkdən yapışma; **به زور** ~ zor işlətmə; **جستن** ~ vasitə axtarmaq (*kömək üçün*)

توسن [tousən] ram olunmamış; tərs, inadcıl; xam, harın; ~ **اسب** xam at

توشک [tuşək] *bax* **تشک**

توشه [tuşe] 1) azuqə, ərzaq; ~ **سفر** yol azuqəsi; yol üçün azuqə; 2) ehtiyat, tədarük; **علم** ~ bilik ehtiyatı (*baqajı*)

توشه بر [tuşebər] ərzaqdaşıyan vaqon (*dəmir yolunda*)

توشه دان [tuşedan] yol çantası

توصیف [tousif] 1) təsvir, təsvir etmə; 2) tərifləmə, vəsf etmə; **شدن** ~ a) təsvir olunmaq; b) tərifləmək, vəsf olunmaq; **کردن** ~ a) təsvir etmək; b) tərifləmək, vəsf etmək

توصیف ناپذیر [tousifnapəzir] təsvir edilə bilməyən, vəsfəgəlməz, tərifəgəlməz; ~ **زیبایی** tərifəgəlməz gözəllik

توصیه [tousiye] 1) tövsiyə, məsləhət; 2) sifariş; **شدن** ~ a) tövsiyə olunmaq; b) sifariş olunmaq; **کردن** ~ a) tövsiyə etmək; b) sifariş etmək

توصیه نامه [tousiyename] vəsatət məktubu

توضیح [touzih] şərh, şərh etmə, izah, izah etmə, açıqlama; **دادن** ~ şərh etmək, izah etmək, açıqlamaq

توطن [təvətton] yerləşmə, məskunlaşma, yurd salma; yurd seçmə; **اختیار کردن (گزیدن)** ~ məskunlaşmaq; yurd seçmək

توطئه [toutee] 1) qəsd, sui-qəsd; 2) fitnə, hiylə, intriqa; **چیدن (کردن)** ~ a) sui-qəsd hazırlamaq, əlbir olmaq (*cinayətdə*); b) fitnə törətmək

توطئه آمیز [touteeamiz] hiyləgər, məkrli, xain; ~ **نقشه های** hiyləgər planlar

توطئه چین [touteeçin] *bax* **توطئه گر**

توطئه گر [touteegər] sui-qəsdçi

توف [tuf] tuf, tuf daşı

توفال [tufal] çiləkən, nazik ensiz taxta; **کوبیدن** ~ çiləkən vurmaq

توفان [tufan] 1) tufan, qasırğa; 2) *məc.* hay-küy, qışqırıq

توفیر [toufir] təfavüt, fərq; **داشتن** ~ fərqlənmək; **کردن** ~ dəyişilmək

توفیق [toufiğ] 1) müvəffəqiyyət, uğur; 2) kömək, yardım; **الهی** ~ **به** Allahın köməyilə; **یافتن (حاصل کردن)** ~ uğur qazanmaq

توقع [təvəğğo'] 1) gözləmə, göz dikmə, intizar, ümid; 2) təvəqqe, xahiş; **داشتن** ~ a) gözləmək, ümid bəsləmək; b) xahiş etmək

توقف [təvəğğof] 1) dayanma, dayanıb qalma, durma, qalma; ~ **محل** dayanma yeri, durma yeri; 2) yubanma, gecikmə, ləngimə; ~ **کار** işin gecikməsi; **کردن** ~ dayanmaq, durmaq, qalmaq

توقف گاه [təvəğğofqah] dayanacaq

توقیف [touğif] 1) tutma, saxlama, həbs etmə; 2) müsadirə; **شدن** ~ a) saxlanılmaq, həbs edilmək; b) müsadirə olunmaq; **کردن** ~ a) saxlamaq; həbs etmək; b) müsadirə etmək

توقیفگاه [touğifqah] həbs düşərgəsi

توکل [təvəkkol] təvəkkül, ümid; ~ **به خدا** Allaha təvəkkül, Allaha pənah; **کردن** ~ ümid etmək

تولا [təvəlla] dostluq

تولد [təvəllod] təvəllüd, doğulma, anadan olma; **یافتن (شدن)** ~ doğulmaq, anadan olmaq

توله [tule] 1) tula, küçük; 2) canavar, tülkü, çaqqal və s. balası

توله سگ [tuleseg] 1) *bax* توله; 2) *vulq* it balası

تولی [təvəlla] *bax* تولا

تولیت [touliyət] qəyyumluq, hamilik

تولید [toulid] istehsal, istehsal etmə, hazırlama; چدن ~ çuqun istehsalı; ~ وسایل istehsal vasitələri; ~ شدن istehsal olunmaq; ~ کردن istehsal etmək

تولیدات [toulidat] *t.* تولید məhsullar; ~ صنعتی sənaye məhsulları

تولیدکننده [toulidkonənde] istehsalçı

تهجی [təhəcci] 1) heca ilə oxuma, höccələyərək oxuma; 2) hərflərin tələffüzü; 3) əlifba, hərflərin sırası; ~ به ترتیب əlifba sırası ilə; حروف ~ əlifba

تهدید [təhdid] təhdid, qorxutma, hədələmə; hədə gəlmə; ~ شدن qorxudulmaq, hədələnmək; ~ کردن qorxutmaq, hədələmək

تهدیدآمیز [təhdidamiz] qorxuducu, hədələyici

تهوع [təhəvvo'] 1) ürəkbulanma, ürəkbulanması; 2) nifrət

تهی [tohi] boş; ~ شدن boşalmaq; ~ کردن boşaltmaq

تهی دست [tohidəst] yoxsul, kasıb; əliboş, heç nəyi olmayan

تهی دستی [tohidəsti] yoxsulluq, kasıblıq

تهی دماغ [tohidəmağ] *bax* تهی مغز

تهیگاه [tohiqah] *anat.* yan, böyür; qarının sağ və sol tərəfi; qabırğa ilə

تیرانداز [tirəndaz] atıcı, nişançı, oxatan, gülləatan

تیراندازی [tirəndazi] atıcılıq, güllə atma; اسلحه ~ گلوله atmaq

تیرآهن [tirahən] dəmir tir, şveller (*dəmir prokat növü*); ریلی ~ dəmir yolu relsi

تیرباران [tirbaran] gülləbaran; کردن gülləbaran etmək

تیررس [tirres] güllə məsafəsi

تیرک [tirək] 1) çadır direyi; q

تیره روزی [tireruzi] *bax* **تیره بختی**

تیره روزگار [tireruzqar] *bax* **تیره بخت**

تیره ضمیر [tirezəmir] *bax* **تیره دل**

تیز [tiz] 1) iti, kəsərli, kəskin; ~ **چاقوی** iti bıçaq; 2) nüfuzedici, təsirli; ~ **نگاه** iti (*təsirli*) baxış; 3) acı; tünd, kəskin (*iy*); ~ **بوی** kəskin iy; ~ **فلفل** acı bibər; **شدن** ~ a) itilənmək; b) *dan.* hirslənmək, acıqlanmaq; **کردن** ~ a) itiləmək; b) *dan.* hirsləndirmək, acıqlandırmaq

تیزاب [tizab] nitrat turşusu

تیزبال [tizbal] itiuçan, sürətlə uçan; ~ **پرنده** itiuçan quş

تیزبین [tizbin] itigörən; fərasətli; ~ **پسر** fərasətli oğlan

تیزبینی [tizbini] iti görmə; hər şeylə maraqlanma; ağıl, fərasət

تیزپا [tizpa] itigedən, itiyerişli, bərk qaçan, sürətlə gedən; ~ **اسب** bərk qaçan at

تیزپر [tizpər] *bax* **تیزبال**

تیز پرواز [tizpərvaz] *bax* **تیزبال**

تیزچشم [tizçeşm // tizçəşm] itigözlü, itibaxışlı; ~ **عقاب** itigözlü qartal

تیزدندان [tizdəndan] itidişli; **پلنگ** ~ itidişli pələng

تیزرو [tizrou] *bax* **تیزپا**

تیززبان [tizzəban] dilli, dilli-dilavər, dildən pərgar

تیزفهم [tizfəhm] *bax* **تیزهوش**

تیزفهمی [tizfəhmi] *bax* **تیزهوشی**

تیزکن [tizkən] [چاقو ~] bıçaqitiləyən, ...

تیزهوش [tizhuş] tezanlayan; fərasətli

تیزهوشی [tizhuşi] fərasət, tez anlama

تیشه [tişe] dəhrə, kərki; külüng

تیغ [tiğ] 1) qılınc; ülgüc; 2) tikan; 3) şüa; **آفتاب** ~ günəş şüası; 4) zirvə; **کوه** ~ dağın zirvəsi; **زدن** ~ qılınc vurmaq (*məhərrəm ayında, öz bədəninə*); ◊ **در غلاف کردن** ~ susmaq; ağzına su almaq; **تیغش براست** qılıncının dalı da kəsir, qabağı da; **تیغش غلاف شده** artıq nüfuzu yoxdur

تیغدار [tiğdar] tikanlı; ~ **بوته** tikanlı kol

تیغه [tiğe] 1) tiyə, ağız; **شمشیر** ~ qılıncın tiyəsi; 2): **کوه** ~ dağın zirvəsi; 3) nazik arakəsmə; **کشیدن** ~ arakəsmə düzəltmək

تیفوس [tifus] tif, yatalaq

تیفوئید [tifoid] qarın yatalağı

تیم [tim] *idm.* komanda; **فوتبال** ~ futbol komandası

تیماج [timac] tumac dəri, aşılanmış keçi dərisi, möhkəm dəri

تیمار [timar] 1) qayğı; qulluq etmə; 2) təmizləmə, yuma (*atı*); **کردن** ~ qayğısını çəkmək, qulluq etmək

تیمارستان [timarestan] dəlixana, ruhi xəstəliklər xəstəxanası

تیمسار [timsar] polkovnik və generalların titulu

تیمم [təyəmmom] susuz yerdə torpaqla (*qumla*) dəstəmaz alma

تیمن [təyəmmon] 1) xoş əlamət, xoş fal; 2) uğur, bəxt, bəxti gətirmə

تیموس [timus] *anat.* boğaz uru

vəzisi (*zob*)

تیزبین [tizbin] itigörən

تیوب [tiyub] kamera, rezin kisə, rezin şin

تیهو [tihu // teyhu] kəkliyə oxşar kiçik quş, boz kəklik

ث

ث [se] fars əlifbasının beşinci hərfi; əbcəd hesabında 500 rəqəmini ifadə edir

ثابت [sabet] 1) sabit, dəyişməz, möhkəm, sarsılmaz; ~ **(وديعه) حساب** sabit hesab, dəyişməz hesab (*bankda*); ~ **وضع** sabit vəziyyət; 2) müəyyən edilmiş; sübut edilmiş; 3) *riyaz., fiz.* sabit kəmiyyət; **شدن** ~ müəyyən olunmaq; sübut olunmaq; **کردن** ~ müəyyən etmək; sübut etmək

ثابت العزم [sabetoləzm] əzmli, əzmkar, möhkəm, qətiyyətli

ثابت رای [sabetrə'y] sabit fikirli, möhkəm əqidəli, sözündə möhkəm, sözündən qaçmayan

ثابت قدم [sabetğədəm] sabitqədəm, möhkəm, sarsılmaz, fikrindən dönməyən

ثابت قدمی [sabetğədəmi] sabitqədəmlik, möhkəmlik, sarsılmazlıq, fikrindən dönməmə

ثابت مدت [sabetmoddət] 1) sabit müddətli, vaxtı dəyişməyən; 2) təcili (*pul köçürmələri*)

ثابته [sabete] 1) *bax* **ثابت 1), 2)**; 2) *c.* **ثوابت** [səvabet] hərəkət etməyən ulduz

ثاقب [sağeb] 1) deşib keçən, yarıb keçən; ~ **گلوله** zirehdeşən güllə; 2) çox parlaq, işıqsaçan; ~ **شعاع**; meteor; 3) nüfuzlu, təsirli; ~ **رای** nüfuzlu rəy

ثالث [sales] 1) üçüncü; 2) *hüq.* bitərəf şəxs

ثالثا [salesən] üçüncüsü

ثالوث [salus] üçlük; üçhissəli, üçpilləli; **اقدس** ~ müqəddəs üçlük (*xristianlarda: oğul, ata və müqəddəs ruh*)

ثامن [samen] səkkizinci

ثانوی [sanəvi] 1) ikinci dəfə; təkrar, təkrarən; ~ **ملاقات** ikinci görüş; 2) sonrakı; ~ **خبر** sonrakı xəbər

ثانی [sani] ikinci

ثانیا [saniyən] ikincisi

ثانیه [saniye] saniyə

ثانیه سنج [saniyesənc] saniyəölçən (*cihaz*)

ثانیه شمار [saniyeşomar] saniyə əqrəbi (*saatda*)

ثبات [səbat] sabitlik, dəyizməzlik, möhkəmlik, sarsılmazlıq

ثبات [səbbat] 1) qeyd edən, qeydiyyata götürən (*şəxs*); 2) qeyd edən (*cihaz*)

ثباتی [səbbati] qeydiyyat, qeydiyyat şöbəsi

ثبت [səbt] qeyd etmə, qeydiyyata götürmə; **نام** ~ ad yazdırma; **شدن** ~ qeyd olunmaq; **کردن** ~ qeyd etmək

ثبوت [sobut] sübut, dəlil; // **کردن** ~ **به رساندن** ~ sübut etmək; // **شدن** ~ **به رسیدن** ~ sübut olunmaq

ثروت [sərvət] sərvət, var-dövlət, mal

ثروتمند [sərvətmənd] varlı, dövlətli, zəngin, imkanlı

ثروتمندی [sərvətməndi] varlılıq, dövlətlilik, zənginlik

ثریا [sorəyya] *bax* **پروین**

ثعلب [sə'ləb] II *c.* **ثعالب** [səaleb] tülkü

ثقل [seğl] *c.* **اثقال** [əsğal] 1) ağırlıq; ~ **مرکز** ağırlıq mərkəzi; 2) ağırlıq, yük; **سامعه** ~ ağır eşitmə; karlıq; **کلام** ~ sözün ağırlığı (*m*

rəkkəbliyi); معده ~˙ mədə pozğun- | ثمره [səmərə] *c.* ثمرات [səmərət]

ağu; (کردن) داشتن ~ çətin həzm olunmaq (*yemək*)

ثقلت [seğlət // soğlət] 1) siqlət, ağırlıq; 2) ağırlıq, çətinlik (*mətn, üslub*); 3) çətin həzm olunma (*yemək*)

ثقه [seğe] nüfuzlu, mötəbər, etibarlı

ثقه الاسلام [seğətoleslam] nüfuzlu müsəlman ruhanilərinin titulu

ثقیل [soğil] 1) ağır; güclü, çox bərk; ~ ضربه˙ güclü zərbə; 2) tutarlı, mühüm; ~ دلیل˙ tutarlı dəlil; 3) mürəkkəb, çətin (*üslub*); 4) çətin həzm olunan (*yemək*)

ثلاث [sələs] 1) üç; 2) üç hissədən ibarət olan

ثلاثه [sələse] *bax* ثلاث

ثلاثی [sələsi] 1) üç hərfli söz (*sami dillərində*); 2) üçbucaqlı; 3) üçlü, üç hissədən ibarət olan

ثلث [səls] I üçdəbir

ثلث [səls] II süls (*ərəb əlifbasında xətt növü*)

ثمر [səmər] *c.* اثمار [əsmar] // ثمار [semar] 1) meyvə; 2) fayda; 3) nəticə; (دادن) بخشیدن ~ bar vermək; fayda vermək, xeyir gətirmək

ثمرات [səmərat] *t.* ثمره // ثمر

ثمربخش˙ [səmərbəxş] 'təydalı, səmərəli, nəticəli

ثمردار [səmərdar] *bax* ثمربخش

bax ثمر

ثمن [səmən] *c.* اثمان [əsman] qiymət, dəyər; قلیل ~˙ aşağı qiymət

ثمن [səmn] səkkizdə bir

ثمین [səmin] bahalı, qiymətli

ثنا [səna] *c.* اثنیه [əsniye] tərif, mədh, mədhiyyə; گفتن ~ mədhiyyə demək

ثناخوان [sənaxan] mədhiyyəçi, məddah

ثناخوانی [sənaxani] mədhiyyəçilik, məddahlıq; کردن ~ tərifləmək, məddahlıq etmək

ثناگر [sənagər] *bax* ثناخوان

ثناگری [sənagəri] *bax* ثناخوانی

ثناگو [sənaqu] *bax* ثناخوان

ثناگویی [sənaquyi] *bax* ثناخوانی

ثنوی [sənəvi] *fəl.* dualist

ثنویت [sənəviyyət] *fəl.* dualizm

ثنیه [səniyye] *c.* ثنایا [sənaya] qabaq diş, kəsici diş

ثواب [səvab] savab, xeyir, yaxşılıq; کار˙ ~ savab iş; یافتن ~ savab qazanmaq

ثوابت [səvabet] *t.* ثابته

ثواب کار [səvabkar] xeyirxah, savab iş görən

ثواب کاری [səvabkari] xeyirxahlıq

ثوب [soub] *c.* اثواب [əsvab] // ثیاب [siyab] paltar, geyim

ثور [sour] *astr.* Buğa bürcü (*21.IV-21.V*)

ج

ج [cim] fars əlifbasının altıncı hərfi; əbcəd hesabında 3 rəqəmini ifadə edir

جا [ca] 1) yer; məkan; məhəl; خواب ~˙ yataq yeri, istirahət yeri; 2) bina, otaq; 3) vəzifə, qulluq; خالی ~ boş yer, vakansiya; به ~˙ او onun yerinə (*əvəzinə*); افتادن ~ a) çıxığı yerinə salmaq və müalicə etmək; b) yerinə salınmaq (*mexanizmin hissələri*); c) tam bişirilmək; انداختن ~ a) yerinə salmaq (*oynağı və mexanizmin hissələrini*); b) yer salmaq; به ~ آوردن a) icra etmək, yerinə yetirmək; b) *dan.* tanımaq; c) başa düşmək, anlamaq; دادن ~ yer vermək, yerləşdirmək; سپردن ~ a) yer boşaltmaq, yer vermək; b) ölmək; گرفتن ~ yer tutmaq; از ~ در رفتن özündən çıxmaq, əsəbləşmək; رساندن به ~ yerinə yetirmək; به ~ شدن yerbəyer olmaq, yerləşdirilmək; به ~ کردن yerbəyer etmək, yerləşdirmək; ◊ خوردن ~ *dan.* a) təəccüblənmək; b) durğunluğa qalmaq; رفتن ~ geri çəkilmək (*mübahisədə*); زدن ~ a) sırımaq, calamaq; b) kələk gəlmək, fırıldaq gəlmək (*satışda*)

جاافتادگی [caoftadegi] 1) yetişmə, dəymə (*meyvə*); 2) hazır olma (*yemək*); 3) yetkinlik, təcrübəlilik

جاافتاده [caoftade] 1) yetişmiş, dəymiş (*meyvə*); 2) yetkin, təcrübəli

جابجا [cabeca] 1) dərhal; 2) yerbəyer

جابجایی [cabecayi] 1) yerbəyerləşmə, yerbəyer olma; 2) yerdəyişmə

جابر [caber] zülm edən, zülmkar

جابرانه [caberane] zülmkarlıqla; zülmkarcasına

جاپه [capa] ayaq izi

جاتکمه [catokme] *bax* جادگمه

جاجیم [cacim] cecim, rəngarəng keçədən hazırlanan fərş

جادگمه [cadogme] düymə yeri

جادو [cadu] cadu, sehr, əfsun; کردن ~ cadu etmək

جادوانه [cadovane] əfsunlayıcı, fəsunkar, məftunedici, canalıcı

جادوپرست [cadupərəst] caduya inanan

جادوگر [cadugər] cadugər, sehrbaz, əfsunçu

جادوگری [cadugəri] cadugərlik, sehrbazlıq

جاده [cadde] prospekt, böyük yol, şose; (شوسه) اسفالته˙ ~ asfalt yol; پیاده رو piyadalar üçün yol; خاکی ~ torpaq yol; کشیدن ~ yol çəkmək, yol salmaq; کوبیدن ~ yolu döyəcləmək, yolu döyəcləyib bərkitmək

جاده سازی [caddesazi] yol çəkmə, yol salma

جادی [cadi] zəfəran

جاذب [cazeb] cazibəli, cazibəli, cəlbedici

جاذبه [cazebe] 1) *bax* جاذب; 2) *c.*

جواذب [cəvazeb] cazibə, cəlb et

جاذبیت [cazebiyyət] *bax* جذابیت

جار [car] I car çəkmə, çə

haray; زدن (کشیدن) ~ car çəkmə

جار [car] II *c.* جیران [ciran] qo

جارح [careh] yaralayan, yara ran (*alət və ya insan*)

جارختی [carəxti] qarderob, paltar asılan yer; 2) asılqan

جارو [caru] süpürgə; ~ زدن (کردن، کشیدن) süpürmək

جاروب [carub] *bax* جارو

جاروبرقی [carubərği] tozsoran

جارویکش [carubkeş] *bax* جاروکش

جارویکشی [carubkeşi] *bax* جاروکشی

جاروجنجال [carocəncal] hay-küy, səs-küy; ~ راه انداختن (کردن) hay-küy salmaq, səs-küy salmaq

جاروکش [carukeş] süpürgəçi

جاروکشی [carukeşi] süpürmə; süpürgəçilik; ~ کردن a) süpürmək; b) süpürgəçi işləmək

جاری [cari] I 1) axar, axan; ~ آب axar su; 2) cari; bugünkü, hazırkı; ~ سال cari (*bu*) il; ~ بودن a) tökülmək, axmaq, axıb getmək; b) qüvvədə olmaq (*qanun*); ~ شدن a) *bax* ~ بودن a); b) icra olunmaq, həyata keçmək (*qanun*); ~ کردن a) axıtmaq, məcraya salmaq (*suyu*); b) həyata keçirmək (*qanunu*)

جاری [cari] II qayınarvadı

جاریه [cariye] 1) *bax* جاری I; 2) kəniz qız, xidmətçi qız

جاز [caz] caz; ~موسیقی caz musiqisi

جازم [cazem] qətiyyətli, qəti qərar qəbul edən; ~ شدن qəti qərar qəbul etmək

جازیست [cazist] cazist, cazçı, cazmen

جاسب [cast] şirəxana (*üzümdən şirə çıxardılan yer*)

جاسر [casər] *bax* جسور

جاسنگین [casəngin] *dan.* ağır, təmkinli, vüqarlı; ~ مرد ağır adam

جاسوس [casus] *c.* جواسیس [cəvasis] casus

جاسوسی [casusi] casusluq; ~ کردن casusluq etmək

جاسویچی [casviçi] brelok; açarqabı

جاسیگاری [casiqari] siqaretqabı, siqaret qutusu

جاصابونی [casabuni] sabunqabı

جاعل [cael] saxtakar, saxta (*qəlp*) işlərlə məşğul olan

جاکت [cakət] jaket

جاکلیدی [cakelidi] 1) *bax* جاسویچی; 2) açar deşiyi (*qapıda*)

جاگیر [caqır] *bax* جایگیر

جالب [caleb] cəlbedici, cazibəli; maraqlı; ~ توجه diqqətəlayiq; əhəmiyyətli; ~ توجه بودن maraqlı olmaq, diqqətəlayiq olmaq

جالباسی [calebasi] *bax* جارختی

جالیز [caliz] bostan, xır

جالیزبان [calizban] bostançı; bostan gözətçisi

جالیزکار [calizkar] bostançı, xırçı

جالیزکاری [calizkari] bostançılıq, xırçılıq

جالیزی [calizi] *bax* جالیز; ~محصولات bostan məhsulları

جام [cam] I cam, piyalə; badə, qədəh

جام [cam] II şüşə; numerativ söz (*şüşə üçün*); ~ انداختن şüşə salmaq

جامد [camed] 1) bərk, möhkəm; ~ جسم bərk cisim; 2) sərt, qatı; donmuş; 3) *qram.* sadə; ~ کلمات sadə sözlər; 4) cansız (*əşya*)

جامع [came'] 1) hərtərəfli; tam, kamil, mükəmməl; ~ شرح mükəmməl təsvir (*şərh*); 2) *c.* جوامع [cəvame'] böyük məscid

جامعه [came'e] 1) cəmiyyət, toplum; 2) icma

جامعه شناس [came'eşenas] sosioloq

جامعه شناسی [came'eşenasi] sosiologiya

جامه [came] geyim, paltar; ~ خواب yataq paltarı; yataq dəsti; ◊ ~ عمل پوشیدن (حیات) həyata keçmək, yerinə yetirilmək; ~ به دندان گرفتن dabanına tüpürmək, qaçmaq; ~ در نیل زدن qara paltar (*matəm paltarı*) geymək

جامه خانه [camexane] paltar asılan yer, qarderob (*hamamda*)

جامه دان [camedan] 1) çamadan; 2) paltar şkafı

جامه دار [camedar] paltarsaxlayan, qarderobçu

جامه شور [cameşur] *bax* جامه شوی

جامه شوری [cameşuri] *bax* جامه شویی

جامه شوی [cameşuy] paltaryuyan

جامه شویی [cameşuyi] paltar yuyulan yer, camaşırxana

جان [can] 1) can, ruh; ~ و جسم bədən və ruh; 2) *mənəvi.* məğz; ~ کلام sözün məğzi (*canı*); 3) əziz (*əzizləmək üçün*); ~ من əzizim; ~ برادر əziz qardaşım; ~ از دل و can dildən, can-başla; ürəkdən; ◊ ~ باختن canını qurban vermək (*fəda etmək*); ~ بخشیدن can vermək (*diriltmək*); ~ به آمدن cana gəlmək; به ~ آوردن cana gətirmək; ~ به سر شدن canbəsər olmaq; ~ به لب رسیدن canı boğazına yığılmaq; ~ دادن can vermək (*ölmək*); ~ در بردن canını qurtarmaq, xilas olmaq; ~ دریک قالب بودن can bir qəlbdə olmaq; ~ کندن a) can vermək; ölüm ayağında olmaq; b) ağır zəhmətə qatlaşmaq; əzab-əziyyət çəkmək

جان آفرین [canafərin] Tanrı, Yaradan

جانان [canan] canan, sevgili, məşuqə, dilbər

جانانه [canane] 1) *bax* جانان; 2) mehribanlıqla, sevə-sevə, canıyanlıqla; 3) *məc.* bərk, güclü; ~ سیلی bərk şillə, yağlı şillə

جانب [caneb] *c.* جوانب [cəvaneb] tərəf; ◊ ~ آن siz; ~ این mən; ~ کسی را گرفتن birinə havadarlıq etmək, birini dəstəkləmək

جانباز [canbaz] 1) canını qurban verən, fədakar; 2) əlil, şikəst (*İranda islam inqilabı uğrunda və İraqla müharibədə əlil olanlar*)

جانبازی [canbazi] canını qurban vermə, canından keçmə; fədakarlıq

جان بخش [canbəxş] can bağışlayan, ruhlandıran

جانبدار [canebdar] tərəfdar, dəstəkləyən

جانبداری [canebdari] tərəfdarlıq; dəstəkləmə; ~ کردن tərəfdarlıq etmək, dəstəkləmək

جانب گیر [canebgir] *bax* جانبدار

جانب گیری [canebgiri] *bax* جانبداری

جان پاس [canpas] cangüdən, şəxsi qoruyucu, şəxsi mühafiz

جان پرور [canpərvər] *bax* جان بخش

جان پناه [canpənah] *hərb.* sığınacaq, pənah yeri

جاندار [candar] 1) canlı varlıq; 2) canlı

جان سپار [cansepar] canından keçən, fədakar; sədaqətli

جان سپاری [cansepari] canından keçmə, fədakarlıq

جان ستان [cansetan] canalan, canalıcı, öldürücü

جان سخت [cansəxt] dözümlü, qüvvətli, möhkəm

جان سختی [cansəxti] dözüm, dözümlülük, möhkəmlik

جان سوز [cansuz] ürəkdağlayan, ürəkyaxıcı, qəmli, kədərli; ~ ناله ürəkyaxıcı nalə

جانشین [canəşin] 1) varis, xələf; vəliəhd; 2) müavin; 3) əvəz edən

جانشینی [canəşini] varislik, vərəsəlik; vəliəhdlik

جانفرسا [canfərsa] əzabverici; yorucu, üzücü; ~ زخم əzabverici yara; ~ کار yorucu iş

جان فروز [canforuz] *bax* جان فزا

جان فزا [canfəza] sevindirən, sevindirici, şadlandıran

جانفشان [canfeşan] fədakar, canından keçmə

جانفشانی [canfeşani] canfəşanlıq, fədakarlıq, canından keçmə

جانکاه [cankah] *bax* جانفرسا

جانکن [cankən] 1) ağır, çətin; əziyyətli (*iş*); 2) can verən, canla çəkişən, ölüm ayağında olan

جان گداز [canqodaz] *bax* جان سوز

جان گسل [canqosəl] ölümcül, öldürücü; fəlakətli

جان نثار [cannesar] *bax* جانباز **1)**

جان نثاری [cannesari] *bax* جانبازی

جانماز [canəmaz] canamaz, səccadə

جانور [canvər // canevər // canəvər] 1) canlı; 2) heyvan; اهلی ~ (خانگی) ev heyvanı; وحشی ~ vəhşi heyvan

جانوران [canevəran // canəvəran // canəvəran] *t.* جانور **2)**; آبزی ~ suda yaşayan heyvanlar; خاکزی ~ quruda yaşayan heyvanlar; درنده ~ yırtıcı heyvanlar

جانورشناس [canevərşenas] zooloq

جانورشناسی [canevərşenasi] zoologiya

جانی [cani] I səmimi, sədaqətli, vəfalı; ~ دوست səmimi dost

جانی [cani] II cani, cinayətkar, qatil; ~ دشمن qatı düşmən

جاودان [cavedan] əbədi, daimi, həmişə; ~ باش əbədi yaşa!

جاودانه [cavedane] əbədi, əbədi olaraq, daima, həmişəlik; ~ دوستی əbədi dostluq

جاودانی [cavedani] həmişəlik, əbədilik, daima

جاوید [cavid] *bax* جاودان; ~ باد! yaşasın!

جاویدان [cavidan] *bax* جاودان

جاویدانه [cavidane] *bax* جاودانه

جاویدانی [cavidani] *bax* جاودانی

جاویدن [cavidən] *bax* جاویدن

جاه [cah] 1) yüksək rütbə; yüksək vəzifə; 2) əzəmət, dəbdəbə, təntənə; ~ و جلال cah-calal

جاه پرست [cahpərəst] *bax* جاه طلب

جاهد [cahed] çalışan, cəhd edən, səy göstərən

جاه طلب [cahtələb] vəzifəpərəst, mənsəbpərəst

جاه طلبی [cahtələbi] vəzifəpərstlik

جاهل [cahel] *c.* جهال [cohhal] // جهلا [cohəla] cahil, qanmaz, avam, nadan, qanacaqsız, mərifətsiz

جاهلی [caheli] cahillik, avamlıq, nadanlıq

جاهلیت [caheliyyət] cahillik; دوره ~ cahiliyyə dövrü (*ərəblərin islamdan qabaqkı tarixi dövrü*)

جای [cay] *bax* جا

جایز [cayez] icazə verilmiş, rəva görülmüş, icazəsi olan; داشتن ~ (دانستن، شمردن، کردن) icazə vermək; rəva bilmək; شدن ~ icazə verilmək, rəva görülmək

جایزه [cayeze] *c.* جوایز [cəvayez] mükafat, دادن ~ mükafat vermək; گرفتن ~ mükafat almaq

جایگاه [cayqah] 1) yer, məkan; yaşayış yeri, ev, bina; 2) tribuna

جایگیر [caygir] 1) yerləşən, yer tutan; məskunlaşan, yaşayan; 2) təsir bağışlayan; شدن ~ a) yerləşmək; b) təsir bağışlamaq

جایگزین [cayqozin] yerini tutan, əvəz edən; کسی شدن ~ birinin yerini tutmaq, birini əvəz etmək

جبار [cəbbar] qəddar, zalım, zülmkar

جبارانه [cəbbarane] qəddarlıqla, zülmkarlıqla

جبال [cebal] *t.* جبل

جبان [cəban] qorxaq, ürəksiz, cəsarətsiz

جبانت [cəbanət] *bax* جبن

جبر [cəbr] I zor, məcburiyyət

جبر [cəbr] II cəbr (*elm*)

جبرا [cəbrən] zorla, güclə

جبران [cobran] əvəz verilmə, əvəzini vermə, kompensasiya; غیر ~ قابل əvəzi verilməyən, kompensasiya edilməyən; شدن ~ əvəzi verilmək; کردن ~ əvəzini vermək

جبران پذیر [cobranpəzir] düzəldilə bilən; əvəz oluna bilən

جبروت [cəbərut] 1) qüdrət, əzəmət, böyüklük; 2) İlahi qüdrət, İlahi əzəmət

جبل [cəbəl] *c.* جبال [cebal] dağ

جبلت [cebellət] təbiət, xasiyyət, zat, batin

جبلی [cebelli] təbii, fitri, anadangəlmə; ~ بیماری anadangəlmə xəstəlik

جبن [cobn] qorxu, qorxaqlıq, ürəksizlik

جبون [cəbun] *bax* جبان

جبهه [cəbhe] 1) cəbhə, müharibə meydanı; 2) ön tərəf; 3) alın, üz, sifət

جبین [cəbin] alın; ◊ ~ درهم کشیدن qaşqabaq sallamaq

جت [cet] reaktiv təyyarə; جنگنده ~ qırıcı reaktiv təyyarə

جثه [cosse] cüssə, bədən; fiqura

جثه دار [cossedar] cüssəli, bədənli, gövdəli

جحیم [cəhim] od, cəhənnəm odu

جد [cəd(d)] *c.* اجداد [əcdad] cədd, baba, ata-baba; ~ اندر ~ ata-babadan, nəsilliklə; بزرگ ~ ulu baba, əcdad

جد [ced(d)] çalışma, səy; ~ و جهد çalışıb-çabalama, çox çalışma; جد و جد و جهد کردن // جهد بکار بردن çox çalışmaq

جدا [ceddən] ciddi şəkildə, ciddiyyətlə

جدا [coda] 1) ayrı; 2) ayrılmış, bölünmüş, parçalanmış; شدن ~ ayrılmaq, bölünmək, parçalanmaq; کردن ~ ayırmaq, bölmək, parçalamaq

جدا جدا [codacoda] ayrı-ayrı

جدار [cedar] *c.* جدر [codor] yüngül divar, arakəsmə

جدا سازی [codasazi] ayırma, birbirindən ayırma; زمینها ~ torpaqları ayırma

جدا گانه [codaqane] ayrı-ayrılıqda; زندگی کردن ~ ayrı yaşamaq

جدال [cedal] 1) mübahisə, çəkişmə; ədavət, düşmənçilik; 2) dava, vuruşma; کردن ~ a) mübahisə etmək; b) dalaşmaq, vuruşmaq

جدانشدنی [codanəşodəni] ayrılmaz, bölünməz

جدایی [codayi] ayrılıq, ayrılma, hicran; (انداختن) افکندن ~ ayırmaq, ayrılıq salmaq

جدایی خواه [codayixah] separatist, separatçı; ~ نیروهای separatist qüvvələr

جدایی خواهی [codayixahi] separatizm, separatçılıq

جدایی ناپذیر [codayinapəzir] *bax* جدا نشدنی

جدل [cədəl] *bax* جدال

جدول [cədvəl] *c.* جداول [cədavel] cədvəl, qrafik, siyahı

جده [cədde] nənə

جدی [cədy] dağ keçisi; ~ برج Oğlaq bürcü (*22 XII-20.I*)

جدی [ceddi] ciddi, mühüm, diqqətəlayiq

جدیت [ceddiyyət] 1) ciddiyyət, ciddilik; 2) çalışma, fəallıq; 3) israr etmə

جدید [cədid] yeni, təzə, müasir; مد ~ yeni dəb

جدیدا [cədidən] 1) təzədən, yenidən, bir daha; 2) təzəliklə, təzəlikcə, bu yaxınlarda, son vaxtlar

جذاب [cəzzab] *bax* جاذب

جذابیت [cəzzabiyyət] cazibə, cəzb etmə; cəlb etmə; məlahət, cazibədarlıq

جذام [cozam] *tib.* cüzam (*xəstəlik*)

جذامی [cozami] cüzamlı, cüzam xəstəliyinə tutulmuş

جذب [cəzb] cəzb etmə, cəlb etmə; شدن ~ cəzb olunmaq; cəlb olunmaq; کردن ~ cəzb etmək; cəlb etmək; ◊قلوب کردن ~ ürəkləri ovlamaq; hamının diqqətini cəlb etmək

جذبه [cəzbe] 1) şövq, meyil; həvəs, maraq; 2) *bax* جذبه [cəzəbe]

جذبه [cəzəbe] 1) təsir, nüfuz; 2) ciddilik, sərtlik; گرفتن ~ özünü zəhmli göstərmək

جذر [cəzr] *c.* جذور [cozur] *riyaz.* kök; ~ استخراج kök alma (*hasil etmə*); (استخراج کردن) گرفتن ~ عددی را kök almaq

جر [cer] 1) çat, çatlaq (*torpaqda*); 2) deşik, yarıq; خوردن ~ cırılmaq (*kağız, parça*); دادن ~ cırmaq (*kağızı, parçanı*)

جرأت [cor'ət] cürət, cəsarət, igidlik, şücaət; داشتن ~ cürətli olmaq; کردن ~ cürət etmək

جراح [cərrah] cərrah

جراحت [cərahət] yara, xora; کردن ~ irinləmək (*yara*)

جراحت آلود [cərahətalud] irinli, irin verən

جراحت دیده [cərahətdide] yaralı, yaralanmış

جراحی [cərrahi] cərrahlıq, cərrahiyyə; اتاق ~ cərrahiyyə otağı; عمل ~ cərrahiyyə əməliyyatı; پلاستیک ~ (ترمیمی) plastik cərrahiyyə

جرب [cərəb] *tib.* qoturluq

جربز [corboz] *bax* گربز

جربزه [corboze] 1) zirəklik, çevikliik (*hiləgərlikdə*); 2) bacarıq, qabiliyyət, istedad; 3) ləyaqət

جر ثقیل [cərresəğil] qaldırıcı kran

جرز [cerz] aralıq (*divarın qapı ilə pəncərə arasındakı hissəsi*); divar; sütun (*körpüdə*)

جرزن [cerzən] cığal (*oyunda*)

جرزنی [cerzəni] cığallıq, cığallıq etmə

جرس [cərəs] *c.* اجراس [əcras] zınqırov, zəng

جرعه [cor'e] qurtum; ای آب ~ bir qurtum su

جرغول [cərğul] *bot.* bağayarpağı

جرغون [cərğun] *bax* جرغول

جرقه [cereğğe // cərəğğe] qığılcım; زدن ~ qığılcım saçmaq; شدن ~ a) partlamaq; b) özündən çıxmaq, əsəbiləşmək

جرگه [cərge] 1) cəmiyyət, toplum, kütlə; 2) cərgə, sıra, düzüm; کردن ~ a) toplaşmaq, bir yerə yığılmaq; b) sıraya düzülmək

جرم [cerm] I 1) çöküntü, torta, xılt; 2) ərp; گرفتن ~ a) ərp bağlamaq, ərplənmək; b) xılt bağlamaq

جرم [cerm] II *c.* اجرام [əcram] cisim; آفتاب ~ günəş, günəş dairəsi; ثابت ~ *fiz.* sabit cisim

جرم [corm] *c.* جروم [corum] // اجرام [əcram] 1) günah, suç, təqsir; cinayət; 2) *bax* جریمه; کردن ~ günah işlətmək; cinayət törətmək

جرمشناس [cormşenas] kriminalist

جرمشناسی [cormşenasi] kriminalistika

جرنگ [cerəng] cingilti; کردن ~ cingildəmək

جروبحث [cərrobəhs] mübahisə; sözləşmə, çəkişmə

جری [cəri] 1) cürətli, cəsarətli; igid, şücaətli; 2) kobud, qaba; tərbiyəsiz, sırtıq; شدن ~ cürətli olmaq, cəsarətli olmaq; کردن ~ a) cürət vermək; b) hirsləndirmək

جریان [cərəyan] 1) axma, axın; 2) cərəyan; hərəkət; istiqamət (*elmdə, siyasətdə*); 3) *mal.* dövriyyə; سرمایه ~ kapital dövriyyəsi; 4) : برق ~ elektrik cərəyanı; (داشتن (یافتن ~ a) axıb getmək; b) davam etmək; xəbəri olmaq, məlumatı olmaq; در ~ بودن a) xəbərdar olmaq; b) *bax* داشتن ~

جریانات [cərəyanat] *t.* جریان hadisələr, əhvalatlar

جریب [cərib] torpağın, yerin ölçü vahidi (*hektar*)

جریحه [cərihe] *c.* جرایح [cərayeh] yara

جریحه دار [cərihedar] 1) yaralı; 2) əzab çəkən, əziyyət çəkən; ساختن ~ (کردن) a) yaralamaq; b) əzab vermək

جریده [cəride] *c.* جراید [cərayed] qəzet; اعمال ~ *din.* əməllər kitabı

جریمه [cərime] *c.* جرایم [cərayem] 1) cərimə, cəza; 2) *bax* جرم [corm] 1); دادن ~ cərimə ödəmək, cərimə vermək; شدن ~ cərimələnmək; cərimə edilmək; (گرفتن) کردن ~ cərimələmək

جز [coz] başqa, savayı; من ~ məndən başqa

جزء [coz'] *bax* جزو

جزا [cəza] 1) cəza; ~ روز qiyamət (*məhşər*) günü; 2) cərimə; ~ نقدی pul cərimə; 3) mükafat; ~ دادن cəza vermək; به ~ رسیدن cəzalanmaq, cəzasına çatmaq; یافتن ~ به ~ رسیدن *bax*

جزالت [cəzalət] 1) böyüklük, əzəmət; əhəmiyyət; 2) möhkəmlik, qətiyyət; 3) bolluq, firavanlıq; təsirlilik, təsiredicilik (*sözün*); سخن ~ sözün təsirliliyi

جزایر [cəzayer] *t.* جزیره

جزایی [cəzayi] 1) cinayət, cinayət işi; قانون ~ cinayət məcəlləsi; 2) cəza, cəzalandırıcı

جزجز [cezcez] cızhacız; **سوختن ~** cızhacız yanmaq

جزر [cəzr] suyun azalması, suyun səviyyəsinin aşağı düşməsi (*dənizdə*); **ومد ~** suyun azalması və çoxalması

جزع [cəzə'] 1) qəm, qüssə; 2) nalə, zarıltı; **کردن ~** a) qəmlənmək, kədərlənmək; b) nalə etmək, zarıldamaq

جزع [cəz'] *miner.* oniks (*damarlı əqiq*)

جزغال [cezğal] *bax* **جزغاله**

جزغاله [cezğale] cızdaq; **شدن ~** yanıb cızdağı çıxmaq

جزل [cəzl] *bax* **جزیل**

جزم [cəzm] 1) kəsmə, kəsilmə, parçalanma; ayrılma 2) möhkəmlik, sabitlik, əzmkarlıq, qətiyyət

جزو [cozv] *c.* **اجزاء** [əcza] 1) hissə, parça; 2) bölmə, fəsil (*kitabda*)

جزوه [cozve] *c.* **جزوات** [cozəvat] kitabça; kitabın bir hissəsi

جزوه بندی [cozvebəndi] hissələrə bölmə (*kitabı*); **کردن ~** hissələrə bölmək

جزوی [cozvi] *bax* **جزئی**

جزویات [cozviyyat] *bax* **جزئیات**

جزیره [cəzire] *c.* **جزایر** [cəzayer] ada; **~ شبه** yarımada

جزیل [cəzil] 1) böyük; 2) möhkəm; 3) bol, firavan

جزئی [coz'i] cüzi, azacıq, az miqdarda

جزئیات [coz'iyyat] cüzilik, cüzi şeylər; incəliklər

جسارت [cəsarət // cesarət] cəsarət, igidlik, şücaət

جست [cəst // cest] sıçrayış, sıçrama; tullanma, hoppanma; **زدن ~** *bax* **جستن** [cəstən]

جستار [costar] analitik məqalə

جستجو [costocu // costecu] axtarış, axtarma; **کردن ~** axtarmaq

جستن [cəstən // cestən] *k.* **جه** [cəh // ceh] atlanmaq, tullanmaq, hoppanmaq; **~ از خواب** yuxudan qəfil oyanmaq

جستن [costən] *k.* **(ی) جو** [cu(y)] 1) axtarmaq, aramaq, soruşmaq; 2) tapmaq

جست و خیز [cəstoxiz] atılıb-düşmə; **کردن ~** atılıb-düşmək

جسته جسته [cəstəceste] az-az; yavaş-yavaş, tədricən

جسد [cəsəd] *c.* **اجساد** [əcsad] cəsəd, meyit

جسم [cesm] *c.* **اجسام** [əcsam] cisim; **جامد ~** bərk cisim; **مایع ~** maye, duru maddə

جسما [cesmən] cismən, bədəncə

جسمانی [cesmani] 1) cismani, cismə aid; fiziki; **~ کار** fiziki iş; 2) maddi; **~ عالم** maddi aləm; 3) dünyəvi

جسمی [cesmi] *bax* **جسمانی**

جسور [cəsur] cəsur, cəsarətli, qorxmaz, igid; **شدن ~** cəsarətli olmaq, igid olmaq

جسورانه [cəsurane] 1) igidliklə, cəsarətlə; 2) *bax* **جسور**

جسیم [cəsim] cüsseli, bədənli, boylu-buxunlu; gövdəli, yekə

جشن [cəşn] bayram, şənlik, təntənə; qonaqlıq; **تولد ~** ad (*doğum*) günü şənliyi; **سالگرد ~** yubiley; **~ گرفتن** bayram etmək

جشنواره [cəşnvare] festival

جعبه [cə'be] qutu; qab

جعبه آیینه [cə'beayine] vitrin

جعبه رنگ [cə'berəng] 1) boya (*rəng*) qutusu; 2) rəsm əşyaları qutusu (*kiçik çamadan*)

جعد [cə'd] qıvrım (*saç*)

جعفری [cə'fəri] *bot.* cəfəri

جعل [cə'l] saxtalaşdırma, saxta şey düzəltmə; **اسناد ~** sənədlərin saxtalaşdırılması; **کردن ~** saxtalaşdırmaq, saxta şey düzəltmək

جعلی [cə'li] saxta; qəlp; **~ سند** saxta sənəd

جغد [coğd] bayquş; **~ لانه** bayquş yuvası

جغرافی [coğrafi] coğrafiya; **~ اقتصادی** iqtisadi coğrafiya; **~ طبیعی** fiziki coğrafiya

جغرافیادان [coğrafiyadan] *bax* **جغرافیدان**

جغرافیدان [coğrafidan] coğrafiyaçı, coğrafiyaşünas

جغله [ceğele] *dan.* sısqa, cılız, zəif (*uşaq*); cırtdan; balacaboy

جغه [ceğğe] *bax* **جقه**

جفا [cəfa] 1) cəfa, əzab, əziyyət; 2) zülm, zülmkarlıq; 3) bivəfalıq; vəfasızlıq; **دادن (کردن) ~** a) zülm etmək; b) vəfasız olmaq, vəfasızlıq etmək; **دیدن (کشیدن) ~** a) cəfa çəkmək, əzab çəkmək; b) zülmə məruz qalmaq

جفاپیشه [cəfapişe] zalım, zülmkar, qəddar, amansız

جفاکار [cəfakar] *bax* **جفاپیشه**

جفاکاری [cəfakari] zülmkarlıq, qəddarlıq, amansızlıq

جفاکش [cəfakeş] cəfakeş, məzlum

جفاکشی [cəfakeşi] cəfakeşlik, əzab çəkmə

جفت [coft] 1) cüt, qoşa; **یک ~** bir cüt corab; 2) tay, yoldaş; **این ~ تو نیست** bu, sənin tayın deyil; **کردن ~** cütləşdirmək

جفت جفت [coftcoft] cüt-cüt, qoşa-qoşa; **آمدن ~** cüt-cüt gəlmək

جفتک [coftək] təpik, şıllaq; **زدن ~** təpik atmaq

جفتک پرانی [coftəkpərani] təpik atma, şıllaq atma

جفتگیری [coftgiri] cütləşmə (*heyvanlar*); cütləşdirmə (*heyvanları*); **کردن ~** cütləşdirmək (*heyvanları*); **کردن باهم ~** cütləşmək (*heyvanlar*)

جفنگ [cəfəng] cəfəng, boş söz, mənasız söz; **گفتن ~** cəfəng danışmaq, mənasız danışmaq

جفنگ گو [cəfəngqu] cəfəng danışan, mənasız danışan

جفنگ گویی [cəfəngquyi] boş danışma, mənasız danışma

جفه [ceğğe] cıqqa, tac

جک [cək] domkrat

جگر [cegər] ciyər; **سیاه ~** qara ciyər; **سفید ~** ağ ciyər; ◊ **برای چیزی ~ لک زدن** ürəyi istəmək, çox arzusunda olmaq

جگر آور [cegəravər] ürəkli, qorxmaz, igid, cəsarətli

جگر بند [cegərbənd] iç, içalat (*ürək, ağ ciyər, qara ciyər*)

جگرگوشه [cegərqoşe] *bax* **جگر پاره**

جگر تافته [cegərtafte] 1) əzab çəkən, əziyyət çəkən; 2) aşiq, vurğun; 3) xəstə

جگر تشنه [cegərteşne] 1) təşnə, çox susuz, çox susamış; 2) ürəkdən arzulayan, həsrət çəkən

جگر خراش [cegərxəraş] ürək dağlayan, əzab verən

جگر خور [cegərxor] 1) qəmli, qüssəli, kədərli; 2) ürəkağrıdan, əziyyətverən (*adam*)

جگر دار [cegərdar] *bax* جگر آور

جگر سوز [cegərsuz] *bax* جگر خراش

جگرگوشه [cegərquşe] 1) ciyərin bir hissəsi (*parçası*); 2) ciyərparə, çox əziz, candan əziz (*uşaq*)

جگری [cegəri] ciyər rəngi, tündqırmızı

جگن [cəgən] *bot.* cil, qumotu

جل [col] 1) çul; 2) *məc.* köhnə paltar, geyilmiş paltar; ~ خودرا از آب بیرون کشیدن çulunu sudan çıxarmaq

جلا [cəla] I 1) parıltı, işıltı, şölə; 2) cilalama, hamarlama; ~ روغن lak; دادن ~ cilalamaq, hamarlamaq; parıldatmaq; داشتن ~ parıldamaq

جلا [cəla'] II tərk etmə, getmə, müəssisə, vətəndən tərk etmə; وطن کردن ~ vətəndən ayrılma; vətəni tərk etmək

جلاب [cəllab] *bax* گلاب

جلاد [cəllad] 1) cəllad; 2) zülmkar, qəddar; ◊ فلک ~ Mərrix (*Mars*);

جلادار [cəladar] cilalı, parıltılı, parlaq

جلادت [cəladət] 1) güclülük, çeviklik, zirəklik; 2) igidlik, cəsarət

جلادی [cəlladi] 1) cəlladlıq; 2) zülmkarlıq, qəddarlıq

جلاکار [cəlakar] *bax* جلاگر

جلاگر [cəlagər] cilalayıcı, pardaxlayıcı

جلال [cəlal] təntənə, əzəmət, cahcalal

جلالت [cəlalət] *bax* جلال

جلب [cələb] 1) yalançı, kələkbaz; 2) fahişə, pozğun qadın

جلب [cəlb] cəlb, cəlb etmə, cazibə; شدن ~ cəlb olunmaq; کردن ~ cəlb etmək; کردن (دقت) توجه ~ diqqəti cəlb etmək

جلتقه [celetğe] *bax* جلیقه

جلد [cəld] cəld, zirək, çevik

جلد [celd] *c.* اجلاد [əclad] cild; یک ~ کتاب bir cild kitab

جلدی [cəldi] cəldlik, zirəklik, çeviklik

جلدی [celdi] *tib.* dəri; بیماریهای ~ dəri xəstəlikləri

جلدساز [celdsaz] cildçi

جلزولز [celez(z)ovelez] *bax* جزجز

جلسه [cələse // cəlese] iclas, yığıncaq; علنی ~ açıq iclas; عمومی ~ ümumi iclas; داشتن ~ iclasda olmaq (*iştirak etmək*); کردن ~ iclas keçirmək

جلف [celf] *c.* اجلاف [əclaf] yüngülxasiyyət, yelbeyin, bambılı

جلگه [colge] vadi, düzənlik

جلو [celou // colou] qabaq, ön, qarşı tərəf; آمدن ~ irəli gəlmək, qabağa gəlmək; افتادن (زدن) ~ ötmək, qabağa keçmək; انداختن ~ a) qabağına qatmaq (*qoyunu və s.*); b) irəli aparmaq (*işi və s.*); ◊ خود را ~ گرفتن özünü saxlaya bilmək

جلودار [celoudar] irəlidə gedən, öndə gedən, avanqard

جلوس [colus] oturma; taxta oturma, hökmdarlığa başlama; کردن ~ taxta oturmaq, hökmdarlığa başlamaq

جلو گیری [celougiri] 1) qarşısını alma, tutub saxlama; 2) mane olma; 3) cilovlama; xəbərdarlıq etmə; شدن ~ a) qarşısı alınmaq; b) xəbərdar olunmaq; کردن ~ a) qarşısını almaq, tutub saxlamaq; b) mane olmaq; cilovlamaq; c) xəbərdarlıq etmək

جلوه [celve] 1) cilvələnmə, gözəl biçimdə görünmə; 2) parıltı; gözəllik; دادن ~ a) özünü göstərmək; nazlanmaq; b) bəzəmək; داشتن ~ diqqəti cəlb etmək, özünə cəlb etmək; کردن ~ a) cilvələnmək, gözəl görünmək; b) nazlanmaq; c) parıldamaq

جلوه گر [celvegər] 1) cilvələnən; şux görünən; nazlanan; 2) parıldayan

جلوه گری [celvegəri] 1) cilvələnmə; şux görünmə; nazlanma; 2) parıldama; کردن ~ *bax* جلوه کردن (جلوه *sözündə*)

جلی [cəli] aydın, aşkar; خط ~ oxunaqlı xətt

جلیتقه [celitğe] *bax* جلیقه

جلیقه [celiğe] jilet; ضد گلوله ~ zirehli (*gülləbatmaz*) jilet; نجات ~ nicat jileti

جلیل [cəlil] 1) böyük; məşhur; 2) hörmətli, möhtərəm

جماد [cəmad] 1) cansız əşya; 2) bərk cisim; 3) mineral, qeyri-üzvi maddə

جماع [cema'] cinsi əlaqə, cinsi əlaqədə olma; کردن ~ cinsi əlaqədə olmaq

جماعت [cəmaət] camaat, kütlə; icma

جمال [cəmal] gözəllik, qəşənglik

جماهیر [cəmahir] *t.* جمهوری

جمجمه [comcome] kəllə, qafa tası

جمع [cəm'] 1) cəm, toplam, yekun; 2) toplu; qrup, dəstə; 3) *riyaz.* cəm, toplama; شدن (آمدن) ~ a) bir yerə yığışmaq, toplaşmaq; b) yığılmaq, toplanmaq; کردن (آوردن) ~ cəmləmək; yekunlaşdırmaq

جمعاً [cəm'ən] cəmisi, toplam; üst-üstə

جمع آوری [cəm'əvəri] toplama; bir yerə yığma; محصول ~ məhsulun yığımı; شدن ~ toplanmaq; yığılmaq; کردن ~ toplamaq, yığmaq

جمع بندی [cəm'bəndi] cəmləmə, yekunlaşdırma; کردن ~ cəmləmək, yekunlasdırmaq, yekun vurmaq

جمع و جور [cəm'ocur] yır-yığış, yır-yığış etmə; səliqə-sahmana salma; کردن ~ yır-yığış etmək, səliqə-sahmana salmaq

جمعه [com'e] cümə, روز ~ cümə günü

جمعی [cəm'i] kollektiv, müştərək, bir yerdə, birgə

جمعیت [cəm'iyyət] 1) əhali; 2) kollektiv; 3) kütlə

جملگی [comlegi] hamı, hamısı; به ~ hamılıqla

جمله [comələ] *c.* جملات [comələt] 1) *qram.* cümlə; 2) hamı; کارگران ~ fəhlələrin hamısı; ~ از ان o cümlədən; ساختن ~ cümlə qurmaq

جمله بندی [comlebəndi] cümlə qurma; کردن ~ *bax* جمله ساختن (جمله *sözündə*)

جمله پردازی [comlepərdazi] cümləpərdazlıq, ibarəpərdazlıq

جمله سازی [comlesazi] *bax* جمله بندی

جمود [comud] 1) donma, buz bağlama; 2) durğunluq; süstlük; فکری ~ ağılın süstlüyü

جمهوری [comhuri] *c.* جماهیر [cəmahir] respublika; اسلامی ~ islam respublikası; خود مختار ~ muxtar respublika; فدرال ~ federativ respublika

جمهوری خواه [comhurixah] respublikaçı, respublika quruluşu tərəfdarı

جمهوری طلب [comhuritələb] *bax* جمهوری خواه

جمیع [cəmi'] hamı, bütün; ~ آنها onların hamısı; مردم ~ bütün camaat

جمیعاً [cəm'iən] hamılıqla, hamılıqca

جمیل [cəmil] 1) göyçək, qəşəng; 2) yaxşı, əla

جمیله [cəmile] *bax* جمیل

جن [cen(n)] *c.* اجنه [əcenne] // جان [can(n)] cin

جناب [cənab // cenab] cənab; ağa

جنابت [cənabət] murdarlanma, qüsl (*yuyunma*) tələb olunan hal; ~ غسل dini mərasim qüslü

جناح [cenah] cinah, tərəf, yan, qol

جنازه [cenaze] cənazə, meyit, kəfənə tutulmuş ölü

جناس [cenas] cinas, kalambur

جناغ [cenağ] *anat.* cınaq, cınaq sümüyü; döş sümüyü; ◊ ~ شکستن "yadımda" sözünü deməklə mərcə gəlmək (*toyuğun cınaq sümüyü ilə*)

جنان [cenan] *t.* جنت

جنایت [cenayət] cinayət; // ~ کردن ~ مرتکب شدن cinayət törətmək, cinayət etmək

جنایت آمیز [cenayətamiz] cinayət, cinayətli, kriminal

جنایت پیشه [cenayətpişe] *bax* جنایت کار

جنایت کار [cenayətkar] cinayətkar

جنایت کارانه [cenayətkarane] cinayətkarcasına, cinayətkarlıqla

جنایت کاری [cenayətkari] cinayətkarlıq

جنایی [cenayi] 1) cinayət; ~ دادگاه cinayət məhkəməsi; 2) detektiv; ~ رمان detektiv roman

جنب [cəmb] tərəf, yan; ~ خانه evin yanında; ~ در nəzdində

جنب [conob] murdarlanmış (*cinsi əlaqəyə görə*); qüslə ehtiyacı olan şəxs

جنبان [comban] tərpənən, hərəkət edən; yırğalanan, yellənən

جنباندن [combandən] 1) tərpətmək; 2) yırğalamaq, yelləmək

جنبانیدن [combanidən] *bax* جنباندن

جنبش [combeş] 1) hərəkət, hərəkat (*ictimai*); ~ کارگری fəhlə hərəkatı; 2) hərəkət, tərpənmə, tərpəniş; 3) titrəmə, titrəyiş

جنب و جوش [combocuş] 1) həyəcan; 2) canlanma; 3) səs-küy; به ~ آمدن a) həyəcanlanmaq; b) canlanmaq; به ~ آوردن a) həyəcanlandırmaq; b) canlandırmaq

جنبه [cəmbe] xarakter, xasiyyət, təbiət; səciyyə, keyfiyyət; ~ سیاسی siyasi xarakter, siyasi səciyyə

جنبیدن [combidən] 1) tərpənmək, hərəkətə gəlmək; 2) yırğalanmaq, yellənmək

جنت [cənnət] *c.* جنان [cenan] cənnət, behişt; cənnət bağı

جنتلمن [centelmən] centlmen

جنت مکان [cənnətməkan] cənnətməkan, behiştlik (*vəfat etmiş adam haqqında*)

جنجال [cəncal] cəncəl, qalmaqal, hay-küy, dava-dalaş; ~ کردن qalmaqal salmaq, dalaşmaq; ~ برپا ~ راه انداختن // کردن cəncəl yaratmaq

جنجالی [cəncali] 1) cəncəlli, qalmaqallı (*iş, hadisə*); 2) davakar, qalmaqalçı, cəncəlçi

جنس [cens] 1) cins, növ, çeşid; ~ اعلی əla növ; ~ لطیف *məc.* qadın; 2) *c.* اجناس [əcnas] mal; 3) təbiət, keyfiyyət

جنسی [censi] 1) cins, cinsə aid; 2) cinsi, şəhvani, seksual; ~ جاذبه şəhvani cazibə; ~ رابطه cinsi əlaqə

جنسیت [censiyyət] 1) cinsiyyət, eyni cinsə mənsub olma; 2) cinsi (*şəhvani*) əlamət

جنگ [cəng] müharibə, dava, hərb; döyüş, vuruş; ~ جهانی dünya müharibəsi; ~ چریکی partizan müharibəsi; ~ سرد *məc.* soyuq müharibə; ~ صلیبی səlib yürüşü; ~ کردن müharibə etmək; به ~ کشیدن müharibəyə cəlb etmək;

جنگ [cong] *ədəb.* cüng (*şeir toplusu*)

جنگ آزما [cəngazma] *bax* جنگ آزموده

جنگ آزموده [cəngazmude] 1) müharibədə təcrübəsi olan; 2) veteran

جنگ افروز [cəngəfruz] müharibə qızışdıran

جنگ افزار [cəngəfzar] silah, sursat; ~ سبک yüngül silah; ~ سنگین ağır silah

جنگاور [cəngavər] cəngavər; cəsarətli; qorxmaz

جنگ آوری [cəngavəri] cəngavərlik; qoxmazlıq, cəsarət

جنگجو [cəngcu] *bax* 1) جنگاور; 2) dalaşqan

جنگجویی [cəngcuyi] 1) *bax* جنگاوری; 2) dalaşqanlıq

جنگدیده [cəngdide] *bax* جنگ آزموده

جنگزده [cəngzəde] müharibədən ziyan çəkmiş; ~ مناطق müharibədən ziyan çəkmiş bölgə

جنگ طلب [cəngtələb] müharibə istəyən, müharibə qızışdıran, militarist, təcavüzkar

جنگل [cəngəl] meşə; ~ انبوه sıx meşə; ◊ ~ مولا hərc-mərclik, qarışıqlıq, dərəbəylik, özbaşınalıq

جنگلبان [cəngəlban] meşəbəyi, meşə gözətçisi

جنگل دار [cəngəldar] 1) meşəçi; 2) *bax* جنگلبان; 3) meşəlik

جنگل داری [cəngəldari] 1) meşəçilik; 2) *bax* جنگل کاری

جنگل زار [cəngəlzar] meşə olan yer, meşəlik

جنگلستان [cəngəlestan] *bax* جنگل زار

جنگل کاری [cəngəlkari] meşəsalma; ~ کردن meşə salmaq

جنگنده [cəngənde] 1) müharibə edən, döyüşən; 2) qırıcı; ~ (جت) هوا پیمای qırıcı təyyarə

جنگی [cəngi] 1) *bax* جنگ [cəng]; ~ عملیات döyüş əməliyyatı; 2) döyüşkən; ~ سرباز döyüşkən əsgər

جنگیدن [cəngidən] müharibə etmək, vuruşmaq

جنم [cənəm] 1) görkəm; üz, surət, sima; 2) təbiət, xasiyyət, zat (*insanın*)

جنوب [cənub] cənub; ~ شرقی cənub-şərq; ~ غربی cənub-qərb

جنوبی [cənubi] cənubi; ساحل ~ cənub sahili

جنون [conun] cünun, dəlilik, divanəlik; ~ پیدا کردن dəli olmaq, dəlilik tapmaq

جنون آسا [conunasa] dəli kimi

جنون آمیز [conunamizl.dəli.dəlicəsinə

جنون آور [conunavər] dəlilik törədən; ağılsızlıq

جنین [cənin] rüşeym, embrion; ~ سقط *bax* سقط

جو [cəv(v)] atmosfer, hava

جو [cou] arpa; ~ دوسر yulaf; ~ دو خررا نمی تواند تقسیم کند *ata söz.* iki eşşəyin arpasını bölə bilmir

جو [cu] arx; kanal

جواب [cəvab] *c.* اجوبه [əcvəbə] cavab; رد ~ rədd cavabı; ~ دادن (گفتن) a) cavab vermək; b) uyğun gəlmək; ◊ ~ کردن *dan.* a) rədd etmək; b) qovmaq (*işdən*)

جوابده [cəvabdeh] 1) uyğun gələn, cavab verən; 2) cavabdeh, məsul

جوابگو [cəvabqu] *bax* جوابده

جوابگویی [cəvabquyi] 1) uyğunluq; 2) məsuliyyət

جواد [cəvad] səxavətli, əliaçıq, comərd

جوار [cəvar // cevar] qonşuluq, yaxınlıq; ~ در qonşuluqda

جواز [cəvaz] yazılı icazə, lisenziya; ~ عبور keçid üçün icazə kağızı (*sərhəddən*); ~ گمرکی gömrük üçün icazə kağızı; ~ دادن lisenziya vermək; ~ گرفتن lisenziya almaq

جوال [coval // cəval] çuval, böyük kisə

جوالدوز [cəvalduz] 1) çuvalduz, böyük iynə; 2) çuvaltikən (*adam*)

جوامع [cəvame'] *t.* جامعه

جوان [cəvan] *c.* جوانان [cəvanan] cavan, gənc; ~ شدن cavanlaşmaq; ~ ماندن cavan qalmaq

جوانب [cəvaneb] *t.* جانب

جوانمرد [cəvanmərd] 1) alicənab, ürəyiaçıq; səxavətli; 2) igid, cəsur

جوانمردانه [cəvanmərdane] 1) alicənablıqla, ürəyiaçıqlıqla; 2) igidcəsinə, mərdcəsinə

جوانمردی [cəvanmərdi] 1) alicənablıq, ürəyiaçıqlıq; 2) igidlik, cəsurluq

جوانمرگ [cəvanmərg] cavan yaşında ölən, vaxtsız həlak olan; ~ شدن cavan ölmək

جوانه [cəvane] 1) tumurcuq, düymə; ~ درخت ağacın tumurcuğu; 2) *bax* جوان; ~ زن cavan qadın; ~ زدن tumurcuqlamaq

جوانی [cəvani] cavanlıq, gənclik

جواهر [cəvaher] *t.* جوهر 2); cavahirat, qiymətli daş-qaş

جواهرات [cəvaherat] *t.* جوهر 2); *bax* جواهر

جواهرآلات [cəvaheralat] cavahirat malları, zərgərlik malları, daş-qaş məmulatı

جواهرتراش [cəvahertəraş] daş-qaş yonan; zərgər

جواهرساز [cəvahersaz] *bax* جواهرتراش

جواهرسازی [cəvahersazi] daş-qaş yonma, zərgərlik

جواهرفروش [cəvaherforuş] zərgər; cavahirsatan

جوایز [cəvayez] *t.* جایزه

جوجو [cucu] *uş.d.* 1) quş, kiçik quş; 2) cücə; 2) cücü, həşərat

جوجه [cuce] cücə; ~ ماشینی inkubator cücəsi; ~ را آخر پاییز می شمارند *ata.söz.* cücəni payızda sayaralar; ~ در آوردن cücə çıxartmaq

جوجه تیغی [cücəticəliqirkip]

جوجه خروس [cucexorus] 1) cavan xoruz, xoruzcuğaz; 2) *dan.* cavan oğlan

جوجه فکلی [cucefokolu] *dan.* stilyaqa, piyon, modabaz cavan oğlan

جوخه [cuxe] dəstə, qrup, manqa; ~ تیرانداز atıcı manqası

جود [cud] əliaçıqlıq, səxavət, comərdlik

جور [cour] 1) zülm, cəfa; 2) incimə, üzüntü; əzab-əziyyət; ~ دادن (کردن) zülm etmək, əzab vermək; ~ کشیدن zülm çəkmək, əzab çəkmək

جور [cur] 1) növ, çeşid, qisim, cür; ~ حرف نزن این bu cür (*belə*) danışma; 2) bərabər, cüt; ~ این دوکفش باهم نیستند bu iki ayaqqabı cüt deyil; 3) oxşar, uyğun; ~ ما باهم نیستیم biz bir-birimizə uyğun deyilik (*gəlmirik*)

جوراب [curab] corab

جوراب شلواری [curabşəlvari] kolqotka

جوراجور [curacur] cürbəcür, rəngarəng, müxtəlif

جوربجور [curbecur] *bax* جوراجور

جوربور [curbur] qırqovul

جورکش [courkeş // courkəş] əzab çəkən, əzab-əziyyət çəkən

جوز [couz] qoz; ~ هندی hind qozu

جوزا [couza] *astr.* Əkizlər bürcü (*22. V-21.VI*)

جوزاقند [couzağənd] *bax* جوزقند

جوزقند [couzğənd] alana (*içinə şəkərli qoz, badam və s. doldurulmuş quru meyvə – şaftalı*)

جوزینه [couzine] badam və qozla hazırlanmış halva

جوسازی [cəv(v)sazi] şəraitə uyğun, şəraitə uyğunlaşma; ~ کردن şəraitə uyğunlaşdırmaq

جوشیدن [cuşidən] *f.-nin k.z.f.sif.*; 1) qaynama, coşma; ~ آمدن به a) qaynamağa başlamaq; b) coşmaq, əsəbiləşmək; ~ دادن qaynatmaq

جوش [cuş] II səpki, civzə, sızanaq; ~ زدن səpmək (*bədəndə*)

جوشان [cuşan] qaynar (*su*)

جوشاندن [cuşandən] qaynatmaq

جوشانده [cuşande] جوشاندن *f.-nin k.z.f.sif.*; 1) həlim (*dərman bitkilərinin*), mikstura; 2) qaynanmış; ~ آب qaynanmış su

جوشانیدن [cuşanidən] *bax* جوشاندن

جوش بره [cuşbəre] düşbərə

جوشدار [cuşdar] səpkili, civzəli, sızanaqlı; ~ (روی) صورت sızanaqlı sifət

جوشش [cuşeş] 1) qaynama; 2) həyəcan, coşqu; 3) qaynayıb-qarışma; ~ داشتن dostluq etmək, qaynayıb-qarışmaq

جوشک [cuşək] 1) bardaq; 2) qəhvədan

جوشکار [cuşkar] qaynaqçı

جوشکاری [cuşkari] qaynaqçılıq; ~ کردن qaynaq etmək

جوشگر [cuşgər] *bax* جوشکار

جوشن [couşən] dəmir geyim, zirehli paltar

جوش و جلا [cuşocəla] səs-küy, qarışıqlıq, çaxnaşma, qalmaqal

جوش و خروش [cuşoxoruş] 1) *dan.* *bax* جوشش 1); 2) bərk qaynama, paqqıldama; 3) ruh yüksəkliyi, yüksək coşqunluq; ~ به آمدن bərk həyəcanlanmaq, coşmaq

جوشی [cuşi] 1) *dan.* əsəbi, tündməzac; 2) *bax* جوشدار; ~ شدن əsəbiləşmək

جوشیدن [cuşidən] 1) qaynamaq, coşmaq (*su*); 2) dostluq etmək, qaynayıb-qarışmaq

جوشیده [cuşide] جوشیدن *f.-nin k. z.f.sif.* qaynamış, qaynanmış; ~ آب qaynanmış su

جوع [cu'] aclıq

جوف [couf] *c.* اجواف [əcvaf] iç, daxil; ~ پاکت zərfin içi

جوغه [cüğe] *bax* جوخه

جوک [cok] lətifə

جوگندمی [cougəndomi] çal, ağqara (*saç*)

جولا [cula] *bax* جولاه

جولان [coulan // cəvələn] 1) at çapma; 2) cövlan etmə, gəzmə, fırlanma; ~ کردن a) at çapmaq; b) gəzmək, fırlanmaq

جولانگاه [coulanqah] meydan; cıdır meydanı; gəzinti yeri

جولاه [coulah] 1) toxucu; 2) hörümçək

جولاهه [coulahe] *bax* جولاه

جونده [cəvənde] çeynəyən, gövşəyən, gövşək; ~ حیوانات gövşək heyvanlar

جوهر [couhər] 1) zat, mahiyyət, cövhər; 2) *c.* جواهر [cəvaher] cavahir, qiymətli daş-qaş; 3) *kim.* turşu; ~ لیمو limon turşusu

جوهر دار [couhərdar] 1) istedadlı, qabiliyyətli; 2) boyaqçı, rəngsaz

جوی [cuy] *bax* جو

جوی [cəvvi] atmosfer; ~ شرایط atmosfer şəraiti

جویا [cuya] 1) axtaran; 2) sual verən; maraqlanan; ~ شدن a) axtarmaq; b) soruşmaq

جویان [cuyan] 1) *bax* جویا 1); 2) axtararaq, axtara-axtara; 3) maraqlanaraq

جویبار [cuybar] arx, arx çox olan yer; axar su; çay

جویدن [cəvidən] çeynəmək

جویده جویده [cəvidecəvide] 1) çeynəyə-çeynəyə; 2) qırıq-qırıq; ~ حرف زدن qırıq-qırıq danışmaq

جوینده [cüyənde] axtaran; ~ یابنده است *ata söz.* axtaran tapar

جهات [cəhat] *t.* جهت; ~ چهارگانه dörd cəhət (*dünyanın dörd tərəfi: şimal, cənub, şərq, qərb*)

جهات یابی [cəhatyabi] hərəkətin istiqamətini müəyyən etmə; istiqamət, meyil, oriyentasiya; ~ کردن istiqaməti müəyyənləşdirmək; istiqamət almaq, səmtləşmək

جهاد [cihad] cihad (*müqəddəs müharibə, din-iman uğrunda savaş*)

جهاز [cəhaz] I cehiz

جهاز [cəhaz] II 1) cihaz, alət, aparat; 2) üzv, orqan; ~ تنفس nəfəs borusu; ~ عصبی əsəb sistemi

جهال [cohhal] *t.* جاهل

جهالت [cəhalət] cəhalət, cahillik, nadanlıq, avamlıq

جهان [cəhan] 1) dünya, aləm; ~ حیوانات heyvanlar aləmi, fauna; 2) cəmiyyət, mühit

جهان آرا [cəhanara] dünyanı bəzəyən, dünyanı zinətləndirən

جهان آزموده [cəhanazmude] *bax* جهاندیده

جهان آفرین [cəhanafərin] dünyanı yaradan, Allah

جهان افروز [cəhanəfruz] dünyanı işıqlandıran, dünyaya nur saçan

جهانبان [cəhanban] dünyanı qoruyan, böyük hökmdar

جهان بین [cəhanbin] uzaqgörən, gözüaçıq

جهان بینی [cəhanbini] dünyagörüşü, ideologiya

جهان پهلوان [cəhanpəhləvan] dünya pəhləvanı

جهان پیما [cəhanpeyma] *bax* جهانگرد

جهان تاب [cəhantab] *bax* جهان افروز

جهان دار [cəhandar] dünyanın hökmdarı, böyük hökmdar: şah, padşah

جهاندن [cəhandən] sıçratmaq, tullandırmaq, hoppandırmaq

جهاندیده [cəhandide] dünyagörmüş, təcrübəli

جهانسوز [cəhansuz] 1) dünyanı dağıdan, aləmi məhv edən; dağıdıcı, viranedici; ~ جنگ dünaynı dağıdan müharibə; dağıdıcı müharibə; 2) zülmkar padşah, qəddar hökmdar

جهان شمول [cəhanşomul] cahanşümul, dünya əhəmiyyətli

جهانگرد [cəhangərd] səyyah, turist

جهانگردی [cəhangərdi] səyyahlıq, turizm

جهانگشا [cəhanqoşa] *bax* جهانگیر

جهانگشایی [cəhanqoşayi] *bax* جهانگیری

جهانگیر [cəhangir] dünyanı tutan, dünyanı fəth edən, fateh

جهانگیری [cəhangiri] dünyanı tutma, dünyanı fəth etmə, fatehlik

جهان نما [cəhannəma] dünyanı göstərən, dünyanı təsvir edən; ~ نقشه dünyanın xəritəsi; ◊ ~ جام dünyanı göstərən cam (*piyalə*)

جهان نورد [cəhannəvərd] *bax* جهانگرد

جهانی [cəhani] dünya, dünyaya aid olan; ~ شهرت dünya şöhrəti; جنگ ~ دوم ikinci dünya müharibəsi

جهانیان [cəhaniyan] bəşəriyyət, bütün insanlar

جهانیدن [cəhanidən] *bax* جهاندن

جهت [cəhət] *c.* جهات [cəhat] 1) cəhət, tərəf; 2) səbəb, cəhət; به این ~ istirahət üçün

جهد [cəhd] cəhd, çalışma, səy; ~ کردن cəhd etmək, çalışmaq

جهش [cəheş] 1) sıçrayış; tullanış; 2) döyüntü, döyünmə, vurma; ~ نبض nəbzin vurması

جهل [cəhl] *bax* جهالت

جهلا [cəhəla] *t.* جاهل

جهنده [cəhənde] sıçrayan, tullanan, hoppanan

جهنم [cəhənnəm] cəhənnəm

جهود [cohud] yəhudi

جهول [cəhul] 1) *bax* جاهل; 2) xudbin, eqoist

جهیدن [cəhidən] *bax* جستن [cəstən]

جهیز [cəhiz] *bax* جهاز I

جهیزیه [cəhiziyye] *bax* جهاز I

جیب [ceyb] *c.* جیوب [coyub] yaxa; ◊ ~ تفکر فرو بردن sərbə fikrə dalmaq

جیب [cib] cib; ~ بغل döş cib; ◊ با ~ خالی əliboş, cibiboş, pulsuz; به جیبش را تار عنکبوت زدن mənimsəmək; جیبش بسته cibi boşdur; cibini hörümçək toru basıb; جیبش را بید خورده çox yoxsuldur; cibində siçan oynayır

جیب بر [cibbor] 1) cibgir, oğru; 2) fırıldaqçı

جیر [cir] yumşaq maral dərisi; zamşa

جیران [ceyran] ceyran

جیر جیر [cirсir] 1) cikkildəmə, civildəmə; 2) cırıldama, cır-cır salma; کردن ~ a) cikkildəmək, civildəmək; b) cırıldamaq

جیر جیرک [cirсirək] cırcırama

جیرو [ciru] imza (*mal sənədinin arxasında*)

جیره [cire] pay; norma

جیره بندی [cirebəndi] ərzaqı norma ilə (*kartoçkalarla*) paylama

جیغ [ciğ] qışqırıq; وداد ~ hay-küy; زدن (کشیدن) ~ qışqırmaq

جیک جیک [cikcik] 1) *bax* جیر جیر; 2) mırıldanma, donquldanma; زدن ~ deyinmək, donquldanmaq; dodaqaltı mızıldanmaq; کردن ~ *bax* جیر جیر کردن (جیر جیر *sözündə*)

جیم [cim] "ج" hərfinin adı; ◊شدن ~ gizlənmək, əkilmək

جیوه [cive] civə

جیوه دار [civedar] civəli

جیوه کاری [civekari] amalqamasiya, amalqamalaşdırma (*metalın üzünə civə çəkmə*)

چ

چ [çe] fars əlifbasının yeddinci hərfi

چابک [çabok] 1) cəld, zirək, çevik; 2) tez, iti, yeyin

چابک پا [çabokpa] iti gedən, sürətlə gedən

چابک دست [çabokdəst] 1) cəld, diribaş, çevik, zirək; 2) bacanqlı, mahir

چابک دستی [çabokdəsti] 1) cəldlik, diribaşlıq, çeviklik, zirəklik; 2) ustalıq, bacarıq, məharət

چابک سوار [çaboksəvar] mahir atçapan, çapar, minici, jokey

چابک سواری [çaboksəvari] at çapma, at oynatma; کردن ~ at çapmaq, at oynatmaq

چابکی [çaboki] cəldlik, çeviklik, zirəklik

چاپ [çap] çap; افست ~* ofset çapı; سنگی ~* daşbasma çapı, litoqrafiya; دوم ~* ikinci nəşr; شدن ~ çap olunmaq; کردن// به ~ رسیدن ~ çap etmək; ◊زدن ~ yalan danışmaq, uydurmaq

چاپچی [çapçi] çapçı, çap edən

چاپخانه [çapxane] mətbəə

چاپخانه دار [çapxanedar] mətbəə sahibi; mətbəə müdiri

چاپگر [çapgər] printer

چاپلوس [çaplus] yaltaq

چاپلوسانه [çaplusane] yaltaqcasına; yaltaqlıqla

چاپلوسی [çaplusi] yaltaqlıq; کردن ~ yaltaqlıq etmək

چاپی [çapi] çap olunmuş, nəşr olunmuş; آثار ~* çap olunmuş əsərlər

چاپیدن [çapidən] çapmaq, qarət etmək, talamaq

چاتلا قوش [çatlanğuş] cır püstə; cır püstə ağacı

چاتمه [çatme] çatma (*tüfəngləri baş-başa çatma*); زدن ~ tüfəngləri baş-başa çatmaq

چاچول [çaçul] *dan.* hoqqa, kələk; hiylə, məkr

چاچول باز [çaçulbaz] *dan.* hoqqabaz, kələkbaz, hiyləgər, şarlatan

چاچول بازی [çaçulbazi] *dan.* hoqqabazlıq, kələkbazlıq; hiyləgərlik, şarlatanlıq

چاخچور [çaxçur] *bax* چاقچور

چاخان [çaxan] *dan.* yaltaq, ikiüzlü; yalançı, hoqqabaz; şarlatan

چاخان باز [çaxanbaz] *dan. bax* چاخان

چادر [çador] 1) çadır; 2) çadra, çarşab; 3) kölgəlik, örtük, günlük; زدن ~ çadır qurmaq; کردن ~ çadra örtmək; ◊ را یک شاخ انداختن ~ üzə durmaq; cızığından çıxmaq (*qadın, arvad haqqında*)

چادرشب [çadorşəb] məfrəş, mafraş, mafrac (*yorğan-döşək və xalça-palazı qablamaq üçün kisə*)

چادرنشین [çadorneşin] köçəri, قبایل ~* köçəri qəbilələr

چادرنشینی [çadorneşini] köçərilik, köçəri həyat tərzi

چادرنماز [çadornəmaz] namaz çadrası, ağ və ya rəngli yüngül çadra

چار [çar] I *bax* چهار

چار [çar] II *bax* چاره

چار باغ [çarbağ] bulvar

چاربند [çarbənd] iki dirsək və iki diz oynağı; ◊ قایم ~ əllər beldə (*idmanda: komanda*)

چارپا [çarpa] dördayaqlı, heyvan, minik heyvanı

چارپایه [çarpaye] *bax* **چهارپایه**

چارپر [çarpər] dördtərəfli, dördüzlü

چارپهلو [çarpəhlu] 1) dördtərəfli, dördyanlı; dördayaqlı; dördüzlü; 2) ikibaşlı (*söz*), kinəyəli (*söz*)

چارتا [çarta] dördqat; **کردن ~** dörd qat bükmək

چارچار [çarçar] böyük çillənin son dörd günü və kiçik çillənin ilk dörd gün*ü (qışın əv sonya günləri sayılır)*

چارخانه [çarxane] 1) dama-dama (*parça, kağız*); 2) dördgözlü (*şkaf, dolab, masa*)

چارچوب [çarçub] 1) çərçivə; 2) ölçü, əndazə, çərçivə; **در ~ سازمان ملل متحد** Birləşmiş Millətlər Təşkilatı çərçivəsində

چارچوبه [çarçube] *bax* **چارچوب**

چارده [çardəh] *bax* **چهارده**

چارزانو [çarzanu] *bax* **چهارزانو**

چارسو [çarsu] *bax* **چهارسو**

چارسوق [çarsuğ] *bax* **چهارسوق**

چارشاخ [çarşax] yaba, şana

چارشاخه [çarşaxe] dördşaxəli; dördbölümlü çilçıraq

چارراه [çarrah] *bax* **چهارراه**

چارشانه [çarşame] *bax* **چهارشانه**

چارشنبه [çarşəmbe] *bax* **چهارشنبه**

چارصد [çarsəd] *bax* **چهارصد**

چارطاق [çartağ] 1) dördtağlı qəbirüstü günbəz; 4) dördkünc çadır

چارطاقی [çartaği] *bax* **چارطاق**

چارغ [çaroğ] *bax* **چارق**

چارق [çaroğ] çarıq

چارقد [çarğəd] qadın baş örtüyü

چارک [çarək] çəki vahidi (*750 qram*)

چارگاه [çarqah] çahargah (*muğam*)

چارگوش [çarquş] *bax* **چهارگوش**

چارگوشه [çarquşe] *bax* **چهارگوشه**

چارمغز [çarməğz] qoz ləpəsi; **اجیل ~** qızardılmış fındıq, badam, püstə və qoz içi qarışığı

چارمیخ [çarmix] *bax* **چهارمیخ**

چارناچار [çarnaçar] istər-istəməz

چارنعل [çarnə'l] *bax* **چهارنعل**

چاروادار [çarvadar] 1) çarvadar (*malqara alverçisi*); 2) minik heyvanını kirayə verən

چاره [çarə] çarə, əlac, çıxış yolu; **درد ~** dərdin əlacı; **(چستن) اندیشیدن ~** çarə axtarmaq; **کردن ~** çarə etmək, əlac etmək

چاره اندیش [çareəndiş] çarə axtaran, çıxış yolu axtaran, imkanları ölçüb-biçən

چاره اندیشی [çareəndişi] çarə axtarma, çıxış yolu axtarma; imkanları ölçüb-biçmə

چاره بردار [çarebərdar] çarəsi olan, əlacı olan

چاره پذیر [çarepəzir] *bax* **چاره بردار**

چاره جو [çarecu] əlac axtaran, çıxış yolu axtaran

چاره جویی [çarecuyi] çarə axtarma; çıxış yolu axtarma; **کردن ~** çarə axtarmaq

چاره ساز [çaresaz] çarə qılan, əlac edən

چاره سازی [çaresazi] çarə qılma, əlac etmə, çıxış yolu tapma

چاره گیر [çaregir] *bax* **چاره ساز**

چاره گیری [çaregiri] *bax* **چاره سازی**

چاره ناپذیر [çarenapəzir] çarə olunmayan, çarəsiz, əlacsız

چاریار [çaryar] Məhəmməd peyğəmbərin (*s.*) dörd vaxın arxadası: Əbubəkr, Ömər, Osman, Əli

چاریک [çaryek] *bax* **چهاریک**

چاشت [çaşt] 1) səhər yeməyi; 2) səhər; səhərdən günortaya qədər olan vaxt; **(کردن) خوردن ~** səhər yeməyi yemək

چاشتگاه [çaştqah] səhər, sübh

چاشنی [çaşni] I 1) xörəyə qatılan ədviyyat (*sous, şirə*); 2) ləzzət, dad; 3) dada baxmaq üçün götürülən az miqdar yemək; **چشیدن ~** xörəyin dadına baxmaq; **زدن ~** xörəyə ədviyyat (*sous, şirə*) əlavə etmək

چاشنی [çaşni] II piston, kapsul, detonator

چاغاله [çağale] *bax* **چغاله**

چاق [çağ] kök, şişman, tosqun; ətli, piyli; **شدن ~** kökəlmək; **کردن ~** kökəltmək; ◊ **دماغش ~ است** kefi kökdür, damağı çağdır

چاقالو [çağalu] *dan.* kök, gombul (*uşaq və qız haqqında*)

چاقچور [çağçur] gen qadın şalvarı

چاقسلامتی [çağsalamati] yaxşı əhval tutma; **کردن ~** hal-əhval tutmaq

چاقو [çağu] bıçaq (*əsasən qatlanan*); **زدن ~** bıçaqlamaq; ◊ **بی ~ دسته ساختن** yalan uydurmaq, fırıldaq işlətmək

چاقوتیزکن [çağutizkon] bıçaqitiləyən (*adam və ya mexanizm*); **سنگ ~** bıçaqitiləyən daş, bülöv daşı

چاق وچله [çağoçelle] *dan.* kök, gombul, koppuş, toppuş

چاقوکش [çağukeş] adam bıçaqlayan; başkəsən

چاقوکشی [çağukeşi] adam bıçaqlama; bıçaqlaşma

چاقی [çaği] köklük; şişmanlıq, tosqunluq

چاک [çak] çat, çatlaq, yarıq; **خوردن ~** a) çatlamaq; b) cırılmaq; sökülmək; **(دادن، زدن) کردن ~** deşmək, dəlmək, yırtmaq, yarıq açmaq; ◊ **به ~ زدن** aradan çıxmaq, sürüşmək

چاک چاک [çakçak] çat-çat; kəsik-kəsik, yarıq-yarıq; **شدن ~** çat-çat olmaq, kəsik-kəsik olmaq

چاکدار [çakdar] 1) kəsikli, kəsiyi olan; 2) çatlı, çatı olan

چاکر [çaker // cakər] 1) xidmətçi; qulluqçu, nökər; 2) sizin sadiq nökəriniz – mən

چاکرانه [çakerane] qulcasına, nökərcəsinə, qul kimi, nökər kimi

چاکری [çakeri] xidmətçilik, nökərçilik; **کردن ~** xidmətçilik etmək

چال [çal] çala, çuxur, batıq; **~ چانه** çənədəki batıq yer; **~ گونه** yanaqdakı batıq yer; **افتادن ~** çuxura düşmək; **چشمهایش ~ افتاده** gözləri çuxura düşüb; **کردن ~** torpağa basdırmaq

چالاک [çalak] *bax* **چابک**

چالاکی [çalaki] *bax* **چابکی**

چاله [çale] *dan.* çala, çuxur; **~ گرگ** qurd yuvası; **از ~ درآمد و به چاه افتاد** *ata söz.* yağışdan çıxdıq, yağmura düşdük

چاله چوله [çale-çule] *dan.* çala-çuxur

چالی [çali] dərinlik (*çuxur*)

چام [çam] əyri, əyri-üyrü; 2) döngə, dirsək

چامه [çame] *bax* **چکامه**

چانچو [çançu] çiyin ağacı (*hər iki başından vedrə asıb daşımaq üçün*)

چانه [çane] çənə, əng; ◊ **~ افتادن** çox danışmaq; çənə vurmaq; **~ آخررا انداختن** *dan.* gorbagor ol

maq, ölmək; زدن ~ çənə vurmaq; alver etmək (*qiyməti aşağı salmaq*)
~ گرم شدن çənəsi qızışmaq; ~ لق بودن çənəsi boş olmaq
چاودار [çavdar] çovdar
چاولی [çavli] xəlbir
چاوش [çavoş] çavuş (*karvanın qarşısında gedərək dini mahnı oxuyan adam*); ordunun qabağında gedən adam
چاه [çah] quyu; آب ~ su quyusu; آرتزین ~ artezian quyusu; ~ حفر quyuqazma; زنخدان ~ çənə çuxuru, zənəxdan; کندن ~ quyu qazmaq; ◊ ~ وین است شکمش قارنی داسز quyudur; qarnı doymur; qarnını doyurmaq olmaz
چاه کن [çahkən] kankan, quyuqazan; ~ همیشه ته چاه است *ata söz.* özgəyə quyu qazan özü düşər
چاه کنی [çahkəni] quyuqazma
چای [çay] çay; ~ پررنگ pürrəng (*tünd*) çay; ~ تازه دم təzə dəmlənmiş çay; ~ تلخ (دیشلمه) acı (*dişləmə*) çay; ~ شیرین şirin çay; ~ کم رنگ açıq çay; خوردن (نوشیدن) ~ çay içmək; ریختن ~ çay süzmək
چایچی [çayçi] çayçı, çayxana sahibi; çay paylayan
چای خشک کنی [çayxoşkkoni] çay yarpaqlarını qurutma
چایخانه [çayxane] çayxana
چایخور [çayxor] çayxor, çox çay içən
چایخوری [çayxori] çay içmə; ~ (اسباب) çay ləvazimatı, çay servizi; ~ قاشق çay qaşığı; ~ میز çay masası
چایدان [çaydan] çay qabı
چایش [çayeş] *bax* چایمان
چای صاف کن [çaysafkon] çay süzgəci
چایکار [çaykar] çayçı, çay əkən, çay becərən
چایکاری [çaykari] çayçılıq, çay yetişdirmə
چایمان [çayman] *dan.* soyuqdəymə
چاییدن [çayidən] *dan.* soyuqlamaq, özünü soyuğa vermək; soyuq dəymək
چبق [çoboğ] *bax* چپق
چپ [çəp] 1) sol; ~ دست sol əl; به ~ سمت sol tərəfə; 2) solaxay; ◊ افتادن ~ sözü çəp gəlmək, mübahisə etmək; شدن ~ a) *ba*[illegible] افتادن ~; б) çevrilmək; aşmaq; اتومبیل چپ شده maşın çevrilib (*aşıb*); دادن ~ a) uzaqlaşmaq; b) kələk gəlmək; رفتن ~ a) solçu olmaq, müxalifətdə olmaq; b) hiylə işlətmək
چپاندن [çəpandən] *bax* تپاندن 1)
چپاول [çəpavol] çapma, qarət, qarət etmə, soyğunçuluq, talan; شدن ~ qarət olunmaq; کردن ~ qarət etmək
چپاولچی [çəpavolçi] *bax* چپاولگر
چپاولگر [çəpavolgər] qarətçi, soyğunçu
چپاولگری [çəpavolgəri] *bax* چپاول
چپچاپ [çəpçap] març, marçıldatma, maç; کردن ~ maç eləmək
چپچپ [çəpçəp] *bax* چپچاپ
چپ چشم [çəpçeşm] çəpgöz, çaş göz
چپ چشمی [çəpçeşmi] çəpgözlük
چپچله [çəpçəle] 1) sürüşkən və nəm torpaq; 2) dağ yamacında sürüşkən yer; sürüşən yer; 3) yelləncək
چپدست [çəpdəst] solaxay
چپدستی [çəpdəsti] solaxaylıq, sol əllə iş görmə

چپر [çəpər] 1) çəpər, hasar, barı; 2) daxma, koma (*ağacdan, küləşdən*); بستن (ساختن، کشیدن) ~ çəpər düzəltmək, hasar çəkmək
چپ رو [çəprou] *siy.* solçu, sol təmayüllü
چپ روی [çəprəvi] *siy.* solçuluq, sol təmayülçülük
چپش [çəpeş] çəpiş, keçi balası
چپق [çopoğ] çubuq, tənbəki çubuğu, qəlyan; کشیدن ~ çubuq çəkmək
چپکن [çəpkən] çəpkən, əba, uzun üst kişi geyimi
چپکرا [çəpğəra] *bax* چپ رو
چپگرایی [çəpgərayi] *bax* چپ روی
چپه [çəppe] aşma, yıxılma; شدن ~ aşmaq, yıxılmaq; ماشین ~ شد maşın aşdı; کردن ~ aşırmaq, yıxmaq
چپیدن [çəpidən] dürtülmək, soxulmaq, zorla yerləşdirilmək
چتر [çətr] 1) çətir, zontik; ~ آفتابی günəş çətiri; 2): ~ نجات paraşüt; 3) günlük, talvar, örtük, tent; ◊ ~ آبگون göy, səma
چتر باز [çətrbaz] paraşütçü
چتکه [çotke] çötkə; انداختن ~ çötkədə hesablamaq
چخ [çex] çıx, get, çıx get (*iti qovmaq üçün işlənir*); کردن ~ iti qovmaq
چخماق [çəxmağ] çaxmaq; ~ سنگ çaxmaq daşı; ~ تفنگ tüfəngin çaxmağı
چدن [çodən] çuqun; ~ سفید babbit
چدن ریزی [çodənrizi] çuquntökmə
چرا [çəra] otarma; کردن ~ otlamaq; به ~ بردن otlağa aparmaq
چرا [çəra] niyə, nə üçün, nəyə görə
چراخور [çəraxor] *bax* چراگاه
چراغ [çerağ] çıraq, lampa; ~ برق (الکتریکی) elektrik lampası; ~ رومیزی stolüstü lampa; ~ خوراک پزی pilətə; ~ فتیله (نفتی) keroqaz, kerosinka, maşınka; ~ را خاموش کردن çırağı söndürmək; ~ را روشن کردن çırağı yandırmaq; ◊ ~ کورشدن çırağı sönmək, ocağı kor olmaq, sonsuz adamın dünyadan köçməsi
چراغان [çerağan] çıraqban, çıraqbanlıq, əlvan işıqlarla bəzəmə, çox işıqlı; کردن ~ çıraqban etmək, əlvan işıqlarla bəzəmək
چراغانی [çerağani] *bax* چراغان
چراغ پا [çerağpa] *bax* پا چراغ
چراغ پایه [çerağpaye] *bax* پا چراغ
چراغ دان [çerağdan] 1) şamdan; çıraqqabı; 2) *bax* پا چراغ
چراغ قوه [çerağqovve] fənər, elektrik fənəri; ~ دستی əl fənəri; ~ قلمی cib fənəri
چراگاه [çəraqah] örüş, otlaq, çəmənlik
چراندن [çərandən] otarmaq, heyvanı otarmağa aparmaq
چرانیدن [çəranidən] *bax* چراندن
چرب [çərb] yağlı, piyli; ~ غذای yağlı xörək, yağlı qida; شدن ~ piylənmək; کردن ~ yağlamaq, yağ sürtmək; ~ دست (چربی) به سر کسی کشیدن (مالیدن) ◊ başını tovlamaq, başını piyləmək, yağlı vədlər vermək; خشک ~ xeyir və şər
چرب آخر [çərbaxor] 1) firavan yaşayan, təmin olunmuş; 2) yemi bol ola[illegible]n (*neyvan*)
چرب پهلو [çərbpəhlu] imkan varlı, zəngin
چرب دست [çərbdəst] mahir, bacarıqlı; zirək, cəld

چرب دستی [çərbdəsti] mahirlik, məharət, bacarıq; zirəklik, cəldlik

چرب زبان [çərbzəban] 1) şirindil, natiq; 2) yaltaq

چرب زبانی [çərbzəbani] 1) şirindillik, natiqlik; 2) yaltaqlıq, yaltaqlanma

چرب و نرم [çərbonərm] 1) yağlı-yumşaq (*körək*); ~ **غذای** yağlı yemək; yumşaq yemək; 2) ləzzətli (*yemək*); şirin (*söz*); ~ **سخنان** yağlı (*aldadıcı*) sözlər

چربی [çərbi] yağ; yağlılıq; piy; ~ **زدن (مالیدن)** yağlamaq, yağ sürtmək

چربی دار [çərbidar] yağlı; ~ **گوشت** yağlı ət

چربیدن [çərbidən] *dan.* üstün gəlmək, qalib gəlmək

چرت [çert // çərt] *dan.* boş, mənasız (*söz*)

چرت [çort] mürgü, mürgüləmə; ~ **زدن** mürgüləmək; **چرتم برده** mürgülədim, məni mürgü basdı; ◊ ~ **کسی را پاره کردن** kimisə qorxutmaq; kiminsə kefini pozmaq

چرتکه [çortke] *bax* **چتکه**

چرت و پرت [çertopert] *bax* **چرت** [çert]

چرچر [çərçər] *dan.* yeyib-içmə, firavan yaşama; **کردن** ~ yeyib-içmək; firavan yaşamaq

چرخ [çərx] I 1) çarx, təkər; 2) çarxların fırlanması; 3) çarxlarla işləyən maşın (*cihaz*); **خیاطی** ~ tikiş maşını; **گوشت** ~ ət maşını; 3) fırlanma; ~ **زدن (خوردن)** fırlanmaq; ~ **دادن** a) fırlatmaq; b) itiləmək; ~ **کردن** a) itiləmək; b) tikmək; c) çəkmək, doğramaq (*əti*)

چرخ [çərx] II dünya, fələk; ◊ ~ **فلک** a) göy, səma; b) qismət, tale; taleyin dönməsi (*dönüklüyü*)

چرخاب [çərxab] burulğan, girdab

چرخاندن [çərxandən] fırlatmaq; döndərmək

چرخ باد [çərxbad] qasırğa, siklon

چرخبال [çərxbal] vertolyot

چرخدار [çərxdar] çarxlı, təkərli

چرخ سوار [çərxsəvar] *dan.* velosipedçi, velosiped sürən

چرخش [çərxeş] 1) fırlanma, dönmə; 2) döngə

چرخه [çərxe] 1) qarqara, makara; 2) çarx, sap çarxı; ip kələfi; 3) ox; 4) fırlanma

چرخی [çərxi] 1) yumru, girdə, çarxvari; çarxşəkilli; 2) yonulmuş, hamarlanmış

چرخیدن [çərxidən] fırlanmaq, dönmək

چرده [çərde] rəng, (*sifətin, üzün*); ~ **سیاه** qarabuğdayı

چرز [çərz] dovdaq (*quş*)

چرس [çərs] çərs, həşiş növü; ~ **کشیدن** həşiş çəkmək

چرغ [çərğ] qırğı

چرغول [çərğul] *bax* **بارهنگ**

چرک [çerk] 1) çirk, çirklənmə; 2) irin; **چشم** ~ göz irini; ~ **شدن** çirklənmək; ~ **کردن** a) çirklətmək; b) irinləmək

چرکاب [çerkab] çirkab; çirkli su

چرک آلود [çerkalud] çirkli, çirk basmış, çirkə bulaşmış

چرکتاب [çerktab] kül rəngli, qəhvəyi rəngli; çirki görünməyən (*parça, paltar*)

چرکن [çerken] *bax* **چرکین**

چرکدار [çerkdar] *bax* **چرک آلود**

چرک نویس [çerknevis] qaralama

چرکین [çerkin] 1) çirkli; ~ **جامه** çirkli paltar; 2) irinli; ~ **زخم** irinli yara; 3) iyrənc (*sifət*); ~ **شدن** a) çirklənmək; b) irinləmək; c) iyrənc olmaq; ~ **کردن** çirklətmək

چرم [çərm] gön, dəri; ~ **مصنوعی** süni dəri

چرمساز [çərmsaz] gön ustası, dəri ustası

چرمسازی [çərmsazi] dəri istehsalı, dəri emalı

چرمی [çərmi] gön, dəri; dəridən hazırlanmış; ~ **دستکش** dəri əlcək; ~ **کالاهای** dəri malları

چرمین [çərmin] *bax* **چرمی**

چرمینه [çərmine] 1) *bax* **چرمی**; 2) dəri malları

چرند [çərənd] boş, mənasız (*söz*); ~ **گفتن** cəfəng danışmaq, mənasız danışmaq

چرندبافی [çərəndbafi] çərənləmə, boş-boşuna danışma

چرندگو [çərəndqu] boşboğaz, çərənçi, çoxdanışan

چرند و پرند [çərəndpərənd] 1) *bax* **چرند**; 2) hər şey; çırt-pırt

چروک [çoruk] qırış; büzüşmə; ~ **خوردن (افتادن، برداشتن)** a) qırışmaq; b) buzuşmək, yığılmaq (*paltar*); ~ **کردن** a) qırışdırmaq; b) əzmək, büzüşdürmək

چروکیدن [çorukidən] *bax* **چروک خوردن (چروک** *sözündə*)

چریدن [çəridən] otlamaq

چریک [çerik // çərik] partizan

چزاندن [çezandən] *dan.* əziyyət vermək, incitmək

چسان [çesan] necə? nə cür?

چسب [çəsb] 1) yapışqan, yapışqanlıq; 2) yapışma, oturma (*paltar haqqında*)

چسباندن [çəsbandən] yapışdırmaq

چسبانده [çəsbande] **چسباندن** *f.-nin k.z.f.sif.*; yapışdırılmış

چسبانیدن [çəsbanidən] *bax* **چسباندن**

چسبدار [çəsbdar] *bax* **چسبناک 1)**

چسبناک [çəsbnak] 1) yapışan, yapışqanlı; 2) *dil.* iltisaqi, aqqlünativ; 3) *məc.* zəhlətökən, əl çəkməyən, təngə gətirən; ~ **کردن** yapışqan yaxmaq

چسبیدن [çəsbidən] yapışmaq, yapışdırılmaq

چست [çost] I *bax* **چالاک**

چست [çost] II çust, çüvək, şapşüp, lapçın (*yüngül dəri ayaqqabı*)

چستک [çostək] *bax* **چست** II

چستی [çosti] *bax* **چالاکی**

چشاندن [çəşandən // çeşandən] dadızdırmaq

چشایی [çəşayi // çeşayi] dadma; ~ **حس** dad hissi

چشم [çeşm // çəşm] I göz; ~ **به خود** öz gözləri ilə; ~ **جلو** göz qabağında; ~ **آبی (زاغ)** göy göz; ~ **درشت** iri göz; ~ **ریز** xırda göz; ~ **میشی** ala göz; ◊ **از جهان پوشیدن** ~ dünyadan köçmək, ölmək; ~ **افکندن (انداختن)** nəzər salmaq, baxmaq; ~ **آلبالو گیلاس چیدن** gözü dağda-daşda olmaq; ~ **از افتادن** gözdən düşmək; ~ **از انداختن** gözdən salmaq; ~ **باز کردن** göz açmaq; gözü açılmaq; diqqətlə baxmaq; başa düşmək; ~ **بر پشت پا داشتن** utandığından başını yerə dikmək; ~ **به یک نگریستن (نگاه کردن)** eyni gözlə baxmaq; ~ **پوشیدن** göz yummaq, güzəştə getmək; ~ **توی**

~ گفتن ~ gözünün içinə demək; ~ خوردن nəzərə gəlmək; gözə gəlmək; ~ داشتن gözü qalmaq, tamah salmaq; ~ برهم زدن ~ دریک bir göz qırpımında; ~ و دل ~ گرم کردن yuxuya getmək; ~ وگوش باز سیراست gözü toxdur; gözüaçıq, fərasətli; چشمم آب نمی خورد gözüm su içmir; چشمها یش چهارتا شده dördgöz olub, çox təəccüblənib

چشم [çeşm // çəşm] II: ~ [به] baş üstə! göz üstə!

چشم انداز [çeşməndaz] 1) mənzərə; görkəm; 2) görüş dairəsi, görüş sahəsi (*bilik dərəcəsi*)

چشم بند [çeşmbənd] I örtük, duvaq

چشم بند [çeşmbənd] II gözbağlayıcı, fokusçu

چشم بندی [çeşmbəndi] gözbağlıca, fokus göstərmə

چشم به راه [çeşmberah] gözü yolda qalan, gözləyən

چشم پزشک [çeşmpezeşk] göz həkimi

چشم پوشی [çeşmpuşi] göz yumma, güzəştə getmə, üstünü vurmama; ~ کردن göz yummaq, güzəştə getmək, üstünü vurmamaq

چشم تنگ [çeşmtəng] *dan.* 1) dargöz; xəsis, paxıl; 2) paxıl

چشم تنگی [çeşmtəngi] *dan.* 1) dargözlük, xəsislik, simiclik; 2) paxıllıq

چشم پیش [çeşmpiş] utancaq; ~ گرفتن utanmaq

چشم چران [çeşmçəran] şorgöz, qadınlara şəhvətlə baxan

چشم چرانی [çeşmçərani] şorgözlük, qadınlara şəhvətlə baxma

چشم درراه [çeşmdərrah] *bax* چشم به راه

چشم داشت [çeşmdaşt] kiminsə ümidində olma; gözü yolda olma, intizar çəkmə

چشم رس [çeşmrəs] *bax* چشم انداز

چشم روشنی [çeşmrouşəni] göz aydınlığı; ~ دادن gözaydınlığı vermək

چشم زاغ [çeşmzağ] 1) göygöz; 2) abırsız, həyasız, sırtıq

چشم زخم [çeşmzəxm] nəzər, bədnəzər; ~ دیدن gözə gəlmək, nəzərə gəlmək

چشمک [çeşmək] 1) kiçik göz; 2) göz vurma; ~ زدن göz vurmaq

چشمگیر [çeşmgir] diqqətəlayiq, maraqlı; ~ دستاور دهای diqqətəlayiq uğurlar

چشم نواز [çeşmnəvaz] gözoxşayan; ~ منظره gözoxşayan mənzərə

چشم و چراغ [çeşmoçerağ] 1) *məc.* istəkli, əziz, gözün işığı (*adam*); 2) *məc.* sevgili; ~ کسی بودن birinin gözünün işığı olmaq

چشمه [çeşme // çəşme] bulaq; qaynaq, mənbə; çoxlu bulaq olan yer; ~ آب گرم isti su mənbəyi; ~ حیات həyat mənbəyi; ◊~ پیش دریا بردن nalayiq hədiyyə aparmaq; ~ نوررا به گل نتوان اندود cidanı çuvalda gizlətmək olmaz

چشمه سار [çeşmesar] çoxlu bulaq olan yer

چشنده [çeşənde // çəşənde] dadan, dadına baxan; dequstator

چشیدن [çeşidən //çəşidən] dadmaq, dadına baxmaq

چطور [çetour] necə? nə cür? احوال شما ~ است؟ kefiniz (*əhvalınız*) necədir? او نمیرود ~ o getmir, siz necə?

چغاله [çəğale] kal meyvə (*badam, ərik*)

چغاله بادام [çəğalebadam] kal badam

چغامه [çəğame] *bax* چکامه

چغانه [çəğane] qədim simli musiqi aləti

چغل [çoğol] çuğul, xəbərçi

چغل خور [çoğolxor] *bax* چغل

چغلی [çoğoli] çuğulluq, xəbərçilik; ~ دادن xəbər vermək; məlumat vermək (*yuxarı vəzifəli şəxsə*); ~ کردن çuğulluq etmək, xəbərçilik etmək

چغندر [çoğondər // çoğondor] çuğundur; ~ قند şəkər çuğunduru

چفت [çeft] cəftə, rəzə, qarmaq; ~ در qapı sürgüsü (*rəzəsi*)

چفته [çefte] *bax* چفت

چقدر [çeğədr] nə qədər? neçə? مهربان بود ~! necə də mehriban idi!

چک [çək] I şillə; ~ خوردن şillə yemək, şillələnmək; ~ زدن şillə vurmaq, şillələmək

چک [çək] II *bax* چکه

چک [çek] I çek, qəbz; kağız sənədi; ~ بانک bank çeki; ~ نوشتن (کشیدن) çek yazmaq

چک [çek] II *bax* چکه

چکا چاک [çəkaçak] cingilti (*qılınc, bıcaq toqquşmasının səsi*)

چکاره [çekare] nəçi? nə işin sahibi? این مرد ~ است؟ bu kişi nəçidir?

چکامه [çəkame] qəsidə; ~ سرودن qəsidə yazmaq

چکامه سرا [çəkamesəra] qəsidə yazan

چکامه سرایی [çekamesərayi] qəsidə yazma

چکاندن [çəkandən // çekandən] damcılatmaq

چکاوک [çəkavək] 1) torağay; vəhşi qaz; 2) qırmızı ördək

چک چک [çəkçək] damcı səsi; damcı-damcı; ~ کردن dammaq, damcılamaq

چکش [çək(k)oş] çəkic; ~ زدن çəkic vurmaq

چکمه [çəkme] çəkmə

چکمه دوز [çəkmeduz] çəkməçi

چکمه دوزی [çəkmeduzi] çəkməçilik, ayaqqabı tikmə

چکه [çekke // çəkke] damcı; damcılama; ~ کردن dammaq; damcılamaq

چکیدن [çekiden // çəkidən] damcılamaq; dammaq

چکیده [çekide] چکیدن *f.-nin k.z. f.sif.;* 1) dammış; 2) xülasə; ~ مقاله məqalənin xülasəsi

چگال [çəqal // çeqal] 1) sıx, qalın; 2) qatı, qəliz

چگالی [çəqali // çeqali] 1) sıxlıq, qalınlıq; 2) qatılıq, qəlizlik

چگونگی [çequnegi] keyfiyyət, vəziyyət; ~ کار işin keyfiyyəti; ~ احوال vəziyyət, hal-əhval

چگونه [çequne] necə? nə cür?

چل [çel] *bax* چهل

چلاق [çolağ] çolaq, şikəst, əlil; ~ شدن çolaq olmaq, əlil olmaq

چلاندن [çelandən] sıxmaq (*şirəni, paltarı*)

چلپاسه [çelpase] kiçik kərtənkələ

چلتوک [çəltuk] çəltik

چلچراغ [çelçerağ] çilçırağ

چلچله [çelçele] qaranquş

چلم [çələm] çiyələk

چلمن [çolmən] bacarıqsız, əfəl, aciz; hərif

چلنگر [çelengər] çilingər

چلنگری [çelengəri] çilingərlik, çilingər sənəti

چلو [çelou] aş, plov

چلوار [çelvar] bez, hümayun (*ağ parça*)

چلوکباب [çeloukəbab] çilovkabab

چلومرغ [çeloumorğ] toyuqplov

چله [çelle] 1) çillə (*doğuşdan, toydan və ya ölümdən keçən qırxgünlük müddət*); 2) qışın böyük və kiçik çillədən ibarət ilk iki ayı; ~ **بزرگ** böyük çillə; ~ **کوچک** kiçik çillə

چلیپا [çəlipa] xaç

چلیک [çelik] 1) çəllək, boçka; 2) çəlik, ələğacı

چم [çəm] çəm, yol, üsul, qayda; xırdalıqlar; incəliklər; ~ **کسی را به دست آوردن** a) birinin xasiyyətini öyrənmək; b) birinin zəif yerini bilmək

چماق [çomağ] çomaq, ağac, dəyənək

چمان [çəman] xuraman, nazla yeriyən

چمباتمه [çombatme] çömbəltmə; ~ **زدن (نشستن)** çömbəltmə oturmaq

چمچه [çomçe] çömçə

چمدان [çəmedan // çəmədan] çamadan

چمن [çəmən] çəmən

چمن آرا [çəmənara] çəməni bəzəyən; gözəl

چمن افروز [çəmənəfruz] çəməni işıqlandıran, çəmənə nur bəxş edən; gözəl

چمن پیرا [çəmənpira] *bax* **چمن آرا**

چمنزار [çəmənzar] çəmənlik, yaşıllıq

چم و خم [çəmoxəm] çəm-xəm, naz-qəmzə, işvə, naz etmə; ~ **کردن** naz-qəmzə etmək; ◊ ~ **چیزی را دانستن** işin çəmini bilmək

چموش [çəmuş] tərs, qızğın, qudurğan, ram olmayan (*heyvan*)

چمیدن [çəmidən] nazla yerimək; əyri-üyrü yerimək

چنار [çenar] çinar; ~ **درخت** çinar ağacı; ◊ ~ **امامزاده صالح** yersiz zarafat, şit zarafat

چنان [çenan] elə, bu cür; **چه** ~ elə ki; **که** ~ beləliklə; elə ki

چنباتمه [çombatme] *bax* **چمباتمه**

چنبر [çombər] 1) doğanaq, halqa; 2) buruq, qıvrım; ~ **زلف** saçın buruğu; ~ **زدن** qıvrılmaq (*ilan haqqında*); ◊ ~ **افتادن در** bəlaya düşmək

چنبری [çombəri] 1) yumru, girdə, dairəvi; 2) əyri, əyilmiş

چند [çənd] 1) neçə? nə qədər? neçəyə? ~ **خریدی؟** neçəyə aldın? ~ **سال است که...** neçə ildir ki.., ~ **بار** bir neçə dəfə, dəfələrlə; 2) çox; ~ **بنای مرتبه** çoxmərtəbəli bina

چندان [çəndan] o qədər, o dərəcədə, bir elə; ~ **هم زیاد نیست** o qədər də çox deyil; ~ **نه** o qədər də yox; ~ **که تومیگویی** sən deyən qədər də yox; 2) dəfə, qat; ~ **دو** ikiqat; ~ **صد** yüz dəfə çox

چندبرابر [çəndbərabər] neçə dəfə artıq

چندجانبه [çəndcanebe] çoxtərəfli; ~ **قرارداد** çoxtərəfli müqavilə

چندرقمی [çəndrəğəmi] çoxrəqəmli (*say*)

چندروزه [çəndruze] bir neçə günlük, qısamüddətli; keçici; ~ **مسافرت** bir neçə günlük səfər

چندش [çəndeş] ürpəşmə, çimçəşmə

چندش آور [çəndeşavər] ürpəşdirən, çimçəşdirən

چندم [çəndom] neçənci? ~ **دفعه** neçənci dəfə; ~ **ماه است؟ امروز** bu gün ayın neçəsidir?

چندی [çəndi] bir qədər, bir müddət; ~ **پیش** bir qədər bundan əvvəl

چندین [çəndin] *bax* **چند**

چنگ [çəng] I 1) caynaq, çəng, pəncə; 2) əl; 3) *bax* **چنگک 1)**; ~ **از کسی گریختن** birinin əlindən (*çəngindən*) qaçmaq (*qurtulmaq*)

چنگ [çəng] II çəng, arfa (*musiqi aləti*); ~ **زدن** çəng çalmaq

چنگال [çəngal] 1) çəngəl; 2) *bax* **چنگ I 1), 2)**

چنگک [çəngək] 1) qarmaq; ~ **ماهیگری** balıqtutma qarmağı; 2) cəftə; 3) dırnaq (*durğu işarəsi*); ~ **به انداختن** qarmağa keçirmək

چنین [çenin // çonin] belə, bu cür

چو [ço] 1) elə ki, çünki, ona görə ki; 2) kimi, qədər (*bənzətmə qoşması*)

چوال [çoval] çuval

چوب [çub] 1) çubuq, ağac; 2) tir, şalban

چوبان [çuban] *bax* **چوپان**

چوب بری [çubbori] mişarlama; ~ **کارخانه** taxta-şalban zavodu

چوب بست [çubbəst] 1) taxtabənd, dəzgah, körpü (*müvəqqəti taxta qurğu*); 2) dayaq, dirək (*üzüm tənəkləri üçün*)

چوب بندی [çubbəndi] *bax* **چوب بست**

چوب پا [çubpa] qoltuq ağacı

چوب پنبه [çubpəmbe] tıxac (*butulka üçün*); ~ **گذاشتن** tıxacla bağlamaq

چوب دار [çubdar] qoyun alıb-satan

چوبدست [çubdəst] ələğacı; əsa, çəlik; ~ **تعلیمی** göstərici (*nəyisə göstərmək üçün çubuq*)

چوبدستی [çubdəsti] *bax* **چوبدست**

چوب رخت [çubrəxt] paltarasan

چوب رختی [çubrəxti] *bax* **چوب رخت**

چوب فرش [çubfərş] taxta örtük, taxta döşəmə

چوب فروش [çubforuş] taxta-şalban satan

چوبک [çubək] I *bot.* sabunotu,

چوبک [çubək] II kiçik ağac, nağara çubuğu; vərdənə

چوب لباس [çublebas] *bax* **چوب رخت**

چوب لباسی [çublebasi] *bax* **چوب رختی**

چوبه [çube] *bax* **چوبک I**

چوپان [çupan] çoban

چوپانی [çupani] çobanlıq; ~ **کردن** qoyun otarmaq

چوگان [çouqan] çövkən, atla top oyunu; çövkən ağacı

چوگان باز [çouqanbaz] çövkən oynayan

چوگان بازی [çouqanbazi] çövkən oynama, atla top oynama

چون [çon // çun] *bax* **چو**

چونکه [çonke // çunke] *bax* **چو**

چون و چرا [çonoçera // çunoçera] mübahisə; ~ **بدون** sözsüz, mübahisəsiz; ~ **کردن** a) mübahisə etmək; b) alış-veriş etmək

چونی [çuni] neçəlik, keyfiyyət, xüsusiyyət

چونین [çonin // çunin] bax **چنین**

چه [çe] 1) nə? ~ **گفت** nə dedi? 2) neçə; ~ **خوب** nə yaxşı, çox yaxşı; ~ **بهتر** nə gözəl

چهار [çəhar] dörd

چهارپا [çəharpa] dördayaqlı (*heyvan*)

چهارپادار [çəharpadar] *bax* **چاروادار**

چهارپایه [çəharpaye] kətil, taburet

چهارپهلو [çəharpəhlu] *bax* **چارپهلو**

چهارتا [çəharta] *bax* **چارتا**

چهارجانبه [çəharcanebe] dördtərəfli; ~ قرارداد dördtərəfli müqavilə
چهارچرخه [çəharçərxe] dördçarxlı, dördtəkərli, dördçarxlı araba
چهارچوب [çəharçub] *bax* چارچوب
چهارچوبه [çəharçube] *bax* چارچوب
چهارخانه [çəharxane] *bax* چارخانه
چهاردست وپا [çəhardəstopa] imək-ləmə; رفتن ~ imək̇ləmək
چهارده [çəhardəh] on dörd
چهاردهم [çəhardəhom] on dördüncü
چهاردهمین [çəhardəhomin] *bax* چهاردهم
چهارراه [çəharrah] dörd yol ayrıcı
چهارزانو [çəharzanu] bardaş; نشستن ~ bardaş qurub oturmaq
چهارزاویه [çəharzaviye] dördbucaqlı
چهارسو [çəharsu] 1) dörd tərəf; 2) dörd tərəfdən yolu olan meydan; 3) iki tərəfi dükan olan bazar
چهارسوق [çəharsuğ] bazarda dörd yol ağzı; bazarda meydança
چهارشاخه [çəharşaxe] *bax* چارشاخ
چهارشانه [çəharşane] enlikürəkli
چهارشنبه [çəharşəmbe] çərşənbə
چهارصد [çəharsəd] dörd yüz
چهارصدم [çəharsədom] dörd yüzüncü
چهارصدمین [çəharsədomin] *bax* چهارصدم
چهارطاق [çəhartağ] *bax* چارطاق
چهارقد [çəharğəd] *bax* چارقد
چهارگاه [çəharqah] *bax* چارگاه
چهارگانه [çəharqane] dörd hissə-dən (*bənddən*) ibarət olan
چهارگوش [çəharquş] *bax* چهارگوشه
چهارگوشه [çəharquşe] 1) dördkünc; dördkünclü; kvadrat, dördbucaqlı
چهارلا [çəharla] dördqat
چهارم [çəharom] dördüncü

چهارمیخ [çəharmix] çarmıx; به ~ کشیدن çarmıxa çəkmək
چهارمین [çəharomin] *bax* چهارم
چهارنعل [çəharnə'l] dördnala çap-ma, atı səyirtmə; رفتن ~ dördnala çapmaq, səyirtmək (*atı*)
چهاروادار [çəharvadar] *bax* چاروادار
چهاریک [çəharyek] dörddəbir
چهچه [çəhçəh] cəh-cəh; زدن ~ cəh-cəh vurmaq
چهچهه [çəhçəhe] *bax* چهچه
چهر [çehr] *bax* چهره
چهره [çehre] 1) çöhrə, üz, sifət, yanaq; خندان ~ gülər üz; gülərüzlü; 2) şəxsiyyət, sima; درخشان ~ parlaq sima; ◊ بر افروختن ~ qızarmaq; əsəbiləşmək; درهم کشیدن ~ qaşqa-baq tökmək; üz-gözünü turşutmaq; گشادن ~ gülmək
چه سان [çesan] *bax* چسان
چهل [çehel] qırx
چهل چراغ [çehelçerağ] *bax* چلچراغ
چهلم [çehelom] qırxıncı
چهلمین [çehel(l)omin] *bax* چهلم
چی [çi] *bax* چه
چیت [çit] çit
چیدن [çidən] *k.* چین [çin] 1) dər-mək, yığmaq, toplamaq (*məhsulu, meyvəni*); 2) yolmaq, yığmaq (*otu*); 3) kəsmək; qırxmaq (*saçı, yunu*); ~ کاغذ kağızı kəsmək; پشم گوسفند را ~ qoyunun yununu qırxmaq; 4) tut-maq (*dırnağı*); 5) seçmək, ayırmaq, düzmək; 6) dənləmək (*quş*); 7) aç-maq, sərmək; سفره ~ süfrə açmaq; 8) *poliqr.* yığmaq
چیرگی [çiregi] 1) qələbə, zəfər; 2) igidlik, cəsarət, şücaət; 3) *bax* چیره دستی 1); کردن ~ a) qələbə çal-maq; b) igidlik göstərmək

چیره [çire] 1) qalib, qalib gələn; qələbə çalan; 2) *bax* چیره دست 1), 3); شدن ~ a) qalib gəlmək; b) cəsa-rətli olmaq, cəsarət göstərmək
چیره دست [çiredəst] 1) cəld, zirək, çevik; 2) hünərli, bacarıqlı, məha-rətli, mahir; 3) igid, cəsur, cəsa-rətli; بودن ~ a) cəld olmaq, çevik olmaq; b) cəsarətli olmaq
چیره دستی [çiredəsti] 1) cəldlik, zirəklik, çeviklik; 2) hünər, məha-rət; 3) igidlik, cəsarət
چیز [çiz] 1) şey; چه ~ nə? 2) ha-disə; چیزی a) bir şey; b) heç bir şey, heç nə; نخریدم ~ heç nə almadım; چیزی نیست boş şeydir, elə bir şey deyil; ◊ *dan.* صاحب ~ imkanlı adam, varlı, dövlətli
چیزبرگر [çizberger] çizburger (*ara-sında pendir olan bulka*)
چیست [çist] nədir? این ~ bu nədir?
چیستان [çistan] tapmaca, bilməcə
چین [çin] I büzmə, qırış
چین [çin] II چیدن *f.-nin k.*; mü-rəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "dərən", "seçən", "seçmə" mənalarını bildirir; دست چین əllə seçilmiş; گلچین gül dərən; buket; seçilmiş, seçmə (*əsər və s.*)
چین چیلا [çinçila] *zool.* şinşilla (*gə-mirici heyvan*)
چین چین [çinçin] büzmə; buruq-buruq
چین چین مو [çinçinmu] qıvrımsaç, buruqsaç; دختر ~ qıvrımsaçlı qız
چین خوردگی [çinxordegi] 1) qırışıq, büzməli; 2) plisse
چین خورده [çinxorde] qırışmış, qırışlı
چین درچین [çindərçin] *bax* چین چین
چینه [çine] nazik palçıq divar
چینه دان [çinedan] çinədan (*quş-larda*)
چینی [çini] I çini qab;
چینی [çini] II çinli
چینی آلات [çinialat] çini qablar
چینی بدل [çinibədəl] saxsı, saxsı qab
چینی بند [çinibənd] çini qabları düzəldən usta
چینی جا [çinica] bufet (*qab dolabı*)
چینی سازی [çinisazi] çini qab istehsalı; کارخانه ~ çini qab zavodu
چینی فروشی [çiniforuşi] çini qab-lar satışı; دکان ~ çini qablar satılan dükan

ح

ح [he] fars əlifbasının səkkizinci hərfi; əbcəd hesabında 8 rəqəmini ifadə edir

حاتم [hatəm] səxavətli, əliaçıq

حاتم بخشی [hatəmbəxşi] hədsiz dərəcədə səxavət, qeyri-adi əliaçıqlıq

حاج [hac] *bax* حاجی

حاج آقا [hacağa] 1) hacağa (*Həccə gedən kişilər üçün işlədilən müraciət forması*); 2) hörmət əlaməti olaraq kişilər üçün işlədilən müraciət forması

حاجات [hacat] *t.* حاجت

حاجب [haceb] I 1) örtük, pərdə; 2) qapıçı

حاجب [haceb] II qaş

حاجت [hacət] *c.* حاجات [hacat] // حوایج [həvayec] 1) ehtiyac, zərurət; 2) xahiş; آمدن ~ lazım olmaq; ~ برآوردن ehtiyacını ödəmək; ~ خواستن xahiş etmək

حاجت روا [hacətrəva] istədiyinə nail olan, arzusuna çatan, kamına yetən

حاجت روایی [hacətrəvayi] istədiyinə nail olma, arzusuna çatma, kamına yetmə

حاجتمند [hacətmənd] yoxsul, ehtiyacı olan

حاجتمندی [hacətməndi] yoxsulluq, ehtiyac

حاج خانم [hacxanom] 1) hacxanım (*Həccə gedən qadınlar üçün işlədilən müraciət forması*); 2) hörmət əlaməti olaraq qadınlar üçün işlədilən müraciət forması

حاجی [haci] hacı (*Məkkə ziyarətinə gedən şəxsə verilən ad*)

حاجی آقا [haciağa] *bax* حاج آقا

حاجی خانم [hacixanom] *bax* حاج خانم

حاجی فیروز [hacifiruz] təlxək, kosa

حاد [had(d)] 1) qorxulu, təhlükəli; şiddətli, bərk, ağır; 3) iti, kəskin, kəsici

حادث [hades] baş vermiş, üz vermiş; شدن ~ baş vermək, üz vermək

حادثات [hadesat] *t.* حادثه

حادثه [hadese] *c.* حادثات [hadesat] // حوادث [həvades] hadisə, əhvalat; ~ شوم bədbəxt hadisə; ~ غیر قابل اجتناب qaçılmaz hadisə

حادثه جو [hadesecu] avantürist, macəraçı

حادثه جویی [hadesecuyi] avantürizm, macəraçılıq

حاذق [hazeğ] təcrübəli; mahir; bilikli; ~ پزشک təcrübəli (*bilikli*) həkim; 2) zirək

حاسد [hased] *c.* حساد [hossad] *bax* حسود 1)

حاشا [haşa] 1) əsla, heç vaxt; 2) imtina, imtina etmə

حاشا و کلا [haşavokəlla] yox, qətiyyən, heç cür, heç vaxt

حاشیه [haşiye] *c.* حواشی [həvaşi] haşiyə, kənar, qıraq; ~ جنگل meşənin kənarı; ~ کتاب kitabın haşiyəsi; ◊ به ~ پرداختن ikincidərəcəli məsələlərlə məşğul olmaq; ~ رفتن mövzudan kənara çıxmaq

حاشیه دار [haşiyedar] haşiyəli, qıraqları yazılmış (*kitab*)

حاشیه نویس [haşiyenevis] şərhçi, şərh yazan

حاشیه نویسی [haşiyenevisi] şərh yazma, izah etmə

حاصل [hasel] *c.* حواصل [həvasel] 1) məhsul; ~ فراوان bol məhsul; 2) nəticə, yekun; 3) fayda, gəlir; ما را از این چه ~ bizə bundan nə fayda? ~ کلام bir sözlə, xülasə; ~ برداشتن (جمع کردن) məhsul götürmək; ~ شدن (آمدن، افتادن) əldə edilmək; hasil olmaq, qazanılmaq; məhsul götürmək

حاصل بخش [haselbəxş] məhsuldar, məhsul verən; faydalı, səmərəli

حاصلخیز [haselxiz] 1) münbit, məhsuldar; bərəkətli; bol məhsul verən; ~ زمین məhsuldar torpaq; 2) səmərəli, faydalı, gəlirli, qazanclı

حاصلخیزی [haselxizi] 1) münbitlik, məhsuldarlıq; 2) səmərəlilik, gəlirlilik

حاضر [hazer] *c.* حاضرین [hazerin] // حضار [hozzar] 1) hazır; iştirakçı, iştirak edən; 2) hazırkı, mövcud; ~ جمعیت mövcud cəmiyyət; ~ حال hazırkı vəziyyət; 3) razı; من حاضرم mən hazıram (*razıyam*); ~ شدن hazırlaşmaq; ~ کردن hazırlaşdırmaq; hazır etmək; iştirak etmək

حاضر باش [hazerbaş] *hərb.* hazır ol! (*komanda*)

حاضر جواب [hazercəvab] hazırcavab, mübahisədə özünü itirməyən

حاضر جوابی [hazercəvabi] hazırcavablıq, mübahisədə özünü itirməmə

حاضر غایب [hazerğayeb] hazırqayıb, yoxlama (*dərsə davamiyyəti*); ~ کردن yoxlamaq (*dərsə davamiyyəti*)

حاضروغایب [hazeroğayeb] *bax* حاضرغایب

حاضری [hazeri] 1) hazırlıq; 2) bişirilməyən (*hazırlanması üçün çox vaxt tələb olunmayan*) yeməklər (*pendir, buterbrod və s.*)

حاضر یراق [hazeryərağ] işə (*hərbi qulluğa*) hazır; təchiz edilmiş, təmin edilmiş (*iş və ya səfər ləvazimatı ilə*); ~ شدن təchiz edilmək, təmin edilmək; ~ کردن təchiz etmək, təmin etmək

حافظ [hafez] 1) mühafiz, qoruyan, saxlayan; 2) Quranı əzbər bilən

حافظه [hafeze] hafizə, yad, yaddaş; در ~ نگاه داشتن yadda saxlamaq

حاکم [hakem] *c.* حکام [hokkam] 1) hakim, hökm edən; məhkəmə sədri; ~ شرع şəriət hakimi; 2) hökmdar, canişin, qubernator; ~ مطلق a) mütləq hakim (*Allahın epiteti*); b) diktator

حاکمیت [hakemiyyət] hakimiyyət, hökumət; ~ حق müstəqillik, suverenlik; ~ حق ملی milli müstəqillik hüququ; ~ دارای müstəqil, suveren

حاکی [haki] danışan; göstərən; ~ بودن danışmaq, göstərmək

حال [hal] I *bax* حالا

حال [hal] II *c.* احوال [əhval] hal, vəziyyət, əhval, səhhət; ~ شما چطوراست? əhvalınız (*kefiniz*) necədir? ~ ندارم kefim yoxdur; ~ اهل a) sufi; b) əhli-hal, şən adam, məclis əhli; ◊ از ~ رفتن özündən getmək; huşunu itirmək; به ~ آمدن özünə gəlmək, səhhəti düzəlmək; ~ بودن yaxşı əhvali-ruhiyyədə olmaq, kefi kök olmaq; ~ بهم خوردن əhvalı pozulmaq, başı gicəllənmək

حالا [hala] indi, hal-hazırda; bu saat, indicə; ~ که indi ki, bir halda ki, madam ki

حالت [halət] hal; vəziyyət; ~ مزاجی səhhət

حال وروز [haloruz] *dan.* hal-vəziyyət, kef-əhval; vəziyyət, güzəran

حالی [hali] *dan.* başa düşən, anlayan; شدن ~ bilmək, hali olmaq (*mətləbdən, işdən*); başa düşmək, anlamaq; کردن ~ başa salmaq, anlatmaq

حالیا [haliya] *şair.* indi

حامد [hamed] sitayiş edən, tərif edən, təriflayən, mədh edən

حامل [hamel] aparan, daşıyan, gətirən

حاملگی [hamelegi] hamiləlik

حامله [hamele] hamilə; شدن ~ hamilə olmaq

حامی [hami] hami, tərəfdar, dəstəkləyən, dəstək verən, himayəçi

حاوی [havi] ibarət olan, əhatə edən; کتاب ده فصل ~ on fəsildən ibarət olan kitab; بودن ~ özündə birləşdirmək, ibarət olmaq, əhatə etmək

حایز [hayez] sahib olan, malik olan; kəsb edən; اهمیت ~ əhəmiyyətli, vacib; شدن ~ əldə etmək, qazanmaq, kəsb etmək

حایض [hayez] aybaşı olan; شدن ~ aybaşı olmaq

حایط [hayet] divar; hasar; hasarlı yer

حایل [hayel] maneə; mane olan, qarşısını kəsən; دیوار ~ hasar; شدن ~ mane olmaq, qarşısını kəsmək

حب [həb(b)] *c.* حبوب [hobub] 1) dənə, dən, tum; 2) həb

حب [hob(b)] sevgi; dostluq; وطن ~ vətən sevgisi, vətənpərvərlik

حباب [hobab] 1) köpük; صابون ~ sabun köpüyü; 2) abajur; چراغ ~ lampa qalpağı

حبابچه [hobabçe] köpükcük, qabarcıq

حبات [həbbat] *t.* حبه

حبس [həbs] həbs, zindan; ابد ~ ömürlük həbs; انفرادی ~ biradamlıq kamera; شدن ~ həbs olunmaq; کردن ~ həbs etmək

حبس خانه [həbsxane] zindan, həbsxana, islah-əmək koloniyası

حبسی [həbsi] həbs olunmuş, zindana salınmış, məhbus, dustaq

حبسیه [həbsiyye] *c.* حبسیات [həbsiyyat] *ədəb.* həbsiyyə, zindanda yazılmış şeirlər

حبوبات [hobubat] dənli bitkilər

حبه [həbbe] *c.* حبات [hobbat] 1) dənə, dən; را قبه کردن ~ *ata.söz.* milçəyi filə döndərmək; 2) gilə; انگور ~ üzüm giləsi; 3) tikə, parça, hissə; قند ~ qənd tikəsi

حبیب [həbib] *c.* احبا [əhebba] // احباب [əhbab] dost, sevgili

حتم [hətm] yəqin, qəti, mütləq; lazım, zəruri; داشتن ~ yəqin bilmək, şəkk etməmək, inanmaq, əmin olmaq

حتماً [hətmən] mütləq, hökmən; şübhəsiz, sözsüz

حتمی [hətmi] məcburi; şübhəsiz; اجرای این کار ~ است bu işin icrası məcburidir (*vacibdir*)

حتوف [hotuf] *t.* حتف

حتی [hətta] hətta

حتی الامکان [hət̮tolemkan] imkan daxilində, mümkün qədər

حتی المقدور [hət̮tolməğdur] imkan daxilində olan, güc çatan qədər

حج [həc(c)] Kəbəni (*Məkkəni*) ziyarət; رفتن ~ Kəbəyə (*Məkkəyə*) ziyarətə getmək; کردن ~ Kəbəni (*Məkkəni*) ziyarət etmək

حجاب [hecab] hicab, örtük, çadra

حجار [həccar] 1) daşyonan; 2) heykəltəraş

حجاری [həccari] 1) daşyonma; 2) heykərtəraşlıq; 3) daşyonma karxanası

حجامت [hecamət // həcamət] *tib.* həcəmət (*bədənin müxtəlif yerlərini – kürək, baldır, çiyin və s.-ni çərtib buynuz, banka və s. ilə qan alma üsulu*)

حجب [hocb] abır-həya, utancaqlıq

حجت [hoccət] *c.* حجج [hocəc] sübut, dəlil; آوردن ~ dəlil gətirmək; mübahisə etmək; ◊ اتمام ~ ultimatum

حجت الاسلام [hoccətoleslam] hüccətülislam (*böyük müsəlman ruhanilərinin titulu; ayətulladan aşağı titul*)

حجر [həcər] *c.* احجار [əhcar] daş; عهد ~ daş dövrü

حجره [hocre] *c.* حجرات [hocərat] 1) hücrə (*mədrəsələrdə tələbə otağı*); 2) tacir dükanı və otağı; 3) karvansarada qonaq otağı

حجله [hecle] bəy və gəlin üçün hazırlanan yataq otağı

حجم [həcm] həcm, tutum, ölçü; کار ~ işin həcmi; کتاب ~ kitabın həcmi

حجیم [həcim] həcmli, iriölçülü, böyük, yekə

حد [həd(d)] *c.* حدود [hodud] 1) hədd, əndazə, ölçü, qədər; dərəcə; اقل ~ ən azı; اکثر ~ ən çoxu; بلوغ ~ yeniyetmə yaşına çatma, yeniyetməlik; وسط (متوسط) ~ orta səviyyə; به ~ کافی kifayət qədər; ؟ ~ تاچه nə dərəcədə? بی ~ وحصد // بی ~ وحساب saysızhesabsız; 2) norma; sərhəd; گذاشتن ~ hədd qoymaq, məhdudlaşdırmaq; sərhəd qoymaq; از ~ گذراندن həddini aşmaq

حداثت [hədasət] 1) yenilik, təzəlik; 2) yaranma, əmələ gəlmə; 3) növcavanlıq, cavanlıq; 4) hər şeyin əvvəli

حداد [həddad] *bax* آهنگر

حدادی [həddadi] *bax* آهنگری

حدایق [hədayeğ] *t.* حدیقه

حدت [heddət] 1) şiddət, gərginlik; بیماری ~ xəstəliyin şiddəti; 2) hiddət, qəzəb, hirs, qeyz, acıq; مزاج ~ (طبع) qəzəblənmə, hirslənmə; پیدا ~ یافتن ~// کردن şiddətlənmək; ağırlaşmaq, kəskinləşmək; مرضش ~ پیدا کرد xəstəliyi ağırlaşdı

حدس [həds] güman, ehtimal, təsəvvür, fərz; زدن ~ güman etmək, təsəvvür etmək

حدسیات [hədsiyyat] *t.* حدس fərziyələr, ehtimallar

حدقه [hədəğe] hədəqə, göz çuxuru; چشم ~ göz çuxuru

حدوث [hodus] 1) yaranma, törəmə, meydana çıxma, baş vermə; عالم ~ dünyanın yaranması; 2) yenilik

حدود [hodud] 1) sərhədlər; 2) təxminən, təqribən; در ~ سه کیلومتر təqribən üç kilometr

حدیث [hədis] hədis (*islam peyğəmbərinin* (*s.*) *kəlamları, əməlləri və həyatı haqqında xəbərlər*); علم ~ hədis elmi; گفتن ~ hədis söyləmək

حدیقه [hədiğe] *c.* حدایق [hədayeğ] bağ, bağça

حذاقت [həzağət] məharət, bacarıq, istedad; داشتن ~ məharətli olmaq, bacarıqlı olmaq, istedadlı olmaq

حذر [həzər] 1) çəkinmə, saqınma, nəfsini saxlama; 2) ehtiyat, ehtiyat etmə; کردن ~ a) özünü saxlamaq, çəkinmək; b) ehtiyat etmək; برداشتن ~ xəbərdar etmək; çəkindirmək

حذر [həzer] 1) çəkinən, nəfsini saxlayan; 2) ehtiyat edən

حذف [nəzf] *f* ixtisara salma, çıxarma (*hərfi*); 2) buraxılma; صدا ~• səs düşümü; یک کلمه ~• bir sözün buraxılması; کردن ~ a) ixtisar etmək; b) buraxmaq

حذق [həzğ // hezğ] *bax* حذاقت

حر [hor(r)] *c.* احرار [əhrar] 1) azad, sərbəst; 2) alicənab, təmiz, pak (*adam*)

حراج [hərrac] hərrac, auksion; ~ شدن hərraca qoyulmaq; به ~ گذاشتن hərraca qoymaq

حرارت [hərarət] hərarət, istilik; ~• مرکزی mərkəzi istilik sistemi; ~ داشتن istiliyi olmaq; ◊ به خرج دادن ~ qızğın fəaliyyət göstərmək

حرارت سنج [hərarətsənc] termometr, istilikölçən

حراست [hərasət] qoruma, saxlama, mühafizə etmə; کردن ~ qorumaq, saxlamaq, mühafizə etmək

حراف [hərraf] 1) boşboğaz, uzunçu, çox danışan; 2) natiq, gözəl danışan

حرافی [hərrafi] 1) boşboğazlıq, uzunçuluq, çox danışma; 2) natiqlik, gözəl danışma

حرام [həram] haram, qadağan olunmuş (*şəriətdə*); وحلال ~ haram və halal; ~ مال• haram mal; خوردن ~ haram mal yemək; شدن ~ haram olmaq; کردن ~ haram etmək; qadağan etmək

حرام خوار [həramxar] haram yeyən, haram yolla pul qazanan

حرام خوارى [həramxari] haram yemə, haram yolla pul qazanma

حرام خور [həramxor] *bax* حرام خوار

حرامزادگى [həramzadegi] 1) haramzadəlik; 2) hiyləgərlik, fırıldaqçılıq

حرامزاده [həramzade] 1) haramzadə; 2) fırıldaqçı, hiyləgər

حرام کوشت [həramquşt] şəriət tərəfindən qadağan olunmuş ət

حرام لقمه [həramloğme] *vulq.* 1) anası haram tikə yeyən (*hamilə-lik vaxtı*); 2) haram mal hesabına yaşayan

حرامى [hərami] 1) şəriətdə qadağan olunma; 2) fırıldaqçı, kələkbaz; 3) quldur, yolkəsən

حرب [hərb] müharibə, vuruşma, döyüş, savaş; کردن ~ müharibə etmək, vuruşmaq

حربه [hərbe] silah; تبلیغاتى ~• təbliğat silahı

حربى [hərbi] hərbi

حرج [hərəc] 1) günah, təqsir; suç; 2) çətinlik, sıxıntı; 3) qorxu

حرس [hers] *bax* حراست

حرص [hers] 1) hərislik, tamahkarlıq, acgözlük; 2) şövq, arzu, həvəs; 3) əsəbilik, acıqlanma, hirs, hirslənmə, qəzəb, qəzəblənmə; خوردن ~ əsəbiləşmək, hirslənmək, qəzəblənmək; زدن ~ tamahkarlıq etmək; ələ keçirməyə çalışmaq, ələ gətirməyə can atmaq; حرصم گرفت əsəbiləşdim, hirsləndim

حرص و جوش [hersocuş] 1) qəzəb, hirs; 2) təşviş, narahatlıq; خوردن ~ qəzəblənmək, hirslənmək

حرف [hərf] I *c.* حروف [horuf] 1) hərf; ابجد ~• əbcəd hərfləri;

بى نقطه ~• nöqtəsiz hərf; متصل ~• bitişik yazılan hərf; منفصل ~• ayrı yazılan hərf; 2) *qram.* səs; بى ~• صدا samit, kar samit; صدادار ~• sait; cingiltili samit; 3) *qram.* söz; اضافه ~• ربط ön qoşma; bağlayıcı

حرف [hərf] II söz, danışıq; انداختن ~ söz salmaq; کشیدن ~ söz çəkmək; گوش دادن ~ sözü eşitmək; sözə qulaq asmaq; به ~ آمدن danışmağa başlamaq; پشت کسى ~ زدن birisinin arxasınca danışmaq; ◊ خو درا به کرسى نشاندن ~• öz sözünü yeritmək; خو درا سبز کردن ~• *dan.* öz sözünü göyərtmək, sözünü sübuta yetirmək; در دهان گذاشتن ~ ağzına söz atmaq

حرف شنو [herfşenou] sözəbaxan, söz dinləyən, müti, itaətkar, nəsihət eşidən

حرفه [herfe] *c.* حرف [herəf] peşə, sənət, ixtisas

حرفه اى [herfei] peşəyə aid; peşəkar; آموزش ~• peşə təhsili

حرکات [hərəkat] *t.* حرکت

حرکت [hərəkət] *c.* حرکات [hərəkat] hərəkət, əməl, rəftar, davranış; دادن ~ hərəkətə gətirmək; tərpətmək; کردن ~ hərəkət etmək, yola düşmək, tərpənmək; tərpəşmək, qımıldanmaq

حرم [hərəm] *c.* احرام [əhram] 1) hərəm, hərəmxana (*evdə qadınlara məxsus hissə*); 2) müqəddəs yer, ziyarətgah

حرمان [herman] 1) məhrumiyyət, məhrum olma, əli üzülmə; 2) ümidsizlik; ehtiyac, yoxsulluq

حرمان زده [hermanzəde] ümidini kəsmiş, ümidsiz, əlini üzmüş; yoxsul, möhtac

حرمت [hormət] hörmət, ehtiram; ~ داشتن hörməti olmaq; (گذاشتن) ~ کردن hörmət etmək; نگاه داشتن ~ hörmət saxlamaq

حرمت گذار [hormətqozar] hörmətcil, hörmət edən; tərbiyəli, ədəbi

حرمخانه [hərəmxane] *bax* حرم 1)

حروف [horuf] *t.* حرف I

حروف چين [horufçin] mürəttib, düzücü (*mətbəədə hərf düzən işçi*)

حروف چينى [horufçini] mürəttiblik etmə, düzücülük etmə; دستى ~• əllə düzücülük etmə; کامپیوترى ~• kompyuterlə düzücülük etmə; کردن ~ mürəttiblik etmək, düzücülük etmək

حريت [horriyyət] azadlıq; شخصيت ~• şəxsiyyət azadlığı

حرير [hərir] 1) ipək; 2) ipək parça

حريره [hərire] un, düyü, badam içi və şəkərdən düzəldilən sulu yemək (*adətən, südəmər uşaq və xəstələr üçün hazırlanır*)

حريص [həris] həris, tamahkar, acgöz; بودن ~ həris olmaq, tamahkar olmaq

حريصانه [hərisane] hərisliklə, acgözlüklə

حريصى [hərisi] hərislik, tamahkarlıq, acgözlük

حريف [hərif] *c.* حرفا [hərəfa] 1) rəqib; ديرين ~• köhnə rəqib; 2) oyundaş, tərəfdaş; بودن ~ a) rəqib olmaq; b) tərəfdaş olmaq

حريق [həriğ] 1) yanğın; 2) alov, alov şöləsi

حريق زده [həriğzəde] yanmış; yanğından zərər görmüş

حريم [hərim] qadağan olunmuş yer (*məntəqə, sahə*)

حزب [hezb] *c.* احزاب [əhzab] partiya; دموکرات ~• demokrat partiyası

حزبی [hezbi] partiya, partiyaya aid; ·· جلسه partiya yığıncağı

حزم [həzm] 1) möhkəmlik, əzmkarlıq, qətiyyət; 2) uzaqgörənlik; ehtiyat

حزن [hozn] *c.* اجزان [əhzan] hüzn, matəm; qəm, dərd, kədər

حزن آلود [hoznalud] hüznlü, matəmli; qəmli, dərdli, kədərli

حزن آمیز [hoznamiz] *bax* حزن آلود

حزن آور [hoznavər] hüznlü, kədərli; dərd gətirən, qəm-qüssə gətirən

حزن انگیز [hoznəngiz] *bax* حزن آور

حزین [həzin] həzin, qəmli, kədərli

حس [hes(s)] *c.* حواس [həvas(s)] hiss, duyğu; ~ باصره görmə hissi; ~ بویایی (شامه) iybilmə; iy duyğusu; ~ سامعه (شنوایی) eşitmə qabiliyyəti; ~ لامسه (تماس) toxunma hissi; ~ کردن hiss etmək, duymaq

حساب [hesab] hesab; ~ امانت depozit; ~ دادن hesabat vermək; ~ شدن hesablanmaq; sayılmaq; ~ کردن hesablamaq, saymaq; ~ تصفیه کردن hesabı çürütmək; ◊ ~ بردن a) hesablaşmaq, saymaq (*adamı*), hörmət etmək; b) qorxmaq; ~ کار خود کردن özü üçün nəticə çıxarmaq; ~ کسی سرش را رسیدن dərsini vermək; ~ نمی شود xəbəri yoxdur; işin mahiyyətini bilmir

حسابدار [hesabdar] mühasib

حسابداری [hesabdari] mühasibat

حساب رس [hesabrəs] müfəttiş

حسابگر [hesabgər] işi hərtərəfli düşünən, ehtiyatlı; qənaətcil, öz xeyrini güdən

حسابگری [hesabgəri] işi hərtərəfli düşünmə, qənaətcillik; öz xeyrini güdmə

حساب و کتاب [hesaboketab] haqq-hesab

حسابی [hesabi] 1) həqiqi; dəyərli, yaxşı; ləyaqətli; ~ آدم həqiqi (*ləyaqətli*) adam; 2) mənalı, məzmunlu, əsaslı; ~ حرف mənalı (*məzmunlu*) söz; 3) kamil, mükəmməl; 4) hesab, hesaba aid

حسادت [həsadət // hesadət] 1) həsəd, paxıllıq; 2) qısqanma; ~ کردن (ورزیدن) a) paxıllıq etmək; b) qısqanmaq

حساس [həssas] 1) həssas, ayıq, diqqətli; qayğıkeş; ~ قلب həssas ürək; 2) əsas, mühüm, vacib, böyük; ~ مقام böyük rütbə

حساسانه [həssasane] həssaslıqla, diqqətlə, qayğıkeşliklə

حساسی [həssasi] *bax* حساسیت

حساسیت [həssasiyyət] həssaslıq, ayıqlıq, diqqətcillik, qayğıkeşlik

حسب [həsb // həsəb] görə, uyğun, müvafiq, əsasən; ... ~ بر uyğun, uyğun olaraq; ~ شرایط بر şəraitə görə; ~ حال بر vəziyyətə görə

حسب الاجازه [həsəbolecaze] icazəyə görə

حسب الاراده [həsəbolerade] iradəyə görə, arzuya görə

حسب الاستعدا [həsəbolesteda] xahişə görə, xahişə əsasən

حسب الاشاره [həsəboleşare] göstərişə görə, göstərişə uyğun olaraq

حسب الاقتضا [həsəboleğteza] tələbata görə, tələbata uyğun

حسب الامر [həsəboləmr] əmrə görə, əmrə əsasən

حسب الامکان [həsəbolemkan] imkan daxilində

حسب المعمول [həsəbolmə'mul] adət üzrə, adətən

حسب حال [həsbehal] əhvalını bildirmə, öz halından danışma, ürəyini boşaltma

حسد [həsəd] həsəd, paxıllıq; از ~ روی paxıllıq üzündən, paxıllığa görə; ~ بردن (ورزیدن) həsəd aparmaq, paxıllıq etmək

حسدناک [həsədnak] paxıl, qısqanc

حسدورزی [həsədvərzi] həsəd aparma; paxıllıq etmə

حسرت [həsrət] həsrət, qəm, kədər; təəssüf; ~ خوردن (کشیدن) həsrət çəkmək; ~ به دل بردن həsəd aparmaq

حسرت آمیز [həsrətamiz] həsrətli; qəmli, kədərli

حسرت انگیز [həsrətəngiz] *bax* حسرت آمیز

حسرت بار [həsrətbar] *bax* حسرت آمیز; ~ چشمان qəmli gözlər

حسرت خور [həsrətxor] həsrətçəkən

حسرت کش [həsrətkeş] *bax* حسرت خور

حسن [hosn] *c.* محاسن [məhasen] 1) gözəllik, məlahət; ~ اخلاق əxlaq gözəlliyi; ~ گفتار nitq gözəlliyi; ~ گل gülün gözəlliyi; 2) yaxşılıq, xeyirxahlıq; 3) mürəkkəb sözlərin 1-ci komponenti kimi işlənərək "xoş", "xeyir" mənalarını bildirir: ~ تفاهم qarşılıqlı anlaşma, bir-birini yaxşı başa düşmə; ~ نیت xoş niyyət, xeyirxahlıq

حسنات [həsənat] *t.* حسنه

حسنه [həsənə] *c.* حسنات [həsənat] yaxşı iş, xeyirxahlıq; ~ روابط yaxşı münasibətlər

حسود [həsud] 1) paxıl, həsəd aparan; 2) qısqanc

حسودی [həsudi] *bax* حسادت; ~ کردن حسادت (حسادت *sözündə*) *bax*

حسی [hessi] 1) duyğulu; hiss edilən; 2) aydın, aşkar

حشر [həşr] qiyamət; ~ روز qiyamət günü

حشرات [həşərat] *t.* حشره

حشره [həşərə] *c.* حشرات [həşərat] həşərat; cücü

حشره خوار [həşərəxar] həşərat yeyən (*heyvan*)

حشره شناس [həşəreşənas] entomoloq

حشره شناسی [həşəreşənasi] entomologiya

حشره کش [həşərəkoş] həşərat öldürən dərman

حشم [həşəm] 1) qohum-əqrəba, yaxın adamlar; ~ و خدم xidmətçilər; 2) qoyun sürüsü

حشمت [heşmət] dəbdəbə,cah-calal, əzəmət, təmtəraq

حشو [həşv] artıq söz; sözçülük; ~ زاید artıq sözlər, tavtologiya; ~ قبیح pleonazm (*eyni mənalı sözlərin təkrarı*); ~ ملیح nitqə gözəllik verən sözləri işlətmə üsulu

دژبان [dejban] 1) *hərb.* komendant; 2) patrul; hərbi polis; 3) qala rəisi

دژبانی [dejbani] hərbi polis idarəsi, komendatura

دژپیه [dojpih] *tibb.* dərialtı vəzilər

دژخیم [dejxim] 1) cəllad; 2) qəddar, zülmkar

دژم [dejəm // dojəm] 2) qəzəbli, acıqlı; 2) qəmli, kədərli; dargın; darıxmış; darıxan

دسامبر [desambr] dekabr

دسایس [dəsayes] *t.* دسیسه

دست [dəst] 1) əl; چپ ~ sol əl; راست ~ sağ əl; ~ با əl ilə; 2) komplekt, dəst (*numerativ söz*); یک ~ کت و شلوار bir dəst kostyum; ◊ افشاندن ~ a) rəqs etmək; b) aşkar etmək; canından keçmək; انداختن ~ ələ salmaq; به دامن کسی زدن ~ ətəyindən yapışmaq, yalvarmaq; به دندان گزیدن ~ peşman olmaq; به دهن ~ yoxsul, kasıb; به یقه شدن ~ əlbəyaxa olmaq; دراز کردن ~ əl uzatmaq; زدن ~ əl vurmaq, toxunmaq; شستن ~ a) əl yumaq; b) əl üzmək, əl çəkmək; کشیدن (برداشتن) ~ əl çəkmək; əl üzmək; vaz keçmək; گرفتن ~ əl

tutmaq; گشادن ~ əliaçıqlıq etmək; ~ یافتن a) yol tapmaq, əli yetmək; mənimsəmək; b) qələbə çalmaq; به ~ آوردن ələ gətirmək, əldə etmək; در ~ داشتن əlində olmaq; malik olmaq; kömək istəmək; yalvarmaq

دست ابزار [dəstəbzar] əl əməyi alətləri

دستار [dəstar] çalma, əmmamə, baş sarığı

دست اره [dəstərre] əl mişarı

دست افزار [dəstəfzar] *bax* دست ابزار

دست آموز [dəstamuz] əhliləşdirilmiş, ələ öyrədilmiş, təlim edilmiş (*heyvan*)

دست انداز [dəstəndaz] çuxur, çala, çala-çuxur

دست اندازی [dəstəndazi] 1) qəsd, qəsd etmə; sıxışdırma; 2) ələ keçirmə, qarət; کردن ~ a) qəsd etmək; b) ələ keçirmək; qarət etmək

دستاورد [dəstavərd] nailiyyət, uğur, müvəffəqiyyət

دستاویز [dəstaviz] 1) bəhanə, səbəb; 2) vasitə, üsul; درست کردن ~ bəhanə uydurmaq (*tapmaq*)

دست باز [dəstbaz] əliaçıq, səxavətli

دست باف [dəstbaf] əllə toxunmuş, əl işi

دست بافت [dəstbaft] *bax* دست باف

دست بافی [dəstbafi] əllə toxuma

دست بالا [dəst(e)bala] ən çoxu, maksimum, maksimal; ◊ کسی ~ (چیزی) بودن kimdənsə (*nədənsə*) üstün olmaq

دستبرد [dəstbord] 1) hücum, basqın; 2) qarət, oğurluq; 3) cəldlik, çeviklik; زدن ~ a) hücum etmək; b) oğurlamaq, qarət etmək

دست برقضا [dəstbərğəza] təsadüfən, gözlənilmədən

دست بسته [dəstbəste] 1) əlibağlı; 2) xəsis, simic

دستبند [dəstbənd] 1) qolbaq, bilərzik; 2) qandal

دست بوسی [dəstbusi] 1) əl öpmə; 2) özünün kiçikliyini və sədaqətini bildirmə; کردن ~ əl öpmək

دست پاچگی [dəstpaçegi] tələsmə, tələskənlik; 2) həyəcan, təşviş, nigarançılıq; narahatçılıq

دست پاچه [dəstpaçe] tələsik; tələskən; 2) həyəcanlı, nigaran; narahat; شدن ~ a) tələsmək; b) həyəcanlanmaq; özünü itirmək; c) narahat olmaq; کردن ~ a) tələsdirmək; b) həyəcanlandırmaq; c) narahat etmək

دست تنگ [dəsttəng] kasıb, yoxsul; ehtiyac içində yaşayan; müflis

دست تنگی [dəsttəngi] kasıblıq, yoxsulluq; ehtiyac

دست تهی [dəsttohi] *bax* تهی دست

دستجمعی [dəstecəm'i] kollektiv, kütləvi, ümumi; birlikdə, birgə

دست چین [dəstçin] 1) seçilmiş, seçmə; 2) əllə yığılmış, əllə dərilmiş

دست چینی [dəstçini] 1) seçmə, ayırma; yığma; 2) əllə yığılma, əllə dərilmə (*meyvə*)

دست خالی [dəst(e)xali] əliboş

دست خط [dəstxət(t)] 1) əlyazması, əl yazısı; 2) məktub

دست خورده [dəstxorde] əl dəymiş, toxunulmuş

دستخوش [dəstxoş] qurban; tələfat; سیل ~ selin qurbanı; حوادث شدن ~ hadisələrin qurbanı olmaq

دست دراز [dəstderaz] *bax* دست دراز

دست درازی [dəstderazi] *bax* دست دراز

دسترس [dəstrəs] əl çatan, mümkün, mümkün olan

دسترسی [dəstrəsi] mümkünlük, əl çatma

دسترنج [dəstrənc] 1) iş, zəhmət; 2) zəhmət haqqı, əməkhaqqı

دست ساخت [dəstsaxt] əl işi, əldə düzəldilmiş

دست ساز [dəstsaz] *bax* دست ساخت

دستشویی [dəstşuyi] tualet; əl-üz yuyulan yer; əlüzyuyan

دستک [dəstək] qulp, tutacaq; dəstək

دست کج [dəstkəc] 1) əliəyri; 2) oğru

دست کجی [dəstkəci] əliəyrilik; oğruluq, oğruluq etmə

دستکش [dəstkeş] əlcək; به ~ دست کردن əlcək geymək

دست کم [dəst(e)kəm] ən azı, minimum

دستگاه [dəstqah] 1) aparat, dəzgah; گیرنده ~ qəbuledici aparat; ~ بافندگی toxuculuq dəzgahı; 2) dəst (*numerativ söz*); یک ~ ماشین bir maşın; 3) sistem; اعصاب ~ əsəb sistemi; 4) aparat, quruluş; دولتی ~ dövlət aparatı

دست گزین [dəstqozin] seçilmiş, seçmə

دست گشاده [dəstqoşade] əliaçıq, səxavətli

دستگیر [dəstgir] 1) köməkçi, əl tutan, kömək edən; 2) tutulmuş, həbs edilmiş; شدن ~ tutulmaq, həbs edilmək; کردن ~ tutmaq, həbs etmək

دستگیره [dəstgire] dəstək, tutacaq; در ~ qapının dəstəyi

دستگیری [dəstgiri] yardım etmə, kömək etmə

دستمال [dəstmal] dəsmal, yaylıq; جیبی ~ cib dəsmalı

دست مایه [dəstmaye] əl mayası, kiçik sərmayə

دست مریزاد [dəstmərizad] 1) *n.* afərin, çox yaxşı; 2) yorulmayasan

دستمزد [dəstmozd] zəhmət haqqı, əməkhaqqı, əl muzdu

دستنبو [dəstəmbu] şamama

دست نشانده [dəstneşande] əlaltı, marionet, asılı

دست نماز [dəstnəmaz] dəstəmaz; گرفتن ~ dəstəmaz almaq

دست نوشت [dəstneveşt] əllə yazılan sənəd, vərəq; əlyazma

دست نوشته [dəstneveşte] *bax* دست نوشت

دستنویس [dəstnevis] *bax* دست نوشت

دست و دل باز [dəstodelbaz] *dan.* səxavətli, əliaçıq

دستور [dəstur] 1) əmr, göstəriş, tapşırıq, təlimat; 2) qayda, qanun; اخلاقی ~ əxlaq kodeksi; جلسه ~ iclasın gündəliyi; 3) qrammatika; ~ زبان فارسی fars dilinin qrammatikası

دستور العمل [dəsturoləməl] 1) təlimat; göstəriş; 2) resept

دستوری [dəsturi] 1) əmr etmə, əmr vermə; با ~ لحن حرف زدن əmr ilə danışmaq; 2) *qram.* qrammatik; ~ قواعد qrammatik qaydalar

دسته [dəste] I *c.* دستجات [dəstecat] 1) dəstə, qrup, ansambl; موزیک ~ musiqi ansamblı; 2) komanda, dəstə; فوتبال ~ futbol komandası; 3) hissə, bölmə; تیرانداز ~ atıcı bölməsi; 4) dəstə (*numerativ söz*); یک ~ گل bir dəstə gül

دسته [dəste] II qulp, sap, dəstə; ~ کوزه bardağın qulpu

دسته بندی [dəstebəndi] qruplara bölmə, qruplara ayırma; qruplaşdırma; ~ کردن bölüşdürmək; qruplaşdırmaq

دستجمعی [dəstecəm'i] *bax* دسته جمعی

دسته دار [dəstedar] dəstəkli, qulplu

دستیاب [dəstyab] 1) əldə edilmiş; qazanılmış; 2) əlçatan, əldə oluna bilən

دستیابی [dəstyabi] 1) əldə etmə, ələ gətirmə, qazanma; 2) imkan, fürsət, mümkünlük

دستیار [dəstyar] köməkçi, yardımçı

دستیاری [dəstyari] kömək, yardım, himayə

دست یازی [dəstyazi] qəsd, qəsd etmə, əl uzatma

دسر [deser] desert

دسیسه [dəsise] *c.* دسایس [dəsayes] 1) fitnə-fəsad; intriqa; 2) sui-qəsd, gizli müqavilə; ~ کردن a) fitnə-fəsad törətmək; b) gizli əlaqəyə girmək

دسیسه باز [dəsisebaz] 1) kələkbaz, hiyləgər; 2) intriqaçı, fitnəkar, sui-qəsdçi

دسیسه بازی [dəsisebazi] 1) kələkbazlıq, hiyləgərlik; 2) intriqa, fitnəkarlıq

دسیسه جو [dəsisecu] *bax* دسیسه باز

دسیسه جویی [dəsisecuyi] *bax* دسیسه بازی

دسیسه چینی [dəsiseçini] *bax* دسیسه بازی

دسیسه کار [dəsisekar] *bax* دسیسه باز

دسیسه کاری [dəsisekari] *bax* دسیسه بازی

دسین [dəsin] şərab, üzüm şirəsi və s. üçün böyük qab

دسینه [dəsine] *bax* دسین

دسیه [dosye] dosye

دشت [dəşt] I səhra, çöl, düzənlik

دشت [dəşt] II siftə (*alverdə*); ~ کردن siftə etmək

دشتی [dəşti] I səhra, çöllük; səhraya məxsus, çöllüyə məxsus

دشتی [dəşti] II *mus.* Dəşti (*muğam*)

دشک [doşək] döşək

دشمن [doşmən] düşmən

دشمنانه [doşmənane] düşməncəsinə

دشمنی [doşməni] düşmənlik, düşmənçilik; ~ داشتن düşmənçiliyi olmaq; ~ کردن düşmənçilik etmək

دشنام [doşnam] söyüş, söyüş söymə; ~ گفتن (دادن) söyüş söymək

دشنام آلود [doşnamalud] söyüşlü, söyüşlə dolu; təhqirli

دشنامگویی [doşnamquyi] söyüş söymə, söyüş demə, söyüş yağdırma

دشوار [doşvar] çətin, ağır; ~ زندگی ağır həyat; ~ کار çətin iş; ~ کردن çətinləşdirmək; ~ شدن çətinləşmək

دشوارو [doşvarrou] çətin keçilən; ~ راه های çətin keçilən yollar

دشوارگذر [doşvarqozər] *bax* دشوارو

دشواری [doşvari] çətinlik, ağırlıq; ~ با çətinliklə

دشواریاب [doşvaryab] aztapılan, çətintapılan

دعا [doa] *c.* ادعیه [əd'iye] dua; ~ خواندن dua oxumaq; ~ کردن dua etmək

دعاخوان [doaxan] dua oxuyan

دعاگو [doaqu] duaçı; ~ شماهستم sizin duaçınızam, sizin xeyirxahınızam

دعاگویی [doaquyi] duaçılıq, dua oxuma

دعانویس [doanevis] dua yazan

دعاوی [də'avi] *t.* دعوا [də'va] // دعوی [də'vi]

دعوا [də'va] *c.* دعاوی [də'avi] 1) mübahisə, sözləşmə; 2) dava, vuruşma, dalaşma; 3) iddia, mülki iddia

دعوت [də'vət] *c.* دعوات [də'vat] dəvət, çağırış, çağırma; ~ شدن (داشتن) dəvət olunmaq; ~ کردن dəvət etmək

دعوتنامه [də'vətname] dəvətnamə

دعوی [də'vi] *c.* دعاوی [də'avi] iddia; tələb, öz haqqını tələb etmə; ~ باطل əsassız iddia; ~ داشتن (کردن) haqqını tələb etmək, iddia qaldırmaq, şikayət etmək

دغدغان [dəğdəğan] *bax* داغداغان

دغدغه [dəğdəğe] 1) iztirab, təşviş, həyəcan, narahatlıq; 2) qorxu, vahimə; به ~ خاطرخود راه دادن həyəcanlanmaq; təşviş keçirmək, narahat olmaq

دغل [dəğəl] 1) hiylə, kələk, yalan; hoqqa; fırıldaq; 2) qəlp, saxta

دغلباز [dəğəlbaz] yalançı, hoqqabaz, hiyləgər

دغلبازی [dəğəlbazi] yalançılıq, hoqqabazlıq, hiyləgərlik

دغلی [dəğəli] *bax* دغل بازی

دغمسه [dəğməse] *dan.* cəncəl, çətinlik, çətin vəziyyət, ağır vəziyyət, problem; ~ داشتن problemi olmaq; ~ افتادن تو cəncələ düşmək, çətinliklə üzləşmək, çətin vəziyyətə düşmək; ~ انداختن تو çətin vəziyyətə salmaq, cəncələ salmaq

دف [dəf] dəf, qaval; ~ زدن dəf çalmaq

دفاتر [dəfater] *t.* دفتر I

دفاع [defa'] müdafiə; qoruma, qorunma; از ~ صلح sülhü qoruma; ~ ضد هوایی hava hücumundan müdafiə; ~ کردن müdafiə etmək

دفاعی [defai] müdafiə, müdafiəyə aid; ~ سیستم müdafiə sistemi

دفاعیه [defaiyye] müdafiə nitqi

دفاین [dəfayen] *t.* دفینه

دفتر [dəftər] *c.* دفاتر [dəfater] I dəftər; jurnal; kitabça; ~ ثبت اسامی qeydiyyat dəftəri; ~ جیبی yaddaş kitabçası; bloknot

دفتر [dəftər] II dəftərxana; büro; ~ اطلاعات məlumat bürosu

دفترچه [dəftərçe] kiçik bloknot

دفترخانه [dəftərxane] *bax* دفتر II

دفتر دار [dəftərdar] 1) mühasib; hesabdar; ~ کل baş mühasib; 2) dəftərxana işçisi

دفتر داری [dəftərdari] 1) mühasiblik; 2) dəftərxana

دفتری [dəftəri] idarə işi, inzibati iş; ~افسر inzibati işlər zabiti

دف زن [dəfzən] dəfçalan

دف زنی [dəfzəni] dəfçalma, qaval çalma

دفع [dəf'] dəf etmə, uzaqlaşdırma, qarşısını alma; yox etmə; məhv etmə; ~ آفات alaq otlarına qarşı mübarizə; ~ حمله hücumu dəf etmə; ~ عفونت dezinfeksiya; ~ شدن dəf olunmaq; qarşısı alınmaq; uzaqlaşdırılmaq; ~ کردن dəf etmək, qarşısını almaq, uzaqlaşdırmaq

دفعتاً [dəf'ətən] birdən, birdən-birə, qəflətən; gözlənilmədən

دفعه [dəf'e] *c.* دفعات [dəfəat] dəfə, kərə; ~ آخر axırıncıcı dəfə; ~ دیگر bir daha; ~ چند bir neçə dəfə;

دفن [dəfn] dəfn, dəfn etmə, torpağa basdırma; شدن ~ dəfn olunmaq; کردن ~ dəfn etmək

دفینه [dəfine] *c.* دفاین [dəfayen] dəfinə, yerə basdırılmış qiymətli əşya (*pul, var-dövlət*)

دق [değ(ğ)] 1) vərəm; 2) qəm, qüssə, kədər; کردن (کشیدن) ~ a) vərəmləmək; b) bərk darıxmaq; qəmdən ölmək

دق [dəğ(ğ)] vurma, döymə; vurulma, döyülmə; کردن ~ vurmaq, döymək

دقت [değğət] 1) diqqət, fikir vermə; 2) dəqiqlik, diqqətli olma; کردن ~ diqqət etmək; قرار دادن ~ مورد diqqət yetirmək, diqqət vermək

دقیق [dəğiğ] 1) dəqiq, düz; diqqətli; علوم ~ dəqiq elmlər; 2) incə, həssas; نکته ~ incə mətləb (*məsələ*); بودن ~ dəqiq olmaq; شدن ~ dəqiqləşmək

دقیقه [dəğiğe] *c.* دقایق [dəğayeğ] dəqiqə

دقیقه شمار [dəğiğeşomar] saatın dəqiqələri göstərən böyük əqrəbi

دقیقه شماری [dəğiğeşomari] dəqiqələri sayma; gözləmə, intizar çəkmə; کردن ~ dəqiqələri saymaq, intizar çəkmək

دکان [dok(k)an] *c.* دکاکین [dokakin] dükan, kiçik mağaza; باز کردن ~ dükan açmaq

دکاندار [dok(k)andar] dükançı, dükan sahibi, mağazaçı

دکتر [doktor] 1) həkim, doktor; بیماریهای داخلی ~ can həkimi, daxili xəstəliklər həkimi; 2) doktor (*elmi dərəcə*); فلسفه ~ fəlsəfə elmləri doktoru

دکترا [doktora] 1) doktorluq (*elmi dərəcə*); 2) doktorluq işi (*elmi əsər*); دوره ~ doktorantura; رساله ~ doktorluq dissertasiyası

دکتری [doktori] 1) doktorluq (*elmi dərəcə*); 2) doktorantura; 3) həkimlik, həkimlik etmə

دکل [dəkəl] 1) dor ağacı; کشتی ~ gəminin dor ağacı, yelkən; 2) qüllə, buruq; تلویزیون ~ televiziya qülləsi; نفت ~ neft buruğu; انداختن ~ a) dor ağacı düzəltmək; b) qüllə düzəltmək

دکمه [dokme] *bax* دگمه

دک و پوز [dəkopuz] *vulq.* ağızburun (*heyvanlarda*); sir-sifət (*insan üçün təhqirlə işlənir*); را ~ خورد کردن ağız-burnunu əzişdirmək

دک و دهن [dəkodəhən] *vulq. bax* دک و پوز

دکه [dəkke] kiçik dükan

دگر [degər] *bax* دیگر

دگرگونی [degərquni] *bax* دیگرگونی

دگل [dəgəl] *bax* دکل

دگمه [dogme] düymə; پارچه ای ~ parçalı düymə; زنگ ~ zəngin düyməsi; بازکردن ~ düyməni açmaq; بستن ~ düyməni bağlamaq

دگمه دار [dogmedar] düyməli

دگمه فشاری [dogmefeşari] basma-düymə

دگمه قابلمه ای [dogmeğablemei] *bax* دگمه فشاری

دگمه منگنه [dogmeməngənə] parçalı düymə

دگنک [dəgənək] *dan.* dəyənək, çomaq, yoğun ağac

دل [del] 1) ürək, qəlb; könül; تپش ~ ürəyin döyüntüsü; سخت (سنگ) ~ daş ürək; نازک ~ incə (*həssas*) qəlb;

با ~ وجان can-dildən, ürəkdən; اهل ~ başa düşən adam, hal əhli; در ~ ürəyində, öz-özünə; 2) mədə, qarın; درد ~ qarın ağrısı; 3) cəsarət, cürət; داشتن ~ ürəkli olmaq, cəsarətli olmaq; باختن ~ ◊ aşiq olmaq, könül vermək; vurulmaq; بردن ~ valeh etmək; məftun etmək; بستن ~ ürək bağlamaq, könül vermək; دادن ~ *bax* باختن ~; به خود دادن ~ öz-özünə ürək-dirək vermək; ربودن ~ ürəyini ovlamaq; özünə məftun etmək; ریش کردن ~ ürəyi yaralamaq; ürəyi parçalamaq; شکستن ~ qəlb sındırmaq, xətrinə dəymək, incitmək; از جان شستن ~ canından keçmək; به دریا زدن ~ özünü oda-közə vurmaq; به دست ~ آوردن ürəyini ələ gətirmək; به هم ~ برآمدن ürəyi bulanmaq; تو ریختن ~ ürəyi qopmaq; ودماغ نداشتن ~ ürəyi olmamaq, meyli olmamaq;

دل آرا [delara] 1) ürəkaçan; sevindirən; 2) gözəl; sevgili

دل آرام [delaram] 1) ürəyi sakitləşdirən; 2) sevgili

دل آرایی [delarayi] cazibə, məlahət; gözəllik

دل آزار [delazar] ürək incidən; qəmli, dərdli, kədərli

دل آزاری [delazari] inciklik, incimə

دل آزردگی [delazordegi] inciklik; kədərlənmə

دل آزرده [delazorde] incimiş; qəmli; pərişan; شدن ~ incimək; کردن ~ incitmək

دل آسا [delasa] ürəyə rahatlıq bəxş edən, ürək-dirək verən, təsəlli verən; نمودن ~ ürək-dirək vermək, təsəlli vermək

دل آسایی [delasayi] ürək-dirək, təsəlli; کردن ~ ürək-dirək vermək, təsəlli vermək

دل آسودگی [delasudegi] sakitlik, rahatlıq, qayğısızlıq, xatircəmlik, əminlik

دل آسوده [delasude] sakit, rahat, qayğısız, xatircəm, əmin; شدن ~ xatircəm olmaq, əmin olmaq, rahatlaşmaq

دل آشوب [delaşub] ürək bulandıran, xoşa gəlməyən

دل افروز [deləfruz] 1) ürəkaçan; şən; 2) cazibəli, məftunedici

دل افسرده [deləfsorde] qəlbisınıq; pərişan; qəmli, kədərli

دل افگار [deləfqar] ürəyidağlı, ürəyiyaralı; qəmli, qüssəli

دلاک [dəllak] dəllək, bərbər

دل آگاه [delaqah] 1) ayıq, sayıq; işini bilən; 2) həssas, diqqətli; 3) ağıllı

دل آگاهی [delaqahi] 1) ayıqlıq, sayıqlıq, işini bilmə; 2) həssaslıq, diqqət; 3) ağıllılıq, bilicilik

دلال [dəllal] dəllal

دلالت [dəlalət // delalət] 1) sübut, dəlil; 2) göstəriş, öyüd-nəsihət; کردن (داشتن) ~ a) sübut etmək; göstərmək; b) yol göstərmək, öyüd-nəsihət vermək

دلالی [dəllali] dəllallıq; کردن ~ dəllallıq etmək

دل انگیز [deləngiz] 1) ürək sevindirən, ruh verən; 2) gözəl, cazibəli

دلاور [delavər] cəsarətli, igid, qorxmaz

دلاورانه [delavəranə] cəsarətli, igidliklə, igidcəsinə, qorxmadan, şücaətlə

دلاوری [delavəri] cəsarət, igidlik, qorxmazlıq, şücaət

دلاویز [delaviz] 1) arzu olunan, istənilən; 2) məlahətli, cazibəli, ürəkaçan; 3) ətirli, xoşqoxulu

دلایل [dəlayel] *t.* **دلیل**

دلباختگی [delbaxtegi] aşiq olma, asiqlik, valeh olma, məftunluq, vurğunluq

دلباخته [delbaxte] aşiq, valeh, məftun, vurğun, **شدن** ~ aşiq olmaq, vurğun olmaq

دلباز [delbaz] ürəkaçan (*mənzərə*); gözəl mənzərəli, səfalı

دل بخواه [delbexah] könüllü

دلبر [delbər] dilbər, sevgili, ürək ovlayan, məftun edən

دلبستگی [delbəstegi] vurğunluq, məhəbbət; ünsiyyət, bağlılıq; ~ **داشتن** məhəbbət bəsləmək, sevmək

دلبسته [delbəste] vurğun, məftun olan, valeh olan, sevən

دلبند [delbənd] 1) əziz, istəkli; ~ **فرزند** əziz övlad; 2) cazibəli, məlahətli

دل پذیر [delpəzir] sevilən, istəkli; xoşagəlimli

دل پسند [delpəsənd] *bax* **دل پذیر**

دلتنگ [deltəng] 1) qəmli, kədərli; 2) sıxılan, darıxan; 3) narahat, əsəbi; **شدن** ~ a) kədərlənmək, darıxmaq; b) narahat olmaq; əsəbiləşmək; **کردن** ~ a) kədərləndirmək; b) incitmək, əsəbiləşdirmək

دلتنگ کننده [deltəngkonənde] ürəksıxıcı, darıxdırıcı

دلتنگی [deltəngi] 1) qəm, qüssə; darıxma; 2) incimə, əsəbiləşmə; **(کردن) داشتن** ~ a) kədərlənmək; darıxmaq; b) əsəbiləşmək

دلجو [delcu] mehriban, nəzakətli, ədəbli; əziz, istəkli

دلجویی [delcuyi] mehribanlıq, nəzakət, qayğıkeşlik

دلچسب [delçəsb] 1) ürəyə yatan, çox xoşagəlim; 2) maraqlı, oyləndırıcı

دلچسبی [delçəsbi] ürəyə yatımlılıq, çox xoşagəlimlik; cazibədarlıq

دلخراش [delxəraş] ürəkağrıdıcı, sarsıdıcı

دلخستگی [delxəstegi] ümidsizlik, məyusluq, ruh düşkünlüyü

دلخسته [delxəste] qəlbisınıq, qəmli, düşkün, ümidsiz

دلخواه [delxah] 1) arzu, meyil, həvəs; 2) arzu olunan, ürək istəyən

دلخور [delxor] 1) incik, incimiş; 2) qəmli; 3) narahat olmuş, sarsılmış; **شدن** ~ a) incimək; b) kədərlənmək; c) əsəbiləşmək; **کردن** ~ a) incitmək; b) əsəbiləşdirmək

دلخوری [delxori] 1) dilxorçuluq, incimə; 2) narazılıq; əsəbiləşmə; ~ **داشتن** *bax* **دلخور شدن (دلخور** *sözündə*)

دلخوش [delxoş] 1) şad, şən; 2) razı, məmnun

دلخوشی [delxoşi] 1) şadlıq, şənlik; 2) razılıq, məmnunluq

دلخون [delxun] ürəyi qana dönən; qəmli, kədərli

دل دادگی [deldadegi] aşiqlik, məftunluq, vurğunluq

دلداده [deldade] aşiq, məftun olmuş, vurğun

دلدار [deldar] 1) sevgili; 2) igid, cəsur, ürəkli

دلداری [deldari] ürək-dirək vermə; təsəlli, təskinlik; **دادن** ~ təskinlik vermək

دل درد [deldərd] qarın ağrısı; ~ **آوردن** qarın ağrısına səbəb olmaq

دلربا [delroba] 1) heyranedici, valehedici, cazibəli; 2) nazlı; 3) sevgili

دلربایی [delrobayi] 1) valehedicilik, cazibəlik; 2) işvə, naz; **کردن** ~ nazlanmaq, naz etmək

دل رحم [delrəhm] rəhmli, şəfqətli, mehriban, yumşaqürəkli

دل رحمی [delrəhmi] rəhmli olma, şəfqətli olma, mehribanlıq, ürəyi yumşaqlıq

دلریش [delriş] ürəyidağlı, çox qəmli, dərdli

دل زنده [delzende] 1) gümrah, diribaş; 2) şad, şən; 2) ağıllı, müdrik

دل سخت [delsəxt] daşürəkli, qəddar, amansız

دل سختی [delsəxti] qəddarlıq, amansızlıq

دل سرد [delsərd] 1) məyus, ümidsiz; 2) etinasız, laqeyd; **شدن** ~ a) məyus olmaq; ümidsiz olmaq; b) etinasız olmaq, laqeyd olmaq; **کردن** ~ məyus etmək, ümidsiz etmək, ruhdan salmaq

دل سردی [delsərdi] 1) məyusluq, ümidsizlik; 2) etinasızlıq, layqeydlik

دل سوختگی [delsuxtegi] ürək ağrısı; qəm, qüssə, kədər; yaş, matəm

دل سوخته [delsuxte] ürəyidağlı, dərdli; yaslı, matəmli

دلسوز [delsuz] ürəyiyanan, qayğıkeş

دلسوزی [delsuzi] ürək yandırma, qayğıkeşlik

دل سیاه [delsiyah] qəlbiqara; rəhmsiz, daşürəkli; bədxah

دلشاد [delşad] *bax* **دلخوش**

دلشادی [delşadi] *bax* **دلخوشی**

دل شکستگی [delşekəstegi] 1) məyusluq; ümidsizlik; 2) inciklik; kədər; 3) ruhdan düşmə, sarsılma

دلشکسته [delşekəste] 1) qəlbisınıq, qəmli; 2) incimiş, düşkün

دلشکن [delşekən] ürəksındıran, hüzn gətirən, qəm-qüssə gətirən

دلشوره [delşure] nigarançılıq, narahatçılıq, iztirab, təşviş, həyəcan; ~ **داشتن** nigaran olmaq, narahat olmaq

دل افروز [delforuz] *bax* **دل افروز**

دل فریب [delfərib] gözəl; nazlı, məlahətli, cazibəli, can alan

دل فریبی [delfəribi] gözəllik; cazibədarlıq; işvə-naz

دلفگار [delfeqar] *bax* **دل افگار**

دلفین [delfin // dolfin] delfin

دلق [dəlğ] köhnə və yamaqlı üst geyimi; dərviş paltarı

دلق پوش [dəlğpuş] köhnə və yamaqlı paltarlı; dərviş

دلقک [dəlğək] 1) təlxək; 2) qeyri-ciddi adam, şit insan, oyunbaz

دلقک بازی [dəlğəkbazi] 1) təlxəklik; 2) qeyri-ciddilik, şitlik, oyunbazlıq; **کردن** ~ a) təlxəklik etmək; b) şitlik etmək, oyunbazlıq etmək

دلکش [delkeş] xoşagəlimli, cazibəli, valehedici, canalan

دلکشی [delkeşi] xoşagəlimli olma, cazibə, gözəllik, işvə-naz

دلگران [delgeran] darıxmış; incimiş

دلگرانی [delgerani] darıxma; incimə; ~ **داشتن** darıxmaq, incimək

دلگرفتگی [delgereftegi] *bax* **دلتنگی**

دلگرفته [delgerefte] *bax* دلتنگ

دلگرم [delgərm] 1) işə can yandıran, çalışqan; 2) meyilli, həvəskar, həvəsi olan

دلگرمی [delgərmi] 1) işə can yandırma; səy, çalışqanlıq; 2) ruhlanma, həvəslənmə; دادن ~ həvəsləndirmək; داشتن ~ a) həvəslənmək; b) maraqlanmaq; c) sevmək, istəmək

دلگشا [delqoşa] ürəkaçan, səfalı; ~ باغ* səfalı bağ

دلگشاد [delqoşad] şad-xürrəm, qəm-qüssədən azad

دلگیر [delgir] *bax* دلتنگ

دلگیری [delgiri] *bax* دلتنگی

دلمردگی [delmordegi] ölgünlük, süstlük, soyuqluq, həvəssizlik, ruhdan düşmə

دلمرده [delmorde] ölgün, süst, həvəssiz, ruhdan düşmüş

دلمه [dələme] 1) laxta, laxtalanmış (*qan*); 2) dələmə, tutmamış (*təzə*) pendir; 3) çürümüş süd; şor

دلمه [dolme] dolma; بادنجان ~* badımcan dolması; برگ ~* yarpaq dolması; کلم ~* kələm dolması

دل نازک [delnazok] 1) ürəviyum-şaq, rəhmli, şəfqətli, mehriban; 2) tezinciyən, tezküsən, həssas

دل نازکی [delnazoki] 1) ürəyiyum-şaqlıq, rəhmdillilik, şəfqətlilik, mehribanlıq; 2) həssaslıq, dəymədüşərlik, inciklik

دلنشین [delneşin] ürəyəyatan, xoşagələn, cazibəli

دل نگران [delnegəran] nigaran, gözü yolda, təşvişli, iztirablı

دل نگرانی [delnegərani] nigarançılıq, intizar, təşviş, iztirab

دلنواز [delnəvaz] ürəkoxşayan, mehriban, nəvazişli, şəfqətli

دلنوازی [delnəvazi] 1) mehribanlıq, nəvaziş, şəfqət; 2) incəlik, zəriflik

دلو [dəlv] 1) dolça, vedrə; 2) *astr.* Dolça bürcü (*21.I-18.II*)

دل واپس [dəlvapəs] narahat; həyəcanlı; qayğılı, fikirli; شدن ~ həyəcanlanmaq; narahat olmaq

دل واپسی [dəlvapəsi] nigaranlıq, qayğı, fikir, qərarsızlıq

دله [dəle] I dələ

دله [dəle] II *dan.* 1) qarınqulu, acgöz; 2) *vulq.* arvadbaz, şorgöz

دله دزد [dələdozd] *dan.* dələduz, fırıldaqçı, kələkbaz

دله دزدی [dələdozdi] *dan.* dələduzluq, fırıldaqçılıq, kələkbazlıq; کردن ~ dələduzluq etmək

دلهره [delhore] *dan.* 1) fikir, qayğı; narahatlıq; 2) qorxu, dəhşət; گرفتن ~ a) narahat olmaq; b) qorxuya düşmək

دلیر [delir // dəlir] igid, cəsarətli, qorxmaz

دلیرانه [delirane] igidcəsinə, cəsarətlə

دلیری [deliri] igidlik, cəsarət, şücaət

دلیل [dəlil] *c.* دلایل [dəlayel] // ادله [ədelle] 1) dəlil, sübut; صریح ~* aşkar dəlil; 2) əsas, səbəb; به چه~؟ nə səbəbə? 3) bələdçi, yol göstərən; müəllim; آوردن ~ sübut gətirmək; sübut etmək

دم [dəm] I 1) nəfəs; üfürmə; ah; آخر ~* son nəfəs; سرد ~* dərin ah; 2) an, ləhzə; در یک ~ bir anda; برآوردن ~ nəfəs çəkmək; کشیدن ~ در a) nəfəs almaq; b) ölmək; c) susmaq; زدن ~ a) nəfəs çəkmək; b) danışmaq; کردن ~ dəmləmək (*aşı, çayı*); کشیدن ~ dəmlənmək (*aş, çay*); فرو ~ بستن a) susmaq; b) nəfəsini saxlamaq

دم [dəm] II 1) *məc.* ağız; شمشیر ~* qılıncın ağzı; 2) yan; در ~* qapının yanında

دم [dom] quyruq; جنباندن ~ quyruq bulamaq; بریده ~ ◊ tülküsifət, hiyləgər; گرفتن ~ quyruğunu belinə qoymaq, qudurmaq

دمادم [dəmadəm] ardıcıl, arasıkəsilmədən

دمار [dəmar] damar

دماغ [dəmağ // dimağ] 1) beyin; 2) burun; ◊ کسی چاق بودن ~* kefi kök olmaq, damağı çağ olmaq

دماغه [dəmağe] 1) *coğr.* burun; 2) burun; çıxıntı; کشتی ~* gəminin burnu

دمان [dəman] 1) pərdələyən, coşan; 2) tələsən; 3) qəzəbli

دمبدم [dəmbedəm] *bax* دمادم

دمبک [dombək] nağara; زدن ~ nağara çalmaq

دمبه [dombe] *bax* دنبه

دمپایی [dəmpayi] ev ayaqqabısı

دمدار [dəmdar] bürkü; bürkülü, boğuçu; هوای ~* bürkülü hava

دمدار [domdar] quyruqlu; ستاره ~* quyruqlu ulduz (*kometa*)

دمداران [domdaran] *zool.* quyruqlular

دمدمه [dəmdəme] 1) hiylə, kələk; 2) səs-küy; nağara səsi; 3) ad-san, şöhrət

دمدمی [dəmdəmi] hərdəmxəyal

دمر [dəmər] *dan.* üzüüstə, üzüqoyulu; افتادن ~ üzüqoyulu yıxılmaq; خوابیدن ~ üzüqoyulu yatmaq

دمساز [dəmsaz] 1) səmimi dost, yaxın dost; 2) həmsöhbət; 3) uyğun, münasib; شدن ~ a) həmsöhbət olmaq; səmimi olmaq; b) uyğunlaşmaq

دمسازی [dəmsazi] 1) səmimiyyət, yaxınlıq; 2) həmsöhbətlik; 3) uyğunluq, münasiblik

دمکش [dəmkeş] dəmkeş, dəmçəkən (*plovun dəmini çəkmək üçün qazanın ağzına qoyulan qapaq*)

دمگیر [dəmgir] boğanaq, bürkü; bürkülü, isti, ağır; گرمای ~* bürkülü (*hava*)

دمل [dom(m)əl] çiban; درآوردن ~ çiban çıxartmaq

دموکرات [demokrat] demokrat

دموکراتیک [demokratik] demokratik

دموکراسی [demokrasi] demokratiya

دموی [dəməvi] 1) qanlı (*ishal və s.*); 2) qana aid; بیماری ~ qan xəstəliyi

دمه [dəme] I 1) buxar, buğ; 2) zəif duman; 3) boran, çovğun

دمه [dəme] II körük; آهنگری ~* dəmirçi körüyü

دمیدن [dəmidən] 1) nəfəs almaq; 2) üfürmək; 3) bitmək, cücərmək (*bitki*); 4) görünmək, doğmaq (*günəş*)

دمیده [dəmide] دمیدن *f.-nin k.z. f.sif.*: 1) bitmiş, cücərmiş (*bitki*); 2) çıxmış, doğmuş (*günəş*)

دنائت [dənaət] alçaqlıq, rəzalət

دنائت کار [dənaətkar] alçaq, rəzil

دنائت کارانه [dənaətkarane] alçaqcasına, rəzilcəsinə

دنائت کاری [dənaətkari] alçaqlıq etmə, rəzillik etmə

دنب [domb] *bax* دم [dom]

دنبال [dombal] arxa, arxa hissə; کردن ~ izləmək; کسی رفتن ~* arxasınca getmək

دنبالک [dombalək] *idm.* ling

دنباله [dombale] arxa; ard, davam; دارد ~ ardı var, davamı var

دنباله دار [dombaledar] 1) uzunçəkən, uzunsürən; 2) *bax* دمدار [domdar]

دنبه [dombe] quyruq; ~ روغن quyruq yağı; گوسفند ~ qoyun quyruğu

دنبه دار [dombedar] quyruqlu (*qoyun*); ~ گوشت quyruqlu ət

دندان [dəndan] diş; (کرسی) آسیا ~ azı dişi; پیشین ~ qabaq (*kəsici*) diş; عقل ~ ağıl dişi; طبیعی ~ təbii diş; مصنوعی ~ qoyulma (*protez*) diş; ~ درآوردن diş çıxartmaq; ~ پر کردن dişi doldurmaq; ~ ریختن dişi tökülmək; ~ کشیدن diş çəkdirmək; ~ گرفتن dişləmək; ~ گزیدن به ~ *bax* گرفتن ~; ◊ ~ تیزکردن tamah salmaq, dişlərini itiləmək; ~ نشان دادن a) gülmək, dişini ağartmaq; b) qorxutmaq, diş qıcamaq

دندان پاک کن [dəndanpakkon] diş təmizləyən, diş fırçası

دندان پزشک [dəndanpezeşk] diş həkimi

دندان درد [dəndandərd] diş ağrısı; ~ داشتن dişi ağrımaq

دندان ریخته [dəndanrixte] dişsiz, dişləri tökülmüş

دندان ساز [dəndansaz] diş texniki; diş həkimi

دندان سازی [dəndansazi] diş qayırma, protez qayırma, protez qoyma

دندان شکن [dəndanskən] qəti, kəskin, ağır; ~ جواب kəskin cavab

دنده [dənde] qabırğa; ◊ به قضا ~ دادن talc ilə barışmaq; پهن بودن ~ qabırğasının qalınlığına salmaq, laqeyd olmaq

دنگ [dəng] I çəltikdöyən maşın

دنگ [dəng] II 1) səs-küy, hay-küy; 2) taqqıltı, cingilti

دنگ [dəng] III 1) huşunu itirmiş; huşsuz; 2) səfeh, ağılsız

دنی [dəni] alçaq, rəzil

دنیا [donya] dünya, aləm, kainat; ~ فانی fani dünya; ◊ از ~ رفتن dünyadan köçmək, ölmək; به ~ آمدن doğulmaq, dünyaya gəlmək; به ~ آوردن doğmaq, dünyaya gətirmək; ~ ترک کردن dünyanı tərk etmək, tərki-dünya olmaq; ~ را دو دستی گرفتن dünyanı ikiəlli tutmaq, çox xəsis olmaq

دنیا پرست [donyapərəst] dünyanı sevən; tamahkar

دنیا پرستی [donyapərəsti] dünyanı sevmə; tamahkarlıq

دنیا دار [donyadar] 1) ədəbli, mədəni, nəzakətli; 2) *bax* دنیا پرست

دنیادوست [donyadust] *bax* دنیا پرست

دنیادیده [donyadide] dünyagörmüş, təcrübəli

دنیا طلب [donyatələb] *bax* دنیا پرست

دنیا طلبی [donyatələbi] *bax* دنیا پرستی

دنیاگرد [donyagərd] dünyanı gəzən, səyyah

دنیاوی [donyavi] *bax* دنیوی

دنیوی [donyəvi] 1) dünya, dünyaya aid; 2) dünyəvi

دو [do] iki; ~ روز iki gün; ~ روزه iki günlük; ~ در ~ iki dəfə iki; ◊ به ~ دو təkbətək

دو [do] دویدن *f.-nin k.:* qaçış

دوا [dəva] *c.* ادویه [ədviyc] // دواجات [dəvacat] dava, dərman; ~ خوردن dərman içmək; ~ زدن iynə vurmaq; ~ کردن müalicə etmək

دواب [dəvab] minik (*yük*) heyvanları, mal-qara

دوات [dəvat] mürəkkəbqabı

دواخانه [dəvaxane] *bax* داروخانه

دواخانه چی [dəvaxaneçi] *dan. bax* داروخانه دار

دوار [dəvar] dövr vurma; hərlənmə, fırlanma; ~ سر baş gicəllənməsi

دوار [dəvvar] dövr edən; hərlənən, fırlanan; ~ (فلک) چرخ dünya, dünyanın çarxı

دوازده [dəvazdəh] on iki

دوازدهم [dəvasdəhom] on ikinci

دوازدهمین [dəvazdəhomin] *bax* دوازدهم

دواساز [dəvasaz] *bax* داروساز

دواسازی [dəvasazi] داروسازی

دوافروش [dəvaforuş] *bax* داروفروش

دوافروشی [dəvaforuşi] *bax* داروفروشی

دوام [dəvam] davam, davamlılıq, möhkəmlik; dözüm; ~ آوردن (کردن) davam gətirmək, dözmək; ~ دادن davam etdirmək; ~ یافتن davam etmək

دوام دار [dəvamdar] 1) davamlı, möhkəm; dözümlü; 2) uzunmüddətli

دوان [dəvan] qaçan; qaça-qaça ~ دوان qaça-qaça

دواندن [dəvandən] qaçırmaq; اسب ~ at qaçırmaq

دوایی [dəvayi] *bax* دارویی

دوباره [dobare] yenidən, ikinci dəfə; ◊ ~ عمر yeni həyat

دوبرهم زن [dobərhəmzən] *bax* دوبهم زن

دوبرهم زنی [dobərhəmzəni] *bax* دوبهم زنی

دوبل [dubl] 1) ikiqat, iki dəfə artırılmış; 2) ikinci nüsxə

دوبلاژ [dublaj] dublyaj

دوبله [duble] surət, kopya; ikinci nüsxə

دوبهم انداز [dobəhəmandaz] *bax* دوبهم زن

دوبهم زن [dobəhəmzən] araqızışdıran, aravuran, sözgəzdirən

دوبهم زنی [dobəhəmzəni] araqızışdırma, aravurma, söz gəzdirmə

دوبیتی [dobeyti] dübeyt (*şeir növü*), dördlük

دوپهلو [dopəhlu] ikibaşlı, ikimənalı; ~ زدن ~ حرف ikibaşlı danışmaq, ikimənalı danışmaq

دوتایی [dotayi] 1) ikilik; ikiqat; 2) cüt; 3) göz-gözə, ikilikdə

دوجانبه [docaqebe] ikitərəfli; پیمان ~ ikitərəfli müqavilə; ~ محبت qarşılıqlı məhəbbət

دوجین [docin] düjün (*on iki ədəd*); ~ یک استکان on iki stəkan

دوچرخه [doçərxe] velosiped

دوچرخه سوار [doçərxesəvar] velosiped sürən, velosipedçi

دوچرخه سواری [doçərxesəvari] velosiped sürmə; ~ کردن velosiped sürmək

دوچند [doçənd] ikiqat

دوخت [duxt] 1) tikiş; 2) biçim, biçmə

دوختن [duxtən] *k.* دوز [duz] tikmək (*paltar*); ◊ ~ نگاه baxışlarını zilləmək, diqqətlə baxmaq

دوخته [duxte] دوختن *f.-nin k.z. f.sif.:* tikilmiş, hazır, tikili; ~ لباس hazır paltar

دود [dud] tüstü; his; ~ بخاری sobanın tüstüsü; ~ شدن a) tüstülənmək; b) *məc.* məhv olmaq; ~ کردن a) tüstülətmək, tüstüləndirmək; b) *məc.* məhv etmək; ~ کشیدن siqaret çək-

mək; ◊ (دل) جگر ~ ah; دماغ ~ təkəbbür, lovğalıq; ~ اهل siqaret çəkən

دود زدگی [dudzədegi] hisə verilmə; hisdə qurudulma

دودزده [dudzəde] 1) hisə verilmiş; ~ ماهی hisə verilmiş balıq; 2) hisli; ~ سقف hisli tavan

دودکش [dudkeş] baca, tüstü bacası

دودل [dodel] tərəddüd edən; qətiyyətsiz; بودن (شدن) ~ tərəddüd etmək

دودلی [dodeli] tərəddüd, qətiyyətsizlik; şübhələnmə; کردن ~ tərəddüd etmək; şübhələnmək

دودمان [dudman] 1) ailə, nəsil, tayfa; 2) sülalə

دوده [dude] his

دور [dour] *c.* ادوار [ədvar] 1) fırlanma, dövr, dəyirmi hərəkət; 2) dövr, müddət, əsr; 3) dövrə, ətraf; ~ زمین yerin ətrafı (*dövrəsi*); ~ برداشتن sürət toplamaq; tələsmək; ~ به سر آمدن dövrü (*vaxtı*) qurtarmaq; ~ زدن fırlanmaq

دور [dur] uzaq, iraq; ~ افتادن uzaq düşmək; ~ انداختن (ریختن) atmaq, tullamaq; ~ بودن uzaq olmaq; ~ داشتن uzaqda saxlamaq; ~ رفتن uzağa getmək; ~ ساختن (کردن) uzaqlaşdırmaq; qovmaq; ~ شدن uzaqlaşmaq; ◊ از چشم ~ itil gözümdən!

دورافتادگی [duroftadegi] uzaqlıq, uzağa düşmə

دور افتاده [duroftade] uzaqlaşdırılmış, uzağa düşmüş; ~ مناطق uzaq məntəqələr

دوران [dəvəran] 1) dövran; ~ خون qan dövranı; 2) fırlanma; gicəllənmə; ~ سر baş gicəllənməsi; ~ دادن fırlatmaq, ~ زدن (کردن) fırlanmaq, gicəllənmək; سرم ~ میکند başım gicəllənir

دوران [douran] dövran, dövr; vaxt, zaman; ~ حجر daş dövrü

دوران دیده [dourandide] dünyagörmüş, təcrübəli

دوراندیش [durəndiş] uzaqgörən, gözüaçıq

دوراندیشی [durəndişi] uzaqgörənlik, gözüaçıqlıq

دوراهه [dorahe] yolayrıcı

دوراهی [dorahi] *bax* دوراهه

دوربین [durbin] 1) durbin, binokl; 2) uzağı yaxşı görən; 3) *bax* دوراندیش

دوربینی [durbini] 1) *bax* دوراندیشی; 2) uzaqdan görmə, uzağı yaxşı görmə

دوردست [durdəst] uzaq, əlçatmaz

دوردستی [durdəsti] uzaqlıq, əlçatmazlıq, əlyetməzlik,

دورزن [durzən] uzaqvuran; ~ توپ uzaqvuran top

دورگ [dorəg] *bax* دورگه

دورگه [dorəge] hibrid; metis; ◊ ~ صدای xırıltılı səs

دورنگ [dorəng] 1) ikirəngli; 2) ikiüzlü, qeyri-səmimi, riyakar

دورنگه [dorənge] *bax* دورنگ

دورنگی [dorəngi] 1) ikirənglilik; 2) ikiüzlülük, qeyri-səmimilik, riyakarlıq

دورنما [durnəma] 1) mənzərə, panorama; 2) təbiət təsviri; mənzərə şəkli

دورو [doru] ikiüzlü

دورویی [doruyi] ikiüzlülük

دوره [doure] 1) dövr, əsr, mərhələ; müddət; ~ تجدد İntibah dövrü; 2) sessiya; ~ امتحانات imtahan sessiyası; 3) komplekt, seriya; ~ یک روزنامه bir komplekt qəzet; 4) ətraf,

kənar, çənbər; ~ چرخ təkərin çənbəri; 5) kurs; ~ سوم üçüncü kurs

دوری [douri] 1) dövri, vaxtaşırı; 2) dairəvi; 3) dərin boşqab (*bulud*)

دوری [duri] 1) uzaqlıq; 2) ayrılıq; ~ کردن (جستن) uzaqlaşmaq

دوز [duz] دوختن *f.-nin. k.*; mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "tikən" mənasını bildirir: کفش دوز pinəçi, ayaqqabı tikən

دوزبان [dozəban] 1) *bax* دورو; 2) sözləri bir-birinə uyğun gəlməyən, özü öz əksinə danışan

دوزبانی [dozəbani] 1) ikiüzlülük, riyakarlıq; 2) sözləri bir-birinə uyğun gəlməmə, özü öz əksinə danışma

دوزخ [duzəx] cəhənnəm

دوزندگی [duzəndegi] *bax* خیاطی 2)

دوزنده [duzənde] *bax* خیاط

دوست [dust] dost; ~ جانی yaxın dost; ~ داشتن sevmək; ~ شدن dostlaşmaq

دوستانه [dustane] dostcasına, səmimi

دوستدار [dustdar] sevən, istəyən

دوست داشتنی [dustdaştəni] sevilməli; mehriban, cazibəli

دوستی [dusti] dostluq; məhəbbət; ~ داشتن dost olmaq; ~ کردن dostluq etmək; ◊ ~ خاله خرسه nadan adamın dostluğu

دوسره [dosəre] *dan.* ikitərəfli; ~ بلیط ikitərəfli bilet (*getmək və qayıtmaq üçün bilet*)

دوسیدن [dusidən] 1) yapışdırmaq; 2) özünü güclə birisinə yaxınlaşdırmaq

دوسیه [dosye] dosye

دوش [duş] I çiyin; ~ به ~ *bax* دوشادوش; ~ به انداختن çiyinə atmaq; ~ به کشیدن çiyinə çəkmək

دوش [duş] II duş, hamam; ~ گرفتن duş qəbul etmək

دوش [duş] III dünən gecə, keçən gecə

دوشاب [duşab] doşab

دوشادوش [duşaduş] çiyin-çiyinə; bir-birinin yanında

دوشاندن [duşandən] *bax* دوشیدن

دوشانیدن [duşanidən] *bax* دوشیدن

دوشک [duşək // doşək] *bax* دشک

دوشنبه [doşəmbe] bazar ertəsi

دوشنده [duşənde] sağıcı

دوشیدن [duşidən] 1) sağmaq; 2) *dan.* birindən pul qoparmaq

دوشیده [duşide] دوشیدن *f.-nin k.z.f.sif.*; sağılmış

دوشیزگی [duşizegi] qızlıq; bəkarət, bakirəlik; ~ ستدن qızlığını almaq, bakirəliyi pozmaq

دوشیزه [duşize] qız

دوطرفه [dotərəfe] 1) ikitərəfli; ~ موافقت نامه ikitərəfli müqavilə; 2) qarşılıqlı, birgə

دوغ [duğ] ayran

دوغاب [duğab] 1) əhəng məhlulu; 2) sement məhlulu

دوقلو [doğolu] 1) əkiz; 2) *astr.* Əkizlər bürcü (*22.V-21.VI*)

دوک [duk] cəhrə

دوگانه [doqane] 1) ikiqat, iki dəfə artıq; 2) iki cür; ikimənalı, ikibaşlı

دول [dovəl] *t.* دولت

دولا [dola] 1) ikiqat, ikienli, iki eni olan; ~ چیت ikienli çit; 2) əyilmiş, qatlanmış; ~ شدن ikiqat olmaq; əyilmək; ~ کردن a) əymək; b) qatlamaq

دولاب [dulab] 1) su çarxı; 2) dolab, şkaf

دولت [doulət] *c.* دول [dovəl] 1) dövlət; آذربایجان ~ Azərbaycan dövləti; 2) var-dövlət, sərvət

دولت خواه [doulətxah] 1) hökumət tərəfdarı; 2) xeyirxah, yaxşı düşüncəli

دولت خواهی [doulətxahi] 1) hökumət tərəfdarlığı, dövlətə tərəfdarlıq; 2) xeyirxahlıq

دولتمند [doulətmənd] varlı, dövlətli; شدن ~ varlanmaq

دولتمندی [doulətməndi] 1) varlılıq, varlı olma, dövlətlilik; 2) xoşbəxtlik, səadət, bəxtəvərlik

دولتی [douləti] dövlət, dövlətə məxsus; ~ دانشگاه dövlət universiteti

دوم [dovvom] ikinci

دومی [dovvomi] ikincisi

دومین [dovvomin] *bax* دوم

دون [dun] 1) aşağı; 2) alçaq, rəzil

دون پرور [dunpərvər] alçaq adamlara kömək edən, alçaq adamları dəstəkləyən

دوندگی [dəvəndegi] 1) qaçma, yüyürmə; 2) vurnuxma, tələş

دونده [dəvənde] qaçan, yüyürən; ~ اسب qaçan at

دون صفت [dunsefət] şəxsiyyətsiz, alçaq, əclaf, yaramaz

دون همت [dunhemmət] alçaqniyyətli, yaramaz, əclaf

دون همتی [dunhemməti] alçaqlıq yaramazlıq, əclaflıq

دونی [duni] alçaqlıq; zillət, zəlillik; yaltaqlıq

دویدن [dəvidən] 1) qaçmaq, yüyürmək; 2) tələsmək

دویست [devist] iki yüz

دویمی [doyyomi] *bax* دوم

ده [dəh] on

ده [deh] kənd

دهاتی [dehati] 1) kəndli, kənd adamı; 2) *dan.* kobud, mədəniyyətsiz

دهان [dəhan] ağız; ◊ باز کردن ~ danışmağa başlamaq; به ~ کسی گذاشتن ağız-ağıza vermək, sözləşmək, mübahisə etmək; به ~ گشتن ağızdan-ağıza keçmək; ~ گرم داشتن a) gözəl danışmaq; b) məlahətlə oxumaq

دهان بین [dəhanbin] 1) hər sözə inanan, tez inanan; 2) öz şəxsi fikri olmayan, başqalarının sözü ilə oturub-duran

دهان بینی [dəhanbini] 1) hər sözə inanma, tez inanma; 2) öz şəxsi fikri olmama, başqalarının sözü ilə oturub-durma

دهان دره [dəhandərə] əsnəmə; کردن (کشیدن) ~ əsnəmək

دهان دریده [dəhandəride] hərzə danışan, həyasız, abırsız, utanmaz

دهانه [dəhane] 1) ağız (*körfəzdə, quyuda və s.*); چاه ~ quyunun ağzı; 2) giriş; qapı; غار ~ mağaranın girişi; زدن ~ cilovlamaq (*atı*)

دهخدا [dehxoda] kəndin böyüyü, kənd sahibi, kətxuda

دهدار [dehdar] dehdar (*İran İslam Respublikasında dehestanın – kənd ərazi bölgüsü vahidinin başçısı*)

دهر [dəhr] *c.* دهور [dəhur] 1) zaman, vaxt, dövr; 2) dünya, aləm; 3) tale, qismət; مخالف ~ uğursuz tale

دهره [dəhre] 1) oraq; 2) dəhrə; ◊ دهر ~ aypara, hilal

دهستان [dehestan] dehestan (*İran İslam Respublikasında kəndlərə aid ərazi bölgüsü vahidi*); bir ərazi bölgü vahidində birləşən bir neçə kənd

دهشت [dəhşət] dəhşət, qorxu; vahimə; کردن ~ qorxmaq, dəhşətə gəlmək; به ~ انداختن qorxuya salmaq

دهشت انگیز [dəhşətəngiz] dəhşətli, qorxunc

دهشت زده [dəhşətzədə] qorxmuş, qorxuya düşmüş, dəhşətə gəlmiş

دهشت ناک [dəhşətnak] *bax* دهشت انگیز

دهقان [dehğan] *c.* دهاقین [dəhağin] kəndli, əkinçi

دهقانی [dehğani] kənd təsərrüfatı; əkinçilik

دهکده [dehkədə] *bax* ده [deh]

دهل [dohol] təbil; ◊ زیر گلیم زدن ~ aşkar bir şeyi gizlətməyə çalışmaq, cidanı çuvalda gizlətmək

دهلیز [dehliz] dəhliz, vestibül

دهم [dəhom] onuncu

دهمین [dəhomin] *bax* دهم

دهن [dəhən] *bax* دهان

دهنده [dəhənde] verən, bağışlayan; səxavətli; دست ~ səxavətli əl

ده نشین [dehneşin] kənd sakini, kəndli

دهنه [dəhənə] *bax* دهانه

دهه [dəhe] *c.* دهگان [dəheqan] ongünlük, dekada; اول فروردین ~ fərvərdin ayının birinci ongünlüyü

دی [di] dünən; dünənki gün; dünənki axşam

دی [dey] dey (*İran hicri-şəmsi ilinin onuncu ayı: 22-23 dekabr – 20-21 yanvara uyğun gəlir*)

دیابت [diyabet] *tib.* diabet, şəkər xəstəliyi

دیار [diyar] diyar, ölkə

دیانات [diyanat] *t.* دیانت

دیانت [diyanət] *c.* دیانات [diyanat] 1) dindarlıq, möminlük; 2) şərəf, vicdan

دیانت دار [diyanətdar] 1) dindar, mömin; 2) təmiz, şərəfli, vicdanlı

دیانت کار [diyanətkar] *bax* دیانت دار

دیانتی [diyanəti] *bax* دیانت دار

دیبا [diba] ipək (*parça*)

دیباج [dibac] *bax* دیبا

دیباچه [dibaçe] dibaçə, ön söz, giriş

دیپلم [diplom] diplom

دیپلمات [diplomat] diplomat

دیپلماسی [diplomasi] diplomatiya, siyasət

دیپلمه [diplome] 1) orta məktəbi bitirən; 2) diplom sahibi, diplomu olan

دیجور [deycur] zil qaranlıq, zülmət gecə

دید [did] 1) görmə, göz; görmə qabiliyyəti; 2) baxış; nəzər; 3) fikir, əqidə

دیدار [didar] 1) görüş; دوستانه ~ dostcasına görüş, dostluq görüşü; به ~ امید görüşmək ümidilə, görüşənədək; 2) zahiri görkəm, görünüş, sifət; کردن ~ görüşmək; به ~ رفتن görüşə getmək

دیدبان [did(e)ban] gözətçi, müşahidəçi

دیدبانی [did(e)bani] gözətçilik, müşahidəçilik

دیدن [didən] *k.* بین [bin] görmək, baxmaq, nəzər salmaq; müşahidə etmək; mülahizə etmək

دیدنی [didəni] görməli, görməyə layiq; ~ منظره görməli mənzərə

دید و بازدید [didəbazdid] görüşmə, görüşə gedib-gəlmə; کردن ~ görüşmək, görüşə gedib-gəlmək

دید و بوسی [didobusi] görüşüb-öpüşmə

دیده [dide] دیدن *f.-nin k.z.f. sif.:* 1) mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "təcrübəli" mənasını bildirir: دنیا دیده dünyagörmüş, təcrübəli; 2) *c.* دیدگان [dideqan] göz; گشودن ~ göz açmaq; (بربستن) بردوختن ~ göz yummaq

دیده بان [dideban] *bax* دیدبان

دیده پوشی [didepuşi] göz yumma, güzəştə getmə; کردن ~ göz yummaq, güzəştə getmək

دیر [dir] 1) gec; 2) yavaş-yavaş; asta-asta; 3) gecikmiş; ~ تصمیم gecikmiş qərar; آمدن ~ gec gəlmək; ~ برخاستن gec oyanmaq; ~ زیستن çox yaşamaq; شدن ~ gec olmaq; ~ کار کردن yavaş-yavaş işləmək; ~ کردن gecikmək

دیر [deyr] *c.* ادیار [ədyar] // دیور [doyur] 1) ibadətxana, məbəd, kilsə; 2) monastır; ~ تنگ dünya, aləm; مغان atəşkədə, bütxana

دیر آشنا [diraşena] adamayovuşmaz, gec qaynayıb-qarışan

دیرآمده [diramədə] gecikmiş

دیرباز [dirbaz] çoxdankı, çox əvvəllər

دیرباور [dirbavər] şübhə edən, çətin inanan, skeptik

دیرباوری [dirbavəri] şübhə etmə, çətin inanma, skeptizm

دیرپا [dirpa] 1) davamlı, uzunmüddətli; 2) möhkəm, sabit; 3) çox yaşayan

دیرپایی [dirpayi] 1) möhkəmlik, sabitlik, davamlılıq; 2) uzunçəkmə; 3) çox yaşama

دیرپسند [dirpəsənd] heç nəyi bəyənməyən, bəhanə axtaran, öcəşkən, hər şeyə irad tutan

دیر زمانی [dirzəmani] uzun bir müddət

دیرگاه [dirqah] 1) çoxdan; 2) gec

دیرمدت [dirmoddət] uzunmüddətli

دیروز [diruz] dünən, keçən gün

دیروزه [diruze] *bax* دیروزی

دیروزی [diruzi] dünənki

دیروقت [dirvəğt] 1) gec, çox gec, vaxtsız; 2) çoxdan

دیرهضم [dirhəzm] gec həzm olunan, çətin həzm olunan

دیرین [dirin] qədim, köhnə; ~ دوست köhnə dost; ~ عادات köhnə adətlər

دیرین شناس [dirinşenas] paleontoloq, paleontologiya mütəxəssisi

دیرین شناسی [dirinşenasi] paleontologiya

دیرینه [dirine] *bax* دیرین

دیزل [dizel] 1) dizel (*daxiliyanma mühərrik*); 2) dizel mühərrikli avtomobil

دیزی [dizi] piti qabı

دیس [dis] böyük boşqab

دیشب [dişəb] dünən axşam, dünən gecə

دیشلمه [dişləmc] dişləmə; ~ چای dişləmə çay

دیکته [dikte] imla

دیگ [dig] qazan; ~ زود پز tez-bişirən qazan; ~ مسی mis qazan; ◊ به جوش آوردن ~ həvəsə gətirmək, qızışdırmaq

دیگر [digər] 1) digər, başqa, o biri; ~ اشخاص başqaları, başqa adamlar; ~ به عبارت başqa sözlə desək; 2) sonrakı; ~ روز sonrakı

دو ~ روز iki gündən sonra; یک ~ نفر daha bir nəfər

دیگران [digəran] başqa adamlar

دیگرگون [digərqun] 1) başqa cür; dəyişmiş; 2) özünü itirmiş, həyəcanlanmış; شدن ~ a) başqa cür olmaq; dəyişilmək; b) özünü itirmək; həyəcanlanmaq; (ساختن) کردن ~ a) başqa cür etmək; dəyişdirmək; b) həyəcanlandırmaq

دیگرگونی [digərquni] 1) dəyişmə; 2) həyəcan, çaşqınlıq

دیگری [digəri] başqa, ikinci; یکی پس از ~ bir-birinin ardınca

دیلم [deyləm] külüng, ling

دیم [deym] dəmyə, əkin

دیم کاری [deymkari] dəmyə əkini, dəmyə əkinçiliyi

دین [din] *c.* ادیان [ədyan]; ~ اسلام islam dini; ~ مسیحی xristian dini

دین [deyn] c. دیون [doyun] borc; ~ ادای borcu ödəmə

دین پرست [dinpərəst] *bax* دین پرور

دین پرستی [dinpərəsti] *bax* دین داری

دین پرور [dinpərvər] din tərəfdarı, dini müdafiə edən

دین دار [dindar] dindar, mömin

دین داری [dindari] dindarlıq, möminlik

دینی [dini] dini; ~ احکام dini ehkamlar

دیو [div] div, şeytan

دیوار [divar] divar, hasar; ساختن ~ (کشیدن) divar tikmək; divar çəkmək; ◊ ~ صوت səs baryeri (*maneəsi*)

دیوان [divan] *c.* دواوین [dəvavin] divan, lirik şeirlər toplusu (*bir müəllifin*); ~ ترکی فضولی Füzulinin türkcə divanı

دیوانگی [divanegi] dəlilik; axmaqlıq, ağılsızlık; کردن ~ dəlilik etmək; ağılsızlıq etmək

دیوانه [divane] 1) dəli; axmaq, ağılsız; 2) aşiq, məftun; شدن ~ dəli olmaq; کردن ~ dəli etmək, dəli-divanə etmək

دیوانه خانه [divanexane] *bax* تیمارستان

دیوانه وار [divanevar] dəlicəsinə, dəli kimi; axmaqcasına, axmaq kimi

دیوخو [divxu] div xasiyyətli, kinli, qəzəbli

دیوسرشت [divsereşt] *bax* دیوخو

دیوسیرت [divsirət] acıqlı; div kimi kinli; qəzəbli, həvəsli

دیوکردار [divkerdar] *bax* دیوخو

دیه [diye] qan bahası, qan pulu

دیهیم [deyhim] 1) tac; 2) taxt; 3) Ay və Günəş ətrafındakı həlqələr

ذ

ذ [zal] fars əlifbasının on birinci hərfi; əbcəd hesabında 700 rəqəmini ifadə edir

ذات [zat] *c.* **ذوات** [zəvat] 1) mahiyyət; 2) təbiət, xasiyyət; cins; 3) subyekt, şəxs; **~ شریف (عالی)** zati-ali, zati-aliləri (*yüksəkvəzifəli şəxsə müraciət*)

ذاتاً [zatən] 1) əslində, təbii olaraq; 2) təbiətinə görə, cinsinə görə

ذات البین [zatolbeyn] qarşılıqlı əlaqə, qarşılıqlı münasibət; **اصلاح ~** **کردن** a) qarşılıqlı əlaqələri yaxşılaşdırmaq; b) iki tərəfi (*partiyanı*) barışdırmaq

ذات الجنب [zatolcəmb] *tib.* plevrit, sətəlcəm

ذات الریه [zatorriye] *tib.* pnevmoniya, ağ ciyərin iltihabı

ذاتی [zati] 1) əsas, başlıca; 2) təbii, əsli, fitri; **~ صفات** təbii keyfiyyətlər (*xüsusiyyətlər*)

ذاکر [zaker] 1) qeyd edən, xatırladan, yada salan; 2) tərifləyən (*Allahı*); dua edən; 3) *bax* **روضه خوان**

ذایقه [zayeğe] dadma hissi; dadbilmə duyğusu

ذبح [zebh] boğazlama, kəsmə (*heyvanı*); qurban kəsmə

ذبیح [zəbih] boğazlanmış, kəsilmiş (*heyvan*)

ذبیحه [zəbihe] *bax* **ذبیح**

ذخایر [zəxayer] *t.* **ذخیره**; **~ طبیعی** təbii ehtiyatlar

ذخیره [zəxire] *c.* **ذخایر** [zəxayer] ehtiyat; fond; **~ طلا** qızıl ehtiyatı; **~ کردن** ehtiyat görmək; tədarük etmək

ذرت [zorrət] qarğıdalı; **~ خوشه ای** (**فرنگی**) kalış (*darıyaoxşar dənli bitki*); **~ نان** qarğıdalı çörəyi

ذرع [zər'] arşın (*104 sm uzunluğunda ölçü vahidi*)

ذروه [zerve // zorve] zirvə, dağın təpəsi; ən yüksək nöqtə (*hər hansı bir şeyin*)

ذره [zərre] *c.* **ذرات** [zərrat] zərrə, ən kiçik hissə

ذره بین [zərrebin] zərrəbin, mikroskop; lupa

ذره بینی [zərrebini] mikroskopik; **~ تجزیه** mikroskopik analiz; **~ حیوانات** mikroskopik heyvanlar

ذره ذره [zərrezərre] zərrə-zərrə, parça-parça, hissə-hissə; damcı-damcı; **~ شدن** parça-parça olmaq; çox kiçik hissələrə bölünmək

ذریه [zorriyye] *c.* **ذراری** [zərari] // **ذریات** [zorriyyat] 1) nəsil, kök, soy; 2) övlad

ذغال [zoğal] *bax* **زغال**

ذقن [zəgən] çənə

ذکا [zəka] *bax* **ذکاوات**

ذکام [zokam] *bax* **زکام**

ذکاوت [zəkavət] 1) zəka, ağıl, dərrakə, fərasət, dərin düşüncə; 2) çalışqanlıq, zirəklik

ذکر [zəkər] *c.* **ذکور** [zokur] 1) erkək; kişi; 2) kişi cinsiyyət orqanı

ذکر [zekr] *c.* **اذکار** [əzkar] 1) qeyd etmə, xatırlatma, yada salma; 2) *din.* zikr (*Allahı anma; Allaha dua etmə*); **~ کردن** qeyd etmək, xatırlatmaq, yada salmaq; **~ گفتن** Allahı anmaq; Allaha dua etmək

ذکی [zəki] zəkalı, zirək, fərasətli

ذلالت [zəlalət] *bax* **ذلت**

ذلت [zellət] 1) zillət, zəlalət, zəlillik, alçaqlıq, rəzillik, əclaflıq; 2) bədbəxtlik

ذله [zelle] *dan.* yorulmuş, yorğun, əldən düşmüş; **~ شدن** yorulmaq, əldən düşmək; **~ کردن** a) yormaq, əldən salmaq; b) təngə gətirmək, bezdirmək

ذلیل [zəlil] 1) zəlil, alçaq, rəzil; 2) bədbəxt; **~ شدن** a) alçalmaq; b) bədbəxt olmaq; **~ کردن** a) alçaltmaq; b) bədbəxt etmək

ذلیلی [zəlili] *bax* **ذلت**

ذم [zəm(m)] *c.* **ذموم** [zomum] məzəmmət, danlaq, töhmət, qınaq

ذمه [zəmme] *c.* **ذمم** [zeməm] 1) vəzifə, mənəvi borc; 2) öhdəlik; cavabdehlik; məsuliyyət; **بر~ گرفتن** özünə borc saymaq; öhdəsinə götürmək

ذمه دار [zemmedar] 1) mükəlləfiyyətli, öhdəsinə götürən; 2) cavabdeh, məsul

ذمه داری [zemmedari] 1) *bax* **ذمه**; 2) qayğı, himayə

ذمیم [zəmim] rüsvayçı, biabırçı

ذمیمه [zəmime] 1) *bax* **ذمیم**; 2) *c.* **ذمایم** [zəmayem] eyibli, qəbahətli, çirkin (*hərəkət*); 3) yaramazlıq, çirkinlik

ذنب [zəmb] *c.* **ذنوب** [zonub] günah, suç, qəbahət

ذو الجلال [zolcəlal] calal sahibi, calallı, əzəmətli (*Allahın epiteti*)

ذو الحجه [zolhəcce] *bax* **ذیحجه**

ذو القعده [zolğə'de] *bax* **ذیقعده**

ذو المنن [zolmənən] alicənab, kərəm sahibi (*Allahın epiteti*)

ذوب [zoub] ərimə, əridilmə, əritmə; **~ قابل** əriyən, əriyə bilən; **~ فلز کارخانه** metallurgiya zavodu; **~ شدن** ərimək (*metal, qar, yağ*); **~ کردن** əritmək (*metalı, qarı, yağı*)

ذوبان [zouban] *bax* **ذوب**

ذوحیاتین [zuhəyateyn] suda-quruda yaşayan, amfibiya; **~ حیوانات** suda-quruda yaşayanlar

ذوفنون [zufonun] bir çox elmləri bilən, erudisiyalı, geniş məlumatlı

ذوق [zouğ] 1) zövq, səliqə, hünər; **~ ارباب** // **~ اهل** zövq əhli, incə zövqlü; 2) meyil, həvəs

ذوق آور [zouğavər] məzəli, zarafatcıl

ذوق زده [zouğzəde] heyran qalmış, valeh olmuş

ذوق مند [zouğmənd] zövqlü, incəsənəti sevən

ذوقی [zouği] estetik

ذوقیات [zouğiyyat] estetika

ذهن [zehn] *c.* **اذهان** [əzhan] 1) zehin, hafizə, yaddaş; 2) ağıl, dərrakə

ذی الحجه [zilhəcce] *bax* **ذیحجه**

ذی القعده [zilğə'de] *bax* **ذیقعده**

ذیحجه [zihəcce] zihəcce (*hicri-qəməri ilinin on ikinci ayı*)

ذی حق [zihəğ(ğ)] haqlı; **~ بودن** haqlı olmaq

ذی حیات [zihəyat] canlı, diri

ذی ربط [zirəbt] əlaqəli, rabitəli

ذی روح [ziruh] *bax* **ذی حیات**

ذی شان [zişə'n] şöhrətli, şan-şöhrətli, adlı-sanlı

ذی شعور [zişour] şüurlu, dərrakəli

ذی صلاحیت [zisəlahiyyət] səlahiyyətli, səlahiyyəti olan

ذی علاقه [ziəlağe] əlaqədar, əlaqəsi olan

ذی فقاران [zıfəğaran] onurğalılar; ~ **حیوانات** onurğalı heyvanlar; ~**غیر** onurğasızlar; ~**غیر حیوانات** onurğasız heyvanlar

ذی فنون [zifonun] *bax* **ذو فنون**

ذیقعده [ziğə'de] ziqədə (*hicri-qəməri ilinin on birinci ayı*)

ذی قیمت [ziğeymət] qiymətli, bahalı

ذیل [zeyl] aşağı; ~ **امضا کنند گان** aşağıda qol çəkənlər; ~**از قرار** aşağıda göstərildiyi kimi

ذیلاً [zeylən] aşağıda, aşağıdakı, aşağıda qeyd olunan

ذی‌نفع [zinəf'] marağı olan; əlaqədar

ذی‌نفوذ [zinofuz] nüfuzlu, nüfuz sahibi, mötəbər

ر

ر [re] fars əlifbasının on ikinci hərfi; əbcəd hesabında 200 rəqəmini ifadə edir

را [ra] təsirlik halı bildirən son qoşma: **کتاب را خواندم** kitabı oxudum; **اورا دیدم** onu gördüm

رابط [rabet] 1) əlaqələndirən; birləşdirən; 2) vasitəçi, araçı

رابطه [rabete] *c.* **روابط** [rəvabet] 1) əlaqə, münasibət; ~ **(روابط) دوستانه** dostluq münasibətləri; 2) *bax* **رابط 1)**

رابع [rabe'] dördüncü

رابعاً [rabe'ən] dördüncüsü

راپرت [raport] 1) raport; məlumat, xəbər; 2) məruzə; ~ **دادن** xəbər vermək; məruzə etmək

راپورت [raport] *bax* **راپرت**

راجح [raceh] imtiyazlı; üstün; ~ **بودن** imtiyazlı olmaq; üstün olmaq

راجع [race']: ~ **به** haqqında, barəsində; ~ **به این** bu barədə

راحت [rahət] 1) rahat; sakit; 2) sakitlik, istirahət; ~ **شدن** rahatlanmaq, rahat olmaq; sakitləşmək; ~ **کردن** rahatlamaq, rahat etmək; sakitləşdirmək; ~ **باش** azad! (*hərbi komanda*)

راحت بخش [rahətbəxş] sakitləşdirici; sevindirici

راحت طلب [rahəttələb] 1) rahatlığı sevən, özünə baxan; 2) tənbəl, bekarçılığı sevən

راحت طلبی [rahəttələbi] rahatlığı sevmə, özünə baxma

راحتی [rahəti] rahatlıq, komfort; ~ **صندلی** yumşaq stul, kreslo; ~ **کفش** ev ayaqqabısı, şapşap

راحله [rahele] *c.* **رواحل** [rəvahel] minik heyvanı

راحم [rahem] rəhmli, mehriban

راد [rad] 1) əliaçıq, səxavətli; 2) alicənab, nəcib; 3) igid, cəsur

رادار [radar] radar

رادبوی [radbuy] *bot.* aloe, əzvay

رادمرد [radmərd] *bax* **راد**

رادمردی [radmərdi] *bax* **رادی**

رادمنش [radmənəş] *bax* **راد**

رادی [radi] 1) əliaçıqlıq, səxavət; 2) alicənablıq, nəciblik; 3) igidlik, cəsarət

رادیکال [radikal] I radikal

رادیکال [radikal] II *riyaz.* kök

رادیو [rad(i)yo] radio

رادیو آکتیو [rad(i)yoaktiv] radioaktiv

رادیوساز [rad(i)yosaz] radio təmir edən, radio düzəldən

رادیوسازی [rad(i)yosazi] 1) radio təmiri; 2) radio təmiri emalatxanası

راز [raz] sirr; ~ **فاش کردن (گشادن)** sirri açmaq; ~ **نهفتن** sirri gizlətmək

راز بان [razban] *bax* **رازدار**

رازپوش [razpuş] *bax* **رازدار**

رازدار [razdar] sirr saxlayan; mötəbər şəxs, etibarlı adam

رازداری [razdari] sirr saxlama

رازق [razeğ] ruzi verən, çörək verən (*Allahın adlarından biri*)

رازگشایی [razqoşayi] sirrin açılması, sirrin bilinməsi

رازونیاز [razoniyaz] ürək sirlərini açıb danışma; ~ **کردن** bir-birinə ürək sirlərini demək

رازیانه [razyane] *bot.* razyana

رأس [rə's] *c.* **رؤوس** // **رئوس** [rous] 1) yuxarı, yuxarı hissə; baş; **در ~ کوه** dağın başında; 2) başçı; **در ~ هنیت**

nümayəndə heyətinin başında; 3) baş (*heyvanlar üçün numerativ söz*); ~ ده گاو on baş inək

راست [rast] 1) düz, doğru; ~ راه düz yol; ~ حرف doğru söz; 2) sağ (*tərəf*); ~ سمت sağ tərəf

راستا [rasta] 1) *riyaz.* istiqamət, yön; 2) *bax* راست **1)**

راست کار [rastkar] 1) təmiz, saf, düz, vicdanlı; 2) ədalətli, insaflı

راست کاری [rastkari] təmizlik, saflıq; 2) ədalət, düzlük

راست گرا [rastgəra] *siy.* sağçı, sağ təmayüllü

راست گرایی [rastgərayi] *siy.* sağçılıq, sağa meyillik

راستگو [rastqu] düz danışan, doğruçu; doğrucul

راست گویی [rastquyi] düz danışma, doğru danışma

راسته [raste] 1) sümüksüz ət, can əti; 2) *riyaz.* üfüqi

راستی [rasti] 1) düzlük, doğruluq, təmizlik, saflıq; 2) doğrudan, həqiqətən

راسخ [rasex] 1) möhkəm, bərk; dəyişməz, sabit; 2) qəti; شدن ~ möhkəmlənmək; sabitləşmək; کردن ~ möhkəmlətmək; sabitləşdirmək

راضی [razi] 1) razı, məmnun; 2) uyğun, müvafiq; شدن ~ a) razılaşmaq, b) uyğunlaşmaq; مرکز ~ a) razı salmaq, razılaşdırmaq; 2) uyğunlaşdırmaq

راغب [rağeb] rəğbət bəsləyən, meyil göstərən; بودن ~ rəğbət bəsləmək, meyil göstərmək

رافت [rə'fət] şəfqət, rəhm, mərhəmət; mehribanlıq

راقم [rağem] 1) yazan; katib; 2) çəkən (*şəkil*); 3) yazıçı; 4) rəssam

راکب [rakeb] 1) atlı, süvari; 2) sərnişin

راکت [raket] 1) *idm.* raketka; 2) raket (*mərmi*)

رآکتور [reaktor] reaktor; اتمی ~ (هسته ای) atom reaktoru

راکد [raked] hərəkətsiz, sakit, durğun; آب ~ durğun su; ◊ حساب ~ dondurulmuş hesab (*pul*)

رام [ram] sakit, dinc; itaətkar, sözəbaxan; شدن ~ sakit olmaq; tabe olmaq; کردن ~ ram etmək; tabe etmək

رامش [rameş] 1) istirahət; 2) şənlik, əyləncə; 3) musiqi; oxuma

رامشگاه [rameşqah] istirahət yeri, əyləncə yeri

رامشگر [rameşgər] 1) musiqiçi, xanəndə; 2) rəqqas, rəqqasə

رامشگری [rameşgəri] 1) musiqi; 2) oxuma, xanəndəlik; 3) rəqs, rəqqaslıq

ران [ran] bud; ◊افشردن (فشردن) ~ at çapmaq; گشادن ~ minmək (*ata*)

رانت [rant] xüsusi imtiyaz

راندمان [randeman] 1) səmərəlilik, verimlilik; xeyir, fayda; 2) istehsal həcmi, istehsal gücü; məhsuldarlıq; کارخانه ~ fabrikin məhsuldarlığı

راندن [randən] 1) qovmaq; ~ ازخانه evdən qovmaq; 2) sürmək (*atı, dəvəni və s.*); 3) sürmək, idarə etmək (*avtomobili, velosipedi və s.*)

رانندگی [ranəndegi] sürücülük

راننده [ranənde] sürücü

راوی [ravi] *c.* روات [rovat] rəvayət edən, nağıl söyləyən, danışan

راه [rah] 1) yol; آب ~ su yolu; ~ تنگ dar yol, cığır; 2) metod, üsul;

~ بدین bu üsulla, bu yolla; 3) dəfə, kərə; ~ صد yüz dəfə; 4) zolaq, cızıq (*parçada*); ~ پارچه parçanın zolağı; ~ آمدن düz yola gəlmək; razılaşmaq; افتادن ~ yola düşmək, yollanmaq, getmək; بردن ~ a) əlindən tutub aparmaq; b) başa düşmək, dərk etmək; ~ پیمودن getmək; جستن ~ yol axtarmaq; cəhd göstərmək; دادن ~ yol vermək; رفتن ~ getmək; ◊ انداختن ~ a) işə salmaq, hərəkətə gətirmək; b) düzəltmək, qaydaya salmaq; زدن ~ hücum etmək, yol kəsmək; گم کردن ~ yolunu azmaq; yanılmaq, səhv etmək

راه انداز [rahəndaz] starter, işə salan

راه آورد [rahavərd] hədiyyə, sovqat (*səfərdən gətirilən*)

راه آهن [rahahən] dəmir yolu; ایستگاه ~ dəmir yolu stansiyası; ~ کشیدن dəmir yolu çəkmək

راهب [raheb] *c.* رهبان [rohban] rahib, tərki-dünya

راهبر [rahbər] 1) bələdçi; yolgöstərən; 2) *bax* رهبر

راهبرد [rahbord] strategiya

راهبردی [rahbordi] strateji

راهبری [rahbəri] 1) bələdçilik etmə, yol göstərmə; 2) *bax* رهبری

راهبری [rahbori] yolkəsmə, oğurluq

راه بند [rahbənd] şlaqbaum

راهبندان [rahbəndan] yolu bağlama, yolu kəsmə

راهبه [rahebe] rahibə

راه پیما [rahpeyma] piyada yol gedən; səyyah

راه پیمایی [rahpeymayi] piyada yol getmə; səyyahlıq; 2) marş, hərbçilərin yerişi

راهدار [rahdar] yol gözətçisi, yolda yol pulu alan

راهداری [rahdari] yola nəzarət; yol xidməti idarəsi

راه راه [rahrah] zolaq-zolaq, xətli, cızıqlı (*parça*)

راهرو [rahrou] 1) dəhliz; 2) yolla gedən, yolçu, piyada

راهزن [rahzən] yolkəsən, oğru

راهزنی [rahzəni] yolkəsənlik, oğurluq; هوایی ~ təyyarə qaçırma; کردن ~ yol kəsmək, oğurluq etmək

راهساز [rahsaz] yolçəkən, yol fəhləsi

راهسازی [rahsazi] yol çəkmə, yol tikmə

راهگذار [rahqozar] 1) yolçu, yoldan keçən; 2) keçid

راهنامه [rahname] 1) yol nişanları; 2) yol xəritəsi

راهنما [rahnəma] bələdçi; yolgöstərən

راهنمایی [rahnəmayi] bələdçilik etmə, yol göstərmə; کردن ~ bələdçilik etmək, yol göstərmək

راهی [rahi] *dan.* gedən, yola düşən; کردن ~ yola salmaq

رأی [rə'y] *c.* آرا [ara] 1) rəy, fikir, nəzər; اخذ ~ səsə qoyma; 2) qərar (*məhkəmənin*); دادگاه ~ məhkəmənin qərarı; 3) səsvermə; علنی ~ açıq səsvermə; عمومی ~ ümumi səsvermə; referendum; مخفی ~ gizli səsvermə; گرفتن ~ səs almaq, səs toplamaq

رایانه [rayane] kompyuter

رایج [rayec] 1) yayılan, dövriyyədə olan (*pul*); 2) tezsatılan

رایحه [rayehe] *c.* روایح [rəvayeh] rayihə, qoxu, xoş iy, ətir

رأی دهی [rə'ydehi] səsvermə; عمومی ~ referendum

رایزنی [rayzəni] məsləhət, məşvərət; فرهنگی ~ mədəniyyət mərkəzi; کردن ~ məsləhətləşmək

رایگان [ray(e)qan] pulsuz, müftə

رأی گیری [rəygiri] səs vermə, səs alma (*seçkidə*)

رب [rəb(b)] *c.* ارباب [ərbab] 1) Allah, Tanrı; 2) cənab, ağa

رب [rob(b)] *c.* ربوب [robub] 1) şirə; انار ~ nar şirəsi; 2) tomat; گوجه ~ فرنگی pomidor tomatı

ربا [reba] sələm, faizlə borc vermə; خوردن ~ sələm almaq

رباب [robab] rübab (*musiqi aləti*)

رباخوار [rebaxar] sələmçi, faizlə borc pul verən

رباخواری [rebaxari] sələmçilik

رباط [rebat] I karvansara

رباط [rebat] II *anat.* bağ, bənd

رباعی [robai] rübai

ربانی [rəbbani] İlahi

ربانیدن [robanidən] oğurlatmaq, oğurlatdırmaq

ربایش [robayeş] 1) oğurlama; 2) qaçırma; 3) cəzb etmə

ربایندگی [robayendegi] *bax* ربایش

رباینده [robayende] 1) oğru; 2) cazibəli; نگاه ~ cazibəli baxış

ربح [rebh] 1) faiz; قرض با ~ صدی پنج beşfaizli borc; 2) gəlir, qazanc

ربح آور [rebhavər] gəlirgətirən, gəlirverən, gəlirli; رشته ~ gəlirli sahə

ربط [rəbt] əlaqə, münasibət, aidlik; حرف ~ *qram.* bağlayıcı; دادن ~ aid etmək; داشتن ~ aid olmaq

ربع [rob'] dörddəbir; یک ~ ساعت saatın dörddə biri (*on beş dəqiqə*)

ربعی [rob'i] rüblük; گزارش ~ rüblük hesabat

ربوبیت [robubiyyət] allahlıq, ilahilik; ülviyyət

ربودگی [robudegi] oğurluq

ربودن [robudən] *k.* ربا [roba] 1) oğurlamaq; 2) qaçırmaq; 3) qapmaq; 4) cəlb etmək

ربیع [rəbi'] yaz, bahar

ربیع الآخر [rəbi'olaxer] rəbiülaxir (*hicri-qəməri ilinin dördüncü ayı*)

ربیع الاول [rəbi'oləvvəl] rəbiüləvvəl (*hicri-qəməri təqviminin üçüncü ayı*)

رپرتاژ [repurtaj] reportaj

رپورتاژ [reportaj] *bax* رپرتاژ

رتبه [rotbe] *c.* رتب [rotəb] rütbə, vəzifə, dərəcə; دادن ~ vəzifəni yüksəltmək; rütbə vermək; elmi ad və ya dərəcə vermək

رتیل [roteyl] *zool.* böyə (*cücü*), büvə

رج [rəc] sıra, cərgə

رجا [rəca] ümid; داشتن ~ ümid etmək, ümid bəsləmək

رجال [recal *t.* رجل; دولت ~ dövlət xadimləri

رجاله [rəccale] alçaq, rəzil; həyasız; xuliqan

رجاله بازی [rəccalebazi] xuliqanlıq; (کردن) درآوردن ~ xuliqanlıq etmək

رجب [rəcəb] rəcəb ayı (*hicri-qəməri təqviminin yeddinci ayı*)

رجحان [rochan] üstünlük; دادن ~ üstünlük vermək; داشتن ~ üstün olmaq; یافتن ~ üstünlük qazanmaq

رجز [rəcəz] 1) özünü tərifləmə, öyünmə, lovğalıq; 2) *ədəb.* rəcəz (*əruz vəzninin bəhrlərindən biri*); خواندن ~ özünü tərifləmək, öyünmək

رجزخوانی [rəcəzxani] özünü tərifləmə, öyünmə; کردن ~ özünü tərifləmək, öyünmək

رجعت [rec'ət] qayıdış; qayıtma (*xəstəlik*); بیماری ~ xəstəliyin qayıtması; کردن ~ a) qayıtmaq; b) təkrar olunmaq

رجل [rəcol] *c.* رجال [recal] 1) kişi; 2) xadim; سیاسی ~ siyasi xadim

رجم [rəcm] *din.* daş atma; daşla vurma; daşqalaq etmə

رجوع [rocu'] 1) müraciət (*kiməsə, nəyəsə*); 2) qayıtma, qayıdış; dönmə; کردن ~ müraciət etmək; ◊ ارباب ~ müştərilər

رجولیت [roculiyyət] kişilik; yetkinlik

رحل [rəhl] *c.* رحال [rehal] 1) yol yükü; 2) dəvə üstündəki oturacaq; 3) rəhil (*kitab oxumaq üçün altlıq*)

رحلت [rehlət] 1) getmə; köçmə; 2) ölüm, ölmə, vəfat, vəfat etmə (*müqəddəs şəxsiyyətlər haqqında*); کردن ~ a) getmək, köçmək; b) vəfat etmək

رحم [rəhəm // rəhem] *c.* ارحام [ərham] 1) *anat.* uşaqlıq, ana bətni; 2) qohumluq, qohumluq əlaqəsi; صله ~ qohumların birləşməsi; قطع صله ~ qohumluq əlaqəsini kəsmə

رحم [rəhm] rəhm, mərhəmət; mehribanlıq, şəfqət; (آوردن) کردن ~ rəhm etmək, şəfqət göstərmək

رحمان [rəhman] mehriban, bağışlayan (*Allahın adlarından biri*)

رحمانی [rəhmani] Allaha aid olan, İlahi

رحمت [rəhmət] rəhm, mehribanlıq; bağışlama, günahları əfv etmə; (کردن) آوردن ~ rəhm etmək; bağışlamaq, əfv etmək

رحمت الله علیه [rəhmətollahəəleyh] Allah ona rəhmət etsin

رحم دل [rəhmdel] rəhmli, mehriban, ürəyiyumşaq

رحیل [rəhil] 1) köç, köçmə, 2) getmə; səfər; yol

رحیم [rəhim] rəhmli, mehriban, mərhəmətli

رخ [rəx] 1) xətt, cızıq (*daşda*); 2) *bax* رخنه 1)

رخ [rox] I 1) üz, sifət; 2) yanaq; ~ در ~ üz-üzə; برتافتن ~ üz döndərmək; دادن ~ üz vermək, baş vermək; ◊ کشیدن به ~ özünü göstərmək, forslanmaq

رخ [rox] II *şahm.* top

رخت [rəxt] *c.* رخوت [roxut] 1) geyim, paltar; سفید ~ alt paltarı; 2) baqaj, yük; پوشیدن ~ geyinmək; کندن (در) ~ (آوردن) soyunmaq; ◊ بربستن ~ ölmək, dünyadan köçmək

رخت آویز [rəxtaviz] *bax* جارختی

رختخواب [rəxtexab] yorğan-döşək; yataq yeri

رخت دار [rəxtdar] paltarsaxlayan, qarderobçu (*teatrda, restoranda*)

رختشو [rəxtşu] paltaryuyan (*adam*)

رختشوخانه [rəxtşuxane] camaşırxana

رختشور [rəxtşur] *bax* رختشو

رختشورخانه [rəxtşurxane] *bax* رختشوخانه

رختشوری [rəxtşuri] *bax* رختشویی

رختشویخانه [rəxtşuyxane] *bax* رختشوخانه

رختشویی [rəxtşuyi] paltaryuma; ماشین ~ paltaryuyan maşın

رخت کن [rəxtkən] qarderob, paltar saxlanılan (*asılan*) yer

رخداد [roxdad] hadisə, əhvalat

رخسار [roxsar] 1) *bax* رخ I; 2) zahiri görünüş

رخساره [rəxşare] *bax* رخسار

رخش [rəxş] I işıq, şəfəq, parıltı

رخش [rəxş] II al; al-qırmızı

رخشا [rəxşa] *bax* رخشان

رخشان [rəxşan] parlaq, parıldayan

رخشندگی [rəxşəndegi] parlaqlıq, parıltı; داشتن ~ parıldamaq

رخشنده [rəxşənde] *bax* رخشان

رخشیدن [rəxşidən] *bax* در خشیدن

رخصت [roxsət] icazə, izin; خواستن ~ icazə istəmək; دادن ~ icazə vermək; گرفتن ~ icazə almaq

رخمه [rəxme] *zool.* kərkəs, keçəl kərkəs (*quş*)

رخنه [rəxne] 1) yarıq, deşik; 2) çat; 3) zərər, itki; (افکندن) کردن ~ a) yol tapıb keçmək; b) sızmaq

رذالت [rəzalət // rezalət] rəzillik, alçaqlıq

رذل [rəzl] *c.* رذول [rozul] // ارذال [ərzal] rəzil, alçaq

رذیل [rəzil] *bax* رذل

رذیلانه [rəzilane] alçaqcasına

رذیلت [rəzilət] *bax* رذالت

رذیله [rəzile] *c.* رذایل [rəzayel] rəzil hərəkət, alçaqlıq

رز [rəz] üzüm, meynə

رز [roz] 1) qızılgül; 2) çəhrayı (*rəng*)

رزاز [rəzzaz] düyüsatan

رزاق [rəzzağ] 1) ruzi verən, ruzi yetirən; 2) Allahın epiteti

رزبان [rəzban] üzümçü

رزبر [rəzbər] meynəkəsən qayçı

رزمندگی [rəzməndegi] döyüşkənlik, mübarizlik

رزمنده [rəzmənde] döyüşçü, döyüşkən, cəngavər

رزمیدن [rəzmidən] döyüşmək, vuruşmaq

رژه [reje] hərbi nümayiş; parad; ~ جایگاه parad meydanı; رفتن ~ paradla keçmək

رژیسور [rejisor] rejissor

رژیم [rejim] 1) rejim, quruluş; 2) qayda, nizam; 3) pəhriz; غذایی ~ yemək pəhrizi; (گرفتن) داشتن ~ pəhriz saxlamaq

رسا [rəsa] 1) uca; صدای ~ uca səs; 2) anlaşılan, başa düşülən

رسالت [rəsalət] 1) peyğəmbərlik;

رستگار [rəst(e)qar] 1) qurtarmış, azad olunmuş, xilas olmuş; 2) sağlam, xoşbəxt; شدن ~ azad olmaq, xilas olmaq; کردن ~ azad etmək, xilas etmək

رستگاری [rəst(e)qari] azadlıq, azadolma, xilasolma; یافتن ~ azad olmaq, xilas olmaq

رستن [rəstən] *k.* ره [rəh] azad olmaq, xilas olmaq

رستن [rostən] *k.* رو [ru] // روی [ruy] bitmək, cücərmək

رستنی [rostəni] 1) bitki; 2) yaşıllıq, göylük

رستوران [resturan] restoran

رسته [rəste] I 1) dərəcə, kateqoriya; 2) sahə; 3) sıra (*bazarda*); 4) qrup, dəstə

رسن باز [rəsənbaz] kəndirbaz

رسن تاب [rəsəntab] kəndirəyirən, kəndirdüzəldən

رسوا [rosva] rüsvay, biabır; شدن ~ rüsvay olmaq, biabır olmaq; کردن ~ rüsvay etmək, biabır etmək

رسوایی [rosvayi] rüsvayçılıq, biabırçılıq; بار اوردن ~ özünü rüsvay etmək

رسوب [rosub] çöküntü, çökmə; suya oturma; کردن ~ çökmək

رسوخ [rosux] 1) keçmə, süzülmə; nüfuzetmə, yayılma; 2) möhkəmlik, sabitlik; dönməzlik, sarsılmazlıq; ~ داشتن möhkəmlənmək; کردن (یافتن) ~ keçmək, süzülmək; nüfuz etmək; yayılmaq

رسول [rəsul] *c.* رسل [rosol] 1) peyğəmbər; 2) elçi, xəbər gətirən

رسول الله [rəsulollah] Allahın elçisi, peyğəmbər

رسوم [rosum] *t.* رسم I

رسید [rəsid // resid] qəbz; دادن ~ qəbz vermək; گرفتن ~ qəbz almaq

رسیدگی [rəsidegi // residegi] 1) yoxlama, araşdırma; 2) təhqiqat (*məhkəmədə*); شدن ~ yoxlanılmaq; təhqiq olunmaq; کردن ~ yoxlamaq; təhqiq etmək

رسیدن [rəsidən // residən] 1) çatmaq; yetişmək; به منزل ~ evə çatmaq; 2) yetişmək; dəymək; انگور ~ üzümün yetişməsi; 3) məşğul olmaq; به کاری ~ bir işlə məşğul olmaq

رسیده [rəside] رسیدن *f.-nin k.z.f.sif.*; 1) çatmış; 2) yetişmiş, dəymiş; هندوانهٔ ~ yetişmiş qarpız

رشادت [rəşadət // reşadət] rəşadət, igidlik, cəsarət, şücaət

رشتن [reştən] *k.* ریس [ris] *bax* ریسیدن

رشته [reşte] 1) sap, tel, lif; ~ مروارید bir sap mirvari; 2) əlaqə; ~ دوستی dostluq əlaqəsi; 3) sahə; ~ متخصص در شیمی kimya sahəsində mütəxəssis, kimyaçı; 4) sıra, zəncir, silsilə; کوه ~ dağ silsiləsi; 5) əriştə; ~ اش əriştə aşı; بریدن ~ əriştə kəsmək; ◊ کسی را پنبه کردن ~ birinin zəhmətini yerə vurmaq

رشحه [rəşhe] *c.* رشحات [rəşəhat] 1) damcı, sızıntı, sıçrantı; 2) tər, tərləmə

رشد [roşd] 1) inkişaf, tərəqqi, böyümə; اطفال ~ uşaqların böyüməsi; اقتصادی ~ iqtisadi inkişaf; 2) yetkinlik, kamillik; کردن (یافتن) ~ a) inkişaf etmək; b) yetkinləşmək

رشک [rəşk] paxıllıq, həsəd; qısqanclıq; بردن (ورزیدن) ~ paxıllıq etmək; qısqanmaq

رشک آمیز [rəşkamiz] paxıl; qısqanc

رشوت [reşvət // roşvət] *bax* رشوه

رشوت خوار [reşvətxar] *bax* رشوه خوار

رشوت خواری [reşvətxari] *bax* رشوه خورای

رشوه [reşve // roşve] rüşvət; خوردن (گرفتن) ~ rüşvət almaq; دادن ~ rüsvət vermək

رشوه خوار [reşvexar] rüşvətxor, rüşvətalan

رشوه خواری [reşvexari] rüşvətxorluq, rüşvət alma

رشوه گیر [reşvegir] *bax* رشوه خوار

رشید [rəşid] 1) igid, şücaətli, cəsarətli; 2) boylu-buxunlu, qəddqamətli

رصد [rəsəd] müşahidə etmə (*səma cisimlərini*)

رصد خانه [rəsədxane] rəsədxana

رصد گاه [rəsədqah] *bax* رصد خانه

رضا [reza] 1) razılıq, razılaşma; bəyənmə; məmnunluq; 2) razı; məmnun; دادن ~ razılıq vermək, razılaşmaq

رضاع [reza'] 1) əmmə (*süd*); 2) əmizdirməyə vermə (*uşağı süd anasına*); دادن ~ əmizdirməyə vermək (*uşağı süd anasına*)

رضاعی [rezai] bir döşdən süd əmmiş; ~برادر süd qardaşı; ~مادر süd anası

رضامند [rezamənd] *bax* رضایتمند

رضامندی [rezaməndi] *bax* رضایتمندی

رضایت [rezayət] *bax* رضا; ~ عدم razılaşmama, razı olmama; bəyənməmə

رضایت آمیز [rezayətamiz] ruhlandırıcı, ürəkləndirici

رضایت بخش [rezayətbəxş] kafi, qənaətbəxş, qənaətləndirici

رضایتمند [rezayətmənd] razı; məmnun

رضایتمندی [rezayətməndi] razılıq, məmnunluq; bəyənmə

رضایت نامه [rezayətname] yazılı surətdə yaxşı rəy; tərifnamə

رضوان [rezvan] 1) məmnunluq, xoşhallıq; 2) cənnətin qapıçısı olan mələk; 3) behişt, cənnət

رضیع [rəzi'] 1) südəmər (*uşaq*); 2) süd qardaşı, süd bacısı

رطب [rətb] 1) təzə, tər-təzə; 2) sulu, nəm

رطب [rotəb] təzə xurma, yetişmiş xurma

رطوبت [rotubət] rütubət, nəm

رطیل [roteyl] *bax* رتیل

رعایت [re'ayət] 1) riayət etmə, əməl etmə, yerinə yetirmə; 2) nəzərə alma; diqqət yetirmə; کردن ~ a) riayət etmək, əməl etmək; b) nəzərə almaq

رعب [ro'b] 1) qorxu, dəhşət; 2) qorxaqlıq

رعب انگیز [ro'bəngiz] qorxulu, dəhşətli

رعب آور [ro'bavər] *bax* رعب انگیز

رعد [rə'd] göy gurultusu; وبرق ~ şimşək, ildırım

رعشه [rə'şe] üşütmə, vicvicə, əsmə, titrəmə; براندامش افتاد ~ canına üşütmə düşdü

رعشه آور [rə'şeavər] əsdirmə gətirən, üşütmə gətirən

رعشه دار [rə'şedar] əsən, titrəyən

رعنا [rə'na] 1) gözəl, qəşəng; məlahətli; 2) incə, yaraşıqlı; boylubuxunlu, qəddqamətli

رعنایی [rə'nayi] 1) gözəllik, məlahət, cazibədarlıq; 2) zəriflik, incəlik

رعونت [ro'unət] 1) axmaqlıq, qanmazlıq, nadanlıq, sarsaqlıq; kütlük; 2) zəiflik, süstlük, ətalət; 3) lovğalıq, təkəbbürlük

رعیت [rə'iyyət] *c.* رعایا [rəaya] 1) kəndli; 2) rəiyyət, camaat

رعیت پرور [rə'iyyətpərvər] ədalətli (*hökmdar*)

رعیت پروری [rə'iyyətpərvəri] rəiyyətlə (*camaatla*) ədalətlə rəftar etmə

رغبت [rəğbət] rəğbət, meyil, istək, həvəs; کردن ~ rəğbət bəsləmək, meyil göstərmək

رغم [rəğm] acıq, hirs, qəzəb; əks iş görmə, ziddinə getmə; به ~ acığına acıqdan; او به ~ onun acığına

رغماً [rəğmən] acıqdan, acığına; ziddinə, əksinə

رغیب [rəğib] arzuolunan, istəkli

رغیبه [rəğibe] *c.* رغائب [rəğaeb] 1) istək, arzu, dilək; 2) *bax* رغیب

رف [rəf] *c.* رفوف [rəfuf] //رفاف [refaf] rəf, ləmə, taxça

رفاقت [rəfağət // refağət] dostluq; yoldaşlıq; داشتن ~ dost olmaq; yoldaş olmaq; کردن ~ dostluq etmək; yoldaşlıq etmək

رفاه [refah] 1) əmin-amanlıq, sakitlik; 2) rahatlıq, komfort; 3) xoşbəxtlik; firavanlıq; rifah; در~ بودن xoşbəxt yaşamaq

رفت [roft] süpürmə, təmizləmə, yır-yığış etmə

رفتار [roftar] rəftar, hərəkət, davranış; کردن ~ rəftar etmək, hərəkət etmək

رفتگان [rəfteqan] ölənlər

رفتگی [rəftegi] 1) getmə, yola düşmə; 2) itki; خون ~ qan itkisi

رفتگر [roft(e)gər] süpürgəçi

رفتگری [roft(e)gəri] 1) süpürkəçilik; 2) küçələri süpürmə və təmizləmə

رفتن [rəftən] *k.* رو [rəv // rou] 1) getmək, yola düşmək; به خانه ~ evə getmək; 2) yaxınlaşmaq; 3) axmaq, tökülmək; آب از کوزه رفت bardaqdan su axdı; 4) oxşamaq; بچه به عمویش رفته uşaq əmisinə oxşayır

رفتن [roftən] *k.* روب [rub] süpürmək, təmizləmək, yır-yığış etmək

رفت وامد [rəftoamməd] gediş-gəliş, hərəkət

رفت و برگشت [rəftobərgəşt] gedib-qayıtma

رفت و روب [roftorub] silib-süpürmə

رفته رفته [rəfterəfte] get-gedə, tədricən, yavaş-yavaş

رفراندوم [refrandom] referendum

رفرم [reform] reforma, islahat

رفع [rəf '] aradan qaldırma, kənar etmə; ləğv etmə; شدن ~ aradan qaldırılmaq; ləğv edilmək; کردن ~ aradan qaldırmaq; ləğv etmək

رفعت [ref'ət // rəf'ət] 1) yüksək vəzifə, yüksək rütbə; 2) böyüklük; yüksəklik, ucalıq

رفق [refğ] yumşaqlıq, mehribanlıq, mülayimlik

رفقا [rofəğa] *t.* رفیق

رفو [rofu] yamama, közəmə; کردن ~ yamamaq, közəmək

رفوزه [rofuze] 1) imtahandan kəsilmiş; 2) qəbul edilməmiş, rədd edilmiş; شدن ~ imtahandan kəsilmək; کردن ~ imtahandan kəsmək

رفوکار [rofukar] *bax* رفوگر

رفوگر [rofugər] yamaqçı, közəməçi

رفیع [rəfi'] 1) yüksək, hündür, uca; ~ بنای hündür bina; ~ مقام yüksək vəzifə; 2) mühüm, əhəmiyyətli

رفیق [rəfiğ] *c.* رفقا [rofəğa] yoldaş; dost

رفیقانه [rəfiğane] yoldaşcasına; dostcasına

رقابت [rəğabət // reğabət] rəqabət; آزاد ~ azad rəqabət; کردن ~ rəqabət etmək

رقابت کننده [rəğabətkonəndə] rəqib, rəqabət edən

رقاص [rəğğas] 1) rəqqas; 2): ~ ساعت saat kəfgiri

رقاصه [rəğğase] rəqqasə; balerina

رقاصی [rəğğasi] rəqqaslıq, rəqs, oyun; rəqqaslıq sənəti; کردن ~ rəqs etmək, oynamaq

رقت [reğğət] riqqət, mehribanlıq, ürəyiyumşaqlıq, şəfqət, rəhmlilik

رقت آمیز [reğğətamiz] acınacaqlı, ağlamalı

رقت انگیز [reğğətəngiz] ürəkağrıdan, təsirli, həyəcanlandırıcı

رقت آور [reğğətavər] *bax* رقت انگیز

رقت بار [reğğətbar] *bax* رقت انگیز

رقص [rəğs] rəqs, oyun; کردن ~ rəqs etmək; oynamaq

رقصان [rəğsan] 1) rəqs edən; oynayan; 2) rəqs edə-edə, oynaya-oynaya

رقصاندن [rəğsandən] rəqs etdirmək, oynatmaq, oynamağa məcbur etmək

رقصیدن [rəğsidən] rəqs etmək, oynamaq

رقعه [roğ'e] *c.* رقاع [reğa] 1) məktub; 2) yamaq

رقم [rəğəm] *c.* ارقام [ərğam] // رقوم [roğum] rəqəm, ədəd; زدن ~ a) işarə qoymaq (*yükün üzərində*); b) yazmaq

رقم بندی [rəğəmbəndi] təsnifat, qruplaşdırma, bölgü; کردن ~ növlərə ayırmaq, qruplaşdırmaq

رقمی [rəğəmi] rəqəmli; سه ~ üçrəqəmli

رقومی [roğumi] 1) rəsm edilmiş; tərsimi; ~ هندسه tərsimi həndəsə; 2) *bax* رقمی

رقیب [rəğib] *c.* رقبا [roğəba] rəqib

رقیق [rəğiğ] 1) durulaşdırılmış, duru; ~ محلول duru məhlul; 2) yumşaq; incə, zərif; ~ قلب yumşaq ürək; ~ کلمات incə sözlər

رقیق القلب [rəğiğolğəlb] həssas qəlbli, incəqəlbli, ürəyiyumşaq

رک [rok] *dan.* açıq, aşkar, birbaşa; و ~ راست açıq-aşkar; گفتن ~ açıq demək

رکاب [rekab] 1) üzəngi; 2) pedal (*velosipeddə, motosikletdə*); 3) ayaq yeri, pillə; واگون ~ vaqonun pilləsi; 4) çiyinbağı, çiyinlik (*qadın alt köynəyində*); زدن ~ pedalı basmaq; velosipedi sürmək; ◊ زدن (کشیدن) ~ ata minmək

رکابدار [rekabdar] 1) atın cilovunu tutan; 2) çiyinbağlı (*qadın alt köy-*[illegible] *nəyi*); 3) üzəngili (*şalvar*)

رکابی [rekabi] 1) üzəngili, üzəngisi olan; 2) *bax* رکابدار 2), 3)

رکعت [rək'ət // rek'ət // rok'ət] *c.* رکعات [rəkəat] *din.* rükət (*namazın bir hissəsi*)

رکن [rokn] *c.* ارکان [ərkan] 1) bünövrə, təməl, əsas; 2) sütun, dirək

رکود [rokud] durğunluq; ətalət, hərəkətsizlik; تجارت ~ ticarətdə durğunluq; کل ~ tam durğunluq, tənəzzül

رکورد [rekord] rekord

رکوع [roku'] *din.* təzim; əlləri diz üstə qoyub əyilmə (*namazda*); کردن ~ təzim etmək; əlləri diz üstə qoyub əyilmək (*namazda*)

رکیک [rəkik] 1) kobud, nalayiq, ədəbsiz; حرفهای ~ kobud sözlər; 2) çirkin, iyrənc

رگ [rəg] damar; جان ~ şah damar; به ~ شدن damarın dartılması; زدن (گشادن) qan almaq; damarı açmaq; ◊ داشتن ~ qeyrətli olmaq; خواب ~ کسی را به دست آوردن a) birisinin xasiyyətini bilmək; b) birisini özün

tabe etmək; ~• غیرتش به جوش آمدن qeyrət damarı çoşmaq

رگبار [rəgbar] 1) leysan, bərk yağış; 2) güllə yağışı (*atəşi*), gülləbaran

رگزنی [rəgzəni] *bax* حجامت; کردن ~ qan almaq

رگشناس [rəgşenas] angioloq, damar həkimi

رگشناسی [rəgşenasi] angiologiya

رگ و ریشه [rəgorişe] 1) damar (*ətdə*); 2) kök, soy, nəsil, mənşə

رل [rol] I rol; بازی کردن ~ rol oynamaq (*ifa etmək*)

رل [rol] II sükan, rul; ~• پشت نشستن sükan arxasında oturmaq

رم [rəm] hürkmə; (کردن) دادن ~ hürkütmək

رماتیسم [romatism] revmatizm, yel xəstəliyi

رمال [rəmmal] rəmmal, falçı, fala baxan

رمالی [rəmmali] fala baxma; کردن ~ fala baxmaq

رمان [roman] roman; روانی ~• psixoloji roman

رماندن [rəmandən] qorxutmaq; hürkütmək, hürküdüb qaçırtmaq (*heyvanı*)

رمبیدن [rombidən] dağılmaq, uçmaq (*tavan, divar*)

رمز [rəmz] *c.* رموز [romuz] 1) rəmz, simvol; şərti işarə; 2) şifr; 3) sirr; کردن ~ kodlaşdırmaq

رمزی [rəmzi] şifrli, kodlu; قفل ~• kodlu qıfıl

رمش [rəmeş] 1) qorxma, vahimə; 2) hürkmə

رمضان [rəməzan] ramazan (*hicri-qəməri təqviminin doqquzuncu ayı – orucluq ayı*)

رمق [rəməğ] son nəfəs, son qüvvə; hey; افتادن از~ qüvvədən düşmək; heydən düşmək

رمل [rəməl] *ədəb.* rəməl (*əruz vəzninin bəhrlərindən biri*)

رمل [rəml] *c.* رمال [remal] 1) qum; کلیه ~• böyrəkdə olan qum; 2) علم ~ qum üzərində fala baxma; انداختن ~ (کشیدن) qum üzərində fala baxmaq

رموز [romuz] *t.* رمز; فنی ~• texniki incəliklər

رمه [rəme] sürü; گوسفند ~• qoyun sürüsü

رمیدگی [rəmidegi] 1) qorxu, vahimə, dəhşət; 2) hürkmə

رمیدن [rəmidən] qorxmaq, hürkmək

رنج [rənc] 1) zəhmət; 2) əzab, əziyyət; 3) çətinlik; 4) narahatlıq; 5) inciklik; بردن (دیدن، کشیدن) ~ a) zəhmət çəkmək; b) əzab çəkmək, əziyyət çəkmək; c) çətinliklərlə üzləşmək; ç) narahat olmaq

رنجاندن [rəncandən] incitmək

رنج آور [rəncavər] 1) əzablı, əziyyətli; 2) çətin, ağır

رنجبر [rəncbər] 1) zəhmətkeş; 2) yoxsul kəndli

رنج دیده [rəncdide] əzab görmüş, əziyyət çəkmiş

رنجش [rənceş] 1) incimə, inciklik; təhqir olunma; 2) təəssüf, heyifsilənmə; داشتن ~ a) incimək; b) təəssüflənmək; پیدا کردن ~ *bax* رنجیدن

رنجور [rəncur] 1) gücsüz, zəif; xəstə; 2) qəmli, kədərli

رنجیدگی [rəncidegi] inciklik, incimə; kədərlənmə

رنجیدن [rəncidən] incimək; kədərlənmək

رند [rend] *c.* رنود [ronud] 1) hiyləgər, çoxbilmiş; fırıldaqçı; 2) içki düşkünü, kefcil; 3) arsız, abırsız; qəmsiz, kədərsiz, əhli-kef

رنده [rənde] rəndə; شدن ~ rəndələnmək; کردن ~ rəndələmək

رنگ [rəng] rəng, boya; (کردن) زدن ~ rəngləmək; ◊ خودرا باختن ~• rəngi qaçmaq, qorxmaq; پریدن ~ a) rəngi solmaq (*parça*); b) *bax* خود را ~• باختن; از دیوار تراشیدن ~ həyasızlıq etmək; برآب زدن ~ biclik etmək; گذاشتن و ~ برداشتن ~ rəng verib, rəng almaq

رنگ آمیز [rəngamiz] rəngamiz

رنگا رنگ [rəngarəng] rəngarəng, əlvan

رنگ پریدگی [rəngpəridegi] solğunluq, rəngi qaçma

رنگ پریده [rəngpəride] solğun, solmuş, rəngiqaçmış; شدن ~ solğunlaşmaq, rəngi qaçmaq

رنگرز [rəngrəz] boyaqçı

رنگرزی [rəngrəzi] 1) boyaqçılıq; 2) boyaqçı dükanı

رنگ رفته [rəngrəfte] *bax* رنگ پریده

رنگ زده [rəngzəde] rənglənmiş, boyanmış

رنگ زردی [rəngzərdi] əzab-əziyyət; sıxıntı, həyəcan

رنگ زن [rəngzən] 1) rəngsaz; 2) rəssam

رنگ ساز [rəngsaz] 1) *bax* رنگ زن; 2) boyaq istehsalçısı

رنگ سازی [rəngsazi] boyaq düzəltmə

رنگ کار [rəngkar] *bax* رنگ زن

رنگ و بو [rəngobu] cazibə, məlahət, təravət, cazibədarlıq; داشتن ~ cazibəli olmaq, məlahətli olmaq; dolğun olmaq; زندگیش~ دارد həyatının mənası var

رنگ و رو رفته [rəngorurəfte] rəngi getmiş; solğun; geyilmiş, köhnə

رنگ و روغن [rəngorouğən] yağlı boya

رنگ و روغنی [rəngorouğəni] yağlı boya ilə çəkilmiş; تصویر ~• yağlı boya ilə çəkilmiş şəkil

رنگی [rəngi] rəngli; عکس ~• rəngli şəkil

رنگین [rəngin] *bax* رنگی; کردن ~ rəngləmək; əlvan naxışlarla rəngləmək

رنگین کمان [rənginkəmanı] göy qurşağı

رو [ru] 1) üz, sifət; زیبا ~• gözəl üz; زشت ~• çirkin sifət; 2) üst, üstündə, üzərində; میز ~• masanın üstündə; چشم ~• gözüm üstə; 3) səbəb; ازچه ~ nə səbəbə? ◊ انداختن ~ üz vurmaq, xahiş etmək; دادن ~ üz vermək, baş vermək; داشتن ~ üzlü olmaq, həyasız olmaq; درماندن ~ xəcalət çəkmək; دست گذاشتن ~• xərcə salmaq; هم ~• ریختن sazişə girmək; dostlaşmaq

روا [rəva] yol verilən, izin (*icazə*) verilən; qəbul edilən; داشتن ~ rəva bilmək; izin (*icazə*) vermək

روابط [rəvabet] *t.* رابطه

رواج [rəvac] 1) yayılma; 2) dövriyyə, tədavül (*mal, pul*); (کردن) دادن ~ a) dövriyyəyə buraxmaq; b) yaymaq; داشتن ~ a) dövriyyədə olmaq (*mal, pul*); b) yayılmaq

روادید [rəvadid] viza; دادن ~ viza vermək; viza açmaq

رواق [rəvağ] qübbə, tağ, tavan; بی ستون ~• *mən.* göy qübbəsi; مسجد ~• məscidin qübbəsi

روان [rəvan] I 1) axar, axan; ~آب axar su; 2) gedən, hərəkət edən; 3) axıcı, aydın, ifadəli (*nitq*); شدن ~ getmək; yola düşmək; کردن ~ a) göndərmək; yola salmaq; b) əzbərləmək

روان [rəvan] II can, ruh; ruhi aləm

روان بخش [rəvanbəxş] 1) ruhlandıran, ruhlandırıcı; 2) can bəxş edən (*Allahın epiteti*)

روان پزشک [rəvanpezeşk] psixiatr, ruhi xəstəliklər həkimi

رواندار [ruəndaz] 1) örtük; yüngül yorğan (*adyal*); 2) *bax* روبند

روان شناس [rəvanşenas] psixoloq

روان شناسی [rəvanşenasi] psixologiya

روانه [rəvane] 1) *bax* روان I **1), 2)**; شدن ~ *bax* روان شدن (روان *sözündə*); کردن ~ *bax* روان کردن **a)** (روان *sözündə*)

روانی [rəvani] I axıcılıq, rəvanlıq; کلام ~ sözün axıcılığı

روانی [rəvani] II ruhi; بیماریهای ~ ruhi xəstəliklər

روایت [rəvayət // revayət] *c.* روایات [rəvayat] 1) rəvayət; 2) variant; شدن ~ rəvayət olunmaq; کردن ~ rəvayət etmək

روایی [rəvayi] 1) tədavül (*pul*); hərəkətdə olma; 2) rəvayətə görə

روباز [rubaz] 1) açıq, açıqüzlü, üstüaçıq, örtüksüz; 2) çadırasız; 4) düz, açıq; صحبت ~ düz (*açıq*) söhbət; 5) *dan.* sırtıq, həyasız

روبالشی [rubalcşi] balışüzü

روبان [ruban] lent

روباه [rubah] 1) tülkü; 2) *məc.* çoxbilmiş, hiyləgər; ◊ آبی ~ susamuru; ترکی ~ oxlu kirpi

روباه بازی [rubahbazi] ikiüzlülük, hiyləgərlik; (کردن) درآوردن ~ ikiüzlülük etmək

روباه صفت [rubahsefət] tülküsifət, hiyləgər, ikiüzlü

روباه صفتی [rubahsefəti] tülküsifətlilik, ikiüzlülük; کردن ~ ikiüzlülük etmək

روبراه [ruberah] *dan.* 1) üzüyola; 2) hazır

روبرو [ruberu] üzbəüz, qarşı-qarşıya; آمدن ~ üzbəüz gəlmək; ~ (کردن) ساختن üzləşdirmək; شدن ~ üzləşmək

روبسته [rubəste] 1) bağlı; 2) üzübağlı, üzü örtülmüş

روبنا [rubəna] 1) bina üzərində olan tikili; 2) *fəl.* üstqurum

روبند [rubənd] üz örtüyü, duvaq

روبنده [rubənde] *bax* روبند

روبوسی [rubusi] 1) öpüşmə (*görüşərkən*); 2) qucaqlaşma (*görüşərkən*); کردن ~ a) öpüşmək (*görüşərkən*); b) qucaqlaşmaq (*görüşərkən*); c) barışmaq

روبیدن [rubidən] *bax* رفتن [roftən]

روپوش [rupuş] 1) xalat; plaş; 2) örtük; çexol; 3) duvaq

روپوشدار [rupuşdar] örtüklü, çexollu

روپوشی [rupuşi] 1) örtmə, bağlama; 2) maskalama; maskalanma; 3) gizlətmə, gizli saxlama; کردن ~ a) örtmək, bağlamaq; b) maskalamaq; c) gizlətmək, gizli saxlamaq

رو تخته‌خوابی [rutəxtexabi] *bax* روتختی

روتختی [rutəxti] çarpayı üçün örtük

روح [ruh] *c.* ارواح [ərvah] 1) ruh; جنگی ~ hərbi ruh; 2) can; 3) ma-

hiyyət; بخشیدن ~ ruhlandırmaq; canlandırmaq

روحاً [ruhən] ruhən, qəlbən

روح افزا [ruhəfza] ruhlandıran; ruhlandırıcı; canlandıran; canlandırıcı

روح الامین [ruholəmin] Cəbrayıl (*mələk*)

روح القدس [ruholğodos] *bax* روح الامین

روح الله [ruhollah] İsa peyğəmbərin epiteti

روح انگیز [ruhəngiz] *bax* روح افزا

روحانی [rouhani] *c.* روحانیون [rouhaniyyun] 1) ruhani; 2) ruhi; 3) canlı

روحانیت [rouhaniyyət] 1) ruhanilik; 2) qeyri-maddilik; 3) ruhlanma, vəcd, şövq

روحانی نما [rouhaninəma] zahirən ruhani olan, özünü ruhani kimi göstərən

روح بخش [ruhbəxş] ruhlandıran, ruhlandırıcı

روح پرور [ruhpərvər] *bax* روح بخش

روح فرسا [ruhfərsa] bezikdirən, darıxdıran

روح نواز [ruhnəvaz] mehriban, nəvazişli

روحی [ruhi] *bax* روانی II

روحیه [ruhiyye] *c.* روحیات [ruhiyyat] əhvali-ruhiyyə, ruh yüksəkliyi

روز [ruz] gün, gündüz; تمام ~ bütün günü; هر ~ hər gün; استراحت ~ istirahət günü, bazar günü; تولد ~ ad günü, doğum günü; دوم ماه ~ ayın ikisi; ◊ روزی bir dəfə; روزی ازروزها günlərin bir günü; به ~ ~ gündən-günə

روزافزون [ruzəfzun] gündən-günə çoxalan, durmadan artan

روزانه [ruzane] 1) gündəlik qazanc (*muzd*); 2) gündəlik, hər günlük; کارهای ~ gündəlik işlər

روزبه [ruzbeh] xoş dövran, xoş gün

روزبهی [ruzbehi] səadət, xoşbəxtlik; tərəqqi, rifah

روزشماری [ruzşomari] günləri sayma; səbirsizliklə gözləmə; کردن ~ günləri saymaq; səbirsizliklə gözləmək

روزکور [ruzkur] gündüz pis görən adam

روزکوری [ruzkuri] gündüz korluğu

روزگار [ruzğar] *mənsəl* ləqəb

رود [rud] II çay; ارس ~ Araz çayı

روداد [rudad] *bax* رویداد

رودار [rudar] üzlü, utanmaz, həyasız, sırtıq

روداری [rudari] üzlülük, utanmazlıq, həyasızlıq, sırtıqlıq

رودبار [rudbar] 1) çaylaq, çay çox olan yer; 2) böyük çay

رودخانه [rudxane] 1) *bax* رود II; 2) çayın mənbəyi

رودربایستی [rudərbayesti] utanma, çəkinmə, sıxılma; بی ~ utanmadan, çəkinmədən; داشتن ~ utanmaq, çəkinmək

رودررو [rudərru] *bax* روبرو

رودروایسی [rudərvasi] *bax* رودربایستی

رودشاخه [rudşaxe] çayın qolu

روده [rude] bağırsaq; (کور) اعور ~ kor bağırsaq; (اثنی عشر) دوازده ~ onikibarmaq bağırsaq; ◊ درازی ~ uzunçuluq; درازی کردن ~ uzunçuluq etmək

روده دراز [rudederaz] *dan.* boşboğaz, çərənçi, uzunçu

روده درازی [rudederazi] *dan.* boşboğazlıq, çərənçilik, uzunçuluq

روزی [ruzi] rəzi, razılıq; ~ خدا allahın rəzisi; ~ کردن razılıq vermək; ~ شدن razılaşmaq; ~ نشدن razılaşmamaq; ~ بودن razı olmaq; ~ ~ kəsmə, kəsmə-kəsmə; ~ ~ کردن kəsmə-kəsmə etmək; ~ ~ شدن kəsmə-kəsmə olmaq; ~ ~ بودن kəsmə-kəsmə olmaq; ~ ~ نشدن kəsmə-kəsmə olmamaq

روزگار [ruz(e)qar] 1) vaxt; 2) bəxt, tale; سیاه ~ qara bəxt, acı tale; 3) dövran, zəmanə, fələk; 4) halvəziyyət; 5) dünya; گذراندن ~ vaxt keçirmək; ömür sürmək; ◊ بردن ~ səbir etmək, dözmək; təxirə salmaq

روزگذار [ruzqozar] 1) həyat, yaşayış; 2) gün keçirmə, boş-mənasız həyat

روزمره [ruzmər(r)e] *bax* روزانه **2)**

روز مزد [ruzmozd] günəmuzd (*işçi*)

روزن [rouzən] *bax* روزنه

روزنامه [ruzname] *c.* روزنامجات [ruznamecat] qəzet; مصور ~ şəkilli qəzet

روزنامه نگار [ruznameneqar] jurnalist, müxbir

روزنامه نگاری [ruznameneqari] jurnalistika

روزنامه نویس [ruznamenevis] *bax* روزنامه نگار

روزنامه نویسی [ruznamenevisi] *bax* روزنامه نگاری

روزنه [rouzəne] 1) baca, deşik, dəlik, yarıq; 2) işıq

روزه [ruze] oruc; بودن (داشتن) oruc olmaq; باز کردن ~ iftar etmək; خوردن ~ orucu pozmaq; گرفتن ~ oruc tutmaq

روزه خوار [ruzexar] oruc tutmayan, orucu pozan

روزه خواری [ruzexari] oruc tutmama, orucu pozma

روزه دار [ruzedar] oruc tutan

روزه داری [ruzedari] oruc tutma

روزه گشایی [ruzeqoşayi] orucu açma, iftar etmə

روزی [ruzi] 1) ruzi, gündəlik qazanc; 2) bəxt, tale, qismət

روزی ده [ruzideh] *bax* روزی رسان

روزی رسان [ruziresan] ruzi verən (*Allahın epitetı*)

روژ [ruj] 1) ənlik, pomada, dodaq boyası; 2) kirşan (*yanaq üçün*)

روسا [roəsa] *t.* رئیس

روساز [rusaz] 1) *bax* روبنا **1)**; 2) üzlük daş ustası

روسازی [rusazi] üz çəkmə, üzlük çəkmə (*inşaat işlərində*); کردن ~ üz çəkmək, üzlük çəkmək (*inşaat işlərində*)

روسپی [ruspi] fahişə, əxlaqsız qadın

روسپی زاده [ruspizade] haramzadə, fahişədən doğulan, bic

روستا [rusta] kənd

روستایی [rustayi] kəndli, kənd adamı

روسری [rusəri] baş örtüyü; ~ عروس gəlin duvağı

روسفید [rusefid] üzüağ; başıuca; günahsız

روسفیدی [rusefidi] üzüağlıq; başucalığı; günahsızlıq

روسو فیل [rusofil] ruspərəst, rusları sevən

روسیاه [rusiyah] üzüqara; günahkar

روسیاهی [rusiyahi] üzüqaralıq; günahkarlıq

روش [rəveş] 1) üsul, yol, tərz, metod; حل مسئله ~ məsələnin həlli üsulu; 2) hərəkət, rəftar, gediş, yeriş; ~ خوش gözəl yerişli

روشن [rouşən] 1) işıqlı; ~ چراغ işıqlı çıraq; 2) təmiz; şəffaf; ~ آب şəffaf su; 3) aydın, aşkar, anlaşıqlı, anlaşılan; dəqiq; ~ فکر dəqiq fikir; ~ مطلب aydın məsələ; ~ شدن a) işıqlanmaq, yanmaq; b) aydınlaşmaq; ~ کردن (ساختن) a) işıqlandırmaq, yandırmaq; b) aydınlaşdırmaq

روشنایی [rouşənayi] 1) işıq; روز ~ günün işığı; 2) parıltı; خورشید ~ günəşin parıltısı; بخشیدن ~ işıqlandırmaq

روشن بین [rouşənbin] dərrakəli, fərasətli, gözüaçıq, uzaqgörən

روشن بینی [rouşənbini] dərrakə, fərasət, gözüaçıqlıq, uzaqgörənlik

روشن دل [rouşəndel] 1) ziyalı, savadlı; 2) tərbiyəli

روشن دلی [rouşəndeli] ziyalılıq, savadlılıq, mədənilik

روشن ضمیر [rouşənzəmir] *bax* روشن دل

روشن فکر [rouşənfekr] ziyalı, savadlı

روشن فکری [rouşənfekri] ziyalılıq, savadlılıq

روشن گر [rouşəngər] 1) maarifçi; 2) şərhçi

روشن گری [rouşəngəri] 1) maarifçilik; 2) şərh etmə, izah etmə

روشنی [rouşəni] 1) aydınlıq; 2) ifadəlilik, təsirlilik, səlislik; 3) *bax* روشنایی

روشویی [ruşuyi] əlüzyuyan

روضه [rouze] 1) rövzə (*Kərbəla hadisələri haqqında rövzəxanların oxuduqları dastan-mərsiyə*); 2) *c.* روضات [rouzat] // ریاض [riyaz] bağça, bağ, güllük; رضوان ~ cənnət bağçası

روضه خوان [rouzexan] rövzəxan (*Kərbəla hadisələri haqqında dastan-mərsiyə söyləyən şəxs*)

روضه خوانی [rouzexani] 1) rövzəxanlıq məclisi; 2) rövzəxanlıq sənəti

روغن [rouğən] yağ; آفتاب گردان ~ günəbaxan yağı; حیوانی ~ heyvan yağı; ذرت ~ qarğıdalı yağı; زیتون ~ zeytun yağı; ماهی ~ balıq yağı; موتور ~ motor yağı; نباتی ~ bitki yağı; آب (داغ) کردن ~ yağ əritmək; ◊ به ~ ریگ ریختن əbəs iş görmək; قاز مالیدن ~ qoltuğuna qarpız vermək

روغن دان [rouğəndan] yağqabı

روغن کاری [rouğənkari] yağlama (*maşını*)

روغنی [rouğəni] yağlı; yağda bişirilmiş

روغن کشی [rouğənkeşi] yağ çəkmə; کارخانه ~ yağ zavodu

روکش [rukeş] üz, üz çəkmə; دندان ~ diş koronkası; طلا ~ qızıl koronka; کردن ~ üz çəkmək

روگردان [rugərdan] 1) üz döndərən; 2) etiraz edən; شدن ~ a) üz döndərmək; b) etiraz etmək

روگردانی [rugərdani] 1) üz döndərmə; 2) etiraz etmə

روماتیسم [romatism] *bax* رماتیسم

رومیزی [rumizi] süfrə

روند [rəvənd] *bax* روش **1)**

رونق [rounəğ] 1) rövnəq, parıltı; parlaqlıq; gözəllik; 2) canlanma (*işdə, ticarətdə*); بازرگانی ~ ticarətin canlanması; 3) uğur; müvəffəqiyyət, nailiyyət; inkişaf; دادن (بخشیدن) ~ canlandırmaq; داشتن ~ canlanmaq; çiçəklənmək, inkişaf etmək

رونما [runəma] 1) üzgördü hədiyyəsi; bəyin gəlinə verdiyi hədiyyə (*birinci dəfə onun üzünü görərkən*); 2) yeni doğulan uşağı görərkən verilən hədiyyə

رونوشت [runeveşt] surət, üz, kopiya; شناسنامه ~ şəxsiyyət vəsiqəsinin surəti

رونویس [runevis] 1) *bax* رونوشت; 2) reproduksiya

رونویسی [runevisi] üzünü köçürmə, surətçıxarma; کردن ~ surət çıxartmaq

روی [ruy] *bax* رو

رؤیا [ro'ya] 1) röya; yuxu; 2) arzu; xəyal

رؤیت [ro'yət] baxma, görmə, görüş; baxılma; tanış olma; کردن ~ baxmaq, görmək; baxılmaq; tanış olmaq

رویداد [ruydad] hadisə, əhvalat, olay; مهم ~ mühüm hadisə

رویش [ruyeş] bitmə, cücərmə; böyümə; کردن ~ bitmək, cücərmək; böyümək

رویه [rəviyye] üsul, tərz, metod

رویه [ruye] üz, çöl tərəf; پالتو ~ paltonun üzü

روی هم [ruyehəm] toplum; bütövlükdə; cəmi; nəticədə

روی هم رفته [ruyehəmrəfte] bir yerdə, bütövlükdə; tamamilə

رویدن [ruyidən] *bax* رستن [rostən]

ره [rəh] *bax* راه

رها [rəha // reha] azad, azad olunmuş, xilas edilmiş; شدن ~ azad olunmaq; کردن ~ a) azad etmək; xilas etmək; b) buraxmaq, əldən vermək

رهاندن [rəhandan] 1) azad etmək, xilas etmək; 2) buraxmaq, əldən vermək

رهانیدن [rəhanidən] *bax* رهاندن

ره آورد [rəhavord] *bax* راه آورد

رهایی [rəhayi // rehayi] azad olma, azadlıq; xilas olma; بخشیدن (دادن) ~ azadlıq vermək; یافتن ~ xilas olmaq

رهبانیت [rohbaniyyət] rahiblik, tərki-dünyalıq

رهبر [rəhbər] rəhbər, başçı, öndər, lider; سیاسی ~ siyasi rəhbər

رهبری [rəhbəri] rəhbərlik, başçılıq; به ~ rəhbərliyi ilə; کردن ~ rəhbərlik etmək

رهسپار [rəhsepar] yola düşmə; yollanma; شدن ~ yola düşmək, yollanmaq, getmək

رهگذار [rəhqozar] *bax* راهگذار

رهن [rəhn] *c.* رهون [rohun] girov; دادن ~ girov vermək; گذاشتن ~ girov qoymaq

رهنما [rəhnema // rəhnəma] *bax* راهنما

رهنمایی [rəhnemayi // rəhnəmayi] *bax* راهنمایی

رهنمود [rəhnəmud] yol göstərmə

رهنمون [rəhnemun // rəhnəmun] direktiv, göstəriş

رهنورد [rəhnəvərd] 1) yol gedən; iti gedən; 2) səyyah

رهنی [rəhni] girov qoulmuş; girovlu; ipoteka; بانک ~ girov müqabilində kredit verən bank; خانهٔ ~ girov qoyulmuş ev; موسسه ~ lombard

رهیدن [rəhidən] *bax* رستن [rəstən]

رهین [rəhin] girov saxlanılan adam; منت ~ minnətdar, borclu; منت کسی بودن ~ birinə minnətdar olmaq

ریا [riya] riya, hiylə, kələk; ikiüzlülük

ریاست [riyasət] başçılıq, rəhbərlik; جمهور (جمهوری) ~ respublika prezidenti postu (*vəzifəsi*); دانشگاه ~ rektorluq, rektorluq vəzifəsi; کردن ~ başçılıq etmək, rəhbərlik etmək

ریاست طلب [riyasəttələb] vəzifəpərəst

ریاست طلبی [riyasəttələbi] vəzifəpərəstlik

ریاض [riyaz] *t.* روضه

ریاضت [riyazət] nəfsi saxlama, çəkinmə; tərki-dünyalıq; zahidlik; کشیدن ~ nəfsi saxlamaq, çəkinmək; tərki-dünyalıq etmək

ریاضت کش [riyazətkeş] nəfsini saxlayan, tərki-dünya, zahid

ریاضیات [riyaziyyat] riyaziyyat

ریاضی دان [riyazidan] riyaziyyatçı

ریاکار [riyakar] riyakar, ikiüzlü

ریاکاری [riyakari] riyakarlıq, ikiüzlülük

ریال [riyal] riyal (*İran İslam Respublikasında pul vahidi*)

ریب [reyb] şəkk, şübhə; بدگومانلیق; بی شک و~ şübhəsiz, şəksiz, sözsüz

ریتم [ritm] ritm

ریحان [reyhan] *c.* ریاحین [riyahin] *bot.* reyhan

ریخت [rixt] 1) zahiri görkəm; fiqura; bədən quruluşu; بد ~ pis görkəmli; خوش ~ gözəl görkəmli 2) növ, forma; لباس ~ paltar fasonu

ریختن [rixtən] *k.* ریز [riz] 1) tökmək; səpmək; 2) doldurmaq; 3) boşaltmaq; 4) əritmək

ریخته گر [rixtegər] 1) metalərdən (*fəhlə*); 2) qalayçı

ریخته گری [rixtegəri] 1) metaləritmə; 2) metaləritmə sexi; کردن ~ metal əritmək

ریز [riz] I xırda, çox kiçik; ماهی ~ çox kiçik balıq

ریز [riz] II siyahı

ریز بار [rizbar]: باران ~ narın yağış, çiskin yağış

ریزبین [rizbin] mikroskop

ریزش [rizeş] 1) axma, sızma; سوخت ~ yanacağın sızması; 2) yağma; باران ~ yağışın yağması; 3) tökülmə; موی ~ saçın tökülməsi; 4) sürüşmə, çökmə; خاک ~ torpaq sürüşməsi

ریزه [rize] 1) xırda, qırıntı; نان ~ çörək qırıntısı; 2) yonqar; 3) bir damcı, bir az; کردن ~ doğramaq, ovub tökmək

ریزه کاری [rizekari] 1) zərif iş, incə iş; 2) zəriflik, incəlik (*işdə*); کردن ~ zərif iş görmək, incə iş görmək

ریستن [ristən] *bax* ریسیدن

ریسک [risk] risk, təhlükə; کردن ~ risk etmək

ریسمان [risman] ip, kəndir

ریسمان باز [rismanbaz] kəndirbaz

ریسمان باف [rismanbaf] kəndir düzəldən, kəndir hörən

ریسندگی [risəndegi] əyirmə (*sapı*)

ریسنده [risənde] əyirici, iplikəyirən

ریسه [rise] sıra, cərgə; zəncir, halqa; شدن ~ sıralanmaq, sıraya düzülmək; کردن ~ sıraya düzmək

ریسیدن [risidən] əyirmək (*sapı*)

ریش [riş] saqqal; تراشیدن ~ saqqalı qırxmaq; درآوردن ~ saqqal çıxarmaq; گذاشتن ~ saqqal qoymaq; ◊ به ~ کسی خندیدن birini ələ salmaq; و ~ قیچی را به دست کسی دادن saqqalı ələ vermək, ixtiyarı əldən vermək

ریش تراش [riştəraş] ülgüc; üzqırxan; برقی ~ elektrik üzqırxanı

ریش تراشی [riştəraşi] üz qırxma; ~ (لوازم) اسباب üz qırxma aləti (*vasitələri*)

ریشخند [rişxənd] rişxənd, iztehza, ələ salma; کردن ~ ələ salmaq, rişxənd etmək

ریش دار [rişdar] saqqallı

ریش ریش [riş-riş] cırıq-cırıq, köhnəlmiş, dağılmış, شدن ~ cırıq-cırıq olmaq, köhnəlmək, dağılmaq; کردن ~ cırıq-cırıq etmək, dağıtmaq

ریش سفید [rişsefid] 1) ağsaqqal, böyük; 2) qoca, yaşlı

ریش سفیدی [rişsefidi] ağsaqqallıq, böyüklük

ریشو [rişu] *bax* ریش دار

ریشه [rişe] 1) kök; درخت ~˙ ağacın kökü; دندان ~˙ dişin kökü; 2) əsas, özül, bünövrə; 3) *qram.* kök; فعل ~˙ felin kökü; 4) *riyaz.* kök; دواندن ~ kök salmaq, kök atmaq; از ~ درآوردن kökündən çıxarılmaq

ریشه دار [rişedar] möhkəm, köklü, əsaslı; کردن ~ möhkəmlətmək

ریشه کن [rişekən] kökündən çıxarma, kökündən kəsmə, qoparma; شدن ~ kökündən çıxarılmaq

ریگ [rig] qum; çınqıl; ◊ درکفش ~ افتادن canına vəlvələ düşmək, qorxuya düşmək; درکفش داشتن ~ gizli məqsədi olmaq; دندان کسی شدن ~˙ birisinə əngəl törətmək

ریگ پشته [rigpoşte] qum təpəsi

ریگ توده [rigtude] *bax* ریگ پشته

ریگ دار [rigdar] qumlu, qumsal

ریگزار [rigzar] qumluq, qumsallıq

ریگستان [rigestan] *bax* ریگزار

ریگ شوری [rigşuri] tərkibində qızıl olan qumu (*torpağı*) yuma

ریگمالی [rigmali] qumla yuma, qumla təmizləmə, qumla sürtmə (*qab-qaşığı və s.*); کردن ~ qumla sürtmək

ریگی [rigi] qumlu; ساعت ~˙ qum saatı

ریل [reyl] rels; کشیدن ~ rels çəkmək, rels qoymaq

ریل گذاری [reylqozari] rels çəkmə, rels qoyma; کردن ~ rels çəkmək, rels qoymaq

رینگ [rinq] 1) *idm.* rinq; 2) halqa; dairə

رئوس [ro'us] *t.* رأس; مطالب ~˙ əsas mövzular

رئوف [rə'uf] mərhəmətli, rəhmli, ürəyiyumşaq

ریه [riye] *anat.* ağciyər

رئیس [rəis] *c.* رؤسا [roəsa] rəis, başçı, rəhbər; (جمهوری) جمهور ~˙ respublika prezidenti; دانشگاه ~˙ universitet rektoru

رئیسه [rəise]: هئیت ~˙ rəyasət heyəti

ز

ز [ze] fars əlifbasının on üçüncü hərfi; əbcəd hesabında 7 rəqəmini ifadə edir

زاپاس [zapas] 1) ehtiyat; تایر ~˙ ehtiyat şini; 2) təqaüdə çıxmış, ehtiyatda olan; افسر ~˙ təqaüdə çıxmış (*ehtiyatda olan*) zabit

زاج [zac] I kuporos

زاج [zac] II zahı, təzəcə doğmuş qadın

زاد [zad] səfər azuqəsi

زادبوم [zadbum] vətən, yurd; doğum yeri

زاد روز [zadruz] doğum günü, ad günü

زادگاه [zadqah] *bax* زادبوم

زاد مرد [zadmərd] 1) alicənab, xeyirxah; 2) azad, azadfikirli

زادن [zadən] doğmaq; doğulmaq

زاد و بود [zadobud] yaşayış, varlıq

زاد و رود [zadorud] 1) *dan.* oğuluşaq; 2) qohum-qardaş

زاد و ولد [zadovələd] doğum; artım, doğub-törəmə

زاده [zade] زادن *f.-nin k.z.f.sif.*; 1) doğulmuş, anadan olmuş; 2) soyadın tərkib hissəsi kimi işlənərək "oğlu" mənasını bildirir: علی زاده Əlizadə

زار [zar] 1) ağlar; kədərli, hüznlü; 2) bədbəxt, yazıq; 3) ağlama, inilti; زدن ~ ağlamaq; زار گریستن ~ zar-zar ağlamaq

زارع [zare'] *c.* زارعین [zarein] əkinçi

زار و نزار [zaronezar] zəif, arıq

زاری [zari] 1) ağlama, inləmə, zarıma; 2) yalvarma; کردن ~ a) ağlamaq; b) yalvarmaq

زاغ [zağ] I qarğa; ◊ سیاه کسی را ~˙ چوب زدن birinin dalına düşmək, qarabaqara izləmək; گرفتن ~ eyib axtarmaq

زاغ [zağ] II mavi, göy (*gözlər*)

زاغ چشم [zağçeşm] göygöz

زاغچه [zağçe] sağsağan

زاغ دل [zağdel] kinli, daşürəkli, rəhmsiz

زاغ رنگ [zağrəng] mavi rəngli, göy rəngli

زاغ زبان [zağzəban] acıdil, diliacı

زاغه [zağe] 1) zağa, mağara; 2) xarabalıq, xaraba yer

زال [zal] ağsaçlı; ağsaçlı qoca

زالو [zalu] zəli; انداختن ~ zəli qoymaq

زانو [zanu] diz; کاسهٔ ~˙ diz qapağı; ~ زدن diz çökmək; به ~ درآمدن *bax* ~ به ~ نشستن; ~ زدن yanaşı oturmaq, diz-dizə oturmaq; ◊ برزمین نهادن ~ yaltaqlıq etmək; baş əymək; رصد ~ کردن fikrə getmək, əllərini qoynuna qoymaq

زانودار [zanudar] *tex.* dirsəkli; محور ~˙ dirsəkli val (*avtomobildə*)

زاویه [zaviye] *c.* زوایا [zəvaya] bucaq, künc; قائمه ~˙ düz bucaq

زاویه سنج [zaviyesənc] *bax* زاویه یاب

زاویه کش [zaviyekeş] *bax* زاویه یاب

زاویه نشین [zaviyeneşin] 1) tərki-dünya, zahid; 2) adamayovuşmaz, adamdanqaçan

زاویه نشینی [zaviyeneşini] 1) tərki-dünyalıq, zahidlik; 2) adamayovuşmazlıq

زاویه یاب [zaviyeyab] transportir, teodolit, bucaqölçən

زاهد [zahed] *c.* زهاد [zöhhad] zahid, ibadət edən; tərki-dünya

زاهدی [zahedi] 1) zahidlik, tərki-dünyalıq; 2) dindarlıq, möminlik

زایاندن [zayandən] doğuzdurmaq, mamalıq etmək

زایچه [zayce] ulduzların yerləşmə cədvəli; ulduz falı

زایچه [zayçe] 1) doğum haqqında şəhadətnamə; 2) *bax* زایچه

زاید [zayed] 1) artıq; əlavə; 2) lazımsız, lazımi qədərdən artıq

زایده [zayede] 1) əlavə; 2) *anat.* əlavə çıxıntı, əlavə törəmə, appendiks

زایر [zayer] *c.* زایرین [zayerin] // زوار [zovvar] zəvvar, ziyarətçi, ziyarətə gedən

زایش [zayeş] 1) doğuş, doğum; ~ درد döyüş ağrısı; 2) artma, çoxalma

زایشگاه [zayeşqah] doğum evi

زایل [zayel] 1) məhv olan, yox olan; 2) batan (*günəş, ulduz və s.*); ~ شدن a) məhv olmaq, yox olmaq; b) batmaq (*günəş, ulduz və s.*); ~ کردن (ساختن) məhv etmək, yox etmək

زایمان [zayeman] *bax* زایش; ~ طبیعی təbii doğuş

زاینده [zayende] doğan, həyata gətirən, həyat verən

زائو [zau] *bax* زاج II

زاییدن [zayidən] *k.* زا [za]; *bax* زادن

زاییده [zayide] زاییدن *f.-nin k.z.f.sif.; bax* زاده 1)

زباله [zobale] zibil

زباله دان [zobaledan] zibil qabı

زباله کش [zobalekeş] zibildaşıyan

زباله کشی [zobalekeşi] zibil daşıma

زبان [zəban] dil; ~ ادبی ədəbi dil; ~ کوچک dilçək; ~ محاوره danışıq dili; ~ نگارش yazılı dil; ◊ بستن ~ dilinə qıfıl vurulmaq, susmaq; از ~ افتادن *bax* بستن ~; باز کردن (گشودن) ~ dil açmaq, danışmağa başlamaq (*uşaqlar haqqında*); ~ چرب و نرم داشتن yağlı dili olmaq, dil tökmək, yaltaqlıq etmək; ~ در دهان کسی گذاشتن birinin ağzına söz atmaq; ~ درآوردن dil uzatmaq; ~ ریزی کردن dil tökmək, yaltaqlıq etmək; ~ مو در آوردن dilində tük bitmək

زبان آور [zəbanavər] dilli-dilavər, gözəldanışan, natiq, dil-dil ötən

زبان باز [zəbanbaz] 1) dil pəhləvanı; yalançı, fırıldaqçı; 2) yaltaq

زبان بازی [zəbanbazi] 1) yalançılıq; fırıldaq; 2) yaltaqlıq; ~ کردن a) aldatmaq; b) yaltaqlanmaq

زبان بریده [zəbanboride] sakit, azdanışan; lal; diliqısa, diligödək

زبان بسته [zəbanbəste] 1) dilsiz-ağızsız (*heyvan haqqında*); 2) pəltək, kəkələyən

زبان دار [zəbandar] dilli-dilavər

زبان دان [zəbandan] 1) poliqlot, çox dil bilən; 2) dilçi

زبان دراز [zəbanderaz] 1) diliuzun, boşboğaz; 2) kobud

زبان درازی [zəbanderazi] 1) diliuzunluq; boşboğazlıq; 2) kobudluq

زبان درقفا [zəbandərğəfa] *bot.* mahmızçiçək

زبان زد [zəbanzəd] dillər əzbəri, məşhur (*söz, mövzu*); ~ شدن dillər əzbəri olmaq; məşhur olmaq (*söz, mövzu*)

زبان شناس [zəbanşenas] dilçi

زبان شناسی [zəbanşenasi] dilçilik

زبان فهم [zəbanfəhm] dilbilən; şüurlu, düşüncəli

زبان گرفتگی [zəbangereftegi] pəltəklik, kəkələmə

زبان گرفته [zəbangerefte] pəltək, kəkələyən; sakit, dinməz, susan, danışmayan

زبان نفهم [zəbannəfəhm] dilbilməz; ağılsız, axmaq

زبانه [zəbane] dil, dilçək; ~ آتش alovun dili; ~ قفل qıfılın dili; ~ زدن (کشیدن) alovlanmaq

زبانی [zəbani] şifahi, dildə, sözdə; ~ دوست dildə dost, yalançı dost

زبده [zobde] 1) seçilmiş, ən yaxşı; 2) məşhur, tanınmış

زبر [zəbər // zebər] 1) üst, yuxarı; 2) zəbər (*fars əlifbasında "ə" səsini bildirən hərəkə*)

زبر [zebr] qalın, kobud; cod; ~ پارچه cod parça; ~ موی cod tük

زبرجد [zəbərcəd] *miner.* xrizolit (*qiymətli daş*)

زبردست [zəbərdəst] 1) məharətli, mahir, bacarıqlı; 2) güclü, qüvvətli

زبون [zəbun] 1) zəif, gücsüz; 2) zəlil, bədbəxt, yazıq, biçarə

زجاج [zocac] şüşə, büllur

زجر [zəcr] əzab, əziyyət; zülm, işgəncə; ~ دادن incitmək, əzab vermək; ~ کشیدن əzab çəkmək; əziyyətə qatlaşmaq; əzaba məruz qalmaq

زجرکش [zəcrkeş] əziyyət çəkən; işgəncəyə məruz qalan; ~ کردن a) işgəncə ilə öldürmək; b) bezdirmək

زحاف [zehaf] *ədəb.* əruz vəznində uzaltma və qısaltmalar

زحل [zohəl] *astr.* Zühəl, Saturn (*planet*)

زحمت [zəhmət] *c.* زحمات [zəhemat] 1) zəhmət; əmək; 2) çətinlik, çətin iş; narahatlıq; ~ دادن zəhmət vermək; zəhmətə salmaq; ~ کشیدن zəhmət çəkmək; ~ دادن *bax* به ~ انداختن

زحمتکش [zəhmətkeş] zəhmətkeş; əməkçi; çətinliyə qatlaşan

زخم [zəxm] yara; xora; ~ معده mədə yarası; ~ ناخن cırmaq yeri, sıyrıntı; ~ برداشتن (خوردن) yaralanmaq; ~ بستن yaranı bağlamaq (*sarımaq*); ~ زدن (کردن) yaralamaq; ◊ زبان ~ dil yarası, acı söz, tənə

زخم آلود [zəxmalud] tikanlı, acı, kəskin (*söz, hərəkət və s.*)

زخم بندی [zəxmbəndi] yaranı sarıma (*bağlama*)

زخمدار [zəxmdar] yaralı, yaralanmış

زخم دیده [zəxmdide] *bax* زخمدار

زخمی [zəxmi] yaralı; ~ کردن yaralamaq; yara vurmaq

زداییدن [zedayidən] *bax* زدودن

زدگی [zədegi] sürtülmə, yeyilmə, zədələnmə; ~ بید güvə dəymə

زدن [zədən] *k.* زن [zən] 1) vurmaq, döymək, çırpmaq; çırpınmaq; döyünmək; ~ سگ را باچوب iti çubuqla vurmaq; قلبم می زند ürəyim döyünür; کفش پایم را زد ayaqqabı ayağımı döydü; 2) çalmaq; ~ تار tar çalmaq; 3) geymək, taxmaq; ~ عینک eynək taxmaq; 4) batırmaq, islatmaq; ~ نانرا در آب çörəyi suya batırmaq

زدوبند [zədobənd] *dan.* dilbir olma, əlbir olma, gizli saziş

زدوخورد [zədoxord] toqquşma, vuruşma; savaşma, əlbəyaxa olma

زدودن [zedudən // zodudən] *k.* زدا [zeda] təmizləmək, silmək

زده [zəde] زدن *f.-nin k.z.f.sif.*; 1) zədəli, nöqsanlı; 2) *bax* زدگی; 3) *dan.* bezmə, usanma; شدن ~ *dan.* bezmək, usanmaq

زر [zər] qızıl; (ناب) خالص ~ saf qızıl; سفید ~ platin (*ağ qızıl*)

زراب [zərab] qızıl suyu (*rəng, boya*)

زرادخانه [zərradxane] 1) silah zavodu; 2) sikkəxana

زراعت [zeraət] əkinçilik, kənd təsərrüfatı; əkin, əkin-biçin

زرافشان [zərəfşan] 1) qızıl suyuna salınmış; 2) qızıl səpən, qızıl bağışlayan; کردن ~ qızıl suyuna salmaq; qızılla bəzəmək

زرافه [zərrafe] zürafə

زراندود [zərəndud] *bax* زرافشان **1)**

زراندوز [zərənduz] pul və qızıl toplayan, var-dövlət yığan

زراندوزی [zərənduzi] pul və qızıl toplama, var-dövlət yığma

زرباف [zərbaf] zərli parça toxuyan

زربافت [zərbaft] zərli parça, zərli sapla toxunmuş parça

زربفت [zərbəft] *bax* زربافت

زرپرست [zərpərəst] 1) pulpərəst; 2) xəsis, simic

زرت [zorrət] *bax* ذرت

زرتار [zərtar] 1) zərli saplı; 2) *bax* زربافت

زرتشتی [zərtoşti] Zərdüşt dininə inanan, atəşpərəst

زرچوبه [zərçube] *bax* زرد چوبه

زرخیز [zərxiz] 1) qızıllı, tərkibində qızıl olan; سرزمین ~ qızıl çıxarılan ölkə; 2) varlı, zəngin; 3) məhsuldar

زرد [zərd] 1) sarı; روغن ~ sarı yağ, ərinmiş inək yağı; 2) solğun (*üz, sifət*); شدن ~ a) saralmaq; b) ağarmaq (*üz, sifət*)

زرداب [zərdab] öd, səfra

زردالو [zərdalu] ərik; برگه ~ ərik qurusu (*çəyirdəksiz*)

زردپوست [zərdpust] sarıdərili (*irq*)

زردچوبه [zərdçube] sarıkök

زردچهره [zərdçehre] 1) sarıbənizi; 2) rəngi ağarmış, solğun bənizli

زردرو [zərdru] sarıbənizli, rəngi saralmış (*xəstəlikdən, aclıqdan*)

زردک [zərdək] kök (*tərəvəz*)

زرده [zərde] 1) yumurta sarısı; 2) öd kisəsi

زردی [zərdi] 1) sarılıq; 2) *tib.* sarılıq xəstəliyi

زرشک [zereşk] *bot.* zirişk, zərinc

زرشکی [zereşki] 1) zirişklə hazırlanmış; 2) zirişk rəngli, tünd-qırmızı

زرشناس [zərşenas] qızıla əyar vuran (*usta*); zərgər

زرق [zərğ] hiylə, kələk, ikiüzlülük; yalan, fırıldaq

زرق و برق [zərğobərğ] *dan.* zahiri parıltı, aldadıcı bərbəzək

زرکش [zerkeş // zərkəş] 1) qızıl sap ustası; 2) qızıl sapla toxunmuş və ya bəzədilmiş parça

زرکوب [zərkub] qızılı; qızılı naxışlı, qızılla işlənmiş (*bəzədilmiş*)

زرگر [zərgər] zərgər, qızıl ustası; چرخ ~ günəş

زرگری [zərgəri] 1) zərgərlik (*iş, peşə*); 2) qızıl dükanı, zərgər dükanı

زرنا [zorna] *bax* سرنا

زرنشان [zərneşan] *bax* زرکوب

زرنگ [zerəng] zirək, cəld, çevik

زرنگار [zərnəqar] qızıl suyu ilə bəzədilmiş; qızıl suyu ilə yazılmış

زرنگی [zerəngi] zirəklik, çeviklik; کردن ~ zirəklik etmək, cəld tərpənmək

زر و زیور [zərozivər] zinət, bəzək, cavahirat, daş-qaş

زره [zereh] zireh; dəmir geyim, dəmir təbəqə

زرهپوش [zerehpuş] zirehli avtomobil

زره دار [zerehdar] 1) zirehli gəmi; 2) zirehli, zirehi olan

زری [zəri] qızılı parça, qızıl və ya gümüş saplı parça

زرین [zərrin] qızıldan hazırlanmış; zərli, qızılı; کاسه ~ günəş

زشت [zeşt] 1) çirkin, kifir; چهر ~ çirkin sifət; 2) kobud, yaramaz; حرف ~ kobud söz

زشت اندام [zeştəndam] eybəcər bədənli

زشت خو [zeştxu] kobud xasiyyətli, pisxasiyyətli, bədxasiyyət

زشت رو [zeştru] çirkin sifətli, çirkin, kifir

زشت نام [zeştnam] bədnam, rüsvay edilmiş, adı pisliyə çıxmış

زشت نامی [zeştnami] bədnamlıq, rüsvayçılıq, biabırçılıq

زشت نهاد [zeştnehad] bədxasiyyət, pisxasiyyətli

زشتی [zeşti] 1) çirkinlik, kifirlik, eybəcərlik; 2) pislik, biabırçılıq, yaramazlıq; 3) kobudluq, sərtlik, qabalıq

زعفران [zə'fəran] *bot.* zəfəran

زعفرانی [zə'fərani] 1) zəfəranlı; 2) zəfəran rəngli

زعفری [zə'fəri] *bax* زعفرانی

زعم [zə'm] fikir, ehtimal, güman; به ~ fikrə görə, ehtimala görə

زعیم [zəim] *c.* زعما [zoəma] 1) başçı, rəhbər; 2) zamin; 3) mülkədar; tayfa başçısı

زغال [zoğal] kömür; چوب ~ ağac kömürü; سنگ ~ *bax* زغال سنگ

زغال اخته [zoğaləxte] *bot.* axta zoğal, zoğal

زغال خیز [zoğalxiz] daş kömür olan yer; حوضه ~ daş kömür hövzəsi

زغال دار [zoğaldar] *bax* زغال خیز

زغال سنگ [zoğalsəng] daş kömür

زغال سوزی [zoğalsuzi] kömür yandırma; odun kömürü hazırlanması

زغن [zəğən] *zool.* 1) dolaşa; 2) quzğun, çalağan

زفاف [zefaf] toydan sonra gəlinin təzəbəyin evinə gətirilməsi; شب ~ toy gecəsi (*bəylə gəlinin görüşdüyü ilk gecə*)

زفت [zeft] qır, müalicə üçün istifadə olunan təbii qır məhlulu

زفت [zoft] 1) qaşqabaqlı, qaradinməz; 2) xəsis, simic; paxıl

زقوم [zəğğum] 1) *bot.* yabanı zeytun, cır zeytun; 2) cəhənnəm ağacı; 3) acı (*yemək*)

زکات [zəkat] *din.* zəkat (*şəriətə görə yoxsullara verilən pay*)

زکام [zokam] zökəm, soyuqdəymə, qrip; شدن ~ zökəm olmaq, qrip olmaq

زکی [zəki] 1) saf, təmiz, pak (*insan*); 2) dindar, mömin

زگیل [zegil] 1) ziyil; 2) ağac fırı (*ağacın gövdəsindəki şişi*)

زلال [zolal] 1) saf, təmiz, duru; آب ~ təmiz su; 2) yumurta ağı maddəsi

زلزله [zelzele // zəlzəle] *c.* زلازل [zəlazel] zəlzələ

زلزله سنج [zelzelesənc] seysmoqraf

زلزله شناس [zelzeleşenas] seysmoloq

زلزله شناسی [zelzeleşenasi] seysmologiya; ~ ایستگاه seysmoloji stansiya

زلزله نگار [zelzeleneqar] zəlzələni (*təkanları*) qeyd edən cihaz

زلزله نگاری [zelzeleneqari] zəlzələni (*təkanları*) qeyd etmə

زلف [zolf] saç

زمام [zemam] *c.* ازمه [əzemme] 1) cilov; 2) idarəetmə; hakimiyyət, ixtiyar; ~ امور را به دست گرفتن hakimiyyəti ələ almaq

زمامدار [zemamdar] hakim, iqtidar sahibi

زمامداری [zemamdari] idarəetmə; hakimiyyət; کردن ~ idarə etmək

زمان [zəman] *c.* ازمنه [əzmene] 1) zaman, çağ, vaxt; dövr, mərhələ; ~اهل çağdaş, müasir; 2) *qram.* zaman; آینده ~ gələcək zaman; حال ~ indiki zaman; گذشته ~ keçmiş zaman; خواستن ~ möhlət istəmək

زمان شناسی [zəmanşenasi] xronologiya

زمانه [zəmane] 1) zəmanə; əsr; 2) tale, qismət

زمانه ساز [zəmanesaz] zəmanə ilə ayaqlaşan, tale ilə barışan, taleyindən gileylənməyən

زمانی [zəmani] 1) müvəqqəti; 2) xronoloji

زمخت [zomoxt] 1) kobud, qaba; ~ حرفهای kobud sözlər; 2) bərk, sərt; kələ-kötür

زمختی [zomoxti] 1) kobudluq, qabalıq; 2) bərklik, sərtlik

زمرد [zomorrod] zümrüd

زمردی [zomorrodi] 1) zümrüdü, zümrüd rəngli; 2) zümrüddən düzəldilmiş; 3) zümrüdlü; zümrüd qaşlı; ~ انگشتر zümrüd qaşlı üzük

زمردین [zomorrodin] *bax* زمردی

زمره [zomre] *c.* زمر [zomər] zümrə, sinif, təbəqə

زمزمه [zəmzəme // zemzeme] zümzümə, dodaqaltı oxuma, astadan oxuma; کردن ~ zümzümə etmək

زمستان [zemestan] qış; ~ در qışda

زمستانی [zemestani] qış; qışa aid; qışa məxsus; ~ لباس qış paltarı

زمین [zəmin] 1) yer, torpaq; ~ سست yumşaq torpaq; ~ بکر و بایر xam torpaq; ~ شور şoran, şoranlıq; 2) Yer (*planet*); ~ کره Yer kürəsi; ~ خوردن yıxılmaq; زدن ~ yıxmaq; yerə vurmaq; ◊ از روی ~ برانداختن yer üzündən silmək, məhv etmək; را ~ به آسمان دوختن əfsanə danışmaq, ağlına gələni danışmaq; را به ~ آسمان رساندن dəridən-qabıqdan çıxmaq; özünü oda-közə vurmaq; به ~ دندان گرفتن acizlik göstərmək

زمین پیما [zəminpeyma] 1) yeri ölçmə, sərhəd çəkmə; 2) geodezist

زمین پیمایی [zəminpeymayi] geodeziya

زمین دار [zəmindar] torpaq sahibi, mülkədar

زمین شناس [zəminşenas] geoloq, torpaqşünas

زمین شناسی [zəminşenasi] geologiya, torpaqşünaslıq

زمین کن [zəminkən] yerqazan; ekskavator

زمین گیر [zəmingir] iflic, əlil, şikəst

زمین لرزه [zəminlərze] zəlzələ, yerin titrəməsi

زمین لغزه [zəminləğze] torpaq sürüşməsi

زمینه [zəmine] 1) zəmin, əsas; 2) səbəb; 3) sahə

زمینه سازی [zəminesazi] zəmin hazırlama (*bir iş və ya söhbət üçün*)

زمینی [zəmini] yer, torpaq, quru; ~ نیروهای quru qoşunlar

زن [zən] 1) qadın, arvad; 2) həyat yoldaşı; گرفتن ~ evlənmək

زنا [zena] zina (*nikahsız cinsi əlaqə*)

زناشویی [zənaşuyi] evlənmə; ailə həyatı qurma; کردن ~ evlənmək, ailə həyatı qurmaq

زناکار [zenakar] zinakar (*nikahsız cinsi əlaqədə olan*)

زناکاری [zenakari] zina, zinakarlıq; کردن ~ zinakarlıq etmək

زنانه [zənane] qadına məxsus; ~ بیماریهای qadın xəstəlikləri; ~ پیراهن qadın köynəyi

زنانه دوز [zənaneduz] qadın dərzisi, qadın paltarı tikən

زن بابا [zənbaba] ögey ana, analıq

زنبارگی [zənbaregi] *bax* زنبازی; ~ کردن arvadbazlıq etmək

زن باره [zənbare] *bax* زن باز

زنباز [zənbaz] arvadbaz

زنبازی [zənbazi] arvadbazlıq

زنبق [zəmbəğ] zanbaq

زنبور [zəmbur] arı; عسل ~ bal arısı; ◊ خانه ~ شورانیدن arı yuvasına çöp uzatmaq (*soxmaq*)

زنبه [zəmbe] xərək

زنبیل [zəmbil] zənbil, səbət

زن پدر [zənpedər] *bax* زن بابا

زنجبیل [zəncəbil] *bot.* zəncəfil

زنجره [zəncəre] *zool.* cırcırama

زنجیر [zəncir] zəncir; چرخ ~ təkər zənciri; ساعت ~ saat zənciri; ~ کردن zəncirləmək, qandallamaq

زنجیر دار [zəncirdar] tırtıllı (*traktor*)

زنخ [zənəx] çənə; ◊ برخود زدن ~ xəcalət çəkmək; نرم داشتن ~ çənəsi boş olmaq

زنخدان [zənəxdan] zənəxdan, çənə çuxuru

زند [zənd] *anat.* bazuönü (*dirsəklə pəncə arasındakı hissə*)

زن دار [zəndar] evli, ailəli; ~ مرد evli kişi

زندان [zendan] zindan, dustaqxana, məhbəs, həbsxana

زندان بان [zendanban] həbsxana gözətçisi

زندانی [zendani] məhbus, dustaq; ~ سیاسی siyasi dustaq; شدن ~ həbsxanaya düşmək, həbs olunmaq

زن دایی [zəndayi] dayıarvadı

زندگانی [zendeqani] *bax* زندگی

زندگی [zendegi] həyat, yaşayış; varlıq; ömür; ~ اجتماعی ictimai həyat; ~ شرافتمندانه şərəfli ömür; ~ روش həyat tərzi; کردن ~ yaşamaq; ömür sürmək; ◊ ~ آب *bax* آب

زندگینامه [zendeginame] tərcümeyi-hal

زنده [zende] 1) diri, canlı; 2) zirək, cəld; شدن ~ dirilmək; کردن ~ dirilmək; باشید ~ sağ olun, cansağlığı arzulayıram

زنده باد [zendebad] yaşasın!; صلح ~ yaşasın sülh!

زنده بگور [zendebequr] diri-diri basdırılmış

زنده دل [zendedel] 1) gümrah, cəld, zirək; 2) şən, nikbin

زنده دلی [zendedeli] 1) gümrahlıq, cəldlik; 2) nikbinlik

زنده زنده [zendezende] diri-diri

زنده یاد [zendeyad] həmişəyaşar, əbədiyaşar (*vəfat etmiş adam haqqında*)

زن عمو [zənəmu] əmiarvadı

زنک [zənək] *vul.* arvad (*təhqirlə*)

زنگ [zəng] I pas; کارد ~ˆ bıçağın pası; زدن (خوردن، گرفتن) ~ paslanmaq; ◊ دل ~ˆ qəm, kədər; از دل کسی زدودن ~ birinə təskinlik (*təsəlli*) vermək

زنگ [zəng] II zəng; تلفن ~ˆ telefon zəngi; زدن ~ zəng vurmaq; zəng çalmaq

زنگار [zənqar] 1) yaşıl boya; 2) *bax* زنگ I

زنگارپذیر [zənqarpəzir] *bax* زنگ زده

زنگارخورده [zənqarxorde] paslanmış

زنگار زده [zənqarzəde] *bax* زنگارخورده

زنگ ناپذیر [zəngarnapəzir] زنگ ناپذیر

زنگاری [zəngari] açıq-yaşıl rəngli

زنگ پذیر [zəngpəzir] *bax* زنگ زدنی

زنگ خوردگی [zəngxordegi] *bax* زنگ زدگی

زنگ دار [zəngdar] səsli, gur səsli

زنگ زدگی [zəngzədegi] paslanma, pasatma, pas tutma

زنگ زدنی [zəngzədəni] paslanan, pasatan, pastutan

زنگ زده [zəngzəde] paslı, paslanmış, pas atmış, pas tutmuş

زنگ ناپذیر [zəngnapəzir] paslanmayan; فولاد ~ˆ paslanmayan polad

زنگ نزدنی [zəngnəzədəni] *bax* زنگ ناپزیر

زنگوله [zəngule] zəngulə, zınqırov; ◊ پای تابوت ~ˆ qoca kişinin kiçikyaşlı övladı

زنگی [zəngi] I zənci, qaradərili (*irq*)

زنگی [zəngi] II zəngli, cingiltili; səsli; ساعت ~ˆ zəngli saat

زن ماهی [zənmahi] supərisi

زننده [zənənde] tünd, kəskin, acı (*dad*); 2) acı, tikanlı (*söz*)

زن و بچه دار [zənobəççedar] evli, ailəli, arvad-uşaqlı; مرد ~ˆ ailəli kişi

زنهار [zenhar] aman, ay aman, saqın, ehtiyatlı ol; خواستن ~ aman istəmək; دادن ~ aman vermək, rəhm etmək

زنهار خوار [zenharxar] 1) vədəxilaf, vədinə əməl etməyən; əhdinə vəfa etməyən; satqın, xain; 2) sığınacaq istəyən

زنهار دار [zenhardar] sığınacaq verən, hami, himayədar

زوار [zovvar] *t.* زایر

زوال [zəval] 1) yox olma; məhv olma; 2) tənəzzül, düşkünlük; 3): آفتاب ~ˆ batma; günəşin batması; یافتن (دیدن) ~ yox olmaq, məhv olmaq; رو به ~ رفتن məhvə doğru getmək

زوایا [zəvaya] *t.* زاویه

زواید [zəvayed] 1) *t.* زایده; 2) artıq, qalıq

زوج [zouc] *c.* ازواج [əzvac] 1) ər, həyat yoldaşı; 2) cüt, iki; qoşa

زوجه [zouce] *c.* زوجات [zoucat] arvad, həyat yoldaşı

زوجیت [zouciyyət] ər-arvadlıq, nikah; به ~ˆ کسی در آمدن nikaha daxil olmaq

زوجین [zouceyn] ər-arvad

زود [zud] tez; صبح ~ˆ sübh tezdən; باش ~! tez ol! tələs!

زود آشنا [zudaşena] adamayovuşan, ünsiyyətli

زودباور [zudbavər] tezinanan, sadəlövh

زودپز [zudpəz] tezbişirən qazan

زودجوش [zudcuş] tezqaynayan; tezqaynadan; سماور ~ˆ tezqaynadan samovar

زودخشم [zudxəşm] tez özündən çıxan, tezhirslənən

زودخیز [zudxiz] tezoyanan

زودرس [zudrəs] tezyetişən (*meyvə*)

زودرنج [zudrənc] küsəyən, tezinciyən

زودفریب [zudfərib] tezaldanan, tez inanan

زودفهم [zudfəhm] tez başa düşən, fərasətli, dərrakəli

زودگذر [zudqozər] ötəri, tezkeçən

زودگوار [zudqovar] tez həzm olunan

زودگوارا [zudqovara] *bax* زودگوار

زودگیر [zudgir] 1) tezyanan, tezalovlanan; 2) tezbərkiyən

زودهضم [zudhəzm] *bax* زودگوار

زودی [zudi] tezlik, sürət; cəldlik; به ~ tezliklə

زور [zur] 1) zor, güc, qüvvə; به ~ zorla, güclə; 2) çalışqanlıq, səy; gərginlik; 3) təzyiq; sıxma; 4) zülm; ~ دادن a) sıxmaq; b) güc vermək; از ~ افتادن gücdən düşmək, zəifləmək

زورآزما [zurazma] pəhləvan; güclü, qüvvətli

زورآزمایی [zurazmayi] gücü sınama

زورآور [zuravər] *bax* زورآزما; ~ شدن güclənmək

زورخانه [zurxane] zorxana, güləş klubu

زور زورکی [zurzuröki] güclə, zorla, çətinliklə

زورق [zourəğ] qayıq

زورقچی [zourəğçi] qayıqçı

زورکی [zurəki] *dan.* 1) zorla, güclə; 2) əlacsız, çarəsiz; məcburi

زورمند [zurmənd] güclü, qüvvətli, möhkəm

زوزه [zuze] 1) ulama; 2) zingilti; کشیدن ~ a) ulamaq; b) zingildəmək

زه [zeh] I 1) sim, tel; تار ~ˆ tarın simi; 2) bağırsaq (*qışlarda*)

زه [zeh] II *n.* afərin, mərhəba

زهاب [zehab] yeraltı suyun sızması, yeraltı suyun sızdığı yer

زهاب کش [zehabkeş] drenaj, yeraltı suyu qurutmaq üçün çəkilən boru

زهار [zehar] 1) *anat.* qasıq; 2) qarının aşağı hissəsi

زهتاب [zehtab] bağırsaqdan simli alətlər üçün tel (*sim*) düzəldən usta

زهد [zohd] zahidlik; ibadət, tərkidünyalıq

زهدان [zehdan] *anat.* uşaqlıq, ana bətni

زهد فروش [zohdforuş] ikiüzlü, riyakar, yalançı

زهد فروشی [zohdforuşi] ikiüzlülük, riyakarlıq, yalançılıq; کردن ~ ikiüzlülük etmək, riyakarlıq etmək

زهر [zəhr] I zəhər; مار ~ˆ ilan zəhəri; مهلک ~ˆ öldürücü zəhər; خوردن ~ zəhərlənmək, zəhər içmək; دادن ~ zəhərləmək; ◊ چشم گرفتن ~ˆ gözünün odunu almaq

زهر [zəhr] II *c.* ازهار [əzhar] // زهور [zohur] gül, çiçək

زهرا [zəhra] gülərüzlü, üzü nurlu, parlaqüzlü (*qadın*)

زهراب [zəhrab] *dan.* 1) sidik; 2) çirkli (*zəhərlənmiş*) su

زهرابه [zəhrabe] *tib.* zəhər (*mikroorqanizmlərin, heyvan və bitkilərin buraxdıqları zəhər*)

زهرآگین [zəhragin] 1) zəhərli; 2) acı; tikanlı, xoşagəlməz; سخنان ~ acı sözlər

زهرآلود [zəhralud] *bax* زهرآگین; ~ کردن a) zəhərləmək; b) kədərləndirmək; pərt etmək

زهرخند [zəhrxənd] acı gülüş; ~ زدن (کردن) acı-acı gülmək

زهردار [zəhrdar] 1) zəhərli; 2) acı, tikanlı; ~ حرفهای acı sözlər

زهردارو [zəhrdaru] zəhərə qarşı dərman, padzəhər

زهرداری [zəhrdari] zəhərlilik

زهر شناس [zəhrşenas] toksikoloq

زهر شناسی [zəhrşenasi] toksikologiya

زهرکش [zəhrkoş] *bax* زهر دارو

زهرناک [zəhrnak] *bax* زهرآگین

زهروی [zöhrəvi] zöhrəvi; بیماریهای ~ zöhrəvi xəstəliklər

زهره [zəhre] 1) öd; 2) öd kisəsi; 3) igidlik, şücaət; ◊~ باختن (ترکیدن، آب شدن) bərk qorxmaq; bağrı yarılmaq

زهره [zohre] *astr.* Karvanqıran (*Venera*)

زهره ترک [zəhretərək] bağrı yarılmış; bərk qorxmuş; ~ شدن bağrı yarılmaq, bərk qorxmaq; ~ کردن bərk qorxutmaq, bağrını yarmaq

زهره جبین [zohrecəbin] gözəl, gözəl sifətli

زهری [zəhri] zəhərli, zəhərləyən

زهکشی [zehkeşi] 1) drenaj (*arxlar və ya borular vasitəsilə bataqlığın qurudulması*); 2) bataqlığı qurutmaq üçün arxlar və ya kanallar çəkilməsi

زهوار [zehvar] ip, qaytan, bağ

زهی [zehi] *n. bax* زه II; سعادت ~ nə böyük xoşbəxtlik!

زیاد [ziyad] çox, artıq; ~ عده çox miqdar, böyük miqdar; ~ محبت çox güclü məhəbbət; ~ شدن çoxalmaq; ~ کردن çoxaltmaq, artırmaq; ◊ التفات ~ شما sağ olun, minnətdaram

زیادت [ziyadət] artırma, əlavə etmə; artırılmış, çoxaldılmış

زیاده [ziyade] daha çox, daha artıq; ازحد ~ həddindən artıq

زیاده رو [ziyaderou] həddi aşan; ekstremist

زیاده روی [ziyaderəvi] 1) həddi aşma, sui-istifadə; 2) ifrata varma, ekstremizm

زیاده گو [ziyadequ] çoxdanışan; boşboğaz, çərənçi

زیادی [ziyadi] çoxluq, artıqlıq; çox, həddindən çox; ~ خرج artıq xərc; ~ کلمات artıq söz, yersiz söz

زیارت [ziyarət] *c.* زیارات [ziyarat] ziyarət, müqəddəs yerlərə getmə; ~ کردن ziyarət etmək; görmək; به ~ رفتن ziyarətə getmək

زیارتگاه [ziyarətqah] ziyarətgah, ziyarət yeri

زیارت نامه [ziyarətname] ziyarət duası

زیان [ziyan] ziyan, zərər, xəsarət; ~ داشتن zərərli olmaq; ~ دیدن (بردن، کردن، کشیدن) ziyan çəkmək, zərər görmək; ~ رساندن (بخشیدن، آوردن) ziyan vurmaq

زیان آور [ziyanavər] ziyanverici, zərərverici; zərərli, ziyanlı

زیانبخش [ziyanbəxş] *bax* زیان آور

زیان دیده [ziyandide] zərər çəkmiş, zərərçəkən

زیان کار [ziyankar] ziyankar, ziyanverici, ziyanvuran

زیان کاری [ziyankari] ziyankarlıq, ziyan vurma, zərər vurma; ~ کردن ziyankarlıq etmək, ziyan vurmaq, zərər vurmaq

زیب [zib] zinət, bəzək, yaraşıq; ~ (بخشیدن) دادن bəzəmək, zinətləndirmək

زیبا [ziba] gözəl, qəşəng, yaraşıqlı, göyçək

زیباپسند [zibapəsənd] estet; estetizm tərəfdarı, gözəllik vurğunu

زیبا خو [zibaxu] xoşxasiyyət

زیبا رخ [zibarox] *bax* زیبارو

زیبارو [zibaru] gözəl, qəşəng, gözəl üzlü

زیبا شناس [zibaşenas] 1) estetika mütəxəssisi; 2) *bax* زیباپسند

زیبا شناسی [zibaşenasi] estetika

زیبایی [zibayi] gözəllik, qəşənglik, göyçəklik

زیبق [zeybəğ] civə

زیبنده [zibənde] yaraşan, yaraşıqlı; münasib, layiq

زیبیدن [zibidən] yaraşmaq

زیپ [zip] zəncir (*paltarda*); ~ بستن zənciri bağlamaq (*paltarda*); ~ خوردن zəncirlə bağlanmaq (*paltar*)

زیتون [zeytun] zeytun; ~ روغن zeytun yağı

زیج [zic] astronomik cədvəl; astronomik təqvim

زیر [zir] 1) alt, aşağı; ~ لباس alt paltar; ~ زمین yerin altı; 2) güclü (*səs*); ~ صدای güclü (*qulaqbatıran*) səs; 3) zir (*fars əlifbasında "e" səsini bildirən hərəkə*); ◊ ~ گرفتن (گذاشتن) basmaq, əzmək (*maşın, qatar və s.*); bir işin altına girməmək

زیرا [zira] çünki, ona görə ki

زیرآب [zirab] su axmaq üçün deşik, su borusu; ~ زدن (کشیدن) suyu buraxmaq (*su anbarında*); ◊ *dan.* ~ کسی را زدن birinin ayağının altını qazmaq

زیرآبی [zirabi] 1) suya cumma; suya dalma; 2) sualtı; ~ شنای su altında üzmə; ~ رفتن (زدن) suya cummaq; su altında üzmək

زیربنا [zirbəna] 1) əsas, bünövrə, təməl; 2) *fəl.* bazis

زیرپایی [zirpayi] oturacağın altına qoyulan ayaqaltı

زیرپوست [zirpust] dəri altı; ~ تزریق dəri altı inyeksiya

زیرپوش [zirpuş] alt paltar; ~ مردانه kişi alt paltarı

زیرپیراهن [zirpirahən] alt paltar; alt köynək, mayka

زیرجامه [zircame] alt paltar (*kişi üçün*)

زیرچشمی [zirçeşmi] gözaltı; ~ نگاه کردن gözaltı baxmaq

زیرحساب [zirhesab] hesab; faktura

زیردرختی [zirdərəxti] ağacdan tökülən meyvə, ağac altına tökülmüş meyvələr

زیردریایی [zirdəryayi] sualtı; ~ قایق sualtı qayıq

زیردست [zirdəst] köməkçi; əlaltı, tabe olan

زیردل [zirdel] *anat.* mədəaltı vəzi

زیرزمین [zirzəmin] zirzəmi

زیرزمینی [zirzəmini] yeraltı; ~ (راهرو) گذرگاه yeraltı keçid

زیرزیرکی [zirzirəki] xəlvət, xəlvəti, gizli, gizlin

زیرساخت [zirsaxt] *bax* زیربنا

زیرسیگاری [zirsigari] külqabı

زیرشلواری [zirşəlvari] alt tuman (*kişi üçün*)

زیرک [zirək] zirək, cəld, çevik, diribaş; fərasətli

زیرکی [zirəki] zirəklik, çeviklik, diribaşlıq; fərasət

زیر و بالا [zirobala] 1) *bax* زیر و رو; 2) *məc.* mənasız söz, boş söz; ◊ ~ **حرف زدن** mənasız danışmaq

زیروبم [zirobəm] zil və bəm (*səslər*)

زیر و رو [ziroru] dağınıq, qarışıq, alt-üst; **کردن** ~ alt-üst etmək, birbirinə qarışdırmaq

زیر و زبر [zirozebər] alt-üst, viran, darmadağın; **شدن** ~ alt-üst olmaq, viran olmaq, darmadağın olmaq

زیره [zire] I altlıq (*ayaqqabıda*)

زیره [zire] II *bot.* zirə

زیری [ziri] aşağıdakı, altdakı

زیرین [zirin] *bax* زیری; ~ **کلمات** aşağıdakı sözlər

زیست [zist] yaşayış, həyat, varlıq, təbiət

زیست شناس [zistşenas] bioloq

زیست شناسی [zistşenasi] biologiya

زیست گاه [zistqah] yaşayış yeri; yaşamaq üçün münasib olan yer

زیستن [zistən] *k.* زی [zi] yaşamaq

زیلو [zilu] ayaqaltı, palaz, fərş, cecim

زین [zin] yəhər; **بستن (زدن، کردن)** ~ yəhərləmək; ◊**برگاو بستن** ~ səfərə hazırlaşmaq; **برگرگ نهادن** ~ risk etmək, təhlükəli işi boynuna götürmək

زینت [zinət] bəzək, zinət; **دادن** ~ **(کردن)** bəzəmək; **(یافتن) شدن** ~ bəzədilmək

زینت آلات [zinətalat] bəzək əşyaları; zinət əşyaları

زینتی [zinəti] dekorativ; **نباتات** ~ **(گیاهان)** bəzək bitkiləri

زینهار [zinhar] *bax* رنهار

زیور [zivər] *bax* زینت

زیورآلات [zivəralat] *bax* زینت آلات

زیوری [zivəri] bəzəyən, bəzəkvuran

ژ

ژ [je] fars əlifbasının on dördüncü hərfi

ژاژ [jaj] 1) *bot.* dəvətikanı; 2) *bot.* qanqal; 3) saqqız; 4) boş söz, mənasız söz; **خاییدن** ~ boşboğazlıq etmək, çərənçilik etmək

ژاژخا [jajxa] boşboğaz, çərənçi

ژاژخایی [jajxayi] boşboğazlıq, çərənçilik; çox danışma; **کردن** ~ a) boşboğazlıq etmək, mənasız danışmaq; b) saqqız çeynəmək; c) gövşəmək

ژاکت [jaket] jaket

ژاله [jale] 1) şeh; 2) *məc.* göz yaşı

ژاندارم [jandarm] jandarm

ژاندارمری [jandarmeri] jandarmeriya; ~ **اداره** jandarm idarəsi

ژانر [janr] *ədəb.* janr

ژانویه [janviye] yanvar

ژتون [jeton] jeton

ژرسه [jerse] cerse (*toxunma parça*)

ژرف [jərf] 1) dərin; ~ **چاه** dərin quyu; 2) uzun; ~ **در** uzun dərə; 3) çətin; 4) vacib, əhəmiyyətli

ژرفا [jərfa] dərinlik (*dənizin, quyunun*)

ژرفا سنج [jərfasənc] lot (*dərinlik-ölçən cihaz*)

ژرف اندیش [jərfəndiş] dərindən düşünən, uzaqgörən

ژرف اندیشی [jərfəndişi] dərindən düşünmə, uzaqgörənlik

ژرف بین [jərfbin] 1) uzaqgörən, tədbirli; 2) ciddi

ژرف بینی [jərfbini] 1) uzaqgörənlik, tədbirlilik; 2) ciddilik

ژرفی [jərfi] 1) dərinlik; 2) ölçüb-biçmə, götür-qoy etmə; 3) ehtiyatla hərəkət etmə

ژرمنی [jerməni] alman (*malı*)

ژست [jest] jest, əl-qol hərəkəti; **آمدن** ~ özünü göstərmək; **کردن** ~ əl-qol hərəkəti etmək

ژکیدن [jəkidən] 1) əsəbiləşmək; 2) donquldanmaq

ژلاتین [jelatin] jelatin

ژله [jele] jele; **سیب** ~ alma jelesi

ژن [jen] *biol.* gen

ژنتیک [jenetik] genetik

ژنده [jende] köhnə paltar; geyilmiş paltar

ژنده پوش [jendepuş] cındır geyimli

ژنده ژنده [jendejende] cır-cındır, cuxuqcuxuq

ژنراتور [jen(e)rator] generator

ژنرال [jen(e)ral] general

ژنرال کنسول [jen(e)ralkonsul] baş konsul

ژنرال کنسول گری [jen(e)ralkonsulgəri] baş konsulluq

ژنی [jeni] istedad; dahilik

ژوبین [jubin] nizə

ژوبین دار [jubindar] nizəatan

ژوپ [jup] tuman, yubka

ژوپن [jupon] qısa alt tuman; qısa yubka

ژوپیتر [jupiter] *astr.* Yupiter

ژوت [jut] *bot.* cut (*hind kəndiri*)

ژور [jur] deşik, yarıq; baca

ژوردار [jurdar] şəbəkəli, incə, zərif; ~ **کار** zərif iş, zərgər işi

ژورنال [jurnal] jurnal, dərgi

ژوری [juri] jüri, münsiflər heyəti

ژولیدگی [julidegi] pırtlaşıqlıq, dolaşıqlıq, qarışıqlıq

ژولیدن [julidən] pırtlaşmaq, dolaşmaq, qarışmaq (*saç*)

ژولیده [julide] pərişan, dağınıq, pırtlaşıq; ~ **موهای** pırtlaşıq saçlar

ژوئن [juən] iyun

ژویه [juye] *bax* **ژوئیه**

ژوئیه [juiyye] iyul

ژیان [jiyan] yırtıcı, vəhşi, qəddar; dəhşətli

ژیگولت [jiqolet] modla geyinən (*qadın, qız*)

ژیگولو [jiqolo] modla geyinən (*kişi, oğlan*)

ژیلت [jilet] jilet

ژیمنا ستیک [jimnastik] gimnastika

ژئودزی [jeodezi] geodeziya

ژئوپلیتیک [jeopolitik] geopolitika

ژئوفیزیسین [jeofizisyən] geofizik

ژئولوژی [jeoloji] geologiya

ژیوه [jive] *bax* **جیوه**

س

س [sin] fars əlifbasının on beşinci hərfi; əbcəd hesabında 60 rəqəmini ifadə edir

ساباط [sabat] 1) talvar; 2) pasaj; qalereya; üstüörtülü keçid (*dalan*); 3) köşk

سابق [sabeğ] keçmiş, əvvəlki, qabaqkı; ~ **ایام** keçmiş günlər

سابقاً [sabeğən] keçmişdə, əvvəllər; çoxdan, vaxtilə

سابق الذکر [sabeğozzekr] haqqında danışılan, yuxarıda qeyd olunan, yuxarıda göstərilən

سابقه [sabeğe] *c.* **سوابق** [səvabeğ] 1) keçmiş (*iş, hadisə*); staj; **کار** ~ iş stajı; 2) ad, şöhrət; etibar

سابقه دار [sabeğedar] keçmişdə iş təcrübəsi olan, stajlı, təcrübəli

سابوتاژ [sabotaj] sabotaj, işi pozma, qəsdən işləməmə

سابیدگی [sabidegi] *bax* **ساییدگی**

سابیدن [sabıdən] *bax* **ساییدن**

ساتن [satən] *bax* **ساتین**

ساتین [satın] satin (*parça*)

ساج [sac] sac; tava

ساچمه [saçme] qırma; saçma (*ov tüfəngi üçün*)

ساحت [sahət] sahə, meydan, ərazi; həyət

ساحر [saher] *c.* **سحره** [sohəre] sehrbaz; cadugər

ساحرانه [saherane] sehrkarcasına; sehrkarlıqla

ساحل [sahel] *c.* **سواحل** [səvahel] sahil, kənar; qıraq; **دریا** ~ dəniz sahili; dəniz kənarı

ساحلی [saheli] sahil; sahilə aid; sahildəki, sahildə yerləşən; ~ **زمینهای** sahil torpaqları, sahildəki torpaqlar

ساخت [saxt] 1) məhsul; istehsal; ~ **ایران** İran istehsalı, İranda istehsal olunub; ~ **کارخانه** zavod məhsulu; 2) quruluş; ~ **بنا** binanın quruluşu

ساختار [saxtar] quruluş, sistem; ~ **دولت** dövlət quruluşu

ساختگی [saxtegi] 1) saxta, qondarma, şüni; 2) hiyləgər; ikiüzlü, riyakar

ساختمان [saxteman] 1) tikinti, inşaat; 2) bina; 3) quruluş; forma

ساختمانی [saxtemani] *bax* **ساختمان** 1); ~ **مصالح** tikinti materialları

ساختن [saxtən] *k.* **ساز** [sazl 1) düzəltmək, istehsal etmək; 2) tikmək (*bina*); 3) yola getmək; dolanmaq, münasibət qurmaq; ~ **بامردم** camaatla yola getmək; 4) ~ **خاطرنشان** *bax* **خاطرنشان**

ساخت و پاخت [saxtopaxt] *dan.* gizli sazış, gizli razılıq, xəlvəti sövdələşmə

ساخت و ساز [saxtosaz] 1) tikib yaratma; qurub-yaratma; 2) hazırlıq; 3) *bax* **ساختار**

ساخته [saxte] **ساختن** *f-nin k.-f.-si*; 1) düzəldilmiş, hazırlanmış, həşəf; 2) [illegible] 3) tikilmiş (*bina*)

ساخته و پرداخته [saxteopordaxte] 1) düzəldilmiş, tamamlanmış, hazır; 2) qurama, qondarma, uydurulmuş

سادات [sadat] *c.* **سید**

سادگی [sadegi] 1) sadəlik, asanlıq; 2) sadəlövhlük; 3) təvazökarlıq; 4) tənbəllik

ساده [sade] 1) sadə, adi, təvəzökar; düzəksiz; ~ **لباس** adi paltar; 2) sadə, asan, bəsit; ~ **کی** sadə [illegible]

3) sadəlövh; ürəyiaçıq, səmimi, təvazökar; 4) təbii, adi, sadə, sakit; ~ زندگی adi həyat

ساده بافت [sadebaft] sadə toxunuşlu; saya, birrəngli (*parça*)

ساده دل [sadedəl] sadəlövh, hər şeyə inanan, səmimi, ürəyiaçıq; آدم ~ səmimi adam;

ساده دلی [sadedeli] sadəlövhlük, hər şeyə inanma, səmimilik

ساده ضمیر [sadezəmir] *bax* ساده دل

ساده لوح [sadelouh] *bax* ساده دل

ساده لوحی [sadelouhi] *bax* ساده دلی

ساده نویسی [sadenevisi] sadə dillə yazma; aydın üslub

سادیسم [sadism] 1) sadist, sadizm xəstəliyinə tutulmuş; 2) adamları incitmə, mərdimazarlıq

سار [sar] sığırçın

سارا [sara] saf, təmiz; ~ زر saf qızıl

ساربان [sar(e)ban] 1) sarban, dəvəçi, dəvəyə baxan; 2) karvanbaşı

ساردین [sardin] *zool.* sardin (*siyənək fəsiləsindən xırda balıq*)

سارق [sareğ] oğru; مسلح ~ silahlı oğru

ساروان [sar(e)van] *bax* ساربان

ساروج [saruc] saruc (*əhəng və külün qarışığından düzəldilən tikinti materialı*)

ساری [sari] 1) yoluxucu, keçici; 2) yayılan, hər yerə nüfuz edən; ~ شدن yayılmaq, nüfuz etmək

ساریه [sariye] *bax* ساری

ساز [saz] I 1) tar; saz; 2) musiqi aləti; (نواختن) زدن ~ saz (*tar*) çalmaq

ساز [saz] II ساختن *f.-nin k.* 1) razılıq, uyğunluq; 2) səliqə-sahman; 3) hazırlıq; 4) azuqə-sursat (*yol üçün*); راه ~ yol azuqəsi; 5) şənlik məclisi; 6) saz, yaxşı, kefi kök; 7) mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "düzəldən", "usta" mənasını bildirir: ساعت ساز saatsaz, saat ustası; دادن ~ a) sazlamaq (*musiqi alətini*); b) şənlik yaratmaq; کردن ~ a) hazırlamaq, rahlamaq; b) hazırlanmaq, rahlanmaq; گرفتن ~ sabitləşmək, öz axarına düşmək; ◊ سفر بستن ~ yola hazırlaşmaq; حالش ~ نیست halı saz (*yaxşı*) deyil; kefsizdir

سازن [sazzən] 1) tarzən; saz çalan; 2) musiqiçi

سازش [sazeş] 1) sülh, barışıq; 2) müqavilə, saziş; 3) qarşılıqlı güzəşt, kompromis; həmrəylik

سازشکار [sazeşkar] sazişçi, təslimçi, opportunist

سازشنامه [sazeşname] saziş sənədi, yazılı razılaşma

سازگار [saz(e)qar] 1) uyğun, müvafiq, münasib; 2) xoşrəftar, qılıqlı; ~ آدم yolagedən adam

سازگاری [saz(e)qari] uyğunluq, müvafiqlik, münasiblik; uyğunlaşdırma

سازمان [saz(e)man] təşkilat, quruluş; ~ دولتی dövlət quruluşu; dövlət təşkilatı; ~ ملل متحد Birləşmiş Millətlər Təşkilatı; ~ برنامه planlaşdırma təşkilatı; دادن ~ təşkil etmək, qurmaq; yaratmaq; یافتن ~ təşkil edilmək, qurulmaq, yaradılmaq

سازمان ده [saz(e)mandeh] təşkilatçı

سازمان دهنده [saz(e)mandəhəndə] *bax* سازمان ده

سازماندهی [saz(e)mandehi] təşkilatçılıq; quruculuq, yaradıcılıq; ~ استعداد təkilatçılıq bacarığı

سازمنی [sazmani] 1) təşkilati; struktur; 2) ştat vahidi üzrə; ~ کارمندان ştat vahidi üzrə olan işçilər

سازمند [sazmənd] 1) tənzim edilmiş, qaydaya salınmış, yerbəyer olunmuş; 2) əlverişli, yararlı, münasib; uyğun; 3) təmin olunmuş, varlı

سازندگی [sazəndegi] 1) quruculuq, yaradıcılıq; qurma, yaratma; 2) düzüb-qoşma; yazıb-yaratma; 3) sazəndəlik; çalıb-oxuma (*saz çalma*)

سازنده [sazənde] 1) düzəldən, quran; yaradan; 2) inşaatçı, konstruktor; 3) musiqiçi

سازوآواز [sazoavaz] *dan.* çalıb-oxuma

سازوبرگ [sazoberg] 1) avadanlıq, təchizat, ləvazimat; 2) döyüş sursatı, silah

سازودهل [sazodohol] İranın milli musiqi alətləri

سازه [saze] 1) amil; 2) *riyaz.* vuruq; 3) *dilç.* komponent (*sözdüzəltmədə*)

ساس [sas] bit

ساطع [sate'] parlaq, nurlu, aydın; ~ برهان inandırıcı dəlil

ساطور [satur] dəhrə, çapacaq; böyük ət bıçağı

ساعت [saət] 1) saat; ~ بغلی (جیبی) cib saatı; ~ شماطه دار zəngli saat; ~ مچی qol saatı; 2) *c.* ساعات [saat] saat, vaxt, zaman; ساعات اداری iş saatları

ساعت ساز [saətsaz] saatsaz, saat ustası

ساعت سازی [saətsazi] 1) saatsazlıq, saat təmiri; 2) saatqayırma peşəsi

ساعد [saed] bilək önü (*qolun bir hissəsi, dirsəklə pəncə arasındakı hissə*)

ساعی [sai] *c.* سعات [soat] çalışqan; çalışan, səy göstərən

ساغر [sağər] badə, qədəh

ساغری [sağəri] şaqren (*yumşaq dəri*); ~ چرم şaqren dərisi

سافل [safel] 1) səfil; 2) alçaq, rəzil, mənfur; ~ آدم پست و alçaq və mənfur adam; 3) aşağı, aşağıda yerləşən, alçaq (*yer*)

سافله [safele] *bax* سافل; ~ اعضای aşağı ətraflar

ساق [sağ] 1): پا ~ ayağın dizlə topuq arasındakı hissəsi, baldır; 2) *bax* ساقه

ساقدار [sağdar] *bax* ساقه دار

ساقدوش [sağduş] sağdış (*təzəbəyin yanında oturan dostu*)

ساقط [sağet] 1) düşən, yıxılan, enən; 2) ləğv olunmuş, etibardan (*qüvvədən*) düşmüş; 3) azalan; 4) ölən, murdar olan; شدن ~ a) yıxılmaq, düşmək, enmək; b) azalmaq; c) ölmək; کردن ~ a) atmaq, tullamaq; b) məhrum etmək; uzaqlaşdırmaq (*vəzifədən*)

ساقه [sağe] gövdə; gövdəcik; saplaq; ~ گل çiçək saplağı

ساقه دار [sağedar] gövdəli, saplaqlı

ساقی [saği] saqi, şərab paylayan

ساقی گری [sağigəri] saqilik, şərab paylama

ساقی نامه [sağiname] *ədəb.* saqinamə (*şeir növü*)

ساک [sak] yol çantası

ساکت [saket] sakit, səssiz, səssiz-səmirsiz, dinc; mülayim; شدن ~ sakitləşmək; کردن ~ sakitləşdirmək

ساکن [saken] *c.* سکنه [səkəne] // سکان [sokkan] 1) sakin, yaşayan, məskən salan; 2) səssiz, sakit; ~ هوای sakit

hava; 3) *qram.* ərəb yazısında hərəkəsi olmayan sükunlu hərf

سال [sal] il; تحصیلی ~ tədris ili; جاری ~ cari il; شمسی ~ günəş təqvimi (*şəmsi*) ili; قمری ~ ay təqvimi (*qəməri*) ili; میلادی ~ miladi təqvimi ili

سالاد [salad] salat

سالادخوری [saladxori] salat qabı

سالار [salar] 1) başçı, rəhbər; 2) komandan, komandir; جنگ ~ baş komandan

سالانه [salane] *bax* سالیانه

سالخوردگی [salxordegi] qocalıq, yaşlılıq, ahıllıq

سالخورده [salxorde] qoca, yaşlı, ahıl,

سالروز [salruz] *bax* سالگرد

سالک [salek] 1) yolçu, yol gedən; 2) müəyyən təriqət üzvü; 3) zahid

سالگرد [salgərd] ildönümü, yubiley

سالم [salem] 1) sağ, sağlam, salamat; عقل ~ sağlam ağıl (*düşüncə*); 2) faydalı; آب و هوای ~ faydalı (*təmiz*) iqlim

سالمند [salmənd] 1) böyük, yaşlı; böyümüş, yaşa dolmuş; 2) *bax* سالخورده

سالن [salon] salon, zal

سالنامه [salname] 1) salnamə (*bir ildə baş verən hadisələr haqqında kitab*); 2) təqvim

سالنما [salnəma] *bax* تقویم

سالوس [salus] 1) hiyləgər, kələkbaz; ikiüzlü; 2) *bax* سالوسی

سالوسانه [salusane] hiyləgərcəsinə

سالوسی [salusi] ikiüzlülük; hiyləgərlik; کردن ~ ikiüzlülük etmək

سالون [salon] *bax* سالن

سالیانه [salyane] illik, ilə aid olan; جلسه ~ illik iclas

سامان [saman] 1) qayda-qanun, nizam-intizam; 2) rahatlıq, aramlıq; 3) var-dövlət, sərvət; qüdrət; 4) ev əşyaları; 5) səfər ləvazimatı; دادن ~ qaydaya salmaq, nizama salmaq, sahmanlamaq; (گرفتن (یافتن ~ qaydaya salınmaq, sahmanlanmaq

ساماندهی [samandehi] qaydaya salma, nizama salma, sahmanlama

سامع [same'] dinləyən, eşidən; dinləyici

سامعه [samee] 1) eşitmə duyğusu; 2) qulaq

سامی [sami] Qabaq Asiyada, Şimali və Şərqi Afrikanın bir hissəsində yaşamış və yaşayan xalqların ümumi adı (*ərəblər, yəhudilər, həbəşlər*); زبانهای ~ sami dillər

سان [san] I parad, təntənəli yürüş, rəsmi keçid; دادن ~ parad keçirmək; دیدن (گرفتن) ~ parad qəbul etmək

سان [san] II 1) üsul, qayda; vasitə; بدین ~ belə, bu qayda ilə, beləliklə; 2) kimi (*bənzətmə qoşması*); به ~ شاعر şair kimi به ~ گل gül kimi

ساناتوریم [sanator(i)yom] sanatoriya, istirahət evi

سانترالیسم [santralism] sentralizm, mərkəziyyətçilik; دموکراتیک ~ demokratik mərkəziyyətçilik

سانتیگراد [santigerad] dərəcə

سانتیمتر [santimetr] santimetr

سانتی مانتال [santimantal] sentimental; həssas

سانحه [sanehe] *c.* سوانح [səvaneh] 1) hadisə, əhvalat; 2) bədbəxt hadisə, qəza; bəla; هوایی ~ təyyarə qəzası

ساندویچ [sandeviç] sendviç, buterbrod

سانس [seans] seans; اول فیلم ~ filmin birinci seansı

سانسور [sansur] senzura; شدن ~ senzuradan keçmək; کردن ~ senzuradan keçirmək

سانسورچی [sansurçi] senzor, senzura işçisi

ساوآهن [savahən] metal qırıntısı

سایبان [sayeban] talvar, örtük, günlük, kölgəlik; زدن ~ kölgəlik qurmaq (*düzəltmək*)

سایر [sayer] I sair, başqa, qeyri, digər; اشخاص ~ başqa adamlar

سایر [sayer] II 1) hərəkət edən, yeriyən, gedən; 2) yolçu, səyyah

سایش [sayeş] 1) ovulma; 2) sürtünmə

سایق [sayeğ] sövq edən, həvəsləndirən, şövqə gətirən, rəğbət oyadan

سایقه [sayeğe] 1) *bax* سایق; 2) amil, səbəb, stimul

سایل [sayel] 1) dilənçi; 2) sual verən, soruşan

سایه [saye] 1) kölgə; 2) *məc.* himayə, kömək; انداختن (افکندن، گستردن) ~ kölgə salmaq; ◊ کسی را با تیر زدن ~ birinin kölgəsini qılınclamaq

سایه افکن [sayeəfkən] 1) kölgə salan, kölgəli; درخت ~ kölgəli ağac; 2) *məc.* hami, himayə edən

سایه بان [sayeban] *bax* سایبان

سایه دار [sayedar] *bax* سایه افکن

سایه خشک [sayexoşk] kölgədə qalıb qurumuş (*meyvə*)

سایه گاه [sayeqah] kölgəli yer, kölgəlik

سایه گستر [sayeqostər] *bax* سایه افکن

سایه نشین [sayeneşin] 1) kölgədə oturan; 2) himayə altında yaşayan; həyatda çətinlik görməyən; ərköyün

سایدگی [sayidegi] 1) sürtünmə; sürtülmə; 2) ovulma

سایدن [sayidən] 1) sürtülmək; 2) ovulmaq

سایده [sayide] سایدن *f.-nin k.z.f.sif.*; 1) sürtülmüş; 2) ovulmuş

سنانس [seans] *bax* سانس

سبابه [səbbabe] şəhadət barmağı

سبب [səbəb] *c.* اسباب [əsbab] səbəb; əsas; dəlil

سبب ساز [səbəbsaz] səbəbkar; ruzi verən (*adətən, Allah haqqında işlənir*)

سببی [səbəbi] səbəbiyyət, səbəbkarlıq; خویشاوند ~ *bax* خویشاوند

سبحان [sobhan] 1) mədh, tərif, alqış; 2) eşq olsun!

سبحان الله [sobhanəllah] Allaha şükürlər (*mədh*) olsun!

سبحه [sobhe] *c.* سبحات [sobohat] 1) dua, Allahı zikr etmə; 2) təsbeh, təsbeh dənələri; زدن (گرداندن) ~ təsbeh çevirmək

سبد [səbəd] səbət; zənbil

سبدباف [səbədbaf] səbətçi, səbət toxuyan

سبز [səbz] 1) yaşıl; برگ ~ yaşıl yarpaq; سیر ~ tünd-yaşıl; sütül; 2) cavan (*bitkilər haqqında*); نهال ~ cavan ağac, fidan; 3) təzə, tər; çiçəklənən; باغ ~ çiçəklənən bağ; شدن ~ bitmək, göyərmək, yaşıllaşmaq

سبزپوش [səbzpuş] 1) yaşıllaşmış, yaşıllığa bürünmüş; 2) yarpaqlı ağac; 3) müqəddəs, əməlisaleh

سبز خط [səbzxət(t)] yeniyetmə, gənc

سبزفام [səbzfam] açıq-yaşıl

سبزوخرم [səbzoxorrəm] səfalı, mənzərəli

سبزه [səbze] 1) göyərti; 2) kişmiş növü; 3) qarabəniz, qaraşın

سبزه رو [səbzeru] qarabuğdayı, tünd (*sifət, üz haqqında*)

سبزه زار [səbzezar] çəmənlik, yaşıllıq

سبزی [səbzi] *c.* سبزیجات [səbzicat] göyərti; ◊ پاک کردن ~ *dan.* yaltaqlıq etmək; پاک کن ~ *dan.* yaltaq

سبزی پلو [səbzipolou] səbziplov

سبزیجات [səbzicat] *t.* سبزی

سبزی فروش [səbziforuş] göyərtisatan

سبزیکار [səbzikar] göyərti yetişdirən, tərəvəz əkən, tərəvəzçi

سبزیکاری [səbzikari] tərəvəzçilik; bostançılıq

سبع [səbo'] *c.* سباع [seba'] vəhşi, yırtıcı heyvan

سبق [səbəğ] c. اسباق [əsbağ] 1) ötüb-keçmə; 2) birincilik, üstünlük

سبقت [sebğət] 1) ötüb-keçmə; 2) üstünlük, imtiyaz; ~ گرفتن (جستن) ötmək, ötüb-keçmək, keçmək; ~ داشتن üstünlük qazanmaq

سبک [səbk] 1) üslub (*ədəbiyyatda, incəsənətdə*); معماری ~ memarlıq üslubu; 2) metod, üsul

سبک [səbok] 1) yüngül; ~ لباس yüngül paltar; 2) yüngül, yüngülxasiyyət; ~ رفتار yüngül davranış; 3) asan; 4) zərif; ~ شدن yüngül olmaq, yüngülləşmək; ~ کردن yüngülləşdirmək (*işi, tapşırığı*); ◊ ~ و سنگین کردن *dan.* ölçüb-biçmək

سبکبار [səbokbar] 1) yükü yüngül; 2) laqeyd, qayğısız

سبکبال [səbokbal] sürətlə uçan (*quş*)

سبکپا [səbokpa] sürətlə gedən, itiyerişli; cəld, çevik

سبک دست [səbokdəst] 1) cəld, tez işləyən; 2) əliyüngül (*xeyir gətirən*); 3) səbəbsiz olaraq başqasına əl qaldıran

سبک روح [səbokruh] 1) şən, gülərüz; nikbin; 2) sadə, təvazökar

سبک سر [səboksər] 1) etinasız, laqeyd; səhlənkar; 2) yüngülxasiyyət, yelbeyin; 3) alçaq, əclaf

سبک سری [səboksəri] 1) etinasızlıq, laqeydlik, səhlənkarlıq; 2) yüngülxasiyyətlik, yelbeyinlik; 3) alçaqlıq, əclaflıq

سبک شناس [səbkşenas] üslubçu, stilist

سبک شناسی [səbkşenasi] üslubiyyat, stilistika

سبک وزن [səbokvəzn] yüngülçəkili; ~ ورزشکار yüngülçəkili idmançı

سبک مغز [səbokməğz] 1) *bax* سبک سر; 2) ağılsız, axmaq

سبکی [səboki] 1) yüngüllük (*çəkidə*); 2) yüngülxasiyyətlilik, yelbeyinlik; ~ کردن yüngül hərəkət etmək, yüngüllük etmək

سبو [səbu] kuzə, bardaq, saxsı qab

سبوس [səbus] 1) *bot.* vələmir; 2) kəpək (*unda*)

سبیل [sebil] bığ; ~ گذاشتن bığ saxlamaq; ~ درآوردن bığı çıxmaq; ~ تاب دادن bığı burmaq; ◊ سبیلش آویزان شده burnu sallanmışdır; ~ کسی را چرب کردن rüşvət vermək, kiminsə bığının altından keçmək; ~ کسی را دود دادن kiminsə atasını yandırmaq

سبیل [səbil] I *c.* سبل [sobol] 1) yol; istiqamət, yön; 2) üsul, vasitə

سبیل [səbil] II pulsuz yemək və s. paylama, nəzir vermə; ~ کردن pulsuz paylamaq, nəzir vermək

سپارش [separeş] *bax* سفارش

سپارنده [separənde] 1) depozitor; 2) göndərən, yollayan

سپاس [sepas] 1) minnətdarlıq; təşəkkür; 2) şükür etmə; ~ داشتن (گزاردن) minnətdar olmaq, təşəkkür etmək

سپاسداری [sepasdari] *bax* سپاسگزاری

سپاسگزار [sepasqozar] minnətdar, razı; şükür edən

سپاسگزاری [sepasqozari] minnətdarlıq, razılıq, təşəkkür; ~ کردن minnətdar olmaq, təşəkkür etmək

سپاه [sepah] ordu; korpus (*böyük qoşun birləşməsi*); ~ بهداشت sağlamlıq korpusu (*tibb təhsilli əsgərlərin kənd yerlərindəki qurumu*); ~ پاسداران انقلاب اسلامی İranda İslam inqilabını qorumaq üçün yaranmış hərbi könüllülər ordusu

سپر [sepər] qalxan, sipər; ◊ ~ انداختن təslim olmaq, silahı yerə qoymaq, özünü məğlub saymaq

سپردن [sepordən] *k.* سپر [sepor] // سپار [separ] 1) tapşırmaq; vermək; əmanət vermək; göndərmək; 2) tapşırmaq, göstəriş vermək; xəbərdarlıq etmək

سپرده [seporde] سپردن *f.-nin k.z.f.sif.*; 1) əmanət; ~ بانکی bank əmanəti; 2) tapşırıq, göstəriş

سپرز [seporz] *anat.* dalaq

سپری [sepəri] ötən, keçən (*zaman*); bitmiş, qurtarmış (*zaman*); ~ شدن keçmək (*zaman*); qurtarmaq (*zaman*)

سپس [sepəs] sonra, sonradan

سپند [sepənd] *bax* اسپند

سپوختن [sepuxtən] *k.* سپوز [sepuz] soxmaq, soxuşdurmaq, yeritmək (*güclə*)

سپور [səpur] *dan.* süpürgəçi

سپوزیدن [sepuzidən // sopuzidən] *bax* سپوختن

سپوس [səpus // sopus] *bax* سبوس 2)

سپه [sepəh] *bax* سپاه

سپهبد [sepəhbod] korpus generalı

سپهر [sepehr] səma, göy, asiman

سپهسالار [sepəhsalar] qoşun başçısı, general; baş komandir

سپید [sepid] *bax* سفید

سپید آب [sepidab] *bax* سفید آب

سپیدار [sepidar] qovaq (*ağac*)

سپیده [sepide] dan yeri; şəfəq

سپیده دم [sepidedəm] dan yeri ağararkən, sübh çağı

سپیدی [sepidi] *bax* سفیدی

ستاد [setad] qərargah; ~ ارتش ordu qərargahı; ~ کل baş qərargah; رئیس ارتش ~ baş qərargah rəisi

ستاره [setare] ulduz; ~ دنباله دار quyruqlu ulduz, kometa; ~ صبح (سحری) Dan ulduzu (*Venera*); ◊ ~ سینما kino ulduzu

ستاره شناس [setareşenas] münəccim, astronom

ستاندن [setandən] almaq, geri almaq, götürmək (*pulu*)

ستاننده [setanənde] alan, götürən; qəbul edən

ستایش [setayeş] sitayiş, pərəstiş; ~ کردن pərəstiş etmək; mədh etmək

ستایش آمیز [setayeşamiz] sitayişli, sitayişlə dolu; ~ سخنان sitayişlə dolu sözlər

ستایشگر [setayeşgər] sitayiş edən, pərəstişkar

ستاییدن [setayidən] *bax* **ستودن**

ستبر [setəbr] 1) qalın; möhkəm; 2) ağır; iri; böyük; 3) bərk, möhkəm

ستبرا [setəbra] *bax* **ستبری**

ستبری [setəbri] 1) qalınlıq, yoğunluq; 2) irilik, yekəlik; köklük, şişmanlıq; 3) sıxlıq

ستر [setr] 1) örtmə, gizlətmə, pərdələmə; 2) *c.* **استار** [əstar] // **ستور** [sotur] pərdə

ستردن [setordən // sotordən] 1) qırxmaq; 2) qaşımaq, silmək, pozmaq, təmizləmək

سترگ [setorg] 1) çox böyük, nəhəng; 2) güclü, möhkəm; 3) görkəmli, məşhur; 4) dalaşqan

سترون [setərvən] 1) sterilizə edilmiş (*cins*); 2) doğmayan arvad; **~ کردن** sterilizə etmək (*cinsi*)

ستم [setəm] sitəm, zülm, zülmkarlıq, qəddarlıq

ستم پیشه [setəmpişə] *bax* **ستمگر**

ستم دیده [setəmdide] məzlum, zülm çəkmiş, zülmə məruz qalmış

ستمکار [setəmkar] *bax* **ستم گر**

ستم کاری [setəmkari] *bax* **ستمگری**

ستمکش [setəmkeş] *bax* **ستم دیده**

ستمگر [setəmgər] zülmkar; ədalətsiz; zalım, qəddar

ستمگری [setəmgəri] zülmkarlıq, ədalətsizlik; zalımlıq, qəddarlıq

ستوان [sotvan // setvan] leytenant; **~ سوم** kiçik leytenant

ستودن [sotudən] *k.* **ستا** [seta] tərifləmək, mədh etmək

ستور [sotur] minik heyvanı, yük heyvanı

ستون [sotun] sütun, dayaq, dirək, tir; **~ زدن** dirək vurmaq; **~ کردن** dayaqlanmaq, söykənmək; ◊ **~ فقرات** fəqərə sütunu

ستوندار [sotundar] sütunlu; **~ عمارت** sütunlu bina

ستونی [sotuni] 1) sütunşəkilli; 2) *bax* **ستوندار**

ستوه [sotuh] narahatlıq, əzabəziyyət; **به ~ آمدن** təngə gəlmək; **به ~ آوردن** təngə gətirmək

ستیز [setiz] *bax* **ستیزه**

ستیزه [setize] 1) vuruşma, davadalaş; 2) düşmənçilik; kin; nifrət; 3) inadkarlıq, inadcıllıq

ستیزه جو [setizecu] 1) davakar, dalaşqan; 2) inadkar, inadcıl

ستیزه کار [setizekar] *bax* **ستیزه جو**

ستیزه گر [setizegər] *bax* **ستیزه جو**

ستیغ [setiğ] zirvə, dağın zirvəsi

سجاده [səccade] namaz xalçası

سجاف [secaf] haşiyə, kənar (*parçada, paltarda*); **~ کردن** qırağını basdırmaq (*parçanın*); iç tərəfinə tikmək (*paltarın*)

سجده [səcde] səcdə

سجع [səc'] 1) qafiyəli nəsr; 2) şeirdə daxili qafiyə; 3): **~ مهر** möhür, sikkə üzərindəki yazı

سجل [secel(l)] 1) siyahı; qeydiyyat vərəqi; 2) doğum şəhadətnaməsi

سجود [socud] 1) səcdə etmə (*namazda*); 2) təzim

سجیه [səciyyə] *c.* **سجایا** [səcaya] xasiyyət, xarakter, xislət, təbiət

سحاب [səhab] bulud

سحر [səhər] səhər, sübh

سحر [sehr] *c.* **اسحار** [əshar] sehr, cadu; **~ خواندن** sehr oxumaq, cadu oxumaq; **~ کردن** sehrləmək, cadu etmək

سحر آسا [sehrasa] sehrli; əfsunlayıcı; **~ سخنان** sehrli sözlər

سحر آمیز [sehramiz] əfsunlayıcı, əfsunedici, çox qəribə, çox təəccüblü

سحرباز [sehrbaz] sehrbaz, cadugər

سحرخیز [səhərxiz] tezdən duran, sübh oyanan

سحرگاه [səhərqah] səhər, səhərçağı

سحری [səhəri] 1) səhər vaxtı; 2) oruc tutanların sübh çağından əvvəl səhər yeməyi

سحور [səhur] *bax* **سحری 2)**

سخا [səxa] *bax* **سخاوت**

سخاوت [səxavət] səxavət, əliaçıqlıq

سخت [səxt] 1) çətin, bərk; 2) kəskin; güclü; **~ باد** güclü külək; 3) ciddi; 4) çox; **~ عصبانی شد** çox (*bərk*) əsəbiləşdi

سخت افزار [səxtəfzar] kompyuterin elektron hissələri

سخت دل [səxtdel] daşürəkli, qəddar, zalım

سخت کوش [səxtkuş] çox çalışan, çox səy göstərən

سخت گیر [səxtgir] ciddi, sərt, qətiyyətli, tələbkar

سخت گیری [səxtgiri] ciddilik, sərtlik, qətiyyət, tələbkarlıq; **~ کردن (ورزیدن)** ciddilik göstərmək, tələbkar olmaq

سختی [səxti] 1) çətinlik; 2) bərklik, möhkəmlik; 3) bədbəxtlik; **~ دیدن (کشیدن)** a) çətinliklə üzləşmək; b) bədbəxtliklə üzləşmək

سخره [soxre] 1) məsxərə; ələ salma; 2) məsxərə obyekti; **به ~ گرفتن** məsxərəyə qoymaq

سخمه [soxme] nizə, mizraq, şəmşir, məşq qılıncı; **~ زدن** nizə sancmaq, nizə vurmaq

سخن [soxən] söz, kəlmə; ifadə, danışıq; **~ آب بردار** ikibaşlı söz; **~ پهلودار** irad; **~ راندن** nitq söyləmək; **~ گفتن** danışmaq; ◊ **~ خودرا به کرسی نشاندن** öz sözünü yeritmək

سخن آرا [soxənara] natiq

سخن آرایی [soxənarayi] natiqlik, fəsahət, bəlağət

سخن پرداز [soxənpərdaz] 1) *bax* **سخن آرا**; 2) yazıçı, şair

سخن چین [soxənçin] qeybətçi, söz gəzdirən, xəbərçi

سخن چینی [soxənçini] qeybətçilik, sözgəzdirmə, xəbərçilik etmə; **~ کردن** qeybət qırmaq, söz gəzdirmək, xəbərçilik etmək

سخندان [soxəndan] *bax* **سخن پرداز**

سخنران [soxənran] məruzəçi, müharizəçi; natiq

سخنرانی [soxənrani] müharizə, nitq; çıxış; **~ کردن** müharizə oxumaq, nitq söyləmək; çıxış etmək

سخن سرا [soxənsəra] *bax* **سخن پرداز**

سخن سرایی [soxənsərayi] 1) natiqlik; bəlağət; 2) poeziya; şairlik, yazıçılıq

سخن سنج [soxənsənc] 1) söz ustası; 2) ədəbi tənqidçi

سخنسنجی [soxənsənci] ədəbi tənqid

سخنگو [soxənqu] 1) diktor; şərhçi; natiq; 2) nümayəndə; **~ مطبوعاتی** mətbuat nümayəndəsi

سخنور [soxənvər] 1) şair, yazıçı; 2) natiq

سخنوری [soxənvəri] 1) şairlik istedadı, yazıçılıq; 2) natiqlik sənəti, bəlağət

سخی [səxi] səxavətli, əliaçıq

سد [səd(d)] *c.* **سدود** [sədud] 1) sədd, bənd; **~ ابی** su bəndi; 2) divar, ara-

kəsmə; بستن ~ sədd (*bənd*) tikmək; کردن ~ bağlamaq, qarşısını almaq

سدر [sedr] *bot.* sidr ağacı

سده [səde] yüzillik, əsr

سدید [sədid] 1) bərk, möhkəm; 2) ədalətli, düz; ~ رأی ~ ədalətli rəy

سدیوم [sod(i)yom] *kim.* natrium

سر [sər] 1) baş, təpə; 2) başlanğıc, əvvəl; سطر ~ abzas, yeni sətir; 3) üst, yuxarı; بام ~ damın üstü; ~ درخت ağacın başı (*yuxarı hissəsi*); 4) uc; قلم ~ qələmin ucu; 5) baş (*heyvan üçün numerativ söz*); ~ ده گاو on baş inək; ◊ افکندن ~ a) başını aşağı salmaq; b) utanmaq; təsirli olmaq; baş əymək; برآوردن ~ a) görünmək, çıxmaq (*günəş*); b) başlanmaq (*səhər*); برداشتن ~ a) başını qaldırmaq; b) tabe olmamaq, üsyan etmək; رفتن ~ daşmaq (*süd*); زدن ~ baş çəkmək; çıxmaq (*ay, günəş*); ~ نهادن itaət etmək, tabe olmaq; ~ از پا نشناختن başını itirmək; gözü ayağının altını görməmək (*şadlıqdan və ya qorxudan*); باز زدن ~ boyun qaçırmaq; baş əyməmək; ~ به زیر افکندن *bax* افکندن ~; ~ به سنگ خوردن başı daşa dəymək; ~ به گریبان بردن a) dərin fikrə dalmaq; b) qəm dəryasına batmaq; ~ حرف خود ایستادن sözünün üstündə durmaq; ~ زبانها افتادن dilə düşmək; məşhur olmaq; ~ شکن کردن hərənin öz payını vermək, bölüşdürmək; ~ کسی را خوردن birinin başını yemək; ~ کسی را زیر آب کردن birinin başını batırmaq; yox etmək; ~ کسی را شیره مالیدن birinin başını qatıqlamaq; aldatmaq; ~ کسی را گرم کردن birinin başını qatmaq; ~ کلاف birinin başını qarışdırmaq; ~ را به دست آوردن kələfin ucunu tapmaq; ~ و کله زدن baş sındırmaq; kütbeyin adamı başa salmaq üçün əlləşmək; ~ و گوش آب دادن burnunu hər yerə soxmaq; hər yerdən xəbər tutmaq; ~ هم بندی کردن birtəhər yerinə yetirmək (*işi*), başını girləmək

سر [serr] *c.* اسرار [əsrar] sirr, gizli iş, gizlilik, məxfilik

سر [sor] sürüşmə; خوردن ~ sürüşmək

سرا [səra] 1) *bax* سرای; 2) *məc.* dünya

سراب [sərab] I 1) ilğım; 2) xəyal, puç ümid; boş vəd

سراب [sərab] II mənbə, bulaq, çeşmə; çay və bulağın başlanğıcı

سراپا [sərapa] başdan-ayağa; bütün, büsbütün

سراج [sərrac] sərrac, yəhər ustası

سراجی [sərraci] sərraclıq sənəti

سرازیر [sərazir] eniş, üzüaşağı; شدن ~ əyilmək

سرازیری [səraziri] enişlik; mayillik

سراسر [sərasər] 1) bütün, hamı; ~ جهان bütün dünya; ~ نقاط کشور ölkənin bütün bölgələri; 2) hər yerdə; əvvəldən axıra qədər, başdan ayağa kimi

سراسیمگی [sərasimegi] 1) çaxnaşma; qorxu, vahimə; 2) tələş, iztirab, həyəcan

سراسیمه [sərasime] həyəcanlı, təşvişli

سراشیب [sərəşib] *bax* سرازیر

سراشیبی [sərəşibi] *bax* سرازیری

سراغ [sorağ] 1) soraq, axtarış; 2) xəbər; məlumat; داشتن ~ xəbəri olmaq; گرفتن (کردن) ~ xəbər tutmaq, soraqlaşmaq

سرآغاز [sərağaz] başlanğıc; giriş; ön söz, müqəddimə

سرافراختگی [sərəfraxtegi] *bax* سرافرازی

سرافراخته [sərəfraxte] *bax* سرافراز

سرافراز [sərəfraz] 1) vüqarlı, başıuca; 2) xoşbəxt

سرافرازی [sərəfrazi] başıucalıq, fəxr, iftixar; qürur; böyüklük

سرافکندگی [sərəfkəndegi] başıaşağılıq; xəcalət, utanma; təhqir olunma

سرافکنده [sərəfkənde] xəcalətli; təhqir olunmuş

سرآمد [sərəmməd] 1) öncül, görkəmli, korifey (*elmdə, incəsənətdə*); 2) ən üstün, ən yaxşı

سرامیک [seramik] keramika, saxsı qablar

سران [səran] 1) *t.* سر [sər] **1**); 2) başçılar, rəhbərlər; ~ دولت dövlət başçıları

سرانجام [sərəncam] 1) nəticə, sonluq; 2) nəhayət; axırda; sonda; دادن ~ qaydaya salmaq, düzəltmək; گرفتن ~ qaydaya salınmaq, qaydaya düşmək

سرانداز [sərəndaz] 1) yüngül fərş; 2) qadın baş örtüyü

سراندن [sorandən] 1) sürüşdürmək; 2) soxuşdurmaq

سرانگشت [sərənqoşt] barmağın ucu

سرانه [sərane] 1) adambaşı, adambaşına; 2) pay, hissə

سرای [səray] 1) saray, qəsr, imarət; ev; 2) üstüörtülü bazar

سرایت [serayət // sərayət] 1) sirayət etmə, yoluxma, keçmə (*xəstəlik*); 2) yayılma; ötürülmə; دادن ~ yoluxdurmaq; کردن ~ yayılmaq, keçmək

سرای دار [sərəydar] saray (*bina, ev*) nəzarətçisi

سراینده [sərayənde] 1) oxuyan; müğənni; 2) şair

سراییدن [sərayidən] *bax* سرودن

سرب [sorb] qurğuşun

سربار [sərbar] 1) artıq yük, normadan artıq yük (*heyvanın yükünün üstünə qoyulan*); 2) yük, ağır iş; کسی شدن ~ başqasına yük olmaq

سرباری [sərbari] *bax* سربار

سرباز [sərbaz] I əsgər

سرباز [sərbaz] II açıq, ağzıaçıq; پاکت ~ açıq zərf

سربازخانه [sərbazxane] kazarma (*əsgərlərin təlim və yaşayış yeri*)

سربازگیری [sərbazgiri] həqiqi hərbi xidmətə çağırış

سربازی [sərbazi] hərbi xidmət, əsgərlik

سربالا [sərbala] yuxarı, üzüyuxarı; راه ~ yuxarıya (*yoxuşa*) qalxan yol

سربالایی [sərbalayi] yoxuş, yoxuşluq; رفتن ~ üzüyuxarı (*yoxuşa*) getmək

سربراه [sərberah] *bax* سربه راه

سربرهنه [sərberehne] başıaçıq, papaqsız

سربریده [sərboride] başı kəsilmiş, öldürülmüş

سربزیر [sərbezir] 1) başıaşağı, itaətkar; 2) utancaq, həyalı

سربسته [sərbəste] 1) başıbağlı, ağzıbağlı, açılmamış; قوطی ~ ağzıbağlı qutu; 2) gizli, məxfi; حرف ~ gizli söz

سربسر [sərbəsər] 1) *bax* سراسر; 2) tam, tamam; tamamilə, büsbütün

سربلند [sərbolənd] 1) məşhur, görkəmli; 2) başıuca, məğrur

سربلندی [sərboləndi] 1) məşhurluq; şöhrət, iftixar; 2) başıucalıq; təmizlik (*ad*), namusluluq

سریمهر [sərbemohr] *bax* سریه مهر

سریه راه [sərberah] *dan.* üzüyola, sözəbaxan, itaətkar

سریه مهر [sərbemohr] 1) ağzımöhürlü, möhürlənmiş, ağzıbağlı; 2) *bax* سربسته 1)

سربی [sorbi] 1) qurğuşundan düzəldilmiş; 2) qurğuşun rəngli

سرپایی [sərpayi] 1) ev ayaqqabısı, şapşap; 2) ayaqüstü; ~ آمد ayaqüstü gəldi

سرپرست [sərpərəst] 1) gözətçi, nəzarətçi; 2) qəyyum, hami; 3) başçı; ~ خانواده ailə başçısı

سرپرستار [sərpərəstar] baş şəfqət bacısı

سرپرستی [sərpərəsti] 1) gözətçilik, nəzarət; 2) qəyyumluq; hamilik; 3) rəhbərlik, başçılıq; idarə etmə

سرپستانک [sərpestanək] əmzik

سرپنجه [sərpənce] 1) pəncə, ayaq (*heyvanlarda*); 2) əl, pəncə; 3) *məc.* güc, qüvvət

سرپوش [sərpuş] 1) qapaq; 2) örtük; ~ گذاشتن gizlətmək, gizli saxlamaq (*sirri, sözü*)

سرپوشدار [sərpuşdar] qapaqlı

سرپوشیده [sərpuşide] 1) örtülü; üstüörtülü; ~ بازار örtülü bazar; 2) *bax* سرپوشدار; 3) gizli, məxfi, qapalı; 4) gizlicə, gizli şəkildə

سرپیچ [sərpiç] qayka; vintin başlığı; mufta

سرپیچی [sərpiçi] f) baş əyməmə, boyun əyməmə, itaətsizlik, tabe olmama; 2) qiyam, üsyan; ~ کردن baş əyməmək; itaət etməmək

سرتاپا [sərtapa] *bax* سراپا

سرتاسر [sərtasər] *bax* سراسر

سرتیپ [sərtip] briqada generalı

سرتیز [sərtiz] ucuiti, sivri, sivriuclu

سرجوخه [sərcuxe] çavuş

سرچسب [sərçəsb] 1) banderol, bağlama; 2) yarlıq, etiket

سرچشمه [sərçeşme] 1) mənbə; 2) bulaq; 3) mənşə

سرچین [sərçin] seçilmiş, ən yaxşı; ~ کردن seçmək

سرحد [sərhəd(d)] 1) sərhəd; 2) hüdud

سرحدی [sərhəddi] *bax* مرزی

سرخ [sorx] qırmızı; ~ گل qızılgül; ~ شدن qızarmaq; ~ کردن qızartmaq

سرخاب [sorxab] I 1) ənlik; 2) dodaq boyası, pomada; ~ زدن (مالیدن) ənlik sürtmək; ~ و سفیداب کردن üzgözü bəzəmək, bəzənmək

سرخاب [sorxab] II *zool.* vəhşi qaz, qızılqaz, flaminqo

سرخ پوست [sorxpust] qırmızıdərili; hindi, hindu (*Şimali və Cənubi Amerikanın ilk yerli əhalisi*)

سرخچه [sorxçe] *tib.* məxmərək

سرخ فام [sorxfam] qırmızımtıl; çəhrayı

سرخک [sorxək] *tib.* qızılca; ~ درآوردن qızılca çıxartmaq

سرخود [sər(e)xod] 1) özbaşına; 2) müstəqil; sərbəst

سرخوش [sərxoş] 1) sərxoş, kefli, dəm, məst; 2) şən, şad, şux, kefikök

سرخوشی [sərxoşi] 1) sərxoşluq, məstlik; 2) şadlıq, sevinc, şuxluq

سرخی [sorxi] qırmızılıq; qırmızı rəng

سرد [sərd] 1) soyuq; 2) *məc.* laqeyd, etinasız; ~ بودن a) soyuq olmaq; b) laqeyd olmaq; ~ شدن soyumaq, soyudulmaq; ~ کردن soyutmaq

سرداب [sərdab] *bax* سردابه

سردابه [sərdabe] 1) zirzəmi; 2) yeraltı su anbarı; 3) sərdabə (*qəbir*)

سردار [sərdar] sərkərdə, baş komandan

سردخانه [sərdxane] 1) soyuducu; buzxana; refrijerator; 2) ölüxana

سردر [sərdər] 1) qapının yuxarısı; 2) giriş qapısının yuxarı hissəsinin bəzəyi

سردرد [sərdərd] başağrısı

سردرگم [sərdərqom] başını itirmiş, karıxmış, çaşıb qalmış; donub qalmış; ~ مطلب qarışıq məsələ, mürəkkəb məsələ; ~ شدن başını itirmək, çaşıb qalmaq

سردسته [sərdəste] 1) başçı, dəstə başçısı; 2) *idm.* komandanın kapitanı

سردستی [sərdəsti] *dan.* 1) əlüstü; tələsik; 2) laqeyd, etinasız; ~ گرفتن barmaqarası baxmaq, saya salmamaq

سردسیر [sərdsir] 1) soyuq bölgə; 2) soyuq iqlim

سردفتر [sərdəftər] 1) dəftərxana müdiri; 2) müqəddimə, giriş

سردم [sərdəm] 1) zorxanada nağaraçının oturduğu hündür yer; 2) xanəgah

سردماغ [sərdəmağ] *dan.* xoş əhvali-ruhiyyəli, şən

سردمدار [sərdəmdar] 1) qrup başçısı, dəstə başçısı; 2) zorxananın başçısı

سردرگم [sərdusi] [illegible]

سرد و گرم چشیده [sərdogərmçeşide] *dan.* dünyanın isti-soyuğunu görmüş, təcrübəli, bərkdən-boşdan çıxmış

سردی [sərdi] 1) soyuq, soyuqluq; 2) etinasızlıq, laqeydlik

سرراست [sərrast] 1) sərrast; birbaşa, düzünə; düz, doğru (*yol*); 2) ədalətli, düzgün; 3) açıq-açığına, heç nəyi gizlətmədən

سرراهی [sərrahi] 1) yol qırağına atılmış; ~ کودک yol qırağına atılmış uşaq (*körpə*); 2) səfərə çıxana verilən hədiyyə; 3) səfərə çıxanın səfərdən qabaq nəzir, sədəqə şəklində payladığı pul

سرزده [sərrəde] ön sıra, ön cərgə

سررسید [sərrəsid] 1) ödəniş müddəti (*hesabın*); ~ پرداخت قبض hesabın ödəniş müddəti; 2) təhvil müddəti (*malın*); ~ تحویل کالا malın təhvil müddəti

سررسیدنامه [sərrəsidname] ödənişlər (*hesab, borc*) kitabı

سررشته [sərreşte] 1) səriştə, bələdlik, təcrübə, bacarıq; 2) müəssisəni, işi idarəetmə sistemi; ~ داشتن xəbərdar olmaq; məlumatlı olmaq

شاییه [şayebe] *c.* **شوایب** [şəvayeb] 1) qeyri-səmimilik, ikiüzlülük; 2) güman, şübhə; 3) nöqsan, eyib, çatışmazlıq

شاید [şayəd] bəlkə, ehtimal ki, güman ki
شایستگی [şayestegi] 1) layiqlik, yaraşma, uyğunluq; 2) qabiliyyət, bacarıq, istedad
شایستن [şayestən] *k.* **شای** [şay] layiq olmaq, yaraşmaq
شایسته [şayeste] **شایستن** *f.-nin k.z.f.sif.*: 1) layiq, yaraşan; münasib, uyğun; 2) qabiliyyətli, bacarıqlı, istedadlı
شایع [şaye'] yayılma, yayılmış; hamıya məlum olan; məşhur; **شدن** ~ yayılmaq; **کردن** ~ yaymaq
شایعه [şaye'e] c. **شایعات** [şaye'at] şayiə, yalan xəbər
شایق [şayeğ] çox arzulayan, həsrət çəkən, həsrətində olan
شب [şəb] gecə; **دیجور** ~ ən qaranlıq gecə; **یلدا** ~ ilin ən uzun gecəsi (*21 dekabr*); ~ **(نیمه) نصف** gecəyarısı
شباب [şəbab] cavanlıq, gənclik
شبا روز [şəbaruz] *bax* **شبانه روز**
شبان [şəban] çoban
شبانگاه [şəbanqah] gecə, gecə vaxtı
شبانه [şəbane] gecə; ~ **کار** gecə işi
شبانه روز [şəbaneruz] gecə-gündüz, bir gecə-gündüz
شبانه روزی [şəbaneruzi] gecə-gündüz, gecəli-gündüzlü; ~ **آموزشگاه** internat məktəb; ~ **داروخانه** gecə-gündüz işləyən aptek
شبانی [şəbani] çobanlıq; **کردن** ~ çobanlıq etmək
شباهت [şəbahət // şebahət] oxşarlıq, bənzərlik; **داشتن** ~ oxşamaq, bənzəmək
شب پرک [şəbpərək] *bax* **شب پره**
شب پره [şəbpəre] yarasa, gecəquşu
شبت [şebet] *bax* **شوید**
شب چراغ [şəbçerağ] 1) gecə işıq saçan əfsanəvi qiymətli daş; 2) işıldaquş
شب چره [şəbçəre // şəbçere] 1) axşam yeyilən çərəz və meyvə; 2) gecə vaxtı qoyun otarma
شبح [şəbəh] *c.* **اشباح** [əşbah] 1) qaraltı; 2) xəyal, kabus; 3) nişan, nişangah, hədəf
شب خوان [şəbxan] 1) gecələr oxuyan; 2) bülbül
شب خوش [şəbxoş] gecəniz xeyrə qalsın
شب خیز [şəbxiz] gecələr oyaq qalan
شبدیز [şəbdiz] 1) qara (*at*); 2) gecə kimi qara, zil qara
شب رو [şəbrou] gecə işləyən; ~ **اتوبوس** gecə işləyən avtobus
شب زنده دار [şəbzendedar] gecə yatmayan
شب زنده داری [şəbzendedari] gecə yatmama, gecə oyaq qalma, səhərə qədər oyaq qalma
شبستان [şəbestan] 1) yataq otağı; 2) hərəmxana; 3) hücrə; məsciddə gecə ibadəti üçün yer
شبق [şəbəğ] *bax* **شبه** [şəbe]
شبکار [şəbkar] gecə növbəsində işləyən
شبکاری [şəbkari] gecə növbəsi; **کردن** ~ gecə növbəsində işləmək
شب کلاه [şəbkolah] gecəpapağı (*gecə yatarkən qoyulan papaq*)
شبکور [şəbkur] 1) gecə görməyən; 2) *bax* **شب پره**
شبکوری [şəbkuri] gecəkorluğu
شبکه [şəbəke] 1) tor; 2) şəbəkə; **اطلاعات** ~ məlumat şəbəkəsi; 3) sistem; **اعصاب** ~ əsəb sistemi

شبکه دار [şəbəkedar] şəbəkəli, torşəkilli; deşikli, torlu

شبکیه [şəbəkiyye] *anat.* tor, qişa (*gözdə*)

شب گرد [şəbgərd] 1) gecələr yuxuda durub gəzən, lunatik; 2) gecə gözətçisi; 3) gecə oğrusu

شب گردی [şəbgərdi] 1) gecələr durub yuxuda gəzmə; 2) gecə gözətçiliyi

شب گز [şəbgəz] *zool.* gənə; taxtabiti

شب نشینی [şəbneşini] 1) gecə qonaqlığı, ziyafət; 2) *bax* **شب زنده داری**

شبنم [şəbnəm] şəbnəm, şeh

شبنما [şəbnəma] qaranlıqda işıq saçan; fosforlu; ~ **ساعت** saçan siferblatlı saat

شبه [şəbe] *miner.* şəvə

شبه [şəbəh] oxşarlıq, bənzərlik

شبه [şebh] *c.* **اشباه** [əşbah] oxşar cisim, analoq

شب هنگام [şəbhenqam] axşam, axşamçağı, gecə vaxtı

شبهه [şobhe] *c.* **شبهات** [şobəhat] şübhə, güman, şəkk, zənn; ~ **ندارد** şübhə yoxdur, şübhəsiz; ~ **داشتن** şübhələnmək, zənn etmək

شبهه دار [şobhedar] şübhəli

شبیخون [şəbixun] qəfil gecə hücumu (*basqını*); ~ **زدن (کردن)** qəfildən gecə hücum etmək

شبیه [şəbih] 1) bənzər; oxşar; 2) şəbih (*məhərrəmlikdə, xüsusilə də aşura günü göstərilən faciəli dini tamaşa*); ~ **بودن** oxşamaq; ~ **در آوردن** şəbih çıxartmaq, təqlid etmək

شپش [şepeş] bit

شتاب [şetab] **شتافتن** *f.-nin k.*; tələsmə; ~ **بدون** tələsmədən; ~ **کردن (داشتن)** tələsmək

شتاب آلود [şetabalud] 1) tələsən; tələskən; 2) tələsik; tələsə-tələsə

شتابان [şetaban] *bax* **شتاب آلود**

شتاباندن [şetabandən] tələsdirmək, sürətləndirmək

شتابزدگی [şetabzədegi] 1) tələskənlik; 2) diqqətsizlik

شتاب زده [şetabzəde] 1) tələsik; 2) diqqətsiz

شتابیدن [şetabidən] *bax* **شتافتن**

شتافتن [şetaftən] *k.* **شتاب** [şetab] tələsmək

شتر [şotor] dəvə; **ماده** ~ dişi dəvə; ~ **نر** erkək dəvə; ~ **دوکوهانه** ikihürgüclü dəvə; ~ **یک کوهانه** birhürgüclü dəvə; ~ **بی کوهان** lama

شتربار [şotorbar] dəvə yükü, ağır yük

شتربان [şotorban] dəvəçi

شتربچه [şotorbəççe] dəvə balası

شترخوی [şotorxuy] hirsli, kinli

شترخویی [şotorxuyi] hirs, hirslilik, kinlilik

شتردل [şotordel] 1) qorxaq; 2) *bax* **شترخوی**

شترگاوپلنگ [şotorqavpələng] zürafə

شترگربه [şotorqorbe] bir-birinə uyğun gəlməyən iki şey; bir-birinin əksinə olan iki fikir

شترگلو [şotorgəlu] 1) *tex.* sifon; 2) suvarma kanalının yeraltı hissəsi

شترمرغ [şotormorğ] dəvəquşu

شترنج [şətrənc] *bax* **شطرنج**

شتم [şətm] söyüş; nalayiq söz

شته [şəte] bitki biti

شجاع [şoca'] şücaətli, cəsarətli, igid, qorxmaz

شجاعانه [şoca'ane] cəsarətlə, şücaətlə, igidliklə

شجاعت [şocaət] şücaət, cəsarət, igidlik; ~ **داشتن** şücaət göstərmək

شجر [şəcər] *c.* **اشجار** [əşcar] ağac

شجره [şəcəre] 1) *bax* **شجر**; 2) nəsil şəcərəsi, nəsil tarixi, genealogiya

شجره نامه [şəcərename] nəsil şəcərəsi kağızı (*sənədi*)

شخ [şəx] 1) bərk torpaq; 2) dağ; 3) zirvə; dik; ~ **شدن** dik-dik durmaq; ~ **کردن** bərkitmək

شخص [şəxs] *c.* **اشخاص** [əşxas] şəxs, insan, adam; fərd, nəfər

شخصاً [şəxsən] şəxsən, özü, özüm

شخصی [şəxsi] şəxsi, fərdi; ~ **مالکیت** şəxsi mülkiyyət

شخصیت [şəxsiyyət] *c.* **شخصیات** [şəxsiyyat] 1) şəxsiyyət, fərdilik; 2) şəxs, insan

شخم [şoxm] şum; ~ **زدن (کردن)** şumlamaq

شخم کار [şoxmkar] cütçü, torpaq şumlayan

شخم کاری [şoxmkari] şumlama, şumlama işləri

شخیص [şəxis] görkəmli, məşhur; vacib; ~ **شخص** görkəmli şəxs

شدت [şeddət] 1) güc, şiddət; gərginlik; 2) kəskinlik, sərtlik, bərklik; 3) gərginləşmə; 4) ağır vəziyyət; ~ **داشتن (یافتن)** a) kəskinləşmək; b) gərginləşmək

شدن [şodən] *k.* **شو** [şou // şəv] 1) olmaq, üz vermək, baş vermək; 2) getmək

شدنی [şodəni] real, gerçək, mümkün olan

شدید [şədid] 1) güclü, qüvvətli, bərk; ~ **باد** güclü külək; 2) kəskin, sərt, ciddi; ~ **انتقاد** kəskin tənqid; ~ **برخورد** ağır toqquşma

شدیداً [şədidən] şiddətlə, şiddətli şəkildə

شدیده [şədide] *c.* **شدائد** [şədayed] 1) bədbəxtlik, müsibət; 2) çətinlik; 3) *bax* **شدید**

شر [şər(r)] şər, ziyan, zərər

شراب [şərab] *c.* **اشربه** [əşrəbe] şərab, çaxır; içki; ~ **خوردن (نوشیدن)** şərab içmək; ~ **ریختن** şərab tökmək (*süzmək*)

شراب خوار [şərabxar] şərabiçən; içki düşkünü

شراب ساز [şərabsaz] şərabdüzəldən, şərabçı, şərab istehsal edən

شراب سازی [şərabsazi] şərabçılıq, şərab istehsalı

شراب شناس [şərabşenas] şərabçılıq mütəxəssisi

شرابه [şərrabe] qotaz; saçaq (*xalçada, paltarda*)

شرابه دار [şərrabedar] qotazlı, saçaqlı

شرابی [şərabi] 1) şərab, şəraba aid olan; ~ **انگور** şərab üzümü; 2) *bax* **شراب خوار**

شرارت [şərarət] 1) şər; zərər, ziyan; 2) pislik, yamanlıq; ~ **کردن** a) zərər vurmaq; b) pislik etmək

شراره [şərare] *c.* **شرار** [şərar] // **شرر** [şərər] qığılcım, qor

شراع [şera'] yelkən; ~ **کشیدن** yelkənləri açmaq

شرافت [şərafət // şerafət] 1) şərəf, ləyaqət, heysiyyət; namus, ismət; 2) hörmət, izzət, ehtiram

شرافتمند [şərafətmənd // şerafətmənd] şərəfli, namuslu, vicdanlı, təmiz

شراکت [şərakət // şerakət] *bax* **شرکت**

شراکتی [şərakəti // şerakəti] ümumi; müştərək, şərikli; ~ سرمایه ümumi kapital

شراگیز [şər(r)əngiz] 1) təhrikçi, qızışdırıcı; 2) iğtişaşçı, qiyamçı

شراگیزی [şər(r)əngizi] təhrikçilik, qızışdırma

شرایط [şərayet] *t.* **شرط** şərait, vəziyyət

شرب [şorb] içmə; ~ قابل içməli

شربت [şərbət] 1) şərbət; ~ سرفه öskürəyə qarşı şərbət; 2) sirop, şirə; ~ به لیمو limonlu heyva şirəsi

شرجی [şərci] isti və rütubətli (*hava*)

شرح [şərh] şərh, izah, təfsir; ~ دادن şərh etmək, izah etmək

شرح حال [şərhehal] bioqrafiya; tərcümeyi-hal

شرحه [şərhe] tikə, parça (*ət*)

شرحه شرحه [şərhe-şərhe] tikə-tikə, parça-parça

شرر [şərər] *t.* **شراره**

شرر بار [şərərbar] qığılcımlı, parıltılı

شرزه [şərze] 1) qəzəbli, qəzəblənmiş; ~شیر qəzəbli şir; 2) güclü, qüvvətli

شرشر [şorşor] şırıltı

شرشره [şorşore] kiçik şəlalə

شرط [şərt] *c.* **شرایط** [şərayet] 1) şərt; tələb; 2) müqavilə, saziş; 3) mərc; bəhs; بستن ~ mərc gəlmək; کردن ~ şərtləşmək

شرط بندی [şərtbəndi] mərcə gəlmə, mərcləşmə; کردن ~ mərcə gəlmək, mərcləşmək

شرطی [şərti] şərti; ~ علامت şərti işarə

شرع [şər'] şəriət (*islam dininin qayda-qanunları*)

شرعی [şər'i] şəriətə uyğun; şəriətə aid

شرعیات [şər'iyyat] şəriət, şəriət qayda-qanunları

شرعیه [şər'iyye] *bax* **شرعی**; احکام ~ şəriət qanunları

شرف [şərəf] şərəf, namus, heysiyyət, ləyaqət

شرف [şərəf] astana, ərəfə; ~ در چیزی بودن nəyinsə ərəfəsində olmaq; همین وقت او در ~ ازدواج بود Həmin vaxt o evlənmək ərəfəsində idi

شرفیاب [şərəfyab] şərəflənən, şərəfli; شدن ~ hörmətli şəxsin hüzuruna gəlmək; hörmətli şəxsin ziyarətinə getmək

شرفیابی [şərəfyabi] rəsmi qəbulda olma; hörmətli şəxsin hüzuruna getmə

شرق [şərğ] şərq; ~ جنوب cənub-şərq; ~ شمال şimal-şərq; ~ نزدیک Yaxın Şərq; دور ~ Uzaq Şərq; ~ میانه Orta Şərq

شرق شناس [şərğşenas] şərqşünas

شرق شناسی [şərğşenasi] şərqşünaslıq

شرقی [şərği] şərq, şərqi, şərqdə yerləşən; ~ کشورهای Şərq ölkələri

شرک [şerk] 1) kafirlik, allahsızlıq; 2) çoxallahlılıq, bütpərəstlik

شرکت [şerkət] 1) şirkət, kampaniya; ~ بیمه sığorta şirkəti; 2) iştirak, iştirak etmə; داشتن (کردن) ~ a) iştirak etmək; b) payı olmaq

شرکت کننده [şerkətkonənde] iştirakçı, iştirak edən

شرکت نامه [şerkətname] şirkətin nizamnaməsi

شرم [şərm] abır, həya, xəcalət, utanc; داشتن (کردن) ~ utanmaq

شرم آلود [şərmalud] biabır olunmuş, rüsvay olunmuş

شرم آور [şərmavər] utandırıcı; rüsvayçı, biabırçı; ~ رفتار biabırçı hərəkət

شرم زده [şərmzəde] *bax* **شرمسار**

شرمسار [şərmsar] xəcalətli; pərt, dilxor; شدن ~ utanmaq, xəcalət çəkmək; pərt olmaq; کردن ~ utandırmaq; pərt etmək

شرمساری [şərmsari] utanma, utanıb-qızarma, xəcalət çəkmə

شرمگاه [şərmqah] bədənin aşağı məhrəm hissəsi; cinsiyyət orqanları

شرمگین [şərmgin] *bax* **شرمسار**

شرمناک [şərmnak] *bax* **شرمسار**

شرمندگی [şərməndegi] 1) utancaqlıq; 2) *bax* **شرمساری**

شرمنده [şərmənde] 1) utancaq; 2) *bax* **شرمساری**

شرنگ [şərəng] 1) zəhər; 2) acı balqabaq

شرور [şərur] 1) şər (*adam*); 2) tərs, inadkar; 3) nadinc, dəcəl

شروع [şoru'] başlama, işə girişmə; başlanğıc; شدن ~ başlanmaq; کردن ~ başlamaq

شرور [şerrover] *dan.* cəfəngiyat, boş söz, mənasız söz

شره [şərəh] 1) tamah, acgözlülük; 2) ehtiras, güclü həvəs

شره [şəreh] xəsis, tamahkar, həris

شریان [şər(ə)yan // şeryan] *c.* **شرایین** [şərayin] arteriya; qan damarı; ~ ورم arterit

شریر [şərir] 1) şər, pis (*adam*); 2) *c.* **اشرار** [əşrar] cani, quldur, cinayətkar

شریرانه [şərirane] 1) acıqla, hirslə, qəzəblə, kinli-kinli; 2) quldurcasına, cinayətkarcasına

شریعت [şəriət] *c.* **شرایع** [şəraye'] şəriət; müsəlman hüququ

شریعت مآب [şəriətməab] *bax* **شریعت مدار**

شریعت مدار [şəriətmədar] böyük müsəlman ruhanilərinə verilən fəxri ad (*dərəcə*)

شریف [şərif] *c.* **اشراف** [əşraf] // **شرفا** [şərəfa] şərif, şərafətli, vicdanlı, nəcib

شریک [şərik] *c.* **شرکا** [şərəka] şərik, ortaq; شدن ~ şərik olmaq

شست [şəst] I baş barmaq

شست [şəst] II *bax* **شصت**

شستشو [şostoşu] yuma; yuyub-təmizləmə; yuyunma; کردن ~ yuyunmaq; yumaq

شستن [şostən] *k.* شو (ی) [şu (y)] // **شور** [şur] 1) yumaq, yuyunmaq; 2) yuyub-aparmaq

شستنی [şostəni] yumalı, yuyulmalı; ~ ظروف yuyulmalı qablar

شست و شو [şostoşu] *bax* **شستشو**

شش [şeş] altı

شش [şoş] ağ ciyər

شش بر [şeşbər] *riyaz.* altıtərəfli, altıküncli

شش ترک [şeştərk] *bax* **شش بر**

شش دانگ [şeşdəngi] [illegible]; tamam; ~ ملک bütöv mülk, mülkün hamısı

ششصد [şeşsəd] altı yüz

ششلول [şeşlul] tapança, altıpatronlu tapança

شش گوش [şeşquş] *bax* **شش بر**

ششم [şeşom] altıncı

شش ماهه [şeşmahe] altıaylıq
ششمین [şeşomin] *bax* **ششم**
شصت [şəst] altmış
شصتم [şəstom] altmışıncı
شصمین [şəstomin] *bax* **شصتم**
شط [şət(t)] 1) böyük çay; 2) çayın sahili
شطرنج [şətrənc] şahmat; **~ زدن (بازی کردن)** şahmat oynamaq
شطرنج باز [şətrəncbaz] şahmatçı
شطرنج بازی [şətrəncbazi] şahmat oyunu; **~ کردن** şahmat oynamaq
شعار [şear // şoar] 1) şüar, deviz; 2) adət, ənənə; 3) əlamət, fərqləndirici əlamət
شعاع [şoa'] *c.* **اشعه** [əşə'e] 1) şüa; 2) parıltı, işıq; 3) radius; **افکندن ~** a) şüa salmaq; b) parlamaq
شعاع افکن [şoa'əfkən] 1) şüalanan; 2) parıldayan, işıldayan
شعاع گستر [şoa'qostər] *bax* **شعاع افکن**
شعاعی [şoail, radial, radius, şüaqamətində olan; **~ خط** radial xətt
شعبان [şə'ban] şəban (*hicri-qəməri ilinin səkkizinci ayı*)
شعبده [şo'bədə] şəbədə, fokus
شعبده باز [şo'bədebaz] 1) fokusçu, fokus göstərən; 2) fırıldaqçı, kələkbaz
شعبده بازی [şo'bədebazi] 1) fokus göstərmə; 2) fırıldaqçılıq, kələkbazlıq; **کردن ~** a) fokus göstərmək; b) fırıldaqçılıq etmək, kələkbazlıq etmək
شعبه [şo'be] *c.* **شعبات** [şoəbat] // **شعب** [şoəb] 1) şöbə, bölmə, filial; 2) budaq, şaxə; xətt
شعر [şe'r] *c.* **اشعار** [əş'ar] şeir; **~ آزاد** sərbəst şeir; **~ حماسی** epik şeir; **~ غنایی** lirik şeir; **~ گفتن (سرودن)** şeir yazmaq (*qoşmaq*)
شعرباف [şe'rbaf] qafiyəpərdaz, istedadsız şair, şairlik həvəsinə düşən
شعشعه [şə'şə'e] şüa saçma, parıltı
شعف [şəəf] sevinc, fərəh
شعله [şo'le] şölə, işıq, parıltı; **~ زدن (کشیدن)** şölələnmək, yanmaq
شعله پوش [şo'lepuş] alovsöndürən; alovyatıran
شعله ور [şö'levər] şöləli, alovlu; parıldayan; **شدن ~** şölələnmək, yanmaq; **کردن ~** yandırmaq
شعور [şour] şüur, ağıl, dərrakə, düşüncə
شغال [şəğal] 1) çaqqal; 2) acgöz
شغل [şoğl] 1) iş; 2) peşə, ixtisas; **معلمی ~** müəllimlik peşəsi; 3) vəzifə
شفا [şəfa // şefa] şəfa, müalicə, əlac; **دادن (بخشیدن) ~** şəfa vermək, müalicə etmək; **یافتن ~** şəfa tapmaq, sağalmaq
شفابخش [şəfabəxş] şəfa verən, şəfaverici, sağaldan
شفاپذیر [şəfapəzir] müalicə olunan (*xəstəlik*)
شفاعت [şəfaət // şefaət] 1) xahiş (*günahkarın bağışlanması üçün*); 2) müdafiə etmə, dəstəkləmə; 3) vasitəçilik; **کردن ~** a) xahiş etmək; b) müdafiə etmək, dəstəkləmək
شفاف [şəffaf] 1) şəffaf; **~ آب** şəffaf su; 2) parıltılı, parlayan
شفاناپذیر [şəfanapəzir] müalicə olunmayan (*xəstəlik*)
شفاهی [şefahi] şifahi; **~ امتحان** şifahi imtahan
شفتالو [şəftalu] 1) şaftalı (*meyvə*); 2) şaftalı (*ağac*)

شفته [şefte] beton (*məhlul*); **~ ریختن** beton tökmək
شفق [şəfəğ] şəfəq
شفقت [şəf(ə)ğət // şəfe(ğ)ğət] şəfqət, mərhəmət, mehribanlıq, ürəyiyumşaqlıq; **کردن ~** mərhəmət göstərmək, ürəyi yanmaq
شفقت آمیز [şəf(ə)ğətamiz] şəfqətli, mərhəmətli, mehriban
شفیع [şəfi'] müdafiə edən, dəstəkləyən
شفیق [şəfiğ] 1) xeyirxah; əziz; nəvazişli, ürəyiyumşaq; 2) ürəkdirək verən, təskinlik verən
شق [şəğ(ğ)] *c.* **شقوق** [şoğuğ] 1) çat, yarıq, deşik; 2) bölmə, parçalama; **کردن ~** parçalamaq, ayırmaq, bölmək
شق [şeğ(ğ)] 1) çarə, yol, çıxış yolu; **اسلم ~** düzgün yol; 2) iki imkandan biri, dilemma, alternativ; 3) *bax* **شقه** [şeğğe]
شق القمر [şeğğolğəmər] möcüzə; **کردن ~** möcüzə göstərmək
شقاوت [şəğavət // şeğavət] 1) rəhmsizlik, qəddarlıq, zalımlıq; 2) bədbəxtlik
شقاوت آمیز [şəğavətamiz] rəhmsiz, qəddar, qeyri-insani
شقایق [şəğayeğ] lalə növü
شق و رق [şeğğorəğ(ğ)] *dan.* şax, düz; şax durmuş, düz durmuş
شقه [şeğğe // şəğğe] 1) bir hissə, yarı; 2) şaqqa, cəmdəyin yarısı; **~ کردن** yarıya bölmək; şaqqalamaq
شقه [şoğğe] zolaq (*parçada*)
شقی [şoği] *c.* **اشقیا** [əşğiya] 1) zalım, qəddar, rəhmsiz; 2) bədbəxt
شقیقه [şəğiğe] *c.* **شقایق** [şəğayeğ] gicgah
شک [şək(k)] *c.* **شکوک** [şokuk] şəkk, şübhə; **~ بدون** şübhəsiz; **بی ~ و ریب** heç bir şəkk-şübhə olmadan; **آوردن (بردن) ~** şübhələnmək; **داشتن ~** şübhəli olmaq, əmin olmamaq
شکار [şekar] 1) ov; 2) ov heyvanı, ovlanan heyvan; **شدن ~** ovlanmaq; **کردن ~** ovlamaq
شکارچی [şekarçi] ovçu
شکارگاه [şekarqah] ovlaq, ov yeri
شکاری [şekari] 1) ov, ova aid; **~ تفنگ** ov tüfəngi; **~ سگ** ov iti; 2) ovlayan (*heyvan*); yırtıcı; **حیوانات ~** yırtıcı heyvanlar; 3) qırıcı (*təyyarə*); **~ هواپیمای** qırıcı təyyarə
شکاف [şekaf] yarıq, deşik, çatlaq; **خوردن ~** yarılmaq; **دادن ~** yarmaq
شکافتن [şekaftən] *k.* **شکاف** [şekaf] 1) yarmaq, deşmək; 2) sökmək; 3) açmaq
شکافته [şekafte] **شکافتن** *f.-nin k.z.f.sif;* 1) yazılmış, deşilmiş; 2) sökülmüş
شکافی [şekafi] parçalanmış; **~ اتم** parçalanmış atom
شکاک [şəkkak] 1) şəkk edən, şübhələnən, şübhə edən; 2) skeptik (*elmi cərəyan nümayəndəsi*)
شکاکی [şəkkaki] *c.* **شکاکیون** [şəkkakiyyun] skeptiklər məktəbinin (*cərəyanının*) nümayəndəsi
شکاندن [şekandən] *bax* **شکستن**
شکایت [şekayət] *c.* **شکایات** [şekayat] şikayət; giley; **کردن (داشتن) ~** şikayətlənmək; gileylənmək
شکایت آمیز [şekayətamiz] şikayətli; gileyli; **با لحن ~** şikayətli tərzdə

شکایت نامه [şekayətnəme] şikayət ərizəsi, yazılı şikayət

شک دار [şəkdar] *bax* **شکاک 1)**

شکر [şokr] şükür; **~ کردن (گفتن)** şükür etmək

شکر [şəkər // şekər] şəkər

شکراب [şəkərab // şekərab] 1) qəndab; 2) *dan.* iki dostun arasındakı inciklik; **~ شده ایشان میان*** araları dəyib

شکرافشان [şəkərəfşan] şirinsözlü, şirin danışıqlı; bəlağətli

شکران [şokran] *bax* **شکرانه**

شکرانه [şokrane] razılıq, minnətdarlıq, şükürlər etmə

شکربار [şəkərbar] çox şirin, şəkər kimi şirin

شکربوره [şəkərbure] şəkərbura

شکرپاره [şəkərpare] 1) çox şirin şey; 2) çox şirin ərik növü

شکرپنیر [şəkərpənir] noğul, konfet növü

شکرخند [şəkərxənd] şiringülüşlü, təbəssümlü

شکرخواب [şəkərxab] şirin yuxu

شکرستان [şəkərestan] 1) şəkər qamışlığı; 2) *məc.* məşuqənin dodaqları

شکرلب [şəkərləb] şirindodaqlı

شکرک [şəkərək] xarlanma; **~ زدن (بستن)** xarlanmaq

شکرگزار [şokrqozar] şükür edən, minnətdar olan

شکرگزاری [şokrqozari] şükür etmə, minnətdarlıq, təşəkkür; **~ کردن** şükür etmək, minnətdarlıq etmək

شکست [şekəst] 1) məğlubiyyət; uduzma; 2) uğursuzluq; kəsilmə (*imtahandan*); 3) sınma (*şüa*); *bax* **شکستگی 1); ~ خوردن** məğlub olmaq; **~ دادن** məğlub etmək; ◊ **~* زلف(مو)** saçın qıvrımlığı

شکست خورده [şekəstxorde] 1) məğlub olmuş, məğlub edilmiş; 2) sınmış

شکستگی [şekəstegi] 1) sınıq, sınma; 2) yorğunluq; 3) sınıxma; zəifləmə; yorulma

شکستن [şekəstən] *k.* **شکن** [şekən] 1) sınmaq; sındırmaq; **~ دل را** ürəyi sındırmaq; **~ ظرف را** qabı sındırmaq; **~ عهد را** əhdi sındırmaq (*pozmaq*); 2) pozmaq (*sakitliyi*); əməl etməmək (*qanuna, sözə*); **~ قانون را** qanunu pozmaq; 3) məğlub etmək; **~ دشمن را** düşməni məğlub etmək

شکست ناپذیر [şekəstnapəzir] məğlubedilməz, məğlub edilməyən, basılmaz

شکستنی [şekəstəni] kövrək, tez sınan (*mal*); **~ کالای*** tezsınan mal

شکسته [şekəste] **شکستن** *f.-nin k.z.f.sif.;* 1) sınmış, sınıq; 2) qəmli, kədərli; 3) şikəstə (*fars xətt növü*)

شکسته بال [şekəstebal] 1) qanadı sınmış; 2) zəif, gücsüz; 3) bədbəxt, biçarə, yazıq; incidilmiş

شکسته بسته [şekəstebəste] güclə danışma, güc-bəla ilə demə (*danışma*)

شکسته بند [şekəstebənd] sınıqçı

شکسته بندی [şekəstebəndi] sınıqçılıq; sınığı müalicə etmə

شکسته پیمان [şekəstepeyman] 1) əhdi pozan; 2) vəfasız; 3) xəyanətkar

شکسته حال [şekəstehal] yazıq, biçarə

شکسته خاطر [şekəstexater] qəlbisınıq, dərdli, kədərli, qüssəli

شکسته دل [şekəstedel] 1) incimiş; 2) *bax* **شکسته خاطر**

شکسته مزاج [şekəstemezac] zəif, tez-tez xəstələnən

شکسته نفس [şekəstenəfs] gözütox; təvazökar, sadə

شکسته وعده [şekəstevə'de] *bax* **شکسته پیمان**

شکفتگی [şekoftegi] 1) çiçəklənmə, gül açma; 2) sevinc, şadlıq, fərəh; 3) gülüş, təbəssüm

شکفتن [şekoftən] 1) açılmaq (*gül*); çiçəklənmək; 2) *məc.* sevinmək, şadlamaq; 3) *məc.* gülmək

شکفته [şekofte] **شکفتن** *f.-nin k.z.f.sif.;* 1) açılmış, çiçəklənmiş; **~ گل*** açılmış gül; 2) *məc.* şad, şən; **~ شدن** a) açılmaq (*gül*); çiçəklənmək; b) şadlanmaq, sevinmək

شکل [şekl] *c.* **اشکال** [əşkal] 1) şəkil, forma; 2) rəsm, təsvir; 3) üz, sifət; 4) yol, tərz, üsul; **~ کشیدن** şəkil çəkmək; **~ از افتادن** formadan düşmək, formasını itirmək

شکلات [şokolat] şokolad

شکلاتی [şokolati] 1) şokoladlı; 2) şokolad rəngli, tünd-qəhvəyi

شکل پذیر [şeklpəzir] plastik, yoğurula bilən, istənilən şəklə salına bilən

شکلک [şeklək] *dan.* ağız-burnunu əymə, üz-gözünü büzüşdürmə; **~ در آوردن** ağız-burnunu əymək, üz-gözünü büzüşdürmək

شکم [şekəm] 1) qarın; 2) iç, içalat; 3) qarın (*doğuş üçün numerativ söz*); **~ یک زایید** bir qarın doğub; ◊ **~* خود را بالا آمدن** hamilə olmaq; **صابون زدن** iştahası böyük olmaq

شکم باره [şekəmbare] *bax* **شکم پرست**

شکم بند [şekəmbənd] 1) qarın sarğısı, bandaj; 2) korset

شکم بنده [şekəmbənde] *bax* **شکم پرست**

شکمبه [şekəmbe] mədə (*heyvanlarda*)

شکم پرست [şekəmpərəst] 1) qarınotaran; çoxyeyən, qarınqulu; 2) acgöz, doymaz, doymaq bilməyən

شکم پرستی [şekəmpərəsti] 1) qarınotarma; qarınqululuq; 2) acgözlük, doymazlıq

شکم پرکن [şekəmporkon] *bax* **شکم پرست**

شکم پرور [şekəmpərvər] *bax* **شکم پرست**

شکم پروری [şekəmpərvəri] *bax* **شکم پرستی**

شکم چران [şekəmçəran] *bax* **شکم پرست 1)**

شکم درد [şekəmdərd] qarın ağrısı

شکم روش [şekəmrəveş] ishal, qarın işləməsi

شکم گرسنه [şekəmqorosne] ac

شکم گرفتگی [şekəmgereftegi] *tib.* qəbzlik

شکم گنده [şekəmqonde] yekəqarın, qarnıyekə, qarnıyoğun

شکن [şekən] **شکستن** *f.nin k.;* 1) buruq (*saç*), qıvrım; **~* زلف** saçın buruğu; 2) bükük, qırış (*dəridə*); 3) mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "qıran", "sındıran" mənasını bildirir: **قد شکن** qəndqıran, qəndsındıran; **هیزم شکن** odunçu, odunqıran

شکنجه [şekənce] işgəncə, əzab; **~ دادن** işgəncə vermək; əzab vermək

شکننده [şekənənde] 1) tezsınan, kövrək; 2) *məc.* zərif, incə
شکور [şəkur] şükür edən; həyatından razı olan; aza qane olan
شکوفا [şokufa] çiçəklənən
شکوفان [şokufan] *bax* **شکوفا**
شکوفتن [şekuftən] *bax* **شکفتن**
شکوفنده [şekufənde] *bax* **شکوفا**
شکوفه [şekufe // şokufe] çiçək (*meyvə ağacının*); çiçəkləmə; açılmış gül
شکوفیدن [şekufidən] *bax* **شکفتن**
شکوه [şekve] şikayət; giley; ~ **کردن** şikayətlənmək; gileylənmək
شکوه [şokuh] böyüklük, əzəmət, dəbdəbə, təmtəraq; ~ **با** böyük, əzəmətli
شکوه آمیز [şekveamiz] şikayətli; gileyli; ~ **نگاههای** gileyli baxışlar
شکوهمند [şokuhmənd] böyük, əzəmətli, dəbdəbəli, təmtəraqlı
شکوهمندی [şokuhməndi] böyüklük, əzəmət, dəbdəbə, təmtəraq
شکیب [şəkib] *bax* **شکیبایی**
شکیبا [şəkiba] səbirli, dözümlü
شکیبایی [şəkibayi] səbir, dözüm
شکیل [şəkil] gözəl, xoşsifət
شگرد [şegerd] fənd, üsul, yol; ~ **کار** işin qaydası (*çami*)
شگرف [şegərf] 1) qəribə, heyrətli, təəccüblü; bənzərsiz, nadir; 2) əla, ən gözəl; 3) çox böyük, yekə
شگفت [şegeft] təəccüb, heyrət; **به** ~ **آمدن** // **در** ~ **ماندن** təəccüblənmək
شگفت آمیز [şegeftamiz] təəccüblü, təəccübləndirici, heyrətləndirici
شگفت انگیز [şegeftəngiz] *bax* **شگفت آمیز**
شگفت زدگی [şegeftzədegi] təəccüblənmə, heyrətlənmə
شگفت زده [şegeftzəde] təəccüblənən, heyrətlənən
شگون [şoqun] uğur; xoş əlamət; sayalı ayaq; **داشتن** ~ ayağı sayalı olmaq; ayağı uğurlu olmaq
شل [şəl] axsaq, çolaq, topal, şikəst
شل [şol] 1) zəif, süst; ~ **مرد** zəif adam; 2) bərkidilməmiş, boş (*ip və s.*); 3) duru; ~ **آش** duru sıyıq; ~ **شدن** a) zəifləmək; b) boşalmaq; ~ **طناب شده** kəndir boşalıb; ~ **کردن** a) zəiflətmək; b) boşaltmaq
شلاق [şəllağ] şallaq, qamçı; ~ **زدن** şallaq vurmaq
شلتوک [şəltuk] çəltik (*təmizlənməmiş düyü*)
شلختگی [şələxtegi] *dan.* pintilik, səliqəsizlik (*qadında*)
شلخته [şələxte] *dan.* pinti, səliqəsiz (*qadın*)
شلغم [şəlğəm] şalğam
شلنگ [şələng] iri addım; ~ **انداختن** hoppana-hoppana getmək
شلوار [şəlvar] şalvar
شلوارک [şəlvarək] qısa şalvar (*dizədək*), şort
شلوغ [şoluğ] 1) qarışıqlıq, çaxnaşma, nizamsızlıq; 2) qışqırıq, hay-küy; səs-küy; 3) səs-küylü, şuluqçu; ~ **بچه** şuluqçu uşaq; ~ **شدن** qarışıqlıq olmaq; ~ **کردن** şuluqluq etmək; qışqırmaq; hay-küy salmaq; səs-küy salmaq; dava-dalaş etmək
شلوغ کاری [şoluğkari] 1) çaxnaşma salma, nizamsızlıq yaratma; 2) qışqırıq salma, hay-küy salma

شلوغ کن [şoluğkon] *dan.* hay-küylü, səs-küylü, cəncəl, qalmaqal
شلوغی [şoluği] 1) şuluqluq, səs-küy; 2) kütlə, izdiham
شله [şole] şorba, sup, sıyıq
شلی [şəli] axsaqlıq, topallıq
شلی [şoli] 1) zəiflik, süstlük; 2) duruluq (*yeməyin*)
شلیدن [şəlidən] *dan.* axsamaq
شلیک [şellik] atəş, yaylım atəşi; atışma; ~ **سلام** salyut, yaylım atəşi
شم [şəm(m)] 1) iy duyğusu, iybilmə; 2) səriştə; ~ **سیاسی** siyasi səriştə, siyasi duyum
شما [şoma] siz; sizin (izafət *birləşməsində*); ~ **خانهٔ** sizin ev
شماتت [şəmatət // şematət] 1) bədxahlıq, başqasının bədbəxtliyinə sevinmə; 2) danlaq, qınaq, məzəmmət, tənə; ~ **کردن** a) başqasının bədbəxtliyinə sevinmək; b) qınamaq, pisləmək, məzəmmət etmək
شماتت آمیز [şəmatətamiz] məzəmmətli, tənəli
شمار [şomar] **شمردن** *f.-nin k.:* 1) hesab, hesablama; 2) say, ədəd, miqdar; ~ **به آمدن** sayılmaq; ~ **به آوردن** saymaq; ◊ ~**روز** məhşər günü
شمارش [şomareş] hesab, say; hesablama, hesablanma; ~ **آرا** səslərin hesablanması; ~ **کردن** hesablamaq
شماره [şomare] 1) nömrə, say; ~ **شاگردان** şagirdlərin sayı; 2) ölçü; ~ **کفش** ayaqqabının ölçüsü; ~ **کردن** saymaq, hesablamaq; ~ **گرفتن** telefon nömrəsini yığmaq
شماره گیری [şomaregiri] telefon nömrəsini yığma
شماطه [şəmmate] saat zəngi
شماطه دار [şəmmatedar] zəngli; ~ **ساعت** zəngli saat
شمال [şemal // şomal] şimal; ~ **شرقی** şimal-şərqi; ~ **غربی** şimal-qərbi; ~ **باد** şimal küləyi
شمایل [şəmayel] portret, şəkil (*müqəddəs şəxsiyyətlərin*); ikona
شمپانزه [şəmpanze] şimpanze
شمد [şəməd] döşəkağı, mələfə
شمردن [şomordən // şemordən] *k.* **شمار** [şomar] // **شمر** [şomor] 1) saymaq; hesab etmək, hesablamaq; 2) sadalamaq, demək
شمرده [şomorde] **شمردن** *f.-nin k.z.f.sif.:* ölçülüb-biçilmiş, ritmik, aram, aydın; ~ **قرائت** aydın qiraət; ~**گامهای** ritmik addımlar
شمس [şəms] günəş
شمسی [şəmsi] günəş; günəşə aid; ~ **سال** günəş (*şəmsi*) ili
شمسیه [şəmsiyye] *bax* **شمسی**; ~ **حروف** *qram.* şəmsiyyə hərflər; **ال** [əl] artiklindən sonra asimilyasiya edilərək ikiqat tələffüz olunan hərflər (**ط، ش، س، ر، ذ، د، ث، ت، ن، ل، ض، ص، ظ**)
شمش [şemş] külçə; ~ **طلا** qızıl külçəsi
شمشاد [şemşad] *bot.* şümşad (*ağac*)
شمشیر [şəmşir] qılınc; ~ **کشیدن** qılınc çəkmək
شمشیرباز [şəmşirbaz] qılıncoynadan
شمشیربازی [şəmşirbazi] qılıncoynatma; ~ **کردن** qılınc oynatmaq
شمشیرزن [şəmşirzən] *bax* **شمشیرباز**
شمع [şəm'] şam, yanan şam; ~ **روشن کردن** şam yandırmaq; ◊ ~ **آسمان (صباح، فلک)** günəş

شمعدان [şəm'dan] şamdan, şamqabı
شمعدانی [şəm'dani] *bot.* ətirşah
شمن [şəmən] 1) şaman; 2) bütpərəst
شمن پرستی [şəmənpərəsti] şamançılıq
شمه [şəmme// şemme] hissə; parça; **شمه ای از حکایت** hekayənin bir hissəsi
شمیم [şəmim] 1) xoşqoxulu; ətirli, rayihəli; 2) yüksək, hündür, uca
شمیمه [şəmime] *c.* **شمایم** [şəmayem] 1) *bax* **شمیم**; 2) iy, ətir, xoş qoxu
شن [şen] qum; çınqıl
شنا [şena] üzmə, üzgüçülük; ~ **مسابقه** üzgüçülük üzrə yarış; ~ **کردن** üzmək; **بلد بودن** ~ üzməyi bacarmaq
شناخت [şenaxt] 1) tanıma; bilmə; **آینده** ~ öncəgörmə, gələcəyi görmə; 2) tanış olma
شناختن [şenaxtən] *k.* **شناس** [şenas] 1) tanımaq; bilmək; 2) tanış olmaq; 3) seçmək, ayırd etmək
شناخته [şenaxte] **شناختن** *f.-nin k.z.f.sif.;* tanınmış; məşhur
شناس [şenas] **شناختن** *f.-nin k.*; mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "bilən" mənasını bildirir: **خاورشناس** şərqşünas; şərqi bilən; ~ **بودن** tanış olmaq; bilmək, tanımaq
شناساندن [şenasandən] tanış etmək; ~ **خود را** özünü göstərmək
شناسایی [şenasayi] 1) tanıma; tanışlıq; **دوژور** ~ *siy.* rəsmi tanıma (*bir dövlətin digərini*); 2) bilmə, qavrama; **داشتن** ~ tanış olmaq; bilmək; qavramaq; ayırd etmək
شناسنامه [şenasname] pasport
شناگاه [şenaqah] plyaj, çimərlik
شناگر [şenagər] üzgücü
شناگری [şenagəri] üzgüçülük
شناور [şenavər] 1) üzən; 2) *bax* **شناگر**
شناوری [şenavəri] *bax* **شناگری**
شنبه [şəmbe] şənbə
شنجرف [şəncərf] *bax* **شنگرف**
شن ریزی [şenrizi] qum tökmə; çınqıl tökmə; **کردن** ~ qum tökmək; çınqıl tökmək
شنزار [şenzar] qumluq; qumsallıq
شنفتن [şenoftən] *k.* **شنو** [şenou] *dan.* **شنیدن** *bax*
شنگرف [şəngərf] kinovar (*qırmızı mineral və boya*)
شنگرفی [şəngərfi] açıq-qırmızı, narıncı
شنل [şenel] şinel
شنوا [şenəva] eşidən, dinləyən; **او گوش~ ندارد** o, sözə baxmır (*qulaq asmır*)
شنواندن [şenəvandən] eşitdirmək, qulağına çatdırmaq
شنوایی [şenəvayi] 1) eşitmə qabiliyyəti, eşitmə duyğusu; **قوی** ~ güclü eşitmə duyğusu; 2) sözə baxma, qulaq asma, itaət etmə; **داشتن** ~ sözə baxmaq, qulaq asmaq, itaət etmək
شنودن [şonudən] *bax* **شنیدن**
شنونده [şenəvənde] *c.* **شنوندگان** [şenəvəndeqan] dinləyən, dinləyici; **شنوندگان گرامی** əziz dinləyicilər
شنیدن [şenidən] *k.* **شنو** [şenou] eşitmək, qulaq asmaq, dinləmək; ~ **کی بود مانند دیدن** *ata. söz.* yüz eşitməkdən, bir görmək yaxşıdır
شنیدنی [şenidəni] eşitməli, maraqlı; qəribə; ~ **اخبار** maraqlı xəbərlər
شنیده [şenide] **شنیدن** *f.-nin k.z.f.sif.;* 1) eşidilmiş; 2) şayiə

شنیع [şəni'] 1) iyrənc, çirkin; alçaq; ~ **عمل** iyrənc hərəkət; 2) dəhşətli, qorxulu
شو [şou] şou, əyləncəli estrada tamaşası
شو [şu] *bax* **شوی**
شوال [şəvval] şəvval (*hicri-qəməri ilinin onuncu ayı*)
شوت [şut] *idm.* zərbə; **زدن** ~ zərbə vurmaq
شوخ [şux] 1) məzəli, zarafatcıl (*adam*); 2) gözəl; yaraşıqlı; 3) şən, şad
شوخ چشم [şuxçeşm] həyasız, utanmaz; sırtıq
شوخ طبع [şuxtəb'] 1) şad, şən; 2) zarafatcıl; hazırcavab
شوخ وشنگ [şuxoşəng] *bax* **شوخ 1), 2)**
شوخی [şuxi] zarafat; dəcəllik; ~ **بدون** zarafatsız; **کردن** ~ zarafat etmək; dəcəllik etmək; **به** ~ **گرفتن** zarafata salmaq; ciddi yanaşmamaq
شور [şour] 1) məsləhət, məşvərət; 2) müzakirə; **کردن** ~ məsləhətləşmək; məsləhət etmək; **مورد** ~ **قرار دادن** müzakirəyə qoymaq, müzakirə etmək; **مورد** ~ **قرار گرفتن** müzakirəyə qoyulmaq, müzakirə olunmaq
شور [şur] I şor, duzlu; ~ **آب** duzlu (*şor*) su; ~ **غذای** duzlu (*şor*) xörək; ◊ **شورش را در آوردن** şorunu çıxartmaq, ağ eləmək
شور [şur] II 1) həyəcan, təşviş, narahatçılıq; 2) ehtiras, eşq, məhəbbət; ~ **وطن** vətən məhəbbəti
شورا [şoura // şura] 1) şura; ~ **امنیت** **سازمان** **ملل متحد** BMT-nin Təhlükəsizlik Şurası; ~ **جنگی (نظامی)** hərbi şura; ~ **ملی** Milli Məclis; 2) məsləhət, məşvərət, konsilium; ~ **پزشکی** tibbi konsilium
شوراب [şurab] 1) şoraba; 2) duzlu su
شورابه [şurabe] *bax* **شوراب**
شوراندن [şurandən] 1) həyəcanlandırmaq; 2) qızışdırmaq; təhrik etmək (*qiyama, iğtişaşa və s.*); 3) coşdurmaq, təlatümə gətirmək (*dənizi*)
شورانگیز [şurəngiz] 1) həyəcanlandıran, narahat edən; 2) sensasiyalı; ~**خبر** sensasiyalı xəbər
شورانیدن [şuranidən] *bax* **شوراندن**
شوربا [şurba] şorba (*ət və düyü supu*)
شوربخت [şurbəxt] bədbəxt, talesiz
شوربختی [şurbəxti] bədbəxtlik, talesizlik
شورچشم [şurçeşm] bədnəzər
شورش [şureş] 1) həyəcan, narahatçılıq; 2) iğtişaş, qarışıqlıq; üsyan, qiyam; **برپا کردن** ~ üsyan etmək; **به** ~ **درآمدن** həyəcanlanmaq; təlatümə gəlmək (*dəniz*)
شورش طلب [şureştələb] qiyamçı, üsyançı
شورو [şevro] lak; ~ **کفش** lak ayaqqabı
شوره [şure] 1) şoran, şoranlıq; 2) kəpək (*başda*)
شوره زار [şurezar] şoran yer, şoran torpaq
شوری [şuri] şorluq
شوریدگی [şuridegi] 1) həyəcan, narahatlıq; 2) ehtiras; vurğunluq; 3) ağılsızlıq
شوریدن [şuridən] 1) həyəcanlanmaq, narahat olmaq; 2) üsyan qaldırmaq
شوریده [şuride] **شوریدن** *f.-nin k.z.f.sif.;* 1) həyəcanlı, narahat; 2) ehtiraslı, dəlicəsinə sevən; 3) ağılsız

شوریده بخت [şuridəbəxt] *bax* **شوریخت**

شوریده حال [şuridəhal] *bax* **شوریده 1), 2)**

شوریده خاطر [şuridexater] 1) qəmli, kədərli, pərişan; 2) *bax* **شوریده 1), 3)**

شوریده روزگار [şurideruz(e)qar] bədbəxt, yazıq, biçarə, köməksiz, qaragünlü

شوریده سر [şuridesər] aramsız, qərarsız, pərişan, nigaran

شوسه [şosse] şose, avtomobil yolu

شوشه [şuşe] 1) külçə; 2) prizma; prizmaşəkilli (*əşya*); 3) sallanmış buz lüləsi

شوشه ای [şuşei] prizmaşəkilli

شوفاژ [şofaj] isitmə, qızdırma sistemi; **سانترال ~** mərkəzi isitmə sistemi

شوفر [şofer // şofor] şofer, avtomobil sürücüsü

شوفری [şoferi // şofori] şoferlik, sürücülük

شوق [şouğ] 1) ehtiras, həvəs; rəğbət, meyil; 2) şövq; bərk istək; şiddətli arzu; **و ذوق ~** heyranlıq, məftunluq; **داشتن ~** həvəs göstərmək, meyil salmaq; **آمدن به ~** şövqə gəlmək, həvəsələnmək; **آوردن به ~** həvəsləndirmək

شوک [şok] *tib.* şok

شوکت [şoukət] şövkət, əzəmət, cah-calal; təntənə, təmtəraq

شوکولات [şokolat] *bax* **شکلات**

شوم [şum] 1) uğursuz, nəhs; 2) bədbəxt

شومن [şoumən] şoumen, şou verilişlərinin aparıcısı

شووینیست [şovinist] şovinist

شووینیستی [şovinisti] şovinistlik; şovinistcəsinə

شووینیسم [şovinism] şovinizm

شوهر [şouhər] ər, həyat yoldaşı; **دادن ~** ərə vermək; **کردن ~** ərə getmək

شوهر خواهر [şouhərxahər] yeznə (*bacının əri*)

شوهر دار [şouhərdar] ərli

شوهر کرده [şouhərkərde] *bax* **شوهر دار**

شوهر مادر [şouhərmadər] ögey ata

شوی [şuy] *bax* **شوهر**

شوید [şəvid] şüyüd

شوینده [şuyənde] 1) yuyan; 2) yuyucu

شهاب [şehab] *c.* **شهب** [şohob] 1) parlaq ulduz; 2) şölə, od; 3) meteor; **ثاقب ~*** düşən meteor (*parlaq ulduz*)

شهادت [şəhadət] 1) şahidlik; təsdiq etmə; 2) şəhidlik, şəhid olma; **دادن ~** a) şahidlik etmək, təsdiq etmək; b) şahidlik ifadəsi vermək; **به ~ رسیدن** şəhid olmaq

شهادت نامه [şəhadətname] 1) yazılı şəhadət; 2) şəhadətnamə, attestat, vəsiqə

شهامت [şəhamət] igidlik, qorxmazlıq, şücaət

شهباز [şəhbaz] *bax* **شاهباز**

شهبانو [şəhbanu] şah arvadı, kraliça

شهپر [şəhpər] 1) *bax* **شاه پر**; 2) *av.* eleron

شهد [şəhd] 1) bal (*arı balı*); 2) şirni; 3) *bot.* nektar

شهر [şəhr] şəhər

شهرآشوب [şəhraşub] I 1) qeyri-adi gözəl; 2) şəhərdə həyəcan yaradan, şəhəri həyəcanlandıran

شهرآشوب [şəhraşub] II *ədəb.* şəhraşub (*sənətkarlar və müxtəlif peşələr haqqında şeir növü*)

شهربانی [şəhrbani] polis idarəsi

شهرت [şohrət] 1) şöhrət, məşhurluq; 2) familiya, soyad; **(داشتن) ~ یافتن** məşhur olmaq; şöhrətlənmək; yayılmaq

شهرت پرست [şohrətpərəst] şöhrətpərəst

شهرت پرستی [şohrətpərəsti] şöhrətpərəstlik

شهرت طلب [şohrəttələb] *bax* **شهرت پرست**

شهردار [şəhrdar] şəhər meri, şəhər bələdiyyəsi; şəhərin icra başçısı

شهرداری [şəhrdari] şəhər bələdiyyə idarəsi

شهرسازی [şəhrsazi] şəhərsalma

شهرستان [şəhrestan] şəhristan (*İranda inzibati bölgü*); əyalət, rayon

شهرنشین [şəhrneşin] şəhər sakini, şəhərli

شهره [şohre] 1) məşhurluq, adsan; 2) *bax* **مشهور**

شهری [şəhri] 1) *bax* **شهر نشین**; 2) şəhərə aid, şəhərə məxsus

شهریار [şəhriyar] hakim, hökmdar, şah

شهریور [şəhrivər] şəhrivər (*İranda şəmsi təqvimi ilə altıncı ay: 23 avqust – 22 sentyabra uyğun gəlir*)

شهلا [şəhla] tünd-mavi gözlü

شهله [şəhle] 1) şındır, ət şındırı; 2) çox yağlı ət

شهوانی [şəhəvani] şəhvətli, ehtiraslı

شهوت [şəhvət] *c.* **شهوات** [şəhəvat] 1) şəhvət, ehtiras; 2) bərk istək, şiddətli arzu

شهوت انگیز [şəhvətəngiz] şəhvətli, şəhvət oyadan, ehtiraslı

شهوت پرست [şəhvətpərəst] şəhvətpərəst, şəhvətli, ehtiraslı

شهوت پرستی [şəhvətpərəsti] şəhvətpərəstlik, şəhvət, ehtiras

شهوت ران [şəhvətrani] *bax* **شهوت پرست**

شهوت رانی [şəhvətrani] *bax* **شهوت پرستی**

شهوی [şəhəvi] *bax* **شهوانی**

شهید [şəhid] *c.* **شهدا** [şohəda] şəhid; **شدن ~** şəhid olmaq; **کردن ~** şəhid etmək, öldürmək

شهیر [şəhir] məşhur, tanınmış, görkəmli

شئ [şe'y] *c.* **اشیا** [əşya] şey, əşya

شیاد [şəyyad] fırıldaqçı; kələkbaz, yalançı; şarlatan

شیادی [şəyyadi] fırıldaqçılıq, kələkbazlıq, şarlatanlıq; **کردن ~** fırıldaqla məşğul olmaq

شیاطین [şəyatin] *t.* **شیطان**

شیب [şib] *bax* **نشیب**

شیب دار [şibdar] *bax* **نشیب دار**

شیپور [şeypur] şeypur; **زدن ~** şeypur çalmaq

شیپورچی [şeypurçi] şeypurçu, şeypurçalan

شیپورزن [şeypurzən] *bax* **شیپورچی**

شیخ [şeyx] *c.* **شیوخ** [şoyux] // **مشایخ** [məşayex] 1) qoca, ağsaqqal, hörmətli şəxs; 2) qəbilə başçısı; 3) dini (*sufi*) təlim başçısı, şeyx

شیدا [şeyda] bərk sevən, dəlicəsinə vurğun; məftun

شیدایی [şeydayi] bərk sevmə, dəlicəsinə vurğunluq, bərk məftunluq

شیر [şir] I süd; **استریلیزه ~˙** sterilizə edilmiş süd; **بریده ~˙** çürümüş süd; kəsmik; **پاستوریزه ~˙** pasterizə edilmiş süd; **خشک ~˙** quru süd; **~ خوردن** a) süd içmək; b) əmmək (*döşü*); **~ دادن** əmizdirmək; **~ دوشیدن** süd sağmaq; **از ~ بریدن (گرفتن)** süddən kəsmək; ◊ **به ~ زاییدن** dalbadal doğmaq (*uşağın südü kəsilməmiş doğmaq*)

شیر [şir] II şir, aslan; **ماده ~˙** dişi aslan; **نر ~˙** erkək aslan; **درفش ~˙** (علم) bayrağın üstündəki şir şəkli

شیر [şir] III kran, ventil, lülək

شیرازه [şiraze] sap, qaytan, bafta, şərid (*kitab səhifələrini cildə tikən*)

شیراسا [şirasa] aslan (*şir*) kimi güclü

شیربچه [şirbəç(ç)e] aslan (*şir*) balası

شیربرنج [şirberenc] südlü sıyıq

شیربها [şirbəha] süd pulu, başlıq

شیرپاک خورده [şirepakxorde] halalsüdəmmiş, düz, təmiz (*adam*)

شیرجه [şirce] suya başvurma; suya tullanma, suya cumma

شیرخوار [şirxar] südəmər; **~ کودک ˙** südəmər uşaq

شیرخوارگاه [şirxarqah] körpələr evi

شیردل [şirdel] igid, cəsarətli, cəsur

شیردلی [şirdeli] igidlik, cəsarət, şücaət

شیردوش [şirduş] sağıcı, südsağan; **~ ماشین ˙** südsağan aparat

شیردوشی [şirduşi] süd sağma

شیرده [şirdeh] südverən; **~ گاو ˙** südverən inək

شیرزن [şirzən] qəhrəman qadın

شیرگرم [şirgərm] istitəhər, ilıq

شیرگرم کن [şirgərmkon] südqızdıran

شیرمال [şirmal]: **~ نان ˙** süd və şəkərlə bişirilən çörək

شیرمرد [şirmərd] cəsur, igid; qəhrəman (*kişi*)

شیرمست [şirməst] doyunca süd əmmiş (*keçi və ya qoyun balası*); ◊ **~ شدن** burnunu dik tutmaq

شیروانی [şirvani] dam örtüyü (*dəmirdən və ya sinkdən*)

شیره [şirəl] şirə; **~ انگور ˙** üzümsirəsi; 2) doşab; ◊ **~ کشیدن** tiryək çəkmək; **~ پس دادن** şirə vermək; **~ به سر کسی مالیدن ˙** birinin başını yağlamaq (*tovlamaq*); **~ کسی را ˙ کشیدن** birini sıxıb suyunu çıxartmaq

شیره ای [şirei] 1) narkoman; 2) zəif, qüvvəsiz; 3) bir işə yaramayan

شیره پز [şirepəz] şirəbişirən

شیره دار [şiredar] şirəli

شیره کش [şirekeş] *bax* **شیره ای 1)**

شیری [şiri] 1) süd; **~ دندان ˙** süd dişi; **~ غدد ˙** süd vəzisi; 2) südəmər; **~ بچه ˙** südəmər uşaq; 3) südrəngli; 4) südsatan

شیرین [şirin] 1) şirin; **~ آب ˙** içməli su; **~ صحبت ˙** şirin söhbət; 2) məlahətli, xoşagələn; **~ بچه ˙** qəşəng (*suyuşirin*) uşaq; **~ شدن** şirinləşmək; **~ کردن** şirinləşdirmək

شیرین زبان [şirinzəban] gözəl danışan, şirindilli, natiq

شیرین زبانی [şirinzəbani] şirindillilik, gözəl danışma, natiqlik

شیرین سخن [şirinsoxən] *bax* **شیرین زبان**

شیرین کار [şirinkar] 1) şən; zarafatcıl; 2) hazırcavab

شیرین کاری [şirinkari] 1) şadlıq, şənlik; 2) hazırcavablıq

شیرین کام [şirinkam] uğurlu, xoşbəxt

شیرین کلام [şirinkəlam] *bax* **شیرین زبان**

شیرین گفتار [şirinqoftar] *bax* **شیرین زبان**

شیرین مزه [şirinməze] şirintəhər

شیرینی [şirini] *c.* **شیرینیجات** [şirinicat] 1) şirni, şirniyyat; 2) şirinlik, cazibədarlıq, məlahət; **پختن ~** şirni bişirmək

شیرینی پز [şirinipəz] konditer, şirnibişirən

شیرینی پزی [şirinipəzi] şirni istehsalı; **~ کارخانه ˙** şirniyyat (*konditer*) fabriki

شیرینیجات [şirinicat] *t.* **شیرینی 1)**

شیرینی خوری [şirinixori] 1) nişanlanma; 2) şirniyyat qabı

شیرینی فروشی [şiriniforuşi] qənnadı (*şirniyyat*) dükanı

شیشک [şişək] şişək, biryaşlı qoyun

شیشلیک [şişlik] şişlik, kabab

شیشه [şişe] 1) şüşə; **~ پنجره (جام) ˙** pəncərə şüşəsi; **~ عینک ˙** eynək şüşəsi; 2) pəncərə; vitrin; **~ مغازه ˙** mağazanın vitrini; **~ انداختن** şüşə salmaq

شیشه آلات [şişealat] şüşə məmulatı

شیشه انداز [şişeəndaz] şüşəsalan

شیشه بر [şişebor] 1) şüşəkəsən; 2) *bax* **شیشه انداز**

شیشه دل [şişedel] 1) səmimi, təmizürəkli; 2) tezinciyən

شیشه سازی [şişesazi] şüşə istehsalı; **~ کارخانه ˙** şüşə fabriki

شیشه کاری [şişekari] şüşəsalma işləri; **~ ساختمان ˙** tikintinin şüşəsalma işləri

شیشه گر [şişegər] şüşə düzəldən

شیشه گری [şişegəri] şüşə düzəltmə

شیطان [şeytan] *c.* **شیاطین** [şəyatin] 1) şeytan, çin, əcinnə; 2) *məc.* hiyləgər, zirək; 3) dəcəl; **~ بچه ˙** dəcəl uşaq; ◊ **~ را درس دادن** şeytana papaq (*papış*) tikmək; **~ زیر جلش رفته ˙** şeytan yoldan çıxarıb

شیطان صفت [şeytansefət] 1) şeytansifətli; dəhşətli, qorxunc; 2) qəzəbli, hirsli

شیطانی [şeytani] 1) şeytanlıq; 2) hiyləgər, məkrli; 3) dəcəllik; **~ کردن** a) dəcəllik etmək; b) şeytanlıq etmək; ◊ **~ شدن** *tib.* pollusiyada olmaq (*yuxuda*), şeytan aldatmaq

شیطنت [şeytənət] *bax* **شیطانی**

شیعه [şie] şiə; **~ اهل ˙** şiə; şiələr

شیفت [şift] növbə (*iş növbəsi*)

شیفتگی [şiftegi] 1) vurğunluq; aludəçilik (*sevgidən*); 2) heyranlıq, məftunluq, təəccüb

شیفتن [şiftən] 1) çox sevmək, dəlicəsinə sevmək, dəli-divanə olmaq; 2) təəccüblənmək, heyrətlənmək

شیفته [şifte] **شیفتن** *f.-nin k.z.f.sif.*; 1) vurulmuş; 2) heyran olmuş, heyrətə gəlmiş; **~ شدن** *bax* **شیفتن 1)**; **~ کردن** heyran etmək; məftun etmək

شیفتی [şifti] növbəli (*iş*)

شیفر [şifr] 1) nömrə, rəqəm; 2) şifr

شیک [şik] gözəl, qəşəng; yaraşıqlı, cəlbedici, valeheduci

شیک پوش [şikpuş] dəbli geyinən

شیک پوشی [şikpuşi] dəblə geyinmə
شیکی [şiki] gözəllik; zəriflik
شیلات [şilat] balıqçılıq; ~ **شرکت** balıqçılıq şirkəti
شیمی [şimi] kimya
شیمیایی [şimyayi] kimyəvi; ~ **مواد** kimyəvi maddələr
شیمی دان [şimidan] kimyaçı, kimyaçı alim
شیمیست [şimist] *bax* **شیمی دان**
شیوا [şiva] gözəl (*söz*); valehedici (*çıxış*)
شیوایی [şivayi] gözəl danışma, bəlağətli danışma
شیوع [şoyu'] yayılma (*xəbər*); ~ **داشتن** yaymaq; ~ **یافتن** yayılmaq
شیون [şivən] şivən, qışqırıq; inilti; ~ **کردن** hönkürmək, bərkdən ağlamaq; ~ **کشیدن** şivən qoparmaq
شئون [şoun] *t.* **شأن**; 1) şan-şöhrət, ad-san; ~ **کشور** ölkənin şöhrəti; 2) sahə; ~ **مختلف زندگی** həyatın müxtəlif sahələri
شیوه [şive] 1) şivə, üsul; 2) üslub; 3) adət, ənənə; 4) naz-qəmzə, işvə
شیوه کار [şivekar] *bax* **شیوه گر**
شیوه گر [şivegər] 1) naz-qəmzəli, işvəli; 2) hiyləgər, yalançı
شیوه گری [şivegəri] 1) naz-qəmzə, işvə; 2) hiyləgərlik;
شیهه [şeyhe] kişnəmə (*at*); ~ **زدن (کشیدن)** kişnəmək

ص

ص [sad] fars əlifbasının on yeddinci hərfi; əbcəd hesabında 90 rəqəmini ifadə edir
صابر [saber] səbirli, dözümlü; təmkinli
صابون [sabun] sabun; ~ **دست و روشویی** əl-üz (*tualet*) sabunu; ~ **رخت شویی (لباس شویی)** paltar sabunu; ~ **زدن** sabunlamaq; ◊ ~ **زیر پای کسی مالیدن** badalaq qurmaq, kələk gəlmək, aldatmaq
صابون پز [sabunpəz] sabunbişirən
صابونی [şabuni] 1) sabunlu, sabunlanmış; ~ **آب** sabunlu su; ~ **دست** sabunlu əl; 2) sabunbişirən, sabun hazırlayan; sabunsatan; 3) *bot.* sabunotu; ~ **کردن** sabunlamaq
صاچمه [saçme] *bax* **ساچمه**
صاحب [saheb] I 1) sahib, yiyə; 2) ağa; ~ **شدن** sahib olmaq, yiyələnmək
صاحب [saheb] II *c.* **اصحاب** [əshab] // **صحابه** [səhabe] dost, yoldaş, arxadaş
صاحب اختیار [sahebextiyar] ixtiyar sahibi, səlahiyyətli şəxs
صاحب اعتبار [sahebe'tebar] etibarlı, inanılmış, hörmətli
صاحب اقتدار [sahebeğtedar] iqtidar sahibi, güclü, qüdrətli
صاحب الزمان [sahebozzəman] zamanın sahibi (*şiələrin on ikinci imamının epiteti*)
صاحب امتیاز [sahebemtiyaz] 1) konsessiya sahibi; 2) qəzet, jurnal sahibi; 3) imtiyazlı, imtiyaz sahibi
صاحب جمال [sahebcəmal] gözəl, qəşəng, yaraşıqlı
صاحب خانه [sahebxane] ev sahibi, ev yiyəsi
صاحب دل [sahebdel] 1) dindar, mömin; 2) ağıllı, müdrik; 3) igid, cəsur
صاحب ذوق [sahebzouğ] 1) istedadlı; 2) zövq əhli, zövqlü
صاحب قران [sahebğeran] 1) xoşbəxt, bəxtiyar (*Zöhrə və Müştəri bürcləri altında doğulan*); 2) padşahların epiteti (*titulu*)
صاحب قلم [sahebğələm] 1) katib, mirzə; 2) yazıçı, qələm sahibi (*əhli*)
صاحب کار [sahebkar] sahibkar
صاحب کتاب [sahebketab] *din.* 1) kitab sahibi (*peyğəmbərlərin epiteti*); 2) müqəddəs kitabları olan dinlər
صاحب کمال [sahebkəmal] savadlı, ağıllı-kamallı; alim
صاحب مقام [sahebməğam] yüksəkvəzifəli, yüksəkrütbəli
صاحب منصب [sahebmənsəb] 1) zabit; 2) məmur, vəzifəli şəxs
صاحب نظر [sahebnəzər] 1) gözüaçıq, uzaqgörən; 2) alicənab, xeyirxah; 3) mömin, dindar
صاحبی [sahebi] irigiləli qırmızı rəngli üzüm növü
صادر [sader] 1) əmələ gələn, zahir olan; baş verən; 2) göndərilən (*xaricə*); 3) nəşr olunan, çap olunan; ~ **شدن** a) nəşr olunmaq; b) göndərilmək (*xaricə*)
صادرات [saderat] ixracat, xaricə göndərilən mallar
صادراتی [saderati] ixracata aid, ixracat üçün; ~ **کالاهای** ixracat malları, ixrac olunan mallar

صادر کننده [saderkonənde] 1) ixrac edən; ~ نفت کشورهای neft ixrac edən ölkələr; 2) sənədi yazan, sənədi verən

صادق [sadeğ] sədaqətli, səmimi; doğruçu, doğrucul, düz danışan

صادقانه [sadeğane] 1) sədaqətlə, səmimiyyətlə; 2) sədaqətli, səmimi

صاعد [saed] qalxan, yüksələn, ucalan

صاعقه [saeğe] *c.* صواعق [səvaeğ] ildırım, şimşək; زدن ~ ildırım vurmaq

صاف [saf] 1) saf, aydın, təmiz, şəffaf; ~ [illegible] [illegible], 2) hamar, düz; ~ راه düz yol

[illegible] [safošade] *dan.* صاف و ساده sadə-lövh, səmimi; ürəyiaçıq

صافی [safi] 1) saflıq, təmizlik; 2) hamarlıq, düzlük; 3) süzgəc, filtr

صالح [saleh] 1) xeyirxah, ədalətli; 2) ləyaqətli; layiq; 3) sərişləli, bacarıqlı; etibarlı; 4) düz və təmiz (*adam*), əməlisaleh

صامت [samet] 1) susan, sakit, dinməz; 2) *dil.* samit (*səs*)

صانع [sane'] 1) *c.* صنائع [sonna'] 1) xəlq edən, Yaradan, Allah; 2) istehsal edən, düzəldən, quran

صایب [sayeb] düz, dəqiq; hədəfə yönəldilmiş; ~ رای düzgün fikir

صایبه [sayebe] *bax* صایب

صبا [seba] I xəfif və mülayim külək

صباء [seba II // seba] 1) gənclik, uşaqlıq; 2) uşaqlıq hərəkətləri

صباح [sobah] sübh, səhər

صباحت [sobahet] gözəllik, incəlik, zərifliik, mədahət

صباغ [sobbağ] boyaqçı

صباغی [səbbağı] boyaqçılıq, boyaqçılıq işi

صباوت [səbavət] 1) uşaqlıq, yeniyetməlik; 2) gənclik

صبح [sobh] *c.* اصباح [əsbah] sübh, səhər; زود ~ sübh tezdən; صادق ~ dan yeri sökülən vaxt

صبحانه [sobhane] səhər yeməyi

صبحدم [sobhdəm] sübh tezdən

صبحگاه [sobhqah] səhər vaxtı

صبر [səbr] səbir, dözüm; taqət; داشتن (کردن) ~ səbir etmək, dözmək; gözləmək

صبغه [sebğe] rəng, boya

صبور [səbur] *bax* صابر

[illegible] [səburi] səbirli olma, dözümlülük; təmkinlilik; کردن ~ səbir etmək, dözmək

صبوحی [səbuhi] səhər şərab içmə; زدن ~ səhər şərab içmək

صبی [səbi] *c.* صبیان [sebyan] oğlan, oğlan uşağı; uşaq

صبیح [səbih] gözəl, incə, zərif

صبیه [səbiyye] *c.* صبایا [səbaya] qız; qız uşağı

صحابت [səhabət] 1) ünsiyyət; 2) müsahib; həmsöhbət; 3) *din.* Məhəmməd peyğəmbərin (*s.*) səhabələri; [illegible] [illegible] müşayiət etmə; ~ به müşayiəti ilə

صحابه [sohabe] I *t.* صاحب

صحابه [sohabe] II *bax* صحابت

صحابی [sohabi] *bax* صحابت 3)

صحاف [sohhaf] cildçi

صحافی [sohhafi] 1) cildləmə; 2) cildxana; cildçi sexi

صحبت [sohbət] söhbət, söhbət etmə; danışıq, danışma; کردن ~ söhbət etmək; danışmaq

صحت [sehhət] 1) səhhət, sağlamlıq; 2) düzlük, doğruluq, gerçəklik; داشتن ~ a) sağlam olmaq; b) düzgün olmaq, həqiqətə uyğun olmaq; ~ یافتن (پذیرفتن) sağalmaq; ◊ آب گرم ~ həmişə təmizlikdə

صحت بخش [sehhətbəxş] sağaldan, sağlamlaşdıran, yaxşılaşdıran

صحرا [səhra] *c.* صحاری [səhari] səhra, çöl, çöllük, düz, düzən

صحراگرد [səhragərd] 1) köçəri; 2) avara

صحراگردی [səhragərdi] 1) köçərilik; 2) avara həyat; کردن ~ a) köçərilik etmək; b) avara həyat sürmək

[illegible] [illegible] köçəri həyat sürən

صحرانورد [səhrənəvərd] səyyah

صحرایی [səhrayi] səhra, səhraya aid, çöl aid; گل ~ səhra gülü

صحف [sohof] *t.* صحیفه 2); انبیا ~ peyğəmbərlərə göndərilən müqəddəs kitablar

صحن [səhn] sahə, meydan; خانه ~ evin həyəti

صحنه [səhne] 1) səhnə; تئاتر ~ teatr səhnəsi; 2) meydan, sahə; جنگ ~ müharibə meydanı; به ~ آمدن səhnələşdirilmək, səhnəyə (*tamaşaya*) qoyulmaq; به ~ آوردن səhnələşdirmək, səhnəyə (*tamaşaya*) qoymaq

صحنه آرایی [səhnearayi] dekorasiya rəssamlığı

صحنه سازی [səhnesazi] 1) *bax* صحنه آرایی; 2) səhnələşdirmə

صحنه گردان [səhnegərdan] rejissor; quruluşçu, tərtibatçı

صحه [sehhe] imza, qol; təsdiqləmə; گذاشتن ~ qol çəkmək; təsdiqləmək, təsdiq etmək

صحیح [səhih] 1) doğru, düzgün; 2) sağ, sağ-salamat; وسالم ~ sağ və salamat

صحیح العمل [səhiholəməl] əməlisaleh, təmiz (*adam*)

صحیفه [səhife] *c.* صحایف [səhayef] 1) səhifə, vərəq; 2) *c.* صحف [sohof] kitab

صحیه [səhiyye] 1) səhiyyə; səhiyyə şöbəsi; 2) gigiyena, təmizlik

صخره [səxre] qaya

صد [səd] yüz; ~ در ~ büsbütün, tam, tamam-kamal, yüz faiz

صدا [seda // səda] səs, avaz, səda, آب ~ suyun səsi (*şırıltısı*); دادن ~ (زدن) səsləmək, çağırmaq

صدابر [sedabər] mikrofon

صدابرداری [sedabərdari] səsyazma

صدادار [sedadar] 1) səsli; 2) *dil.* cingiltili (*samit*)

صدارت [sədarət // sedarət] 1) sədrlik, sədrlik etmə; 2) kansler vəzifəsi; 3) baş nazir vəzifəsi

صداشناسی [sedaşenasi] fonetika

صداع [soda'] baş ağrısı

صداقت [sədağət // sedağət] 1) həqiqət; düzlük; səmimilik; 2) sədaqət, sadiqlik

صداگیر [sedagir] səstutan, səsgötürən; səsazaldan (*cihaz*)

صدد [sodəd] niyyət, məqsəd, qəsd; در آمدن ~ niyyət etmək, qərar almaq; məqsəd qoymaq

صدر [sədr] *c.* صدور [sodur] 1) baş; sədr; جلسه ~ iclasın sədri 2) qabaq tərəf; 3) başlanğıc; 4) sinə, döş; 5) başlıq, sərlövhə; 6) yuxarı baş; hörmətli yer; مجلس ~ məclisin yuxarı başı

صدر اعظم [sədrə'zəm] kansler; baş nazir

صدرنشین [sədrneşin] 1) sədrlik edən (*iclasda*); yuxarıda (*başda*) oturan (*iclasda*); 2) rəis, başçı; yüksəkvəzifəli şəxs

صدساله [sədsale] 1) yüzillik, bir əsrlik; 2) yüzyaşlı; 3) yüzillik yubiley

صدف [sədəf] sədəf

صدق [sedğ] *bax* **صداقت**; **دعوی ~ٔ** iddianın düzgünlüyü; **کردن ~** a) uyğun gəlmək; b) düz olmaq

صدقه [sədəğe] sədəqə, ehsan, nəzir, nəzir vermə; qurban vermə; **خواستن ~** sədəqə istəmək; **دادن ~** sədəqə vermək

صدم [sədom] yüzüncü

صدمه [sədəme] *c.* **صدمات** [sədəmat] 1) korlanma, xarab olma, sınma; 2) zədə, ziyan, zərər; **خوردن (دیدن) ~** a) korlanmaq; b) zədələnmək; **رساندن ~** a) korlamaq; b) ziyan vurmaq, zərər vurmaq

صدمین [sədomin] *bax* **صدم**

صدور [sodur] I *t.* **صدر**

صدور [sodur] II 1) buraxma, buraxılma; nəşr etmə; **سهام جدید ~ٔ** yeni səhmlərin buraxılması; 2) vermə, verilmə, təqdim etmə; **وکالت نامه ~ٔ** vəkalətnamənin verilməsi; **یافتن ~** buraxılmaq, nəşr olunmaq

صده [sədə] *bax* **سده**

صدی [sədi] yüzlük, yüz tümənlik (*əskinas, pul*)

صدیق [sədiğ // seddiğ] 1) doğruçu, düz danışan; 2) sədaqətli, etibarlı; inanılmış; **~ دوست** sədaqətli dost

صراح [sərah] 1) aydın, şəffaf, təmiz; 2) düz, doğru (*söz*)

صراحت [sərahət] 1) səmimilik, ürəyiaçıqlıq; 2) aydınlıq (*fikir*); **داشتن ~** a) səmimi olmaq; b) açıq etiraf etmək

صراحتاً [sərahətən] 1) açıq, səmimi; 2) qəti, ciddi

صراحی [sorahi] sürahi, şüşə; kuzə, qrafin

صراط [serat] yol; **مستقیم ~ٔ** düz (*doğru*) yol

صراف [sərraf] sərraf, pul dəyişən; ◊ **سخن ~ٔ** söz sərrafı, söz ustası

صرافت [sərafət] məqsəd, niyyət, qəsd; fikir; **افتادن ~ به** niyyət etmək, fikrə düşmək; ◊ **از ~ٔ کسی (چیزی) افتادن** fikirdən dönmək, maraq göstərməmək; **از ~ٔ چیزی انداختن** fikirdən döndərmək; **به ~ٔ کسی (چیزی) انداختن** fikrə salmaq

صرافت [serafət] *bax* **صرافی**

صرافی [sərrafi] 1) puldəyişmə, pul xırdalama; 2) sərraflıq peşəsi

صرصر [sərsər] bərk (*şiddətli*) və soyuq külək

صرع [sər'] *tib.* epilepsiya

صرف [sərf] 1) xərcləmə, sərf etmə; 2) hallanma, təsriflənmə; **اسم ~ٔ** ismin hallanması; **فعل ~ٔ** felin təsriflənməsi; 3) *qram.* morfologiya; **و نحو ~** morfologiya və sintaksis; **~ شدن** a) sərf olunmaq; xərclənmək; b) yeyilmək; c) *qram.* təsriflənmək; **~ فرمودن (کردن)** a) sərf etmək, xərcləmək; b) yemək; c) *qram.* təsrifləndirmək; ◊ **~ نظر کردن** imtina etmək, vaz keçmək, boyun qaçırmaq

صرف [serf] sırf, aşkar, açıq-aşkar; **~ دشمنی** açıq-aşkar düşmənçilik

صرفا [serfən] sırf, xalis; fəqət, yalnız, ancaq, təkcə

صرفه [sərfe] fayda, xeyir, qazanc, mənfəət

صرفه جو [sərfecu] qənaətcil, qənaətkar

صرفه جویانه [sərfecuyane] 1) qənaətlə, qənaətcilliklə; 2) *bax* **صرفه جو**

صرفه جویی [sərfecuyi] qənaət, qənaətcillik, qənaətkarlıq; **کردن ~** qənaət etmək, qənaətkarlıq etmək

صرفی [sərfi] 1) qrammatik; morfoloji; **~ قواعدٔ** morfoloji qaydalar; 2) *c.* **صرفیون** [sərfiyyun] qrammatika mütəxəssisləri

صریح [sərih] 1) açıq, aydın, aşkar; açıq-aşkar; 2) *qram.* vasitəsiz; **~ مفعول و متممٔ** vasitəsiz tamamlıq

صریحاً [sərihən] açıqcasına, aşkarcasına

صریح اللهجه [səriholləhce] açıq-açığına danışan; üzə deyən

صعب [sə'b] çətin, ağır; sərt, bərk

صعب الحصول [sə'bolhosul] çətin ələ gələn, çətinliklə əldə edilən, aztapılan, nadir

صعب العبور [sə'bolobur] çətin keçilən, çətinliklə keçilə bilən; **~ راهٔ** çətin keçilən yol

صعب العلاج [sə'boləlac] çətin müalicə olunan (*xəstəlik*)

صعوبت [soubət] çətinlik, ağırlıq; sərtlik, bərklik

صعود [soud] qalxma, çıxma (*yuxarı*); yüksəlmə, yüksəyə qalxma; **کردن ~** qalxmaq, çıxmaq (*yuxarı*); yüksəlmək, yüksəyə qalxmaq

صعودی [soudi] üzüyuxarı çıxan, yüksəlişdə olan; **~ حرکتٔ** yuxarıya doğru hərəkət (*quşun*)

صعوه [sə've] *zool.* alacəhrə (*quş*)

صغر [seğər] azlıq; kiçiklik; uşaqlıq; **سن ~ٔ** yaşın azlığı

صغرا [soğra] ən kiçik (*qız*)

صغری [soğra] *bax* **صغرا**

صغیر [səğir] 1) kiçik, kiçikyaşlı; 2) *c.* **صغار** [seğar] həddi-büluğa çatmamış

صغیره [səğire] *c.* **صغایر** [səğayer] 1) kiçik günah; 2) *bax* **صغیر 1)**

صف [səf(f)] *c.* **صفوف** [sofuf] sıra, cərgə; düzüm, düzülüş; **~ بستن (کشیدن)** sıraya düzülmək

صفا [səfa] 1) saflıq, təmizlik, şəffaflıq; 2) təzəlik; 3) zövq, ləzzət; **~ آوردن** səfa gətirmək (*sevindirmək*); **~ دادن** sevindirmək, şadlandırmaq; **~ داشتن** səmimi olmaq

صفابخش [səfabəxş] səfa bağışlayan, zövq verən

صف آرایی [səfarayi] 1) sıraya düzülmə (*əsgərlərin*); 2) döyüş hazırlığı

صفاق [sefağ] *anat.* periton (*qarın boşluğu divarlarını və üzvlərini örtən seroz qişa*); **~ ورمٔ** *tib.* peritonit

صف بندی [səfbəndi] *bax* **صف آرایی 1)**

صفت [sefət] 1) *c.* **صفات** [sefat] sifət, keyfiyyət, xüsusiyyət; **صفاتٔ پسندیده** tərifəlayiq keyfiyyətlər; 2) *qram.* sifət

صفحه [səfhe] *c.* **صفحات** [səfəhat] 1) səhifə, vərəq; **عنوان ~ٔ** titul vərəqi; 2) təbəqə, lövhə; ◊ **~ گذاشتن** uydurmaq, gopa basmaq

صفحه بندی [səfhebəndi] *poliqr.* səhifələmə, səhifə bağlama

صفر [səfər] səfər ayı (*hicri-qəməri ilinin ikinci ayı*)

صفر [sefr] *c.* **اصفار** [əsfar] sıfır

صفرا [səfra] öd; ~ کیسه öd kisəsi; ◊ به سر زدن ~ qan başına vurmaq, bərk əsəbiləşmək; ~ را به لیمویی شکستن qəzəbi söndürmək

صفرابر [səfrabor] ödqovucu

صفرازده [səfrazəde] 1) öd kisəsindən əziyyət çəkən; 2) sarılıq tutmuş; rəngi saralmış

صفراوی مزاج [səfraviməzac] tündməzac, tündxasiyyət, ətiacı, tez hirslənən

صفوت [səfvət] ən yaxşı, ən yüksək; seçilmiş, ən təmiz (*insan*)

صفی [səfi] *c.* اصفیا [əsfiya] 1) seçilmiş; ən yaxşı; ən əziz (*dost*); 2) saf, təmiz, səmimi (*dost, insan*)

صفیر [səfir] 1) fit; vıyıltı; ~ گلوله güllə vıyıltısı; 2) civilti (*quş*); ~ زدن a) fit çalmaq; b) cikkildəmək (*quş*); c) fitlə səsləmək

صفیری [səfiri] *dil.* cingiltili (*səs*)

صفیه [səfiyye] *bax* صفی

صلا [səla] çağırış, dəvət, elan etmə; ~ در دادن (زدن) çağırmaq, dəvət etmək

صلابت [səlabət] möhkəmlik, əyilməzlik, bərklik

صلات [səlat] *c.* صلوات [sələvat] dua, ibadət; namaz

صلات [selat] *t.* صله

صلاح [səlah] 1) məqsədəuyğunluq; 2) xeyirxahlıq; 3) məsləhət; ~ دانستن (دیدن) a) məqsədəuyğun saymaq; b) məsləhət bilmək

صلاحدید [səlahdid] 1) məsləhət; 2) məqsədəuyğunluq

صلاحیت [səlahiyyət] səlahiyyət; ~ عدم səlahiyyətsizlik

صلاحیت دار [səlahiyyətdar] səlahiyyətli; ~ مقامات səlahiyyətli orqanlar

صلاة [səlat] *bax* صلات [səlat]

صلب [səlb] 1) çarmıxa çəkmə; 2) edam etmə

صلب [solb] I möhkəm, bərk

صلب [solb] II 1) onurğa, bel sütunu; 2) rüşeym, embrion; ailə; nəsil

صلبی [solbi] doğma; ~برادر doğma qardaş

صلبیه [solbiyye] *anat.* sklera (*göz almasının qeyri-şəffaf xarici qişası*)

صلح [solh] sülh; barışıq; əminamanlıq; ◊ ~ و مصالحه kompromis

صلح جو [solhcu] sülhsevər, sülh tərəfdarı

صلح طلب [solhtələb] *bax* صلح جو

صلوات [sələvat] 1) *t.* صلات [səlat]; 2) salavat; ~ فرستادن salavat çevirmək

صله [sele] c. صلات [selat] 1) hədiyyə, sovqat, bəxşiş; ~ شعر mədhiyyəyə görə hədiyyə; 2) əlaqə, bağlılıq; ~ رحم qohumluq əlaqəsi; ~ رحم دادن nəzir-niyaz vermək

صلیب [səlib] xaç; ~ سرخ Qırmızı Xaç (*cəmiyyət*); ~ اهل xristianlar; ◊ به ~ کشیدن çarmıxa çəkmək

صماخ [semax] *anat.* səs pərdəsi; ~ پرده qulaq pərdəsi

صمت [səmt // somt] 1) susma; 2) fəallıq

صمد [səməd] əbədi, həmişəyaşar (*Allahın epiteti*)

صمغ [səmğ] qatran

صمیم [səmim] 1) təmiz, saf; 2) orta, mərkəz, iç, özək, məğz; ◊ ~ تابستان yayın ortası; از ~ قلب səmimi qəlbdən, ürəkdən, təmiz ürəklə, canla-başla

صمیمانه [səmimane] 1) səmimiyyətlə, sədaqətlə; 2) səmimi, sədaqətli

صمیمی [səmimi] *bax* صمیمانه (2); ~ دوست səmimi dost

صمیمیت [səmimiyyət] səmimilik, sədaqət; ~ داشتن səmimi olmaq

صناعت [sənaət // senaət] *c.* صناعات [sənaat] *bax* صنعت

صنایع [sənaye'] *t.* صنعت; ~ سبک yüngül sənaye; ~ سنگین ağır sənaye; ~ علم poetika

صنج [sənc] *bax* سنج

صندل [səndəl] I səndəl (*ayaqqabı* növü)

صندل [səndəl] II *bot.* səndəl; ~ درخت səndəl ağacı

صندلی [səndəli] stul; kürsü; kreslo; ~ تاشو qatlanan stul; ~ چرخان fırlanan kreslo; ~ دسته دار qoltuqlu kreslo; ~ راحتی yumşaq kreslo

صندوق [sənduğ] 1) sandıq, mücrü; 2) qutu; ~ پست poçt qutusu; 3) kassa; ~ پس انداز əmanət kassası; 4) şkaf, seyf; ~ نسوز yanmayan şkaf (*seyf*)

صندوقچه [sənduğçe] sandıqça, qutu; ~ رأی گیری səsvermə qutusu

صندوق خانه [sənduğxane] kiçicik anbar (*evdə*)

صندوقدار [sənduğdar] kassir, xəzinədar

صُنع [sənʿ] 1) yaradıcılıq; 2) düzəltmə, qurma, yaratma, istehsal etmə; 3) gündəlik çörək

صنعت [sən'ət] *c.* صنایع [sənaye'] 1) sənət, peşə, ixtisas; ~ جنگی hərbi sənət; 2) istehsal, sənaye; ~ دستی kustar sənaye

صنعت کار [sən'ətkar] *bax* صنعت گر

صنعت گر [sən'ətgər] sənətkar

صنعتی [sən'əti] peşə, sənət; ~ آموز شگاه peşə məktəbi

صنف [senf] *c.* صنوف [sonuf] // اصناف [əsnaf] sinif, qrup, zümrə, təbəqə; ~ پیشه وران sənətkarlar təbəqəsi

صنفی [senfi] sinfi; peşəkar; həmkar; ~ اتحادیه həmkarlar ittifaqı

صنم [sənəm] *c.* اصنام [əsnam] 1) büt; 2) sənəm

صنم پرست [sənəmpərəst] bütpərəst

صنوبر [senoubər] *bot.* sənubər; şam, ağ şam ağacı; ~ درخت sənubər ağacı

صواب [səvab] 1) ədalətli hərəkət; 2) düzgün iş, doğru hərəkət; savab

صوابدید [səvabdid] bəyənmə, düzgün sayma; rəy; məsləhət

صوابکار [səvabkar] 1) ədalətli, insaflı, düz işlər görən; 2) dindar, mömin

صوابکاری [səvabkari] 1) ədalət, insaf, düz işlər görmə; 2) dindarlıq, möminlik

صوب [soub] tərəf, istiqamət, yön, səmt; به ~ شهر şəhər istiqamətində

صوت [sout] *c.* اصوات [əsvat] səs, avaz, ton

صوت شناسی [soutşenasi] fonetika

صور [sur] buynuzdan düzəldilmiş şeypur; buynuz; ~ اسرافیل İsrafil şeypuru (*məhşər günü xəbər verəcək şeypur*)

صورت [surət] *c.* صور [sov 1) surət, üz, sifət; 2) portret, şə 3) növ, tərz; forma; 4) siyahı; 5) p tokol; ~ برداشتن siyahı tutmaq; گرفتن baş vermək, üz vermək

صورتاً [surətən] zahirən, zahiri görkəmə görə

صورت برداری [surətbərdari] ümumi siyahı hazırlama

صورت پذیر [surətpəzir] mümkün olan; həyata keçirilə bilən

صورت پرست [surətpərəst] 1) bütpərəst; 2) zahiri gözəllik aşiqi

صورت پرستی [surətpərəsti] 1) bütpərəstlik; 2) zahiri gözəlliyə vurulma, zahiri gözəlliyi sevmə

صورت جلسه [surət(e)cələse] 1) iclasın protokolu; 2) akt; **نوشتن** ~ a) protokol yazmaq; b) akt tərtib etmək

صورت حساب [surət(e)hesab] hesab, faktura; **از** ~ **خارج کردن** hesabdan silmək

صورتک [surətək] maska

صورت گر [surətgər] 1) rəssam; 2) heykəltəraş

صورتگری [surətgəri] 1) portret rəssamlığı; 2) heykəltəraşlıq

صورت مجلس [surət(e)məcles] 1) *bax* **صورت جلسه**; 2) rəsmi məlumat (*hər hansı bir hadisə haqqında*)

صورتی [surəti] çəhrayı (*rəng*)

صوری [suri] 1) zahiri, formal; 2) süni, uydurma, saxta

صوف [suf] 1) yun; 2) yun parça

صوفی [sufi] sufi, dərviş

صوفیانه [sufiyane] sufiyanə, sufi kimi, dərvişlər kimi

صوفیگری [sufigəri] sufilik; sufizm, təsəvvüf

صوفیه [sufiyye] sufilər, sufizm tərəfdarları

صولت [soulət] 1) qorxunc görkəm; heybət, zəhm, dəhşət; sərtlik; 2) qəzəb, hirs; 3) təmtəraq, əzəmət; 4) şiddət, təzyiq

صوم [soum] oruc; pəhriz

صومعه [souməe] *c.* **صوامع** [səvame'] 1) bütpərəst ibadətgahı; 2) monastır; 3) xanəgah, dərvişlərin hücrəsi

صومعه نشین [souməeneşin] monax; guşənişin, tərki-dünya

صهبا [səhba] *şair.* şərab; **زدن** ~ şərab içmək

صهیونیست [səhyunist] sionist, sionist tərəfdarı

صهیونیستی [səhyunisti] sionistlik; sionistcəsinə

صهیونیسم [səhyunism] sionizm

صیاد [səyyad] ovçu; **ماهی** ~• balıqçı

صیادی [səyyadi] 1) ovçuluq; 2) ~• **ماهی** balıqçılıq

صیام [siyam] oruc tutma

صیانت [siyanət] müdafiə, mühafizə, saxlama, qoruma; **نفس** ~• nəfsi saxlama; **کردن** ~ mühafizə etmək, qorumaq

صیت [seyt] 1) şan, şöhrət, ad-san; 2) söz-söhbət, xəbər

صیحه [seyhe] nalə, fəryad; **زدن** ~ (**کشیدن**) nalə çəkmək, fəryad qoparmaq

صید [seyd] ov; **ماهی** ~• balıq tutma; **کردن** ~ ovlamaq; tutmaq (*balıq və s.*)

صیدگاه [seydqah] ov yeri, ovlaq

صیغه [siğe] 1) siğə (*müvəqqəti evlənmə, müəyyən müddətə evlənmə*); 2) siğə yolu ilə ərə gedən qadın; 3) *qram. c.* **صیغ** [siyəğ] forma, şəkil; **جمع** ~• cəm şəkli; ~• **ماضی** keçmiş zaman şəkli; **خواندن** ~ siğə oxumaq; **شدن** ~ müvəqqəti ərə getmək; **کردن** ~ siğə etmək

صیف [seyf] yay (*fəsil*)

صیفی [seyfi] 1) yay əkini (*bostan*); 2) yaz əkini (*taxıl*)

صیفی کاری [seyfikari] 1) bağçılıq; 2) bostançılıq; tərəvəzçilik

صیقل [seyğəl] 1) pardaxlama, hamarlama, cilalama; 2) parıltı, işıltı; **دادن** ~ pardaxlamaq, cilalamaq; **خوردن** ~ pardaxlanmaq, cilalanmaq

صیقل دهی [seyğəldehi] pardaxlama, cila vermə, cilalama

صیقل گر [seyğəlgər] pardaxlayıcı, cilalayıcı

صیقل گری [seyğəlgəri] *bax* **صیقل دهی**

صیقلی [seyğəli] pardaxlanmış, cilalanmış

ض

ض [zad] fars əlifbasının on səkkizinci hərfi; əbcəd hesabında 800 rəqəmini ifadə edir

ضابط [zabet] *c.* **ضباط** [zobbat] icraçı, idarə edən, idarə başçısı; komendant; **~ خزانه** xəzinədar, kassir; **~ دادگستری** məhkəmə icraçısı

ضابطه [zabete] *c.* **ضوابط** [zəvabet] 1) qayda, qanun; 2) həddi, meyar, ölçü

ضارب [zareb] vuran, zərbə vuran, döyən

ضال [zal] yolunu azmış, yolundan çıxmış

ضاله [zale] 1) qadağan olunmuş (*kitab haqqında*); **~ کتب** qadağan olunmuş (*küfr*) kitablar; 2) *bax* **ضال**

ضامن [zamen] 1) zamin, zəmanət verən; 2) *tex.* qoruyucu; **~ تفنگ** tüfəngin qoruyucusu

ضامن دار [zamendar] qoruyan, qoruyucu; qoruyucusu olan, qəfil açılmaqdan qoruyan (*saxlayan*); **~ چاقوی** qoruyucusu olan bıçaq

ضایع [zayc'] 1) zay olmuş, korlanmış, xarab olmuş; 2) məhv olmuş, puç olmuş; itirilmiş (*vaxt*); **~ وقت** itirilmiş vaxt; **شدن ~** korlanmaq, xarab olmaq; b) məhv olmaq; itirilmək (*vaxt*); **کردن ~** a) korlamaq, xarab etmək; b) məhv etmək; itirmək (*vaxtı*)

ضایعه [zayc'e] *c.* **ضایعات** [zaycat] itki, tələfət, zərər, ziyan

ضبط [zəbt] 1) mala (*mülkə*) həbs qoyulma, müsadirə; malların müsadirə edilməsi; 2) zəbt, işğal, ələ keçirmə; **~ اراضی** ərazinin işğalı; 3) qeyd etmə, qeydiyyat; **~ صوت** səsyazma, səsyazma aparatı, maqnitofon

ضبط و ربط [zəbtorəbt] 1) əmr, göstəriş; 2) idarə etmə

ضجر [zəcer] *bax* **ضجور**

ضجرت [zocrət] 1) qüssə, kədər; 2) pərtlik, dilxorluq, peşmançılıq

ضجور [zəcur] 1) qəmli, qüssəli kədərli; 2) dilxor, peşman; 3) hirsli, qəzəbli

ضجه [zəcce] fəryad, qışqırıq, nalə, inilti; **زدن ~** fəryad qoparmaq, nalə çəkmək

ضحی [zoha] səhərçağı; günortaya qədər olan vaxt; **~ صلات** səhər ibadəti

ضخامت [zəxamət] qalınlıq; yoğunluq; **~ تخته** taxtanın qalınlığı

ضخیم [zəxim] qalın; yoğun; **~ پارچه** qalın parça

ضد [zed(d)] *c.* **اضداد** [əzdad] 1) zidd, əks; **~ بر** əleyhinə; **~ اجتماعی** cəmiyyətə qarşı olan, cəmiyyət üçün zərərli olan; **~ سم** zəhər əleyhinə, zəhərə qarşı; 2) ziddiyyət, əkslik, antaqonizm; 3) müxalif; düşmən; **~ انقلاب** inqilab düşməni

ضد و نقیض [zeddonəğiz] ziddiyyətli; paradoksal

ضدی [zeddi] *bax* **ضدیت**

ضدیت [zeddiyyət] 1) ziddiyyət, əkslik; 2) düşmənçilik; 3) fikir ayrılığı; konflikt; **داشتن ~** a) düşmənçilik etmək; b) konfliktdə olmaq, ixtilafda olmaq; zidd olmaq; **کردن ~** düşmənçilik etmək; əleyhinə çıxmaq

ضراب [zərrab] sikkəkəsən

ضرابخانه [zərrabxane] sikkəxana

ضرب [zərb] *c.* **ضرب** [zorub] 1) zərbə vurma, döymə; 2) *riyaz.* vurma; 3) dəf, zərb (*musiqi aləti*); 4) pul kəsmə; **خوردن ~** zərbə almaq; **زدن ~** zərbə vurmaq; **کردن ~** a) *riyaz.* vurmaq; b) pul kəsmək; c) *bax* **زدن ~**; ◊ **دست کسی را چشیدن ~** birinin əlinin zərbəsini dadmaq

ضرب الاجل [zərboləcəl] 1) təyin olunmuş müəyyən vaxt (*möhlət*); 2) vaxtın (*möhlətin*) çatması

ضرب المثل [zərbolməsəl] zərbi-məsəl; atalar sözləri; **آوردن (زدن) ~** zərbi-məsəl demək; **شدن ~** zərbi-məsəl olmaq

ضربان [zərəban] döyünmə, döyüntü; vurma; **قلب ~** ürək döyüntüsü; **نبض ~** nəbzin vurması; **داشتن ~** döyünmək; vurmaq

ضربت [zərbət] *c.* **ضربات** [zərəbat] 1) zərbə; 2) qəfil zərbə, hücum, həmlə; **قطعی ~** qəti zərbə; **~ گردان** zərbə taburu; **خوردن ~** zərbə almaq; **زدن ~ // وارد آوردن ~** zərbə vurmaq

ضربتی [zərbəti] zərbəli; sürətli; qəti

ضرب خانه [zərbxane] *bax* **ضرابخانه**

ضرب خور [zərbxor] *tex.* zərbəazaldan qurğu (*mexanizm*); bufer, amortizator

ضرب در [zərbdər] *riyaz.* vurma işarəsi (×)

ضرب زن [zərbzən] zərb alətində çalan

ضربه [zərbe] *bax* **ضربت**

ضربه ای [zərbei] *bax* **ضربتی**

ضربه گیر [zərbegir] 1) zərbənin qarşısını alan qurğu (*mexanizm*); 2) *tex.* bufer

ضربی [zərbi] 1) ritmik, ahəngdar; 2) günbəzşəkilli; **~ سقف** günbəzşəkilli tavan; 3) basılmış (*naxış*)

ضرر [zərər] *c.* **اضرار** [əzrar] zərər, ziyan; itki; **زدن (رساندن) ~** ziyan vurmaq; **دیدن (کشیدن) ~** zərər görmək (*çəkmək*); ◊ **به وارث رساندن ~** bədxərclik etmək

ضرور [zərur] 1) *bax* **ضرورت**; 2) *bax* **ضروری**

ضرورت [zərurət] zərurət, ehtiyac; **داشتن ~** zəruri olmaq, lazım olmaq; vacib olmaq

ضروری [zəruri] zəruri, vacib, lazımi; **~ شرایط** lazımi şərait; **است ~** lazımdır

ضروریات [zəruriyyat] ən vacib şeylər

ضریب [zərib] *c.* **ضرایب** [zərayeb] əmsal

ضریح [zərih] *c.* **ضرایح** [zərayeh] qəbir, məzar (*ali ruhani şəxsiyyətlərinə, imamlara aid olan*)

ضریع [zəri'] *anat.* sümük üstlüyü

ضعف [zə'f] zəiflik, süstlük, gücsüzlük; **حافظه ~** yaddaşın zəifliyi; **داشتن ~** zəif olmaq, gücsüz olmaq; **~ کردن** a) zəifləmək, taqətdən düşmək; b) özündən getmək, huşunu itirmək

ضعف آور [zə'favər] zəiflədən, zəiflədici

ضعیف [zəif] 1) zəif; gücsüz, taqətsiz; **~ نور** zəif işıq; 2) arıq, sısqa; 3) *c.* **ضعفا** [zəəfa] yazıq, fağır

ضعیف الاحتمال [zəifolehtemal] inanılmaz, inanılmayan, ağlabatmayan

ضعیف البصر [zəifolbəsər] zəif görən, uzağı görməyən

ضعیفی [zəifi] *bax* **ضعف**

ضلال [zəlal] *bax* **ضلالت**

ضلالت [zəlalət] 1) yanılma, azma, doğru yoldan çıxma; 2) məhv olma
ضلت [zellət] *bax* **ضلالت**
ضلیل [zəlil] yanılan, səhv edən
ضلع [zel'] *c.* **اضلاع** [əzla'] *hənd.* tərəf; **مربع چهار~ دارد** kvadratın dörd tərəfi var
ضماد [zemad] məlhəm, plastır; kompres
ضمانت [zəmanət] zəmanət, zaminlik, zamin olma; **کردن ~** zamin olmaq
ضمانت نامه [zəmanətname] zəmanət kağızı, yazılı zəmanət
ضمایر [zəmayer] *t.* **ضمیر** I, II
ضمن [zemn] 1) orta, ortada; 2) anda, əsnada; **~ در** eyni zamanda; bununla yanaşı; **~ صحبت** söhbət əsnasında, söhbət zamanı; **~ این در** buna baxmayaraq, bununla belə
ضمناً [zemnən] 1) eyni zamanda, eyni halda; 2) bunula belə
ضمنی [zemni] 1) nəzərdə tutulan; 2) əlavə, ikincidərəcəli; dolayısı ilə
ضمه [zəmme] zəmme (*ərəb əlifbasında "o" səsini ifadə edən işarə* ُ *– hərəkə* —)
ضمیر [zəmir] I *c.* **ضمایر** [zəmayer] 1) ürək, qəlb; daxili aləm (*insanın*); 2) vicdan; **~ حریت** vicdan azadlığı
ضمیر [zəmir] II *qram. c.* **ضمایر** [zəmayer] əvəzlik; **اشاره ~** işarə əvəzliyi; **پرسشی ~** sual əvəzliyi; **شخصی** şəxs əvəzliyi; **مبهم ~** qeyri-müəyyən əvəzlik; **متصل ~** bitişən (*sözə qoşulan*) əvəzlik; **مشترک ~** qayıdış əvəzliyi; **منفصل ~** bitişən əvəzlik
ضمیمه [zəmime] *c.* **ضمایم** [zəmayem] əlavə; **به کتاب ~** kitaba əlavə; **به ~ نامه** məktuba əlavə; **کردن ~** əlavə etmək
ضیا [ziya] ziya, işıq, parıltı, işartı
ضیافت [ziyafət] ziyafət, qonaqlıq; **دادن (کردن) ~** qonaqlıq vermək
ضیق [ziğ] 1) darlıq, sıxlıq; sıxıntı; **وقت ~** vaxtın azlığı; 2) yoxsulluq; kasıbçılıq; **معاش ~** pis dolanacaq (*güzəran*); əliaşağılıq; 3) simiclik, xəsislik; ◊**نفس ~** a) təngnəfəslik; töyşümə; b) *tib.* astma
ضیمران [zeymərən] *zool.* reyhan

ط

ط [ta] fars əlifbasının on doqquzuncu hərfi; əbcəd hesabında 9 rəqəmini ifadə edir
طابق [tabəğ] I *bax* **تابه**
طابق [tabəğ] II *bax* **تنباکو**
طابق النعل بالنعل [tabeğonnə'lbennə'l] düppədüz, eynilə, olduğu kimi
طارق [tareğ] 1) dan ulduzu; 2) gecə qonağı
طارم [tarəm] *bax* **تارمی**
طاس [tas] I *bax* **تاس** I
طاس [tas] II *bax* **تاس** II
طاس [tas] III *bax* **تاس** III
طاعت [taət] *c.* **طاعات** [taat] itaət, tabe olma, boyun olma; **~ اهل** itaət edən adamlar, dindar adamlar; **~ داشتن** itaət etmək, tabe olmaq
طاعت پیشه [taətpişe] 1) müti, itaətkar; 2) mömin, dindar
طاعت دار [taətdar] *bax* **طاعت پیشه**
طاعت داری [taətdari] 1) itaət; 2) ibadət
طاعون [taun] taun (*xəstəlik*)
طاعون زده [taunzəde] taun xəstəliyinə tutulmuş
طاعونی [tauni] *bax* **طاعون زده**
طاغوت [tağut] *c.* **طواغی** [təvaği] // **طواغیت** [təvağit] 1) büt; 2) cadugər; 3) şeytan; 4) dinsiz, kafir
طاغی [tağı] *c.* **طغات** [toğat] 1) qiyamçı, iğtişaşçı; 2) zülmkar hökmdar, despot
طاق [tağ] *bax* **تاق** I
طاق [tağ] *bax* **تاق** II
طاقت [tağət] taqət, dözüm, səbir, hövsələ; **اوردن ~** taqət gətirmək, dözmək; **داشتن ~** dözümü olmaq; ◊ **کسی طاق شدن ~** taqəti kəsilmək, əldən düşmək
طاقت شکن [tağətşekən] *bax* **طاقت فرسا**
طاقت فرسا [tağətfərsa] dözülməz, qatlaşılmaz
طاقچه [tağçe] *bax* **تاقچه**; ◊ **~ بالا گذاشتن** özünü çəkmək, lovğalanmaq
طاقه [tağe] ədəd, tikə (*numerativ söz*); **یک~ شال** bir tikə şal
طالار [talar] *bax* **تالار**
طالب [taleb] tələb edən; istəyən, rəğbət göstərən, can atan; **~ علم** elmə (*öyrənməyə*) can atan
طالبی [talebi] qovun növü
طالح [taleh] qüsurlu, eyibli, nöqsanlı; mənfi (*adam*)
طالع [tale'] 1) tale, bəxt, qismət; 2) çıxan, doğan; **~ خورشید** doğan günəş; **~ دیدن** a) qoroskop (*ulduz falı*) tərtib etmək; b) fala baxmaq
طالع بین [tale'bin] 1) münəccim; 2) falabaxan
طالع بینی [tale'bini] 1) münəccimlik; 2) fala baxma
طالع شناس [tale'şenas] *bax* **طالع بین**
طالع شناسی [tale'şenasi] *bax* **طالع بینی**
طالع مند [tale'mənd] xoşbəxt, bəxtəvər
طالقه [taleğe] boşanmış arvad
طامع [tame'] tamahkar, acgöz
طاوس [tavos] *zool.* tovuz
طاوس وار [tavosvar] tovuz kimi
طاووس [tavus] *bax* **طاوس**
طاووس وار [tavusvar] *bax* **طاوس وار**
طاوه [tave] *bax* **تاوه**
طاهر [taher] təmiz, pak, ləkəsiz (*insan*)
طاهره [tahere] *bax* **طاهر**

طایر [tayer] I 1) uçan; 2) *c.* **طیور** [toyur] quş; ◊ **قدسی ~˙** mələk

طایر [tayer] II *bax* **تایر**

طایف [tayef] dönən, dövrə vuran, təvaf (*Kəbə ətrafında dövr etmə*)

طایفه [tayefe] *c.* **طوایف** [təvayef] 1) tayfa, qəbilə; nəsil; 2) kütlə, camaat; 3) sinif (*itlər, kəpənəklər və s.*)

طایفه گرایی [tayefegərayi] tayfabazlıq, qəbilə-nəsilçilik

طب [teb(b)] tibb, təbabət

طبابت [tebabət // təbabət] təbabət; müalicə

طباخ [təbbax] aşpaz, kulinar

طباخ خانه [təbbaxxane] aşpazxana

طباخی [təbbaxi] aşpazlıq, kulinariya; **~ کردن** aşpazlıq etmək

طباشیر [təbaşir] *bax* **تباشیر**

طباع [teba'] 1) *t.* **طبع** II

طباعت [təbaət] çap işi, mətbəə işi

طباق [tebağ] 1) razılaşdırma; 2) uyğunlaşdırma; 3) uyğun, müvafiq

طبال [təbbal] nağaraçı, zərb alətlərində çalan

طبایع [təbaye'] *t.* **طبیعت** substansiya, təbiət ünsürü; **اربعه ~˙** dörd ünsür (*torpaq, hava, su, od*)

طبخ [təbx] yemək bişirmə; **~ کردن** yemək hazırlamaq

طبع [təb'] I nəşr, çap; **اول ~˙** birinci nəşr; **~ شدن** nəşr (*çap*) olunmaq; **~ کردن** nəşr (*çap*) etmək

طبع [təb'] II *c.* **اطباع** [ətba'] // **طباع** [teba'] 1) təbiət, xarakter, xasiyyət; 2) təb, istedad; **شعر ~˙** şairlik təbi (*istedadı*); ◊ **شیر خشتی داشتن ~˙** hamı ilə yola getmək

طبعا [təb'ən] 1) təbii, təbii olaraq; öz-özünə; 2) təbiətinə görə, xarakterinə görə

طبعی [təb'i] təbii, fitri, anadangəlmə (*xüsusiyyət*)

طبق [təbəğ] *c.* **اطباق** [ətbağ] 1) tabaq; 2) qat, təbəqə; 3) vərəq; ◊ **~˙ آسمان** göy qübbəsi

طبق [tebğ] uyğun, müvafiq; **~˙ بر** əsasən, görə; **اطلاعات ~˙** məlumata görə

طبقات [təbəğat] *t.* **طبقه**

طبقات الارض [təbəğatolərz] yerin qatları

طبقات الجو [təbəğatolcəv(v)] atmosfer qatları; **~ علم˙** aerologiya

طبقاتی [təbəğati] sinfi; **~ مبارزه˙** sinfi mübarizə

طبق دار [təbəğdar] tabaqda mal (*şirniyyat və s.*) satan

طبق کش [təbəğkeş] tabaqda mal (*şirniyyat və s.*) daşıyan

طبقه [təbəğe] *c.* **طبقات** [təbəğat] 1) təbəqə, sinif, zümrə; **~˙ کارگر** fəhlə sinfi; 2) təbəqə, lay, qat; **~˙ نمکی** duz layı (*təbəqəsi*); 2) mərtəbə; **~˙ پنجم** beşinci mərtəbə; **~˙ همکف** birinci mərtəbə; 4) rəf; 5) növ, kateqoriya

طبقه بندی [təbəğebəndi] bölgü, təsnifat; **~˙ نباتات** bitkilərin təsnifatı; **~ شدن** təsnif edilmək; **~ کردن** təsnif etmək

طبل [təbl] təbil, nağara; **~ زدن (نواختن)** təbil çalmaq; ◊ **~˙ توخالی** boş hay-küyçü, qabında bir şey olmayan; **~˙ میان تهی** *bax* **~˙ توخالی**

طبل چی [təblçi] *bax* **طبل زن**

طبل زن [təblzən] təbilçi, nağaraçı

طبله [təble] 1) kiçik təbil; 2) kiçik tabaq, sini, podnos; 3) sandıqça; ◊ **~ کردن** suvağın qopması, suvağın şişməsi (*divarda*)

طبی [tebbi] tibbi; müalicəvi; **دانشکده˙ ~** tibb fakültəsi; **~ گیاههای˙** müalicəvi otlar

طبیب [təbib] *c.* **اطبا** [ətebba] təbib, həkim

طبیعت [təbiət] *c.* **طبایع** [təbaye'] 1) təbiət; **~˙ علم** təbiətşünaslıq; təbiət elmi; 2) təbiət, xasiyyət, xarakter; **~˙ خوش** xoş xasiyyət

طبیعتا [təbiətən] *bax* **طبعا**

طبیعت ساز [təbiətsaz] mənzərə rəssamı

طبیعت شناس [təbiətşenas] təbiətşünas

طبیعت شناسی [təbiətşenasi] təbiətşünaslıq

طبیعت گرا [təbiətgəra] naturalist

طبیعت گرایی [təbiətgərayi] naturalizm

طبیعی [təbii] təbii, fitri; **~˙ استعداد** təbii istedad, talant; **~˙ ذخایر** təbii ehtiyatlar; **~˙ گاز** təbii qaz

طبیعیات [təbi'iyyat] 1) təbiət elmləri; 2) fizika

طبیعی دان [təbi'idan] *bax* **طبیعت شناس**

طپان [təpan] *bax* **تپان**

طپانچه [təpançe] *bax* **تپانچه**

طپش [təpeş] *bax* **تپش**

طپیدن [təpidən] *bax* **تپیدن**

طحال [təhal] *anat.* dalaq

طراح [tərrah] 1) cizgiçi, çertyojçəkən; 2) rəssam; 3) layihəçi

طراحی [tərrahi] 1) cizgiçilik, çertyojçuluq; 2) rəssamlıq; 3) layihəçilik

طرار [tərrar] 1) yalançı, fırıldaqçı; 2) oğru, cibgir

طراری [tərrari] 1) yalançılıq, fırıldaqçılıq; 2) oğruluq, cibgirlik

طراز [təraz // teraz] 1) bərbəzək, zinət; 2) naxış, ornament

طراوت [təravət] 1) təravət, tər-təzə, təzəlik; 2) şirəlilik; **میوه ~˙** meyvənin təzəliyi (*şirəliliyi*)

طرب [tərəb] sevinc, şadlıq, şənlik; **به ~ آوردن** şənləndirmək

طرب انگیز [tərəbəngiz] sevindirici, fərəhləndirici

طربناک [tərəbnak] sevincli, şad, şə

طرح [tərh] 1) plan, çertyoj, sx 2) layihə; eskiz; **قانون ~˙** qanun yihəsi; 3) tərtib etmə; layihələşdir **نقشه ~˙** planın tərtibi; **ریختن ~** a) (*sxem*) tərtib etmək; b) layihə dirmək; ◊**روی آب ~˙** qeyri-real p lar; həyata keçməyən arzular

طرح آمیزی [tərhamizi] kompoz ya, quruluş, struktur

طرح بندی [tərhbəndi] planlaşdı

طرح ریز [tərhriz] konstruktor, yihəçi

طرح ریزی [tərhrizi] layihələş mə; plan tərtib etmə; sxem çək

طرح ریختن (**طرح** *sözü* **کردن ~** *bax*

طرخون [tərxun] *bax* **ترخون**

طرد [tərd] qovma, uzaqlaşdı çıxarma, kənar etmə; sürgün e

از شهر ~ şəhərdən qovma; **ن** qovulmaq; çıxarılmaq; **کردن ~** maq, çıxarmaq, sürgün etmək

طرز [tərz] tərz, üsul, qayda; tod; **تدریس ~˙** tədris üsulu (*met* **حیات ~˙** həyat tərzi

طرف [tərəf] 1) tərəf, yan, k **راست ~˙** sağ tərəf; **راست شما** sağ tərəfdə, sizdən sağda; **یگر** digər tərəfdən; 2) yön, istiq tərəf, doğru, sarı; **شهر ~˙** ş

tərəf; 3) tərəfdaş, nümayəndə; ~• توجه diqqət yetirilən, diqqət mərkəzində olan; قرارداد ~• müqaviləni imzalayanlardan hər biri; معامله ~• ticarət nümayəndəsi; 4) opponent; qarşı tərəf, rəqib; دعوی ~• iddiaçı; tələb edən tərəf; cavabdeh tərəf

طرف [tərf] künc, qıraq, kənar; ətək; چمن ~• çəmənliyin kənarı; ~• دامن yubkanın ətəyi; paltarın ətəyi

طرفدار [tərəfdar] tərəfdar, tərəfdaş, havadar; آزادی ~• azadlıq tərəfdarı, azadlıqsevən

طرفداری [tərəfdari] tərəfdarlıq, havadarlıq; dəstəkləmə; کردن ~ dəstəkləmək, himayə etmək

طرفگیر [tərəfgir] *bax* طرف دار

طرفه [torfe] I göz qırpımı, göz qırpma, bir göz qırpımı, bir an

طرفه [torfe] II *c.* طرف [torəf] nadir, tapılmayan; orijinal; gözəl, cəlbedici

طرفة العین [torfətoleyn] bir göz qırpımı, bir an, bir ləhzə

طرفیت [tərəfiyyət] 1) ziddiyyət, təzad; ədavət, düşmənçilik; 2) əlaqə, münasibət; داشتن ~ a) pis münasibətdə olmaq, küsülü olmaq; b) əlaqəsi olmaq, əlaqə yaratmaq

طرفیل [terfil] *bot.* üçyarpaq (*bitki*); üçyarpaqlı yonca

طرفین [tərəfeyn] iki tərəf; مباحثه ~• mübahisə edən tərəflər (*iki tərəf*)

طرلان [tərlan] *bax* شهباز

طره [torre] *c.* طرر [torər] 1) qıraq, kənar; بام ~• damın kənarı; 2) saç (*üzə, alına töküləni*); kəkil; qıvrım saç; پریشان ~• dağınıq (*pərişan*) saç

طری [təri] sulu, şirəli, təzə; گلهای ~• təzə güllər

طرید [tərid] 1) qovulmuş, rədd edilmiş; 2) atılmış, tərk edilmiş

طریق [təriğ] 1) tərz, üsul, qayda; vasitə; از ~• vasitəsilə; بدین ~ bu vasitə ilə, bu yolla; به ~• ذیل aşağıdakı qayda ilə; 2) *məc.* yol

طریقت [təriğət] *c.* طرایق [tərayeğ] 1) əqidə, prinsip; 2) təriqət, məslək; اهل ~• təriqət əhli, sufilər

طریقه [təriğe] 1) yol, üsul, tərz, vasitə; 2) *bax* طریقت

طشت [təşt] *bax* تشت

طعام [təam] *c.* اطعمه [ət'eme] yemək, xörək; دادن ~ vemək vermək, yedirmək; کشیدن ~ yemək çəkmək, yemək gətirmək

طعم [tə'm] tam, dad; məzə; داشتن ~ tamı olmaq, dadı olmaq

طعمه [to'me] *c.* طعم [toəm] 1) yemək, ərzaq, qida; 2) yem (*balıq tutmaq üçün*); دادن ~ yemək vermək; yem vermək; ◊آتش (حریق) شدن ~• alışıb yanmaq, od tutmaq

طعن [tə'n] *bax* طعنه

طعنه [tə'ne] 1) tənə, məzəmmət, danlaq, qınaq; 2) istehza, kinayə; زدن ~ danlamaq, tənə vurmaq, məzəmmət etmək

طغرا [toğra] 1) şah fərmanı; 2) fərman; ünvanında şahın adı, titulu yazılmış monoqramma; 3) kalliqrafik xətt növü; 4) qiymətli kağızlar üçün say vahidi; یک ~• چک بانکی bir ədəd bank çeki

طغرل [toğrol] toğrul, qızılquş (*şahin sinfindən olan quş*)

طغیان [toğyan] 1) qiyam, iğtişaş; 2) azğınlıq, qudurğanlıq; 3) tüğyan, daşqın; آب ~• su daşqını, sel; کردن ~ a) qiyam etmək; b) azğınlaşmaq; c) daşmaq

طفره [təfre] 1) yayınma; uzaqlaşma; boyun qaçırma; imtina etmə; 2) sıçrama, sıçrayış, tullanma; رفتن ~ yayınmaq; boyun qaçırmaq

طفره آمیز [təfreamiz] qeyri-müəyyən, ikibaşlı, ikimənalı; جواب ~• qeyri-müəyyən cavab

طفره روی [tofrerəvi] 1) yayınma; boyun qaçırma; 2) təxirə salma

طفل [tefl] *c.* اطفال [ətfal] uşaq, körpə

طفلک [teflək] 1) uşaqcığaz, körpəciyəz; 2) yazıq uşaq

طفلی [tefli] 1) *bax* طفولیت; 2) *bax* طفلک

طفولیت [tofuliyyət] uşaqlıq

طفیل [tofeyl] *bax* طفیلی

طفیلی [tofeyli] 1) tüfeyli, parazit; 2) *biol.* parazit; 3) çağırılmamış qonaq

طفیلی شناس [tofeylişenas] parazitoloq

طفیلی شناسی [tofeylişenasi] parazitologiya

طفیلی گری [tofeyligəri] tüfeylilik, parazitlik

طفیلی وار [tofeylivar] tüfeyli kimi, tüfeylisayağı; زندگی ~• tüfeylisayağı həyat

طل [təl(l)] *c.* طلال [telal] // طلل [telə] 1) şeh; 2) narın yağış

طلا [tələ // tela] qızıl; سفید ~• platin; ساعت ~• qızıl saat

طلا آلات [tələalat] qızıl əşya, qızıl məmulat

طلاب [tollab] *t.* طلبه

طلاباف [tələbaf] zərli parça toxuyan

طلاجات [tələcat] *bax* طلاآلات

طلاق [tələğ] boşama; boşanma; دادن ~ boşamaq; گرفتن ~ boşanmaq

طلاقت [tələğət] 1) rəvan, səlis (*dil, danışıq*); 2) gülərüzlülük

طلاقنامه [tələğname] boşanma haqqında sənəd

طلاکار [tələkar] *bax* زرگر

طلاکاری [tələkari] qızıl suyu ilə işləmə; zərgərlik işləri

طلاوت [telavət // tələvət] 1) xoşluq; gözəllik; zəriflik; 2) *bax* تلاوت

طلایه [tələye] *bax* طلیعه

طلایی [tələyi] qızıl, qızıldan düzəldilən əşya; qızılı; انگشتر ~• qızıl üzük; موهای ~ qızılı saç

طلب [tələb] 1) tələb, xahiş, istək; 2) çağırış; 3) axtarış; 4) borc; 5) mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "tələb edən", "istəyən" mənalarını bildirir: آزادی طلب azadlıq istəyən, azadlıqsevər; کردن ~ *bax* طلبیدن

طلب کار [tələbkar] 1) kreditor, borcverən; 2) tələb edən, istəyən

طلب کاری [tələbkari] 1) borcu tələb etmə; 2) israrla tələb etmə; کردن ~ a) borcu tələb etmək; b) israrla tələb etmək

طلبه [tələbe] *c.* طلاب [tollab] tələbə, şagird (*ilahiyyat mədrəsəsində oxuyan*)

طلبیدن [tələbidən] 1) çağırmaq, dəvət etmək; 2) tələb etmək, istəmək

طلسم [telesm] *c.* طلاسم [tələsem] tilsim, oyun, cadu, sehr; شدن ~ tilsimlənmək; شکستن ~ tilsimi sındırmaq; کردن ~ tilsimləmək

طلسم گر [telesmgər] tilsimçi, cadugər, şaman

طلعت [təl'ət] üz, sifət, çöhrə, zahiri görünüş

طلوع [tolu'] 1) doğma, çıxma (*günəş*); **آفتاب ~•** günəşin çıxması; 2) çiçəklənmə, yüksəliş; **کردن ~** çıxmaq, doğmaq, görünmək (*günəş, ay*)

طلیعه [təli'e] *c.* **طلایع** [təlaye'] 1) avanqard, qoşunun ön hissəsi; 2) kəşfiyyatçı-patrul, süvari patrul; 3) başlanğıc; ilk görüntü, ilk əlamət; **زندگانی ~•** *şair.* gənclik, həyatın başlanğıcı; **صبح ~•** *şair.* şəfəq; günəşin çıxması

طمطراق [təmtərağ // tomterağ// tomtorağ] təmtəraq, dəbdəbə,cah-calal, əzəmət

طمع [təmə'] 1) tamah, acgözlük, hərislik; 2) bərk istək (*arzu*), həvəs, ehtiras; **داشتن ~** a) tamahı olmaq; b) bərk istəmək; **کردن ~** a) tamah etmək; b) bərk arzulamaq

طمع کار [təmə'kar] tamahkar, acgöz, həris

طمع کاری [təmə'kari] tamahkarlıq, acgözlük, hərislik

طناب [tənab] kəndir, yoğun ip; **کسی را بریدن◊ ~•** birisinin haqq-hesabını çürütmək

طناب باز [tənabbaz] kəndirbaz

طناب بازی [tənabbazi] kəndirbazlıq, kəndirbazlıq etmə

طناز [tənnaz] nazlı, qəmzəli, işvəli; **~ دلبر•** nazlı dilbər; **بودن ~** nazlı olmaq, nazlanmaq

طنازی [tənnazi] naz-qəmzə, işvə; **کردن ~** naz etmək, nazlanmaq

طنبور [tənbur] *bax* **تنبور**

طنز [tənz] 1) zarafat; 2) istehza, məsxərə, rişxənd; **کردن (زدن) ~** a) zarafat etmək; b) istehza etmək

طنزآلود [tənzalud] 1) zarafatcıl; 2) istehzalı, rişxəndli

طنزآمیز [tənzamiz] *bax* **طنزآلود**

طنطنه [təntənə] 1) səs-küy, hay-küy; musiqi səsi; 2) təntənə, təmtəraq, cah-calal, əzəmət

طنین [tənin] 1) səs, uğultu; vızıltı; 2) əks-səda; **انداختن (افکندن) ~** a) səslənmək, uğuldamaq; vızıldamaq; b) əks-səda vermək

طنین انداز [tənінəndaz] 1) gursəsli; 2) əks-səda verən səs; **شدن ~** *bax* **طنین انداختن** (**طنین** *sözündə*)

طواف [təvaf] 1) dövrə vurma, dolanma; 2) Həcc ziyarəti zamanı Kəbənin ətrafında dolanma

طوبا [tuba] *bax* **طوبی**

طوبی [tuba] 1) cənnətdə olan ağac; 2) səadət, rahatlıq

طوبی قامت [tubağamət] *bax* **طوبی قد**

طوبی قد [tubağəd(d)] tubaboylu, ucaboylu

طور [tour] *c.* **اطوار** [ətvar] cür, kimi, tərz, əda, üsul; **دیگر ~•** başqa cür

طوسی [tusi] tünd kül rəngi (*parça üçün*)

طوطی [tuti] tutu, tutuquşu

طوطی وار [tutivar] tutuquşu kimi; **گفتن ~** tutuquşu kimi demək, düşünmədən demək

طوفان [tufan] *bax* **توفان**

طوفان خیز [tufanxiz] *bax* **توفان خیز**

طوفان زا [tufanza] *bax* **توفان خیز**

طوفانی [tufani] *bax* **توفانی**

طوق [touğ] *c.* **اطواق** [ətvağ] 1) halqa; halə, dairə; **ماه ~•** Ayın haləsi; 2) boyunbağı; **طلا ~•** qızıl boyunbağı; 3) boyunduruq; **بندگی ~•** qulluq halqası (*boyunduruğu*)

طول [tul] uzunluq; **~ پرش•** uzunluğuna tullanma; **دادن ~** uzatmaq; **داشتن (کشیدن) ~** uzanmaq, davam etmək (*vaxt*)

طولاً [tulən] uzununa, uzunluğuna, uzunluğuna görə

طولانی [tulani] uzun, uzunçəkən, uzunsürən; uzun davam edən; **~ صحبت•** uzun söhbət

طول یاب [tulyab] teodolit (*bucaq-ölçən alət*); uzunluğu ölçən alət

طومار [tumar] *c.* **طوامیر** [təvamir] 1) lülə şəklində büküllmüş kağız; 2) məktub, ərizə, sənəd

طویل [təvil] uzun; **~عمر•** uzun ömür; **~ راه•** uzun yol

طویل العمر [təvilolomr] uzunömürlü, çox yaşayan

طویل القامت [təvilolğamət] hündürboylu, ucaboylu

طویل المدت [təvilolmoddət] uzunmüddətli; **~ وام•** uzunmüddətli kredit

طویله [təvile] tövlə

طویله دار [təviledar] mehtər, atabaxan

طهارت [təharət] təmizlik; paklıq; təmizlənmə, yuyunma; **گرفتن ~** təmizlənmək, yuyunmaq

طی [tey(y)] 1) keçmə (*yolu*); 2) qurtarma, tamamlama (*kursu, müəyyən müddəti və s.*); 3): **در طی•** ərzində, müddətində; **در سال جاری ~•** bu il ərzində; **کردن ~** keçmək; getmək; ötmək

طیار [təyyar] 1) uçan; uçucu; 2) havaya qalxan; buxarlanan; 3) cəld, zirək

طیاره [təyyare] *c.* **طیارات** [təyyarat] təyyarə

طیاره سازی [təyyaresazi] təyyarəqayırma; **~ کارخانه•** təyyarəqayırma zavodu

طیب [təyyeb] 1) təmiz, pak; 2) xoşagələn, yaxşı

طیب [tib // teyb] *c.* **اطیاب** [ətyab] 1) xoş iy, gözəl qoxu, ətir; 2) həzz, zövq; məmnunluq, xoşluq; **با ~• خاطر** məmnuniyyətlə, xoşluqla

طیر [teyr] *c.* **طیور** [toyur] quş

طیران [təyyəran] uçuş, uçma; **کردن ~** uçmaq

طیف [teyf] *fiz.* spektr

طین [tin] gil, torpaq

طینت [tinət] təbiət, xarakter, xasiyyət; əxlaq

طیور [toyur] *t.* **طیر**

ظ

ظ [za] fars əlifbasının iyirminci hərfi; əbcəd hesabında 900 rəqəmini ifadə edir

ظافر [zafer] müzəffər; zəfər çalan, qalib; qələbə çalan

ظالم [zalem] *c.* **ظلام** [zollam] // **ظلمه** [zələme] zalım, zülmkar; amansız, qəddar

ظالمانه [zalemane] zalımcasına, zülmkarcasına; amansızcasına, qəddarlıqla

ظالم بلا [zalembəla] *dan.* cəld, zirək, qıvraq, çevik; diribaş və fərasətli (*uşaq haqqında işlənir*)

ظالم پروری [zalempərvəri] zalımlara havadarlıq etmə; zalımları dəstəkləmə

ظالم نهاد [zalemnehad] 1) zülmkar, qəddar; 2) alçaq, yaramaz

ظالمی [zalemi] *bax* **ظلم**

ظاهر [zaher] 1) aşkar, aydın, açıq-aşkar; 2) xarici, zahiri; ~ **صورت** xarici görünüş; ~ **حسب بز** zahirinə görə; ~ **شدن** aşkar olmaq; görünmək; üzə çıxmaq; ~ **کردن (ساختن)** aşkar etmək, göstərmək, üzə çıxarmaq

ظاهرا [zaherən] 1) zahirən, üzdən, xarici görünüşcə; 2) guya, ehtimal ki, yəqin ki

ظاهربین [zaherbin] dəyaz (*adam*); xarici görünüşə qiymət verən, zahirə fikir verən

ظاهربینی [zaherbini] zahirə fikir vermə, zahiri görünüşə qiymət vermə; səthi yanaşma

ظاهرپرست [zaherpərəst] *bax* **ظاهربین**

ظاهرپرستی [zaherpərəsti] *bax* **ظاهربینی**

ظاهرپسند [zaherpəsənd] *bax* **ظاهربین**

ظاهردار [zaherdar] 1) zahiri görünüşü yaxşı olan; 2) zahirdə özünü yaxşı göstərən

ظاهرساز [zahersaz] hiyləgər, ikiüzlü; qeyri-səmimi

ظاهرسازی [zahersazi] hiyləgərlik, ikiüzlülük; qeyri-səmimilik

ظاهرفریب [zaherfərib] 1) aldadıcı (*zahiri görünüşünə görə*); 2) yalançı, ikiüzlü

ظاهرفریبی [zaherfəribi] aldatma (*zahiri görünüşünə görə*); yalançılıq, fırıldaqçılıq; ikiüzlülük

ظاهرنگر [zahernegər] *bax* **ظاهربین**

ظاهرنما [zahernəma] *bax* **ظاهردار**

ظاهری [zaheri] 1) zahiri, xarici; ~ **حسب** zahirinə görə; 2) zəriflik, incəlik, mələhət, cazibədarlıq; 3) hazırcavablıq, zarafatcıllıq; 4) naz, qəmzə, işvə; 5) ədəb, nəzakət, mərifət; ~ **کردن** zarafat etmək

ظرافت [zərafət] 1) zəriflik, incəlik, mələhət, cazibədarlıq; 2) hazırcavablıq, zarafatcıllıq; 3) dərrakə; 4) naz, qəmzə, işvə; 5) ədəb, nəzakət, mərifət; ~ **کردن** zarafat etmək

ظرایف [zərayef] 1) *t.* **ظریفه**; 2) incə şeylər, gözəl şeylər

ظرف [zərf] *c.* **ظروف** [zoruf] 1) qab; ~ **سفالین** gil qab; 2) qutu, yeşik, kisə; ~ **کالا** tara; ~ **وزن با** brutto; 3) müddət; ~ **یک ماه در** bir ay müddətində; 4) *qrüm.* zərf, zərfiik

ظرف شویی [zərfşuyi] qab yuma; qab yuyulan yer

ظرفیت [zərfiyyət] 1) həcm, tutum; 2) qabiliyyət, fərasət; zehin; ~ **داشتن** a) qabiliyyətli (*fərasətli*) olmaq; b) səbirli olmaq

ظروف [zoruf] *t.* **ظرف** qab-qacaq; ~ **مس (مسی، مسین)** mis qablar

ظریف [zərif] 1) zərif, incə, qəşəng, gözəl; ~ **رفتار** incə davranış; ~ **نکته** incə fikir (*mətləb*); 2) *c.* **ظرفا** [zorəfa] zarafatcıl; hazırcavab, söz sərrafı

ظریفانه [zərifane] 1) zərifliklə, incəliklə; 2) zarafatla; zarafatyana; hazırcavablıqla

ظریف کار [zərifkar] zərif, incə (*işləyən*)

ظریف کاری [zərifkari] zərif iş, incə iş

ظریف منظر [zərifmənzər] 1) gözəl mənzərə; 2) gözəl görünüş

ظریفه [zərife] 1) *bax* **ظریف**; 2) *c.* **ظرایف** [zərayef] zarafat; incə söz

ظفر [zəfər] zəfər, qələbə; ~ **طاق** zəfər tağı; **یافتن** ~ qalib gəlmək

ظفرانگیز [zəfərəngiz] qələbə qazandıran, qələbəyə səbəb olan, uğur gətirən

ظفربخش [zəfərbəxş] *bax* **ظفرانگیز**

ظفرشعار [zəfərşoar] qalib, həmişə qalib gələn

ظفرمند [zəfərmənd] 1) qalib; qələbə çalan; qalibiyyətlə; 2) təntənəli, təmtəraqlı, dəbdəbəli

ظفرنمون [zəfərnəmun] *bax* **ظفرمند**

ظفریاب [zəfəryab] *bax* **ظفرانگیز**

ظل [zel(l)] *c.* **ظلال** [zelal] // **اظلال** [əzlal] 1) kölgə; 2) ala-qaranlıq; 3) himayə, dəstəkləmə, mudafiə etmə; در ~ **الهی** Allahın himayəsi altında

ظلال [zelal] 1) *t.* **ظل**; 2) talvar

ظلام [zəl(l)am] qaranlıq, gecə qaranlığı

ظلامت [zolamət] *c.* **ظلامات** [zolamat] zülm; işgəncə

ظلامه [zolame] *bax* **ظلامت**

ظلم [zolm] zülm, zülmkarlıq; amansızlıq, qəddarlıq; ədalətsizlik; ~ **کردن** zülm etmək; ədalətsizlik etmək

ظلمات [zolomat] 1) *t.* **ظلمت**; 2) zil qaranlıq, çox qaranlıq

ظلماتی [zolemati] *bax* **ظلمانی**

ظلمانی [zolmani] qatı zülmət, çox qaranlıq

ظلم پیشه [zolmpişe] zülmkar, qəddar

ظلمت [zolmət] *c.* **ظلمات** [zolomat] 1) zülmət, qaranlıq; ~ **شب** gecə qaranlığı; 2) cəhalət, avamlıq

ظلمت سرا [zolmətsəra] *bax* **ظلمتکده**

ظلمتکده [zolmətkədə] 1) *məc.* zülmət yer; qaranlıq yer; 2) hər şeyi örtən qaranlıq

ظلمتی [zolməti] *din.* zülmət içində olanlar, cəhalət içində yaşayanlar (*bütpərəstlər*)

ظلم دیده [zolmdide] zülm çəkmiş, məzlum, yazıq

ظلم ستیز [zolmsetiz] zülmə qarşı mübarizə aparan

ظلم ستیزی [zolmsetizi] zülmə qarşı mübarizə aparma

ظلم کار [zolmkar] zülmkar, qəddar, amansız

ظلوم [zəlum] zalım, çox zalım

ظلیل [zəlil] kölgəli; ~ **(مکان)** جای kölgəli yer

ظنون [zənnun] 1) zənn, ... 2) fikir, nəzər; ~ **سوء** pis fikir; ~ **حسن** zənn etmək; ~ **حسن** yaxşı fikir; ~ **برد (کردن)** şübhə; ~ **برد (کردن)** güman etmək; hesab e... **داشتن** yaxşı fikirdə ol...

ظن [zən(n)] *c.* **ظنون** [z... güman, fərz, ehtimal; ...

ظنین [zənnin] məzlum

haqqında); داشتن ~ سوء pis fikirdə olmaq (*kiminsə haqqında*)

ظنین [zənin] zənn edən, şübhə edən, güman edən; شدن ~ zənn etmək, şübhələnmək, güman etmək

ظهر [zəhr] *c.* ظهور [zəhur] // اظهر [əzhər] 1) arxa tərəf; در ~ ورقه vərəqin arxa tərəfində; 2) kürək

ظهر [zohr] günorta; بعد از ~ günortadan sonra

ظهر نویسی [zəhrnevisi] 1) *mal.* indossament; 2) arxa tərəfdə qol çəkmə (*sənəddə, kağızda*)

ظهور [zohur] zahir olma, meydana çıxma, görünmə, yaranma, peyda olma; کردن ~ zühur etmək, görünmək, peyda olmaq

ظهیر [zəhir] *c.* ظهرا [zohəra] 1) köməkçi, yardımçı; 2) hami, müdafiəçi, dəstəkləyən

ع

ع [əyn//eyn] fars əlifbasının iyirmi birinci hərfi; əbcəd hesabında 70 rəqəmini ifadə edir

عابد [abed] *c.* عبده [əbədə] // عباد [obbad] abid, ibadət edən, mömin

عابدانه [abedane] 1) abid kimi; ibadətkarsayağı, möminsayağı; 2) ibadətkarcasına, möminccəsinə

عابد فریب [abedfərib] çox gözəl, valehedici, heyranedici

عابر [aber] *c.* عابرین [aberin] gedən, keçib-gedən, keçən (*adam*)

عاج [ac] 1) fil sümüyü; 2) şirmayı; 3) buynuz

عاج تراش [actəraş] oyucu usta, həkkak (*fil sümüyü üzərində*)

عاجز [acez] 1) aciz, zəif, gücsüz; yazıq; 2) *c.* عجزه [əcəze] // عواجز [əvacez] əlil, şikəst; شدن ~ a) aciz olmaq, zəif olmaq, gücsüz olmaq; b) əlil olmaq, şikəst olmaq; کردن ~ zəiflətmək, gücsüz etmək

عاجزانه [acezane] acizanə, aciz kimi, acizcəsinə, yazıqcasına

عاجزنواز [aceznəvaz] ürəyiyumşaq, rəhmli, aciz və zəiflərə mərhəmət göstərən

عاجزنوازی [aceznəvazi] ürəyiyumşaqlıq, rəhmdillik, aciz və zəiflərə mərhəmət göstərmə

عاجزی [accezi] 1) acizlik, zəiflik, gücsüzlük; 2) əlillik; xəstəlik

عاجل [acel] 1) tələsik, təcili; 2) tələsən

عاجلا [acelən] 1) tələsik, tez, tez-tələsik; 2) dərhal, dayanmadan

عاجلانه [acelane] 1) tələsik şəkildə, tez-tələsik; 2) cəld, tələsik (*iş*)

عاجله [acele] *bax* عاجل

عادت [adət] *c.* عادات [adat] adət, ənənə; دادن ~ adət öyrətmək; شدن ~ adət olmaq, adət şəklinə düşmək; کردن (داشتن) ~ adət etmək, öyrənmək

عادتا [adətən] adətən, adət üzrə

عادل [adel] adil, ədalətli, insaflı

عادلانه [adelane] ədalətlə, insafla

عادله [adele] 1) *bax* عادل; 2) münasib, uyğun, əlverişli (*qiymət, razılaşma*)

عادی [adi] adi; شدن ~ adiləşmək

عار [ar] 1) rüsvayçılıq, biabırçılıq; 2) ar, abır, həya; eyib; داشتن ~ utanmaq, ar bilmək, eyib bilmək, eyib saymaq

عارض [arez] I 1) şikayətçi; 2) təsadüfi; ikincidərəcəli (*hadisə, iş*); شدن ~ a) şikayətçi olmaq, şikayətlənmək; b) baş vermək, üz vermək

عارض [arez] II üz, yanaq, sifət; ◊ افروختن ~ a) əsəbiləşmək; b) qızarmaq (*hirsdən*)

عارضه [areze] *c.* عوارض [əvarez] 1) hadisə, bədbəxt hadisə; 2) maneə, əngəl; 3) xəstəlik, nasazlıq, naxoşluq

عارف [aref] *c.* عرفا [ərəfa] 1) arif, bilən, bilik sahibi; müdrik; 2) mistik, sufi

عارفانه [arefane] 1) arifcəsinə, ariflər kimi, sufilər kimi, müdrikcəsinə; 2) incə, dəqiq və dərin

عاری [ari] 1) lüt, çılpaq; yalın; 2) uzaq; məhrum; از حقیقت ~ həqiqətdən uzaq, həqiqətə uyğun gəlməyən

عاریت [ariyət] burovuz, müvəqqəti istifadə üçün alınan şey; ~ **به گرفتن** müvəqqəti istifadə üçün almaq

عاریت سرا [ariyətsəra] bu dünya, müvəqqəti dünya

عاریه [ariye] 1) *bax* **عاریت**; 2) süni; ~ **دندان** süni diş; ~ **گیسوی** süni saç, parik

عازم [azem] 1) yola düşən; 2) bir şeyin niyyətində olan; ~ **شدن** a) yola düşmək; b) bir şeyin niyyətində olmaq

عاشق [aşeğ] *c.* **عشاق** [oşşağ] aşiq, sevən, sevgili; ~ **شدن** aşiq olmaq, vurulmaq; ~ **کردن** məftun etmək, valeh etmək

عاشقانه [aşeğane] aşiqanə, aşiqcəsinə; ~ **نامه** aşiqanə məktub, eşq məktubu

عاشق پیشه [aşeğpişe] 1) tez-tez aşiq olan; 2) hərdəmxəyal

عاشق کش [aşeğkoş] 1) qəddar, zülmkar (*aşiqinə qarşı*); 2) aşiqöldürücü gözəl, hədsiz gözəl

عاشقی [aşeği] 1) aşiqlik, vurğunluq, aşiq olma; 2) *bax* **عشق**

عاشورا [aşura] hicri-qəməri təqvimi ilə məhərrəm ayının onuncu günü, İmam Hüseynin (*ə.*) şəhid olduğu gün

عاصف [asef] 1) əyilən, qatlanan, bükülən; 2) bərk, güclü, kəskin

عاصم [asem] qoruyan, saxlayan, çəkindirən (*günahlardan*)

عاصی [asi] 1) tabe olmayan, itaət etməyən; üsyançı, qiyamçı; 2) günahkar; ~ **شدن** a) üsyan etmək, qiyam qaldırmaq; b) günah etmək, günah işlətmək

عاطر [ater] ətirli, xoşiyli, xoşətirli

عاطفه [atefe] *c.* **عواطف** [əvatef] // **عاطفات** [atefat] 1) rəğbət, hüsn-rəğbət, meyil, simpatiya; 2) duyğu, hiss, emosiya

عاطل [atel] 1) tənbəl; avara, veyl; 2) boş, mənasız; ~ **و باطل** a) avara və yaramaz; b) cəfəng və mənasız (*söz*); ~ **گذاشتن** işlətməmək, istifadə etməmək

عافیت [afiyət] sağlamlıq, cansağlığı; ~ **یافتن** sağalmaq; ~ **باشد** sağlam olun (*asqırarkən deyilir*)

عاق [ağ(ğ)] 1) itaət etməyən, sözə baxmayan, ağ olan (*valideynlərin üzünə*); 2) vərəsəlikdən məhrum edilmiş (*övlad*); ~ **والدین** a) valideyn tərəfindən lənətlənmiş; b) vərəsədən məhrum edilmiş; ~ **شدن** a) lənətlənmək (*valideynlər tərəfindən*); b) vərəsədən məhrum edilmək (*valideynlər tərəfindən*); ~ **کردن** lənətləmək (*övladı*); b) vərəsədən məhrum etmək (*övladı*)

عاقبت [ağebət] *c.* **عواقب** [əvağeb] aqibət, son, axır; nəticə

عاقبت اندیش [ağebətəndiş] gələcəyi düşünən; ehtiyatlı, tədbirli

عاقبت اندیشی [ağebətəndişi] gələcəyi düşünmə, uzaqgörənlik; ehtiyatlılıq

عاقبت بین [ağebətbin] *bax* **عاقبت اندیش**

عاقبت بینی [ağebətbini] *bax* **عاقبت اندیشی**

عاقبت نگر [ağebətnegər] *bax* **عاقبت اندیش**

عاقبت نگری [ağebətnegəri] *bax* **عاقبت اندیشی**

عاقد [ağed] 1) müqavilə bağlayan, sənəd imzalayan; 2) nikah bağlayan, kəbin kəsən

عاقل [ağel] *c.* **عقلا** [oğəla] ağıllı, dərrakəli; müdrik

عاقلانه [ağelane] ağılla; ağıllı şəkildə

عاقل فریب [ağelfərib] çox hiyləgər

عاقل مرد [ağelmərd] yaşlı (*kişi*)

عاقله [ağele] *bax* **عاقل**

عاقله زن [ağelezən] yaşlı (*qadın*)

عاکف [akef] 1) çalışqan; 2) guşənişin, tərki-dünya

عالم [aləm] *c.* **عوالم** [əvalem] aləm, kainat, yer-göy, dünya; ~ **ارواح** ruhlar aləmi; ~ **بقا** əbədi dünya, axirət

عالم [alem] *c.* **علما** [oləma] alim, bilici, bilik sahibi

عالماً [alemən] bilərək, bilə-bilə; ~ **و عامداً** bilə-bilə və qəsdən

عالم آرا [aləmara] dünyanı bəzəyən

عالم آشوب [aləmaşub] 1) aləmi qarışdıran; qalmaqalçı, davakar, cəncəl; 2) *şair.* çox gözəl, canalan, canalıcı

عالم افروز [aləməfruz] dünyanı işıqlandıran

عالم گیر [aləmgir] 1) ümumdünya; ~ **جنگ** dünya müharibəsi; 2) bütün dünyaya yayılan (*səs, söhrət*); 3) dünyanı tutan, dünyanı fəth edən

عالم نما [alemnəma] alimciyəz, yalançı alim; özünü alim kimi qələmə verən

عالمین [aləmeyn] iki dünya

عالی [ali] 1) yüksək, çox yaxşı; ~ **افکار** yüksək fikirlər; 2) ali; ~ **تحصیلات** ali təhsil

عالی تبار [alitəbar] 1) əsilzadə, yüksək nəsildən olan; 2) yüksəkəxlaqlı; nəcib, alicənab

عالی جاه [alicah] *bax* **عالی رتبه**

عالی جناب [alicənab] alicənab, nəcib

عالی رتبه [alirotbe] yüksəkrütbəli, yüksəkvəzifəli

عالی قدر [aliğədr] 1) *bax* **عالی رتبه**; 2) çox hörmətli

عالی مقام [aliməğam] *bax* **عالی رتبه**

عالی مقدار [alimeğdar] 1) *bax* **عالی قدر**; 2) *bax* **عالی رتبه**

عام [am(m)] 1) ümumi; ~ **قتل** soyqırım, genosid; 2) hamı; bütün; 3) *c.* **عوام** [əvam] sadə adamlar, aşağı təbəqə

عام پسند [am(m)pəsənd] hamının bəyəndiyi, hamının qəbul etdiyi; məşhur

عامداً [amedən] *bax* **عمداً**

عامل [amel] I *c.* **عمال** [ommal] 1) icraçı; 2) işçi; ~ **مدیر** icraçı müdir, direktor

عامل [amel] II *c.* **عوامل** [əvamel] 1) amil, səbəb; ~ **زمان** zaman amili; 2) fəal, işlək

عامه [amme] 1) qara camaat, sadə xalq kütləsi; 2) bütün; hamı; ~ **مردم** bütün xalq; 3) *bax* **عام 1)**

عامی [ammi] 1) avam, cahil; savadsız; 2) *bax* **عامیانه 1)**

عامیانه [amiyane] 1) sadə xalqa məxsus; danışıq dilinə məxsus; ~ **اصطلاحات** danışıq dili; 2) adi; 3) kobud, bayağı, vulqar, şit (*söz*)

عاید [ayed] 1) daxil olan (*gəlir*); 2) əldə olunan, qazanılan; 3) *bax* **عایدی**; ~ **داشتن (کردن)** gəlir əldə etmək; ~ **شدن** daxil olmaq (*gəlir, pul*)

عایدات [ayedat] 1) *t.* **عایده**; 2) gəlir, qazanc; ~ **خالص** xalis gəlir

عایده [ayede] *c.* **عایدات** [ayedat] *bax* **عایدی**

عایدی [ayedi] gəlir, qazanc

عایق [ayeğ] 1) *tex.* izolyator (*elektrik, səs, şüa, istilik, rütubət və s. keçirməyən material*); 2) qarşısını alan, mancə yaradan; 3) mancə, əngəl

عایق کاری [ayeğkari] *tex.* izolyasiya, izolyasiya işləri

عایقه [ayeğe] *bax* عایق

عایله [ayele] ailə

عبا [əba] əba (*kişi üst geyimi*)

عبادت [ebadət] ibadət

عبادت خانه [ebadətxane] *bax* عبادتگاه

عبادتگاه [ebadətqah] ibadətxana, ibadət yeri, məbəd, məscid

عبادت نما [ebadətnəma] üzdə özünü mömin göstərən, ikiüzlü

عبارت [ebarət] *c.* عبارات [ebarat] söz, ifadə; tərkib; ~ بودن ibarət olmaq, təşkil olunmaq

عبارت پرداز [ebarətpərdaz] 1) fəsahət və bəlağət sahibi, gözəl və aydın danışan; 2) ibarəpərdaz; boşboğaz, lağlağı

عبارت پردازی [ebarətpərdazi] 1) gözəl və aydın danışma; 2) ibarəpərdazlıq; boşboğazlıq, lağlağılıq

عبارت ساز [ebarətsaz] *bax* عبارت پرداز

عبارت سازی [ebarətsazi] *bax* عبارت پردازی

عبث [əbəs] əbəs, yersiz, mənasız

عبد [əbd] *c.* عباد [əbbad] qul, bəndə; insan

عبد البطن [əbdolbətn] qarınqulu

عبرانی [ebrani] 1) qədim yəhudi dili; 2) yəhudi

عبرت [ebrət] *c.* عبر [ebər] 1) ibrət, dərs; 2) öyüd, nəsihət; ~ گرفتن (پذیرفتن) ibrət almaq

عبرت امیز [ebrətamiz] عبرت انگیز

عبرت انگیز [ebrətəngiz] ibrətli, ibrətamiz

عبرت آور [ebrətavər] *bax* عبرت انگیز

عبرت بخش [ebrətbəxş] *bax* عبرت انگیز

عبرت بین [ebrətbin] *bax* عبرت گیر

عبرت پذیر [ebrətpəzir] *bax* عبرتگیر

عبرتگیر [ebrətgir] ibrət alan, ibrət götürən; öyüd alan, nəsihət alan

عبرت گیری [ebrətgiri] ibrət alma, ibrət götürmə; öyüd alma, nəsihət alma

عبری [ebri] *bax* عبرانی

عبودیت [obudiyyət] bəndəlik, köləlik; itaət, asılılıq

عبور [obur] keçmə, keçid; ~ و مرور hərəkət; ~ دادن keçirmək, buraxmaq; getməyə icazə vermək; ~ کردن keçmək, getmək, gəlib-getmək

عبورگاه [oburqah] keçid, keçid yolu

عبور ناپذیر [oburnapəzir] keçilməz, keçilə bilməyən; ~ جنگل keçilməz meşə

عبوس [əbus] qaraqabaq; qaşqabaqlı, hirsli, acıqlı

عبوسی [əbusi] qaraqabaqlıq; qaşqabaqlıq, hirslilik

عبهر [əbhər] *bot.* nərgiz

عبیر [əbir] ətir, xoş qoxu; ətirli maddə

عبیرافشان [əbirəfşan] ətirsaçan

عتاب [etab] danlaq, qınama, tənə; ~ کردن danlamaq, məzəmmət etmək

عتبه [ətəbe] *c.* اعتاب [ə'tab] // عتبات [ətəbat] 1) dərgah; qapı; kandar; 2) şah sarayı; 3) müqəddəs qəbir; ziyarətgah; عتبات عالیات imamların Kərbəla, Nəcəf və Bağdadakı məqbərələri

عترت [etrət] 1) övladlar; 2) qohumlar; qohum-əqrəba; 3) ailə

عتیق [ətiğ] 1) qədim, əski, köhnə; ~ عهد köhnə vaxtlar, qədim zamanlar; 2) antik, antikvar

عتیقه [ətiğe] 1) antik əşyalar, 2) *bax* عتیق

عتیقه شناس [ətiğeşenas] antik mallar bilicisi

عتیقه فروش [ətiğeforuş] antik mallar satan

عتیقه فروشی [ətiğeforuşi] 1) antik mallar satma; 2) antik mallar mağazası

عجالتا [ecalətən] hələlik

عجایب [əcayeb] *t.* عجیبه

عجب [əcəb] 1) əcəb, təəccüb, heyrət; 2) təəccüblü, qəribə, heyrətli; ~ آمدن (داشتن، کردن) təəccüb etmək, təəccüblənmək; در ~ ماندن *bax* ~ آمدن

عجب [ocb] təkəbbür, xudpəsəndlik, eqoistlik, eqoizm

عجبا [əcəba] əcəba, əcəb; qəribədir

عجز [əcz] 1) acizlik, zəiflik; 2) yalvarma; zarıldama; ~ داشتن zəif olmaq, öhdəsindən gəlməmək

عجله [əcəle] tələsmə, tələskənlik; ~ داشتن (کردن) tələsmək

عجم [əcəm] 1) ərəb olmayan xalqlar; İranda yaşayan xalqlar; 2) İran

عجوز [əcuz] *bax* عجوزه

عجوزه [əcuze] 1) çox qoca (*qadın*), qarı; 2) *məc.* fani dünya

عجول [əcul] hövsələsiz, kəmhövsələ; tələsən, tələskən

عجولانه [əculane] tələsik, tələmtələsik; tələsik halda

عجیب [əcib] qəribə, təəccüblü; qeyri-adi

عجیب الخلقه [əcibolxelğe] bədheybət, eybəcər, kifir

عجین [əcin] 1) yoğrulmuş; 2) xəmir; ~ شدن a) yoğrulmaq; b) bərkidilmək, bir-birinə bağlanılmaq, qarışdırılmaq; ~ کردن a) yoğurmaq; b) birləşdirmək, bir-birinə bağlamaq, qarışdırmaq

عداد [edad] 1) sadalama, xatırlama; 2) say, miqar, ədəd; در ~ شعرا şairlər sırasında, şairlər içərisində

عدالت [ədalət] ədalət, insaf; ~ کردن ədalət göstərmək, insaf etmək

عدالت پرور [ədalətpərvər] *bax* عدالت گستر

عدالت پیشه [ədalətpişe] *bax* عادل

عدالت گستر [ədalətqostər] ədalətli, insaflı; ədalətlə iş görən

عداوت [ədavət] ədavət, düşmənçilik; ~ داشتن düşmən olmaq; ~ کردن düşmənçilik etmək

عدد [ədəd] *c.* اعداد [ə'dad] 1) ədəd, rəqəm; 2) *qram.* say; ~ اصلی müəyyən miqdar sayı; ~ اعشاری onluq kəsr sayı; ~ کسری kəsr sayı; 3) sayla isim arasında işlənən numerativ söz; ~ مداد پنج beş ədəd karandaş

عدد نویسی [ədədnevisi] ədədləri yazma; notasiya (*şərti yazılı işarələr sistemi*)

عدس [ədəs] *bot.* mərci

عدسی [ədəsi] 1) linza; 2) *foto.* obyektiv; ◊ ~ چشم göz bülluru

فتنه جو [fetnecu] *bax* فتنه انگیز

فتنه گر [fetnegər] *bax* فتنه انگیز

فتوا [fətva // fetva] *c.* فتاوی [fətavi] fitva (*yüksək rütbəli din xadimlərinin qərarı, hökmü*); دادن ~ şəriətə uyğun qərar çıxartmaq

فتوت [fotovvət] 1) səxavət, əli-açıqlıq; 2) mərdlik, alicənablıq; 3) gənclik, cavanlıq

فتور [fotur] 1) sakitləşmə, sakitlik; aramlıq; 2) yorulma, əldən düşmə, süstlük, ətalət, boşalma; ◊ کردن ~ *dan.* böyütmək, şişirtmək; həddini aşmaq

فتوره [fəture] parça, qumaş

فتوی [fətva // fetva] *bax* فتوا

فتی [fəta // fəti] *c.* فتیان [fetyan] 1) cavan oğlan; 2) alicənab, xeyirxah; səxavətli

فتی شیست [fetişist] 1) bütpərəst; 2) kor-koranə sitayiş edən

فتی شیسم [fetişism] 1) fetişizm; bütpərəstlik; 2) kor-koranə sitayiş etmə

فتیله [fətile // fetile] 1) fitil, piltə; 2) tampon; گذاشتن ~ a) fitil qoymaq; b) tampon qoymaq

فتیله سوز [fətilesuz] şamdan, şam qabı

فجر [fəcr] 1) sübh çağı, səhər tezdən; 2) sübh şəfəqi; شمالی ~ şimal şəfəqi

فجور [focur] 1) pozğunluq, əxlaqsızlıq; 2) günah, günahkarlıq

فجیع [fəci'] faciəli, dəhşətli, fəlakətli, müsibətli

فجیعانه [fəci'ane] faciəli şəkildə, faciəli surətdə, dəhşətli şəkildə

فجیعه [fəci'e] *c.* فجایع [fəcayc'] faciəli hadisə, dəhşətli hadisə

فحاش [fəhhaş] söyüş söyən, söyüşcül, söyüşkən

فحاشی [fəhhaşi] söyüş söymə; کردن ~ söyüş söymək

فحش [fohş] söyüş; دادن ~ söyüş söymək

فحشا [fəhşa] fəhişəlik; əxlaqsızlıq, pozğunluq

فحش کاری [fohşkari] *dan. bax* فحاشی

فحص [fəhs] *bax* تفحص; کردن ~ axtarmaq

فحل [fəhl] *c.* فحول [fohul] 1) erkək (*heyvan*); 2) görkəmli, məşhur (*adam*); 3) igid, cəsur

فحوا [fəhva] məna, anlam

فخار [fəxxar] saxsı qab ustası, dulusçu

فخاری [fəxxari] dulusçuluq

فخامت [fəxamət] 1) böyüklük, əzəmət; 2) əsil-köklük, əsilzadəlik, nəciblik; 3) ad-san

فخر [fəxr] fəxr, iftixar, qürur; کردن ~ fəxr etmək, qürur duymaq

فخر آور [fəxravər] fəxrli, qürurlu

فخیم [fəxim] hörmətli, möhtərəm, nüfuzlu

فدا [fəda // feda] fəda, qurban; شدن ~ qurban olmaq; کردن ~ qurban vermək; فدایت شوم qurbanın olum

فداکار [fədakar] fədakar, canından keçən

فداکارانه [fədakarane] fədakarcasına, fədakarlıqla

فداکاری [fədakari] fədakarlıq

فر [fər(r)] 1) gözəllik; parlaqlıq; 2) təntənə, dəbdəbə; 3) böyüklük, əzəmət

فر [fer] burulmuş saç, buruq saç; خوردن ~ burulmaq (*saç*); زدن ~ burmaq (*saçı*)

فرا [fəra] istiqamət bildirən ön qoşma (*fellərlə işlənir*)

فرا آمدن [fəraamədən] irəli çıxmaq, irəli gəlmək, yaxınlaşmaq

فرا آوردن [fəraavərdən] 1) əldə etmək, almaq; hasil etmək; 2) istehsal etmək, düzəltmək

فراخ [fərax] 1) geniş, enli, gen; 2) gen-bol, bol, çox

فراخواندن [fəraxandən] 1) çağırmaq, dəvət etmək; 2) geri çağırmaq

فراخی [fəraxi] 1) genişlik; 2) gen-bolluq

فرار [fərar // ferar] qaçma, qaçış; دادن ~ a) qaçırmaq; b) qaçmağa məcbur etmək; کردن ~ qaçmaq

فرار [fərrar] 1) *kim.* tez buxarlanan, uçan; ~ مواد tez buxarlanan maddələr; 2) *bax* فراری

فرا رسیدن [fərarəsidən] çatmaq, yetişmək

فرارفتن [fərarəftən] 1) irəli getmək; irəli çıxmaq; 2) qaçmaq; uzaqlaşmaq; 3) təəccüblənmək, heyrətlənmək

فراری [fərari] fərari, qaçan (*əsgər, dustaq*); ~سرباز fərari, dezertir; ~ دادن (کردن) qaçmağa məcbur etmək; شدن ~ a) qaçmaq; b) gizlənmək

فراز [fəraz] 1) yüksəklik, hündürlük, yoxuş; 2) geniş, açıq; 3) bağlı, qapalı; آمدن ~ a) yaxın gəlmək, yaxınlaşmaq; b) çatmaq, yetişmək, gəlib çatmaq; c) qalxmaq, yuxarı qalxmaq; خواندن ~ çağırtdırmaq; yanına çağırmaq; کشیدن ~ a) çəkmək, dartmaq, özünə tərəf çəkmək; b) çıxarmaq (*qından, qıfıldan*), siyirmək

فراز [f(o)raz] cümlə, ifadə

فراز مند [fərazmənd] artan, çoxalan, yüksələn

فرازی [fərazi] *bax* فراز [fəraz] 1)

فراست [fərasət // ferasət] fərasət, dərrakə, huş, ağıl, gözüaçıqlıq

فراش [fəraş] kəpənək

فراش [fərraş] fərraş, xidmətçi; **~ پست** poçt xidmətçisi, poçtalyon

فراش [feraş] fərş, xalı; döşək, yataq

فراشا [fəraşa] titrəmə, əsmə, lərzə; üşütmə

فراغ [fərağ] *bax* **فراغت**; **~ خاطر** xatircəmlik, qəlb rahatlığı

فراغت [fərağət] 1) asudəlik, rahatlıq; sakitlik; sərbəstlik; 2) boş vaxt, asudə vaxt

فراق [ferağ // fərağ] ayrılıq; **~ کشیدن** ayrılıq çəkmək, ayrı düşmək

فراکشیدن [fərakeşidən] 1) yuxarı qaldırmaq; 2) çəkmək, özünə tərəf çəkmək, dartmaq

فراگذاشتن [fəraqozaştən] əldən buraxmaq, əldən qaçırmaq

فراگرفتن [fəragereftən] 1) öyrənmək, mənimsəmək, yiyələnmək; 2) bürünmək, yayılmaq; əhatə etmək

فراگوش [fəraquş]: **~ داشتن** diqqətlə qulaq asmaq

فراموش [fəramuş] unudulmuş; unutma, yaddan çıxarma; **~ شدن** unudulmaq, yaddan çıxmaq; **~ کردن** unutmaq, yaddan çıxarmaq

فراموشی [fəramuşi] unutma, yaddan çıxarma

فراوان [fəravan] bol, firavan; çox; **~ محصول** bol məhsul; **~ شدن** bollaşmaq, artmaq, çoxalmaq

فراوانی [fəravani] bolluq, firavanlıq, çoxluq

فراورده [fəravərde] məhsul, mal, məmulat; **فراورده های صنعتی** sənaye məhsulları

فراهم [fərahəm] 1) toplanılmış, yığılmış; 2) hazır, hazırlanmış; **~ شدن** hazır olmaq, hazırlanmaq; **~ کردن (آوردن)** a) yığmaq; b) hazırlamaq

فربه [fərbeh] 1) yağlı, kök; 2) ağır; iri, çox yekə; yekəpər; **~ شدن** kökəlmək; **~ کردن** kökəltmək

فربهی [fərbehi] köklük, şişmanlıq

فرتوت [fərtut] əldən düşmüş, taqətdən düşmüş, qarımış, qocalmış

فرج [fərəc] 1) təskinlik, təsəlli, rahatlıq; 2) vəziyyətdən çıxma, xilas olma

فرج [fərc] *c.* **فروج** [foruc] 1) qadın cinsiyyət orqanı; 2) deşik

فرجام [fərcam] 1) son, axır; 2) *hüq.* kassasiya şikayətinə baxılma

فرجه [force] 1) fasilə, ara; möhlət; 2) *c.* **فرج** [forəc] deşik; **~ دادن** möhlət vermək

فرح [fərəh] fərəh, sevinc, şadlıq

فرح افزا [fərəhəfza] fərəhli, sevindirici

فرح انگیز [fərəhəngiz] *bax* **فرح افزا**

فرح بخش [fərəhbəxş] *bax* **فرح افزا**

فرخ [fərrox] 1) xoşbəxt; 2) təmtəraqlı, dəbdəbəli; 3) gözəl, incə

فرخ فال [fərroxfal] xoşbəxt, xoştaleli

فرخ لقا [fərroxləğa // fərroxleğa] gözəl, qəşəng, məlahətli

فرخندگی [fərxondegi] xoşbəxtlik, səadət

فرخنده [fərxonde] 1) xoşbəxt; 2) şən, şad, sevincli

فرخنده بخت [fərxondebəxt] *bax* **فرخنده 1)**

فرخنده حال [fərxondehal] sevincli, şən; şux

فرد [fərd] *c.* **افراد** [əfrad] 1) tək, cüt olmayan; **~ روزهای** tək günlər; 2) şəxs, nəfər; 3) vahid, yeganə

فردا [fərda] sabah, sabahkı gün, ertəsi gün

فرداً [fərdən] ayrıca, tək, təklikdə

فرداً فرد [fərdənfərd] tək-tək, bir-bir

فرد پرستی [fərdpərəsti] 1) eqoistliyin ifrat dərəcəsi, eqosentrizm; 2) şəxsiyyətə pərəstiş

فردفرد [fərdfərd] *bax* **فرداً فرد**

فردگرا [fərdgəra] fərdiyyəçi, şəxsi mənafeyi hər şeydən üstün tutan

فرد گرایی [fərdgərayi] fərdiyyətçilik, şəxsi mənafeyi hər şeydən üstün tutma

فردوس [ferdous] cənnət bağı

فردی [fərdi] fərdi, şəxsi; **~کار** şəxsi iş, şəxsi vəzifə

فردیت [fərdiyyət] fərdiyyət, fərdlik, təklik, vahidlik

فرزانگی [fərzanegi] ağıllılıq, müdriklik

فرزانه [fərzane] *c.* **فرزانگان** [fərzaneqan] 1) ağıllı, bilikli; 2) müdrik; alim, bilici

فرزند [fərzənd] övlad (*qız, oğul*)

فرزندخواندگی [fərzəndxandegi] övladlığa götürmə

فرزند خوانده [fərzəndxande] övladlığa götürülmüş (*oğlan, qız*)

فرزند زاده [fərzəndzade] nəvə

فرس [fərəs] 1) *astr.* Peqas; 2) at, madyan

فرساینده [fərsayənde] yorucu, bezici, üzücü

فرستادن [ferestadən] *k.* **فرست** [ferest] göndərmək, yollamaq

فرستاده [ferestade] **فرستادن** *f.-nin k.z.f.sif.:* 1) göndərilmiş; 2) nümayəndə; 3) *din.* elçi, peyğəmbər

فرستنده [ferestənde] 1) göndərən; 2) ötürücü; **~ دستگاه** ötürücü cihaz

فرستوک [fərəstuk] *bax* **پرستو**

فرسخ [fərsəx] fərsəx (*6 km-ə bərabər məsafə*)

فرسودگی [fərsudegi] 1) xarab olma; yeyilmə; 2) yorğunluq, halsızlıq

فرسودن [fərsudən] *k.* **فرسا** [fərsa] 1) köhnəlmək, xarab olmaq, yeyilmək; 2) əldən düşmək, yorulmaq

فرسوده [fərsude] **فرسودن** *f.-nin k.z. f.sif.:* 1) köhnəlmiş, xarab olmuş, yeyilmiş; 2) əldən düşmüş, yorulmuş

فرش [fərş] 1) xalça, xalı, palaz; 2) fərş, döşəmə, örtük; 3) yer örtüyü; **~ زمین** yer üzü; **~ کردن (انداختن)** sərmək (*xalça, palaz*)

فرشته [fereşte] firişta, mələk

فرشته خصال [fereştexesal] mələk təbiətli, yumşaqxasiyyətli

فرصت [fərsət] 1) fürsət, münasib vaxt, imkan; 2) boş vaxt; **~ داشتن** fürsət tapmaq, imkan tapmaq; **~ دانستن (شمردن)** fürsətdən istifadə etmək; **~ را ازدست دادن** fürsəti əldən vermək; **~ را غنیمت شمردن** fürsəti qənimət saymaq; ◊ **~ سر خاراندن نداشتن** baş qaşımağa vaxt tapmamaq, baş qaşımağa macalı olmamaq

فرصت جو [fərsətcu] fürsət axtaran, münasib vaxt gözləyən; şəraitə uyğunlaşan

فرصت طلب [fərsəttələb] ikiüzlü; vəziyyətə, şəraitə görə hərəkət edən; prinsipsiz adam

فرصت طلبی [forsəttələbi] ikiüzlülük; vəziyyətə, şəraitə görə hərəkət etmə; prinsipsizlik

فرض [fərz] 1) fərz, güman, təxmin; 2) vacib, zəruri; **شمردن ~** vacib saymaq, zəruri saymaq; **کردن ~** fərz etmək

فرضا [fərzən] tutaq ki, tutalım

فرضیه [fərziyye] *c.* **فرضیات** [fərziyyat] fərziyyə, ehtimal, güman

فرط [fərt] çoxluq, həddindən artıq; şiddət; **از ~ تشنگی** susuzluğun şiddətindən; **از ~ خستگی** həddindən artıq (*çox*) yorğunluqdan

فرع [fər'] *c.* **فروع** [foru'] // **فروعات** [foru'at] 1) qol, budaq, şaxə; 2) faiz; 3) ikincidərəcəli məsələ

فرعی [fər'i] 1) ikincidərəcəli, azəhəmiyyətli; **~ محصول** əlavə məhsul; 2) köməkçi, yardımçı; **~ خط** ehtiyat xətt; 3) *qram.* **~ جمله** budaq cümlə

فرق [fərğ] I fərq, təfavüt; **کردن ~** fərqlənmək; **گذاشتن ~** fərqləndirmək

فرق [fərğ] II başın təpəsi; 2) tağ (*saç ayırımı*); **راست ~** düz saç ayırımı; **کج ~** əyri saç ayırımı; **باز ~ کردن** saç ayırmaq

فرقان [forğan] *din.* 1) haqqı batildən (*həqiqəti yalandan*) ayıran; 2) Quran

فرقت [forğət] *bax* **فراق**

فرقدان [fərğədan] 1) *astr.* Kiçik Ayı bürcündəki iki parlaq ulduz; 2) yüksək vəzifə

فرقه [ferğe] *c.* **فرق** [ferəğ] 1) *din.* təriqət, məzhəb; 2) qrup; partiya

فرم [ferm] ferma; **~ صاحب** fermer

فرم [form] 1) forma; **~ دبستانی** məktəb forması; 2) xarici görünüş

فرمال [formal] 1) formal; 2) zahiri, xarici

فرمالیته [formalite] 1) rəsmiyyət, formalizm; 2) rəsmiyyətçilik

فرمان [fərman] I *c.* **فرامین** [fərəmin] fərman, əmr; **بردن ~** əmrə itaət etmək; **دادن ~** fərman vermək; **یافتن ~** a) əmr almaq; b) ölmək

فرمان [fərman] II sükan; **~ هواپیما** təyyarənin sükanı

فرمان بردار [fərmanbərdar] əmrə tabe olan; itaətkar, itaət edən

فرمان دار [fərmandar] qubernator

فرمانداری [fərmandari] qubernatorluq

فرمانده [fərmandeh] 1) komandir; 2) hökmdar

فرماندهی [fərmandehi] 1) komandanlıq; **کل ~** baş komandanlıq; 2) komandanlıq etmə

فرمان روا [fərmanrəva] 1) hakim, hökmdar; 2) hakimlik edən, hökmranlıq edən

فرمانروایی [fərmanrəvayi] 1) hakimlik etmə, hökmranlıq etmə, idarə etmə; 2) hakimlik, hökmdarlıq

فرمان فرما [fərmanfərma] 1) general-qubernator; 2) əmr verən, ağa

فرمان گزار [fərmanqozar] *bax* **فرمان بردار**

فرمایش [fərmayeş] *c.* **فرمایشات** [fərmayeşat] əmr, göstəriş, buyruq

فرمایشی [fərmayeşi] 1) zorla qəbul edilmiş, əmrlə təşkil edilmiş; məcburi; 2) qeyri-qanuni; **~ دادگاه** qeyri-qanuni (*sifarişli*) məhkəmə

فرماینده [fərmayəndə] buyuran, əmr edən

فرمودن [fərmudən] *k.* **فرما** [fərma] 1) buyurmaq, əmr etmək; 2) demək.

söyləmək; 3) **کردن** // **دادن** fellərinin sinonimi (*mürəkkəb-tərkibi fellərdə*); **~ امر** əmr vermək; **~ اجازه** icazə vermək; **~ احضار** çağırtdırmaq

فرمول [formul] formul, düstur; **~ جبر** cəbr formulu (*düsturu*)

فرموله [formule] xülasə edilmiş, qısa şəkildə ifadə edilmiş; **کردن ~** qısa və dəqiq ifadə etmək, xülasə etmək

فرنگ [fərəng] 1) Avropa; **~ اهل** avropalı; 2) Fransa

فرنگستان [fərənggestan] *bax* **فرنگ**; Avropa ölkələrindən hər hansı biri

فرنگی [fərəngi] 1) avropalı; 2) Avropaya məxsus; avropasayağı; **~ مد** Avropa dəbi (*modası*)

فرنگی ساز [fərəngisaz] mebel ustası

فرنگی مآب [fərəngimməab] Avropa meyilli; Avropapərəst

فرنی [fer(e)ni] firni (*düyü unu, şəkər və südlə hazırlanan duru xörək*)

فرو [foru] 1) aşağı; alt; eniş; 2) alçaq (*yer*)

فروآمدن [foruamədən] 1) aşağı düşmək, enmək; 2) tökülmək, dağılmaq, uçmaq; **سقف خانه ~** evin damının uçması

فروآوردن [foruavərdən] aşağı salmaq; endirmək, düşürmək; ◊ **~ سر** a) baş əymək; b) tabe olmaq, təslim olmaq

فرو بردن [forubordən] 1) batırmaq (*suya*); aşağı salmaq; 2) udmaq; **لقمه ~ را** loğmanı (*tikəni*) udmaq

فروبستن [forubəstən] 1) bağlamaq; 2) yummaq, örtmək (*gözü*); **~ چشم** göz yummaq; ◊ **~ دم** sakit olmaq, susmaq

فروتن [forutən] təvazökar, sadə

فروتنی [forutəni] təvazökarlıq, sadəlik

فروخت [foruxt] satış

فروختن [foruxtən] I *k.* **فروش** [foruş] satmaq; **~ نسیه** nisyə satmaq; **~ نقد** nağd pula satmaq

فروختن [foruxtən] II *k.* **فروز** [foruz] *bax* **افروختن**

فروختنی [foruxtəni] satılmalı, satış üçün qoyulan

فروخوردن [foruxordən] 1) *bax* **فروبردن**; 2) qəzəbini udmaq, hirsini saxlamaq

فرود [forud] 1) aşağı düşmə, enmə; 2) enmə, düşmə (*təyyarə*); **~ اجباری** məcburi enmə; **~ آمدن** *bax* **فروآمدن**; **~ آوردن** a) *bax* **فروآوردن**; b) endirmək (*təyyarəni*)

فرودست [forudəst] 1) qüvvəsiz, zəif, aciz; 2) yazıq, əliaşağı

فرودگاه [forudqah] aeroport, hava limanı

فرودهمت [forudhemmət] nifrətəlayiq; alçaq, rəzil, yaramaz

فروردین [fərvərdin] fərvərdin (*İran hicri-şəmsi təqviminin birinci ayı: 21 mart-20 aprelə uyğun gəlir*)

فرورفتگی [forurəftegi] çökək, çala, batıq, oyuq, çuxur

فرورفتن [forurəftən] 1) enmək, düşmək; 2) suya cummaq; 3) yuxuya dalmaq; 4) xəyala dalmaq

فروریختگی [forurixtegi] 1) uçma (*bina*); dağılma, tökülmə; 2) xarab olma

فروریختن [forurixtən] 1) uçmaq (*bina*); dağılmaq, yıxılmaq; tökülmək; 2) xarab olmaq

فروزان [foruzan] parlaq, parıldayan; işıqlı

فروزشگر [foruzeşgər] işıqlandıran, şəfəqsaçan, nursaçan

فروزندگی [foruzəndegi] *bax* فروغ

فروش [foruş] فروختن *f.-nin k.*; satış; به ~ رساندن satmaq; به ~ رسیدن satılmaq

فروشگاه [foruşqah] universal mağaza, univermaq

فروشنده [foruşənde] *c.* فروشندگان [foruşəndeqan] satıcı; satan

فروع [foru'] *t.* فرع

فروغ [foruğ] parıltı; işıq

فروغ بخش [foruğbəxş] parıldadan, işıqlandıran

فروغمند [foruğmənd] parlaq, işıqlı

فروغمندی [foruğməndi] *bax* فروغ

فروکردن [forukərdən] sancmaq, batırmaq, soxmaq

فروکش [forukeş] enmə, düşmə, azalma, əskilmə

فروکشیدن [forukeşidən] enmək, düşmək; ◊غضبش فرو کشید qəzəbi yatdı, hirsi soyudu

فروگذار [foruqozar] *bax* فروگذاری; ~ نمودن əsirgəməmək

فروگذاری [foruqozari] etinasızlıq, laqeydlik, saymazlıq, sayğısızlıq; ~ کردن a) etinasızlıq göstərmək, laqeydlik göstərmək; b) imtina etmək; istəməmək

فروگرفتن [forugereftən] əhatə etmək, dövrəyə almaq

فرومالیدن [forumalidən] sıxmaq, sıxıb qarışdırmaq

فروماندن [forumandən] 1) çıxılmaz vəziyyətə düşmək; 2) aciz qalmaq; 3) ehtiyac içində olmaq; 4) yorulmaq, əldən düşmək

فرومانده [forumande] فروماندن *f.-nin k.z.f.sif.*; 1) aciz; 2) kasıb; 3) yorğun

فرومایگی [forumayegi] alçaqlıq, rəzillik, yaramazlıq

فرومایه [forumaye] alçaq, rəzil, yaramaz

فرونت [front] 1) cəbhə; 2) sıra; ön sıra, qabaq tərəf

فروند [fərvənd] numerativ söz (*gəmi və təyyarələr üçün*); دو ~ هواپیما iki ədəd təyyarə

فرونشاندن [foruneşandən] 1) sakitləşdirmək; yatırtmaq (*qiyamı, üsyanı*); 2) söndürmək; ~ آتش را atəşi söndürmək

فرونشستن [foruneşəstən] 1) sakit olmaq, sakitləşmək; 2) sönmək, yatmaq (*yanğın, alov və s.*)

فروهر [foruhər // fərvəhər] 1) mələk (*Zərdüşt dinində*); 2) mahiyyət

فروهشتن [foruheştən] 1) uzatmaq (*saçı, saqqalı*); 3) əfv etmək, bağışlamaq; 4) asılmaq, sallanmaq; 5) çəkilmək (*tərəzidə*); 6) buraxmaq, azad etmək

فروهیده [foruhide] 1) bilikli, elmli; 2) aşkar, aydın; 3) gözəl, xoşagəlimli, cəlbedici

فره [fərre] bax فر [fər(r)]

فرهنگ [fərhəng] 1) mədəniyyət; maarif; 2) təhsil; 3) lüğət, sözlük

فرهنگ پرست [fərhəngpərəst] maarifpərvər

فرهنگ دوست [fərhəngdust] *bax* فرهنگ پرست

فرهنگستان [fərhəngestan] akademiya, elmlər akademiyası

فرهنگ نامه [fərhəngname] 1) *bax* دایرة المعارف; 2) izahlı lüğət; ensiklopedik lüğət

فرهنگ نویس [fərhəngnevis] lüğətçi, leksikoqraf

فرهنگی [fərhəngi] 1) mədəni; 2) mədəniyyət-maarif işçisi

فرهیختن [fərhixtən] *k.* فرهیز [fərhiz] tərbiyə etmək, təlim etmək

فریاد [fəryad] fəryad, qışqırıq, haray; fəryad çəkmək ~ برآوردن (زدن، کردن، کشیدن) qışqırmaq; ~ به رسیدن fəryada çatmaq; kömək etmək

فریاد خوان [fəryadxan] *bax* فریاد خواه

فریاد خواه [fəryadxah] köməyə çağıran

فریاد رس [fəryadrəs] köməyə çatan, kömək edən; xilaskar

فریب [fərib] فریفتن *f.-nin k.*; aldatma, yalan, kələk gəlmə; ~ خوردن aldanmaq; ~ دادن aldatmaq

فریب آمیز [fəribamiz] aldadıcı; yalan

فریباندن [fəribandən] *bax* فریفتن

فریب خور [fəribxor] tez aldanan, sadəlövh

فریب ده [fəribdeh] *bax* فریب کار

فریبرز [fəriborz] boylu-buxunlu, gözəl qamətli

فریب کار [fəribkar] 1) yalançı, fırıldaqçı, kələkbaz; 2) yalan danışan, aldadan

فریب کاری [fəribkari] 1) yalançılıq, fırıldaqçılıq, kələkbazlıq; 2) yalan danışma, aldatma

فریبیدن [fəribidən] *k.* فریب [fərib] *bax* فریفتن

فرید [fərid] misilsiz, nadir, yeganə

فریفتن [fəriftən] *k.* فریب [fərib] aldatmaq; yalan demək

فریور [fərivər] düz adam, təmiz adam; ədalətli, insaflı, imanlı

فزایش [fəzayeş] *bax* افزایش

فزودن [fozudən] *k.* فزا (ی) [fəza(y)] *bax* افزودن

فزون [fozun] *bax* افزون; ~ شدن artmaq, çoxalmaq

فزون گویی [fozunquyi] boş-boş danışma, boşboğazlıq, çərənçilik, uzunçuluq

فزونی [fozuni] bax افزونی

فساد [fəsad // fesad] 1) fəsad, pozğunluq; 2) çürüklük; korlanma; iylənmə; 3) qarışıqlıq; nifaq; hərcmərclik; qiyam

فسادانگیز [fəsadəngiz] 1) fəsad törədən, çürüdən, çürüdücü, pozucu; 2) nifaq salan, qarışıqlıq törədən

فسار [fesar] *bax* افسار

فسانه [fəsane] *bax* افسانه

فساییدن [fəsayidən] valeh etmək, məftun etmək, heyran etmək

فستیوال [festival] festival

فسحت [foshət] genişlik, geniş yer, meydan

فسخ [fəsx] ləğv etmə; pozma (*müqaviləni*); ~ کردن ləğv etmək; pozmaq; ~ شدن ləğv olunmaq, pozulmaq

فسردن [fesordən] *bax* افسردن

فسق [fesğ] 1) pozğunluq, əxlaqsızlıq; ~ و فجور pozğunluq və əxlaq düşkünlüyü; 2) günah; ~ کردن a) pozğunluq etmək; b) günah işləmək

فسنجان [fesencan] fisincan

فسون [fosun] *bax* افسون

فسونگر [fosungər] *bax* افسونگر

فسیح [fəsih] geniş; tutumlu, həcmli

فسیل [fəsil] daşa dönmə, daşlaşma; ~ شدن daşa dönmək, daşlaşmaq

فش [feş] şırıltı, şırıldama

فشار [feşar] فشردن *f.-nin k.* 1) təzyiq; ~ خون qan təzyiqi; 2) sıxma,

sıxışdırma; دادن ~ sıxmaq; وارد ~ آوردن təzyiq göstərmək

فشارسنج [feşarsənc] *tex.* manometr

فشارنگار [feşarneqar] baroqraf

فشردن [feşordən] *k.* فشار [feşar] 1) sıxmaq; 2) təzyiq göstərmək, basmaq; 3) zülm etmək

فشرده [feşorde] فشردن *f.-nin k.z.f.sif.*; 1) sıxılmış; 2) qısa, müxtəsər, xülasə, icmal; مقاله ~ məqalənin xülasəsi

فشفشه [feşfeşe] raket (*atəşfəşanlıq üçün*); mərmi

فشنگ [feşəng] patron

فصاحت [fəsahət] fəsahət, bəlağət, natiqlik istedadı, gözəl və aydın danışma bacarığı

فصل [fəsl] *c.* فصول [fosul] 1) fəsil; mövsüm; بهار ~ yaz fəsli; 2) bölüm, hissə, fəsil (*kitabda*); 3) ayrılıq; ayırma; کردن ~ ayırmaq

فصلی [fəsli] mövsümi; بیماری ~ mövsümi xəstəlik; میوجات ~ mövsümi meyvələr

فصیح [fəsih] *c.* فصحا [fosəha] gözəl danışan, natiq

فصیح البیان [fəsiholbəyan] nitqi gözəl olan, gözəl danışan

فضا [fəza] fəza, hava, atmosfer

فضاپیما [fəzapeyma] *bax* فضا نورد

فضاحت [fəzahət] rüsvayçılıq, biabırçılıq; bədnamlıq; کردن ~ rüsvayçılıq etmək

فضاحت آمیز [fəzahətamiz] rüsvayçı, biabırçı

فضاشناسی [fəzaşenasi] kosmonavtika; kosmik tədqiqatlar

فضانورد [fəzanəvərd] 1) kosmonavt; 2) kosmik; سفینه ~ kosmik gəmi

فضل [fəzl] 1) müdriklik, ağıl, kamal, bilik; 2) üstünlük, imtiyaz; 3) kamillik; ارباب ~ alimlər, müdriklər; داشتن ~ a) bilik sahibi olmaq; b) üstün olmaq, imtiyaz sahibi olmaq; c) səxavətli olmaq

فضله [fəzle] *c.* فضلات [fəzəlat] // فضولات [fozulat] 1) nəcis; 2) tullantı

فضول [fozul] başqalarının işinə qarışan; boşboğaz

فضولی [fozuli] başqalarının işinə qarışma; boşboğazlıq; کردن ~ boşboğazlıq etmək

فضیحت [fəzihət] *c.* فضایح [fəzayeh] *bax* فضاحت

فضیلت [fəzilət] *bax* فضل

فطانت [fətanət] fərasət, dərrakə, bəsirət, ayıqlıq, gözüaçıqlıq

فطر [fetr] orucluğun bitməsi; عید ~ orucluq bayramı

فطرت [fetrət] təbiət, xasiyyət

فطرتاً [fetrətən] təbiətcə, təbiətə görə, xüsusiyyətcə

فطری [fetri] fitri, təbii

فطیر [fətir] 1) fətir, duzsuz çörək; 2) mayasız xəmir

فعال [fəal] fəal, aktiv

فعالانه [fəalane] fəallıqla, fəal şəkildə, fəal surətdə

فعالیات [fəaliyyət] fəaliyyət, fəallıq

فعل [fe'l] *c.* افعال [əf'al] 1) iş, hərəkət; 2) *qram.* fel

فعلاً [fe'lən] 1) hal-hazırda, indi; 2) hələlik

فعلگی [fəəlegi // fə'legi] 1) fəhləlik; 2) günəmuzd işləmə; az muzdla (*əməkhaqqı ilə*) işləmə

فعله [fəəle // fə'le] fəhlə; günəmuzd işçi

فعلی [fe'li] hazırkı, indiki; وضع ~ indiki vəziyyət

فغان [fəğan // feğan] 1) fəğan, qışqırıq, fəryad; 2) aman, təəssüf; ~ برآوردن qışqırmaq, fəryad etmək

فغفور [fəğfur] 1) Çin imperatoru; Çində əyalət adı; 2) çini qab, farfor

فقار [fəğar] *anat.* fəqərə, fəqərə sümüyü; onurğa sümüyü

فقار داران [fəğardaran] *zool.* onurğalılar, onurğalı heyvanlar

فقاری [fəğari] onurğalı (*heyvan*)

فقدان [foğdan] 1) yoxluq; 2) itki

فقر [fəğr] ehtiyac, kasıblıq, yoxsulluq

فقرا [foğəra] *t.* فقیر

فقره [fəğəre] 1) fəqərə sümüyü; 2) bənd, maddə; 3) numerativ söz (*məruzə və yazılarda*)

فقط [fəğət] fəqət, ancaq, yalnız, təkcə

فقه [feğh] fiqh (*şəriət qanunları, müsəlman hüquqşünaslığı*)

فقید [fəğid] mərhum, rəhmətlik

فقیر [fəğir] *c.* فقرا [foğəra] 1) kasıb, yoxsul; yolçu, dilənçi; 2) sakit, fağır; 3) yazıq; شدن ~ kasıblaşmaq, yoxsullaşmaq

فقیه [fəğih] *c.* فقها [foğəha] fəqih, şəriət alimi; ruhani; müsəlman hüquqşünası

فک [fək(k)] çənə; اسفل ~ alt çənə; اعلی ~ üst çənə

فکاهی [fokahi] gülməli, yumoristik; مجله ~ yumoristik jurnal

فکاهیات [fokahiyyat] yumoristik hekayələr

فکر [fekr] *c.* افکار [əfkar] 1) fikir, düşüncə; 2) ideya, məqsəd, plan; کردن ~ fikirləşmək; افتادن به ~ fikrə düşmək; رفتن ~ (در// به) توی ~ fikrə getmək

فکری [fekri] fikri, əqli, zehni

فگار [fəqar // feqar] 1) dərdli, qəmli; 2) yorğun, əzgin

فلاح [fəlah] 1) qurtuluş, nicat; 2) qələbə

فلاح [fəllah] kəndli, əkinçi, cütçü

فلاحت [fəlahət] əkinçilik, kənd təsərrüfatı

فلاسک [fəlaşk] 1) termos; 2) çiyindən asılan su qabı

فلاکت [fəlakət] fəlakət, müsibət, bədbəxtlik

فلاکت بار [fəlakətbar] fəlakətli, müsibətli, faciəli; زندگی ~ faciəli həyat

فلاکس [felaks] *bax* فلاسک

فلان [folan // felan] filan

فلانکس [felankəs] filankəs, biri, birisi

فلانی [folani // felani] biri, birisi, kimsə

فلج [fələc] iflic; شدن ~ iflic olmaq; کردن ~ iflic etmək

فلز [felez(z)] filiz, metal

فلز سازی [felezsazi] metallurgiya

فلز کاری [felezkari] metal sənayesi

فلزگداز [felezqodaz] metaləridən

فلزگدازی [felezqodazi] metaləritmə

فلس [fəls] *c.* فلوس [folus] 1) xırda pul; 2) başlıq pulu

فلش [feleş] yol istiqaməti nişanları

فلفل [felfel] istiot; سبز ~ bibər

فلفل دان [felfeldan] istiot qabı

فلک [fələk] *c.* افلاک [əflak] fələk, göy, səma; tale, bəxt

فلکه [fələke] 1) dairəvi meydan; 2) çarx; karusel

فن [fən(n)] *c.* **فنون** [fonun] 1) fənn; elmin bir hissəsi; 2) məharət, sənət, hünər, bacarıq; 3) hiylə, kələk; 4) üsul (*güləşdə*); **زدن ~** *dan.* hiylə işlətmək

فن [fən] ventilyator, hava cərəyanı yaradan cihaz

فنا [fəna] fəna, yoxluq, ölüm; **شدن ~** yox olmaq; **کردن ~** yox etmək; ◊**به ~ باد دادن** *bax* **کردن ~**

فناپذیر [fənapəzir] müvəqqəti, keçici, etibarsız, daimi olmayan

فناتیسم [fənatism] 1) fanatizm, ifrat təəssübkeşlik; 2) mövhumat

فناتیک [fənatik] 1) fanatik; 2) mövhumatçı

فناناپذیر [fənanapəzir] ölməz, əbədi, daimi

فناناپذیری [fənanapəziri] ölməzlik, əbədilik, daimilik

فنجان [fencan] fincan; **~ چای خوری** çay fincanı

فند [fənd] *dan.* fənd, üsul (*güləşdə*); 2) hiylə, kələk

فندق [fəndoğ // fondoğ] *bot.* fındıq

فندق شکن [fəndoğşekən] fındıqsındıran

فندک [fəndək] alışqan

فنر [fənər] yay, resor

فنری [fənəri] yaylı; **~ تختخواب** yaylı çarpayı

فنومن [fenomen] fenomen, nadir, müstəsna, fövqəladə

فنی [fənni] 1) texniki; **~ کمک** texniki kömək; 2) texnikaya bələd olan, texnikanı bilən, texnika ilə məşğul olan; **~ دانشگاه** Texniki Universitet

فواره [fəvvarə] fəvvarə; **زدن ~** fəvvarə vurmaq

فواید [fəvayed] *t.* **فایده**

فوت [fout] 1) ölüm, ölmə; 2) itirmə, əldən vermə (*vaxtı*); **وقت ~** vaxtı itirmə; **شدن ~** a) ölmək; b) itmək (*vaxt*); **کردن ~** a) ölmək; b) itirmək (*vaxtı*)

فوت [fut] üfürmə; **کردن ~** üfürmək

فوتبال [futbal] futbol; **~ تیم** futbol komandası

فوته [fute] fitə

فوج [fouc] *c.* **افواج** [əfvac] 1) kütlə, izdiham, dəstə; 2) alay

فورا [fourən] dərhal, dayanmadan; tez; təcili

فوران [fəvəran] fəvvarə vurma; coşma (*maye*); **کردن ~** fəvvarə vurmaq; coşmaq (*maye*)

فورمول [formul] *bax* **فرمول**

فوری [fouri] təcili, tez, dayanmadan

فوز [fouz] 1) qələbə, qalibiyyət, zəfər; uğur; 2) qurtuluş, nicat

فوزلاژ [fuzelaj] *av.* təyyarənin gövdəsi

فوق [fouğ] 1) yuxarı, üst; üst hissə; 2) üstün

فوق الذکر [fouğəzzekr] yuxarıda adı çəkilən, yuxarıda qeyd olunan, sözügedən

فوق العاده [fouğəlade] fövqəladə; müstəsna; qeyri-adi

فوقانی [fouğani] yuxarı, yuxarıdakı; **~ طبقه (مرتبه)** yuxarı mərtəbə

فولاد [fulad] polad

فولادریزی [fuladrizi] poladtökmə, poladqayırma

فولادسازی [fuladsazi] poladəritmə, metallurgiya; **~ کارخانه** metallurgiya zavodu

فولادگدازی [fuladqodazi] *bax* **فولاد سازی**

فولادگری [fuladgəri] polad məhsulları hazırlama

فولادی [fuladi] 1) poladdan hazırlanmış; 2) poladı, polad rəngi

فولادین [fuladin] 1) möhkəm, əyilməz, sarsılmaz; **~ اراده** sarsılmaz iradə; 2) *bax* **فولادی**

فولکلور [folklor] folklor

فونتیک [fonetik] fonetika

فونوگراف [fonoqraf] fonoqraf, səsyazan aparat

فونیکولر [funikuler] funikulyor

فهرست [fehrest] 1) siyahı; mündəricat; 2) kataloq; **کردن ~** a) siyahıya almaq; b) kataloqlaşdırmaq

فهم [fəhm] fəhm, dərrakə, anlaq; **سریع ~** ayıqlıq, zirəklik; **~ قابل** başa düşülən; **~ غیر قابل** başa düşülməyən; **کردن ~** başa düşmək, anlamaq

فهماندن [fəhmandən] başa salmaq, anlatmaq

فهمیدن [fəhmidən] başa düşmək, anlamaq; dərk etmək

فهمیدگی [fəhmidegi] fərasət, dərrakə, gözüaçıqlıq

فهمیده [fəhmide] **فهمیدن** *f.-nin* [illegible] başa düşən, dərrakəli, gözüaçıq

فهیم [fəhim] ağıllı, düşüncəli, dərrakəli

فیاض [fəyyaz] 1) səxavətli, əliaçıq; 2) bərəkətli; məhsuldar; 3) çox sulu arx, bol sulu arx

فی الجمله [filcomle] müxtəsər, bir sözlə, xülasə

فی الحال [filhal] dərhal, o saat

فی الحقیقه [filhəğiğe] həqiqətən, doğrudan

فی الفور [filfour] *bax* **فی الحال**

فی المثل [filməsəl] məsələn, misal üçün

فی الواقع [filvağe] *bax* **فی الحقیقه**

فیروز [firuz] qalib, qələbə çalan, müzəffər

فیروزه [firuze] *miner.* firuzə (*qiymətli daş*)

فیروزی [firuzi] 1) qələbə; 2) uğur, müvəffəqiyyət

فیش [fiş] I kartoçka (*kataloq üçün*)

فیش [fiş] II fit, fıştırıq; **کردن ~** fit çalmaq

فیشیه [fişye] 1) kartoteka; 2) kartoteka qutusu

فیصل [feysəl] 1) həll, həll etmə; 2) qərar, nəticə; **دادن ~** həll etmək

فیض [feyz] *c.* **فیوض** [foyuz] 1) fayda, mənfəət (*mənəvi cəhətdən*); 2) mehribanlıq; xeyirxahlıq; 3) bolluq, firavanlıq; **بردن ~** fayda götürmək, mənfəət əldə etmək

فیل [fil] fil

فیلتر [filt(e)r] filtr, süzgəc

فیلسوف [filsuf] *c.* **فلاسفه** [fəlasefə] filosof

فیلم [film] film; **رنگی ~** rəngli film; **مستند ~** sənədli film; **بدیعی ~** bədii film; **برداشتن ~** film çəkmək

فیلم بردار [filmbərdar] kinooperator

فیلم برداری [filmbərdari] kinoçəkmə, kinofilm çəkilişi

فیلو لوژی [filoloji] filologiya; **ایرانی** İran filologiyası

فیلولوگ [filoloq] filoloq

ق

ق [ğaf] fars əlifbasının iyirmi dördüncü hərfi; əbcəd hesabında 100 rəqəmini ifadə edir.

قاب [ğab] I 1) çərçivə, haşiyə; 2) qab, qutu, futlyar; 3) sini, podnos; **کردن (گرفتن)** ~ çərçivəyə salmaq

قاب [ğab] II 1) *anat.* buxovluq oynağı; 2) aşıq (*heyvan ayağındakı sümük*); ◊ **کسی را دزدیدن** ~ kiminsə rəğbətini qazanmaq

قاب انداز [ğabəndaz] *bax* **قاب باز**

قاب اندازی [ğabəndazi] *bax* **قاب بازی**

قاب باز [ğabbaz] aşıq-aşıq oynayan; qumarbaz

قاب بازی [ğabbazi] aşıq-aşıq oyunu; qumarbazlıq, qumar oynama; **کردن** ~ aşıq-aşıq oynamaq; qumar oynamaq

قاب دار [ğabdar] çərçivəli

قاب دستمال [ğabdəstmal] aşpazxana dəsmalı

قاب ساز [ğabsaz] çərçivə qayıran (*usta*); futlyar qayıran (*usta*)

قابض [ğabez] 1) büzüşdürücü (*dad*); 2) bərkidici; qəbz edən (*dərman*); 3) alan, tutan

قابض الارواح [ğabezolərvah] *din.* canalan mələk, ölüm mələyi (*Əzrail*)

قابل [ğabel] 1) qabiliyyətli, bacarıqlı; istedadlı; ~ **شاگرد** istedadlı şagird; 2) layiq; **احترام** ~ hörmətə layiq; 3) qəbul edən; qəbul edilən; mümkün olan; **اجرا** ~ icra oluna bilən; **استفاده** ~ istifadəyə yararlı; ~ **تحمل** dözülə bilən; ◊ **ندارد** ~ dəyməz, boş şeydir (*təşəkkür müqabilində*)

قابلگی [ğabelegi] mamalıq; mamalıq ixtisası

قابلمه [ğabləme // ğableme] qazan

قابله [ğabele] mama, mamaça

قابلیت [ğabeliyyət] 1) qabiliyyət, bacarıq, istedad; 2) xüsusiyyət; ~ **انحلال** həllolma xüsusiyyəti; ~ **داشتن** a) qabiliyyəti olmaq; b) xüsusiyyəti olmaq

قاپیدن [ğapidən] *dan.* qapmaq, qapışdırmaq, qarmalamaq, tutmaq, yapışmaq

قاتق [ğateğ // ğatoğ] 1) qatıq; 2) *dan.* çörəklə yeyilən (*yağ, pendir və s.*)

قاتل [ğatel] *c.* **قتال** [ğottal] 1) qatil; 2) öldürücü; ~ **سم** öldürücü zəhər

قاتمة [ğatme] qatma, tükdən qayrılmış möhkəm sap

قاتی [ğati] qarışıq; **شدن** ~ qarışmaq; qarışdırılmaq; **کردن** ~ qarışdırmaq; **هم کردن** ~ bir-birinə qarışdırmaq

قاتی پاتی [ğatipati] *dan.* qarmaqarışıq, dağınıq, səliqəsiz; **کردن** ~ qatıb-qarışdırmaq, qarmaqarışıq etmək, dağıtmaq

قاچ [ğaç] 1) dilim, tikə; 2) kəsik, yarıq; 3): **زین** ~ yəhərin qaşı (*ön tərəfi*); **(شدن) خوردن** ~ kəsilmək, yarılmaq; çatlamaq; **دادن** ~ kəsmək, yarmaq; **کردن** ~ dilim-dilim etmək (*qarpızı*)

قاچاق [ğaçağ] I qaçaqmal, kontrabanda

قاچاق [ğaçağ] II qaçaq, fərari

قاچاقچی [ğaçağçi] qaçaqmalçı; ~ **مواد مخدر** narkotik mal alverçisi

قاچاقی [ğaçaği] qaçaq; qaçaq malı; qaçaqmalçılıq

قادر [ğader] qadir, qüdrətli; bacarıqlı

قارچ [ğarç] göbələk; ~ **خوراکی (مأکول)** yeməli göbələk; ~ **سمی** zəhərli göbələk

قارقار [ğarğar] *bax* **غارغار**

قاره [ğarre] qitə, materik; ~ **آسیا** Asiya qitəsi

قاره پیما [ğarrepeyma] qitələrarası; ~ **موشک** qitələrarası raket

قاری [ğari] *c.* **قارئین** [ğare'in] // **قرا** [ğorra] 1) oxucu, oxuyan; 2) Quran oxuyan

قاز [ğaz] *bax* **غاز**

قاز ایاقی [ğazəyaği] *bax* **قازیاغی**

قازیاغی [ğazyaği] *bot.* maral buynuzu

قازیاقی [ğazyaği] *bax* **قازیاغی**

قاسم [ğasem] bölən, bölüşdürən

قاسم الارزاق [ğasemolərzağ] ruziləri bölüşdürən (*Allahın epiteti*)

قاسی [ğasi] qəddar, qəlbidaş

قاش [ğaş] *bax* **قاچ**

قاشق [ğaşoğ] qaşıq; ~ **چای خوری** çay qaşığı; ~ **سوپ خوری** xörək qaşığı

قاشقی [ğaşoği] qaşıqşəkilli, qaşığaoxşar

قاصد [ğased] 1) qasid, çapar; 2) kuryer; 3) bir şeyin niyyətində olan

قاصدک [ğasedək] *bot.* zəncirortu

قاصر [ğaser] 1) səliqəsiz, səhlənkar, diqqətsiz; 2) zəif, aciz; qüsurlu; **بودن** ~ aciz olmaq; gücsüz olmaq (*hər hansı bir işdə*)

قاضی [ğazi] *c.* **قضات** [ğozat] qazı, hakim

قاضی الحاجات [ğaziolhacat] bütün ehtiyacları ödəyən (*Allahın epiteti*)

قاطبه [ğatebe] hamı; bütün, tamam; ~ **مردم** bütün camaat, hamı

قاطر [ğater] qatır

قاطع [ğate'] 1) qətiyyətli, əzmli, kəskin; möhkəm, qəti; ~ **برهان** möhkəm dəlil, danılmaz sübut; ~ **جواب** qəti cavab; ~ **اکثریت** mütləq əksəriyyət; 2) kəsən, qıran; 3) dayandıran

قاطع الطریق [ğate'ottəriğ] *c.* **قطاع الطریق** [ğottaottəriğ] yolkəsən, quldur

قاطی [ğati] *bax* **قاتی**

قاعد [ğaed] 1) oturan, oturmuş (*adam*); 2) doğa bilməyən qadın (*yaş həddinə görə*)

قاعدگی [ğaedegi] *tib.* menstruasiya, aybaşı

قاعده [ğaede] *c.* **قواعد** [ğəvaed] 1) qayda, qayda-qanun; 2) adət, ənənə; 3) aybaşısı olan; **(شدن) بودن** ~ aybaşı olmaq

قافله [ğafele] *c.* **قوافل** [ğəvafel] karvan, qatar

قافله سالار [ğafelesalar] karvanbaşı, dəstəbaşı

قافیه [ğafiye] *c.* **قوافی** [ğəvafi] qafiyə; ◊ **تنگ آمدن** ~ işin çətinliyə düşməsi, meydanın daralması; **را** ~ **باختن** *dan.* özünü itirmək, səhv etmək

قافیه بندی [ğafiyebəndi] qafiyələnmə, qafiyə qaydası

قافیه پرداز [ğafiyepərdaz] 1) qafiyə düzəldən, qafiyə uyduran, qafiyəbaz; 2) zəif şair

قافیه پردازی [ğafiyepərdazi] 1) qafiyə düzəltmə, qafiyə uydurma; 2) şeir; poeziya

قافیه سنج [ğafiyesənc] 1) qafiyə bilicisi, qafiyə ustası, şeir bilicisi; 2) şair

قاق [ğağ] 1) quru, qurudulmuş (*ət*); 2) qax, quru meyvə; 3) arıq, nazik; 4) cıdırda uduzan at, axırıncı gələn at; **شدن** ~ uduzmaq (*oyunda*), geri qalmaq (*cıdırda, at*); ◊ **بودن** ~ *dan.* hər şeyi əldən vermiş, incidilmiş

قاقاله [ğağale] *bax* **قاق 3)**

قاقم [ğağom] 1) *zool.* sincab; 2) mövsümə görə rəngi dəyişən xəz; 3) zərif dəri

قال [ğal] 1) söz; 2) səs-küy; **~ کردن** qalmaqal salmaq, səs-küy qoparmaq

قالب [ğaleb] 1) qəlib, forma, model; 2) numerativ söz; **یک ~ صابون** bir qəlib sabun; 3) bədən (*insanda*); **~ٔ بی روح** ruhsuz bədən; **~ زدن** qəlibə tökmək; **~ کردن** qəlibə çəkmək; ◊ **~ تهی کردن** dünyasını dəyişmək, ölmək; **~ زدن** uydurmaq; **~ کردن** sırımaq, dürtmək

قالب تراش [ğalebtəraş] qəlibçi, qəlibyonan, gəlib düzəldən

قالب ریز [ğalebriz] qəlibçi, qəlibtökən, ştampçı

قالب ساز [ğalebsaz] *bax* **قالب تراش**

قالبک [ğalebək] trafaret, qəlib, nümunə, ştamp; ölçü

قالی [ğali] xalı, xalça; **~ٔ دست باف** əl xalçası, əliə toxunulmuş xalça

قالی باف [ğalibaf] xalçaçı, xalça toxuyan

قالی بافی [ğalibafi] xalça toxuma; xalça istehsalı; **~ صنعت** xalçaçılıq sənayesi; **~ کردن** xalça toxumaq

قالیچه [ğaliçe] balaca xalça

قالی فروشی [ğaliforuşi] xalça satışı; xalça satılan yer, xalça dükanı

قامچی [ğamçi] *bax* **قمچی**

قاموس [ğamus] 1) dəniz, okean; 2) lüğət, sözlük

قانع [ğanc'] qanc, qanc olan; razı, razı qalan; **~ شدن** qanc olmaq; **~ کردن** qanc etmək, razı salmaq

قانقاریا [ğanğarya] *bax* **غانقاریا**

قانون [ğanun] *c.* **قوانین** [ğəvanin] qanun; **~ٔ اساسی** konstitusiya, əsas qanun; **~ گذاشتن** qanun vermək, qanun tətbiq etmək; **~ گذراندن** qanunu təsdiq etmək

قانوناً [ğanunən] 1) qanuna görə, qanuna uyğun olaraq; 2) hüquqi

قانون پرست [ğanunpərəst] qanunpərəst, qanuna ciddi əməl edən

قانون دان [ğanundan] qanunşünas; hüquqçu, hüquqşünas

قانون دانی [ğanundani] qanunşünaslıq

قانون شکن [ğanunşekən] qanunu pozan, qanunsuzluq edən

قانون شکنی [ğanunşekəni] qanunu pozma, qanuna əməl etməmə

قانون شناس [ğanunşenas] *bax* **قانون دان**

قانون شناسی [ğanunşenasi] *bax* **قانون دانی**

قانون گذاری [ğanunqozari] qanunvericilik

قانونی [ğanuni] qanuni, qanunauyğun; **~غیر** qeyri-qanuni

قاید [ğayed] rəhbər, başçı

قایق [ğayeğ] qayıq; **~ٔ بادبانی** yelkənli qayıq; **~ٔ موتوری** motorlu qayıq

قایقچی [ğayeğçi] *bax* **قایقران**

قایقران [ğayeğran] qayıqçı, qayıq sürən

قایل [ğayel] 1) devən, sövləvən, çıxış edən; 2) qəbul edən; razılaşan; **~ بودن** inanmaq; qəbul etmək, təsdiq etmək; **~ شدن** nəzərə alınmaq

قایم [ğayem] 1) möhkəm, bərk, dözümlü; 2) şaquli, düz duran, dik duran; 3) güclü; 4) *dan.* gizli, gizlədilmiş; **~ راندن** bərk sürmək; **~ کردن** a) möhkəmlətmək, bərkitmək; b) *dan.* gizlətmək

قایم الزاویه [ğayemozzaviye] düzbucaqlı

قایم مقام [ğayemməğam] 1) müavin; 2) köməkçi; 3) vəzifəni icra edən; 4) varis, canişin

قبا [ğəba] qəba (*uzunqollu geniş kişi geyimi*)

قباحت [ğəbahət] qəbahət, eyib, yaramazlıq, alçaqlıq; **~ دارد!** eyibdir! yaramaz!

قبال [ğəbal] qarşı; **~ٔ در** qarşısında; **~ٔ میهن در** vətən qarşısında

قباله [ğəbale] *c.* **قبالجات** [ğəbalecat] mülkiyyət vəsiqəsi; sənəd; müqavilə; şəhadətnamə; **~ٔ ازدواج** nikah şəhadətnaməsi

قبر [ğəbr] *c.* **قبور** [ğəbur] qəbir, məzar; **~ٔ سنگ** qəbir daşı

قبرستان [ğəbrestan] qəbiristan

قبرگاه [ğəbrqah] *bax* **قبرستان**

قبره [ğəbbəre] *zool.* torağay

قبض [ğəbz] *c.* **قبوض** [ğəbuz] // **قبوضات** [ğəbuzat] 1) qəbz (*sənəd*); 2) *tib.* qəbiz; 3) alma, tutma; **~ٔ روح** can alma; **~ شدن** qəbiz olmaq; **~ کردن** qəbiz etmək

قبضه [ğəbze] 1) tüfəng qundağı; 2) numerativ söz (*silah üçün*); **یک ~ تفنگ** bir ədəd tüfəng; 3) dəstək, qulp, tutacaq; 4) ələ keçirmə, mənimsəmə; **~ کردن** ələ keçirmək; mənimsəmək

قبل [ğəbl] əvvəl, qabaq; keçən; **~ٔ شب** keçən gecə; **~ از شما** sizdən əvvəl

قبل [ğəbəl]: **~ٔ از** 1) göstərişi ilə, adından; **~ٔ از حاکم** hakimin adından; 2) köməyi sayəsində, himayəsilə; **~ٔ از برادر خود** öz qardaşının sayəsində

قبلا [ğəblən] əvvəl, bundan əvvəl, bundan qabaq

قبله [ğəble] 1) qiblə; 2) cənub tərəf; ◊ **~ٔ عالم** padşah

قبله گاه [ğəbleqah] 1) qiblə yeri; 2) çox hörmətli; xeyirxah; hami (*hökmdara müraciətlə deyilən söz*)

قبله نما [ğəblenəma] qibləni göstərən kompas

قبلی [ğəbli] əvvəlki, qabaqkı; keçən, ötən; **~ٔ شغل او** onun əvvəlki sənəti

قبول [ğəbul] qəbul, qəbul etmə; bəyənmə; **~ داشتن** qəbul etmək; bəyənmək; razılaşmaq; **~ شدن** qəbul olunmaq, bəyənilmək; **~ کردن** a) qəbul etmək (*universitetə, işə və s.*); b) *bax* **~ داشتن**

قبولاندن [ğabulandən] qəbul etdirmək

قبه [ğobbe] qübbə, günbəz

قبه دار [ğobbedar] qübbəli, günbəzli

قبیح [ğəbih] qəbahətli, eyibli; yaramaz; çirkin, yaraşıqsız, yöndəmsiz

قبیح المنظر [ğəbiholmənzər] eybəcər, kifir, çirkin

قبیل [ğəbil] qəbil; kimi, cür; **از این ~** bu qəbildən, bu cür

قبیله [ğəbile] *c.* **قبایل** [ğəbayel] qəbilə, tayfa, el

قپان [ğəp(p)an] qapan, tərəzi; **~ کردن** qapanda çəkmək

قپان دار [ğəp(p)andar] qapançı

قتل [ğətl] öldürmə; öldürülmə; **~ٔ عام** soyqırım, genosid; **~ٔ روز** qətl günü; **~ کردن** öldürmək, qətlə yetirmək; **~ رساندن به** *bax* **~ کردن به**; **~ رسیدن به** öldürülmək, qətlə yetişmək

قتال [ğetal] 1) qətl, qətlə yetirmə, öldürmə; **~ و قتل** qırğın; 2) döyüş, vuruşma

قتلگاه [ğətlqah] qətl yeri; edam yeri

قچ [ğoç] *bax* **قوچ**

قچاق [ğoç(ç)ağ] 1) qoçaq, zirək, çevik, cəld; 2) sağlam, gümrah, güclü
قحبگی [ğəhbegi] qəhbəlik, fahişəlik
قحبه [ğəhbe] qəhbə, fahişə
قحبه خانه [ğəhbexane] qəhbəxana, fahişəxana
قحط [ğəht] qəhət, qıtlıq, quraqlıq, aclıq; **(شدن) بودن ~** qəhətə çıxmaq, az tapılmaq
قحط سالی [ğəhtsali] qıtlıq ili, quraqlıq ili
قحطی [ğəhti] *bax* **قحط**
قحف [ğehf] *anat.* əmgək, təpə; **~ استخوان** əmgək sümüyü
قد [ğəd(d)] I qədd, boy, boybuxun; **~ دادن** a) boy vermək (*suyun insan boyundan aşağı olması*); b) bacarmaq, öhdəsindən gəlmək; ◊ **~ علم کردن** baş qaldırmaq
قد [ğəd(d)] II çəpiş dərisi
قد [ğod(d)] *dan.* 1) tərs, inadkar; 2) məğrur, qürurlu; 3) lovğa, təkəbbürlü, dikbaş
قدح [ğədəh] *c.* **اقداح** [əğdah] qədəh, piyalə, cam
قدح [ğədh] danlaq, məzəmmət, tənə; pisləmə; **~ کردن** danlamaq, tənə etmək; pisləmək
قدر [ğədər] bəxt, tale, qismət; 2) *bax* **قدر** [ğədr] **3)**
قدر [ğədr] 1) dəyər, qiymət; **~ و قیمت** qədir-qiymət; 2) hörmət, ehtiram; 3) ölçü, miqdar; say; **به ~ یک ساعت** bir saata qədər; **به ~ امکان** imkan daxilində; mümkün qədər; **~ داشتن** qiyməti olmaq; hörməti olmaq; **~ دانستن** bir şeyin (*bir kəsin*) qədrini bilmək
قدرت [ğodrət] 1) bacarıq, qüdrət, qüvvə, güc; **~ خرید** alıcılıq qabiliyəti; **~ دفاعی** müdafiə qüdrəti; 2) hakimiyyət; **~ دولتی** dövlət hakimiyyəti
قدرت طلب [ğodrəttələb] hakimiyyət sevən; vəzifəpərst
قدرت طلبی [ğodrəttələbi] hakimiyyətpərəstlik; vəzifəpərəstlik
قدرتمند [ğodrətmənd] qüdrətli, güclü
قدردان [ğədrdan] qədirbilən; yaxşılığa qiymət verən
قدر دانی [ğədrdani] qədirbilmə, yaxşılığa qiymət vermə
قدرشناس [ğədrşenas] *bax* **قدر دان**
قدرشناسی [ğədrşenasi] *bax* **قدر دانی**
قدرناشناس [ğədrnaşenas] qədirbilməz, yaxşılığa qiymət verməyən
قدرناشناسی [ğədrnaşenasi] qədirbilməzlik, yaxşılığa qiymət verməmə
قدرنشناس [ğədrnəşenas] *bax* **قدرناشناس**
قدرنشناسی [ğədrnəşenasi] *bax* **قدرناشناسی**
قدس [ğods] müqəddəslik; ilahilik, paklıq
قدسی [ğodsi] 1) müqəddəs; pak; **~ عالم** göy aləmi; 2) cənnətə aid olan; 3) *c.* **قدسیان** [ğodsiyan] mələk
قدغن [ğədəğən] qadağan, qadağa, yasaq; **~ بودن** qadağan olunmaq; **~ کردن** qadağan etmək
قدقد [ğodğod] qaqqıldama (*toyuq*); **~ کردن** qaqqıldamaq (*toyuq*)
قدک [ğədək] qədək, göy rəngli kətan; bez
قدکوتاه [ğədkutah] qısaboy, alçaqboy; alçaqboylu
قدم [ğədəm] *c.* **اقدام** [əğdam] qədəm, addım; **~ بر داشتن** addım atmaq; **~ زدن** addımlamaq; **~ گذاشتن** qədəm qoymaq; ◊ **~ سبک** ayağıyüngül; **~ سنگین** ayağıağır

قدما [ğodəma] 1) sələflər; əcdadlar; keçmişdəkilər; 2) qədim insanlar; 3) qocalar
قدمت [ğedmət] qədimlik, əskilik, köhnəlik
قدوس [ğoddus] təmiz, müqəddəs, pak (*Allahın epiteti*)
قدیر [ğədir] qüdrət sahibi, qüdrətli, güclü, qüvvətli (*Allahın epiteti*)
قدیفه [ğədife] bax **قطیفه**
قدیم [ğədim] *c.* **قدما** [ğodəma] qədim; köhnə; keçmiş; **~ و ندیم دوست** köhnə vəfalı dost; **~ از** keçmiş zamanlardan
قدیم الایام [ğədimoləyyam] qədim zamanlar; əski çağlar
قدیمی [ğədimi] qədim; qədimə aid, qədim dövrə məxsus; **~ زبانهای** qədim dillər
قرابت [ğərabət] 1) qohumluq; **~ نسبی** vasitə ilə qohumluq; **~ سببی** qan qohumluğu; 2) yaxınlıq
قرابه [ğorabe] böyük şüşə qab; butulka
قرار [ğərar] 1) rahatlıq, sakitlik; **~ ندارد شب و روز** onun gecə-gündüz rahatlığı yoxdur; 2) qərar, sərəncam; **~ منع تعقیب** işin xitamı haqqında qərar; **~ کیلویی از** kilo hesabı ilə; **از ~ این** beləliklə; 3) müqavilə, saziş
قرار داد [ğərardad] müqavilə, saziş; **~ بستن (منعقد کردن)** müqavilə bağlamaq
قرار گاه [ğərarqah] qərargah, ştab; iqamətgah
قراقل [ğəraqol] *bax* **قره گل**
قراضه [ğoraze] 1) sınmış, sınıqsalxaq; 2) qırıntı (*metal*)
قرآن [ğor'an] Quran
قران [ğeran] birləşmə, yaxınlaşma; ulduzların bir bürcdə birləşməsi
قراول [ğəravol] qarovul, keşikçi; gözətçi; **~ افتخاری** fəxri qarovul; ◊ **~ رفتن** nişan almaq
قرائت [ğəraət // ğeraət] qiraət, oxu, oxuma; oxunma; **~ تالار** oxu salonu; **~ قرآن** Quranın qiraəti (*oxunması*); **~ کردن** oxumaq
قرائت خانه [ğeraətxane] qiraətxana, oxu zalı;
قرب [ğorb] 1) yaxınlıq, qonşuluq; 2) şərəf, ləyaqət; 3) hörmət; ehtiram; 4) *bax* **قرابت 1)**; **~ داشتن** hörmət sahibi olmaq, hörmətli olmaq
قربان [ğorban] qurban; **~ شدن** qurban olmaq; **~ کردن** qurban etmək; **قربانت شوم (بروم)** qurbanın olum
قربانی [ğorbani] 1) qurbanlıq; 2) *bax* **قربان**; **~ جنگ** müharibə qurbanı; **~ دادن** qurban vermək; **~ کردن** qurban kəsmək
قربت [ğorbət] 1) *bax* **قرب 1)**; 2) *bax* **قرابت 1)**
قرح [ğərh] 1) yaralama; yaralanma; 2) *bax* **قرحه**
قرحه [ğərhe] c. **قروح** [ğoruh] *tib.* yara, xora
قرشمال [ğereşmal] qırışmal, həyasız, abırsız, sırtıq
قرص [ğors] I *c.* **اقراص** [əğras] 1) dairə; 2) girdə, dairəvi; 3) həb; **~ خواب** yuxu həbi
قرص [ğors] II *dan.* möhkəm, bərk; **~ کردن** bərkitmək
قرض [ğorz] *c.* **قروض** [ğoruz] borc; **~ دادن** borc vermək; **~ کردن** borc almaq

قرض الحسنه [ğərzəlhəsənə] faizsiz borc, kredit

قرض دار [ğərzdar] borclu

قرضه [ğərze] 1) istiqraz; 2) *bax* قرض

قرع [ğər'] kolba; retorta (*distillə cihazı*)

قرعه [ğor'e] püşk; انداختن ~ püşk atmaq

قرعه کشی [ğor'ekeşi] 1) püşk atma; 2) lotereya oyunu

قرق [ğoroğ] qoruq

قرقاول [ğerğavol] *zool.* qırqovul

قرقچی [ğoroğci] *bax* قرقبان

قرقبان [ğoroğban] qoruqçu, qoruq gözətçisi

قرقره [ğerğere] *bax* غرغره [ğerğere]

قرقی [ğerği] *zool.* qırğı

قرمز [ğermez] qırmızı

قرمه [ğorme] qovurma

قرمه سبزی [ğormesəbzi] səbzi-qovurma

قرن [ğərn] *c.* قرون [ğorun] 1) əsr, yüzillik; 2) dövr

قرنفل [ğərənfol] 1) *bot.* qərənfil; 2) mixək

قره گل [ğərəqol] qaragül (*dəri növü*)

قره نی [ğərəney] nəfəsli çalğı aləti, klarnet

قریب [ğərib] *c.* اقربا [əgrəba] 1) qohum; 2) yaxın; دوسال ~ iki ilə yaxın

قریحه [ğərihe] *c.* قرایح [ğərayeh] istedad, fərasət, dərrakə, zəka

قرین [ğərin] 1) yaxın (*adam*); 2) bərabər; 3) oxşar; 4) *c.* اقران [əğran] dost, həmsöhbət; şərik; شدن ~ yaxın olmaq, dost olmaq

قرینه [ğərine] c. قراین [ğəraycn] 1) oxşarlıq; 2) simmetriya; 3) əlamət; 4) ehtimal; 5) həyat yoldaşı; 6) *bax* قرین 1)

قریه [ğərye] *c.* قرا // قری [ğora] kənd

قزاق [ğəzzağ] kazak

قزل آلا [ğezelala] *zool.* alabalıq

قساوت [ğəsavət] qəddarlıq, amansızlıq, rəhmsizlik; داشتن ~ qəddar olmaq, rəhmsiz olmaq; کردن ~ qəddarlıq etmək, rəhmsizlik etmək

قسط [ğest] *c.* اقساط [əğsat] 1) borcun bir hissəsi; 2) kredit

قسطی [ğesti] 1) hissə ilə ödəmə; 2) kreditlə ödəmə; خرید ~ kreditlə alma

قسم [ğəsəm] and; خوردن ~ and içmək; دادن ~ and vermək; شکستن ~ را andı pozmaq; یاد کردن ~ and vermək; andı qəbul etmək

قسم [ğesm] *c.* اقسام [əğsam] qisim, forma, növ, şəkil; بدین ~ bu şəkildə

قسمان [ğesmən] qismən, bir hissə

قسمت [ğesmət] 1) hissə, pay; 2) tale, qismət; شدن ~ qismət olmaq, nəsib olmaq; کردن ~ bölmək

قسمت پذیر [ğesmətpəzir] bölünən, bölünə bilən, bölünməsi mümkün olan

قسمت ناپذیر [ğesmətnapəzir] bölünməyən, bölünə bilməyən, bölünməsi mümkün olmayan

قسم خورده [ğəsəmxorde] and içmiş; ◊ دشمن ~ qəddar düşmən

قسی [ğəsi] zalım, qəddar, rəhmsiz

قسی القلب [ğəsiyolğəlb] daşürəkli, qəddar

قسیس [ğessis] keşiş, xristian ruhanisi

قسیم [ğəsim] 1) ortaq, şərik, kampanyon; 2) bölən, bölüşdürən, paylaşdıran; 3) pay, hissə; 4) qəşəng, gözəl, məlahətli

قشر [ğeşr] *c.* اقشار [əğşar] // قشور [ğoşur] 1) təbəqə, sinif, tayfa; ~ روشنفکر ziyalı təbəqəsi; ~ کارمند işçi təbəqəsi; 2) qat, lay; 3) qabıq; بستن ~ qabıq bağlamaq

قشرگرا [ğeşrgəra] fundamentalist, özülçü

قشر گرایی [ğeşrgərayi] fundamentalizm, özülçülük

قشلاق [ğeşlağ] qışlaq; کردن ~ qışlamaq, qışı yaşamaq

قشنگ [ğəşəng] qəşəng, göyçək, gözəl

قشنگی [ğəşəngi] qəşənglik, gözəllik, göyçəklik

قشو [ğəşou] qaşov (*atı təmizləmək üçün dəmir şotka*); کردن ~ qaşovlamaq

قشون [ğoşun] qoşun; ordu; کشیدن ~ qoşun çəkmək; hücum etmək

قصاب [ğəssab] qəssab; ətsatan

قصاب خانه [ğəssabxane] sallaqxana, ət kəsilən yer; ət dükanı

قصابی [ğəssabi] 1) qəssablıq; 2) ət dükanı

قصار [ğesar]: کلمات ~ aforizmlər, hikmətli sözlər

قصاص [ğesas] qisas, intiqam, öc; کردن (گرفتن) ~ qisas almaq

قصاید [ğesayed] *t.* قصیده

قصبه [ğəsəbe] *c.* قصبات [ğəsəbat] qəsəbə

قصد [ğəsd] qəsd, niyyət, məqsəd; به ~ گردش gəzinti məqsədilə; ◊ جان کسی را کردن birinin canına qəsd etmək

قصدا [ğəsdən] qəsdən, bilə-bilə

قصر [ğəsr] *c.* قصور [ğosur] qəsr, saray, imarət

قصص [ğesəs] *t.* قصه

قصور [ğosur] 1) qüsur, çatışmazlıq, nöqsan; 2) səhv, yanlışlıq; 3) saymazlıq; etinasızlıq

قصه [ğesse] *c.* قصص [ğesəs] nağıl; hekayə; povest; əfsanə; کردن ~ nağıl etmək, danışmaq

قصه پرداز [ğessepərdaz] hekayə yazan; təmsil yazan

قصه خوان [ğessexan] nağıl danışan, hekayə danışan

قصه کوتاه [ğessekutah] sözün qısası, bir sözlə, xülasə, müxtəsər

قصه گو [ğessequ] *bax* قصه خوان

قصه نویس [ğesseneviş] yazıçı, ədib, romançı

قصه نویسی [ğessenevişi] yazıçılıq, ədiblik, romançılıq

قصیده [ğəside] *c.* قصاید [ğəsayed] qəsidə

قصیده سرا [ğəsidesəra] qəsidə yazan

قصیده سرایی [ğəsidesərayi] qəsidə yazma; کردن ~ qəsidə yazmaq

قصیر [ğəsir] qısa, gödək

قضا [ğəza] 1) qərar, hökm; 2) hadisə, əhvalat; 3) tale, qismət, alın yazısı; نماز ~ qəza namazı

قضاقورتکی [ğəzağurtəki] *dan.* təsadüfən, təsadüfi olaraq, gözlənilmədən, qəfildən

قضاوت [ğəzavət // ğezavət] fikir söyləmə, mühakimə yürütmə; hökm oxuma; hakimlik etmə; کردن ~ fikir söyləmək, mühakimə yürütmək

قضایی [ğəzayi] 1) məhkəmə, məhkəmə; امور ~ məhkəmə işləri; 2) qaçılmaz, labüd

قضیب [ğəzib] *c.* قضبان [ğəzban] 1) çubuq, şüy, nazik budaq; 2) kişi cinsiyyət orqanı

قضیه [ğəziyye] *c.* **قضایا** [ğəzaya] 1) hadisə, əhvalat; 2) teorem; ~ **فیثاغورث** Pifaqor teoremi

قط [ğət(t)] qəddəmə, çərtmə (*qamış qələmin ucunu*); **زدن** ~ qəddəmək, kəsmək, çərtmək (*qamış qələmin ucunu*)

قطاب [ğottab] qutab; pirojna

قطار [gətar] 1) qatar; **باری** ~ yük qatarı; (**مسافری**) ~ sərnişin qatarı; 2) sıra; karvan; **شتر** ~ dəvə karvanı; **بستن** ~ sıraya düzülmək, qatar bağlamaq; **کردن** ~ sıraya düzmək

قطاع [ğətta'] iti, kəsici, kəsən

قطاع [ğeta' // ğota'] *riyaz.* sektor; **دایره** ~ dairənin sektoru

قطاع الطریق [ğotta'ottəriğ] *t.* **قاطع الطریق** yolkəsən, soyğunçu, quldur

قطب [ğotb] *c.* **اقطاب** [əğtab] qütb; **جنوب** ~ cənub qütbü; **شمال** ~ şimal qütbü

قطب نما [ğotbnəma] kompas

قطر [ğotr] c. **اقطار** [əğtar] 1) *riyaz.* diaqonal; 2) diametr; 3) qalınlıq

قطران [ğətran] qatran; **نفت** ~ bitum; (**مالیدن**) **اندودن** ~ qatran sürtmək

قطره [ğətre] *c.* **قطرات** [ğətərat] damcı, damla; **زدن** ~ damcılamaq; ◊ **به دریا بردن** ~ dənizə damla aparmaq, mənasız işlə məşğul olmaq

قطره چکان [ğətreçəkan] pipet, damcıtökən, damcısalan

قطع [ğət'] 1) kəsmə; ayırma; **درخت** ~ ağacı kəsmə; 2) dayandırma, qurtarma; 3) *riyaz.* kəsik, kəsim; **اتش** ~ atəşi dayandırma, atəşkəs; ~ **داشتن** əmin olmaq, inanmaq; **شدن** ~ a) kəsilmək; b) dayanmaq; **کردن** ~ a) kəsmək; b) dayandırmaq

قطعاً [ğət'ən] qətiyyətlə, qəti şəkildə

قطعنامه [ğət'name] qətnamə, qərar

قطعه [ğət'e // ğet'e] *c.* **قطعات** [ğətəat] 1) hissə, parça, tikə; 2) qitə, kontinent; 3) numerativ söz; **یک** ~ **فرش** bir ədəd xalça; 4) *ədəb.* qitə

قطعی [ğət'i] 1) qəti; dəyişilməz, dönməz; ~ **جواب** qəti cavab; 2) qaçılmaz, hökmən

قطعیت [ğət'iyyət] qətiyyət, əzmkarlıq, möhkəmlik

قطور [ğətur] 1) böyükhəcmli, iri; 2) qalın; yoğun

قطیفه [ğətife] qəttə, hamam dəsmalı

قعر [ğə'r] dib, alt; dərinlik; ~ **دریا** dənizin dibində

قفا [ğəfa] 1) peysər, boyunun ardı; 2) dal, arxa; ~ **او** onun arxasınca; ~ **در** gizlicə, arxada

قفس [ğəfəs] qəfəs; **شیر** ~ şirin (*aslanın*) qəfəsi

قفسه [ğəfəse] qəfəs; rəf; dolab; **سینه** ~ *anat.* döş qəfəsi; **کتاب** ~ kitab rəfi

قفسه بندی [ğəfəsebəndi] rəf düzəltmə; **کردن** ~ rəf düzəltmək

قفل [ğofl] qıfıl; **شدن** ~ qıfıllanmaq; **کردن** ~ qıfıllamaq; ◊ **سکوت** ~ **شکستن را** sükutu pozmaq, danışmağa başlamaq; **به دهان کسی زدن** ~ birinin ağzını bağlamaq; birinin ağzına bir şey atmaq

ققنس [ğoğnos] simurq (*əfsanəvi quş*)

ققنوس [qoqnus] *bax* **ققنس**

قلاب [ğollab] çəngəl, qarmaq; qənarə; **زدن** ~ **به** qənarədən asmaq

قلا بدار [ğollabdar] cəftəli; qarmaqlı

قلاب سنگ [ğollabsəng] sapand

قلابی [ğollabi] 1) yalançı, uydurma, qəlp, saxta; ~ **ادم** firıldaqçı adam; ~ **سکه** qəlp pul; 2) əsassız; ~ **حرفهای** əsassız sözlər

قلاده [ğəllade] *c.* **قلاید** [ğəlayed] 1) xalta, boyunluq; 2) numerativ söz (*it üçün*); **سگ** ~ **پنج** beş it

قلاش [ğəllaş] 1) avara, kefcil, əyyaş; 2) firıldaqçı, kələkbaz, hiyləgər

قلب [ğəlb] I *c.* **قلوب** [ğolub] 1) qəlb, ürək; 2) orta, mərkəz; **تابستان** ~ yayın ortası; **لشکر** ~ ordunun mərkəzi

قلب [ğəlb] II 1) dəyişmə, dəyişilmə; dəyişdirmə; təhrif etmə; 2) qəlp, saxta; ~ **سکه** qəlp pul; 3) *qram.* sözlərin yerinin dəyişməsi (*inversiya*); səslərin yerdəyişməsi (*metateza*)

قلب الاسد [ğəlboləsəd] yayın ortası, yayın cırhacırı

قلب الشتا [ğəlboşşeta] qışın ortası, qışın oğlan çağı

قلت [ğellət] 1) az, azlıq; 2) çatışmazlıq

قلتبان [ğəltəban] daş vərdənə (*torpağı hamarlamaq üçün*)

قلچماق [ğolçomaq] *dan.* qoluzorlu, qolugüclü, güclü, qüvvətli

قلع [ğəl'] I qalay; **با** ~ **پوشاندن** qalaylamaq

کلیات [kolliyyat] 1) külliyyat; toplu; سعدی ~˙ Sədinin külliyyatı; 2) ümumi hissə, ümumi məsələ

کلیپس [kelips] sancaq

کلیجه [kolice] rəngli ipək və ya məxmərdən tikilmiş gödəkçə

کلیچه [koliçe] *bax* کلیجه

کلید [kelid] açar; انداختن ~ açar salmaq; شدن ~ açarla bağlanmaq; کردن ~ açarla bağlamaq

کلیدی [kelidi] əsas, mühüm, aparıcı; پست ~˙ mühüm vəzifə; رشته ~˙ اقتصاد iqtisadiyyatın əsas sahəsi

کلیس [kolis] ştangenpərgar

کلیسا [kelisa // kəlisa] kilsə

کلیشه [kelişe] 1) *poliqr.* klişe; 2) fotoneqativ

کلیک [kelik] kiçik barmaq

کلیم [kəlim] həmsöhbət

کلیم الله [kəlimollah] Allahla söhbət edən, Allahın həmsöhbəti (*Musa peyğəmbərin ləqəbi*)

کلیمی [kəlimi] yəhudi

کلینکس [kelineks] kağız dəsmal

کلینیک [k(e)linik] klinika

کلیواج [kəlivac] *bax* غلیواج

کلیواژ [kəlivaj] *bax* کلیواج

کلیه [kolye] böyrək; سنگ ~˙ böyrək daşı

کلیه [kolliyye] bütün, hamı; حاضران ~˙ bütün iştirakçılar

کم [kəm] az, cüzi; شدن ~ azalmaq; کردن ~ azaltmaq; ◊ گرفتن ~ əhəmiyyət verməmək, saymamaq

کما [koma] *tib.* koma, koma vəziyyəti

کم آب [kəmab] 1) susuz, suyu az olan; 2) şirəsiz; میوه ~˙ şirəsiz meyvə

کم آبی [kəmabi] su qıtlığı, su çatışmazlığı, su azlığı

کمابیش [kəmabiş] az-çox

کماج [komac] biskvit, şirin çörək

کماجدان [komacdan] qapaqlı qazan

کم ارج [kəmərc] 1) əhəmiyyətsiz; 2) yaraşmayan, layiq olmayan

کم ارزش [kəmərzeş] *bax* کم بها

کماکان [kəmakan] eynilə, olduğu kimi, əvvəlki kimi

کمال [kəmal] 1) kamal, yetkinlik; kamillik; 2) istedad; qabiliyyət; 3) mədənilik; ədəb, tərbiyəlilik; 4) həddən artıq, tam; böyük; با احترام ~˙ böyük ehtiramla, hədsiz ehtiramla

کمان [kəman] kaman, ox atmaq üçün yay; کشیدن ~ yayı dartmaq (*çəkmək*)

کمان ابرو [kəmanəbru] qaşı kaman, kamanqaşlı

کمان پشت [kəmanpoşt] beli bükülmüş, qozbel

کمانچه [kəmançe] kamança; زدن ~ kamançada çalmaq

کمانچه زن [kəmançezən] kamançaçalan

کمانچه کش [kəmançekeş] *bax* کمانچه زن

کمان دار [kəmandar] oxatan

کماندان [komandan] komandir

کماندو [komando] xüsusi təyinatlı dəstə

کمان ساز [kəmansaz] kamanqayıran

کمانک [kəmanək] *bax* پرانتز

کمان کش [kəmankeş] *bax* کمان دار

کمانه [kəmane] 1) yay, kaman yayı; 2) kamanşəkilli, çevrə, kiçik həlqə

کمانی [kəmani] kamanşəkilli, əyri, əyilmiş

کماهی [kəmahi] olduğu kimi, necə ki var

کمبزه [kəmbəze] *bax* کالک

کم بضاعت [kəmbəzaət] az imkanlı, yoxsul, kasıb

کمبود [kəmbud] kəsir, çatışmazlıq; **~ بودجه** büdcənin kəsiri; **~ داشتن** işdə kəsir olmaq, çatışmazlıq olmaq

کم بها [kəmbəha] dəyərsiz, qiymətsiz, ucuz

کمپ [kəmp] düşərgə

کمپانی [kompani] şirkət, kompaniya

کمپرس [komp(e)res] kompress

کمپرسور [komp(e)resor] kompressor

کمپرسی [komp(e)resi]: **~ کامیون** özüboşaldan yük maşını

کم پشت [kəmpoşt] az, seyrək; **~ ریش** seyrək saqqal

کمپلت [komp(e)let] 1) komplekt, dəst; 2) bütünlüklə, tam; kamil, mükəmməl

کمپلکس [komp(e)leks] 1) kompleks; 2) kompleks şəkildə

کمپوت [kompot] kompot; **~ سیب** alma kompotu

کمپوزیسیون [kompozisyon] kompozisiya

کم تجربگی [kəmtəcrobegi] təcrübəsizlik, az təcrübəlilik

کم تجربه [kəmtəcrobe] təcrübəsiz, az təcrübəli

کمتر [kəmtər] daha az, daha kiçik; **~ شدن** azalmaq; **~ کردن** azaltmaq

کمترین [kəmtərin] ən az, ən kiçik; **~ بنده** sizin ən kiçik bəndəniz (*mən*)

کم توان [kəmtəvan] qüvvəsiz, zəif

کم توجه [kəmtəvəccoh] 1) diqqətsiz; 2) quru, soyuq (*adam*)

کم توجهی [kəmtəvəccohi] 1) diqqətsizlik; 2) quruluq, soyuqluq (*münasibətdə*)

کم جرأت [kəmcor'ət] cürətsiz, cəsarətsiz, qorxaq

کم جرأتی [kəmcor'əti] cürətsizlik, cəsarətsizlik, qorxaqlıq

کم چرب [kəmçərb] yağsız, yağlılığı az olan

کم چربی [kəmçərbi] yağsızlıq, yağlılığı az olma

کمچه [kəmçe] 1) malakeş; 2) taxta çömçə

کم حرف [kəmhərf] azdanışan, sakit, qaradinməz

کم حرفی [kəmhərfi] az danışma, qaradinməzlik

کم حوصلگی [kəmhouselegi] kəmhövsələlik, hövsələsizlik, səbirsizlik, dözümsüzlük

کم حوصله [kəmhousele] kəmhövsələ, hövsələsiz, səbirsiz, dözümsüz

کم خرج [kəmxərc] 1) ucuz, xərci az olan; 2) az xərcləyən, qənaətcil

کم خرجی [kəmxərci] 1) ucuzluq, xərci az olma; 2) az xərcləmə, qənaətcillik

کم خرد [kəmxerəd] ağılsız; biliksiz; axmaq

کم خواب [kəmxab] az yatan, yata bilməyən

کم خوابی [kəmxabi] yuxusuzluq, az yatma

کم خوراک [kəmxorak] az yeyən, iştahası zəif olan

کم خوراکی [kəmxoraki] az yemə, iştahası zəif olma

کم خون [kəmxun] qanı az olan

کم خونی [kəmxuni] *tib.* qanazlığı, qansızlıq

کمد [komod] kamod, dolab, paltar şkafı

کمدی [komedi] komediya; **~ موزیکال** musiqili komediya

کمدین [komediyən] komediya ustası, komik artist

کمر [kəmər] 1) kəmər, qayış, toqqa; 2) bel (*bədəndə*); 3) orta hissə; ◊ **~ بستن** bir işə hazır olmaq; çalışmaq, səy göstərmək; **~ راست کردن** a) mübarizəyə qalxmaq; b) güc toplamaq; c) çətinlikdən qurtarmaq; işin öhdəsindən gəlmək; qalib gəlmək; **~ کاری را شکستن** işin belini sındırmaq, işin əsas hissəsini yerinə yetirmək; **~ سستی** cinsi zəiflik

کمر بسته [kəmərbəste] əmrə hazır, qulluğa hazır

کمربند [kəmərbənd] kəmər, qayış, toqqa; qurşaq; belbağı; **~ ایمنی (اطمینان)** ehtiyat kəməri

کمربندی [kəmərbəndi] dolanbac, dolama; **~ جاد** dolanbac yol

کمر دار [kəmərdar] kəmərli (*geyim*); **~ بارانی** kəmərli plaş (*yağmurluq*)

کمردرد [kəmərdərd] *tib.* bel ağrısı, lümbaqo

کمرشکن [kəmərşekən] 1) ən ağır, dözülməz, ən çətin; **~ بار** ən ağır yük; 2) dağıdıcı, məhvedici; **~ ضربه** dağıdıcı zərbə

کم رو [kəmru] utancaq, həyalı, abırlı, abırlı-həyalı

کمرویی [kəmruyi] utancaqlıq, həya, abır, abır-həya; çəkinmə

کم طاقت [kəmtağət] 1) zəif, gücsüz; 2) dözümsüz, səbirsiz

کم طاقتی [kəmtağəti] 1) zəiflik, gücsüzlük; 2) dözümsüzlük, səbirsizlik

کم عقل [kəməğl] ağıldanyüngül, ağılsız; axmaq

کم عقلی [kəməğli] ağılsızlıq; axmaqlıq

کم غذا [kəmğoza] *bax* **کم خوراک**

کم فروش [kəmforuş] düz çəkməyən, az çəkən (*satışda*)

کم فروشی [kəmforuşi] düz çəkməmə, az çəkmə (*satışda*)

کم قیمت [kəmğeymət] *bax* **کم بها**

کمک [komək] I 1) kömək, yardım; **~ بلاعوض** təmənnasız kömək; **~ فوری** təcili yardım; 2) köməkçi, şagird; **~ کردن** kömək etmək

کمک خلبان [koməkxələban] təyyarəçi köməkçisi, ikinci pilot

کمک خرج [koməkxərc] təqaüd, stipendiya

کمک راننده [koməkranənde] sürücü köməkçisi

کم کم [kəmkəm] az-az; tədricən

کم کمک [kəmkəmək] *bax* **کم کم**

کمکی [koməki] köməkçi; əlavə

کم لطف [kəmlotf] etinasız, diqqətsiz, sayğısız

کم لطفی [kəmlotfi] etinasızlıq, diqqətsizlik, sayğısızlıq, saymazlıq

کمند [kəmənd] kəmənd; **~ انداختن** kəmənd atmaq, tələyə salmaq

کم و بیش [kəmobiş] *bax* **کمابیش**

کموتاتور [komutator] 1) kommutator; 2) elektrik açarı

کم و زیاد [kəmoziyad] *bax* **کمابیش**

کم وقوع [kəmvoğu'] görünməyən; nadir (*hadisə*)

کم وکاست [kəmokast] *bax* **کم و کسر**

کم وکسر [kəmokəsr] kəm-kəsir, əyər-əskik, çatışmazlıq, nöqsan

کم و کیف [kəmmokeyf] kəmiyyət və keyfiyyət

کمون [komun] gizlilik; sirr; məxfilik

کمون [kom(m)un] kommuna, cəmiyyət

کم همت [kəmhemmət] 1) tənbəl; işə can yandırmayan; 2) qayğısız; başısoyuq; fərsiz

کم همتی [kəmhemməti] 1) tənbəllik; işə can yandırmama; 2) qayğısızlıq, başısoyuqluq

کم هوش [kəmhuş] huşsuz, kütbeyin

کم هوشی [kəmhuşi] huşsuzluq, kütbeyinlik

کمی [kəmi] 1) azacıq, bir az; 2) azlıq, çatışmazlıq

کمیاب [kəmyab] az tapılan, nadir; defisit;~ اجناس* aztapılan (*defisit*) mallar; ~ فلزات* nadir metallar

کمیابی [kəmyabi] az tapılma, defisitlik

کمیت [kəmiyyət] kəmiyyət, miqdar, say

کمیت [komeyt] kəhər at

کمیته [komite] komitə; ~ دفاع* صلح sülhü müdafiə komitəsi

کمیسر [komiser] məmur; iş icraçısı

کمیسیون [komis(i)yon] komissiya; ~ بودجه* büdcə komissiyası

کمیسیونر [komis(i)yoner] dəllal, vasitəçi

کمیک [komik] komik; ~ نمایش* komediya

کمین [kəmin] I pusqu; در~ نشستن pusquda durmaq; ~ کردن pusqu qurmaq

کمین [kəmin] II *bax* کمینه

کمین گاه [kəminqah] pusqu yeri

کمینه [kəmine] 1) müti, aciz, ən kiçik; ~ بنده* aciz bəndə (*mən*); 2) minimum, ən az

کن [kən] کندن *f.-nin k.*; mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "qazan" mənasını verir: چاهکن quyuqazan

کن [kon] کردن *f.-nin k.*

کنار [kenar // kənar] kənar, qıraq, sahil; رفتن ~ kənara çəkilmək; uzaqlaşmaq

کناره [kənare] 1) *bax* کنار; 2) haşiyə; ətraf; 3) evin kənarına sərilən döşəmə örtüyü

کناره جو [kenarecu] adamayovuşmaz, adamlardan qaçan, tənhalığı sevən

کناره جویی [kenarecuyi] adamayovuşmazlıq, adamlardan uzaqlaşma; tənhalığı sevmə, tənha yaşama

کناره گیر [kenaregir] *bax* کناره جو

کناره گیری [kenaregiri] 1) *bax* کناره جویی; 2) istefa, vəzifədən getmə

کناس [kənnas] 1) assenizator, kanalizasiya quyularını təmizləyən; 2) zibilyığan

کنایه [kenaye] *c.* کنایات [kenayat] kinayə, istehza, acı gülüş; زدن ~ kinayə etmək

کنایه آمیز [kenayeamiz] 1) kinayəli, istehzalı; 2) alleqorik

کنایه دار [kenayedar] *bax* کنایه آمیز

کنایه گو [kenayequ] kinayə ilə danışan, istehzalı danışan, ikibaşlı danışan

کنتاکت [kontakt] *tex.* kontakt

کنترات [kont(o)rat] kontrakt, müqavilə, saziş

کنتراست [kont(e)rast] kontrast, təzad, ziddiyyət, əkslik

کنترباس [kont(e)rbas] *mus.* kontrabas

کنترل [kont(o)rol] kontrol, nəzarət, yoxlama

کنترلر [kont(o)roler] nəzarətçi, nəzarət edən; müfəttiş

کنتور [kontor] sayğac (*elektrik, qaz və s.*)

کنج [konc] künc, bucaq

کنجد [konced] küncüd; ~ روغن* küncüd yağı

کنجکاو [konckav] maraqlanan, hər şeyi bilmək istəyən

کنجکاوی [konckavi] maraqlanma, hər şeyi bilməyə çalışma; ~ کردن maraqlanmaq, hər şeyi bilməyə çalışmaq

کنجه [kənce // kence] *dan.* xırda tikə ət kababı

کند [kond] I 1) küt, kəsməyən, iti olmayan; ~ چاقوی* küt bıçaq; 2) yavaş, asta, ağır; ~ حرکت* ağır hərəkət; ~ شدن a) kütləşmək, korşalmaq; b) yavaşımaq, ağırlaşmaq (*sürət*); ~ کردن a) kütləşdirmək, korşaltmaq; b) yavaşıtmaq, sürəti azaltmaq

کند [kond] II qandal, buxov (*taxtadan*)

کندانسه [kondanse] kondensasiya (*qazın mayeyə çevrilməsi*)

کندذهن [kondzehn] korazehin, qanmaz, küt (*adam*)

کندذهنی [kondzehni] korazehinlik, qanmazlıq, kütbeyinlik

کندر [kondor] buxur (*dini ayinlərin icrası zamanı yandırılan ətirli qatran*)

کندردان [kondordan] buxur qabı

کندرو [kondrou] astagedən, astagəl, yavaş gedən

کندفهم [kondfəhm] *bax* کند ذهن

کندفهمی [kondfəhmi] *bax* کند ذهنی

کندن [kəndən] *k.* کن [kən] 1) qazmaq; ~ چاه quyu qazmaq 2) çıxarmaq; soyunmaq; ~ لباس را paltarı çıxarmaq; 3) dərmək, qoparmaq; ~ گل را gülü dərmək

کندو [kəndu] 1) pətək; ~ زنبور* عسل bal arısı pətəyi; 2) taxıl saxlamaq üçün böyük saxsı qab

کندوخانه [kənduxane] arıxana, pətəklik

کندوداری [kəndudari] arıçılıq

کندوکاو [kondokav] 1) qazma (*torpağı*); 2) axtarış, tədqiqat; 3) *dan.* çalışıb-çapalama, əlləşmə; ~ کردن a) axtarış aparmaq, tədqiqat aparmaq; b) çalışıb-çapalamaq, əlləşmək

کنده [kənde] کندن *f.nin k.z.f.sif.*; 1) qazılmış; 2) qopmuş, qoparılmış, çıxarılmış, dərilmiş

کنده [konde] 1) kötük (*ağac*); ~ قصاب* qəssab kötüyü; 2) ağacın kökə yaxın yoğun hissəsi; 3): ~ زانو* diz qapağı; زدن ~ diz üstə oturmaq, bardaş qurmaq

کنده خایه [kəndexaye] xədim, axtalanmış kişi

کنده کار [kəndekar] oymaçı, həkkak (*taxta, daş üzərində*)

کنده کاری [kəndekari] oymaçılıq, həkkaklıq (*taxta, daş üzərində*)

کندی [kondi] 1) kütlük (*bıçaq*); 2) astalıq, astagəllik (*adam*); 3) kütlük (*beyin*)

کنس [kenes] *dan.* xəsis, simic, acgöz

کنسرت [konsert] konsert; دادن ~ konsert vermək

کنسر سیوم [konsersiyom] konsersium; ~ نفت* neft konsersiumu

کنسرو [konserv] konserv; ~ گوشت* ət konservi

کنسرواتوار [konservatuar] konservatoriya

کنسل [kənsel] ləğv, ləğv etmə

کنسل [konsol] *bax* کنسول

کنسول [konsul] konsul

کنسول خانه [konsulxane] *bax* کنسولگری (1)

کنسولگری [konsulgəri] 1) konsulluq (*bina, yer*); 2) konsul vəzifəsi

کنش [koneş] 1) iş, əməl, hərəkət; 2) adət, ənənə

کنشت [keneşt] 1) sinaqoq; 2) İsrailin qanunvericilik orqanı; knesset

کنف [kənəf] *bot.* kənaf, çətənə

کنف [kenef] *dan.* 1) çirklənmiş; 2) əzilmiş; 3) alçaldılmış, təhqir edilmiş; شدن ~ a) çirklənmək; b) rüsvay olmaq; کردن ~ a) çirkləndirmək; b) rüsvay etmək

کنفت [keneft] *bax* کنف [kenef]

کنفدراسیون [konfed(e)ras(i)yon] konfederasiya, birlik

کنفرانس [konferans] konfrans

کن فیکون [konfəyəkun] 1) alt-üst olma, viran olma, darmadağın olma; 2) dünya, aləm; bütün varlıq; 3) yoxlamış; شدن ~ alt-üst olmaq, viran olmaq, dağılmaq; کردن ~ alt-üst etmək, viran qoymaq, dağıtmaq

کنکاش [kənkaş] məsləhətləşmə, məşvərət; ölçüb-biçmə; کردن ~ məsləhətləşmək; ölçüb-biçmək

کنکور [konkur] konkurs

کنگاش [kəngaş] *bax* کنکاش

کنگر [kəngər] *bot.* ayıpəncəsi

کنگره [konqore // kongere] divar üzərində olan dış formalı çıxıntılar; dişcik

کنگره [kong(e)re] konqres, qurultay

کنوانسیون [konvansiyon] konvensiya

کنور [kənur] taxıl saxlanılan qab və ya yer

کنون [konun] *bax* اکنون

کنونی [konuni] hazırkı, hal-hazırkı, müasir

کنه [kəne] gənə

کنه [konh] mahiyyət; məğz, əsas; مطلب ~ məsələnin mahiyyəti (*məğzi*)

کنیز [kəniz] 1) kəniz; xadimə; 2) qadın

کنیسه [kənise] yəhudi ibadətgahı

کنیه [konye] künyə, ləqəb (*ərəb şəxs adlarına* ابو – *ata*, ام – *ana*, ابن – *oğul*, بنت – *qız sözlərinin əlavə olunması ilə əmələ gələn ad-ləqəb:* ابو علی ابن سینا *Əbu Əli ibn Sina: Əlinin atası, Sinanın oğlu*)

کو [ku] I harada? احمد کو؟ Əhməd haradadır?

کو [ku] II *bax* کوی

کوار [kəvar] *bax* کور [kəvər]

کوار [kovar] meyvə-tərəvəz daşımaq üçün böyük zənbil

کوارتز [kovartz] *miner.* kvars

کواکب [kəvakeb] *t.* کوکب

کوبال [kubal] *bax* کوپال

کوبل [kubəl] *bax* کوپل

کوبنده [kubənde] 1) vuran, döyən; 2) ağır, kəskin; پاسخ ~ ağır cavab

کوبه [kube] 1) qapını döymək üçün asılmış çəkic; 2) nağara növü; 3) toxmaq; 4) *dilç.* vurğu

کوبیدن [kubidən] 1) döymək; در را ~ qapını döymək; 2) vurmaq, çalmaq; میخ را ~ mıxı çalmaq; 3) döymək, əzmək; گندم را ~ buğdanı döymək

کوبیده [kubide] کوبیدن *f.-nin k.z. f.sif.:* 1) döyülmüş, əzilmiş; 2) yorulmuş, əldən düşmüş; کباب ~ lülə-kabab

کوپال [kupal] 1) toppuz, gürz, əmud; 2) yoğun boyun; 3) enlikürək

کوپل [kupəl] qönçə

کوپن [kupon] kupon, talon

کوپه [kupe] kupe

کوپه [kup(p)e] yığın, qalaq, topa

کوتاه [kutah] 1) qısa, gödək; خبر ~ qısa xəbər; ریسمان ~ qısa ip; 2) alçaq; سقف ~ alçaq tavan; شدن ~ qısalmaq, gödəlmək; کردن ~ qısaltmaq, gödəltmək

کوتاه آستین [kutahastin] yoxsul, kasıb

کوتاه اندیش [kutahəndiş] uzağı görə bilməyən, dardüşüncəli

کوتاه اندیشی [kutahəndişi] uzağı görə bilməmə, dardüşüncəlilik

کوتاه برد [kutahbord] *hərb.* yaxınmənzilli; راکتهای ~ yaxınmənzilli raketlər

کوتاه بین [kutahbin] *bax* کوتاه اندیش

کوتاه بینی [kutahbini] *bax* کوتاه اندیشی

کوتاه قامت [kutahğamət] *bax* کوتاه قد

کوتاه قد [kutahğəd(d)] gödəkboylu, qısaboylu

کوتاه مدت [kutahmoddət] qısamüddətli; وام ~ qısamüddətli kredit

کوتاهی [kutahi] qısalıq, gödəklik

کوتل [kutəl] dağ keçidi, aşırım

کوته [kutəh] *bax* کوتاه

کوته آستین [kutəhastin] *bax* کوتاه آستین

کوته اندیش [kutəhəndiş] *bax* کوتاه اندیش

کوته اندیشی [kutəhəndişi] *bax* کوتاه اندیشی

کوته بین [kutəhbin] *bax* کوتاه بین

کوته بینی [kutəhbini] *bax* کوتاه بینی

کوته قامت [kutəhğamət] *bax* کوتاه قامت

کوته قد [kutəhğəd(d)] *bax* کوتاه قد

کوته مدت [kutəhmoddət] *bax* کوتاه مدت

کوثر [kousər] *din.* Kövsər (*behiştdə olan bulaq*)

کوچ [kuç] کوچیدن [kuçidən] *f.-nin k.:* köç; کردن ~ köçmək; دادن ~ köçürtmək

کوچاندن [kuçandən] köçürtmək

کوچانیدن [kuçanidən] *bax* کوچاندن

کوچک [kuçek // kuçək] kiçik, balaca, xırda; برادر ~ kiçik qardaş; حیاط ~ balaca həyət; شدن ~ kiçilmək; شمردن (گرفتن) ~ kiçik saymaq, əhəmiyyət verməmək; کردن ~ kiçiltmək

کوچکی [kuçeki] kiçiklik, uşaqlıq; کردن ~ ◊ təvazökarlıq etmək

کوچ نشین [kuçneşin] köçəri

کوچ نشینی [kuçneşini] 1) köçərilik; köçəri həyat tərzi; 2) köçmə, mühacirət

کوچولو [kuçulu] *dan.* çıqqılı, balaca, bapbalaca

کوچه [kuçe] küçə; اشتی کنان ~ ◊ dar küçə; علی چپ زدن ~ خودرا به ~ özünü bilməməzliyə vurmaq

کوچه بازار [kuçeəbazar] mağazalar olan küçə

کوچه گرد [kuçegərd] 1) küçələri gəzən; 2) avara, veyl

کوچه گردی [kuçegərdi] 1) küçələri gəzmə; 2) avaraçılıq, veyllik

کوچیدن [kuçidən] *bax* کوچ کردن (کوچ *sözündə*)

کوخ [kux] koma, taxta və qamışdan tikilən daxma

کوخ نشین [kuxneşin] 1) daxmada yaşayan; 2) kasıb, yoxsul

کود [kud] I gübrə; حیوانی ~ peyin; شیمیایی ~ kimyəvi gübrə; معدنی ~ mineral gübrə

کود [kud] II *bax* **کوپه** [kup(p)e]

کودتا [kudeta] çevriliş; **~ نظامی** hərbi çevriliş

کودتاچی [kudetaçi] dövlət çevrilişinin iştirakçısı, qiyamçı

کودسازی [kudsazi] gübrə istehsalı; **~ کارخانه** gübrə zavodu

کودک [kudək] körpə, uşaq

کودکانه [kudəkane] 1) uşaq kimi; 2) uşağa məxsus; **~ لباس** uşaq paltarı

کودکستان [kudəkestan] uşaq bağçası

کودکی [kudəki] körpəlik, uşaqlıq; **~ از** körpəlikdən,uşaqlıqdan

کودکیار [kudəkyar] uşaq tərbiyəçisi

کودن [koudən] kütbeyin, korazehin, ağıldanyüngül, qanmaz

کودنی [koudəni] kütbeyinlik, ağılsızlıq, qanmazlıq

کور [kəvər] kəvər (*göyərti*)

کور [kur] kor; **شدن ~** kor olmaq; **کردن ~** kor etmək, gözünü çıxarmaq

کوراب [kurab] ilğım

کوران [kuran] 1) yelçəkər; hava axını; 2) axın, cərəyan; **~ الکتریک** elektrik cərəyanı; ◊ **~ سیاست** siyasi hadisələr

کورباطن [kurbaten] korazehin, kütbeyin, küt, qanmaz

کوربخت [kurbəxt] bədbəxt, yazıq, biçarə

کوربختی [kurbəxti] bədbəxtlik, yazıqlıq, biçarəlik

کورتاژ [kurtaj] abort, uşaqsalma, uşaqsaldırma

کورس [kurs] 1) qaçış, yarış; 2) cıdır, at yarışı; **~ اسب** cıdır atı

کورسی [kursi] *bax* **کورس**; **~ دوچرخه** velosiped yarışı

کورک [kurək] *bax* **دمل**

کورکور [kurkur] *zool.* qırğı

کورکورانه [kurkurane] korkoranə, bilməyə-bilməyə

کورنمک [kurnəmək] nankor, duzbilməz

کوره [kure] kürə, ocaq, təndir

کوره پزخانه [kurepəzxane] kərpic zavodu

کوره پزی [kurepəzi] kürədə kərpic bişirmə

کوری [kuri] korluq; kor olma; ◊ **~ کشیدن** korluq çəkmək

کوزه [kuze] kuzə, bardaq

کوزه گر [kuzegər] dulusçu, kuzə qayıran

کوزه گری [kuzegəri] dulusçuluq, kuzəqayırma

کوژ [kuj] 1) əyri, əyilmiş, bükülmüş; 2) qozbel; **شدن ~** əyilmək, bükülmək; **کردن ~** əymək, bükmək

کوژپشت [kujpoşt] qozbel; **شدن ~** qozbelləşmək, beli əyilmək

کوس [kus] böyük nağara, təbil; **زدن (بر کشیدن) ~** nağara çalmaq; ◊ **~ زدن چیزی را** bir şeyin iddiasında olmaq

کوسج [kusəc] *bax* **کوسه** I

کوسه [kuse] I kosa; kosasaqqal, seyrəksaqqallı; ◊ **~ و ریش پهن** *dan.* bir-birinə zidd olan şeylər

کوسه [kuse] II akula; köpək balığı

کوسه ریش [kuseriş] *bax* **کوسه** I

کوسه ماهی [kusemahi] *bax* **کوسه** II

کوشا [kuşa] çalışqan, səy göstərən; **~ شاگرد** çalışqan şagird; **بودن ~** çalışqan olmaq

کوشش [kuşeş] çalışma; səy; **کردن ~** çalışmaq

کوشمند [kuşmənd] *bax* **کوشا**

کوشک [kuşk] böyük bağ evi; saray, villa, pavilyon

کوشیدن [kuşidən] 1) çalışmaq, səy göstərmək; 2) cəhd etmək; 3) mübarizə aparmaq; vuruşmaq

کوف [kuf] bayquş

کوفت [kuft] 1) *tib.* sifilis; 2) zərbə, zədələnmə; zədə; 3) *bax* **کوفتگی**; **~ رفتن** bərk yorulmaq; **کردن ~** xoppuldatmaq, qarın partlayanacan yemək; ◊ **کوفتش باشد!** görüm boğazında qalsın!

کوفتگی [kuftegi] bezginlik, bərk yorğunluq, halsızlıq

کوفتن [kuftən] *k.* **کوب** [kub] *bax* **کوبیدن**

کوفته [kufte] **کوفتن** *f.-nin k.z.f.sif.*; 1) döyülmüş, əzilmiş; 2) yorğun, əzgin

کوفی [kufi] 1) kufi (*ərəb xətt növü*); 2) Kufə şəhər sakini

کوک [kuk] 1) kökləmə (*musiqi alətlərini*); 2) qurma (*saatı*); **کردن ~** a) kökləmək (*musiqi alətlərini*); b) qurmaq (*saatı*); ◊ **کیفش ~ است** kefi kökdür, kefi sazdır

کوکب [koukəb] *c.* **کواکب** [kəvakeb] ulduz

کوکتل [koktel] kokteyl

کوکنار [kuknar] xaşxaş (*bütöv halda*)

کوکو [kuku] kükü (*xörək*); **پختن ~** kükü bişirmək

کول [kul] çiyin, kürək; **کردن ~ (گرفتن)** çiyinə almaq, dalına qoyub aparmaq, şələləmək

کولاک [kulak] fırtına (*dənizdə*)

کولانج [kulanc] *bax* **قولنج**

کولبار [kulbar] 1) çanta, arxa çantası; 2) şələ, yük (*arxada aparılan*)

کولر [kuler] kondisioner (*havanı sərinləşdirən qurğu*)

کوله [kule] 1) yük; 2) *bax* **کولبار**

کوله بار [kulebar] *bax* **کولبار**

کولی [kouli] 1) qaraçı; 2) davakar (*qadın*)

کومک [komək] *bax* **کمک**

کومه [kume] *bax* **کوخ**

کومیس [komis] qımız (*at südündən hazırlanan içki*)

کون [koun] varlıq; dünya

کون [kun] insanın oturaq yeri, dal, arxa

کونه [kune] *dan.* 1) kök (*bitkinin*); **~ پا** daban; **تفنگ ~** tüfəngin qundağı; 2) baş (*numerativ söz*); **دو ~ پیاز** iki baş soğan; ◊ **کردن ~** kök atmaq, kök salmaq

کوه [kuh] dağ; **آتش فشان ~** vulkan; **~ یخ** aysberq; **~ قله** dağın zirvəsi

کوهان [kouhan//kuhan] güvən, hürgüc (*dəvədə*)

کوهان دار [kuhandar] güvənli, hürgüclü (*dəvə*)

کوه بر [kuhbor] dağ ekskavatoru; dağ süxurlarını deşən qurğu

کوه پایه [kuhpaye] dağın ətəyi, dağın dibi

کوه پیکر [kuhpeykər] çox böyük, nəhəng, yekəpər

کوه پیما [kuhpeyma] alpinist

کوه پیمایی [kuhpeymayi] alpinizm

کوهستان [kuhestan] dağlıq

کوه شناس [kuhşenas] oroqrat

کوه شناسی [kuhşenasi] oroqrafiya, orologiya

کوهکن [kuhkən] dağçapan, dağyaran (*klassik İran və Azərbaycan ədəbiyyatının qəhrəmanlarından biri olan Fərhadın epiteti*)

کونویر [konveyr] konveyer

کوه نشین [kuheneşin] dağlı, dağ adamı, dağ sakini

کوهنورد [kuhnəvərd] *bax* کوه پیما

کوه نوردی [kuhnəvərdi] *bax* کوه پیمایی

کوی [kuy] küçə; məhəllə

کویر [kəvir] 1) şoranlıq; 2) səhra

که [ke] I ki (*bağlayıcı*); ~ گفت dedi ki

که [ke] II kim? (*sual əvəzliyi*); ~ آمد kim gəldi? ~ برای kim üçün?

کهر [kəhər] kəhər (*at*)

کهربا [kəhroba] kəhrəba

کهریز [kəhriz] *bax* کاریز

کهف [kəhf] *c.* کهوف [kohuf] 1) mağara; 2) sığınacaq

کهکشان [kəhkəşan] *astr.* kəhkəşan, qalaktika

کهن [kohən] 1) qədim; 2) qoca; 3) köhnə, köhnəlmiş

کهن سال [kohənsal] 1) yaşlı, qoca; 2) qədim; köhnə

کهنه [kohne] 1) köhnə; köhnəlmiş, işlənmiş; ~ لباس köhnə paltar; ~ لغات köhnəlmiş sözlər; 2) qədim; 3) xroniki (*xəstəlik*); ~ شدن a) köhnəlmək; b) dəbdən düşmək; ~ کردن köhnəltmək

کهولت [kohulət] 1) qocalıq, qocalıq dövrü; 2) yetkinlik dövrü, kamillik dövrü

کی [key] I nə vaxt? nə zaman?

کی [key] II که + ای birləşməsinin qısaldılmış forması

کیت [kit] hesablaşma, haqq-hesabı çürütmə; borcun qarşılıqlı ödənişi; ~ بودن hesablaşmaq, haqq-hesabı çürütmək

کید [keyd] 1) hiylə, kələk, fırıldaq; yalan; 2) xəyanət, satqınlıq

کیر [kir] kişi cinsiyyət üzvü

کیس [kis] *dan.* I kağız və ya parça üzərində olan qırış; qırışmış (*paltar, parça*)

کیس [kis] II 1) kisəcik; 2) *anat.* uşaqlıq

کیست [kist] *tib.* kista (*şiş*); *bax* کیس [kis] II 1)

کیسه [kise] 1) kisə, torba, çanta; ~ برنج düyü kisəsi; ~ حمام hamam kisəsi; 2) pulqabı; ~ کشیدن kisə çəkmək (*hamamda*); ◊~ بریدن cib kəsmək, cibgirlik etmək

کیسه بر [kisebor] cibgir

کیسه بری [kisebori] xırda oğurluq, cibgirlik etmə; ~ کردن cibgirliklə məşğul olmaq, cib kəsmək

کیش [kiş] I 1) din, məzhəb; 2) ayin, adət

کیش [kiş] II *şahm.* şah; ~ و مات şah və mat

کیف [keyf] 1) kef, ləzzət, eyş-işrət; 2) məstlik, sərxoşluq; ~ بردن kef eləmək, ləzzət çəkmək; ~ دادن ləzzət vermək; ◊کیفش کوک است *bax* کوک

کیف [kif] 1) portfel, çanta; ~ زنانه qadınlar çantası; 2) pul kisəsi

کیابیا [kiyabiya] *dan.* hökm verən, sərəncam verən; ~ داشتن hökmlü olmaq; ~ کردن rəhbərlik etmək

کیاست [kiyasət] ağıl, dərrakə, fərasət, gözüaçıqlıq

کیپ [kip] *dan.* kip, möhkəm, bərk

کیفر [keyfər] 1) cəza; 2) qisas, intiqam, öc; ~ دادن a) cəzalandırmaq; b) intiqam almaq; ~ به رسیدن cəzasına çatmaq

کیفر خواست [keyfərxast] *hüq.* ittihamnamə

کیفر شناس [keyfərşenas] cinayət hüququ üzrə mütəxəssis, kriminalist

کیفر شناسی [keyfərşenasi] kriminalistika

کیفور [keyfur] *dan.* kefcil, kefikök; kefinəqulu; yaxşı əhvali-ruhiyyəli

کیفی [keyfi] I keyfiyyət; ~ تغییرات keyfiyyət dəyişiklikləri

کیفی [keyfi] II 1) kefcil, əhli-kef, əyyaş; 2) narkoman; 3) gəzəyən

کیفیت [keyfiyyət] *c.* کیفیات [keyfiyyat] keyfiyyət, xüsusiyyət

کیک [keyk // kik] I *bax* کک [kək]; ◊در پاچه (تنبان) کسی انداختن ~ birinin kürkünə birə salmaq

کیک [keyk] II keks; tort

کیل [keyl] *c.* اکیال [əkyal] taxıl üçün ölçü vahidi

کیمیا [kimya] 1) kimya; 2) iksir; 3) yalan; fırıldaq, kələk

کیمیاگر [kimyagər] 1) kimyagər; kimyaçı; 2) cadugər, sehrkar

کین [kin] I *bax* کینه

کین [kin] II که+این birləşməsinin qısa şəkli

کین آوری [kinavəri] 1) qisas, intiqam, öc; 2) kin, ədavət; 3) dava, savaş; müharibə

کین توز [kintuz] *bax* کینه توز

کین توزی [kintuzi] *bax* کینه توزی

کینه [kine] 1) kin, ədavət; düşmənçilik; 2) qisas, intiqam, öc; ◊ ~ به دل ورزیدن ~ گرفتن ürəkdə kin saxlamaq; kin saxlamaq, düşmənçilik etmək

کینه توز [kinetuz] 1) kinli; 2) qisasçı, intiqamçı

کینه توزی [kinetuzi] 1) kinlilik, ədavət; 2) qisas, qisas alma, intiqam, intiqam alma, öc

کینه جو [kinecu] *bax* کینه توز

کینه جویی [kinecuyi] *bax* کینه توزی

کینه دار [kinedar] *bax* کینه توز

کینه کش [kinekeş] *bax* کینه توز

کینه ورز [kinevərz] *bax* کینه توز

کیوان [keyvan] *astr.* Saturn, Zühəl (*planet*)

کیهان [keyhan] 1) dünya, varlıq; 2) kosmos

کیهان پیما [keyhanpeyma] kosmik; kosmosda hərəkət edən; ~ راکت kosmik raket; ~ سفینه kosmik gəmi

کیهان خدیو [keyhanxədiv] hökmdar, dünyanın hökmdarı (*Allahın epiteti*)

کیهان نورد [keyhannəvərd] kosmonavt

کیهان نوردی [keyhannəvərdi] kosmonavtika

کیهانی [keyhani] kosmik, kosmosa aid olan; ~ پرواز kosmik uçuş

گ

گ [qaf] fars əlifbasının iyirmi altıncı hərfi

گاراژ [qaraj] qaraj

گارد [qard] 1) qvardiya; 2) qarovul; احترام ~• fəxri qarovul; 3) mühafizə dəstəsi

گارسن [qarson] ofisiant, restoranda yeməkpaylayan

گارسون [qarson] *bax* گارسن

گارمن [qarmon] qarmon

گارمون [qarmon] *bax* گارمن

گاری [qari] araba

گاز [qaz] I dişləmə; زدن ~ dişləmək (*meyvəni*); گرفتن ~ dişləmək (*canlının canlını*); ◊ دست را ~ گرفتن barmağını dişləmək, peşman olmaq

گاز [qaz] II qaz (*təbii*); ~• اشک آور gözyaşardıcı qaz; مایع ~• maye qaz; دادن ~ qaz vermək (*avtomobildə*)

گازانبر [qazəmbor] kəlbətin, qısqac; maşa

گازدار [qazdar] qazı olan, qazlı; آب• ~ qazlı su

گازسوز [qazsuz] qazla yanan, qazla işləyən; ~ اجاق• qaz sobası; ~ ماشین• qazla işləyən maşın

گازمانند [qazmanənd] qazabənzər

گازولین [qazolin] qazolin (*yanacaq*)

گازوئیل [qazoil] solyarka

گازی شکل [qazişckl] *bax* گازمانند; ~ مواد• qazabənzər maddələr

گال [qal] *tib.* qaşınma, qaşınma tutma, qotur

گالری [qalcri] qalercya, koridor; ~• نقاشی rəsm qalercyası

گالش [qaloş // qaleç] qaloş

گاله [qale] 1) xurcun; 2) *dan.* böyük, eñlı; ~ دهن• böyük ağız

گام [qam] addım; برداشتن ~ addımlamaq; addım atmaq; گذاشتن ~ (نهادن) qədəm qoymaq; از گام ~ برنداشتن addım atmamaq; heç bir iş görməmək

گاو [qav] inək; öküz; دوشا ~• sağmal inək; ماده ~• inək; نر ~• öküz; گوشت ~• mal əti; ◊ کسی زایيدن ~• işi dolaşığa düşmək

گاو آهن [qavahən] kotan, xış

گاو چران [qavçəran] naxırçı, naxır otaran

گاوداری [qavdari] maldarlıq (*inəkçilik*)

گاودان [qavdan] *bax* گاودانی

گاودانه [qavdane] *bot.* mərci, mərcimək

گاودانی [qavdani] tövlə, pəyə

گاو صندوق [qavsənduğ] 1) seyf; 2) böyük sandıq

گاومیش [qavmiş] camış

گاه [qah] 1) vaxt, zaman, çağ; 2) gah; میرود ~ میایستد ~ gah gedir, gah dayanır; 3) mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "yer", "məkan" mənasını bildirir: چراگاه otlaq; خوابگاه yataq yeri

گاه گاه [qahqah] *bax* گاهی

گاهواره [qahvare] *bax* گهواره

گاه و بیگاه [qahobiqah] vaxtlı-vaxtsız; 2) *bax* گاهی

گاهی [qahi] bəzən

گبر [gəbr] 1) kafir, dinsiz; 2) atəşpərəst

گپ [gəp] 1) cəfəngiyat, boş danışıq; 2) söz; söhbət; زدن ~ a) çərənləmək, boşboğazlıq etmək; b) danışmaq

گچ [gəç] gəc, gips, tabaşir; اندودن ~ mala çəkmək; گرفتن ~ gips qoymaq

گچ بری [gəçbori] divar və ya tavana gəc naxışı vurma (*yapma*)

گچ پزی [gəçpəzi] gəc bişirmə

گچکار [gəçkar] malakeş, suvaqçı

گچکاری [gəçkari] malalama, malakeşlik, suvaq, suvaqlama, suvaqçılıq; دیوارها ~• divarların suvaqlanması

گدا [geda // gəda] gəda, dilənçi, yolçu; شدن ~ dilənçi olmaq, yoxsullaşmaq

گدا بازی [gedabazi] *dan.* 1) simiclik; xəsislik; 2) özünü yoxsul göstərmə; در آوردن ~ a) simiclik etmək, xəsislik etmək; b) özünü yoxsul göstərmək

گداختن [qodaxtən] *k.* گداز [qodaz] 1) ərimək; əritmək (*metalı*); 2) bərk qızmaq; çox qızdırmaq

گداخته [qodaxte] گداختن *f.-nin k.z. f.sif.*: 1) ərimiş; əridilmiş (*metal*); 2) bərk qızmış

گدار [qodar] dayaz yer; keçid, bərə; بی ~ به آب زدن ◊ düşünülməmiş hərəkət etmək

گدازاده [gedazade] 1) gəda nəslindən olan; alçaq, yaramaz; 2) simic, xəsis

گدازش [qodazeş] ərimə (*metal*)

گدازه [qodaze] lava (*vulkanın ağzından çıxan odlu maye*)

گداصفت [gedasefət] *bax* گدازاده

گدا طبع [gedatəb'] *bax* گدازاده

گدایی [gedayi] 1) dilənçilik; 2) yoxsulluq; کردن ~ dilənmək, dilənçilik etmək

گذار [qozar] 1) گذاردن // گذاشتن *f.-nin k.*; 2) *bax* گذر

گذاردن [qozardən] *bax* گذاشتن

گذاشتن [qozaştən] *k.* گذار [qozar] 1) yerləşdirmək, qoymaq; روی میز ~• masanın üstünə qoymaq; کودک را ~ به کودکستان uşağı bağçaya qoymaq; 2) tərk etmək, atmaq; زن و بچه اش را گذاشت ورفت arvad-uşağını atıb getdi; 3) icazə vermək; بگذار برود icazə ver (*qoy*) getsin

گذر [qozər] گذشتن *f.-nin k.*: 1) keçid, yol; 2) keçmə; کردن ~ keçmək; گذرم افتاد yolum düşdü

گذران [qozəran] 1) keçici, keçən, müvəqqəti; 2) güzəran, yaşayış; کردن ~ yaşamaq

گذراندن [qozərandən] keçirmək; امتحان را ~ imtahan keçirmək; وقت ~ vaxt keçirmək; ~ خوش xoş keçirmək; از خیابان ~ küçədən keçirmək

گذرگاه [qozərqah] keçid, keçid yolu

گذرنامه [qozərname] 1) pasport; ~• سیاسی diplomatik pasport; 2) viza; 3) buraxılış

گذشت [qozəşt] 1) güzəşt, güzəştə getmə; 2) bağışlama, günahdan keçmə; 3) keçmə, qurtarma; پس از ~• دوماه iki ay keçəndən sonra; کردن ~ a) güzəştə getmək; b) günahından keçmək

گذشتگان [qozəşteqan] 1) ata-babalar; əcdad; 2) ölüb gedənlər

گذشتن [qozəştən] *k.* گذر [qozər] keçmək; getmək; از رودخانه ~ çaydan keçmək; عمر ~• ömrün keçməsi

گذشته [qozəşte] گذشتن *f.-nin k.z. f.sif.*: 1) keçmiş, keçən; سال• ~ keçən il; 2) *qram.*: زمان• ~ keçmiş zaman; 3) başqa, əlavə

گر [gor] I *tib.* qaşınma xəstəliyi, qoturluq; شدن ~ qoturluq basmaq, qoturlaşmaq

گر [gər] II اگر bağlayıcısının qısaldılmış forması

گراته [gerate] *dan.* manea, çətinlik (*işdə*); افتادن ~ çətinliyə düşmək

گراز [qoraz] qaban, çöl donuzu

گرازیدن [qorazidən] *bax* خرامیدن

گرامر [g(e)ramer] qrammatika

گرامی [gerami] əziz; hörmətli; داشتن ~ hörmət etmək; əzizləmək

گرامی داشت [goramidaşt] anma, yad etmə; anma mərasimi; qeyd etmə; خاطر ~ شهیدان ~ şəhidlərin xatirəsini qeyd etmə (*anma mərasimi keçirmə*)

گران [geran] 1) bahalı; baha qiymətli; 2) ağır, ağırçəkili; 3) dözülməz; آمدن ~ a) toxunmaq, xətrinə dəymək; b) çətinliklə dözmək; شدن ~ bahalaşmaq; کردن ~ bahalaşdırmaq; تمام شدن ~ baha başa gəlmək

گرانبار [geranbar] 1) yüklü; ağır-yüklü; 2): زن ~ hamilə qadın

گرانبها [geranbəha] *bax* گران **1)**

گران پا [geranpa] 1) astagəl; 2) ayağıağır

گران پایه [geranpaye] yüksəkrütbəli, yüksək vəzifə sahibi

گرانجان [gerancan] 1) astagəl, ləng, tənbəl; 2) xəsis, simic

گران سال [geransal] yaşlı, qoca

گرانفروش [geranforuş] bahacıl, bahaçı, baha satan

گرانقدر [gerangədr] qiymətli, dəyərli; əhəmiyyətli, mühüm

گران قیمت [gerangeymət] *bax* گران **1)**

گران مایه [geranmaye] 1) *bax* گران **1)**; 2) alicənab; əsil-nəcabətli; 3) əhəmiyyətli, vacib, mühüm

گرانی [gerani] 1) bahalıq; 2) ağırlıq

گراور [geravor] qravüra; şəkil (*metal, taxta, daş üzərində*); شدن ~ qravüra olunmaq, çəkilmək; کردن ~ qravüra çəkmək

گرایش [gerayeş] 1) həvəs, arzu, təmayül, meyil; 2) ənənə, istiqamət, cərəyan; سیاسی ~ siyasi xətt; siyasi cərəyan; کردن ~ *bax* گراییدن **1), 2)**

گراییدن [gerayidən] *k.* گرای [geray] 1) can atmaq, meyil göstərmək; 2) arzu etmək, istəmək

گربه [qorbe] pişik; ~ بچه pişik balası; ~ آبی su samuru; ◊ ~ در بغل افکندن biclik etmək; ~ در زندان کردن çox simiclik etmək; ~ در شلوار کردن biabır etmək, abrını ətəyinə tökmək

گربه رقصانی [qorberəğsani] *dan.* 1) fitnə, intriqa, oyun; 2) fırıldaq, hiylə; kələk; کردن ~ kələk gəlmək, fırıldaq işlətmək

گربه شو [qorbeşu] *bax* گربه شوری

گربه شوری [qorbeşuri] yaxalanma, yüngülvari yuyunma; کردن ~ yaxalanmaq, yüngülvari yuyunmaq

گربه کوهی [qorbekuhi] *zool.* vaşaq, yazıpişiyi

گرته برداری [gərtebərdari] 1) şəkil və ya cizgidən surət çıxarma; 2) təqlid etmə, yamsılama

گرچه [gərçe]: اگرچه bağlayıcısının qısaldılmış forması

گرد [gərd] 1) toz; دندان ~ diş tozu; لباس شویی ~ yuyucu toz; 2) toz dərman; اسپیرین ~ aspirin tozu (*dərman*)

گرد [gerd] 1) girdə, dairəvi; yumru; میز ~ dəyirmi masa; 2) kənar, ətraf, dövrə; شهر ~ şəhərin ətrafı; آمدن ~ toplaşmaq, yığışmaq; آوردن ~ yığmaq, toplamaq; tərtib etmək (*kitabı*); شدن ~ girdə olmaq; yumru olmaq; کردن ~ a) yuvarlaqlaşdırmaq (*yuvarlaq olmayan ədədi*); b) yığmaq

گرد [qord] pəhləvan; güclü; döyüşkən

گرداب [gerdab] burulğan, su burulğanı

گرد آلود [gerdalud] toz basmış, tozlu; شدن ~ tozlanmaq, tozla örtülmək; کردن ~ tozlandırmaq

گردان [gərdan] 1) fırlanan, dönən, hərlənən; صحنه ~ fırlanan səhnə; 2) dəyişən; dəyişkən

گردان [qordan] *hərb.* batalyon, tabor

گرداندن [gərdandən] 1) fırlatmaq; hərlətmək; 2) çevirmək; döndərmək; 3) burub açmaq; burub boşaltmaq; 4) idarə etmək; 5) gəzdirmək; 6) çevirmək, tərcümə etmək; 7) hücumu dəf etmək

گردانیدن [gərdanidən] *bax* گرداندن

گرداننده [gərdanənde] 1) fırladan; hərəkətə gətirən; 2) *c.* گردانندگان [gərdanəndeqan] a) idarə edənlər; işin başında duranlar; b) icraçılar; məsul şəxslər

گردانه [gərdane] 1) dəyirman daşı; 2) dişli çarx

گردآورنده [gerdavərənde] tərtibçi; toplayan

گردآوری [gerdavəri] tərtib etmə; toplama, yığma; شدن ~ tərtib olunmaq; toplanmaq; کردن ~ tərtib etmək; toplamaq

گردباد [gerdbad] burulğan, qasırğa

گردبر [gerdbor] burğu

گردپاش [gərdpaş] tozsəpən, tozlandırıcı

گردپاشی [gərdpaşi] *bot.* süni tozlandırma

گردش [gərdeş] 1) gəzinti, gəzmə; 2) fırlanma, hərlənmə; زمین ~ yerin fırlanması; 3) dövr etmə, dövran; پول ~ pulun dövriyyəsi; خون ~ qan dövranı; 4) növbə; dəyişiklik, gərdiş; روزگار ~ zəmanənin gərdişi, dövranın gərdişi

گردشگاه [gərdeşqah] gəzinti yeri

گردشگر [gərdeşgər] 1) turist; 2) səyyah

گردشگری [gərdeşgəri] 1) turizm; 2) səyahət

گردکان [gerdəkan] *bax* گردو

گردگرد [gerdgərd] *bax* گردان [gərdan] **1)**

گردگیر [gərdgir] 1) toz əskisi; süpürgə; 2) tozu buraxmayan; 3) tozsoran (*maşın*)

گردن [gərdən] 1) boyun; ~ پس boyun ardı, peysər; 2) boğaz (*şüşə və ya saxsı qabda*); خم کردن ~ baş əymək, boyun əymək; زدن ~ başını kəsmək; boynunu vurmaq (*cinayətkarın*); ◊ به ~ کسی انداختن birinin boynuna atmaq; birini günahlandırmaq; پیچیدن ~ boyun əyməmək, boyun qaçırmaq; به ~ گرفتن boynuna götürmək, öhdəsinə götürmək

گردنا [gərdəna] şiş (*kabab üçün*)

گردن بند [gərdənbənd] boyunbağı

گردنده [gərdənde] *bax* گردان [gərdan]

گردن فراز [gərdənfəraz] özündənrazı, təkəbbürlü, xudpəsənd, lovğa, eqoist

گردن فرازی [gərdənfərazi] özündənrazılıq, təkəbbürlük, xudpəsəndlik, lovğalıq, eqoistlik

گردن کش [gərdənkeş] 1) üsyankar; 2) qiyamçı; 2) tərs, inadkar, inadcıl;

3) baş əyməyən, tabe olmayan, itaət etməyən

گردن کشی [gərdənkeşi] 1) üsyan; qiyam; 2) tərslik, inadkarlıq; 3) itaətsizlik, baş əyməmə, tabe olmama; گردن ~ a) qiyam qaldırmaq; b) tərslik etmək; c) tabe olmamaq

گردن کلفت [gərdənkoloft] *dan.* 1) kobud; xuliqan; qoluzorlu; 2) boynuyoğun; 3) varlı, dövlətli; 4) nüfuzlu

گردن کلفتی [gərdənkolofti] *dan.* 1) kobudluq; xuliqanlıq; qoluzorluluq; 2) itaətsizlik, tabe olmama

گردن نهاده [gərdənnehade] müti, itaətkar, sözəbaxan

گردنه [gərdəne] I keçid, dağ keçidi

گردنه [gərdəne] II oxlov, vərdənə

گردنه گیر [gərdənegir] yolkəsən, soyğunçu

گردو [gerdu] qoz; ~ چوب qoz taxtası; ~ درخت qoz ağacı

گرد و خاک [gərdoxak] toz-torpaq; گردن ~ a) tozanaq qaldırmaq; b) səsküy qoparmaq

گردون [gərdun] 1) fırlanan; dönən; 2) fələk, dünya, göy qübbəsi; 3) tale, qismət, alın yazısı

گردونه [gərdune] iriçarxlı at arabası

گرده [gərde] 1) kalka kağızı (*surət çıxarmaq üçün*); 2) trafaret; 3) *bot.* tozcuq; پاشیدن ~ tozlandırmaq, tozcuq səpmək

گرده [gerde] 1) girdə, yumru; 2) yumru çörək; 3) düyü növü; ~ برنج girdə düyü

گرده [qorde] 1) böyrək; 2) bel; 3) kəmər; 4) boyun ardı, peysər; 5) mərdlik; şücaət; ◊ از ~ کسی کار کشیدن birini işləməyə məcbur etmək; birini istismar etmək

گرده افشانی [gərdeəfşani] *bax* گردپاشی

گردهمایی [gerdehəmayi] 1) toplaşma; 2) yığışma; 3) yığıncaq, toplantı; konfrans

گردی [gerdi] yumruluq, girdəlik

گردی [gərdi] tozlu, tozlu-torpaqlı

گردی [qordi] mərdlik, şücaət

گردیدن [gərdidən] 1) firlanmaq, hərlənmək; 2) gəzmək; 3) axtarmaq; 4) dəyişilmək; 5) yarışmaq

گرز [qorz] gürz, toppuz, əmud

گرزه [qorze] I gürzə (*ilan*)

گرزه [qorze] II *bax* گرز

گرسنگی [qorosnegi] aclıq; ~ دادن ac saxlamaq; ~ دیدن (خوردن، کشیدن) aclıq çəkmək

گرسنه [qorosne] ac; شدن ~ acmaq; ac olmaq

گرسنه چشم [qorosneçeşm] acgöz, tamahkar, həris

گرشال [qorşal] canavar-çaqqal cütlüyünün törəməsi

گرفت [gereft] tutulma; ~ خورشید *bax* کسوف

گرفتار [gereftar] 1) tutulmuş, ələ keçmiş; düçar olmuş; ~ بیماری xəstəliyə tutulmuş; ~ عشق eşqə düçar olmuş; 2) çox məşğul olan; شدن ~ tutulmaq, düçar olmaq; کردن ~ tutmaq (*həbs etmək*); düçar etmək

گرفتگی [gereftegi] 1) qəm, qüssə, kədər; 2) əngəl, maneə; 3) tutulma; ~ آواز səsin tutulması; ~ بینی burunun tutulması; ~ لوله borunun tutulması; ~ هوا havanın tutulması; bürkü

گرفتن [gereftən] *k.* گیر [gir] 1) tutmaq, almaq, götürmək; ələ keçirmək; ~ پول pul almaq; ~ دزد را oğ-

runu tutmaq; ~ شهر را şəhəri tutmaq; ~ شکافها را deşikləri tutmaq; ~ نامه məktub almaq; ~ سگ itin tutması; ~ کار işin tutması; işin alınması; 2) örtmək; ~ روی خود را üzünü örtmək; 3) basmaq; ~ آب su basmaq; ◊ ~ خود را özünü çəkmək, lovğalanmaq

گرفت وگیر [gereftogir] 1) qəddar (*rejim*), ciddi (*intizam*); 2) tutma, həbs etmə; 3) tuthatut, həbslər

گرفته [gerefte] گرفتن *f.-nin k.z.f.sif.*: 1) tutulma, tutulmuş, tutqun; 2) qəmli, qüssəli, kədərli

گرفته خاطر [gereftexater] *bax* گرفته 2)

گرفته زبان [gereftezəban] dili tutulan, kəkələyən, pəltək

گرفته لب [gereftelab] susan, sakit, danışmayan, lal-dinməz (*adam*)

گرگ [qorg] qurd, canavar; ◊ ~ پیر qoca qurd, hiyləgər; zirək; ~ در لباس میش qoyun dərisi geymiş qurd; hiyləgər

گرگ بچه [qorgbəç(ç)e] canavar balası

گرگ صفت [qorgsefət] 1) canavar təbiətli; 2) amansız; 3) qəddar, yırtıcı

گرگ منش [qorgmənəş] *bax* گرگ صفت

گرگ ومیش [qorgomiş] alaqaranlıq, ala-toranlıq, şəhərin gözü açılan vaxt

گرگینه [qorgine] 1) canavar dərisi; 2) canavar dərisindən tikilmiş kürk

گرم [gərm] 1) isti; ~ آب isti su; 2) canlı; işlək; ~ بازار işlək bazar; 3) qızğın, ehtiraslı; ~ آدم ehtiraslı adam; شدن ~ qızınmaq, qızışmaq; کردن ~ qızdırmaq; گرفتن ~ xoş münasibət göstərmək, mehribanlıq göstərmək

گرم [gerəm] qram

گرما [gərma] isti, bərk isti, bürkü; ~ تابستان yayın bürküsü

گرمابه [gərmabe] hamam

گرماسنج [gərmasənc] termometr, istilikölçən

گرماگرم [gərmagərm] isti-isti, isti halda, yubanmadan, dərhal

گرمخانه [gərmxane] istixana

گرمسیر [gərmsir] isti tropik iqlimli (*ölkələr*)

گرمک [gərmək] gərmək (*tez yetişən qovun növü*)

گرمکن [gərmkon] 1) qızdırıcı; 2) canlıq (*bədəni isti saxlayan geyim*)

گرم مزاج [gərmmezac] tündməzac, tündxasiyyət, çılğın

گرمی [gərmi] 1) istilik; 2) isti münasibət, istiqanlılıq; 3) canlanma; qarışıbqaynama; 4) coşma, qaynama, həvəs, ehtiras; 5) cəlbedicilik, məlahət

گرو [gerou] 1) girov; 2) mərc; ~ به گذاشتن girov qoymaq; از ~ در آوردن girovdan çıxarmaq; ~ به رفتن girova qoyulmaq; ~ در بودن girovda olmaq

گرو بندی [gerobəndi] mərc, mərcləşmə, mərc gəlmə; کردن ~ mərc gəlmək

گروگان [gerouqan] 1) girova qoyulmuş (*alınmış*) şey; 2) girov

گروگذاری [gerouqozari] girov qoyma

گروه [qoruh] 1) qrup, dəstə; 2) kütlə, izdiham, camaat; ~ مردم xalq kütləsi; 3) bölmə, hərbi dəstə

گروهان [qoruhan] *hərb.* rota, bölük

گروهبان [qoruhban] *hərb.* çavuş

گروه بندی [qoruhbəndi] qruplaşdırma; birləşmə; ~ نظامی hərbi birləş-

mə; شدن ~ qruplara ayrılmaq; qruplaşdırılmaq; کردن ~ qruplaşdırmaq

گروهه [qoruhe] 1) yumaq, kələf (*sap*); 2) kürəşəkilli; şarşəkilli

گروهی [qoruhi] qrup şəklində, bir yerdə

گرویدن [gerəvidən] *k.* گرای [geray] 1) birləşmək; 2) qovuşmaq, yaxınlaşmaq, yanaşmaq; 3) ardınca getmək, izləmək, yolu davam etdirmək

گره [gereh] 1) düyün; 2) dolaşıqlıq; 3) çətinlik; 4) qırış; ~ پیشانی alındakı qırış; افتادن ~ düyünə düşmək, çətinlik yaranmaq; انداختن~ (افکندن) düyünə salmaq; çətinlik yaratmaq; خوردن ~ düyünlənmək; bağlanmaq, nəyəsə bağlı olmaq; ~ گشودن (باز کردن) düyün açmaq; ◊ ~ کور kor düyün, açılmayan düyün

گره پیشانی [gerehpişani] qaşqabaqlı, acıqlı, hirsli

گره دار [gerehdar] 1) düyünlü; 2) dolaşıq; 3) çətin, mürəkkəb; 4) qırışlı; ~پیشانی qırışlı alın

گره درگره [gerehdərgereh] 1) düyünlü, pırtlaşıq, qarışıq; 2) çətin, mürəkkəb, dolaşığa düşmüş

گره گره [gerehgereh] *bax* گره درگره

گره گشا [gerehqoşa] düyünləri açan; çətinlikləri aradan qaldıran

گره گشایی [gerehqoşayi] düyünləri açma; çətinlikləri aradan qaldırma

گری [gəri] *bax* گر I

گرهی [gerehi] *bax* کلیدی; ~ مسایل əsas məsələlər

گریان [geryan] ağlar, ağlayan; شدن ~ ağlamaq; کردن ~ ağlatmaq

گریاندن [geryandən] ağlatmaq

گریبان [geriban //gəriban] yaxa; ~ دریدن (پاره کردن) a) paltarın yaxasını yırtmaq; b) ümidsiz olmaq; ~ کسی را گرفتن a) birinin yaxasından tutmaq; b) birinin dalınca düşmək; əl çəkməmək; ◊ دست به ~ بودن əlbəyaxa olmaq

گریپ [g(e)rip] qrip

گریختن [qorixtən] k. گریز [qoriz] 1) qaçmaq, qaçıb özünü xilas etmək; 2) çəkinmək, qaçınmaq; kənar gəzmək, uzaqlaşmaq

گریز [qoriz] گریختن *f.-nin k.*; 1) qaçış, qaçma; ~ قوه ازمرکز mərkəzdənqaçma qüvvəsi; 2) çəkinmə; kənara çıxma, uzaqlaşma; ~ راه geri çəkilmə yolu; 3) söhbəti dəyişmə; mövzudan kənara çıxma; زدن ~ a) işarə etmək; eyham vurmaq; b) söhbəti dəyişmək

گریزان [qorizan] 1) qaçan; 2) çəkinən; kənar gəzən, uzaqlaşan; شدن ~ *bax* گریختن

گریزاندن [qorizandən] qaçırmaq, qovmaq, uzaqlaşdırmaq

گریزپا [qorizpa] qaçan, qaçmağa adət edən

گریزگاه [qorizqah] çıxış yolu; sığınacaq

گریزناپزیر [qoriznapəzir] qaçılmaz, labüd, məcburi, istər-istəməz

گریزنده [qorizənde] 1) qaçan; 2) qaçaq; qaçqın

گریس [g(e)ris] sürtkü yağı, tavot

گریستن [geristən] *k.* گری [geri] ağlamaq; ~ زار زار zar-zar ağlamaq, hönkürmək

گریسکاری [g(e)riskari] avtomobili yağlama

گریم [q(e)rim] qrim; کردن ~ qrim etmək

گریه [gerye] ağlama; کردن ~ *bax* گریستن; افتادن ~ به ağlamağa başlamaq; انداختن ~ به ağlatmaq

گز [gəz] I gəz (*halva növü*)

گز [gəz] II 105 sm-ə bərabər uzunluq ölçü vahidi; کردن ~ ölçmək

گز [gəz] III *bot.* yulğun (*kol*)

گزاردن [qozardən] 1) aydınlaşdırmaq; şərh etmək, izah etmək; 2) icra etmək; ~ نماز namaz qılmaq; ~ خبر xəbər vermək

گزارش [qozareş] 1) hesabat; xəbər; məruzə; raport; 2) izah, şərh, yozum, yozma; دادن ~ hesabat vermək; məlumat vermək; məruzə etmək

گزارشگر [qozareşgər] 1) məruzəçi; şifahi hesabat verən; 2) müxbir; 3) şərhçi; 4) yuxuyozan

گزاف [gəzaf] 1) çox, həddən artıq; ~ مبلغ böyük məbləğ (*pul*); 2) boş, mənasız; ~ سخن boş söz

گزاف گو [gəzafqu] boşboğaz, çərənçi

گزاف گویی [gəzafquyi] boş danışma, boşboğazlıq, çərənçilik

گزافه [gəzafe] 1) *bax* گزاف; 2) yalan, şişirtmə

گزاییدن [gəzayidən] *bax* گزیدن

گزش [gəzeş] sancma, dişləmə

گزک [gəzək] imkan, fürsət; به ~ دست افتادن ələ imkan düşmək

گزند [gəzənd] 1) zərər, ziyan; 2) əziyyət; رساندن ~ a) zərər vurmaq; b) əziyyət vermək

گزندگی [gəzəndegi] 1) sancma; 2) acı, acılıq (*dildə*); 3) sancılan yer

گزنده [gəzənde] 1) sancan, vuran (*həşərat*); 2) batan (*tikan*); tikanlı; 3) zəhərli (*ilan, həşərat*)

گزیدن [gəzidən] sancmaq, dişləmək; qapmaq; زنبور ~ arı sancması; سگ ~ it qapması

گزیدن [qozidən] *k.* گزین [qozin] 1) seçmək; 2) üstün tutmaq

گزیده [qozide] گزیدن *f.-nin k.z. f.sif.*; 1) seçilmiş, seçmə; ~ اشعار seçilmiş şeirlər; 2) seçilmiş; nümayəndə; ~ مردم xalqın nümayəndəsi

گزیر [qozir] çıxış yolu; çarə, əlac; نداشتن ~ çıxış yolu tapmamaq; məcbur olmaq

گزین [qozin] گزیدن *f.nin k.*; seçilmiş, üstün, yüksək

گزینش [qozineş] seçim, seçmə

گزینه [qozine] seçilmiş əsərlər toplusu; ادب فارسی ~ seçilmiş fars ədəbiyyatı toplusu

گس [gəs] ağızbüzüşdürən, büzüşdürücü (*dad*)

گساردن [qosardən] içmək, dadmaq; nuş etmək

گساریدن [qosaridən] *bax* گساردن

گستاخ [qostax] 1) abırsız, arsız, həyasız; sırtıq, üzlü; 2) igid, cəsur; 3) ədəbsiz, kobud; شدن ~ a) abırsız olmaq; b) cəsur olmaq

گستاخانه [qostaxane] 1) abırsızcasına, həyasızcasına; 2) cəsarətlə; 3) *bax* گستاخ **1), 2)**

گستاخی [qostaxi] 1) abırsızlıq, həyasızlıq; 2) ədəbsizlik, kobudluq; 3) cəsarət

گستردن [qostərdən] 1) sərmək, döşəmək; ~ خالی xalça sərmək; 2) yaymaq, rəvac vermək; ~ داد ədalətə rəvac vermək, ədalət göstərmək, ədaləti yaymaq

گسترده [qostərdə] گستردن *f.-nin k.z.f.sif.*; 1) yayılmış; 2) geniş; ~ مذاکرات geniş müzakirələr

گسترش [qostəreş] yayma; genişlənmə; inkişaf; ~ دامنه دوستی dostluq əlaqələrinin genişlənməsi; ~ بخشیدن (دادن) yaymaq, inkişaf etdirmək; ~ یافتن yayılmaq, inkişaf etmək

گستره [qostəre] inkişaf, irəliləyiş, tərəqqi; ~ علم elmin inkişafı

گستریدن [qostəridən] *bax* گستردن

گسستگی [qosəstegi] *bax* گسیختگی

گسستن [qosəstən] *bax* گسیختن

گسسته [qosəstə] گسستن *f.-nin k.z. f.sif.*; ayrılmış, kəsilmiş (*əlaqə, münasibət*)

گسسته دل [qosəstedel] incik, incimiş, qəlbisınıq

گسل [qosəl] // گسستن // گسیختن // گسلیدن *fellərinin k.*; mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "pozan", "qıran", "sındıran" mənalarını bildirir: پیمان گسل əhdi pozan; زنجیر گسل zənciri qıran

گسلیدن [qosəlidən] *bax* گسیختن

گسیختگی [qosixtegi] kəsilmə, qırılma, üzülmə; ~ ریسمان ipin kəsilməsi

گسیختن [qosixtən] *k.* گسل [qosəl] 1) kəsmək; kəsilmək; qırmaq; 2) dayandırmaq, dondurmaq (*əlaqəni*)

گسیل [qosil] ötürmə, göndərmə, yola salma; ~ داشتن (کردن) ötürmək (*siqnalı*); göndərmək, yola salmaq

گشا [qoşa] گشادن *f.-nin k.*; mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "açan" mənasını bildirir: دلگشا ürəkaçan; مشکل گشا çətinlikləri açan

گشاد [qoşad] I enli, geniş; ~ کوچهٔ enli küçə; ~ شدن enli olmaq, genəlmək; ~ کردن genəltmək; ◊ ~ دادن nərd oyununda risk etmək, xana açmaq

گشاد [qoşad] II *dan.* tənbəl

گشاد باز [qoşadbaz] *dan.* xərci ilə qazancının hesabını bilməyən; bədxərc, israfçı

گشادگی [qoşadegi] genişlik; vüsət

گشادن [qoşadən] *bax* گشودن

گشاده [qoşade] گشادن *f.-nin k.z.f.sif.*; açılmış; açıq

گشاده دست [qoşadedəst] əliaçıq, səxavətli

گشاده دستی [qoşadedəsti] əliaçıqlıq, səxavətlilik

گشاده دل [qoşadedel] 1) ürəyiaçıq; alicənab; 2) şad, şən, fərəhli

گشاده دلی [qoşadedeli] 1) ürəyiaçıqlıq; alicənablıq; 2) şadlıq, sevinc

گشاده رو [qoşaderu] gülərüz, şən, fərəhli

گشاده رویی [qoşaderuyi] gülərüzlülük; şadlıq, sevinc

گشاده زبان [qoşadezəban] gözəl danışan, dil-dil ötən

گشاده زبانی [qoşadezəbani] gözəl danışma, bəlağət, fəsahət

گشاده مشرب [qoşademəşrəb] istiqanlı, adamayovuşan

گشادی [qoşadi] genişlik; genlik (*paltarda*)

گشایش [qoşayeş] açılış (*iclas, məclis və s.*); ~ دادن a) açmaq (*iclası, məclisi*); b) genişləndirmək; ~ یافتن açılmaq

گشت [gəşt] 1) gəzinti, gəzmə; 2) patrulun müəyyən bir xətt üzrə hərəkəti; ~ زدن gəzmək; gəzib-dolanmaq (*patrul*)

گشتن [gəştən] *k.* گرد [gərd] *bax* گردیدن

گشتی [gəşti] *hərb.* patrul, gecə qarovulu, gecə gözətçisi; ~ واحد gözətçi dəstəsi

گشن [qoşn // qoşən // gəşen] 1) erkək; 2) döllənmə; 3) *bax* گشن گیری

گشن گیری [qoşngiri] mayalandırma, dölləndirmə; ~ کردن mayalandırmaq

گشنگی [qoşnegi] *dan. bax* گرسنگی

گشنیده [qoşnide] mayalanmış

گشنیز [geşniz] keşniş

گشودن [qoşudən] *k.* گشا [qoşa] açmaq; ~ دررا qapını açmaq; ~ سررا sirri açmaq; ~ گره را düyünü açmaq

گفتار [qoftar] 1) danışıq, söhbət, söz; 2) çıxış, məruzə; 3) fəsil; ~ دوم ikinci fəsil; 4) məqalə; ~ در بار علم عروض əruz elmi haqqında məqalə

گفتگو [qoftoqu] 1) danışıq, söhbət; dialoq, mükalimə; 2) mübahisə, mübahisə etmə; ~ کردن söhbət etmək; ~ به پرداختن danışmağa başlamaq, danışığa başlamaq

گفتن [qoftən] *k.* گو(ی) [qu(y)] danışmaq, demək, söyləmək; ~ بد söymək; ~ شعر şeir yazmaq; şeir qoşmaq

گفتنی [qoftəni] deməli, deyilməli; deyilməyə layiq olan

گفت و شنود [qoftoşenud // qoftoşonud] *bax* گفتگو 1)

گفت و شنید [qoftoşenid] *bax* گفتگو 1)

گفت و گو [qoftoqu] *bax* گفتگو

گفته [qofte] گفتن *f.-nin k.z.f.sif.*; 1) söz, söz-söhbət; 2) demə, söyləmə; 3) deyilmiş, söylənilmiş

گل [gel] gil, palçıq; ~ آبی göy rəngli gil (*vaxtilə Abşeron quyularından çıxarılan və baş yumaq üçün istifadə olunan gil növü*)

گل [qol] I gül, çiçək; ~ تاج əklil; ~ داودی payızgülü, xrizantema; ~ سرخ qızılgül; ~ چیدن gül dərmək; ~ نشاندن (کردن) دادن çiçəklənmək; gül əkmək; ◊ ~ انداختن qızarmaq (*yanaq*); ~ ازگلشن شکفتن sevinmək, könlü açılmaq

گل [qol] II *idm.* qol; ~ زدن qol vurmaq

گلاب [qolab] gülab, gül suyu

گلابتون [qolabətun // qolabetun] gülə bətin, zərli və ya gümüş sapdan toxunan parça (*bafta*)

گلابی [qolabi] armud, armud ağacı

گل آرایی [qolarayi] gül bəzəmə; güllərlə bəzəmə (*güldanı, bağı, ağacların kənarını*)

گل آلود [gelalud] 1) gilli, palçıqlı; 2) bulanıq, lilli; ~ آب bulanıq su; ~ کردن çirkləndirmək, bulandırmaq

گل افشان [qoləfşan] gül səpələnmiş; gül səpilmiş; ~ کردن gül səpmək

گل اندام [qoləndam] gülbədənli, zərifbədənli

گلاویز [gəlaviz] asılma, asılmış, asılı, sallanan; ~ شدن a) asılmaq, sallanmaq; b) yaxadan yapışmaq, əlbəyaxa olmaq

گلبانگ [qolbang] 1) hündür səs, çağırış; 2) bülbül cəh-cəhi

گلبرگ [qolberg] gül yarpağı

گلبن [qolbən] gül kolu

گلچین [qolçin] 1) gül dərən; gül yığan; 2) seçilmiş əsərlər toplusu; ~ ادبی antologiya; ~ کردن seçmək

گلخانه [qolxane] istixana (*gül yetiş-dirmək üçün*), şitillik, oranjereya

گلخن [qolxən] hamamı qızdıran ocaq

گلدار [qoldar] güllü, güllü-çiçəkli

گلدان [qoldan] güldan, gül qabı

گلدسته [qoldəste] I gül dəstəsi

گلدسته [qoldəste] II minarə (*məsciddə*)

گلدوزی [qolduzi] naxış tikmə (*parçada*)

گلرنگ [qolrəng] qızılgül rəngli, al-qırmızı

گلزار [qolzar] gülzar, gülüstan, güllük, çiçəklik

گلستان [qolestan] gülüstan, gül bağı; bağ, bağça

گلشن [qolşən] güllük, gülşən, gül bağı

گلفام [qolfam] *bax* **گلرنگ**

گل کار [gelkar] malakeş, suvaqçı

گل کار [qolkar] gül əkən, bağban

گل کاری [gelkari] 1) malakeşlik, suvaqçılıq; suvaq işləri; 2) malakeş-lik etmə, suvaqçılıq etmə

گل کاری [qolkari] 1) gül əkmə, gülçülük; 2) gülçü peşəsi; **شدن ~** gül əkilmək; **کردن ~** gül əkmək

گل کلم [qolkələm] gül kələm

گلگشت [qolgəşt] gəzmə (*bağda, güllükdə*), gül seyrinə çıxma, xoş gəzinti

گل مژه [qolmoje] itdirsəyi

گل مست [qolməst] *dan.* sərxoş, kefikök, hallı, yarımsərxoş

گلنگبین [qoləngəbin] balda hazır-lanmış gül mürəbbəsi

گلنم [qolnəm] çiskin, çiskin yağış; çiləmə (*yağış, su*); **زدن ~** çiskinlə-mək, yağış çiləmək

گلو [gəlu] boğaz; **سرخ ~** *bax* **مری**; **تر (تازه) کردن ~** ◊ boğazı islatmaq, bir qurtum su içmək

گلوبند [gəlubənd] *bax* **گردن بند**

گلودرد [gəludərd] boğaz ağrısı, angina

گلوسوز [gəlusuz] 1) boğaz yandı-ran, çox isti; 2) çox şirin

گلوگیر [gəlugir] 1) nəfəs yolunu tutan, boğazdan keçməyən (*ye-mək*); 3) çox şirin; boğucu, boğan; **شدن ~** boğaz tutulmaq

گلیز [geliz] ağız suyu

گلوله [qolule] 1) topa; şar, kürəcik; **برف ~** qar topası; 2) yumaq; **نخ ~** sap yumağı; 3) güllə; **رسام ~** işıq-saçan güllə; **خوردن ~** güllə dəymək, güllə yarası almaq; **شدن ~** yumağa dönmək; **کردن ~** topalamaq, cəm-ləmək, yığmaq

گلوله باران [qolulebaran] gülləba-ran; **کردن ~** gülləbaran etmək

گله [gəlle] naxır, ilxı, sürü

گله [gele] 1) giley; şikayət; 2) in-ciklik; **کردن ~** gileylənmək

گلیم [gelim] kilim, palaz; ◊ **خودرا ~ از آب کشیدن** çulunu sudan çıxarmaq, öz başını dolandıra bilmək

گلیم بافی [gelimbafi] kilim toxuma, palaz toxuma

گم [qom] itmə; sıradan çıxma; **~ شدن** itmək, yox olmaq; **کردن ~** itir-mək; ◊ **ترکردن ۱۰۰ خودرا ~** rədd ol!

گماردن [qomardən] *bax* **گماشتن**

گماریدن [qomaridən] *bax* **گماشتن**

گماشتن [qomaştən] *k.* **گمار** [qomar] vəzifəyə qoymaq, vəzifəyə təyin etmək

گمان [qoman] 1) güman, zənn, fikir; **به من ~** mənim fikrimcə; 2) şəkk, şübhə; **به ~ افتادن** şübhəyə düşmək

گمانه [qomane] 1) *tib.* zond (*orqa-nizmin daxilini yoxlamaq üçün boru, cihaz*); 2) kəşfiyyat quyusu; **زدن ~** zondla öyrənmək, zond salmaq

گمانه زنی [qomanezəni] tədqiqat xarakterli qazıntı işi

گمراه [qomrah] 1) yolunu azmış; səhv etmiş; 2) pis yola düşmüş, poz-ğunlaşmış; **شدن ~** a) yolunu azmaq; b) pozğunlaşmaq; **کردن ~** a) yolunu azdırmaq; b) pozğunlaşdırmaq

گمراهی [qomrahi] 1) yolunu azma; 2) pozğunlaşma; **به ~ افتادن** *bax* **گمراه گمراه شدن** (*sözündə*)

گمرک [qomrok] *c.* **گمرکات** [qom-rokat] gömrük; gömrük haqqı; **از ~ در آوردن** gömrük haqqını verib malı götürmək

گمرکچی [qomrokçi] gömrükçü, gömrük işçisi

گمرکی [qomroki] gömrükə aid olan; **~ تعرفه** gömrük tarifi; **~ عواید** gömrük gəliri

گم شده [qomşode] itmiş; **~ کیف** it-miş çanta

گمنام [qomnam] naməlum, məlum olmayan, tanınmayan, **~ سرباز** naməlum əsgər

گناه [qonah] 1) günah, təqsir, suç; **~ کردن** günah işlətmək; b) cinayət etmək; ◊ **کسی را ~ شستن** böhtan atmaq; qeybət qırmaq

گناه آلود [qonahalud] *bax* **گناهکار**

گناهکار [qonahkar] günahkar, təq-sirkar, suçlu

گناهکاری [qonahkari] günahkarlıq, təqsirkarlıq

گنبد [qombəd] günbəz; qübbə; göy qübbəsi; **ازرق (گردنده) ~** səma, göy qübbəsi; **لاجوردی ~** buludsuz göy, mavi səma

گنج [gənc] xəzinə, dəfinə, yeraltı sərvət

گنج [qonc] **گنجیدن** *f.-nin k.*; həcm, tutum

گنجاندن [qoncandən] 1) yerləşdir-mək, sığışdırmaq; 2) nəşr etdirmək, çap etdirmək (*məqaləni*)

گنجانیدن [qoncanidən] *bax* **گنجاندن**

گنجایش [qoncayeş] 1) tutum, həcm; 2) tonnaj, yükgötürmə qabiliyyəti

گنجشک [qonceşk] sərçə

گنجشک دل [qonceşkdel] qorxaq

گنجه [gənce] divar şkafı, divar dolabı

گنجیدن [qoncidən] sığmaq, sığış-maq, yerləşmək; **این حرف به عقل نمی گنجد** bu söz ağıla sığmır

گنجیده [qoncide] **گنجیدن** *f.-nin k.z.f.sif.*; yerləşmiş, sığışmış

گنجینه [gəncine] 1) xəzinə; **دانش ~** bilik xəzinəsi; 2) anbar; kitab sax-lanılan yer

گند [gənd] I **گندیدن** *f.-nin k.*; pis iy

گند [qond] II *anat.* xaya

گنداب [gəndab] iylənmiş su, qoxu-muş su, çirkab suları

گنداندن [gəndandən] xarab etmək, korlamaq, çürütmək, iyləndirmək

گندزدایی [gəndzedəyi] dezinfeksi-ya; **کردن ~** dezinfeksiya etmək

گند زدوده [gəndzedude] dezinfek-siya olunmuş

گندم [gəndom] buğda; **~ ارد** buğda unu; **~ خوشه** sünbül; **~ دیمه** dəmyə buğda

گندم سیاه [gəndomsiyah] qarabaşaq
گندم کوب [gəndomkub] toxmaq, paya (*taxıl döymək üçün*)
گندم گون [gəndomqun] qarabuğdayı, qarayanız, əsmər
گندمه [gəndome] ziyil
گند میان [gəndomiyan] dənli bitkilər, taxıl
گنده [gənde] iylənmiş, çürümüş, xarab olmuş
گنده [qonde] 1) kök, gonbul; 2) böyük, iri; **شدن ~** böyümək; **کردن ~** a) böyütmək; b) şişirtmək, mübaliğə etmək
گندیدگی [gəndidegi] çürümə, iylənmə, xarab olma
گندیدن [gəndidən] çürümək, iylənmək, xarab olmaq
گندیده [gəndide] **گندیدن** *f.-nin k.z. f.sif.;* çürümüş, iylənmiş, xarab olmuş
گنگ [qong] 1) lal; **مادرزاد ~•** anadangəlmə lal; 2) aydın olmayan, naməlum, qeyri-müəyyən; **شدن ~** a) lal olmaq; b) aydın olmamaq; naməlum olmaq; **کردن ~** a) lal etmək; b) qarışdırmaq, dolaşıq salmaq
گنه [qonəh] *bax* **گناه**
گو [qu] **گفتن** *f.nin k.;* mürəkkəb sözlərin 2-ci komponenti kimi işlənərək "deyən", "söyləyən" mənalarını bildirir: **سخنگو** şərhçi, məruzəçi; **پرگو** çərənçi; **دروغگو** yalançı
گوارا [qovara // gəvara] 1) tez həzm olunan, yüngül həzm olunan; 2) dadlı, ləzzətli; **~ آب•** içməli su; dadlı su; **(شدن) آمدن ~** ləzzət vermək; **بودن ~** ləzzətli olmaq
گواردن [qovardən] *bax* **گواریدن**
گوارش [qovareş] həzm, həzm olunma; **~ دستگاه•** həzm orqanı
گواریدن [qovaridən] həzm etmək
گواه [qovah // gəvah] şahid; **~ آوردن** şahid gətirmək; **خواستن ~** şahid tələb etmək; **گرفتن ~** şahid tutmaq
گواهی [qovahi //gəvahi] şahidlik ifadəsi; şəhadətnamə; **دادن ~** a) şahidlik etmək; şahidlik ifadəsi vermək; b) təsdiq etmək; **شدن ~** təsdiq olunmaq
گواهی نامه [qovahiname] 1) yazılı şəhadətnamə, sertifikat, vəsiqə, arayış; **رانندگی ~•** sürücülük vəsiqəsi; 2) diplom, attestat; **دبیرستان ~•** orta təhsil haqqında attestat
گوجه [qouce] alça
گوجه فرنگی [qoucefərəngi] pomidor
گود [qoud] 1) dərin; 2) çala, çökək, çuxur; **زورخانه ~•** zorxana səhnəsi; **(شدن) افتادن ~** çökmək, çuxura düşmək; dərinləşmək; **کردن ~** dərinləşdirmək
گودافتاده [qoudoftade] çuxura düşmüş (*gözlər*)
گودال [qoudal] dərə, çuxur, xəndək, çala; **~• آب** su çuxuru; **گودالهای ضد• تانک** tank əleyhinə xəndəklər
گود برداری [qoudbərdari] xəndək qazıma
گودی [qoudi] 1) dərinlik; 2) *bax* **گود 2)**
گور [qur] gor, qəbir; **کردن (نهادن) ~** basdırmaq; ◊ **پدرش ~•** atasının goruna; **خودرا کندن ~•** öz gorunu qazımaq, özünü təhlükəyə salmaq
گوراسب [qurəsb] vəhşi at, zebra
گوربگور [qurbequr] *vul.* gorbagor; **شدن ~** gorbagor olmaq
گورخر [qurxor] 1) vəhşi eşşək; 2) *bax* **گوراسب**

گورزاد [gurzad] cırtdan, liliput
گورستان [qurestan] qəbiristanlıq
گورکن [qurkən] 1) qəbirqazan; 2) goreşən (*heyvan*); 3) qəbir oğrusu
گوریل [qoril] qorilla
گوزن [gəvəzn] maral
گوژ [quj] əyilmiş, bükülmüş (*bel*)
گوژ پشت [qujpoşt] *bax* **کوژ پشت**
گوساله [qusale] dana
گوسفند [qusfənd] qoyun; **کوهی ~•** muflon; **ماده ~•** dişi qoyun; **نر ~•** erkək qoyun, qoç
گوسفند داری [qusfənddari] qoyunçuluq
گوش [quş] 1) qulaq; 2) xəbərçi; ◊ **ایستادن ~** gizlincə qulaq asmaq; **به زنگ بودن ~** qulağı səsdə olmaq; **خاریدن ~** fikrə getmək; fikirləşmək; **خواباندن ~** pusquda durmaq, fürsət axtarmaq; **دادن ~** qulaq asmaq; **~• کسیرا پرکردن** birinin qulağını doldurmaq; **~• کسی را کشیدن** birinin qulağını çəkmək; **~ را پنبه گذاشتن** qulağına pambıq tıxamaq; **~• شیطان کر** qulaqlara qurğuşun!
گوش بر [quşbor] *dan.* qulaqkəsən; fırıldaqçı; yalançı
گوش پهن [quşpəhn] şəlpəqulaq, palazqulaq
گوشت [quşt] ət; **~• دنده** qabırğa əti; **~• ران** bud əti; **سرسینه ~•** döş əti; **~• سفید** toyuq və ya balıq əti; **~• قرمز** iri və xırdabuynuzlu heyvan əti (*inək, qoyun və s.*); **~• لخم** tikə ət
گوش خراش [quşxəraş] 1) qulaqbatıran, qulaqbatırıcı (*səs*); 2) kobud (*söz*)
گوش درد [quşdərd] qulaq ağrısı
گوشزد [quşzəd] 1) xəbərdarlıq; 2) yada salma; **کردن ~** a) xəbərdarlıq etmək; b) yada salmaq
گوشمالی [quşmali] *dan.* qulaqburması; **دادن ~** qulaqburması vermək
گوش ماهی [quşmahi] balıqqulağı
گوشواره [quşvare] sırğa
گوشه [quşe] guşə, künc, bucaq; **~• اتاق** otağın küncü; **گرفتن ~** kənara çəkilmək; camaatdan uzaqlaşmaq; tək-tənha yaşamaq
گوشه نشین [quşeneşin] guşənişin, tərki-dünya; tək-tənha yaşayan; **شدن ~** guşənişin olmaq
گوشی [quşi] 1) telefon dəstəyi; 2) *tib.* stetoskop (*ürək və ciyərlərin tonunu yoxlamaq üçün cihaz*); 3) qulaqlıq (*papaqda, radio aparatında*); 4) qulağa məxsus (*əşya və ya cihaz*)
گوگرد [qugerd] 1) *kim.* kükürd; **~• جوهر** kükürd turşusu; 2) kibrit
گول [qul] 1) yalan, fırıldaq; 2) *bax* **گول خور**; **خوردن ~** aldanmaq; **زدن ~** aldatmaq
گول خور [qulxor] 1) sadəlövh, hər şeyə inanan; 2) axmaq, sarsaq, maymaq
گول زن [qulzən] 1) aldadan, fırıldaqçı, kələkbaz, dələduz; 2) hiyləgər, zirək
گون [gəvən] *bot.* gəvən
گوناگون [qunaqun] cürbəcür, çeşidli; müxtəlif; növbənöv
گونا گونی [qunaquni] cürbəcürlük, müxtəliflik, rəngarənglik
گونه [qune] 1 yanaq
گونه [qune] II cür, növ, tərz, üsul, vasitə; yol; **~ این** bu cür; **به این ~** beləliklə, bu cür, bu yolla
گونه ای [qunei]: **~ استخوان•** almacıq sümüyü
گونی [quni] böyük kisə; kisəlik parça

گوهر [qouhər] 1) gövhər; cavahir, daş-qaş; 2) mirvari, inci; **شبچراغ** ~ən yaxşı mirvari növü; 3) mahiyyət; təbiət, keyfiyyət

گوهربار [qouhərbar] 1) gövhər saçan, gövhər yağdıran; 2) natiq, bəlağətli

گوهردار [qouhərdar] daş-qaşlı, gövhərlə bəzədilmiş

گوهرزا [qouhərza] 1) əsil-nəcabətli; 2) əliaçıq; alicənab

گوهرفشان [qouhərfeşan] *bax* **گوهربار**

گوی [quy] 1) şar; **بیلیارد** ~ bilyard şarı; 2) top

گویا [quya] I guya, sanki, elə bil ki

گویا [quya] II 1) danışan, deyən; **طوطی**~ danışan tuti; 2) səsli; **فیلم** ~ səsli film; 3) aydın, səlis (*nitq*)

گویش [quyeş] 1) dialekt, ləhcə, şivə; 2) tələffüz, deyiliş

گویش شناس [quyeşşenas] dialektoloq

گویش شناسی [quyeşşenasi] dialektologiya

گویندگی [quyəndegi] 1) natiqlik sənəti; gözəl danışma; 2) diktor oxusu, diktorluq

گوینده [quyənde] 1) danışan, deyən; 2) diktor; 3) şair

گه [gəh] *bax* **گاه**

گه [qəh] nəcis; ◊**خوردن** ~ qəbahətli iş tutmaq; **زدن** ~ korlamaq, yararsız hala salmaq

گهر [qohər] bax **گوهر**

گهواره [gəhvare] beşik; **جنباندن** ~ beşik yırğalamaq; ◊ **فنا** ~ bu dünya, fani dünya

گهی [gəhi] *bax* **گاهی**

گیاه [giyah] ot, bitki; **دارویی** ~ dərman bitkisi

گیاهخوار [giyahxar] otyeyən; vegeterian (*ət yeməyən adam*)

گیاه شناسی [giyahşenasi] botanika

گیاهک [giyahək] rüşeym (*bitkilərdə*)

گیاهی [giyahi] bitkiyə aid olan; **روغن** ~ bitki yağı; **غذای** ~ vegeterian (*bitki*) yeməyi

گیتار [gitar] gitara; **زدن** ~ gitara çalmaq

گیتارزن [gitarzən] gitaraçı, gitarada çalan

گیتی [giti] dünya, aləm, kainat

گیج [gic] 1) gic; diqqətsiz; huşsuz, yaddaşsız; 2) başı gicəllənən; 3) heyrətə gələn, təəccüblənən; **سرم** ~ **میرود** başım gicəllənir; **شدن** ~ a) huşsuz olmaq, diqqətsiz olmaq; b) heyrətə gəlmək, ağlını itirmək; **کردن** ~ başı gic etmək, zəhlə tökmək

گیجگاه [gicqah] gicgah

گیجی [gici] 1) huşsuzluq, diqqətsizlik, unutqanlıq; 2) başgicəllənməsi; 3) heyrət, təəccüb

گیر [gir] **گرفتن** *f.-nin k.*; 1) çətinlik, əngəl, maneə; 2) tutma; yubatma; 3) sancaq (*baş üçün*); ◊ **افتادن** ~ ələ keçmək; **آمدن** ~ ələ gəlmək; **انداختن** ~ ələ keçirmək, əldə etmək; tutmaq

گیرا [gira] cazibəli, cəlbedici; **چشمان** ~ cazibəli gözlər

گیراگیر [giragir] *bax* **گیرو دار**

گیراندن [girandən] alışdırmaq, alovlandırmaq

گیرنده [girənde] 1) qəbuledici (*radio*); qəbul edən, alan; 2) *bax* **گیرا**

گیرودار [girodar] 1) toqquşma, tutaşma; döyüşmə, vuruşma; 2) qarışıqlıq, çaşbaşlıq

گیره [gire] sancaq, qısqac

گیس [gis] *bax* **گیسو**

گیس باف [gisbaf] lent (*saç üçün*)

گیس بند [gisbənd] *bax* **گیس باف**

گیسو [gisu] *c.* **گیسوان** [gisovan] saç, uzun saç; hörük; **بافتن** ~ saç hörmək

گیشه [gişe] 1) kassa pəncərəsi; 2) bilet kassası (*teatrda, vağzalda*)

گیلاس [gilas] I stəkan; badə, qədəh, piyalə

گیلاس [gilas] II gilas (*meyvə*); **درخت** ~ gilas ağacı

گیومه [giyome] dırnaq (*yazı işarəsi*); **در** ~ dırnaq arasında

گیوه [give] givə (*üzü sapla toxunan yüngül yay ayaqqabısı*); ◊ **را** ~ **ور کشیدن** işə hazır olmaq

گیه [giyəh] *bax* **گیاه**

گیهان [geyhan] *bax* **کیهان**

ل

ل [lam] fars əlifbasının iyirmi yeddinci hərfi; əbcəd hesabında 30 rəqəmini ifadə edir

لا [la] 1) lay; qat; təbəqə; ~ پارچه parçanın qatı; 2) iç, ara; ~ کتاب kitabın arası; ~ در نگاه کردن qapının arasından (*deşiyindən*) baxmaq

لاابالی [laobali] əhli-kef, səhlənkar, qayğısız, laqeyd

لاابالی گری [laobaligəri] 1) laqeydlik, etinasızlıq, diqqətsizlik, səhlənkarlıq; 2) saymazlıq; ~ کردن a) laqeydlik etmək; b) saymazlıq etmək

لاادری [laədri] 1) naməlum; 2) bilmirəm, mənə məlum deyil; 3) *c.* لاادریون [laədriyyun] aqnostiklər

لااقل [laəğəl(l)] ən azı, heç olmasa

لابد [labod(d)] 1) hökmən, mütləq; yəqin; 2) məcbur; ~ شدن məcbur olmaq

لابراتوار [laboratuar] laboratoriya

لابرلا [labərla] *bax* لابلا

لابلا [labela] 1) laybalay; çoxsaylı, çoxqatlı; 2): ~ از arasından; ~ از درختان ağacların arasından

لابه [labe] I 1) yalvarma, yalvarış; 2) şikayət; giley; ~ کردن a) yalvarmaq; b) gileylənmək

لابه [labe] II 1) yaltaqlıq; 2) hiylə; yalan; 3) rişxənd, istehza; zarafat

لابه گر [labegər] I 1) yalvaran, yalvar-yaxar edən; 2) şikayət edən; giley-güzar edən

لابه گر [labegər] II 1) yaltaq; 2) hiyləgər; yalançı

لاپوشانی [lapuşani] eyibləri ört-basdır etmə, eyibləri ört-basdır etməyə çalışma; ~ کردن eyibləri ört-basdır etmək

لات [lat] *dan.* 1) avara; 2) lüt, heç nəyi olmayan; 3) dələduz; xuliqan

لات بازی [latbazi] *dan.*1) lotuluq; 2) dələduzluq; xuliqanlıq; ~ در آوردن a) xuliqanlıq etmək; b) özünü yaxşı göstərmək

لات و پات [latopat] *dan.* 1) olduqca kasıb, lüt, dilənçi; 2) taybatay, açıq (*qapı, pəncərə*)

لات و لوت [latolut] *dan. bax* لات و پات 1)

لاتی [lati] 1) kasıblıq, yoxsulluq; 2) dələduzluq, xuliqanlıq

لاجرعه [lacor'e] birdəfəyə, birnəfəsə; ~ سرکشیدن (نوشیدن) birnəfəsə içmək, axıra qədər içmək

لاجرم [lacərəm] 1) çarəsiz, istər-istəməz, məcburən; 2) şübhəsiz, yəqin, əlbəttə; 3) buna görə, buna əsasən

لاجورد [lac(e)vərd] 1) *miner.* lacivərd, lazurit (*qiymətli daş*); 2) açıq-göy rəng

لاجوردی [lac(e)vərdi] 1) *bax* لاجورد 2); 2) lacivərddən düzəldilmiş; ~ کردن açıq-göy rəngə boyamaq

لاجون [lacun] *dan.* zəif, cansız

لاحق [laheğ] 1) sonrakı; ~ سابق و əvvəlki və sonrakı; 2) birləşən, birləşmiş; ~ شدن (گردیدن) a) qovub çatmaq, yetişmək; b) birləşmək; yanaşı olmaq

لاحقه [laheğe] 1) *bax* لاحق; 2) *c.* لواحق [ləvaheğ] əlavə, qoşulma

لادن [ladən] *bot.* ərikgülü; ~ گل ərikgülü çiçəyi

لاروب [larub] draqa (*yerqazan maşın*); çay, göl və dəniz limanlarının dibini təmizləyən qurğu

لاروبی [larubi] 1) yeri dərinləşdirmə (*qazma*); 2) çay, göl və dəniz limanlarının dibini təmizləmə

لاریب [lareyb] *bax* لا شک

لازال [lazal] ölməz, əbədi, həmişəyaşar

لازم [lazem] 1) lazım, vacib, zəruri; 2) *qram.* təsirsiz; ~ فعل təsirsiz fel; ~ آمدن (شدن) lazım olmaq, zəruri olmaq

لاس [las] I *dan.* eşqbazlıq, dilxoşluq, mazaqlaşma; ~ زدن eşqbazlıq etmək, dilxoşluq etmək, mazaqlaşmaq

لاس [las] II təmizlənməmiş ipək; keyfiyyətsiz ipək

لاستیک [lastik] 1) rezin; 2) təkər, şin

لاسیدن [lasidən] *bax* لاس زدن (لاس I *sözündə*)

لاش [laş] cəsəd, leş; ~ کردن soyub lüt etmək

لاشخور [laşxor] 1) leşyeyən; 2) *bax* کرکس

لاشریک [laşərik] şəriki olmayan, ortağı olmayan; vahid, tək (*Allahın epiteti*)

لاشک [laşək(k)] şəksiz, şübhəsiz, sözsüz

لاشه [laşe] *bax* لاش

لاشه خوار [laşexar] *bax* لاشخور

لاعلاج [laəlac] əlacsız, çarəsiz, əlacı olmayan, çarəsi olmayan, müalicəsi olmayan; ~ مرض əlacsız xəstəlik; müalicəsi olmayan xəstəlik; ~ شدن (ماندن) əlacsız olmaq, əlacsız qalmaq, çarəsiz olmaq

لاعلاجی [laəlaci] əlacsızlıq, çarəsizlik

لاغ [lağ] 1) oyun, əyləncə; zarafat; 2) yalan

لاغر [lağər] arıq; ~ شدن arıqlamaq; ~ کردن arıqlatmaq

لاغراندام [lağərəndam] arıq, arıq bədənli

لاغرمیان [lağərmiyan] incəbelli, nazikbelli

لاغری [lağəri] arıqlıq

لاف [laf] لافیدن *f.-nin k.*; 1) boş söz; boşboğazlıq, cəfəngiyat; 2) lovğalıq, öyünmə, özünü öymə; ~ زدن a) boşboğazlıq etmək, çərənləmək; b) lovğalıq etmək, özünü öymək; ~ الدرم گویی زدن◊ özünü qoçu kimi qələmə vermək

لافیدن [lafidən] *bax* لاف زدن (لاف *sözündə*)

لاقید [lağeyd] *bax* لاابالی

لاقیدانه [lağeydane] laqeydliklə, etinasızlıqla

لاقیدی [lağeydi] *bax* لاابالی گری

لاک [lak] I 1) surğuc; 2) lak; ~ ناخن dırnaq lakı; ~ زدن lak vurmaq, lak çəkmək; ~ کردن surğuclamaq

لاک [lak] II tısbağa qını

لاک پشت [lakpoşt] tısbağa; ~ دریایی (آبی) su tısbağası

لاکتاب [laketab] allahsız, dinsiz, kafir

لاکردار [lakerdar] lənətə gəlmiş, məlun

لاکلام [lakəlam] 1) sözsüz, şübhəsiz; 2) danışıqsız

لاکن [laken] *bax* لیکن

لال [lal] lal; ~ شدن lal olmaq, susmaq

لالا [lala] layla; layla çalma; *uş.d.* yatma, yuxuya getmə; ~ کردن *uş.d.* yatmaq; ~ گفتن layla demək

لالایی [lalayi] *bax* لالا

لاله [lale] I xrustal şamqabı

لاله [lale] II lalə

لاله رخ [lalerox] laləüzlü, laləyanaqlı, alyanaqlı (*gözəl*)

لاله رخسار [laleroxsar] *bax* لاله رخ
لاله رنگ [lalerəng] *bax* لاله گون
لاله زار [lalezar] laləzar, laləlik
لاله عذار [laleozar] *bax* لاله رخ
لاله فام [lalefam] *bax* لاله گون
لاله گون [lalequn] lalə rəngli, alqırmızı
لاله وش [lalevəş] lalə kimi; lalə rəngli
لالی [lali] lallıq, dilsizlik
لام [lam] 1) ülgüc; 2) nazik metal vərəq və ya şüşə (*laboratoriya avadanlığı*)
لاما [lama] I lama (*budda kahini*)
لاما [lama] II lama (*Cənubi Amerika dəvəsi*)
لامپ [lamp] lampa; ~ الکتریکی elektrik lampası; ~ رادیو radio lampası
لامپا [lampa] cıraq (*neft ilə vanan*)
لامح [lameh] *bax* لامع
لامحاله [laməhale] 1) çarəsiz; istər-istəməz, məcburən; 2) şübhəsiz, sözsüz; labüd, qaçılmaz; 3) heç olmasa
لامذهب [laməzhəb] dinsiz, laməzhəb
لامسه [lamese]: ~ حس lamisə, toxunma duyğusu, lamisə hissi
لامع [lame'] işıldayan, parıldayan, parıltılı, parlaq
لامکان [laməkan] 1) məkansız, hər yerdə olan (*Allahın epiteti*); 2) daimi yaşayış yeri olmayan
لانه [lane] 1) yuva; ~ زنبور arı pətəyi; ~ کبوتر göyərçin yuvası; ~ مرغ hin; 2) mağara, daxma, koma; ~ خرس ayı mağarası; ~ کردن yuva qurmaq, yuva düzəltmək; ~ شغل را از جائی کندن şələ-şüləsini yığışdırmaq
لاوارث [lavares] varissiz, varisi olmayan, vərəsəsiz
لاوصول [lavosul] qaytarılmayan, təmənnasız, həmişəlik
لاوک [lavək] taxta ləyən; xəmir ləyəni
لاهوت [lahut] ilahiyyat; qeyb aləmi; ülviyyət; ~ عالم mənəvi aləm; ~ علم ilahiyyat elmi
لاهوتی [lahuti] ilahi, dini; ilahiyyata aid
لاهوره [lahure] dilim, fal (*qovun, qarpız*)
لای [lay] lil, lehmə; çöküntü; انداختن ~ çöküntü vermək, çökmək
لایح [layeh] aydın, açıq-aydın, aşkar, göz önündə olan
لایحه [layehe] *c.* لوایح [ləvayeh] layihə, plan; ~ قانونی qanun layihəsi
لایزال [layəzal] əbədi, həmişəlik, ölməz; 2) həmisə..daima.....
لایعقل [layə'ğel] ağılsız, şüursuz; ◊ ~ مست lülqənbər, məst, sərxoş, kefli
لایق [layeğ] layiq, ləyaqətli
لای لای [laylay] *bax* لالا
لایموت [layəmut] ölməz, əbədiyaşar (*Allahın epiteti*); ◊ ~ قوت gündəlik ruzi
لاینحل [layənhəl] həll olunmaz; həll edilməz; mümkün olmayan; ~ مشکلات həll olunmaz çətinliklər
لاینفک [layənfək(k)] ayrılmaz, bölünməz; ~ جزو ayrılmaz hissə
لاینقطع [layənğətə'] arasıkəsilmədən, ardıcıl, fasiləsiz, dayanmadan
لایه [laye] *bax* لا 1)
لایی [layi] tıxama, doldurma, basma
لاییدن [layidən] 1) hürmək; سگ لاید و کاروان گذرد *ata.söz.* it hürər, karvan keçər; 2) boşboğazlıq etmək, çərənləmək

لب [ləb] 1) dodaq; لبش بوی شیر می دهد *ata.söz.* ağzından süd iyi gəlir; 2) kənar, qıraq; ~ دریا dəniz kənarı; ~ زیر dodaqaltı, yavaşca (*demək*); ◊ باز کردن ~ dil açmaq, danışmağa başlamaq; ~ فرو بستن ağzına su alıb oturmaq, susmaq, sakit olmaq; sakit qalmaq; از ~ برنداشتن ağzını açmamaq; dilini tərpətməmək; ~ ترکردن dodağını islatmaq, bir qurtum içmək; ~ گزیدن // ~ به دندان گزیدن a) heyrətdən dodağını dişləmək; b) barmağını dişləmək, peşman olmaq, təəssüflənmək; ~ سفید کردن dişini ağartmaq, gülmək
لب [ləb(b)] 1) mahiyyət, məğz; ~ مطلب məsələnin mahiyyəti; 2) *c.* الباب [əlbab] qəlb, ürək; 3) ağıl, düşüncə
لباب [lobab] 1) seçilmiş, ən yaxşı; ~ لب ən yaxşı hissə, elita; 2) iç (*meyvədə*)
لباده [ləbbade] ləbbadə (*uzun kişi paltarı*); ◊ برگاو بستن ~ ölmək
لباس [lebas] *c.* البسه [əlbəse] paltar, geyim; ~ بچگانه uşaq paltarı; ~ دوخته hazır paltar, tikili paltar; ~ رو üst geyim; ~ زنانه qadın paltarı; ~ زیر alt paltarı; ~ عروسی gəlin paltarı; ~ مردانه kişi paltarı; ~ تغییر paltar dəyişmə; ~ پوشیدن // ~ در بر geyinmək; ~ کندن soyunmaq
لباس شویی [lebasşuyi] 1) paltaryuma, paltaryuyan; ~ ماشین paltaryuyan maşın; 2) camaşırxana
لبالب [ləbələb] dolu, dopdolu; ~ شدن ağzına qədər dolmaq; ~ کردن ağzına qədər doldurmaq
لب به لب [ləbbeləb] *bax* لبالب
لب تخت [ləbtəxt] yastı; dayaz; ~ بشقاب dayaz nimçə
لب ترش [ləbtorş] turşaşirin
لب تشنه [ləbteşne] susuz, suzuzluqdan dodaqları quruyan
لب چش [ləbçeş] dadma, yeməyin dadına baxma
لبخند [ləbxənd] gülümsəmə, təbəssüm; ~ تمسخر آمیز istehzalı gülüş (*təbəssüm*); ~ زدن gülümsəmək
لب دوز [ləbduz] çox şirin
لبریز [ləbriz] *bax* لبالب; ~ شدن ağzınacan dolmaq; ~ کردن (ساختن) ağzınacan doldurmaq
لب سوز [ləbsuz] çox isti; dodaq yandıran (*yemək*); ~ چای لب دوز و çox şirin və çox isti çay
لب کلفت [ləbkoloft] qalındodaqlı, dodaqvağlı.....
لب گزه [ləbgəze] dodaq dişləmə (*peşman olarkən*)
لبلاب [ləblab] *bot.* sarmaşıq
لبلبو [ləbləbu] *bax* لبو
لبنیات [ləbəniyyat] süd məhsulları
لبنیات سازی [ləbəniyyatsazlıq] süd məhsulları istehsalı; ~ کار خانه süd zavodu
لبو [ləbu] bişmiş çuğundur
لبه [ləbe] 1) ağız, kənar, tiyə; ~ آستین paltarın qolunun kənarı; ~ کارد bıçağın ağzı; 2) haşiyə; 3) çıxıntı
لبه دار [ləbedar] 1) haşiyəli; 2) kəbələnmiş; 3) günlüklü; ~ کلاه gülüklü (*dimdikli*) şapka
لبه دوزی [ləbeduzi] kənarını tikmə, qırağını tikmək, qırağını içə tikmə
لبی [ləbi] *dilç.* labial, dodaq; ~ صداهای dodaq səsləri
لبیدن [ləbidən] boş-boş danışmaq, çərənləmək

لبیک [ləbbeyk] eşidirəm və itaət edirəm; bəli, buyurun; **گفتن ~** a) eşitmək və itaət etmək; b) çağırışa səs vermək; ◊ **اجابت گفتن ~•** ölmək, canını tapşırmaq

لپ [lop] 1) yanaq; 2) *dan.* ağız nahiyəsi

لپر [ləp(p)ər] şırıltı; **زدن ~** şırıldamaq

لپه [ləp(p)e] ləpə, yarıya bölünmüş noxud; **نخود ~•** yarım noxud; **کردن ~** təmizləmək, arıtlamaq, qabıqdan çıxarmaq (*noxudu, paxlanı*)

لت [lət] I hissə, tikə, parça; **لت ~** tikə-tikə, parça-parça; **و پاره کردن ~** hissələrə bölmək

لت [lət] II 1) zərər, ziyan; 2) döymə, kötəkləmə, qulaqburma; **خوردن ~** a) ziyan çəkmək; b) döyülmək; **زدن ~** a) ziyan vurmaq; b) döymək; qulaqburması vermək

لثه [ləs(s)e // les(s)e] *c.* **لثات** [lesat] diş əti

لج [ləc(c)] 1) inadkarlıq etmə; tərslik etmə; 2) acıq, hirs; **بودن ~ (داشتن)** acıqlanmaq, hirslənmək; **~ کردن** tərslik etmək; **به ~ انداختن** hirsləndirmək; ◊ **کسی را بالا آوردن ~•** əsəbiləşdirmək, cin atına mindirmək

لجاج [ləcac] *bax* **لج**; **کردن ~** a) tərslik etmək; b) acığa düşmək

لجاجت [ləcacət] *bax* **لج**

لجاره [ləccare] *dan.* hay-küyçü; xuliqan; söyüşcül; abırsız; həyasız

لجام [lecam] cilov, yüyən, ip; **کردن ~ (زدن)** cilovlamaq, yüyənləmək; b) əhliləşdirmək, ram etmək, ələ öyrətmək; **گسیختن ~** yüyəni çıxarmaq; cilovdan çıxarılmaq

لجام گسیختگی [lecamqosixtegi] azğınlıq; pozğunluq, həyasızlıq; özbaşınalıq

لجام گسیخته [lecamqosixte] azğın; pozğun, həyasız

لج باز [ləcbaz] inadkar, tərs

لج بازی [ləcbazi] *bax* **لج**

لجن [ləcən] lil, lehmə, palçıq

لجن آلود [ləcənalud] lilli, lehməli, palçıqlı

لجن پرانی [ləcənpərani] qaralama, qarayaxma, ləkələmə (*kimisə*); **کردن ~** qaralamaq, qara yaxmaq; şərləmək

لجن زار [ləcənzar] bataqlıq, bataqlıq yer

لجن مالی [ləcənmali] *bax* **لجن پرانی**

لجوج [ləcuc] 1) dikbaş, inadkar, tərs; 2) şıltaq; **شدن ~** inadkarlıq göstərmək, tərslik etmək

لجوجانه [ləcucane] inadkarlıqla, tərsliklə

لچر [ləçər] 1) alçaq, əclaf; 2) xəsis, simic

لچک [ləçək] ləçək, yaylıq, baş örtüyü

لحاظ [lehaz // ləhaz] baxım, baxış, nöqteyi-nəzər; **ازاین ~** bu baxımdan

لحاف [lehaf // ləhaf] yorğan; **~• چهل تکه** qurama yorğan

لحاف دوز [lehafduz] yorğan sırıyan

لحاف دوزی [lehafduzi] yorğan sırıma

لحاف کرسی [lehafkorsi] kürsü yorğanı

لحد [ləhəd] qəbir, qəbir dibi, qəbirdə ölünün baş tərəfi

لحظه [ləhze] an, bir an, qırpım; **در ~ یک** dərhal, bir anda, bir göz qırpımında; **به لحظه ~** hər an

لحم [ləhm] *c.* **لحوم** [ləhum] ət

لحن [ləhn] *c.* **الحان** [əlhan] 1) avaz, intonasiya, səs; **شدید ~•** güclü səs; 2) ahəng, melodiya

لحیم [ləhim] lehim; **شدن ~** lehimlənmək; **کردن ~** lehimləmək

لحیم کاری [ləhimkari] lehimləmə; **~ چراغ•** lehimləmə lampası

لحیم گر [ləhimgər] lehimçi, lehimləyici

لحیم گری [ləhimgəri] *bax* **لحیم کاری**

لخت [ləxt] tikə, parça, hissə; **یک ~** bir az, bir qədər (*vaxt, zaman*)

لخت [loxt] lüt, çılpaq; **شدن ~** lüt olmaq, soyunmaq; **کردن ~** a) soyundurmaq; b) soymaq, qarət etmək

لخته [ləxte] 1) laxta; 2) *bax* **لخت**; **بستن (شدن) ~** laxtalanmaq; **کردن ~** doğramaq, parçalamaq, parça-parça etmək

لخشیدن [ləxşidən] *bax* **لغزیدن**

لخم [loxm] *dan.* sümüksüz tikə ət

لدنی [lədon(n)i] 1) dini, ilahi; 2) ilahiyyatçı; **~ علم•** dini bilik

لدنیات [lədon(n)iyyat] ilahiyyat

لذا [leza] buna görə, bu səbəbdən

لذت [ləzzət // lezzət] *c.* **لذات** [ləzzat] // **لذایذ** [ləzayez] ləzzət, kef; **~ بردن** ləzzət almaq; **(بخشیدن) ~ دادن** ləzzət vermək

لذت بخش [ləzzətbəxş] ləzzət verən, ləzzət bəxş edən; valehedici, məftunedici

لذیذ [ləziz] 1) ləziz, ləzzətli, dadlı; 2) şirin

لرت [lert] çöküntü, torta, xılt; **~• قهوه** qəhvə çöküntüsü; **انداختن ~** çöküntü vermək

لرد [lerd] *bax* **لرت**

لرزان [lərzan] 1) titrəyən, əsən; 2) qorxa-qorxa, qorxaraq

لرزاندن [lərzandən] titrətmək, əsdirmək, silkələmək

لرزانک [lərzanək] jele

لرزش [lərzeş] titrəmə; titrəyiş, əsmə; **به ~ آمدن** *bax* **لرزیدن**; **به ~ آوردن** *bax* **لرزاندن**

لرزه [lərze] əsmə, titrəmə; titrətmə; **به اندامش افتاد ~** canına (*bədəninə*) titrətmə düşdü; **گرفتن ~** titrəmək

لرزه ای [lərzei] seysmik; **~ امواج•** seysmik dalğalar; **~ حادثه•** seysmik hadisə

لرزه شناسی [lərzeşenasi] seysmologiya

لرزه نگار [lərzeneqar] seysmoqraf

لرزه نگاری [lərzeneqari] seysmoqrafiya

لرزیدن [lərzidən] titrəmək, əsmək

لزج [ləzec] yapışan, yapışqan

لزجی [ləzeci] yapışqanlılıq, yapışma; qatılıq

لزوجت [lozucət] *bax* **لزجی**

لزوم [lozum] ehtiyac, zərurət; **در ~ صورت•** ehtiyac olduqda; **داشتن ~** lazım olmaq; **چه~ دارد؟** nə lazımdır? nəyə gərəkdir? **~قدر به•** lazımi qədər (*miqdarda*)

لژ [loj] loja; **تئاتر ~** teatr lojası

لس [ləs] *dan.* zəif, süst, hərəkətsiz; **شدن ~** a) süstləşmək; b) iflic olmaq

لسان [lesan] *c.* **السنه** [əlsene] dil; **~• فارسی** fars dili

لسان الغیب [lesanolğeyb] 1) gizli dil, məxfi dil, İlahi dil; 2) qeyb dili bilən, İlahi dili bilən (*Hafiz Şirazinin ləqəbi*)

لش [ləş] *dan.* 1) *bax* **لس**; 2) qayğısız, laqeyd; 3) *bax* **لاش**

لشاب [ləşab] *bax* **لجن زار**

لش بازی [ləşbazi] şuluqluq; əyyaşlıq və abırsızlıq; **~ در آوردن** şuluqluq salmaq; əyyaşlıq və abırsızlıq etmək

لش خوار [ləşxar] *bax* **لاشخور**

لشکر [ləşkər] 1) diviziya; 2) qoşun, ordu; **~ کشیدن** yürüş etmək (*hərbi*); qoşun çəkmək

لشکر شکن [ləşkərşekən] 1) qalib, fateh, müzəffər; 2) cəsarətli, cürətli

لشکرکشی [ləşkərkeşi] yürüş, hərbi əməliyyat

لشکرگاه [ləşkərqah] hərbi düşərgə

لطافت [lətafət] 1) lətafət, lətiflik, incəlik, zəriflik; 2) xoşagəlimlik; gözəllik

لطافت [lətafətyet] *t.* **لطیفه**

لطف [lotf] *c.* **الطاف** [əltaf] lütf, mehribanlıq, mərhəmət, xeyirxahlıq; **~ کردن** lütf etmək, mehribanlıq etmək, mərhəmət göstərmək

لطفا [lotfən] lütfən, zəhmət olmasa

لطف آمیز [lotfamiz] xeyirxah, mərhəmətli

لطمه [lətme] *c.* **لطمات** [lətəmat] 1) ziyan, zərər; 2) zərbə, zədə; **~ خوردن** a) ziyan çəkmək, ziyana düşmək; b) zərbə yemək; **~ زدن (وارد آوردن)** a) ziyan vurmaq; b) zərbə vurmaq

لطیف [lətif] lətif, incə, zərif; 2) xoşagəlim, məlahətli; **~ پوست** incə dəri; **~ صدای** məlahətli səs

لطیفه [lətife] *c.* **لطایف** [lətayef] lətifə; zarafat, məzəli hekayə; **~ گفتن** lətifə danışmaq

لطیفه سرا [lətifesəra] *bax* **لطیفه گو**

لطیفه گو [lətifequ] 1) lətifəçi, lətifə danışan; 2) hazırcavab; zarafatcıl

لعاب [loab // ləab] 1) mina (*saxsıların üzərinə çəkilən parlaq maddə*); 2) yapışqanlıq, qatılıq; 3): **~ دهان** ağız suyu, selik, tüpürcək; 4) həlim; **~ برنج** düyü həlimi; **~ دادن** mina çəkmək (*qabın üzərinə*)

لعابدار [loabdar] 1) selikli, tüpürcəkli; 2) mina çəkilmiş, minalı (*qab*); **~ ظروف** minalı qablar

لعابی [loabi] *bax* **لعابدار**

لعب [lə'b] oyuncaq; oyun, əyləncə

لعبت [lo'bət] *c.* **لعب** [loəb] 1) gözəl; qəşəng geyinmiş qız uşağı; 2) kukla; oyuncaq; 3) oyun, əyləncə

لعل [lə'l] 1) ləl (*qiymətli daş*); 2) al, qırmızı; **~ لب** al dodaq; ◊ **~ آبدار** *şair.* sevgilinin dodaqları

لعل فام [lə'lfam] yaqut rəngli, yaqut kimi qırmızı

لعل گون [lə'lqun] *bax* **لعل فام**

لعنت [lə'nət] lənət; **~ کردن** lənətləmək, lənət eləmək

لعنتی [lə'nəti] lənətə gəlmiş

لغات [loğat] *t.* **لغت**

لغاز [loğaz] yan taxta (*qapı və ya pəncərə çərçivəsində*)

لغایت [leğayət] o cümlədən, daxil olmaqla; **دوم خرداد ~** xordad ayının ikisi də daxil olmaqla

لغت [loğət] *c.* **لغات** [loğat] 1) söz; ifadə; **~ کتاب** lüğət, lüğət kitabı; 2) dil, şivə

لغت شناس [loğətşenas] leksikoloq

لغت شناسی [loğətşenasi] leksikologiya

لغت نامه [loğətname] sözlük, lüğət

لغز [loğ(ə)z // loğoz] *c.* **الغاز** [əlğaz] 1) tapmaca, müəmma; 2) *dan.* kinayə; ələ salma, istehza

لغزان [ləğzan] 1) sürüşərək; sürüşən; 2) *bax* **لغزنده**

لغزاندن [ləğzandən] sürüşdürmək

لغزش [ləğzeş] 1) sürüşmə; 2) səhv, yanlışlıq

لغزندگی [ləğzəndegi] 1) sürüşkənlik; 2) dəyişkənlik, qeyri-sabitlik, səbatsızlıq

لغزنده [ləğzənde] 1) sürüşkən; sürüşən; 2) dəyişən, dəyişkən, qeyri-sabit

لغزیدن [ləğzidən] 1) sürüşmək; 2) səhv etmək, yanılmaq, yanlış iş tutmaq, yanlış hərəkət etmək

لغو [ləğv] 1) ləğv, ləğv etmə; aradan qaldırma; 2) boş şey, mənasız şey; **شدن ~** ləğv olunmaq, aradan qaldırılmaq; **کردن ~** ləğv etmək, aradan qaldırmaq; **گفتن ~** boş-boş danışmaq, cərənləmək

لغوی [loğəvi] 1) lüğəvi, hərfi; **~ معنای** hərfi məna; 2) leksik, söz; **~ ذخیره** söz ehtiyatı; 3) *c.* **لغویون** [loğəviyyun] leksikoloqlar, leksikoqraflar

لغویات [ləğviyyat] boş sözlər, mənasız sözlər

لف [ləf // ləff] 1) bükmə, sarıma; 2) əlavə, qoşma; **~ در** əlavədə

لفاظ [ləffaz] 1) gözəl danışan; 2) boşboğaz, çərənçi

لفاظی [ləffazi] 1) gözəl danışma; 2) boşboğazlıq, çərənçilik; **~ کردن** boşboğazlıq etmək, çərənçilik etmək

لفاف [lefaf // ləfaf] *c.* **لفایف** [ləfayef] parça və ya kağız üzlük, örtük, çəxol; **~ کردن** bükmək; bürümək (*kağıza, parçaya*)

لفافه [lefafe // ləfafe] *c.* **لفایف** [ləfayef] *bax* **لفاف**; ◊ **در ~ سخن گفتن** üstüörtülü danışmaq

لفت [left]: **~ دادن** çox uzatmaq (*işi, sözü*); **چرا لفتش میدهی** niyə uzadırsan?

لفت و لعاب [leftoləab] *bax* **لفت**

لفت ولیس [leftolis] *dan.* 1) müftəxorluq, başqasının hesabına yaşama; 2) yaltaqlıq, qab dibi yalama; **~ کردن** a) müftəxorluq etmək, başqasının hesabına yaşamaq; b) yaltaqlıq etmək

لفظ [ləfz] *c.* **الفاظ** [əlfaz] 1) söz, kəlmə, ifadə; 2) dil, ləhcə, şivə; **~ قلم** kitab dili; **~ به ~** sözbəsöz; **~ قلم حرف زدن** kitab dili ilə danışmaq, təmtəraqla danışmaq

لفظی [ləfzi] 1) şifahi; 2) hərfi

لف و نشر [ləffonəşr] *ədəb.* ritorik fiqur

لق [ləğ(ğ)] 1) lax, laxladılmış; 2) korlanmış, xarab olmuş; **شدن ~** laxlamaq, boşalmaq; **کردن ~** laxlamaq, boşaltmaq

لقا [leğa] 1) üz, sifət; 2) qovuşma, görüş, görüşmə, vüsal

لقاح [leğah] 1) mayalandırma; 2) tozlandırma; 3) *bot.* tozcuq

لقاندن [ləğğandən] *dan.* laxlatmaq, yerindən tərpətmək

لقب [ləğəb] *c.* **القاب** [əlğab] ləqəb, ayama; **دادن ~** ləqəb vermək; **گرفتن** ləqəb almaq

لقمه [loğme] loğma, tikə, parç **~ چرب** yağlı tikə; **یک ~ نان** bir tik çörək; **کردن ~** yeməyi lavaşa bükmə ◊ **~ گلوگیر** çətin tapılan şey; **دهان ~ سگ شدن** hədərə getmək, zay olma **~ را به اندازه دهان برداشتن** ayağı yorğanına görə uzatmaq

لقوه [ləğve] *tib.* iflic; **برداشتن ~** i lic olmaq

لقیدن [ləğğidən] *dan.* laxlamaq

لک [lək] ləkə (*meyvədə, insan bədənində, sifətində və ya paltarı da*); **~ چشم** göz qarasındakı ağ lək

انداختن ~ ləkə salmaq; برداشتن ~ ləkələnmək; کردن ~ ləkələmək

لکاته [ləkate // ləkkate] küçə qadını, pozğun qadın, abırsız qadın

لک دار [ləkdar] ləkəli, ləkələnmiş; korlanmış, xarab olmuş (*meyvə*)

لک زده [ləkzəde] *bax* لک دار

لکلک [ləklək] leylək, hacıleylək

لکن [laken] *bax* لیکن

لکنت [loknət]: زبان ~ˆ kəkələmə, pəltəklik; داشتن ~ kəkələmək, pəltək danışmaq

لکنتی [loknəti] pəltək, kəkə

لکه [ləkke] ləkə (*paltarda*); انداختن ~ ləkə salmaq; گرفتن ~ ləkəni təmizləmək, ləkəni silmək

لکه برداری [ləkkebərdari] *bax* لکه گیری

لکه دار [ləkkedar] 1) ləkələnmiş, çirklənmiş; 2) biabır olmuş, rüsvay olmuş; شدن ~ a) ləkəli olmaq, çirkli olmaq; b) biabır olmaq, rüsvay olmaq; کردن ~ a) ləkələndirmək, çirklətmək; b) biabır etmək, rüsvay etmək

لکه گیری [ləkkegiri] ləkəni silmə; paltarı təmizləmə; کردن ~ ləkəni silmək; paltarı təmizləmək

لگاریتم [loqaritm] *riyaz.* loqaritm

لگام [loqam // leqam] *bax* لجام; ~ دادن yüyəni buraxmaq; زدن ~ ram etmək, özünə tabe etmək; کشیدن ~ yüyəni dartmaq

لگد [ləgəd] təpik; انداختن (پراندن) ~ təpik atmaq, təpikləmək; خوردن ~ təpiklənmək, döyülmək; شدن ~ ayaqlanmaq; کردن ~ ayaqlamaq; ◊ به بخت خود زدن ~ talcyinə şıllaq atmaq, bəxtinə təpik vurmaq

لگداندازی [ləgədəndazi] 1) təpik atma, şıllaq atma; 2) itaətsizlik, boyun əyməmə

لگد پرانی [ləgədpərani] *bax* لگداندازی 1)

لگد خور [ləgədxor] bərk, möhkəm; davamlı (*xalça*)

لگد کوب [ləgədkub] ayaq altında əzilmiş, tapdalanmış; شدن ~ əzilmək, tapdalanmaq; کردن ~ əzmək

لگدمال [ləgədmal] *bax* لگد کوب

لگن [ləgən] ləyən, tas, teşt

له [ləle] lələ, tərbiyəçi (*kişi*)

لله الحمد [lelləhelhəmd] Allaha şükür!

لم [ləm] لمیدن *f.-nin k.*; sərələnib oturma, yayılıb oturma; دادن ~ sərələnib oturmaq, yayılıb oturmaq

لم [lem(m)] 1) bacarıq, məharət; 2) zirəklik, fənd, hiylə, biclik; به ~ کار بردن a) fənd işlətmək; b) işin çəmini bilmək

لمباندن [lombandən] *dan.* acgözlüklə yemək, tıxmaq, aşırmaq, çeynəmədən udmaq

لمباندن [lombanidən] *bax* لمباندن

لمبر [ləmbər I // lombər] *dan.* arxa, yan, yumşaq ət, sağrı

لمبر [ləmbər] II *dan.* şappıltı (*su*); ləpələnmə; خوردن (زدن) ~ şırıldamaq (*su*); ləpələnmək

لمحه [ləmhe] 1) ani baxış, ötəri baxış; 2) bir an, bir göz qırpımı; در یک ~ bir anda, bir göz qırpımında

لمس [ləms] I toxunma, toxunmaqla hiss etmə, toxunma duyğusu; قابل ~ˆ toxunula bilən; کردن ~ toxunmaq, toxunmaqla hiss etmək

لمس [ləms] II iflic; شدن ~ iflic olmaq; کردن ~ iflic etmək

لمعات [ləmə'at] *t.* لمعه

لمعان [ləm'an] parıltı, parıldama

لمعه [ləm'e] *c.* لمعات [ləmə'at] 1) parlaqlıq; 2) işartı, işıq; 3) *bax* لمعان

لمف [ləmf] *biol.* limfa

لمیدن [ləmidən] *bax* لم دادن (لم [ləm] *sözündə*)

لم یزل [ləmyəzəl] əbədi, ölməz (*Allahın epiteti*)

لنت [lent] *tex.* lent

لنتر [ləntər] asılı lampa, çıraq

لنترانی [ləntərani] *dan.* 1) kobud sözlər; 2) lovğalıq, təkəbbür; گفتن ~ a) kobud söz demək; b) təkəbbürlə danışmaq

لنج [lonc] 1) yanağın aşağı hissəsi; 2) ağız, dodaq

لنج [lenc] böyükmotorlu qayıq

لند [lond] *dan.* 1) deyinmə, donquldanma, mırtıldanma; 2) şikayət; giley-güzar

لند لند [londlond] *bax* لند; کردن ~ deyinmək, donquldanmaq, mırtıldanmaq

لند و لند [londolond] *bax* لند لند

لندوک [lənduk] *dan.* 1) tüklənməmiş quş, ətcəbala (*quş balası*); 2) yöndəmsiz (*adam*); uzun və arıq

لند هور [ləndəhur] *dan.* uzundraz, yekəpər; avara, tənbəl; ağılsız

لندیدن [londidən] *bax* لند لند کردن (لند لند *sözündə*)

لنز [lenz] linza

لنف [lənf] *bax* لمف

لنگ [ləng] 1) axsaq, topal; 2) ləng, ləngimə, gecikmə, yubanma; شدن ~ a) topallaşmaq, axsaq olmaq; b) ləngimək, gecikmək, dayanmaq; کار ~ شد iş dayandı; کردن ~ a) topal etmək; b) ləngitmək, gecikdirmək, yubatmaq

لنگ [leng] qıç, ayaq (*qasıqdan barmaqlara qədər*); ◊ ظهر ~ˆ *dan.* günorta vaxtı; در هوا بودن ~ ayaqları göydə qalmaq; vəziyyəti (*səhhəti*) aydın olmamaq

لنگ [long] fitə; güləşçinin bədəninin aşağı hissəsini örtən parça; ~ بستن fitə bağlamaq; ◊ انداختن ~ təslim olmaq, özünü məğlub saymaq (*güləşdə*)

لنگان [lengan] 1) axsayan; 2) axsaya-axsaya

لنگر [ləngər] ləngər, lövbər; ~ انداختن lövbər salmaq; ~ بر داشتن lövbəri qaldırmaq

لنگر گاه [ləngərqah] liman

لنگه [lenge] *dan.* tay, cütün bir tayı; کفش ~ˆ ayaqqabı tayı; نداشتن ~ misilsiz olmaq, tayı-bərabəri olmamaq

لنگی [ləngi] 1) axsaqlıq; 2) ləng-lik, ləngimə, yubanma, gecikmə

لنگیدان [ləngidən] axsamaq, axsaya-axsaya yerimək

لو [lou]: دادن ~ açıb söyləmək (*sirri*), aşkar etmək, ifşa etmək; رفتن ~ aşkara çıxmaq, üstü açılmaq (*sirr*)

لوا [ləva] bayraq; اسلام ~ˆ islam bayrağı

لوازم [ləvazem] 1) *t.* لازمه; 2) *c.* لوازمات [ləvazemat] avadanlıq, təchizat, ləvazimat; تحریر ~ˆ *bax* نوشت افزار; ارایش ~ˆ bəzək ləvazimatı; یدکی ~ˆ ehtiyat hissələri

لواش [ləvaş] lavaş

لواشک [ləvaşək] alçadan hazırlanmış lavaşana

لوبيا [lubiya] lobya; سبز ~ yaşıl lobya; سفيد ~ ağ lobya; قرمز ~ qırmızı lobya

لوبيا پلو [lubiyapolu] lobya ilə hazırlanan plov

لوت [lut] 1) lüt, çılpaq; 2) *bax* لات 2)

لوتو [loto] loto

لوتى [luti] 1) gəzəyən; 2) dəcəl, nadinc, dəlisov; 3) azğın, qoçu, lotu; 4) zarafatcıl; 5) *dan.* alicənab, xeyirxah, mərd

لوث [lous] çirk, çirklənmə, bulanma, bulaşma, kirlənmə; شدن ~ a) çirklənmək, ləkələnmək; b) naməlum qalmaq, üstü örtülmək (*məsələ, iş*); كردن ~ a) çirklətmək, ləkələmək; b) naməlum saxlamaq, üstünü örtmək

لوچ [luç] çəp, əyri; çəpgöz

لوچه [louçe] *dan.* dodaq; ◊ لب و ~ اويزان شدن dodağını sallamaq, incimək

لوح [louh] *c.* الواح [əlvah] lövhə; ◊ حافظه (خاطر) ~ yaddaş

لوحش الله [louhəşəllah] afərin! mərhəba! çox yaxşı!

لوحه [louhe] *bax* لوح; ◊ از ~ ضمير نزدودن yaddan çıxarmamaq

لود گى [loudegi] təlxəklik; ədabazlıq; كردن ~ təlxəklik etmək; ədabazlıq etmək

لوده [loude] I təlxək; ədabaz

لوده [loude] II böyük səbət (*meyvə üçün*)

لوده گرى [loudegəri] *bax* لود گى

لور [lur] kəsmik, çürümüş süd

لوز [louz] 1) badam; 2) şirniyyat növü (*paxlavaşəkilli*)

لوز المعده [louzolmə'de] *anat.* mədəaltı vəzi

لوزتين [louzəteyn] *anat.* badamcıq vəziləri; ~ ورم tonzilit, badamcıq vəzilərinin iltihabı

لوزه [louzə] 1) *bax* لوز 1); 2) *anat.* badamcıq vəzisi

لوزى [louzi] romb, rombşəkilli

لوژ [luj] xizək

لوس [lus] 1) şıltaq, ərköyün; 2) bayağı, şit; شوخى~ şit zarafat; 3) yaltaqlıq; شدن ~ şıltaq olmaq; ərköyünləşmək; كردن ~ ərköyün böyütmək

لوستر [lust(e)r] lüstr, çilçıraq

لوسكى [lusəki] yaltaqcasına, yaltaqlıqla

لوسى [lusi] 1) ərköyünlük, şıltaqlıq; 2) bayağılıq, şitlik

لوطى [luti] *bax* لوتى

لوكس [luks] lüks, çox gözəl; dəbdəbəli; اجناس ~ lüks mallar; زندگى ~ dəbdəbəli yaşayış, lüks həyat

لول [lul] I *dan.* lül, lülqənbər, kefli, sərxoş; (شدن) بودن ~ kefli olmaq; كردن ~ içirtmək, kefləndirmək

لول [lul] II: (زدن) خوردن ~ *bax* لوليدن

لولا [loula] rəzə; şarnir

لوله [lule] lülə, boru, borucuq; ~ لاستيكى şlanq; تفنگ ~ tüfəngin lüləsi

لوله سازى [lulesazi] boru-prokat; كارخانه ~ boru-prokat zavodu

لوله كش [lulekeş] santexnik, su kəməri texniki

لوله كشى [lulekeşi] 1) boru kəməri çəkilişi; 2) boru kəməri; آب ~ su kəməri; گاز ~ qaz kəməri; نفت ~ neft kəməri; كردن ~ kəmər çəkmək

لولهنگ [lulheng] lüləyin, aftafa; ◊ لولهنگش آب ميگيرد nüfuzludur, nüfuzu var

لولهين [lulehin] *bax* لولهنگ

لولى [luli] 1) qaraçı; 2) küçə qadını

لوليدن [lulidən] *dan.* burulmaq, qıvrılmaq (*soxulcan, ilan*)

لولين [lulein] *bax* لولهنگ

لون [loun] *c.* الوان [əlvan] rəng, boya, boyaq

لوند [ləvənd] 1) pozğun qadın; 2) işvəli, nazlı; şəhvətli; 3) avara

لوندى [ləvəndi] 1) pozğunluq (*qadında*); 2) şəhvət, ehtiras (*qadında*); 3) şuxluq, işvə, naz-qəmzə; 4) avaraçılıq

لويد [ləvid] böyük mis qazan

له [ləh] lehinə

له [leh] 1) əzik, əzilmiş; 2) sıxılmış; شدن ~ əzilmək; كردن ~ a) əzmək; b) sıxmaq

لهجه [ləhce] 1) ləhcə, dialekt, şivə; 2) tələffüz

لهذا [lehaza // ləhaza] buna görə, bu səbəbdən

له له [ləhləh]: زدن ~ *dan.* 1) ləhləmək, tövşümək; 2) çox arzu etmək, həsrətində olmaq

لهو [ləhv] eyş-işrət, kef çəkmə, əylənmə; و لعب ~ a) həzz, zövq, ləzzət; b) əxlaqsızlıq, pozğunluq

لهيب [ləhib] alov, şölə

لهيدن [lehidən] 1) əzilmək, korlanmaq, zay olmaq (*meyvə*); 2) sıxılmaq

لهيده [lehide] *bax* له [leh]

لياقت [liyağət] ləyaqət, bacarıq, istedad; داشتن ~ layiq olmaq, bacarıqlı olmaq,

لئامت [ləamət // leamət] 1) alçaqlıq, əclaflıq; 2) xəsislik, simiclik

ليچار [liçar] *dan.* boş söz, cəfəngiyat; گفتن ~ cəfəng danışmaq, boş-boğazlıq etmək

ليچارگو [liçarqu] *dan.* boşboğaz, çərənçi

ليدر [lider] lider, rəhbər, başçı

ليز [liz] 1) sürüşkən; 2) yapışan, yapışqanlı; خوردن ~ sürüşmək; سحن sürüşkən olmaq; كردن ~ sürüşkən etmək

ليزيدن [lizidən] *bax* ليز خوردن (ليز *sözündə*)

ليسانس [lisans] 1) bakalavr; فوق ليسانس magistr; 2) bakalavr diplomu; 3) lisenziya

ليسانسيه [lisansiye] bakalavr dərəcəli məzun

ليست [list] siyahı; حقوق ~ maaş cədvəli

ليسيدن [lisidən] yalamaq

ليف [lif] *c.* الياف [əlyaf] 1) sap, ip; 2) hamam lifi; 3) *anat.* toxuma; ~ زدن liflə yumaq

ليك [lik] *bax* ليكن

ليكن [likən] lakin, amma, ancaq, fəqət

ليل [leyl] *c.* ليالى [leyali] gecə

ليلاج [leylac] mahir qumarbaz; haramzadə, fırıldaqçı

ليلة القدر [leylətolqədr] *din.* qədir gecəsi (*ramazan ayının 17, 19, 21, 23 və 27-ci günlərinin birinə düşür*)

لى لى [leyley] bir ayaqla hoppanma (*uşaq oyunu*); كردن ~ bir ayaqla hoppanmaq

ليمو [limu] limon

ليمويى [limuyi] limon rəngi

لينت [linət] yumşaqlıq; ◊ مزاج ~ ishal

لينولئوم [linoleum] linoleum

ليوان [livan] dəstəkli su qabı; stəkan

لئيم [ləim] 1) alçaq, əclaf; 2) *c.* لئام [leam] xəsis, simic

م

م [mim] fars əlifbasının iyirmi səkkizinci hərfi; əbcəd hesabında 40 rəqəmini ifadə edir

ما [ma] biz; bizim (*izafət birləşməsində*); ~ خانه bizim ev; ~ و من *məc.* təkəbbürlük, eqoistlik

ماءالشعیر [ma'oşşəir] pivə

مابعد [ma'bəd] 1) sonrakı; 2) ard, davam; حکایت ~ hekayənin ardı

مابقی [mabəği] qalan hissə; digər, başqa; پول ~ pulun qalan hissəsi; اعضای شورا ~ şuranın digər üzvləri

مابه التفاوت [mabehettəfavot] fərq, təfavüt; uyğunsuzluq; قیمت ~ qiymətlər arasındakı fərq

مابین [mabeyn] arasında, arada olan; دانشجویان ~ tələbələr arasında

مات [mat] I donuq, tutqun, parıltısız; ~ شیشه tutqun şüşə

مات [mat] II 1) mat, mat qalmış, təəccüblənmiş; 2) *şahm.* mat; ستن ~ a) mat qalmaq, təəccüblənmək; b) mat olmaq (*şahmatda*); کردن ~ a) mat etmək, təəccübləndirmək; b) mat etmək (*şahmatda*); بردن ~ کسی mat qalmaq; جمال کسی شدن ~ kiminsə gözəlliyinə heyran olmaq; ماتم برد (زد) mat qaldım

ماتحت [matəht] 1) aşağı, aşağı hissə; 2) sağrı, yan, böyür

ماترک [matərək] miras, irs

ماتم [matəm] matəm, yas, əza; داشتن ~ matəmdə olmaq; گرفتن ~ matəm saxlamaq

ماتم دیده [matəmdide] *bax* ماتم زده

ماتم زدگی [matəmzədegi] 1) matəm; matəmli olma; əzizini itirmə; 2) qəm, qüssə, kədər

ماتم زده [matəmzəde] 1) matəmli, matəm görmüş; 2) qəmli, kədərli

ماتم سرا [matəmsəra] *bax* ماتم کده

ماتم کده [matəmkəde] 1) matəm saxlanılan yer; 2) qəmli, kədərli yer

ماتیک [matik] *bax* روژ

ماجرا [macəra] 1) macəra, avantüra; 2) hadisə, macəralı hadisə, əhvalat

ماجرا جو [macəracu] macəraçı, macəra axtaran, avantürist

ماجرا جویی [maceracuyi] macəraçılıq, avantürizm

ماچ [maç] maç, öpüş; کردن ~ öpmək

ماچ و موچ [maçomuç] *dan.* maçamaç, səsli öpüş

ماچه [maçe] dişi (*it, uzunqulaq*)

ماحصل [mahəsəl] 1) nəticə, yekun; گفتگو ~ söhbətin nəticəsi; 2) cəm, hasil

ماحضر [mahəzər] hazır, hazır olan (*yemək, xörək*)

ماخذ [mə'xəz] *c.* مآخذ [məaxcz] 1) məxəz, mənbə, qaynaq; 2) səbəb, əsas; قرار دادن ~ əsaslanmaq

ماخوذ [mə'xuz] götürülmüş, alınmış, alınma; کلمات ~ alınma sözlər; (کردن) داشتن ~ almaq, götürmək

مادام [madam] madam; که ~ madam ki, indi ki, o zamana qədər ki; که من هستم ~ nə qədər ki mən varam

مادام العمر [madamolomr] ömürlük, ölənə kimi, həmişəlik

مادر [madər] ana; رضاعی ~ süd anası; شدن ~ ana olmaq; ◊ فولادزره ~ küpəgirən qarı

مادراندر [madərəndər] analıq, ögey ana

مادرانه [madərane] ana kimi, anacasına

مادربزرگ [madərbozorg] nənə

مادرخوانده [madərxande] *bax* مادراندر

مادرزاد [madərzad] anadangəlmə, təbii; کور ~ anadangəlmə kor

مادرزن [madərzən] qayınana (*gəlinin anası*)

مادرشوهر [madərşouhər] qayınana (*bəyin anası*)

مادری [madəri] 1) analıq; 2) *bax* مادرزاد; 3) ana; زبان ~ ana dili; کردن ~ analıq etmək, ana münasibəti bəsləmək

مادگی [madegi] I 1) dişilik; 2) dişiyə xas əlamətlər; 3) *bot.* dişicik, genisey (*bitkidə*)

مادگی [madegi] II ilgək, ilmə (*paltarda*)

مادون [madun] 1) aşağı rütbə; 2) aşağı, daha aşağı

ماده [made] dişi; شیر ~ dişi aslan; گاو ~ inək

ماده [madde] I *c.* مواد [məvad] maddə, material, çəkisi olan və yer tutan hər bir şey; اولیه ~ ilkin material; خام ~ xammal

ماده [madde] II maddə, paraqraf; بر اساس ~ دوم قانون اساسی konstitusiyanın 2-ci maddəsinə əsasən; ◊ تاریخ ~ maddeyi-tarix, xronoqram (*əbcəd hesabı ilə göstərilən tarix*)

مادی [maddi] 1) maddi; کمک ~ maddi kömək; 2) materialist; 3) pulpərəst

مادیات [maddiyyat] 1) materiya; 2) maddi nemətlər

مادیان [madyan] madyan, dişi at

مار [mar] 1) ilan; 2) *məc.* zalım insan, azar verən; ◊ خوش خط و خال ~ özünü yaxşı qələmə verən hiyləgər insan; quzu dərisində olan canavar; خوردن ~ əzab-əziyyət çəkmək; در آستین پروردن ~ düşməni ocağın başında oturtmaq; از دهان ~ بیرون آمده dümdüz, heç bir əyriliyi olmayan; مثل ~ به خود پیچیدن ağrı və əziyyətdən qıvrılmaq; ilan kimi qıvrılmaq

مارپیچ [marpiç] 1) spiral, buruq; 2) əyrilik, əyri-üyrülük; 3) spiralşəkilli, əyri-üyrü

مارپیچی [marpiçi] *bax* مارپیچ 2), 3)

مارک [mark] marka, möhür (*məhsul və məmulat üzərində*)

مارگزیده [margəzide] ilan sancmış; مثل ~ çox narahat, iztirab çəkən

مارگیر [margir] ilan tutan; ilan ovsunlayan

مارماهی [marmahi] ilanbalığı

مارمولک [marmulək] 1) kərtənkələ; 2) *dan.* hiylədər, məkrli...

مازاد [mazad] artıq qalan, artıq, qalıq

ماساژ [masaj] masaj; (کردن) دادن ~ masaj etmək

ماسبق [masəbəğ] keçmiş, ötüb-keçmiş, olmuş; qabaqkı, bundan əvvəlki; عطف به ~ keçmişə müraciət

ماست [mast] qatıq; کیسه ای ~ süzmə qatıq; ◊ به دهان مایه کردن ~ ağzına su alıb oturmaq; ماستها را کیسه کردن qorxmaq; quyruğunu qısmaq; ol çökmək; از سفیدی ~ تا سیاهی ذغال hər şey; iynədən sapa qədər

ماست بندی [mastbəndi] 1) qatıq çalma, qatıq hazırlama; 2) süd məhsulları sexi

ماست مالی [mastmali] ört-basdır etmə, üstünü malalama; **شدن** ~ ört-basdır olunmaq; **کردن** ~ ört-basdır etmək

ماسک [mask] maska; **گاز** ~˙ əleyhqaz; **زدن** ~ maska taxmaq; maskalanmaq, ikiüzlülük etmək; ◊ **از** ~ **چهر˙ کسی برداشتن** birinin maskasını götürmək; birinin iç üzünü açıb göstərmək

ماسه [mase] narın qum

ماسه زار [masezar] qumluq, qumluq yer

ماسیدن [masidən] 1) bərk olmaq, qatılaşmaq, qəlizləşmək; 2) soyumaq, buzlamaq; 3) baş tutmaq, alınmaq; faydası olmaq

ماشاء الله [maşa'əllah] 1) *n.* maşallah, afərin, əhsən; 2) Allah qorusun; pis gözdən iraq

ماشه [maşe] 1) tətik (*tüfəngdə*); 2) maşa

ماشی [maşi] tünd-yaşıl, lobya dənəsi rəngi

ماشین [maşin] 1) maşın; dəzgah; **تحریر** ~˙ yazı makinası; **جوجه کشی** ~˙ inkubator; 2) avtomaşın, avtomobil; **باری** ~˙ yük maşını; **سواری** ~˙ minik maşını; **کردن** ~ a) makinada yazmaq; b) saqqal və ya saçı qırxmaq (*üzqırxanla*); c) tikmək (*paltartikən maşında*); **مثل** ~ **کار کردن**˙ dəqiq və nizamla işləmək

ماشین آلات [maşinalat] maşın (*dəzgah*) hissələri

ماشین ساز [maşinsaz] maşınqayıran

ماشین سازی [maşinsazi] maşınqayırma; dəzgahqayırma; ~ **کارخانه**˙ maşınqayırma zavodu

ماشین نویس [maşinnevis] makinaçı

ماشین نویسی [maşinnevisi] makinada yazma; makinaçılıq

ماشینی [maşini] maşına aid olan; 2) dəzgahda düzəldilmiş (*tikilmiş, yazılmış*); 3) maşın kimi

ماضی [mazi] 1) keçmiş; 2) *qram.* keçmiş zaman; **استمراری** ~˙ bitməmiş keçmiş; **التزامی** ~˙ keçmiş zamanın iltizam şəkli, uzaq keçmiş zaman; **بعید** ~˙ uzaq keçmiş; **مطلق** ~˙ şühudi keçmiş; **نقلی** ~˙ nəqli keçmiş

مافات [mafat] itirilmiş, əldən verilmiş, əldən getmiş; **جبران** ~ **کردن**˙ itirilmişin yerini doldurmaq, əvəzini çıxmaq, ödəmək

مافوق [mafouğ] 1) üstün (*vəzifəyə görə, dərəcəyə görə*); 2) yuxarı; ~˙ **تصور** təsəvvürolunmaz; ◊ **صوت** ~˙ ultrasəs; səsdən sürətli

ماقبل [mağəbl] qabaqkı, keçmiş, əvvəlki, keçən; **تاریخ** ~˙ tarixdən qabaqkı, tarixdən əvvəlki; **در دوران**˙ ~ keçmiş zamanlarda

ماکارونی [makaroni] makaron

ماکول [mə'kul] yeməli, yeyilməli; ~ **غیر**˙ yeyilməyən

ماکولات [mə'kulat] ərzaq, ərzaq malları

ماکیان [makiyan] toyuq, ev toyuğu

مال [mal] *c.* **اموال** [əmval] 1) var-dövlət, sərvət; 2) mal-qara, qaramal; **تحصیل** ~ **کردن**˙ var-dövlət yığmaq, sərvət yığmaq

مال الاجاره [malolecare] icarə haqqı, kirayə haqqı

مال التجاره [malottecare] əmtəə, mal, ticarət əmtəəsi

مالامال [malamal] dolu, lap dolu; **شدن** ~ dolmaq

مالاندن [malandən] 1) sürtmək, yaxmaq, çəkmək; 2) tənbeh etmək; 3) öhdəsindən gəlmək, məğlub etmək

مال اندوز [maləndüz] 1) var-dövlət yığan, pulpərəst; 2) tamahkar, simic, mənfəət güdən

مآل اندیش [məaləndiş] uzaqgörən; tədbirli, ehtiyatlı

مآل اندیشی [məaləndişi] uzaqgörənlik; ehtiyat, ehtiyatlılıq

مالدار [maldar] 1) varlı, dövlətli; 2) maldar, heyvandar

مال دوست [maldust] 1) tamahkar, acgöz, simic; 2) pulpərəst, malpərəst

مال دوستی [maldusti] 1) tamahkarlıq, acgözlük, simiclik; 2) pulpərəstlik, malpərəstlik

مال رو [malrou] yük heyvanları gedən yol, cığır

مالش [maleş] 1) sürtmə; sürtünmə; 2) ovma, ovxalama, masaj; 3) tənbeh, danlaq, cəzalandırma; **دادن** ~ a) sürtmək; b) ovmaq; c) tənbeh etmək, cəzalandırmaq; ◊ **رفتن دل**˙ ~ a) mədədə ağrı hiss etmək; b) ac olmaq; **دلم** ~ **می رود** acından ürəyim gedir; **رفتن دل کسی برای چیزی**˙ ~ bir şey üçün ürəyi getmək, sinov getmək

مال فروش [malforuş] mal-qara satan, mal-qara alverçisi

مالک [malek] 1) mülkədar; 2) sahib, yiyə

مالکیت [malekiyyət] 1) sahiblik, yiyəlik; 2) mülkiyyət; **خصوصی** ~˙ xüsusi (*şəxsi*) mülkiyyət; **دولتی** ~˙ dövlət mülkiyyəti

مال مردم خور [malemərdomxor] 1) başqasının malını mənimsəyən, başqasının pulunu yeyən; 2) dələduz, fırıldaqçı

مرتکب [mərtəkeb] 1) yanlış hərəkət edən, pis iş görən; 2) müqəssir, günahkar; ~ **چیزی شدن** yanlış hərəkət etmək, pis iş görmək; ~ **جرم شدن** cinayət törətmək

مرثیه [mərsiye] *c.* **مراثی** [mərasi] *ədəb.* mərsiyə

مرثیه خوان [mərsiyexan] mərsiyəxan, mərsiyə oxuyan

مرجع [mərcə'] *c.* **مراجع** [mərace'] 1) müraciət olunan şəxs və ya idarə; 2) rəsmi şəxs; rəsmi orqan; 3) idarə, müəssisə

مرحله [mərhələ] *c.* **مراحل** [mərahel] mərhələ, pillə, dərəcə

مرحمت [mərhəmət] *c.* **مراحم** [mərahem] mərhəmət, lütf, şəfqət, rəhm

مرحوم [mərhum] mərhum, vəfat etmiş, dünyasını dəyişmiş

مرخص [mərəxxəs] buraxılmış, azad olunmuş, icazə verilmiş; ~ **شدن** buraxılmaq, azad olmaq; ~ **کردن** buraxmaq, azad etmək, icazə vermək

مرخصی [mərəxxəsi] məzuniyyət; **به ~ رفتن** məzuniyyətə getmək

مرد [mərd] 1) kişi; 2) mərd, igid, qorxmaz, cəsarətli; 3) adam, insan; ~ **کار** bacarıqlı adam; ~ **و مردانه** mərd-mərdanə, igidcəsinə, cəsarətlə

مرداب [mordab] bataqlıq

مرداد [mordad] mordad (*İran şəmsi ilinin beşinci ayı: 23 iyul-22 avqusta uyğun gəlir*)

مردار [mordar] 1) cəmdək, leş; 2) murdar, natəmiz

مردانگی [mərdanegi] 1) mərdlik, cəsarət, igidlik; 2) alicənablıq, xeyirxahlıq

مردانه [mərdane] 1) kişiyə məxsus, kişi üçün; ~ **کفش** kişi ayaqqabısı; 2) mərdcəsinə, kişi kimi, cəsarətlə, qorxmadan; 3) cəsarətli, qorxmaz

مردد [mərəddəd] tərəddüd edən, şübhə edən

مردم [mərdom] camaat, xalq, insanlar

مردم آزار [mərdomazar] mərdimazar, camaatı incidən; zalım, qəddar

مردم آزاری [mərdomazari] mərdimazarlıq, camaatı incitmə; zalımlıq, qəddarlıq

مردم دار [mərdomdar] 1) ədəb-ərkanlı, nəzakətli, tərbiyəli; 2) mehriban, ünsiyyətcil, adamayovuşan

مردم سالاری [mərdomsalari] demokratiya, xalq hakimiyyəti

مردم شناس [mərdomşenas] 1) antropoloq; 2) etnoqraf; 2) təcrübəli (*insanları tanımaqda*)

مردم شناسی [mərdomşenasi] 1) antropologiya; 2) etnoqrafiya; 3) adamları tanıma

مردمک [mərdomək] bəbək; ~ **چشم (دیده)** göz bəbəyi

مردمی [mərdomi] 1) insanlıq, insanpərvərlik; 2) ədəb, mərifət, nəzakət

مردن [mordən] *k.* **میر** [mir] ölmək, vəfat etmək

مردنی [mordəni] 1) ölməli; ölən, ölüm ayağında olan; 2) çox arıq, çox zəif

مردود [mərdud] rədd edilmiş, qovulmuş; qəbul edilməmiş

مرده [morde] **مردن** *f.-nin k.z.f.sf.*; 1) ölü; 2) ölmüş; ◊ ~ **چیزی بودن** bir şeyin dəlisi olmaq, bir şeyi çox istəmək; ~ **کسی بودن** birinə vurulmaq, birinin dərdindən ölmək

مرده دل [mordedel] qəmli, kədərli

مرده شو [mordeşu] *bax* **مرده شوی**

مرده شور [mordeşur] *bax* **مرده شوی**

مرده شوی [mordeşuy] mürdəşir, ölüyuyan; ◊ **مرده شویش ببرد** üzünü mürdəşir yusun!

مردی [mərdi] 1) mərdlik, cəsarət, igidlik; 2) alicənablıq, xeyirxahlıq

مرز [mərz] 1) sərhəd, sərhəd xətti; 2) hədd, hüdud; 3) ölkə, ərazi

مرزبان [mərzban] sərhədçi, sərhəd keşikçisi

مرزبانی [mərzbani] sərhədi qoruma, sərhəddə keşik çəkmə

مرزدار [mərzdar] *bax* **مرزبان**

مرزنگوش [mərzənquş] *bot.* mərzə, dağ reyhanı

مرزوبوم [mərzobum] ölkə, diyar; torpaq; sərhəd

مرزه [mərze] *bot.* kəklikotu, kəkotu

مرسل [morsəl] göndərilmiş; elçi; peyğəmbər

مرسوم [mərsum] 1) adi, adət halına düşmüş, adiləşmiş; 2) adət, vərdiş

مرشد [morşed] mürşid (*dini rəhbər*); təriqət başçısı, şeyx

مرصع [morəssə'] qiymətli daşqaşla bəzədilmiş

مرض [mərəz] *c.* **امراض** [əmraz] xəstəlik

مرطوب [mərtub] rütubətli, nəmli, nəm; ~ **هوای** rütubətli hava

مرعی [mər'i] riayət edilmiş, əməl edilmiş; yerinə yetirilmiş; ~ **داشتن** riayət etmək; yerinə yetirmək

مرغ [morğ] 1) quş; ~ **خانگی** toyuq, ev quşu; ~ **سلیمان** hüd-hüd; 2) toyuq; ~ **یک پا دارد** *ata. söz.* kişinin sözü bir olar; ~ **پخته خنده اش می گیرد** bişmiş toyuğun gülməyi gəlir

مرغابی [morğabi] ördək

مرغداری [morğdari] quşçuluq, toyuqçuluq

مرغدانی [morğdani] toyuq hini

مرغزار [mərğzar] çəmən, çəmənlik

مرغ زبان [morğzəban] boşboğaz, çərənçi

مرغک [morğək] cücə, quş balası, balaca quş

مرغوا [morğva] bəd fal, bəd əlamət (*quşların uçuşundan müəyyənləşdirilir*)

مرغوب [mərğub] bəyənilən, keyfiyyətli, çox işlənən; ~ **غیر** bəyənilməyən, keyfiyyətsiz, az işlənən

مرفه [moröffəh] rahat, rahat yaşayan, təmin olunmuş

مرفه الحال [moröffəholhal] rahat yaşayan; xoşbəxt; təmin olunmuş

مرفین [morfin] morfi (*ağrıkəsici narkotik maddə*)

مرقد [mərğəd] *c.* **مراقد** [mərağed] qəbir, məzar

مرقوم [mərğum] yazılmış; ~ **داشتن (کردن)** yazmaq; ~ **شدن** yazılmaq

مرکب [mərkəb] 1) at; 2) minik, minik heyvanı (*dəvə, at, eşşək və s.*); 3) gəmi; ~ **دوانیدن (راندن)** çapmaq, at çapmaq

مرکب [morəkkəb] I 1) təşkil olunmuş, ibarət olan, qatılmış, qarışdırılmış, düzəldilmiş; 2) *qram.* mürəkkəb; ~ **جمله** mürəkkəb cümlə; 3) mürəkkəb, dolaşıq, qarışıq; ~ **بودن** təşkil olunmaq, ibarət olmaq

مرکب [morəkkəb] II mürəkkəb (*yazı üçün rəngli maye, boya*); ~ **چاپ** tuş, mətbəə mürəkkəbi

مرکبات [morəkkəbat] sitrus meyvələri

مرکز [mərkəz] *c.* **مراکز** [mərakez] 1) mərkəz; ~ **دایره** dairənin mərkəzi; 2) paytaxt

مرکزگرا [mərkəzgəra] *fiz.* mərkəzəqaçan

مرکزگزین [mərkəzqəzin] *fiz.* mərkəzdənqaçma

مرکزیت [mərkəziyyət] mərkəziyyət, mərkəzləşmə, mərkəzləşdirmə

مرگ [mərg] ölüm; ~ **طبیعی** təbii ölüm; ~ **و میر** tələfat, qırğın; ~ **بر دشمنان!** düşmənlərə ölüm! ◊ ~ **کسی من (ما)** mən ölüm (*and*); ~ **مکش** a) nazın məni öldürdü! b) çox nazlı-qəmzəli və ədalı xanım

مرگبار [mərgavər] *bax* **مرگ آور**

مرگبار [mərgbar] 1) məhvedici, dağıdıcı, öldürücü, ölümsaçan; ~ سلاح öldürücü silah; 2) müdhiş, dəhşətli, dəhşətə gətirən; ~ سکوت dəhşətli sükut

مرمت [mərəmmət] təmir, təmir etmə, düzəltmə; شدن ~ təmir olunmaq, düzəldilmək; کردن ~ təmir etmək, düzəltmək

مرمر [mərmər] mərmər; ~ سنگ mərmər daş; سبز ~ malaxit

مرمری [mərməri] 1) mərmərdən düzəlmiş; ~ مجسمه mərmər heykəl; 2) mərmər kimi ağ

مرمرین [mərmərin] *bax* مرمری

مرموز [mərmuz] sirli, anlaşılmaz, müəmmalı

مرمی [mərmi] mərmi; güllə

مروارید [morvarid] mirvari; ~ بستن mirvari taxmaq, paltara mirvari tikmək (*yapışdırmaq*); ◊ ناسفته ~ a) bakirə qız; b) orijinal ifadə; ~ آب *bax* آب مروارید

مروت [morovvət] 1) mərhəmət, rəhm, şəfqət, ürəyiyumşaqlıq; 2) mərdlik, alicənablıq, xeyirxahlıq; 3) insanpərvərlik, humanizm

مروج [moravvec] təbliğatçı, təbliğ edən, yayan

مرور [morur] 1) keçmə, getmə, gediş; ~ و عبور gediş-gəliş; به ~ زمان zaman keçdikcə; 2) vərəqləyərək göz gəzdirmə (*kitabı*); səthi baxma; کردن ~ a) keçmək, ötmək, getmək; b) vərəqləyərək göz gəzdirmək (*kitabı*); səthi baxmaq

مرهم [mərhəm] *c.* مراهم [mərahem] məlhəm, yara üzərinə qoyulan və ya yaxılan dərman; نهادن ~ (گذاشتن) məlhəm qoymaq, yaxa üzərinə dərman qoymaq və ya yaxmaq; ◊ جان ~ təsəlli; can dərmanı

مرهون [mərhun] 1) minnətdar; 2) girov qoyulmuş; لطف کسی بودن ~ birinə minnətdar olmaq

مری [meri] *anat.* qida borusu

مرید [morid] 1) mürid (*mürşidin şagirdi, davamçısı; bax* مرشد); 2) ardıcıl, məsləkdaş, tərəfdar

مریزاد [mərizad] *n.* afərin! əhsən! ~ دست afərin! əhsən! əlinə sağlıq; گفتن ~ əhsən demək, tərifləmək

مریض [məriz] *c.* مرضا // مرضی [mərza] xəstə, naxoş; شدن (گردیدن) ~ xəstələnmək

مریض داری [mərizdari] xəstəyə baxma (*qulluq etmə*); کردن ~ xəstəyə baxmaq (*qulluq etmək*)

مرنوس [mər'us] tabe, tabe olan (*işçi*); işçi ; ~ رئیس و رئیس və işçi

مرنوسی [mər'usi] tabe olma, tabeçilik

مرئی [mər'i] görünən, müşahidə olunan

مزاج [məzac // mezac] 1) bədən, orqanizm; 2) sağlamlıq, səhhət; با ~ من سازگار نیست mənə düşmür, orqanizmimə pis təsir edir; 3) temperament, təbiət; ~ عصبی tez özündən çıxan, tez əsəbləşən

مزاح [məzah // mezah] zarafat; به ~ zarafatla; کردن ~ zarafat etmək

مزاحم [məzahem] 1) zəhmət verən; 2) mane olan; شدن ~ a) zəhmət vermək; b) mane olmaq; ببخشید ~ شما شدم bağışlayın, sizə zəhmət verdim

مزاحمت [məzahemət] *c.* مزاحمات [məzahemat] 1) zəhmət vermə; 2) mane olma

مزار [məzar] 1) məzar, qəbir; 2) ziyarətgah

مزارستان [məzarestan] qəbiristan, qəbiristanlıq

مزاوجت [mozavecət] *bax* مزاوجه

مزاوجه [mozavece] evlənmə; ~ کردن evlənmək, ərə getmək

مزایا [məzaya] *t.* مزیت

مزایده [mozayede] *c.* مزایدات [mozayedat] auksion, hərrac; به ~ گذاشتن auksiona çıxarmaq, hərraca qoymaq

مزبور [məzbur] adı çəkilmiş; yuxarıda göstərilən; شخص ~ adı çəkilən şəxs, haqqında danışılan şəxs

مزخرف [mozəxrəf] 1) mənasız, boş, cəfəng (*söz*); 2) nalayiq, layiqsiz, yaraşmayan (*iş, söz*); گفتن ~ mənasız danışmaq, boş danışmaq

مزخرف گویی [mozəxrəfquyi] mənasız danışma, cəfəngiyat demə

مزد [mozd] muzd, əməkhaqqı; بی ~ müftə, ödənişsiz; دادن (پرداختن) ~ muzd vermək, əməkhaqqı vermək; گرفتن ~ muzd almaq, əməkhaqqını almaq; دست کسی را دادن ~ a) əməkhaqqını ödəmək; b) edilən yaxşılığa pisliklə cavab vermək

مزدور [mozdur] muzdur, muzdla işləyən

مزدوری [mozduri] muzdurluq, muzdla işləmə

مزدی [mozdi] müqavilə ilə iş

مزرعه [məzrəe] *c.* مزارع [məzare'] tarla, əkin yeri

مزمزه [məzməze] dadma, dequstasiya; کردن ~ dadmaq, dequstasiya etmək

مزمن [mozmen] xroniki; امراض ~ (بیماریهای) xroniki xəstəliklər

مزمنه [mozmene] *bax* مزمن

مزون [mezon] modalar atelyesi; dərzi dükanı

مزه [məze] 1) dad, tam; 2) qəlyanaltı, çərəz; چشیدن (کردن) ~ dadmaq; داشتن ~ dadlı olmaq; ◊ دهان ~ کسی را فهمیدن birinin niyyətini başa düşmək

مزه دار [məzedar] 1) dadlı, ləzzətli, xoş; 2) maraqlı

مزیت [məziyyət] *c.* مزایا [məzaya] [illegible] داشتن ~ [illegible] a) [illegible]

مزید [məzid] əlavə, artıq; artım, artırma; ! ~ مرحمت عالی lütfünüz çox olsun! بر این ~ bundan əlavə; شدن ~ artmaq, əlavə olunmaq; کردن ~ artırmaq, əlavə etmək

مزین [mozəyyən] bəzəkli, bəzədilmiş, zinətləndirilmiş; شدن ~ bəzədilmək; کردن (ساختن) ~ bəzəmək, bəzək vurmaq

مژدگانی [mojdeqani] muştuluq, xoş xəbərə görə verilən hədiyyə

مژده [mojde] müjdə, muştuluq xoş xəbər; دادن (رساندن) ~ xoş xəbər vermək

مژده رسان [mojderəsan // mojderesan] muştuluqçu, muştuluq verən xoş xəbər gətirən

مس [mes] mis

مسابقه [məsabeğe] yarış, yarışma دادن ~ yarışmaq , yarış keçirmək

مساح [məssah] yerölçən, geodeziyaçı

مساحت [məsahət] sahə, ölçü (*yerin, torpağın*); کردن ~ ölçmək (*yeri, sahəni*)

مساحی [məssahi] yer ölçmə; کردن ~ yer ölçmək; sərhəd çəkmək

مساعد [mosaed] əlverişli, yararlı, uyğun; müvafiq; ~ شرایط əlverişli şərait

مساعدت [mosaedət] kömək, yardım; himayə; ~ کردن kömək etmək, yardım etmək; himayə etmək

مساعی [məsai] çalışmalar, səylər, cəhdlər

مسافت [məsafət] 1) məsafə; 2) fasilə

مسافت پیما [məsafətpeyma] *bax* مسافت سنج

مسافت سنج [məsafətsənc] spidometr

مسافر [mosafer] 1) səfərə gedən, yolçu; səfərdən qayıdan; 2) sərnişin

مسافربر [mosaferbər] *bax* مسافربری

مسافربری [mosaferbəri] sərnişindaşıma; ~ بنگاه sərnişindaşıma şirkəti

مسافرت [mosaferət] səfər, səyahət; به ~ رفتن səfərə getmək, səyahət etmək

مسافرخانه [mosaferxane] mehmanxana, qonaq evi

مسالمت [mosalemət] 1) sülhsevərlik; 2) barışıq, barışma, sülh; ~ کردن (نمودن) sülh etmək, barışmaq

مسالمت امیز [mosalemətamiz] 1) sülhsevər, sülhpərpər; 2) asudə, dinc, rahat, sakit, ~ همزیستی dinc yanaşı yaşama

مسامحه [mosamehe] diqqətsizlik, səhlənkarlıq, başısoyuqluq; laqeydlik; ~ کردن diqqətsizlik etmək, səhlənkarlıq etmək

مسامحه کار [mosamehekar] diqqətsiz, səhlənkar, başısoyuq, laqeyd

مساوات [mosavat] bərabərlik (*cəmiyyətdə*)

مساوی [mosavi] bərabər, eyni, uyğun; adekvat; ~ به bərabər olmaq, eyni olmaq, uyğun olmaq; ~ شدن bərabərləşmək, eyniləşmək; ~ کردن bərabərləşdirmək, uyğunlaşdırmaq

مسبب [mosəbbeb] 1) bais, səbəb, amil; 2) səbəbkar; ~ شدن a) bais olmaq, səbəb olmaq; b) qızışdırmaq, təhrik etmək

مست [məst] məst, kefli; sərxoş; ~ شدن məst olmaq; ~ کردن a) məst etmək; b) məst olmaq; ◊ ~ و ملنگ a) kefinəqulu, kefcil; b) xoşhal, şad, kefikök; ~ خواب بودن yuxusuzluqdan keyləşmək

مستأجر [mostə'cer] kirayənişin; icarəyə götürən

مستأصل [mostə'səl] yazıq, biçarə, bədbəxt; ~ شدن məcbur olmaq, çarəsiz olmaq; aciz olmaq, bədbəxt olmaq; ~ کردن məcbur etmək; bədbəxt etmək

مستانه [məstane] 1) sərxoşcasına, xumarlana-xumarlana; 2) məst kimi, sərxoş kimi

مستبد [mostəbed(d)] qəddar, zülmkar; despot, diktator

مستثنا [mostəsna] istisna, müstəsna

مستثنی [mostəsna] *bax* مستثنا

مستثنیات [mostəsnəyat] istisnalar, istisna halları

مستجاب [mostəcab] qəbul olunmuş; bəyənilmiş (*dua, xahiş*); دعای ~ شد او onun duası qəbul olundu

مستحب [mostəhəb(b)] 1) arzu olunan, istənilən; 2) bəyənilən, tərifli; 3) şəriətlə icazə verilən

مستحسن [mostəhsən] tərifli, tərifəlayiq; bəyənilən, xoşa gələn

مستحضر [mostəhzər] xəbərdar, ~ خبر کردن (شدن) xəbər vermək, məlumatlandırmaq, diqqətə çatdırmaq

مستحق [mostəhəğ(ğ)] 1) layiq, layiq olan; 2) möhtac, ehtiyacı olan; kasıb, yoxsul

مستحکم [mostəhkəm] möhkəm, bərk, davamlı; ~ شدن möhkəmlənmək; ~ کردن möhkəmlətmək

مستخدم [mostəxdəm] qulluqçu, işçi; ~ دولت dövlət qulluqçusu, dövlət işçisi

مستخرج [mostəxrəc] bir şeydən çıxarılmış, alınmış, əldə edilmiş, hasil edilmiş; ~ شدن bir şeydən çıxarılmaq, əldə edilmək; ~ ساختن bir şeydən çıxarmaq, əldə etmək

مستدام [mostədam] daimi, həmişəlik, əbədilik

مستدعی [mostəd'i] xahiş edən, rica edən, istəyən

مستدل [mostədəl(l)] əsaslandırılmış, dəlilli, sübutlu, inandırıcı; sübut edilmiş

مسترد [mostərəd(d) // mostəred(d)] qaytarılmış, geri qaytarılmış; ~ داشتن (کردن، نمودن) qaytarmaq, geri qaytarmaq

مستزاد [mostəzad] 1) *ədəb.* müstəzad; 2) əlavə olunmuş, artırılmış; 3) böyüdülmüş

مستشار [mostəşar] məsləhətçi; müşavir

مستشرق [mostəşreğ] şərqşünas

مستضعف [mostəz'əf] bədbəxt, biçarə, zəif; imkansız, yoxsul

مستطاب [mostətab] çox hörmətli, möhtərəm, əziz

مستطیل [mostətil] düzbucaqlı

مستعار [mostəar] 1) məcazi məna; işlənən (*söz*); məcazi; ~ معانی məcazi məna; 2) alınma, götürülmə; ~ اسم تخلص təxəllüs

مستعجل [mostə'cəl] 1) keçib-gedən, müvəqqəti; dəyişən, qeyrisabit; 2) təcili, sürətli, çox tələsik

مستعد [mostəed] 1) istedadlı, bacarıqlı, qabiliyyətli; 2) hazır; ~ بودن hazır olmaq; ~ کردن hazırlaşdırmaq (*bir işə*)

مستعفی [mostə'fi] istefa vermiş, istefaya getmiş; ~ شدن istefa vermək

مستعمره [mostə'mərə] *c.* مستعمرات [mostə'mərat] müstəmləkə

مستعمل [mostə'məl] 1) ümumişlək, hamı tərəfindən işlədilən; işlənən; ~ غیر işlənməyən, az işlənən; 2) işlədilmiş, köhnə; ~ شدن a) işlənilmək; b) köhnəlmək; ~ کردن a) işlətmək; b) köhnəltmək

مستغرق [mostəğrəğ] 1) qərq olmuş, suda batmış; 2) xəyala dalmış, fikrə qapılmış; ~ شدن a) qərq olmaq; b) xəyala dalmaq

مستغنی [mostəğni] ehtiyacı olmayan, təmin olunmuş; varlı; ~ شدن təmin olunmaq; varlı olmaq; ehtiyacı olmamaq; ~ کردن ehtiyacı təmin etmək, ehtiyacı ödəmək

مستفاد [mostəfad] 1) istifadə edilmiş, fayda götürülmüş; 2) başa düşülmüş, anlaşılmış; 3) əldə edilmiş, qazanılmış; ~ شدن (گشتن) başa düşülmək, anlaşılmaq, məlum olmaq; از گفتار او چنین ~ می شود که... onun dediyindən belə çıxır (*anlaşılır*) ki...

مستفید [mostəfid] istifadə edən, faydalanan; fayda tələb edən; ~ شدن istifadə etmək, fayda götürmək

مستقبل [mostəğbəl] 1) gələcək; 2) *qram.:* ~ زمان gələcək zaman

مستقبل [mostəğbel] qarşılayan

مستقر [mostəğər(r)] bərqərar olma, möhkəmlənmə; شدن ~ bərqərar olmaq, möhkəmlənmək; (ساختن) کردن ~ bərqərar etmək, möhkəmləndirmək

مستقل [mostəğel(l)] 1) müstəqil, azad; ~ کشور müstəqil dövlət; 2) ayrı, sərbəst

مستقلا [mostəğelən] müstəqil olaraq, müstəqil şəkildə; azad şəkildə

مستقیم [mostəğim] 1) düz; ~ خط düz xətt; 2) birbaşa, vasitəsiz, bilavasitə; 3) həqiqi, gerçək, doğru

مستقیما [mostəğimən] düzünə, birbaşa, vasitəsiz olaraq

مستکبر [mostəkbər] təkəbbürlü, iddialı, heç kəsi bəyənməyən

مستلزم [mostəlzem] 1) lazım olan, lazımi, gərəkli, zəruri; 2) şərtləndirən, səbəb olan

مستمر [mostəmər(r) // mostəmer(r)] 1) ardıcıl, ardı kəsilməyən, davamlı; daima, həmişə; 2) gündəlik, cari; ~ مخارج gündəlik xərclər; به ~ طور fasiləsiz olaraq, həmişə

مستمری [mostəmərri // mostəmerri] 1) təqaüd, pensiya; 2) stipendiya

مستمری بگیر [mostəmərribəğir // mostəmerribəğir] pensioner, təqaüdçü

مستمسک [mostəmsək // mostəmsek] 1) bəhanə, səbəb; 2) dəlil, sübut, əsas; قرار دادن ~ a) bəhanə etmək; b) dəlil gətirmək

مستمع [mostəmə'] dinləyən, dinləyici; qulaq asan, eşidən; آزاد ~ azad dinləyici

مستمند [mostəmənd // mostmənd] 1) kasıb, yoxsul; yazıq, biçarə, zavallı; 2) qəmli, kədərli, bədbəxt

مستمندی [mostəməndi // mostməndi] 1) kasıblıq, yoxsulluq; ehtiyac; 2) qəm, qüssə, kədər

مستند [mostənəd] 1) əsaslanan, əsaslandırılan, istinad edilən; 2) sənədli; dəlilli, sübutlu; ~ فیلم sənədli film; بر این ~ buna əsasən

مستندسازی [mostənedsazi] 1) lazımi sənədlər hazırlama; 2) sənədli film çəkmə

مستوجب [mostouceb] layiq, layiq olan; جزا ~ cəzaya layiq; چیزی ~ بودن nəyəsə layiq olmaq

مستور [məstur] 1) gizli, gizlədilmiş; 2) qapalı, örtülü; 3) təmiz, pak, vicdanlı; günahsız; شدن ~ a) gizlənmək; b) qapalı olmaq, örtülü olmaq; کردن ~ a) gizlətmək; b) üstünü örtmək, üstünü qapatmaq

مستوری [məsturi] gizlilik, gizli olma, məxfilik

مستولی [mostouli] 1) fəth edən, zəbt edən; alan; 2) yayılan, bürüyən, əhatə edən; شدن ~ a) fəth etmək; əldə etmək, mənimsəmək; b) yayılmaq, bürümək; غضب بر وی ~ شد qəzəb ona hakim kəsildi

مستوی [mostəvi] müstəvi, düz, hamar; dayaz; ~ سطح hamar səth (*üz*); شدن ~ hamar olmaq; dayazlaşmaq; کردن ~ hamarlaşdırmaq; dayazlaşdırmaq

مستهلک [məstəhlək] 1) ödənmiş, ödənilmiş (*borc*); 2) məhv edilmiş, qırılmış, tələf edilmiş; شدن ~ a) ödənilmək (*borc*); b) məhv edilmək, tələf edilmək; کردن ~ ödəmək (*borcu*); b) məhv etmək, tələf etmək

مستی [məsti] məstlik, keflilik, sərxoşluq

مستی آور [məstiavər] kefləndirici

مستی بخش [məstibəxş] *bax* مستی آور

مسجد [məsced] *c.* مساجد [məsaced] məscid; جامع ~ böyük məscid, cümə namazı qılmaq üçün məscid

مسجع [məsəccə'l *ədəb.* nəsr; *bax* سجع

مسح [məsh] *din.* məsh (*dəstəmaz alarkən yaş əli alına və ayağa sürtmə*)

مسخر [məsəxxər] tutulmuş, zəbt olunmuş, ələ keçirilmiş, işğal edilmiş

مسخرگی [məsəxəregi] 1) zarafat; əylənmə; 2) təlxəklik, oyunbazlıq; کردن ~ a) zarafat etmək; b) təlxəklik etmək

مسخره [məsxəre] istehza, məsxərə, ələ salma; کردن ~ ələ salmaq, məsxərəyə qoymaq

مسدس [məsəddəs] 1) *ədəb.* müsəddəs; 2) altıgüşəli

مسدود [məsdud] bağlı, qapalı, dondurulmuş (*hesab*); کردن ~ bağlamaq; dondurmaq (*hesabı*); شدن ~ bağlanmaq; dondurulmaq

مسرت [məsərrət] sevinc, şadlıq, şənlik

مسرت انگیز [məsərrətəngiz] sevindirən, şadlandıran

مسرت بخش [məsərrətbəxş] *bax* مسرت انگیز

مسرور [məsrur] şad, şən; شدن ~ şadlanmaq, şənlənmək; ساختن ~ şadlandırmaq, şənləndirmək

مسروقه [məsruğe] oğurlanmış; لوازم ~ oğurlanmış əşyalar

مسری [mosri] keçici, yoluxucu; امراض (بیماریهای) ~ yoluxucu xəstəliklər

مسطور [məstur] yazılmış, yazılı

مسطوره [məsture] 1) *bax* مسطور; 2) *c.* مسطورجات [məsturecat] mal nümunəsi

مسعود [məs'ud] xoşbəxt, bəxtəvər

مسکن [məskən] *c.* مساکن [məsaken] məskən, yurd, yaşayış yeri

مسکن [məsəkkən] sakitləşdirici, ağrıkəsici; دارو ~ ağrıkəsici dərman

مسکنت [məskənət] kasıblıq, yoxsulluq; dilənçilik; ehtiyac

مسکون [məskun] yaşayış yeri; əhali yaşayan yer; غیر ~ əhali yaşamayan yer; شدن ~ məskunlaşmaq, yerləşmək; کردن ~ məskunlaşdırmaq

مسکین [meskin] *c.* مساکین [məsakin] yoxsul, möhtac; yazıq, bədbəxt

مسگر [mesgər] misgər, mis məmulatı düzəldən usta

مسلح [məsəlləh] silahlı, silahlanmış; نیروهای ~ silahlı qüvvələr; شدن ~ silahlanmaq; کردن ~ silahlandırmaq

مسلخ [məsləx] sallaqxana

مسلسل [məsəlsəl] I pulemyot; سنگین ~ ağır pulemyot; سبک ~ yüngül pulemyot; به ~ بستن pulemyotdan atəş açmaq, pulemyotdan atəşə tutmaq

مسلسل [məsəlsəl] II 1) bir-birinə bağlanmış, bir-birinə qoşulmuş, silsiləli; 2) fasiləsiz

مسلط [məsəllət] 1) yiyələnmiş, yaxşı bilən; 2) ələ keçirilmiş, tabe edilmiş; بودن ~ a) yiyələnmək, yaxşı bilmək; b) ələ keçirmək, özünə tabe etmək; شدن ~ a) yaxşı bilmək; b) qalib gəlmək, ələ keçirmək

مسلک [məslək] *c.* **مسالک** [məsalek] məslək, əqidə, fikir, ideya

مسلم [mosəlləm] qəti, şübhəsiz, yəqin

مسلم [moslem] 1) müsəlman; 2) *c.* **مسلمات** [moslemat] müsəlman qadınlar; 3) *c.* **مسلمین** [moslemin] müsəlman kişilər

مسلماً [mosəlləmən] qəti; şübhəsiz, sözsüz; yəqin

مسلمات [mosəlləmat] danılmaz həqiqətlər, aksiomalar

مسلمان [mosəlman] müsəlman; **شدن** ~ müsəlman olmaq, islam dinini qəbul etmək; ◊ **نشنود کافر** ~ **نبیند!** Allah heç kəsə göstərməsin!

مسلمانی [mosəlmani] müsəlmanlıq, müsəlman olma

مسلوب [məslub] 1) məhrum, məhrum edilmiş; 2) var-yoxu əlindən alınmış

مسلول [məslul] vərəmli, vərəm xəstəliyinə tutulmuş

مسما [mosəmma] *bax* **مسمی**

مسمار [mesmar] *c.* **مسامیر** [məsamir] mismar, mıx

مسمط [mosəmmət] 1) *ədəb.* müsəmmət; 2) yeddibucaqlı; yeddiguşəli

مسموع [məsmu'] *c.* **مسموعات** [məsmuat] eşidilmiş; **افتادن** ~ eşidilmək

مسموم [məsmum] zəhərlənmiş; **شدن** ~ zəhərlənmək; **کردن** ~ zəhərləmək

مسمومیت [məsmumiyyət] zəhərlənmə; **غذایی** ~ yemək dən zəhərlənmə; ~ (**نشانهٔ**) **علامت** zəhərlənmə əlaməti, zəhərlənmə simptomu

مسمی [mosəmma] 1) adlanan, adlandırılan; 2) adı çəkilən

مسن [mosen(n)] yaşlı, ahıl, qoca

مسند [məsnəd] *c.* **مسانید** [məsaned] 1) taxt; 2) yüksəkvəzifə; mənəvi dayaq

مسواک [mesvak] diş fırçası; **زدن** ~ diş fırçalamaq

مسود [mosəvved] qaralayan

مسوده [mosəvvəde] qaralama, mətnin qaralaması

مسیحی [məsihi] xristian, xaçpərəst

مسیحیت [məsihiyyət] xristianlıq, xaçpərəstlik

مسیر [məsir] 1) yol; istiqamət; marşrut, kurs; 2) məcra, çay yatağı

مسیل [məsil] yarğan; sel yolu

مسئله [məs'ələ] *c.* **مسائل** [məsael] // **مسایل** [məsayel] 1) məsələ, problem; mövzu; **مهم روز** ~ günün vacib məsələsi, aktual mövzu; 2) *riyaz.* məsələ

مسئول [məs'ul] məsul, məsuliyyətli; cavabdeh; ~ **غیر** məsuliyyətsiz; **بودن** ~ cavabdeh olmaq, məsul olmaq; **شدن** ~ məsuliyyəti öhdəsinə götürmək; **کردن** ~ məsul etmək, cavabdeh etmək, məsuliyyəti öhdəsinə qoymaq

مسئولیت [məs'uliyyət] məsuliyyət, cavabdehlik; **محدود** ~ məhdud məsuliyyət; **داشتن** ~ məsul olmaq, cavabdeh olmaq; **به عهده گرفتن** ~ məsuliyyəti öhdəyə götürmək

مشابه [moşabeh] oxşar, bənzər, kimi, uyğun; ~ **نتایج** oxşar (*uyğun*) nəticələr; ~ **متن دو** bir-birinə oxşar iki mətn

مشابهت [moşabehət] oxşarlıq, bənzərlik; **داشتن** ~ oxşamaq, bənzəmək

مشاجره [moşacere] mübahisə, münaqişə, konflikt; **مرزی** ~ sərhəd konfliktı; **کردن** ~ mübahisə etmək; münaqişə etmək; **کشیدن** ~ **کار به** işi konfliktə gətirib çıxarmaq

مشارک [moşarek] şərik, ortaq

مشارکت [moşarekət] şəriklik, ortaqlıq; **کردن** (**جستن، ورزیدن**) ~ iştirak etmək

مشاطه [məşşate] bəzəkçi qadın, gəlini (*qızı, qadını*) bəzəyən

مشاعره [moşaere] şeirləşmə; **کردن** ~ şeirləşmək

مشام [məşam] iy bilmə (*qabiliyyəti*); iy duyğusu

مشاور [moşaver] müşavir, məsləhətçi, məşvərətçi, konsultant

مشاوره [moşavere] *c.* **مشاورات** [moşaverat] müşavirə, məsləhət; ~ **حقوقی** hüquqi məsləhət; **کردن** ~ müşavirə etmək, məsləhətləşmək

مشاهد [moşahed] görən, müşahidəçi; şahid

مشاهده [moşahede] *c.* **مشاهدات** [moşahedat] müşahidə, görmə, tamaşa etmə; **شدن** ~ müşahidə olunmaq, görünmək; **کردن** ~ müşahidə etmək, görmək

مشاهیر [məşahir] məşhur adamlar, adlı-sanlı insanlar

مشایخ [məşayex] *t.* **شیخ**

مشایعت [moşayeət] müşayiət, yola salma, ötürmə; **کردن** ~ müşayiət etmək, yola salmaq

مشبه [moşəbbəh] *ədəb., qram.* bənzəyən, oxşayan, bənzətmə predmeti

مشبه به [moşəbbəhonbeh] *ədəb., qram.* bənzədilən, oxşadılan

مشت [moşt] 1) yumruq; 2) yumruq zərbəsi; 3) ovuc; ~ **یک** bir ovuc; **خوردن** ~ yumruqlanmaq, yumruq zərbəsi almaq, kötək yemək, kötəklənmək; **زدن** ~ yumruq vurmaq, kötəkləmək; ◊ ~ **بر درفش زدن** odla oynamaq, arı yuvasına çubuq soxmaq; ~ **و سندان** // ~ **و درفش** bir-birinə zidd, ziddiyyət

مشت افشار [moştəfşar] asanlıqla əzilən, yumşaq; asanlıqla şəklini dəyişən; ~ (**طلای**) **زر** yumşaq qızıl

مشتاق [moştağ] çox arzulayan, həsrətində olan, şövqlü, həvəsli; **بودن** ~ çox arzulamaq, həsrətində olmaq

مشتاقانه [moştağane] şövqlə, həvəslə, ehtirasla

مشتاقی [moştaği] bərk istək, çox arzulama, şiddətli ehtiras

مشتبه [moştəbeh] 1) naməlum; şübhəli; 2) səhv, yanlış; şübhələnmək; **شدن** ~ şübhələnmək, şübhəyə düşmək; **کردن** ~ şübhələndirmək, şübhəyə salmaq

مشتبه کار [moştəbehkar] çaşdıran, dolaşıq salan

مشتبه کاری [moştəbehkari] çaşdırma, dolaşıq salma

مشترک [moştərək] I müştərək, şərikli, ortaq; ümumi

مشترک [moştərək] II 1) şərik, ortaq; 2) abunəçi; **شدن** ~ abunə olmaq

مشترکاً [moştərəkən] birgə, birlikdə, bir yerdə, əlbir olaraq

مشترک المنافع [moştərəkolmənafe'] müştərək mənafeli, ortaq mənfəəti olan

مشتری [moştəri] I müştəri, alan, alıcı
مشتری [moştəri] II Yupiter (*planet*)
مشت زن [moştzən] boksçu
مشت زنی [moştzəni] 1) boks; 2) yumruq davası; yumruq döyüşü
مشتعل [moştəel] 1) yanmış, alovlanmış, alışmış, od tutmuş; 2) coşmuş, qızışmış; **شدن** ~ yanmaq, alovlanmaq; **ساختن (کردن)** ~ yandırmaq, alovlandırmaq
مشتق [moştəğ(ğ)] 1) ayrılmış, budaqlanmış, şaxələnmiş; qol, budaq, şaxə; 2) *dilç.* düzəltmə; ~ **کلمات** düzəltmə sözlər
مشتقات [moştəğğat] *dilç.* düzəltmə sözlər
مشتمال [moştmal] *bax* **مشت و مال**
مشتمالی [moştmali] *bax* **مشت و مال**
مشتمل [moştəmel] ibarət, ibarət olan, əhatə edilən; əhatə edən, özündə birləşdirən; ~ **بر سه فصل** üç fəsildən ibarət; **بودن** ~ ibarət olmaq
مشت و مال [moştomal] ovma, ovuşdurma, masaj, masaj etmə; **کردن** ~ (**دادن**) a) ovmaq, ovuşdurmaq, masaj etmək; b) kötəkləmək, tənbeh etmək
مشتهی [moştəhi] iştahalı; iştaha gətirən
مشخص [moşəxxəs] 1) məlum, müəyyən, konkret; 2) fərqli, seçilən; 3) məşhur, tanınmış; **کردن** ~ (**ساختن**) müəyyən etmək, konkretləşdirmək
مشخصات [moşəxxəsat] səciyyəvi cəhətlər, xüsusiyyətlər, əlamətlər
مشربه [məşrəbe] parç, su qabı, tayqulp
مشرف [moşərrəf] şərəfləndirən; şərəfə nail olan; başucalığı gətirən; **شدن** ~ şərəflənmək, şərəfə nail olmaq; **به خانه خدا** ~ **شدم** Allahın evini (*Məkkəni*) ziyarət etmək şərəfinə nail oldum; **کردن** ~ şərəfləndirmək
مشرق [məşreğ] şərq, gün çıxan tərəf; ~ **گشاده** açılmış səhər, çıxmış günəş
مشرق زمین [məşreğzəmin] Şərq ölkələri
مشرقی [məşreği] 1) şərqə məxsus, şərqə aid; 2) şərqli
مشرک [moşrek] bütpərəst, kafir
مشروب [məşrub] 1) içməli; 2) suvarılmış; içirdilmiş; 3) spirtli içki; **شدن** ~ suvarılmaq, doydurulmaq (*torpaq*); **کردن** ~ suvarmaq, doydurmaq (*torpağı*)
مشروح [məşrüh] geniş, müfəssəl, ətraflı; ~ **طور** **به** geniş şəkildə, ətraflı şəkildə; **کردن** ~ şərh etmək, izah etmək
مشروط [məşrut] şərtlənmiş, şərtləndirilmiş, danışılmış; ~ **بر اینکه** bir şərtlə ki, **بودن** ~ şərtlənmək, bağlı olmaq; **کردن** ~ şərtləndirmək
مشروطه [məşrute] məşrutə; konstitusiyalı; ~ **انقلاب** Məşrutə inqilabı
مشروطیت [məşrutiyyət] konstitusiyalı rejim
مشروع [məşru'] qanuni, icazə verilmiş (*şəriətlə*)
مشعشع [moş'əşə'] 1) parlaq, parıldayan, işıqlı; 2) çox gözəl
مشعل [məş'əl] *c.* **مشاعل** [məşael] məşəl
مشعلدار [məş'əldar] məşəlçi, məşəl aparan
مشغله [məşğəle] *c.* **مشاغل** [məşağel] məşğuliyyət, sənət, iş, peşə

مشغول [məşğul] məşğul; **بودن** ~ (**شدن**) məşğul olmaq; **کردن** ~ məşğul etmək, başını qarışdırmaq, əyləndirmək
مشغولیت [məşğuliyyət] 1) məşğul olma, məşğulluq; işləmə; 2) əylənmə; vaxt keçirmə
مشفق [moşfeğ] mehriban, mərhəmətli, şəfqətli, ürəyiyumşaq
مشفقانه [moşfeğane] mehribancasına, nəvazişlə, şəfqətlə
مشقت [məşəğğət] *c.* **مشقات** [məşəğğat] məşəqqət, əzab, əziyyət; ~ **کشیدن** əzab çəkmək, əziyyət çəkmək
مشقت آمیز [məşəğğətamiz] məşəqqətli, əzablı, əziyyətli
مشک [məşk] tuluq
مشک [moşk] müşk (*ceyranın göbəyindən çıxarılan ətirli maddə*); ~ **ناب** təmiz müşk
مشکبار [moşkbar] müşksaçan, ətirli, xoş iyli
مشکل [moşkel] 1) ağır, çətin; 2) çətinlik; problem; əngəl, maneə; **شدن** ~ çətinləşmək; **کردن** ~ çətinləşdirmək
مشکل پسند [moşkelpəsənd] çətin bəyənən, hər şeyi bəyənməyən; tələbkar
مشکل پسندی [moşkelpəsəndi] çətin bəyənmə; tələbkarlıq
مشکل گشا [moşkelqoşa] çətinlikləri aradan qaldıran, çətinlikləri həll edən
مشکل گشایی [moşkelqoşayi] çətinlikləri aradan qaldırma, çətinlikləri həll etmə
مشکوک [moşkuk] şübhəli, şübhə doğuran; **شدن** ~ şübhələnmək; **کردن** ~ şübhələndirmək
مشکی [meşki] qara, qapqara; **موی** ~ qapqara saç
مشکین [meşkin] 1) müşk ətirli, müşk iyi verən; 2) *bax* **مشکی**
مشگ [məşg] *bax* **مشک** [məşk]
مشگ [meşg // moşg] *bax* **مشک** [moşk]
مشگی [meşgi] *bax* **مشکی**
مشمع [moşəmmə'] 1) müşəmbə; 2) plastır, məlhəm
مشمول [məşmul] 1) yayılmış, hamıya aid olan; əhatə olunmuş; 2) əsgərlik vaxtı çatmış, çağırışçı; ~ **شدن** a) yayılmaq; aid olmaq; əhatə olunmaq; b) əsgərlik vaxtı çatmaq; ◊ ~ **لطف قرار دادن** lütf göstərmək
مشموم [məşmum] 1) ətirli, xoş iyli; 2) ətir, xoş iy
مشمئز [moşməez] nifrət edən; bezmiş; **شدن** ~ nifrət etmək, bezmək; **کردن** ~ nifrət hissi oyatmaq, bezdirmək
مشمئز کننده [moşməezkonənde] nifrətedici, nifrət doğuran
مشوب [məşub] dolaşıq, qarışıq, qarmaqarışıq (*fikir*); **شدن** ~ dolaşmaq, qarmaqarışıq olmaq (*fikir*)
مشورت [məşvərət] məşvərət, məsləhət; **کردن** ~ məsləhətləşmək
مشورتی [məşvərəti] 1) *bax* **مشورت**; 2) məşvərətçi, məsləhətçi; ~ **رأی** məşəvərətçi səs
مشوش [moşəvvəş] təşvişli, təşvişə düşmüş, həyəcanlı, pərişan; ~ **شدن** təşvişə düşmək, həyəcanlanmaq, pərişan olmaq; ~ **کردن** (**ساختن**) təşvişə salmaq, həyəcanlandırmaq, pərişan etmək
مشوق [moşəvveğ] təşviq edən; həvəsləndirən, ruhlandıran, ilham verən, şövqə gətirən

مشهود [məşhud] aşkar, aydın; müşahidə olunan, görünən; ~ بودن aşkar olunmaq, görünmək

مشهودات [məşhudat] 1) müşahidələr, təəssüratlar; 2) faktlar, hadisələr

مشهور [məşhur] məşhur, tanınmış, adlı-sanlı; ~ شدن məşhurlaşmaq, tanınmaq

مشی [məşy] 1) rəftar, davranış, hərəkət tərzi; ~ خط kurs; ~ خط اقتصادی iqtisadi kurs; 2) getmə, hərəkət etmə

مشیت [məşiyyət] iradə; istək; ~ الهی İlahi iradə

مشئوم [məş'um] məşum, uğursuz, nəhs

مصاحب [mosaheb] müsahib, həmsöhbət; ~ شدن həmsöhbət olmaq

مصاحبت [mosahebət] əlaqə, ünsiyyət, qarşılıqlı münasibət

مصاحبه [mosahebe] müsahibə, intervü; söhbət; ~ مطبوعاتی mətbuat konfransı; ~ به عمل آوردن müsahibə vermək; müsahibə almaq

مصاحبه گر [mosahebegər] müsahibəçi, intervü alan

مصادره [mosadere] müsadirə; ~ شدن müsadirə olunmaq; ~ کردن müsadirə etmək

مصادف [mosadef] təsadüf edən; eyni vaxta düşən, eyni vaxtda baş verən; ~ شدن təsadüf etmək, eyni vaxta düşmək, eyni vaxtda baş vermək

مصاف [məsaf] müharibə, döyüş; ~ دادن a) sıraya düzülmək; b) *bax* ~ کردن; ~ کردن müharibə etmək, döyüşmək, vuruşmaq

مصالح [məsaleh] lazımi vəsait; material (*tikinti üçün*); ~ ساختمانی tikinti materialı

مصالحه [mosalehe] barışıq, barışma, sülh, sülh bağlama; ~ کردن barışmaq, sülh bağlamaq

مصباح [mesbah] *c.* **مصابیح** [məsabih] çıraq, lampa, fənər

مصحح [mosəhheh] 1) korrektor; 2) redaktor

مصحف [mosəhhəf] səhv yazılmış; səhv oxunmuş

مصحف [moshəf] *c.* **مصاحف** [məsahef] 1) kitab, cild; məktublar toplusu; 2) Quran; ~ شریف müqəddəs kitab (*Quran*)

مصداق [mesdağ] 1) sübut, dəlil, təsdiq; 2) məna, məzmun; ~ پیدا کردن (یافتن) məna kəsb etmək

مصدر [məsdər] *c.* **مصادر** [məsader] 1) *qram.* məsdər; ~ اسم ismi məsdər, feli isim; ~ جعلی saxta məsdər; 2) əsas, bünövrə; mənbə; mənşə

مصدع [mosədde'] başağrısı verən, zəhlətökən, zəhmət verən, narahat edən, mane olan; ~ کسی شدن birinə başağrısı vermək, birinin zəhləsini tökmək, birini narahat etmək, birinə mane olmaq

مصر [moser(r)] israrlı, inadlı, təkid edən, sözünün üstündə duran; ~ بودن israr etmək, inad göstərmək, təkid etmək, sözünün üstündə durmaq

مصراع [mesra'] *c.* **مصاریع** [məsari'] *ədəb.* misra

مصرانه [moserrane] israrla, inadla, təkidlə

مصرح [mosərrəh] dəqiq; aydın, aşkar; ~ شدن dəqiqləşmək, müəyyən olunmaq; ~ کردن dəqiqləşdirmək, müəyyən etmək

مصرف [məsrəf] *c.* **مصارف** [məsaref] 1) məsrəf, xərc; 2) istifadə etmə, işlətmə; ~ شدن // به ~ رسیدن a) məsrəf etmək, xərcləmək; b) istifadə etmək

مصرف [mosref] israfçı, bədxərc

مصرفی [məsrəfi] işlənən, çoxişlənən; ~ کالاهای çoxişlənən mallar, istehlak malları

مصروف [məsruf] 1) xərclənmiş, sərf olunmuş; 2) istifadə olunmuş; ~ داشتن (کردن) xərcləmək, sərf etmək; ~ شدن xərclənmək, sərf olunmaq

مصطفی [mostəfa] 1) seçilmiş (*Məhəmməd peyğəmbərin* (*s.*) *epiteti*); 2) təmizlənmiş, pak, saf

مصطلح [mostələh // mostəleh] 1) ümumişlək (*söz, ifadə*); 2) *dilç.* frazeoloji; ~ عبارات frazeoloji birləşmələr; ~ شدن hamı tərəfindən işlədilmək

مصغر [mosəğğər] *qram.* kiçiltmə; ~ اسم kiçiltmə mənalı düzəltmə isim

مصلا [mosəlla] 1) ibadət yeri, cümə namazı üçün yer; 2) canamaz

مصلحت [məsləhət] *c.* **مصالح** [məsaleh] 1) məsləhət, məşvərət; 2) fayda, qazanc, xeyir; 3) xeyir iş; ~ دیدن (کردن) məsləhət görmək; ~ دانستن məsləhət bilmək

مصلحت آمیز [məsləhətamiz] 1) məqsədəuyğun, məsləhətli; 2) ağıllı, tədbirli, ehtiyatlı

مصلحت اندیشی [məsləhətəndişi] 1) *bax* مصلحت 1); 2) məsləhətləşmə; ehtiyatlanma, ehtiyatlılıq

مصلی [mosəlla] *bax* مصلا

مصمم [mosəmməm // mosəmmem] iradəli, əzmli, qətiyyətli, qərarından dönməyən; ~ شدن qərarından dönməmək

مصنف [mosənnəf] yazılmış, qələmə alınmış (*əsər*)

مصنف [mosənnef] 1) yazan, qələmə alan, yazıçı; 2) müəllif, bəstəkar

مصنوع [məsnu'] *c.* **مصنوعات** [məsnuat] 1) fabrikat (*hazır fabrik malı*), məhsul, istehsal olunmuş mal; 2) düzəldilmiş, qayırılmış

مصنوعی [məsnui] 1) süni; ~ ابریشم süni ipək; ~ موی parik; 2) düzəldilmiş, qayırılmış (*süni surətdə*); 3) sintetik

مصوب [mosəvvəb] təsdiq olunmuş, qəbul edilmiş, qərara alınmış, bəyənilmiş; ~ شدن təsdiq olunmaq, qəbul edilmək, qərara alınmaq; ~ کردن təsdiq etmək, qəbul etmək

مصوبات [mosəvvəbat] *t.* **مصوبه**

مصوبه [mosəvvəbe] 1) *bax* مصوب; 2) *c.* **مصوبات** [mosəvvəbat] qərar, təsdiq olunmuş qanun

مصور [mosəvvər] 1) çəkilmiş (*şəkil*), təsvir edilmiş, göstərilmiş; 2) şəkilli; ~ مجله şəkilli jurnal

مصون [məsun] 1) qorunmuş, saxlanılmış, müdafiə olunmuş; 2) toxunulmaz; ~ داشتن (کردن) qorumaq, saxlamaq; ~ شدن qorunmaq, saxlanılmaq

مصونیت [məsuniyyət] 1) toxunulmazlıq (*diplomatik*); ~ سیاسی siyasi (*diplomatik*) toxunulmazlıq; 2) *tib.* immunitet; ~ طبیعی بدن orqanizmin təbii immuniteti

مصیبت [mosibət] *c.* **مصایب** [məsayeb] müsibət, bədbəxtlik, bəla, fəlakət

مصیبت بار [mosibətbar] müsibətli, fəlakətli, facioli, ağır

مصیبت دیده [mosibətdide] *bax* مصیبت زده

مصیبت زده [mosibətzəde] müsibət görmüş, bəlalı, faciəli

مضارع [mozare'] 1) *qram.*: ~ اخباری qeyri-qəti gələcək zaman; ~ التزامی aorist (*indiki gələcək zaman*); 2) *ədəb.* müzare (*əruz vəzninin bəhrlərindən biri*)

مضاعف [mozaəf] 1) qoşa, qoşalaşmış; 2) ikiqat, iki dəfə artmış

مضاف [mozaf] 1) *qram.* təyin (*izafət birləşməsinin birinci tərəfi*); 2) əlavə, əlavə olunmuş, əlavə olunan; ~ بر این buna əlavə olaraq

مضافاً [mozafən] əlavə olaraq

مضافات [mozafat] 1) əlavələr; 2) ikinci dərəcəli şeylər

مضایقه [mozayeğe] 1) sıxıntı, çətinlik; 2) əsirgəmə; ~ داشتن (کردن) a) əsirgəmək; b) imtina etmək; çəkinmək

مضبوط [məzbut] 1) zəbt olunmuş, tutulmuş, müsadirə olunmuş; 2) bərk, möhkəm; 3) qeyd olunmuş (*sənəd*); 4) həkk olunmuş (*yaddaşda*); ~ داشتن yaddaşda saxlamaq; ~ کردن bərkitmək, möhkəmlətmək

مضحک [mozhek] 1) gülməli; 2) əyləncəli, məzəli; 3) şən, komik, zarafatcıl

مضحکه [məzhəke] 1) əyləncə, zarafat; 2) gülməli hadisə; gülməli səhnə əsəri, komediya

مضر [mozer(r)] zərərli, ziyanlı; ~ برای کبد داروی qaraciyərə zərəri olan dərman

مضراب [mezrab] mizrab, mediator; ~ زدن تک yersiz replika atmaq

مضرت [məzərrət] *c.* مضرات [məzərrat] // مضار [məzar(r)] zərər, ziyan; ~ رساندن // ~ وارد کردن zərər vurmaq, ziyan vurmaq

مضرس [mozərrəs] 1) dişli, dişdiş; ~ چرخ dişli çarx; 2) əyri-üyrü, dolanbac; ~ راه əyri-üyrü yol

مضروب [məzrub] 1) *riyaz.* vurulan (*ədəd*); 2) döyülmüş (*adam*); 3) kəsilmiş (*pul*)

مضطر [moztər(r)] 1) sıxılan, çətinlik çəkən, çıxılmaz vəziyyətdə olan; 2) əlacsız, bədbəxt; ~ ساختن (کردن) çətin vəziyyətə salmaq, əlacsız etmək; ~ شدن çətin vəziyyətə düşmək, əlacsız olmaq

مضطرب [moztəreb] iztirablı, həyəcanlı; narahat; pərt, dilxor; ~ شدن həyəcanlanmaq; narahat olmaq; ~ کردن həyəcanlandırmaq; narahat etmək

مضعف [moz'ef] zəifləmiş, qüvvədən düşmüş (*adam*)

مضمحل [mozməhel(l)] 1) məhv edilmiş, yox edilmiş, ləğv edilmiş; 2) yox olmuş, dövrünü başa vurmuş, aradan çıxmış; ~ شدن məhv olmaq, yox olmaq, ləğv olmaq; ~ کردن məhv etmək, ləğv etmək

مضمضه [məzməze] qarqara, ağızı yaxalama; ~ کردن qarqara etmək, ağızı yaxalamaq

مضمون [məzmun] *c.* مضامین [məzamin] 1) məzmun; 2) məna, fikir; ◊ ~ کوک کردن lətifə düzəltmək, gülməli əhvalatlar uydurmaq

مضیقه [məziğe] *c.* مضایق [məzayeğ] sıxıntı, çətinlik, çətin vəziyyət;

~ دچار شدن çətinliyə dümək; ~ در دچار شدن *bax* افتادن

مطابق [motabeğ] 1) bənzər, oxşar; 2) uyğun gələn, düz gələn, müvafiq olan; ~ بودن a) bənzəmək, oxşamaq; b) uyğun olmaq, düz gəlmək, müvafiq olmaq

مطابقت [motabeğət] 1) bənzəmə, bənzəyiş, oxşarlıq; 2) uyğunluq, uzlaşma; ~ دادن uyğunlaşdırmaq; ~ داشتن (کردن) uyğunlaşmaq

مطابقه [motabeğe] 1) *bax* مطابقت; 2) *qram.* uzlaşma; ~ خبر با مبتدا xəbərlə mübtədanın uzlaşması; ~ عدم uzlaşmama

مطالب [motaleb] *t.* مطلب

مطالبه [motalebe] *c.* مطالبات [motalebat] tələb, tələb etmə; ~ بدهی borcu tələb etmə; ~ کردن tələb etmək

مطالعه [motalee] *c.* مطالعات [motaleat] 1) mütaliə, oxuma; 2) tədqiq, öyrənmə; ~ کردن a) mütaliə etmək, oxumaq (*kitab*); b) tədqiq etmək, öyrənmək

مطایبه [motayebe] zarafat; ~ به zarafatla; ~ کردن zarafat etmək

مطب [mətəb(b)] həkim kabineti, xüsusi klinika

مطبخ [mətbəx] *c.* مطابخ [mətabix] mətbəx

مطبعه [mətbəe] *c.* مطابع [mətabe'] mətbəə

مطبوخ [mətbux] 1) bişirilmiş (*xörək*); 2) qaynadılıb hazırlanmış (*dərman*)

مطبوع [mətbu'] I xoş, xoşagələn, ürəyəyatımlı; ləzzətli; məlahətli; ~ بوی xoş iy; ~ غذای ləzzətli xörək

مطبوع [mətbu'] II çap olunmuş, nəşr olunmuş

مطبوعات [mətbuat] 1) mətbuat; 2) çap olunmuş materiallar, nəşrlər (*kitab, qəzet, jurnal*)

مطرب [motreb] musiqiçi, çalğıçı; xanəndə, müğənni

مطرح [mətrəh] müzakirə olunan, müzakirəyə qoyulmuş; ~ شدن müzakirə olunmaq, müzakirəyə qoyulmaq; ~ کردن müzakirə etmək, müzakirəyə qoymaq

مطروح [mətruh] 1) müzakirə olunmuş; 2) atılmış, tullanmış

مطرود [mətrud] qovulmuş, sürgün edilmiş; ~ شدن qovulmaq, sürgün olunmaq; ~ کردن qovmaq, sürgün etmək

مطعون [mət'un] danlanılmış, qınanılmış; pislənilmiş, məzəmmət edilmiş, töhmətlənmiş

مطلب [mətləb] *c.* مطالب [mətaleb] 1) mətləb, məsələ, problem; 2) mövzu, predmet; 3) arzu, istək, məqsəd

مطلع [mətlə'] *c.* مطالع [mətale'] 1) günəş çıxan yer; 2) *ədəb.* mətlə (*qəzəlin, qəsidənin birinci beyti*)

مطلع [mottəle'] xəbərdar olan, bilən, məlumatı olan; ~ بودن bilmək, xəbərdar olmaq; ~ کردن (ساختن) bildirmək, xəbərdar etmək

مطلق [motləğ] 1) mütləq; ~ اکثریت mütləq əksəriyyət, böyük əksəriyyət; 2) tam, dolğun, kamil; ~ تاریکی tam qaranlıq; 3) *qram.*: ~ ماضی şühudi keçmiş; ~ صفت əsli sifət

مطلقاً [motləğən] mütləq, hökmən; şübhəsiz, sözsüz

مطلق گرا [motləğgəra] totalitar

مطلق گرایی [motləğgərayi] totalitarizm

مطلقه [mətəlləğe] boşanmış (*qadın*); کردن ~ boşamaq

مطلوب [mətlub] 1) arzuolunan, istənilən; xoşagələn; 2) tələb olunan; بر ~ وجه arzuya görə, istəyə görə

مطلوبیت [mətlubiyyət] arzu olunma, istənilmə

مطمئن [motməen] 1) etibarlı, sadiq, sədaqətli, mötəbər; 2) inanılmış, əmin; بودن ~ inanmaq, əmin olmaq; (کردن) ساختن ~ inandırmaq, əmin etmək

مطهر [motəhhər] 1) təmiz, pak; 2) müqəddəs, mübarək

مطهره [motəhhəre] *bax* مطهر (*qadın*)

مطیع [moti'] 1) müti, itaətkar, sözəbaxan; 2) dinc, sakit; شدن ~ itaət etmək; کردن ~ tabe etmək

مظاهر [məzaher] *t.* مظهر

مظفر [mozəffər] müzəffər, qalib, qələbə çalmış; شدن ~ qalib gəlmək, qələbə çalmaq

مظلمه [məzləme] *c.* مظالم [məzalem] zülm, təzyiq; ədalətsizlik, haqsızlıq

مظلوم [məzlum] 1) məzlum, zülmə məruz qalmış; 2) yazıq; 3) sakit, mülayim, yumşaq

مظلومانه [məzlumane] 1) məzlumcasına, yazıqcasına; 2) *bax* مظلوم **3)**

مظلومیت [məzlumiyyət] 1) məzlumluq; 2) yazıqlıq; 3) dinclik, sakitlik

مظنون [məznun] şübhəli, şübhə edən; شدن ~ şübhələnmək

مظنه [məzənne] 1) məzənnə, qiymət, kurs; 2) bazar qiyməti; روز ~ günün məzənnəsi; valyuta məzənnəsi

مظهر [məzhər] *c.* مظاهر [məzaher] 1) simvol, rəmz; مبارزه ~ mübarizə simvolu; 2) təcəssüm, təmsil

معاد [məad] 1) dönüş yeri, qayıdış yeri; 2) *din.* axirət dünyası; روز ~ məhşər günü

معادل [moadel] 1) bərabər, tən, ekvivalent; 2) eyni, oxşar

معادله [moadele] 1) *riyaz.* tənlik; 2) bərabərləşdirmə

معارف [məaref] 1) *t.* معرفت; 2) maarif, bilik, elm; 3) məşhur şəxsiyyətlər; 4) elm adamları

معارف پرور [məarefpərvər] maarifpərvər

معارف پژوه [məarefpəjuh] *bax* معارف پرور

معارفه [moarefe] tanışlıq, bir-birini tanıma; مراسم ~ tanışlıq mərasimi, təqdimetmə mərasimi

معاریف [məarif] *bax* معارف **3)**

معاش [məaş] 1) yaşayış, yaşayış vasitəsi; امرار ~ yaşayış, güzəran; 2) maaş, əməkhaqqı

معاشر [moaşer] 1) adamayovuşan, ünsiyyətcil, mehriban; 2) yoldaş, həmsöhbət

معاشرت [moaşerət] ünsiyyət, əlaqə; həmsöhbət olma; dostluq; (کردن) داشتن ~ ünsiyyətdə olmaq, ünsiyyət saxlamaq; həmsöhbət olmaq

معاشرتی [moaşerəti] *bax* معاشر **1)**

معاشقه [moaşeğe] eşqbazlıq; کردن ~ (داشتن) eşqbazlıq etmək

معاصر [moaser] müasir, çağdaş, həməsr, zamandaş; دنیای ~ çağdaş dünya

معاصی [məasi] *t.* معصیت

معاف [moaf] azad olunmuş (*vergidən, xidmətdən*); از گمرک ~ gömrüksüz, gömrük vergisi olmayan;

شدن ~ azad olunmaq (*vergidən, xidmətdən*); (داشتن) کردن ~ azad etmək (*vergidən, xidmətdən*)

معافیت [moafiy(y)ət] azad olma (*vergidən, xidmətdən*); از سربازی ~ hərbi qulluqdan azad olma

معالج [moalec] müalicə edən; پزشک ~ müalicə edən həkim

معالجه [moalece] *c.* معالجات [moalecat] müalicə; شدن ~ müalicə olunmaq; کردن ~ müalicə etmək

معامله [moamele] *c.* معاملات [moamelat] 1) alğı-satqı, əməliyyat (*bank*); 2) ticarət, alış-veriş; کردن ~ alış-veriş etmək, ticarət etmək

معانی [məani] *t.* معنا // معنی; علم ~ natiqlik sənəti, ritorika; üslubiyyat

معاوضه [moaveze] dəyişdirmə, əvəz etmə; شدن ~ dəyişdirilmək, əvəz edilmək; کردن ~ dəyişdirmək, əvəz etmək

معاون [moaven] müavin, köməkçi

معاونت [moavenət] 1) müavinət, kömək, yardım; 2) müavinlik və ya köməkçi vəzifəsi

معاهده [moahede] razılaşma; saziş, müqavilə; بستن ~ razılaşmaq; saziş bağlamaq, müqavilə bağlamaq

معاینه [moayene] müayinə, yoxlama; پزشکی ~ tibbi müayinə; شدن ~ müayinə olunmaq, yoxlanılmaq; کردن ~ müayinə etmək, yoxlamaq

معبد [mə'bəd] *c.* معابد [məabed] 1) ibadət yeri; müqəddəs yer; 2) məbəd, məscid

معبر [mə'bər] *c.* معابر [məaber] keçid, keçid yolu

معبود [mə'bud] 1) ibadət olunan; Allah, Tanrı; 2) büt

معتاد [mo'tad] 1) adət etmiş, öyrəşmiş, alışmış; 2) narkoman; شدن ~ adət etmək, alışmaq; کردن ~ öyrətmək, alışdırmaq

معتبر [mo'təbər] mötəbər, etibarlı, inanılmış, nüfuzlu, hörmətli

معتدل [mo'tədel] 1) mötədil, mülayim, orta; آب و هوای (اقلیم) ~ mülayim, mötədil iqlim; 2) liberal; سیاست ~ liberal siyasət

معتذر [mo'təzer] üzr istəyən; شدن ~ üzr istəmək

معترض [mo'tərez] 1) etiraz edən; 2) əleyhinə danışaq, tənqidçi, opponent; شدن ~ a) etiraf etmək; b) əleyhinə danışmaq, tənqid etmək

معترف [mo'tərəf] etiraf edən, boynuna alan; شدن ~ etiraf etmək

معتقد [mo'təğed] etiqad edən, inanan; بودن ~ inanmaq, etiqad etmək; شدن ~ inandırılmaq; qane edilmək

معتمد [mo'təmed] 1) sədaqətli, etibarlı, inanılmış; 2) nüfuzlu, hörmətli

معجزه [mo'ceze] *c.* معجزات [mo'cezat] möcüzə; کردن ~ möcüzə göstərmək

معجزه آسا [mo'cezeasa] möcüzəli, möcüzə kimi, qəribə

معجون [mə'cun] *c.* معاجین [məacin] 1) eliksir, məcun (*bal qarışığı ilə düzələn dərman*); 2) qarışıq; 3) *dan.* dadlı yemək

معدل [moəddel] 1) orta bal, orta qiymət (*təhsil müəssisələrində şagirdin və ya tələbənin*); 2) bərabərləşdirən, tənzimləyən

معدن [mə'dən] *c.* معادن [məaden] mədən; نفت ~ neft mədəni

معدنی [mə'dəni] 1) mineral; ~ آب mineral su; 2) *bax* معدن

معدود [mə'dud] az, məhdud, əhəmiyyətsiz

معدوم [mə'dum] 1) yox olmuş, məhv olmuş, ölmüş; 2) edam olunmuş; شدن ~ a) yox olmaq; b) edam olunmaq

معده [me'de] mədə; ~ زخم mədə xorası

معذب [moəzzəb] əzab içində olan, əziyyət çəkən; əzab çəkmiş, üzgün, əldən düşmüş; شدن ~ əzab çəkmək; کردن ~ əzab vermək

معذرت [mə'zerət] üzr, üzrxahlıq; ~ خواستن üzr istəmək, üzrxahlıq etmək

معذور [mə'zur] üzrlü; بودن ~ üzrlü olmaq; شمردن ~ üzrlü saymaq

معراج [me'rac] *din.* merac; göyə qalxma, göyə ucalma

معرض [mə'rəz] sərgi yeri, sərgi; در ~ نمایش قرار گرفتن nümayiş etdirilmək; nümayiş olunmaq; به ~ نمایش قرار دادن nümayiş etdirmək; در ~ خطر بودن ◊ təhlükə qarşısında olmaq, təhlükəyə məruz qalmaq

معرف [moərrəf] tanış edən, təqdim edən; tərifləyən

معرفت [mə'refət] *c.* معارف [məaref] 1) dərk etmə, bilmə; 2) mərifət, ədəb; qanacaq; 3) bilik, elm; ~ اهل alimlər, müdriklər

معرفی [moərrefi] 1) təqdim etmə, tanış etmə, göstərmə; 2) zəmanət vermə; شدن ~ təqdim olunmaq; ~ کردن təqdim etmək

معرفی نامه [moərrefiname] zəmanət məktubu, xasiyyətnamə

معرکه [mə'rəke] *c.* معارک [məarek] 1) qələbəlik, izdiham, hay-küylü yer; 2) dava meydanı; 3) küçə artistlərinin tamaşa göstərdikləri yer

معروض [mə'ruz] məlumat verilmiş, bildirilmiş; داشتن ~ məlumat vermək, bildirmək (*yuxarı orqanlara*)

معروف [mə'ruf] məşhur, tanınmış; ~ نویسنده məşhur yazıçı; شدن ~ məşhur olmaq, tanınmaq; ◊ است که ~ məlumdur ki; deyirlər ki

معروفیت [mə'rufiyyət] məşhurluq, şöhrət

معزز [moəzzez] əziz, sevimli, istəkli

معزول [mə'zul] vəzifədən azad edilmiş, işdən çıxarılmış; شدن ~ vəzifədən azad olunmaq, işdən çıxarılmaq; کردن (داشتن) ~ vəzifədən azad etmək, işdən çıxarmaq

معشوق [mə'şuğ] sevgili, aşiq, vurğun (*kişi*)

معشوقه [mə'şuğe] *bax* معشوق (*qadın*)

معشوقه بازی [mə'şuğebazi] arvadbazlıq

معصوم [mə'sum] məsum, pak, təmiz, günahsız

معصومیت [mə'sumiyyət] paklıq, təmizlik, günahsızlıq

معصیت [mə'siyyət] *c.* معاصی [məasi] günah, təqsir, suç

معطر [moəttər] ətirli, iyli, xoş qoxulu

معطل [moəttəl] yubadılmış, ləngidilmiş, gecikdirilmiş; شدن ~ yubanmaq, gecikmək; کردن ~ yubatmaq, gecikdirmək; ماندن ~ məəttəl qalmaq, mat qalmaq

معظم [moəzzəm] çox hörmətli, çox yüksək; داشتن ~ hörmət etmək, ehtiram göstərmək

معقول [mə'ğul] 1) ağıllı; 2) ədəbli, nəzakətli; 3) məntiqi, ağlasığan, məqsədəuyğun

معکوس [mə'kus] 1) əks olunmuş, əks etdirilmiş (*səs, işıq*); 2) əks, zidd; شدن ~ a) əks olunmaq; b) devrilmək, çevrilmək; کردن ~ a) əks etdirmək; b) devirmək, yıxmaq

معلق [moəlləğ] 1) asılmış; asma; ~ پل asma körpü; 2) naməlum, müəyyən olunmamış; 3) müvəqqəti azad edilmiş (*işdən*); زدن ~ mayallaq vurmaq, başı üstə çevrilmək; شدن ~ a) asılmış vəziyyətdə qalmaq; b) naməlum qalmaq; c) müvəqqəti azad olunmaq (*işdən*); کردن ~ naməlum saxlamaq; ç) müvəqqəti azad etmək (*işdən*)

معلم [moəllem] müəllim, pedaqoq

معلمی [moəllemi] 1) müəllimlik peşəsi; 2) dərs demə; کردن ~ müəllimlik etmək; dərs demək

معلول [mə'lul] I 1) əlil, şikəst; 2) xəstə

معلول [mə'lul] II nəticə

معلولیت [mə'luliyyət] 1) əlillik, şikəstlik; 2) xəstəlik

معلوم [mə'lum] məlum, aydın, aşkar; از قرار ~ məlum olduğu kimi, aydındır [ki]; شدن ~ aydınlaşmaq, aşkar olmaq, məlum olmaq; کردن ~ aydınlaşdırmaq, aşkar etmək, müəyyən etmək

معما [moəmma] 1) müəmma; tapmaca; 2) anlaşılmaz, qəribə, müəmmalı

معمار [me'mar] memar, arxitektor

معماری [me'mari] memarlıq

معمایی [moəmmayi] müəmmalı, qəribə, sirli

معمم [moəmməm] əmmaməli, əmmamə qoymuş

معمور [mə'mur] 1) abad, abadlaşmış; 2) əhali yaşayan yer; شدن ~ a) abadlaşmaq; b) məskunlaşdırılmaq, köçürülmək; yerləşdirilmək; کردن ~ a) abadlaşdırmaq; b) məskunlaşdırmaq, köçürmək, yerləşdirmək

معمول [mə'mul] adi, çox işlənən, ümumişlək; ~ مطابق adətən; داشتن ~ a) işlətmək, həyata keçirmək; b) ümumişlək etmək; شدن ~ ümumişlək olmaq; کردن ~ *bax* داشتن ~ **b)**

معنا [mə'na] *bax* معنی

معنبر [moənbər] ənbər qoxulu, ənbər kimi ətirli

معنوی [mə'nəvi] 1) mənəvi; əxlaqi; 2) əqli, fikri, zehni

معنویات [mə'nəviyyat] 1) mənəvi ruh, mənəvi hal, mənəvi keyfiyyət; 2) mənəvi dəyərlər

معنی [mə'ni // mə'na] *c.* معانی [məani] məna; məzmun; mahiyyət; ~ حقیقی həqiqi məna; ~ لغوی hərfi məna; ~ گرامری qrammatik məna; ~ مجازی məcazi məna; کردن ~ izah etmək, şərh etmək

معنی دار [mə'nidar] mənalı, məzmunlu; ifadəli

معنی شناسی [mə'naşenasi] *dilç.* semasiologiya

معوج [mo'vəc(c) //moəvvəc] əyri; əyilmiş; کج و ~ əyri-üyrü; شدن ~ əyilmək, əyri olmaq; کردن ~ əymək

معوق [moəvvəğ] 1) gecikdirilmiş, yubadılmış; təxirə salınmış, başqa vaxta keçirilmiş; 2) vaxtı keçirilmiş;

müddəti keçmiş; vaxtında ödənilməmiş; ~ مالیات vaxtı keçirilmiş vergilər; گذاردن ~ gecikdirmək; təxirə salmaq; ماندن ~ a) gecikdirilmək, təxirə salınmaq; b) vaxtı keçirilmək; vaxtında ödənilməmək

معهذا [mə'haza] buna baxmayaraq, bununla belə

معیار [me'yar] *c.* معاير [məayer] meyar, ölçü; norma

معیت [məiyyət] müşayiət, yanınca getmə; کسی رفتن ~ به birgə getmək; müşayiət etmək, yanınca getmək

معیشت [məişət] məişət, yaşayış, güzəran, dolanacaq; ~ وسایل yaşayış vasitələri, yaşayış üçün lazım olan hər şey

معین [məəyyən] müəyyən, müəyyən edilmiş; təyin edilmiş; در موارد ~ müəyyən hallarda; شدن ~ müəyyənləşmək; təyin olunmaq; کردن ~ müəyyən etmək; təyin etmək

معین [moin] 1) köməkçi, kömək edən, yardımçı; 2) müavin; 3) *gram.* köməkçi, ikincidərəcəli; ~ فعل köməkçi fel

معیوب [mə'yub] 1) eyibli, nöqsanlı; 2) şikəst, əlil

مغ [moğ] *c.* مغان [moğan] 1) atəşpərəst, kahin; rahib; 2) atəşpərəstlərin başçısı; 3) meyxana sahibi

مغار [məğar] iskənə

مغاره [məğare] mağara

مغازه [məğaze] mağaza, dükan

مغازه دار [məğazedar] mağazaçı, mağaza sahibi

مغان [moğan] *t.* مغ; ~دیر atəşpərəstlərin məbədi

